**Bəxtiyar SADIQOV**

# Dünyanın tanıdığı İLHAM ƏLİYEV

*Azərbaycan Respublikasının Prezidenti*
*cənab İlham Əliyevin*
*dövlət başçısı seçilməsinin*
**20** *illiyi*

Bakı—2023

Redaktor:
**Afət SADIQOVA,**
*Filologiya üzrə fəlsəfə doktoru*

**Bəxtiyar Sadıqov, “Dünyanın tanıdığı İLHAM ƏLİYEV”.** Bakı, “Təhsil” nəşriyyaiı, 536 səhifə.

*Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru, respublikanın Əməkdar jurnalisti, "Şöhrət" ordenli Bəxtiyar Sadıqovun “Dünyanın tanıdığı İLHAM ƏLİYEV” kitabında konkret faktlar və misallar əsasında Azərbaycan Prezidenti İlham Əliyevin dövlətə rəhbərliyinin 20 ili ərzində ölkəmiz və dünya üçün gördüyü möhtəşəm işlərdən bəhs olunur.*

*Kitab həm də ötən 20 ildə ölkəmizdə aparılan inkişaf və quruculuq strategiyasının, həmçinin Azərbaycan Ordusunun Müzəffər Komandanı, Prezident İlham Əliyevin Böyük Qələbəyə aparan siyasətinin yığcam salnaməsidir.*

© “Azərbaycan” / 2023
© Bəxtiyar Sadıqov / 2023

# MÜƏLLİFDƏN

*Bu gün bütün dünya İlham Əliyevi tanıyır və sevir.*

*Ona görə yox ki, o, bir müddət BMT-nin Təhlükəsizlik Şurasının iclaslarına rəhbərlik etdi, bu ali tribunadan çıxış edərək dünyanı düşündürən, narahat edən məsələləri gündəmə gətirdi, BMT-də islahatların keçirilməsinin vacibliyini söylədi.*

*Ona görə yox ki, Qoşulmama Hərəkatına rəhbərlik edərkən bu quruma yeni nəfəs, yeni can verdi, dünyanın ən ağır və ağrılı günlərində inkişaf etməkdə olan ölkələrin problemlərini yada saldı, "vaksin millətçiliyi"ni ifşa etdi, imkansız ölkələrə yardım göstərilməsinə nail oldu.*

*Ona görə yox ki, Avropanın mavi qazla, "yaşıl enerji" ilə təminatına mühüm töhfələr verir, "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərini işə salmaqla dünya ölkələrinin uzaq yolunu yaxın edir, hamıya və hər kəsə fayda gətirir.*

*Ona görə yox ki, sülhsevər insandır, Azərbaycanı qalib dövlətə çevirsə də, yenə sülh təklifi ilə çıxış edir, düşmənə şans verir.*

*Ona görə yox ki, Türk Dövlətləri Təşkilatının yaranmasının və uğurlu fəaliyyətə başlamasının təşəbbüsçüsü və fəal iştirakçılarından biri olub!*

*Ona görə yox ki, I Avropa Oyunlarını ən yüksək standartlara uyğun keçirərək, Azərbaycanı beynəlxalq yarışların ən yaxşı təşkil olunduğu məkana çevirməklə dünyaya həm də idman dövləti kimi tanıdıb!*

*Dünya İlham Əliyevi həm də səmimiliyinə, humanistliyinə, xeyirxahlığına, ədalətinə və obyektivliyinə, insanlara sülh, firavanlıq, rahatlıq bəxşetmə məharətinə görə tanıyır və sevir!*

*İlham Əliyevi müasir dünya liderləri sırasına yüksəldən, tanıdan, hamının hörmətini qazandıran onun xeyirxah əməlləri, uzaqgörən siyasəti, bəşəriyyətə düzgün yol göstərmək bacarığıdır.*

*Azərbaycan xalqı isə İlham Əliyevi hamıdan çox və hamıdan yaxşı tanıdığına, gördüyü işləri, ölkə vətəndaşlarına bəxş etdiyi azad, firavan və sevincli həyatı yaşadığına, qalib xalqa çevrildiyinə görə sevir və dərin ehtiram bəsləyir.*

*Bu kitabda konkret faktlar və misallar əsasında Azərbaycan Prezidenti İlham Əliyevin dövlətə rəhbərliyinin 20 ili ərzində ölkəmiz və dünya üçün gördüyü möhtəşəm işlərdən bəhs olunur.*

# I Fəsil

# *Müzəffər Komandan*

# Qüdrətin nümayişi

27 sentyabr 2020-ci ildə erməni ordusunun Tovuz istiqamətində növbəti hərbi təxribat hücumu Azərbaycanın səbir kasasını daşdırdı!

Ali Baş Komandan cənab İlham Əliyev qudurmuş düşməni yerində oturtmaq, işğal altındakı ərazilərimizi geri qaytarmaq üçün "İrəli" əmrini verdi!

Beləliklə, Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda II Qarabağ müharibəsi, müqəddəs Vətən müharibəsi başladı!

Azərbaycan dövləti, Azərbaycan xalqı, Azərbaycan Ordusu məqsədə çatmaqdan ötrü bütün gücünü və imkanlarını ortaya qoydu, dərhal səfərbər olunaraq qüdrətli, nəhənğ yumruğa çevrildi!

Azərbaycan Prezidenti İlham Əliyevin həmin gün axşam televiziya ilə xalqa müraciətini hamı bir nəfər kimi diqqətlə, nəfəs dərmədən dinlədi, razılıq və məmnunluqla qarşıladı:

"Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir", - söyləyirdi dövlət başçısı.

İlham Əliyev xalqa müraciətini əminlik və nikbinliklə başa çatdırdı:

"Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Azərbaycan Ordusunun möhtəşəm hərbi əməliyyatları, 44 günlük zəfər müharibəsində Müzəffər Ali Baş Komandanın irəlicədən söylədikləri bütünlüklə həyata keçdi!

***

Vətən müharibəsi, ilk növbədə, zəka, uzaqgörənlik, müdriklik, qətiyyət və möhkəm iradə müharibəsi idi.

Döyüşən ordulara rəhbərlik edənlərin bu sahədəki fərqi özünü hərbi əməliyyatların gedişində, orduların hazırlıq səviyyəsində, seçilən taktika və strategiyada, müharibəyə hazırlıq və döyüşlərin davam etdiyi müddətdə yeridilən daxili və xarici siyasət, atılan diplomatik addımlar - bütövlükdə müharibənin nəticəsində özünü parlaq şəkildə göstərdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsinə hazırlıq, müharibənin aparılması və düşmənin təslim aktını imzalaması ilə başa çatması dövründəki gördüyü işlər ən yüksək tərifə layiq olmaqla bahəm, üstəlik ən mükəmməl nümunə və örnəkdir!

Hərb, diplomatiya və informasiya müharibəsi cəbhəsinin qalibi və qəhrəmanı sayılan cənab İlham Əliyev eyni zamanda Azərbaycan Ordusunun, diplomatiyasının, uzaqgörən siyasətinin qüdrətini də nümayiş etdirdi!

❖❖❖

İqtisadi imkan, iqtisadi potensial, iqtisadi cəhətdən müstəqillik müstəqil siyasət yürütməyə, dünya birliyində hörmət və nüfuzlu yer qazanmağa, nəhəng layihələri reallaşdırmağa, yaxın və uzaq hədəfləri müəyyənləşdirərək ona uğurla çatmağa münbit şərait yaradır!

Azərbaycanın kifayət qədər karbohidrogen ehtiyatları, çox əlverişli geosiyasi mövqeyi vardır!

Lakin dünya bazarına çıxarılmadan bu sərvətlərdən bəhrələnmək mümkün deyil!

Əlverişli coğrafi mövqedən istifadəni bacarmasan, onun da heç bir əhəmiyyəti olmur!

Həm də sərvət və təbii üstünlüklər müəyyən problemlərə də səbəb olur...

Ondan pay almaq istəyən güclülər müxtəlif təzyiq və təsir vasitələrini işə salırlar...

Bütün bunları çox gözəl bilən və önləməyi bacaran cənab İlham Əliyev həm də ölçülü-biçili addımlar ustasıdır!

Odur ki, İlham Əliyev qazandığı bütün uğurları son məqsədə - torpaqların işğaldan azad edilməsinə yönləndirməyi məharətlə bacardı!

Milli maraqların əsas götürüldüyü, bərabərhüquqlu, iştirakçı tərəflərin də mənafeyinin təmin olunduğu əməkdaşlıq Azərbaycanın nəzərdə tutduğu bütün hədəflərə çatmasına şərait yaratdı.

Transmilli layihələr reallaşdırıldı, “Şərq-Qərb”, “Şimal-Cənub” nəqliyyat dəhlizləri işə salındı, "Cənub qaz dəhlizi" ölkəmizi Avropaya daha sıx bağladı...

Bu addımların hər birində Azərbaycan həm vəsait, həm də dost qazandı!

Bu vəsaitlər hesabına iqtisadi cəhətdən güclənir, güclü ordu qurur, ən müasir silahlar əldə edirdi.

Yaranan dostluq əlaqələri hesabına isə haqq işini dəstəkləyənlərin sayı artırdı.

Vətən müharibəsi həm də Azərbaycanın iqtisadi qüdrətinin nümayişi oldu!

❖❖❖

Prezident İlham Əliyev düşmənin xoşluqla sülhə gəlməyəcəyini, məsələnin danışıqlar yolu ilə həll edilməyəcəyini çox gözəl bilirdi.

Odur ki, yeni, müasir, güclü ordu quruculuğuna çox böyük diqqət yetirirdi!

Həm də hərbi əməliyyatlara hazırlıq hər gün, son dərəcə məxfi şəkildə, sülh danışıqları ilə paralel aparılırdı.

* Ən müasir silahlar alınır;

* Təkcə Azərbaycanda yox, dünyanın tanınmış ali hərbi məktəblərində azərbaycanlı zabit kadrları hazırlanırdı;

* Xüsusi təyinatlılar yetişdirilirdi;

* Sistemli şəkildə təlimlər keçirilir, döyüş şəraitində ordunun hərəkəti, komanda heyətinin fəaliyyəti öyrədilir, təkmilləşdirilirdi;

* Azərbaycan gəncinin yüksək vətənpərvərlik hissləri hərbi vərdişlərlə üzvi şəkildə əlaqələndirilirdi.

NƏTİCƏDƏ...

Heç bir hərbi təhsili olmayan, peşəkar zabit kimi orduda xidmət etməyən Müzəffər Ali Baş Komandan İlham Əliyev elə bir müharibə apardı ki, indi dünyanın bütün hərbçiləri, güclü orduya malik dövlətləri ondan öyrənir, onun strategiya və taktikasının tətbiqi üçün öz ordularında islahatlar aparırlar!

Qüdrətli Sərkərdənin qüdrətli ordusu artıq bütün dünyaya nümunədir!

Azərbaycan Prezidenti cənab İlham Əliyev ölkəyə rəhbərlik etdiyi dövrdə daim sülh danışıqlarına sadiq qalıb, Qarabağ probleminin danışıqlar yolu ilə həllinə çalışıb!

Ancaq ATƏT-in Minsk qrupunun hər uğursuz cəhdindən sonra (uğursuzluğun isə sayı-hesabı bilinmir) açıq şəkildə bəyan edib:

* Azərbaycan bir qarış ərazisini belə heç kəsə güzəştə getməyəcək!

* Azərbaycan öz ərazisində ikinci erməni dövləti yaradılmasına yol verməyəcək!

Ali Baş Komandan həm də xəbərdarlıq edib:

* Məsələ sülh yolu ilə həllini tapmasa, digər vasitələrlə torpaqlar qaytarılacaq!

Münaqişəni həll etməli olanlar, bu barədə üzərlərinə öhdəlik götürənlər isə xəbərdarlıqlara məhəl qoymadılar!

Bəlkə də, inanmadılar ki, Azərbaycan hərbi əməliyyatlara başlaya bilər!

Ancaq Azərbaycan xalqı öz rəhbərini daha yaxşı tanıyır!

Həm də bilir ki, İlham Əliyevin sözü ilə əməli birdir!

Dedisə, hökmən edəcəkdir!

Budur, Müzəffər Ali Baş Komandan İlham Əliyev dövlətinin qüdrətini və imkanlarını ortaya qoydu!

44 gün ərzində dediyini etdi!

Həm də göstərdi ki, onun xəbərdarlıqlarını diqqətdən kənar qoymaq olmaz!

Sonradan peşmançılıq çəkənlər onu eşitməyənlər olur!

Vətən müharibəsi döyüşlərində Azərbaycan Ordusunun vuran əli I Qarabağ müharibəsindən sonra doğulan igid gənclərimiz oldu!

Tovuz hadisələri zamanı bu vətənsevər gənclər Bakının meydanlarına axışaraq torpaqları işğaldan azad etməyə hazır olduqlarını və orduya yazılmaq istədiklərini bəyan etdilər!

Müharibə dövründə belə gənclərin, xüsusi təyinatlılarımızın adı gələndə erməni əsgəri başını soxmağa kol axtarırdı!

Müstəqillik dövründə böyüyən, idman yarışlarında daim Azərbaycan bayrağını yüksəklərə qaldıran, yüksək təhsili, intellekti, torpaq həsrəti və vətən sevgisi ilə fərqlənən gənclər bu gün də hər birimizin fəxridir!

Vətənpərvər Azərbaycan gənci özünü döyüş meydanında, mənfur düşmənə qarşı mübarizədə də ən yaxşı cəhətdən göstərdi!

Bütün döyüş tapşırıqlarını cəsarətlə, igidliklə yerinə yetirdi!

Əsl igidlik, şücaət və qəhrəmanlıq nümayiş etdirdi!

Şuşa kimi qala şəhərini sıldırım qayalara dırmaşmaqla, çətin cığırlardan keçməklə, yüngül silahlarla az qala əliyalın aldı!

Azərbaycan gəncinin nəyə qadir olduğunu, əsl vətən sevgisinin necə olduğunu bütün dünya gördü!

❖❖❖

Azərbaycan dövlətinin və ordusunun gücünü qat-qat artıran həm də xalqımızın milli birliyi oldu!

Elə bir azərbaycanlı yoxdur ki, ölkəmizin ərazi bütövlüyünün bərpasını istəməsin və buna açıq dəstəyini ifadə etməsin!

I Qarabağ müharibəsində olduğu kimi, Vətən müharibəsində də milliyyətindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı mənfur düşmənlə mübarizəyə qalxdı!

Bu gün müharibə qəhrəmanları arasında bütün millətlərin nümayəndələri vardır!

Azərbaycanda yaşayan hər bir millətin nümayəndəsi döyüşlərdə iğidliklə iştirak edib, onların bir qismi şəhidliyə yüksəlib və xalqımızın qəlbində özünə əbədi yer tutub!

Hərbi əməliyyatların başlandığı ilk anlardan Azərbaycanda iqtidar-müxalifət mövqeyi, qarşıdurması yox oldu!

Bütün siyasi partiyalar vahid cəbhədə düşmənə qarşı mübarizədə birləşdiklərini bəyan etdilər!

Beləliklə, düşmənlərimizin xalqı parçalamaq niyyəti tam iflasa uğradı.

Milli birliyimizin qüdrəti isə böyük zəfərimizə danılmaz töhfəsini bəxş etdi!

❖❖❖

Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasətinin ən mühüm uğurlarından biri də Azərbaycanın düşmənlərini dostlarına, bədxahlarını xeyirxahına, loyallarını dəstəkçisinə çevirməsidir!

Dövlət başçısı on səkkiz illik rəhbərliyi dövründə ikitərəfli münasibətlərin qurulmasında, beynəlxalq qurum və təşkilatlara rəhbərliyində daima bu məsələni ön planda saxlamışdır.

Dəfələrlə yeni dostlarımızın bizə xeyirxah yanaşmalarının və zəruri dəstəyinin şahidi olmuşuq.

İlham Əliyevin ən böyük xidmətlərindən biri də Türkiyə-Azərbaycan dostluğunu qardaşlığa, sıx əlaqələri sarsılmaz və strateji tərəfdaşlığa çevirməsidir!

Bu gün Ərdoğan Türkiyəsi dünya dövlətinə çevrilib və çəkisi, sanbalı görünməmiş dərəcədə yüksəlib!

İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan qardaşlığı isə bu münasibətlərə yeni çalar, hərarət və möhkəmlik qatır.

Ərazi bütövlüyünün bərpası uğrunda apardığımız müqəddəs savaşda biz daim Türkiyəni, türk qardaşlarımızı yanımızda gördük, bütün sahələrdə dəstəklərini, köməklərini aldıq!

Hörmətli Rəcəb Tayyib Ərdoğanın "Türkiyənin gücü Azərbaycanın gücüdür, Azərbaycanın gücü Türkiyənin gücüdür" sözlərinin təsdiqinin biz Vətən müharibəsində dönə-dönə şahidi olduq!

Bu yenilməz dostluğun qüdrəti bizi məqsədimizə daha tez çatdırdı!

❖❖❖

Müzəffər Ali Baş Komandan İlham Əliyevin, habelə Azərbaycan Ordusunun gücü, qüdrəti qarşısında Ermənistanın cılızlığı və kiçikliyi daha aydın göründü!

Müharibədən əvvəl lovğalanıb bizə hədə-qorxu gələnlər hərbi əməliyyatlardan üç gün keçməmiş yalvar-yaxara başladılar, onun-bunun dabanını yalayıb, zəng edib, dəng edərək bizə minnətçi saldılar!

Lakin heç bir xahiş-minnət, heç bir təsir-təzyiq cəhdi Azərbaycan Prezidenti İlham Əliyevin iradəsinə zərrə qədər də təsir göstərə bilməzdi!

Müzəffər Ali Baş Komandanımız istədiyinə, irəli sürdüyü şərtlərə əməl olunmayınca heç bir güzəştə getmədi!

Yalnız düşmənin başını əzib, belini qırdıqdan, ərazilərin böyük bir hissəsini və Şuşanı azad etdikdən, ermənini alçaldılmış və zəlil günə saldıqdan sonra hərbi əməliyyatları dayandırdı!

Azərbaycanın bütün maraqlarını təmin edən kapitulyasiya sənədinə qol çəkdirməklə düşməni bir daha aşağıladı!

Budur Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrəti!

Budur qalib Azərbaycan Ordusunun qüdrəti!

Budur Azərbaycan xalqının və dövlətinin qüdrəti!

Düşmən bunu heç zaman unutmamalıdır!

Unutsalar, bir daha peşman olacaqlar!

Onlara edilən xəbərdarlıqları da yaddan çıxarmasınlar!

“Dəmir yumruq” daim hazır vəziyyətdədir!

***26 sentyabr 2021-ci il***

## Qələbə müjdəli müraciətlər

*İlham Əliyevin hər müraciəti*
*xoş xəbərlər çatdırmaqla bərabər,*
*xalqa və orduya yeni ruh yüksəkliyi,*
*qələbə əzmi də aşılayırdı*

Yenə Müzəffər Ali Baş Komandanın müraciətini sonsuz sevgi və təşnə ilə dinlədik!

Hər birimizə inam, qürur, fəxarət duyğusu bəxş edən müraciətini!

Sözün doğrusu, Prezidentimizin müraciəti üçün çox darıxmışdıq!

Lap çox!

Axı, 44 günlük Vətən müharibəsi dövründə az qala bu müraciətlərlə yaşayır, hərbi əməliyyatların gedişini ondan öyrənir, Azərbaycan Ordusunun qüdrəti ilə azad edilən şəhər, kənd və qəsəbələr barədə dəqiq məlumat alır, qəlbən sevinir, hərdən isə göz yaşlarımızı saxlaya bilmirdik...

Bu müraciətlər 27 illik həsrətimizə son qoyulduğundan xəbər verirdi!

Bu müraciətlər murdar düşmənin müqəddəs torpaqlarımızı necə sürətlə tərk etdiyini göstərirdi!

Bu müraciətlər hər dəfə torpaq həsrətinin tezliklə sona çatacağının müjdəsini verir, ürəyimizə sevinc qarışıq sərin su səpirdi!

Bu müraciətlər dəmir yumruğun düşmənin belini necə qırdığını, düşmən ordusunun məhv edildiyini konkret faktlarda nümayiş etdirirdi!

Əslində, bu müraciətlər müharibələr tarixinin görünməmiş səhifələrindən biri sayılır.

Bəli, Müzəffər Ali Baş Komandan İlham Əliyev daim xalqla təmasa girir, hərbi əməliyyatların gedişi barədə əsl həqiqətləri söyləyir, xalqa ən operativ, ən doğru və düzgün informasiya verir, xoş xəbərləri ilə hər birimizi, hər bir əsgər və zabiti ruhlandırır, yeni qəhrəmanlıqlara kökləyirdi!

Həm də öz xalqına yalan danışan erməni siyasətçilərini, hərbçilərini ifşa edir, onların saxta simalarını bir daha açıb göstərirdi!

44 günlük Vətən müharibəsinin başlanmasından bir il sonra - 27 sentyabr 2021-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyev yenidən ənənəvi, hamımızın həsrət, həyəcan və sevinclə gözlədiyi, sonda "Qarabağ Azərbaycandır!" bəyanatı ilə bitən onuncu müraciətini etdi!

❖❖❖

Bu müraciətdən bir neçə gün əvvəl - sentyabrın 23-də BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən yığıncağındakı videoformat çıxışında ali tribunadan istifadə edərək erməni siyasətinin və xislətinin mahiyyətini bir daha açıb göstərmiş, bir daha xəbərdarlıq etmişdi: "Biz yenidən öz suverenliyimizə, ərazi bütövlüyümüzə və xalqımızın təhlükəsizliyinə hər hansı bir təhdid görsək, legitim özünümüdafiə hüququmuzdan heç bir tərəddüd etmədən istifadə edəcəyik".

Rusiyanın nüfuzlu "Nasionalnaya oborona" jurnalına müsahibəsində də qəti mövqeyini yenidən ifadə etmişdi: "Biz sadəcə ərazi bütövlüyümüzü bərpa etmişik, biz çox böyük bir şər qüvvəyə qalib gəlmişik. Ümidvaram ki, bu şər qüvvə daha heç vaxt başını qaldırmayacaq, hər halda biz imkan verməyəcəyik ki, onlar başlarını qaldırsınlar".

❖❖❖

Biz Prezidentimizin Vətən müharibəsindəki sonuncu - 1 dekabr 2020-ci il tarixli müraciətini də yaxşı xatırlayırıq. Axı 44 günlük savaşın Zəfərlə başa çatdığını, tarixi qələbənin qazanıldığını bildirən, həm də yekun xarakteri daşıyan həmin müraciəti necə unutmaq olar.

O zaman Müzəffər Ali Baş Komandan İlham Əliyev öz müraciətinə belə başlamışdı:

"Əziz həmvətənlər, böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

Sonra Prezidentimiz Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun şücaətindən, düşmənə vurulan ağır zərbələrdən bəhs edərək məhv edilmiş Ermənistan ordusunun texnikalarını da sadalamışdı:

"Tank əleyhinə vasitələr - 53 ədəd, "Smerç" - dörd ədəd, "Qrad" - 97 ədəd, "Uraqan"-2, "YARS"-1, TOS odsaçan - 1, "S-300" zenit-raket kompleksləri - 7 atıcı qurğusu məhv edildi. İndi əgər təkcə bunun qiymətini hesablasalar, görərlər ki, biz Ermənistan ordusuna nə qədər böyük zərbə vurduq. Beləliklə, 7 atıcı qur-

ğu, bir "S-300" radiolokatoru və iki "S-300" aşkaretmə stansiyası məhv edildi. "Oborona" radiolokasiya stansiyası - 1 ədəd, "TOR" zenit-raket kompleksi - 5 ədəd, "Osa" zenit-raket kompleksi - 40 ədəd, "KUB" zenit-raket kompleksi - 4 ədəd, "KRUQ" zenit-raket kompleksi - 1 ədəd, zastava - 14 ədəd, "S-125" zenit-raket kompleksi - 2 ədəd, pilotsuz uçuş aparatları - 22 ədəd, "Elbrus" əməliyyat-taktiki raket kompleksi - 2, ballistik raket - 1, "Toçka-U" raket kompleksi - 1, radioelektron mübarizə vasitələri - 5 ədəd, "R-142" komanda qərargah maşını - 2 ədəd, "Nebo-M" radiolokasiya stansiyası - 1 ədəd, müxtəlif radiolokasiya stansiyaları - 7 ədəd, "Reppelent" radio-texniki maneə vasitəsi - 4 ədəd".

Düşmənin məhv edilmiş və qənimət götürülmüş texnikaları barədə də dəqiq məlumat vermişdi:

"Özüyeriyən artilleriya qurğuları "Akasiya" və "Qvozdika" - 28-i məhv edilib, 5-i qənimət götürülüb. Müxtəlif çaplı toplar - 315-i məhv edilib, 37-si hərbi qənimət kimi götürülüb. Minaatanlar - 63-ü məhv edilib, 62-si qənimət götürülüb. Xüsusi avtomobillər - 10-u məhv edilib, 93-ü qənimət götürülüb. Qumbaraatan - 178-i qənimət götürülüb. Traktor - 10, "Şilka" zenit qurğusu - 5 ədəd qənimət götürülüb. Atıcı silahlar - 1380 atıcı silah qənimət götürülüb. 7 komanda məntəqəsi, 11 sursat anbarı dağıdılıb. Tank - 287-si məhv edilib, 79-u qənimət götürülüb, toplam 366 tank. Siyahı davam edir. Piyadaların döyüş maşını - 69-u məhv edilib, 47-si qənimət götürülüb. "Su-25" təyyarəsi - 5-i məhv edilib. Yük avtomobilləri - 252-si məhv edilib, 270-i hərbi qənimət kimi götürülüb".

"Mən artıq bu mövzu ilə bağlı müraciətlərimi yekunlaşdırıram. Əminəm, bundan sonra, əlbəttə ki, bir çox hallarda doğma xalqıma öz sözlərimi deyəcəyəm. Amma bu dövrlə bağlı müraciətlərimi yenə də hər bir Azərbaycan vətəndaşının arzuladığı sözlərlə yekunlaşdırmaq istəyirəm: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan"!

❖❖❖

Nəhayət, mavi ekran qarşısında əyləşərək qalib dövlətin Müzəffər Ali Baş Komandanının Vətən savaşından bir il sonrakı müracətinə diqqətlə qulaq kəsilirik.

Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev budəfəki müraciətinə də təmkinlə, aramla başladı.

İlk növbədə şəhidləri - canları, qanları bahasına bu zəfərin qazanılmasına kömək edənləri hörmət və ehtiramla andı.

Öz hünərləri ilə bu qələbəni qazanan əsgər və zabitlərimizin qəhrəmanlığını, şücaət və igidliklərini yüksək dəyərləndirdi.

Müzəffər Ali Baş Komandanın çıxışını dinləyərkən xəyal hər birimizi uzaq keçmişə, həm də qələbə ilə sonuclanacaq 44 günlük hərbi əməliyyatlar dövrünə qaytarır.

Bəli, biz I Qarabağ müharibəsində acınacaqlı məğlubiyyətə uğradıq!

Şəhidlər verdik, mülki əhali arasında çoxsaylı qurbanlar oldu!

Dolu ev-eşiyimizi, məhsulu dərilməmiş meyvə bağlarımızı, abad həyət-bacamızı qoyub qaçdıq!

Sözün həqiqi mənasında qaçdıq!

Çünki bizi müdafiə edə biləcək ordumuz, düşmənin qarşısına çıxmaq üçün lazımi silah-sursatımız yox idi!

Düşməni isə havadarları əvvəlcədən lazımınca yaraqlandırmışdı, üstəlik, arxasında dayanaraq gizli və aşkar şəkildə hər cür kömək göstərirdi.

Biz ona görə məğlub olmadıq ki, vuruşa, torpağımızı qoruya, lazım gələndə Vətən uğrunda canımızdan keçə bilmirdik!

Əsla!

Bizi bu müharibəyə səfərbər edən əsl rəhbərimiz, sərkərdəmiz, qabağımıza düşərək yol göstərən dövlət başçımız yox idi!

Həmin dövrdə ölkəyə başçılıq edənlər maymaqlar, qorxaqlar, naşılar və təcrübəsizlər idi!

Onlar daha çox özlərini, şəxsi maraqlarını düşünürdülər!

Vəzifələrini qoruyub saxlamaq hayında idilər!

Bunun altını isə sadə, zəhmətkeş xalq çəkdi!

İyirmi min şəhid versək də, torpaqları qoruyub saxlaya bilmədik!

Xalq həqiqi rəhbərinə, Ulu Öndərinə qovuşanda isə artıq gec idi...

Dağılmış, xırda xanlıqlara parçalanma ərəfəsində olan, xaos və anarxiyanın tüğyan etdiyi dövləti qoruyub saxlamaq, müstəqilliyi yaşatmaq, üstəlik, bir milyondan çox qaçqın və məcburi köçkünə sahib çıxmaq vacib idi.

Heydər Əliyev dühası dövləti və xalqı bu bəlalardan sovuşdura bildi.

Cənab İlham Əliyev ölkə rəhbərliyinə gəldiyi ilk gündən isə bütün fəaliyyətini Azərbaycanı gücləndirərək ərazi bütövlüyünü bərpa etmək istiqamətinə yönəltdi.

Müraciətdə Prezidentimiz xatırlatdığı kimi: "Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu".

Prezident İlham Əliyevin çoxcəhətli və səmərəli iqtisadi, siyasi, diplomatik və hərbi fəaliyyəti nəticəsində Azərbaycan xalqı, dövləti və ordusu qələbə müharibəsinə kökləndi və hazırlandı.

Nəhayət, bir il öncə qudurmuş və azğınlaşmış düşməni cəzalandırmaq, doğma torpaqları işğaldan azad etmək üçün Müzəffər Ali Baş Komandan İlham Əliyev "İrəli!" əmrini verdi.

Azərbaycan xalqı şərəf və ləyaqət müharibəsinə başladı!

Azərbaycan Ordusu torpaqları yağıdan azad etmək və murdar xislətliləri məhv etmək üçün qətiyyətlə hücuma keçdi!

Bu müharibəni Prezident İlham Əliyev tam dolğunluğu ilə öz müraciətində belə təsvir edirdi: "44 günlük Vətən müharibəsi milli iradə, milli ruh, milli ləyaqət təntənəsi idi. Biz Qələbəni döyüş meydanında qazandıq. 300-dən çox şəhər və kənd döyüş meydanında işğaldan azad edildi. Biz qan tökərək, şəhidlər verərək bu Qələbəni əldə etdik və düşməni məcbur etdik ki, bizim qabağımızda diz çöksün və kapitulyasiya aktına imza atsın. Həmin düşmən ki, 30 il ərzində bizə meydan oxuyurdu, 30 il ərzində Azərbaycan xalqının şərəf və ləyaqətini tapdalamağa çalışırdı. Azğınlaşmış, harınlamış, quduzlaşmış, qudurmuş düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı, təslim oldu və məcbur oldu ki, noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atsın. Bunun nəticəsində yüzlərlə şəhər və kənd bir güllə atmadan, bir şəhid vermədən geri qaytarıldı".

Beləliklə, beş əsrlik dövrdə ilk dəfə olaraq Azərbaycan işğal olunmuş torpaqlarını geri qaytardı!

İki əsrlik Ermənistan-Azərbaycan münaqişəsinə qələbə ilə son qoyuldu!

Düşmən torpaqlarımızdan birdəfəlik qovuldu!

Bütün şəhidlərimizin, Xocalı faciəsinin qisası alındı!

Müzəffər Ali Baş Komandan düşməni öz qarşısında diz çökdürdü, onun boynunu sındırıb, belini qırdı!

Ermənistan biabırçı məğlubiyyətini etiraf edərək kapitulyasiya aktına qol çəkdi!

İlham Əliyev təkcə forpost Ermənistanı yox, dünya erməniliyini də məğlub etdi!

Yenə Prezidentimizin müraciətinə qayıdırıq: "Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Biz müharibəni hərbi-siyasi yollarla həll etdik, müharibə arxada qaldı, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı. Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati ərazi mövcud deyil və əgər kimsə "Dağlıq Qarabağ" adlı ölünü diriltmək istəyirsə, onu öz ərazisində diriltsin, öz ərazisində "Dağlıq Qarabağ" adlı qurum yaratsın, respublika yaratsın, cəmiyyət yaratsın. Biz də onu tanıyarıq, ancaq Azərbaycanda yox! Bu məsələ öz həllini tapdı. Bunu mən deyirəm - Azərbaycanın Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı. Hər kəs bu sözlərlə hesablaşmalıdır və hesablaşacaqdır".

Bu qələbəyə çatmaq, bu Zəfəri qazanmaq üçün gecə-gündüz çalışan Müzəffər Ali Baş Komandan İlham Əliyev, əslində, yeni, qüdrətli Azərbaycanın da yaradıcısına çevrildi:

* Ölkəmizin iqtisadi gücü artdı, dünyada mövqeləri əsaslı şəkildə möhkəmləndi, sözü və səsi eşidilməyə başladı;

* Siyasi nüfuzu yüksəldi, dövlət başçımız bir çox beynəlxalq təşkilatlara sədr seçilərək həmin qurumların işini canlandırdı;

* Yeni əsgər və zabitlər nəsli yetişdirildi, qüdrətli ordu yaradılaraq ən müasir silahlarla silahlandırıldı;

* Türkiyə və Azərbaycan dostluğu, qardaşlığı tarixdə olmayan səviyyəyə qaldırıldı;

* Milli birlik yaradıldı, xalq öz rəhbəri ətrafında sıx və möhkəm birləşdi.

İlham Əliyev Azərbaycan xalqını ən müqəddəs arzu və istəyinə çatdırdı!

44 gün ərzində məğlub xalqdan qalib xalqa çevirdi!

44 gün ərzində ərazi bütövlüyümüz bərpa olundu!

Millətin, dövlətin şərəf və ləyaqəti, qürur və mənliyi özünə qaytarıldı!

Ermənistan isə rəzil günə, alçaq duruma salındı!

Sonuncu müraciətində Müzəffər Ali Baş Komandan İlham Əliyev başı əzilmiş, misgin günə salınsa da, faşıst xislətindən əl çəkməmiş düşmənə sonuncu xəbərdarlığını da etdi: "Erməni faşizmi məhv edilib, ancaq onun təzahürləri görünməkdədir. Bu, çox təhlükəli tendensiyadır, ilk növbədə, Ermənistan dövləti üçün. Mən bunu demişəm, bu gün Anım Günündə şəhidlərimizin əziz xatirəsi önündə bir daha deyirəm, əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd et-

mədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın"!

Bəli, biz bundan sonra qalib ölkə, qalib xalq kimi yaşayacağıq!

Azad edilmiş torpaqları sürətlə bərpa edərək geriyə qayıdacağıq!

Dünən Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Bakıda Anım Gününə həsr edilmiş yürüş keçirildi, ardınca isə Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməli qoyuldu. Bu tədbirlər Müzəffər Ali Baş Komandanımızın Zəfər missiyasının məntiqi davamı, Azərbaycanın möhtəşəm qələbəsinin təntənəsi idi.

Bu zəfəri, bu fərəhi və qüruru bizə yaşadan qalib Sərkərdəmiz, müdrik dövlət başçımız İlham Əliyevin rəhbərliyi ilə cənnət Qarabağda xoşbəxt və firavan günlər yaşayacağıq!

***28 sentyabr 2021-ci il***

# Şanlı qələbə

## *Müstəqilliyin yeni erasının başlandığı gün*

*"İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu tarix Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq. Bu, ədalətin təntənəsi idi. Bu, qürurun təntənəsi idi, milli ləyaqətin təntənəsi idi, Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi idi. Biz bütün gücümüzü səfərbər edib bu müharibədə Qələbə qazanaraq düşməni torpaqlarımızdan qovduq.*

*Hər gün biz bu günü yaxınlaşdırırdıq. Qarabağ məsələsi Prezident kimi hər gün mənim gündəliyimdə birinci məsələ idi. Hər gün. Hər gün fikirləşirdim ki, bu Qələbəni əldə etmək, torpaqlarımızı azad etmək üçün əlavə nə etmək lazımdır.*

*Biz müharibə istəmirdik və bu gün də istəmirik. Hesab edirəm ki, müharibə riskini sıfıra endirmək üçün bölgəmizdə, Cənubi Qafqazda müxtəlif təşəbbüslər irəli sürülməlidir. Biz buna hazırıq. Bizə müharibə lazım deyil. Biz istədiyimizə nail olmuşuq və bizim üçün indi yeni dövr - quruculuq dövrü, torpaqlarımızın bərpası dövrü başlanmışdır".*

***İlham ƏLİYEV***

*"...Biz heç nəyi unutmamışıq. Biz bunu unuda bilmərik. Biz şəhidlərimizi unuda bilmərik, Xocalı qurbanlarını unuda bilmərik, dağılmış şəhərlərimizi unuda bilmərik. Dağılmış qəbirləri, təhqir edilmiş məscidləri biz necə unuda bilərik? Biz heç vaxt unutmamalıyıq. Azərbaycan xalqı bunu öz yaddaşında daim saxlamalıdır".*

***İlham ƏLİYEV***

*"Onlar 30 il istehkamlar, 6 müdafiə xətti qurmuşdular. O bölgənin təbii relyefi onlar üçün çox əlverişli idi. Biz qəhrəman övladlarımızın canı-qanı bahasına, qəhrəmanlığı bahasına bu torpaqları azad etmişik. Ölümə gedirdi bizim gənclərimiz, əsgərlərimiz, zabitlərimiz. Hər kəs bunu deyirdi - öldü var, döndü yoxdur. Biz belə çətin şəraitdə qələbə qazanmışıq".*

***İlham ƏLİYEV***

## *Qürur və sevinc doğuran söz*

Qələbə - altı hərflik bu söz insana nə qədər qürur və sevinc bəxş edir!

Mənən ucalırsan, ruhən dəyişirsən, sanki başqa cür olursan!

Qalib ölkənin qalib vətəndaşı kimi təkcə digərlərinin nəzərində deyil, öz gözündə də yüksəlirsən!

Düşməni məğlub və məhv etdiyinə, torpaqlarını murdar ləpirlərdən təmizlədiyinə, şəhid balalarının qisasını aldığına görə özündən razı qalırsan!

Həm də bu qələbəni sənə bəxş edən qüdrətli Sərkərdəyə, qalib ordunun Müzəffər Ali Baş Komandanına dərin təşəkkür və minnətdarlıq hissi duyursan:

* Səni məğlub xalqdan qalib dövlətin alnıaçıq, üzügülər vətəndaşına çevirdiyinə görə!

* Səni dili qısalıqdan, gözü kölgəlikdən, tənə və töhmətdən birdəfəlik qurtardığına görə!

* Səni dünyanın gözündə dəyişdiyinə, qalib, qürurlu və məğrur millət olduğunu hərb meydanında təsdiq etdiyinə görə!

Eşq olsun belə Sərkərdəyə!

## *Şərəfə çatdıran 44 gün*

Qələbənin dəyərini məğlubiyyət acısını uzun müddət çəkənlər daha yaxşı bilərlər!

Qələbənin dəyərini onun hansı zəhmət, əziyyət, çabalar hesabına, qurbanlar bahasına qazanıldığını dərindən anlayanlar daha yaxşı bilərlər!

Qələbənin dəyərini qəhrəmanlar, şəhidlər, qazilər yetişdirənlər, onların adını, əməlini və xatirəsini daim yüksək tutanlar daha yaxşı bilərlər!

* 44 gün ərzində Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanı qalib və vüqarlı dövlətə çevirdi!

* 44 gün ərzində Azərbaycan əsgər və zabiti ölkənin ərazi bütövlüyünü əbədilik bərpa etdi!

* 44 gün ərzində cənab İlham Əliyev və qüdrətli Azərbaycan Ordusu azğın düşmənin başını "dəmir yumruq"la əzərək ordusunu məhv etdi, qorxaqlar və fərarilər yığnağına çevirdi!

Eşq olsun belə Orduya, belə əsgər və zabitlərə!

## *Mükəmməl hazırlıq, dəqiq hesablamalar, yeni taktika*

Müzəffər Ali Baş Komandan İlham Əliyev bu qələbəyə Azərbaycan rəhbərliyinə gəldiyi ilk gündən hazırlaşmışdı!

Hər il, hər ay deyil, hər gün hazırlaşmışdı!

Yüksək peşəkarlıqla, dəqiqliklə, məsuliyyətlə və hərtərəfli tədbirlər görməklə!

Yeni ordu qurmuşdu!

Yeni vətənpərvər gənclər nəsli yetişdirmişdi!

Yeni, ölkəmizin və xarici dövlətlərin hərbi məktəblərində mükəmməl təhsil alan zabitlər və hərbi mütəxəssislər heyəti formalaşdırmışdı!

Yeni, ən müasir silahlarla ordumuzu təchiz etmişdi!

XXI əsrin müharibəsinin ən yeni taktika və strategiyasının tətbiqinə hazırlıq görmüşdü!

Həm də bütün bu işləri elə formada, elə bir məxfiliklə aparmışdı ki, Ermənistana yaxın dövlətlərin kəşfiyyat xidmətləri belə bundan xəbər tutmamış, yeni tipli hərbi əməliyyatların keçiriləcəyini ağıllarına belə gətirməmişdilər!

Yoxsa məsələnin hərbi müstəvidə həllinə keçilməsinə əsla yol verilməzdi!

Cənab İlham Əliyev hər şeyi irəlicədən görməyi, incəliklə nəzərə almağı və yüksək dəqiqliklə ölçüb-biçməyi, ən düzgün və ən optimal qərarlar qəbul etməyi məharətlə bacarır!

Eşq olsun belə Prezidentə!

## *Deklorativ müstəqillikdən real müstəqilliyə*

SSRİ adlı nəhəng imperiya zahirən kommunizm ideologiyasına əsaslanan dövlət olsa da, əslində, zorakılıqla, silah gücünə yaradılmışdı!

Azərbaycanın Sovet Rusiyasının tərkibinə qatılması XI Qızıl ordunun real hədəsi və hücumu nəticəsində baş vermişdi.

Bu "qatılmada" əsas hədəf isə Bakı neftinə sahib çıxmaq, onun sərəncamçısı olmaq istəyi idi.

Ziyalılarımız arasında sosializm ideyasının tərəfdarları olsa da, onların heç biri birləşmənin belə nəticələnəcəyini gözləmirdi və sovetləşmənin tərəfdarlarının böyük əksəriyyəti qırmızı repressiyanın qurbanına çevrildilər, sonrakı illərdə nəsibləri həbsxana, sürgün, güllələnmə və digər zorakılıqlar oldu!

Həm də bu faciələr təkcə özlərinin yox, ailələrinin də başına gətirildi!

Yetmiş illik SSRİ dövründə Azərbaycan bütün sərvətləri və imkanları ilə qırmızı imperiyanın xidmətində durdu!

Başqa yolu da yox idi!

Amma sonda, imperiya parçalananda ziyalılarımızın başına gətirilən müsibətlər xalqımızın və bütövlükdə müstəqil olmaq istəyən dövlətimizin də başına gətirildi.

Dağlıq Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsi niyyətinə xidmət edən köhnə, "tarixi münaqişə" yenidən alovlandırıldı, son günlərini yaşayan mərkəzi hakimiyyəti ənənəvi ermənipərəst mövqe nümayiş etdirərək tarixi torpaqlarımızın bizdən qoparılmasına rəvac verdi.

Bu prosesin başında isə SSRİ-nin birinci və axırıncı prezidenti, qırmızı imperiyanın dağıdılmasının müəllifi olan Sov.İKP MK-nın baş katibi M.Qorbaçov və arvadı dayanırdı.

18 oktyabr 1991-ci ildə Azərbaycan SSR Ali Sovetinin sessiyasında Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktı qəbul edilsə də, əslində, bu, deklorativ müstəqillik idi.

Çünki müstəqil dövlət kimi yaşamaq üçün hələ dövlət qurumları və təsisatları yaradılmalı, müstəqil daxili və xarici siyasət müəyyənləşdirilməli, iqtisadiyyat böhrandan çıxarılmalı və digər zəruri tədbirlər görülməli idi.

Qırmızı imperiyanın parçalanması və müstəqilliyin ilk illərində Azərbaycana rəhbərlik edənlər isə maymaq, qorxaq, təcrübəsiz və səriştəsiz olmaqla bərabər, şəxsi maraqlarını da ümumi mənafedən yüksək tuturdular.

Biri ermənilərin geri qayıtması ilə bağlı xalqdan "muştuluq" istəyir, başqası SSRİ-nin yaşaması üçün ölkə ərazisində referendum keçirir, digəri isə məsuliyyətsiz bəyanat və addımları ilə böyük problemlər yaradır, ölkəni vətəndaş müharibəsinə sürükləyirdi.

Əgər xalqın arzu və tələbi ilə Ulu Öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtmasaydı, Azərbaycanın nəinki müstəqilliyi, hətta bir dövlət kimi mövcudluğu da sual altında idi.

Ulu Öndər Heydər Əliyev çox qısa bir zaman kəsiyində vətəndaş müharibəsinin alovlarını söndürdü, ölkəni xaos və anarxiya bataqlığından qurtardı, əhalidəki külli miqdarda silah-sursatı yığdırdı, möhkəm və dönməz sabitlik yaratdı. Bazar iqtisadiyyatı münasibətlərinə keçmək üçün yeni Konstitusiya qəbul edilərək zəruri islahatlar aparıldı.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini təmin edib onu əbədiliyə və dönməzliyə çevirsə də, artıq ərazilərimizin 20 faizi düşmən işğalında idi və 1 milyondan çox qaçqın və məcburi köçkünümüz vardı.

Müstəqilliyin sonrakı illərində bu itki və yük daim özünü büruzə verirdi.

Ömür vəfa etmədi, Ulu Öndərimiz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmədən əbədiyyətə qovuşdu, bu çətin və şərəfli missiyanın icrasını siyasi varisi cənab

İlham Əliyevə vəsiyyət etdi.

Xalqın və Ümummilli Liderimizin etimadını layiqincə doğruldan cənab İlham Əliyev müstəqil dövlətimizi yeni inkişaf mərhələsinə çıxardı, tarixinin ən qüdrətli Azərbaycanını yaratdı.

Lakin ən mühüm və ən ağrılı məsələ - ərazi bütövlüyünün bərpası problemi hələ də qalırdı!

## *Vahid hədəf, gərgin və çoxcəhətli fəaliyyət*

Prezident İlham Əliyev hakimiyyətə gəldiyi ilk gündən qarşısına vahid hədəf qoymuşdu:

İqtisadi cəhətdən qüdrətli, siyasi cəhətdən nüfuzlu, ərazicə bütöv müstəqil Azərbaycan yaratmaq, onu inkişaf etdirmək və xalqın yüksək rifahına nail olmaq!

Belə bir hədəfə çatmaq üçün çoxsaylı məsələlər və problemlər həllini tapmalı idi!

Üstəlik, dayanmadan çalışmaq, gərgin və çoxcəhətli fəaliyyət göstərmək, düşmənləri zərərsizləşdirərək yeni dostlar tapmaq, daxili və xarici siyasət sahəsində dəqiq hesablamalara əsaslanan qərarlar qəbul edərək addımlar atmaq tələb olunurdu!

İlham Əliyev zəkası və xarizması uğurların əsası oldu!

Ölkəyə rəhbərlik etdiyi on səkkiz il ərzində cənab İlham Əliyevin gördüyü işlərin, gerçəkləşdirdiyi layihələrin siyahısı belə heyrət doğurur!

Onları yada salmağa çalışaq:

* Prezident seçkilərinin növbəti günündə ölkədə hakimiyyət dəyişikliyinə nail olmaq, müstəqil Azərbaycanı Heydər Əliyev siyasi kursundan çıxarmaq cəhdinin qarşısı alındı;

* Bütün sahələrdə milli və dövləti maraqlara əsaslanan siyasətin dönmədən həyata keçirilməsi təmin olundu;

* Regionların sosial-iqtisadi inkişafına dair dörd dövlət proqramı hazırlanaraq uğurla, əlavələrlə həyata keçirildi;
* Qeyri-neft sektorunun inkişafı üçün təsirli tədbirlər görüldü;
* Sahibkarlığın inkişafına daim dəstək verildi;
* Turizmin inkişafı yeni mərhələyə qaldırıldı;
* Azərbaycan bütün maneələri dəf edərək öz maliyyəsi hesabına Bakı-Tbilisi-Qars beynəlxalq layihəsini gerçəkləşdirdi;
* "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizləri işə salındı;
* Ökeana çıxışı olmayan Azərbaycan logistika mərkəzinə çevrildi;
* Enerji təhlükəsizliyi təmin edildi;
* Nəqliyyat və qismən də ərzaq təhlükəsizliyinə nail olundu;
* Azərbaycan elektrik enerjisi idxalçısından ixracatçısına çevrildi;
* "Cənub qaz dəhlizi" nəhəng layihəsi işə salındı;
* Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv seçildi;
* Dövlət başçısı cənab İlham Əliyev BMT Təhlükəsizlik Şurasının iclaslarına, İslam Əməkdaşlıq Təşkilatına, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına, Qoşulmama Hərəkatına uğurla sədrlik edərək Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltdi, ölkəyə çoxsaylı dostlar qazandırdı;
* Azərbaycan həm də idman dövlətinə, beynəlxalq yarışlar məkanına çevrildi;
* Azərbaycan I Avropa Oyunlarına və IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi etdi;
* Neft kapitalının insan kapitalına çevrilməsi istiqamətində uğurlu addımlar atıldı;
* Azərbaycanın multikulturalizm modeli dünya tərəfindən bəyənilərək qəbul olundu;
* Azərbaycan beynəlxalq humanitar tədbirlərin, dünyanı düşündürən qlobal problemlərin müzakirə edildiyi və səmərəli təkliflərin verildiyi məkan statusu qazandı;
* Yeni ordu quraraq onu ən müasir silahlarla silahlandıran, yeni taktika və strategiya ilə XXI əsrin yeni nəsil müharibəsini aparan Müzəffər Ali Baş Komandan İlham Əliyev torpaqları işğaldan azad etdi, müharibənin hamı tərəfindən öyrənilən Azərbaycan modelini yaratdı!

## *Üç cəbhənin qəhrəmanı*

Müharibə aparan ordu öz Sərkərdəsinə baxıb düzlənir!
Döyüşən əsgər və zabitlər Sərkərdədən nümunə götürürlər!

Ordunu qələbəyə onun düşünən beyni və vuran əli sayılan Sərkərdə çatdırır!

Lakin indiki müharibələr XX əsrin müharibələrinə bənzəmir.

Bu gün hibrid müharibələr gedir!

Odur ki, bir neçə istiqamətdə döyüşmək lazım gəlir!

Həm də qalib gəlmək üçün bütün savaş meydanında üstün gəlməyi bacarmalısan!

II Qarabağ müharibəsində olduğu kimi!

❖❖❖

İkili standartların mövcudluğu və dünya erməniliyinin diasporları vasitəsilə bir sıra aparıcı dövlətlərin siyasətinə, dövlət başçılarına təsir imkanlarının olduğunu nəzərə almadan, hadisələri qabaqlamağı bacarmadan müvəffəqiyyətə bel bağlamaq mümkünsüzdür.

Bütün bunları gözəl bilən Prezident İlham Əliyev Vətən müharibəsinə hazırlıq və hərbi əməliyyatların davam etdiyi dövrdə daim ayaqda oldu, müdriklik və uzaqgörənliklə çarpışdı.

Başda ATƏT-in Minsk qrupu olmaqla bütün beynəlxalq qurum və təşkilatlar Qarabağ münaqişəsinin yalnız sülh yolu ilə həllinin mümkünlüyünü söyləyir və müharibənin əleyhinə çıxırdılar!

Faktiki olaraq nə münaqişənin sülh yolu ilə həllinə kömək göstərir, nə də Ermənistana təzyiq göstərərək onu sülh danışıqlarında real nəticələrə sövq edirdilər.

Əksinə, bütün şıltaqlıqlarına dözərək məsələnin uzadılmasına göz yumurdular!

İlham Əliyev mahir və uzaqgörən diplomat kimi Paşinyanın səriştəsizliyindən, lovğalığından bacarıqla istifadə etdi!

Müharibə dövründə Ermənistanı müdafiə edərək hərbi əməliyyatların dayandırılmasını, yenidən sülh danışıqlarına başlanılmasını xahiş edən dövlət başçılarının çağırışına isə Müzəffər Ali Baş Komandanımız yalnız irəli sürdüyü şərtin - erməni ordusunun ərazilərimizi tərketmə qrafiki təqdim edildikdən və üç dövlət başçısı tərəfindən üçtərəfli bəyanat imzalandıqdan sonra əməl etdi.

❖❖❖

Antiazərbaycançı şəbəkə tərəfindən ölkəmizə qarşı dayanmadan aparılan informasiya mübarizəsi hərbi əməliyyatlar başlayan gündən müharibəyə çevrildi!

Bu müharibənin önündə erməni diasporlarının güclü olduğu ölkələrin KİV-i gedirdi.

Hamısı da Azərbaycanı müharibə tərəfdarı, danışıqları pozan, hərbi əməliyyatları dayandırmaq istəməyən, öz ordusunda muzdlulardan istifadə edən tərəf kimi təqdim edirdi.

Müharibə dövründə cənab İlham Əliyev otuzdan çox dünya KİV-inə, məşhur telekanallara, informasiya agentliklərinə və tanınmış qəzetlərə müsahibələr verdi!

Qərəzli, məkrli, bəzən hikkəli sualları səbirlə cavablandırdı, feyk xəbərləri ifşa etdi, əsl həqiqətləri söylədi, müharibənin başlanma səbəbləri, Ermənistanın təhrikçi hərəkətləri barədə dünya ictimaiyyətini məlumatlandırdı, ən nəhayət, cızığından çıxan, jurnalistin etik davranış qaydalarını pozan jurnalistləri yerində oturdaraq qeyri-obyektiv mövqelərinə görə şiddətlə qınadı.

Beləliklə, dünya KİV-ini də döyüş meydanına çevirərək bu cəbhədə də qəhrəmanlıq və şücaət göstərməklə qalib gəldi.

❖❖❖

Döyüş əməliyyatları meydanının bütün ağırlıqları cənab İlham Əliyevin üzərində idi.

Ali Baş Komandan kimi əməliyyat planlarını təsdiq edir, gündəlik tapşırıqları müəyyənləşdirir, ən məsuliyyətli və gərgin anlarda son söz sahibi olaraq qərarlar verirdi!

Müharibənin ilk günlərindən sonuna kimi Azərbaycan Ordusu düşməni darmadağın edərək irəli getdi, bircə gün də olsa, nə ləngimə, nə də geriyə çəkilmə halı olmadı!

Orduya yüksək bacarıq və peşəkarlıqla rəhbərlik edən cənab İlham Əliyev "dəmir yumruğ"u ilə düşmənin belini sındıraraq başını əzdi!

44 gün ərzində erməni ordusu məhv edilərək ərazilərin böyük hissəsi azad edildi, Ağdam, Laçın və Kəlbəcər rayonları isə bir güllə belə atılmadan təslim sənədinə qol çəkən düşmən tərəfindən geri qaytarıldı!

❖❖❖

İlham Əliyev müharibələr tarixində yeni səhifə açaraq yeni müharibə nümunəsi nümayiş etdirdi!

Elə bir nümunə ki, bu gün də başda NATO olmaqla dünyanın ən güclü ordularına sahib dövlətlər həmin nümunədən öyrənərək öz ordularında islahatlar aparırlar!

Azərbaycan hərb tarixinin ən şərəfli səhifəsini yazan Müzəffər Ali Baş Komandan İlham Əliyev beş əsr ərzində itirilmiş torpaqları qaytaran ən qüdrətli Sərkərdə statusunu qazandı.

İlham Əliyev həm də ikiəsrlik Qarabağ münaqişəsinə uğurla son qoyan, ərazi bütövlüyünü birdəfəlik bərpa edən görkəmli dövlət başçısıdır!

Zəfər müharibəsindəki qələbə həm də müstəqilliyimizin yeni erasının başlandığı gün sayılır.

Artıq Azərbaycanın dövlət müstəqilliyi onun bütün ərazisinə şamil edilir!

İşğaldan azad edilən ərazilərin iqtisadi potensialından quldur Ermənistan və onun çapqınçı ortaqları yox, Azərbaycan xalqı istifadə edəcəkdir!

Prezident İlham Əliyevin layihələri əsasında yenidən dirçəldilən Qarabağ az müddətdə cənnətə, dünya turizminin mərkəzlərindən birinə çevriləcək, geri dönən məcburi köçkünlər əvvəlkindən daha firəvan və xoşbəxt yaşayacaqlar!

Bütövləşmiş müstəqil Azərbaycan isə daha qüdrətli və daha nüfuzlu olacaqdır!

## *Torpaqlar da alındı, qisasımız da*

Ermənilər işğalın ilk günlərindən torpaqlarımızdan rədd olub gedəcəklərini gözəl bilirdilər!

Həm də nəinki bilirdilər, həmin günə öz xislətlərinə məxsus tərzdə hazırlaşırdılar:

* Bütün evləri və binaları söküb dağıdır, ələ keçən inşaat materiallarını "müştərisinə" satırdılar;

* Özlərindən sonra insanların normal yaşaya bilməyəcəkləri xarabalıqlar yaradırdılar;

* Hər tərəfdə mina tələləri qururdular ki, torpağın əsl sahibləri geri dönəndə daha çox tələfat versinlər.

Biabırçı məğlubiyyətlərinin əvəzini sanki qabaqcadan çıxmağa çalışırdılar!

Erməni həm də bununla son sözünü də söyləyirdi:

* Bilirdi ki, Azərbaycan xalqı dağıdılmış yaşayış məntəqələrinin qisasını onlarda qoymayacaq!

* Bilirdi ki, Azərbaycan xalqı təhqir edilmiş, qaramal, donuz saxlanılmış məscidlərin hayıfını alacaqdır!

* Bilirdi ki, dağıdılmış qəbiristanlıq ların, sökülmüş qəbirlərin qisasını hökmən çıxacaqdır!

* Bilirdi ki, işğal dövründə törətdiyi vəhşiliklərin, Xocalı soyqırımının, əsir və girovlara verdikləri işgəncə və məşəqqətlərin əvəzi hökmən qaytarılacaqdır!

* Bilirdi ki, qonşuya, dosta xəyanəti, özgələrinə arxalanaraq su içdiyi quyuya tüpürənləri Azərbaycan xalqı heç zaman bağışlamır!

Bütün bunları irəlicədən bildiyinə görə təkcə dinc sakinlərdən - qoca, qadın və uşaqlardan deyil, daşdan-torpaqdan, ağacdan-meşədən, dağdan-dərədən, çaydan-göldən də qisas almağa çalışırdı!

Amma itkiləri qazandıqlarından qat-qat çox oldu!

Özgə torpağında xoş gün, firavan yaşayış tapmadı!

Bayquş kimi özünü xarabalıqlarda yaşamağa məhkum etdi!

Baiskarı olduğu müharibədə ərini, oğlunu, qardaşını, gələcəyini itirdi!

Yenidən qaçqına çevrildi, Ermənistanın ərazisində "ikinci sort", arzuolunmaz vətəndaş sayıldı!

Ömrü boyu məğlub millət damğasını daşımalı, boş xülyaların ağrı-acısını çəkməli oldu!

Layiq olduğu cəzanı həm Tanrıdan, həm də Azərbaycan Ordusundan artıqlaması ilə aldı!

## *Erməni mifləri də darmadağın edildi*

Ermənilər həmişə özlərini dünyaya başqa cürə, olmadıqları kimi təqdim etməyə, dünyanı erməni mifləri ilə aldatmağa çalışıblar.

Möhtəşəm zəfərimiz ermənінin əsl simasını da tam çılpaqlığı ilə dünyaya göstərdi!

Erməni heç vaxt məğrur xalq olmayıb!

Məğrur xalq başqasına forpostluq edib, özgə qoltuğuna sığınmaz!

Erməni heç vaxt döyüşkən xalq olmayıb!

Daim terrorla məşğul olmuş, başqaları isə onların əvəzinə vuruşaraq hazır torpağa sahib etmişlər!

Erməni heç vaxt qalib olmayıb!

Özgə torpaqlarına özgələri hesabına yiyələnəndə də bunun müvəqqəti olduğunu gözəl anlayıb.

Erməni qədim xalq da deyil!

Qədim xalqın ərazisi - vətəni, sərkərdəsi - dövlət başçısı, mədəni abidələri - qalaları, kilsə və dini inanc yerləri, musiqisi, mətbəxi, qədim sənət nümunələri olar, başqalarından oğurlamaqla özünə qədimlik, "mədəniyyət" görüntüsü yaratmağa ehtiyac duymaz!

Erməni "məzlum və zavallı" xalq da deyil!

Terroru özünə mübarizə vasitəsi, faşizmi ideologiya seçən, terrorçuya və faşistlərə xidmət göstərənlərə abidə ucaldıb sitayiş edənlər məzlum yox, yırtıcıdırlar!

Erməni ağıllı da deyil!

Ağıllı millət bütün qonşularına qarşı sərsəm iddialar irəli sürməz, özündən güclülərlə savaşmaz, heç zaman isti aşına soyuq su qatmaz!

## *Qalib sərkərdə, qalib xalq, qalib ordu*

Bu gün Qələbənin 1 ili tamam olur:

Bu bir ildə şanlı Qələbəyə layiq çoxsaylı işlər görülüb, uzaqgörən addımlar atılıb!

Ən əsası Azərbaycan 44 günlük döyüş meydanında qazandığı zəfəri artırıb, möhkəmləndirib.

Qəhrəmanları fərqləndirib, təltif və təbliğ edib!

Şəhidlərin xatirəsini ehtiramla anıb, şəhid ailələrinə, şəhid övladlarına maddi və mənəvi yardım göstərib, diqqətdə saxlayıb!

Əlilləri ölkədə və xaricdə müalicə edib, ən müasir protezlərlə təchizatına şərait yaradıb.

Dağıdılan yaşayış məntəqələrinin bərpası istiqamətində möhtəşəm işlər görülüb, yollar çəkilib, layihələr hazırlanıb və sürətli icrasına başlanılıb!

İlham Əliyevin Qarabağı cənnətə çevirmək niyyəti və ideyası hər gün, hər ay daha da vüsətlənir!

Azərbaycan yenə də diktə edən tərəfdir!

Türkiyə ilə qardaşlığımız sarsılmaz və əbədidir!

Dostlarla bərabər işləyir, birgə tikib qururuq!

Düşmənlər bizimlə hesablaşmaq zorundadır!

Azərbaycan daha özünəəmin, daha inamlıdır!

Torpaqların xilaskarı, xalqın sevgi və minnətdarlıq ünvanı olan Müzəffər Ali Baş Komandan İlham Əliyev hər şeyi vədəsində, uzaqgörənliklə və ən yüksək səviyyədə görməklə uğurların sayını durmadan artırır!

Azərbaycanı qalib dövlətə, xalqımızı qalib xalqa, ordumuzu qalib orduya çevirən İlham Əliyev quruculuq sahəsinin də ən böyük qəhrəmanıdır!

***5 noyabr 2021-ci il***

# Türk dünyasının Zəfər Komandanı

*"1920-ci ildə sovetlər hakimiyyəti Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana verməklə türk dünyasının coğrafi bağlantısını pozmuşdur və bunu xəritəyə baxmaqla hər kəs görə bilər. Bu gün isə biz bu coğrafiyanı bərpa edirik. Artıq nəqliyyat, kommunikasiya layihələrinin həyata keçirilməsi ilə biz bu coğrafiyanı yenidən bağlayırıq, birləşdiririk və ümid edirəm ki, buna sona qədər müvəffəq olacağıq".*

***İlham ƏLİYEV***

*"Qarabağ Zəfəri ilə təkcə işğal altındakı torpaqlar azad edilməyib, eyni zamanda bölgəmizdə həsrətini çəkdiyimiz davamlı sülh, sabitlik və əməkdaşlığa gedən yolun da önü açılıb".*

***Rəcəb Tayyib ƏRDOĞAN***

Dünya həmişə güclülərin dünyası olub!

Çünki güclülər öz iradələrini başqalarına qəbul etdirə, istəklərini həyata keçirə biliblər!

Açıq və dolayı yollarla!

Əgər orta əsrlərdə bu istəklər qol gücünə və qılınc vasitəsilə gerçəkləşdirilirdisə, sivil dünyada daha çox məkrli üsullardan istifadə olunur.

Gah xaç yürüşləri başlanır, gah faşistlər hakimiyyətə gələrək öz ideyalarını zorla yayırlar, gah kommunistlər "xalqlar dostluğu və proletar beynəlmiləlçiliyi" adı ilə "kiçik qardaşları" istismar edərək, təbii sərvətlərini mənimsəyirlər. Bu gün isə ölkələrə "demokratiya gətirmək" üçün rəngli inqilablar törədir, şəhər və kəndləri viran qoyaraq əhalisini miqranta çevirirlər.

Belə bəlalardan qorunmaq, milli sərvətlərinə sahib çıxıb xalqını təhlükəsiz, xoşbəxt və firavan yaşatmaq üçün güclü və ağıllı olmalısan!

Deyilənlərin ilkin şərti isə dövlətə müdrik, uzaqgörən, qətiyyətli və möhkəm iradəli şəxsiyyətlərin rəhbərlik etməsidir.

Başqa sözlə, dövlət gəmisinin sükanı güclü və etibarlı əllərdə olmalıdır!

❖❖❖

Müasir dünyamızda gedən məkrli və ziddiyyətli proseslər artıq hamıda belə bir möhkəm qənaət yaradıb:

Güclülər qarşısında duruş gətirmək, gücə qalib gəlmək üçün özün də güclü olmalısan!

Artıq beynəlxalq hüquqa əhəmiyyət verən, ədalət axtaran və onu təmin edən yoxdur!

Xoşbəxtlikdən, İlham Əliyev Azərbaycanı gücləndirə bildi!

Tarixin ən güclü, qüdrətli Azərbaycanını yaratdı!

Həm də bütün parametrlər üzrə: iqtisadi, siyasi, hərbi və mənəvi cəhətdən!

O da bir həqiqətdir ki, bütün gücün əsasında iqtisadi güc dayanır!

Çünki iqtisadi güc səni asılılıqdan, başqalarına möhtac olmaqdan qoruyur!

İqtisadi müstəqillik həm də müstəqil siyasət yürütməyə imkan yaradır!

Dövlətinin maraqlarını qorumağa, təmin etməyə əsas verir!

İqtisadi güc sənə ləyaqətli dövlətlər sırasında yer tutmağa şərait yaradır!

Prezident İlham Əliyev Azərbaycana rəhbərlik etdiyi on səkkiz il ərzində bütün bunlara nail oldu.

Müstəqil Azərbaycanın və tərəfdaşlarının maraqlarını təmin edən beynəlxalq layihələrin təşəbbüsçüsü və icraçısı oldu!

Bu layihələr Azərbaycana təkcə pul qazandırmadı, dostlarının, haqq işini müdafiə edənlərinin də sayını artırdı!

❖❖❖

Prezident İlham Əliyev Azərbaycanı dünya birliyinə müasir, demokratik dövlət kimi də tanıtdırmağı bacardı.

Hücum diplomatiyasını tətbiq etdi, beynəlxalq qurum və təşkilatlarda ardıcıl səmərəli və məqsədyönlü iş apardı!

Azərbaycan bütün bədxahlarına tutarlı cavablar verərək öz həqiqətlərini yaydı, haqlı olduğuna, təcavüzə məruz qaldığına dünyanı inandırdı!

Neft kapitalının insan kapitalına çevrilməsi təşəbbüsünü irəli sürərək yeni - savadlı, vətənpərvər və ağıllı gənc nəsil tərbiyələndirdi, onları doğru istiqamətə yönləndirdi.

Milli Olimpiya Komitəsinin Prezidenti olaraq Azərbaycan gəncində özünəinam, dövlət bayrağına və himninə məhəbbət hissləri aşıladı, onların iştirakı ilə ən yeni silahlarla, taktika və strategiya ilə silahlanmış qüdrətli ordu yaratdı!

Elə bir ordu ki, 44 gün ərzində düşmən ordusunu məhv edərək Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi!

❖❖❖

Əslində, cənab İlham Əliyev Azərbaycan rəhbərliyinə gəldiyi ilk günlərdən işğal altındakı torpaqları necə azad edəcəyi barədə düşünürdü.

Bu yolda nə mümkündürsə, hamısını etdi!

Hətta mümkün olmayanları da etdi!

44 günlük Vətən müharibəsində təkcə Ermənistana, dünya erməniliyinə deyil, Ermənistanın dostlarına və havadarlarına da qalib gəldi!

Hərbi əməliyyatlar dövründə özü 3 cəbhədə - hərb meydanında, diplomatiya və informasiya müharibəsində qəhrəmanlıqla çarpışaraq hər üçünün qalibi oldu!

Buna qədər Vətən müharibəsinə böyük müdriklik və uzaqgörənliklə zəruri olan bütün hazırlıq işlərini də ən yüksək səviyyədə gördü!

Torpaqların sülh yolu ilə qaytarılması danışıqlarında prinsipiallıqla, Azərbaycan xalqının maraqlarını qətiyyətlə müdafiə edərək, diplomatiya sahəsində məharətlə, səmərəli çalışmaqla dəyişməz mövqeyini də açıq şəkildə ortaya qoydu:

* Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və heç zaman olmayacaqdır;
* Azərbaycan bir qarış torpağını belə güzəştə getməyəcəkdir;
* Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir!

İlham Əliyev həlledici müharibəyə iqtisadi cəhətdən, dövləti gücləndirməklə hazırlaşdı:

* Ölkənin enerji, nəqliyyat və ərzaq təhlükəsizliyini təmin etdi;
* Ordunu ən müasir silahlarla silahlandırdı;
* Xalqın milli birliyini yaratdı;
* Möhkəm və kifayət qədər valyuta ehtiyatı gördü;
* Düşmənin səhvlərindən və bacarıqsızlığından məharətlə istifadə etdi!

❖❖❖

İlham Əliyevin rəhbərliyi və sərkərdəliyi ilə qazanılan möhtəşəm qələbə bütövlükdə həm də türk dünyasının qələbəsidir!

Kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatda Zəngəzur dəhlizinin açılması, beləliklə, Türkiyə ilə Azərbaycan arasında birbaşa quru yolunun bərpası nəzərdə tutulur.

Və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla İlham Əliyev birlikdə yeni açılan yolun təməlini də qoydular!

Mahiyyətcə bu, türk dövlətlərinin qəsdən, məqsədyönlü şəkildə bir-birilərindən ayrı salınması, əlaqələrinin zəifləməsi və soyuması siyasətinə son qoyulması deməkdir!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsindəki Zəfəri ilə baş tutan bu birləşmə qələbəmizin miqyas və möhtəşəmliyini daha da artırır.

Bu hadisəyə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çox yüksək, həqiqi qiymətini vermişdir:

* "Qətiyyətli rəhbərliyinizlə Qarabağda təxminən otuz il davam edən işğala 44 gün kimi qısa müddətdə son qoyulub. Bu, təkcə azərbaycanlı qardaşlarımız üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyət daşımaqdadır".

* "Xəzərdən keçən Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi başda olmaqla aramızdakı bütün yolları bu coğrafiyanın əsas arteriyalarına çevirə bilərik. Azərbaycan-Naxçıvan bağlantısı da bu mənada həyati əhəmiyyət daşıyır".

*"Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirmişdir".

❖❖❖

Azərbaycan Prezidenti cənab İlham Əliyevə Türk Dünyasının Ali Ordeninin verilməsi onun təkcə Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərinə və möhtəşəm Zəfərə görə deyil, həm də türk dövlətlərinin bir əsr əvvəl məkrli şəkildə pozulmuş coğrafi əlaqələrinin yenidən bərpasına yaratdığı real təminata görədir!

Bu gün Azərbaycan xalqı ilə birlikdə bütün türk dünyası da İlham Əliyevlə fəxr edir, onun gördüyü işlərin dəyərini və əzəmətini yüksək qiymətləndirir!

İlham Əliyev əziz dostu və qardaşı Rəcəb Tayyib Ərdoğanla birlikdə türkdilli dövlətlərin birliyinin yaradılması və inkişafı, üzvlərinin sayının artması sahəsində böyük işlər görmüşlər.

Bütün bunlar şuranın Türk Dövlətləri Təşkilatına çevrilməsinə, habelə əməkdaşlığın sıxlaşdırılmasına və əlaqələrin möhkəmləndirilməsinə mühüm təsir göstərmişdir.

Zaman özü türkdilli dövlətlərin birləşməsini, əlbir və əlaqəli fəaliyyət göstərməsini tələb edir!

Çox şadıq ki, zamanın, dövrün bu tələbinin reallaşmasına ən böyük töhfəni türk dünyasının fəxri, Azərbaycan xalqının müdrik və uzaqgörən rəhbəri İlham Əliyev vermişdir!

***16 noyabr 2021-ci il***

## Ləyaqətli müharibə

*"Biz müharibəni ləyaqətlə aparmışıq, bütün müharibə qanunlarına riayət edərək aparmışıq. Biz mülki əhaliyə qarşı vuruşmamışıq, biz binaları bombalamamışıq, biz qəddarlıqla məşğul olmamışıq".*
***İlham ƏLİYEV***

İnsanin dünyaya gəlişi və həyatdan getməsi Allahın adı ilə bağlıdır!

Allahın yaratdığını Uca Tanrının özündən başqa heç kim həyatdan məhrum etməməlidir!

Bu günahdır!

Həm də cinayətdir!

Lakin bəzən insan öldürmək nəinki günah, cinayət əməli sayılır, əksinə zərurət, qəhrəmanlıq hesab olunur!

Əlbəttə, söhbət ədalətli müharibədən, rəzil düşmənin öldürülməsindən gedir!

Vətənin müdafiəsi, doğma torpaqların qorunması, işğaldan azad edilməsi müqəddəs borc, vəzifədir!

Şair gözəl deyib:

Vətəni sevməyən insan olmaz...

Sevdiyini isə qorumağı, müdafiə etməyi bacarmalısan!

Həm də bütün bunları qəlbən istəməlisən!

Üstəlik, bu yolda hər an şəhid getməyə də hazır olmalısan!

❖❖❖

Müharibədə qarşılaşan hər iki tərəf bir-birini düşmən sayır!

Bir-birini öldürmək istəyir!

Kimin haqlı, kimin təcavüzkar sayılmasından asılı olmayaraq.

Bu qan tökməyin, qəddarlığın da özünəməxsus qanunları, normaları var.

Müharibədə də müəyyən qırmızı xətlər mövcud olur.

Həm mülki əhaliyə münasibətdə, həm işlədilən silahlarda, həm də müharibə aparılan ərazidə yaşayan insanlarla davranışda...

Azərbaycan xalqının təbirincə desək, düşmənin də mərdi və namərdi olur!

Vay o gündən ki, düşmənin namərd, alçaq, xəbis, yalançı, satqın, qorxaq, ikiüzlü, yaltaq və hiyləgər ola!

Erməni kimi!

Azərbaycan xalqı həmişə açıq döyüşün, mərd düşmənçiliyin tərəfdarı olub.

Dastanlarda, nağıllarda, roman və povestlərdə belə düşmən təqdir edilib.

Heyhat, real həyatda qarşımıza çıxan namərd erməni oldu!

Amma xalqımız Vətən müharibəsində murdar düşmənə qarşı mərdliklə, kişi kimi döyüşdü, cəsarət, rəşadət, qəhrəmanlıq nümunələri göstərdi.

Düşmənin bütün alçaqlıqlarının, şərəfsizliyinin dəfələrlə şahidi olsa da!

Azərbaycan xalqının 44 günlük Vətən müharibəsi təkcə ona görə ləyaqətli müharibə hesab olunmur ki, torpaqların işğaldan azad edilməsi uğrunda aparılan savaş ədalətli, beynəlxalq hüquqa və onun tələblərinə cavab verən şəkildə gerçəkləşdi.

Bu müharibənin ən yeni silahlarla, taktika və strategiya ilə aparılması, XXI əsrin ən yeni müharibəsi sayılması, dünya üçün nümunəyə çevrilməsi sırf hərb, hərb elminin tələblərinə cavab verməsi məsələnin yalnız hərbi-texniki tərəfidir.

Ləyaqətli müharibə ölüm-dirim savaşında, ölüb-öldürmə meydanında, düşmənin hər cür alçaqlığının şahidi olduğun bir vaxtda da öz insanlığını, ləyaqət hissini unutmamaqdır!

Hətta şərəfsiz addımlara, murdar əməllərə müharibə qanunları çərçivəsində, hərbin dili ilə, faşıst metodları tətbiq etmədən cavab verilməsidir!

Azərbaycan Ordusu əvvəldən axıradək yalnız hərbçilərə qarşı döyüşdü, hərbi mövqelərə, texnikaya, atəş nöqtələrinə dəqiq zərbələr endirdi.

Həm də bunları çəkərək bütün dünyaya nümayiş etdirdi!

Ancaq erməni mülki əhalisinə qarşı heç bir zorakılıq olmadı, əksinə, onlar qorundu və dərhal da qarşı tərəfə təhvil verildi!

Müzəffər Ali Baş Komandan İlham Əliyev də, Azərbaycan Ordusu da sona qədər təmkinli, ləyaqətli davrandı!

Hətta bu, düşmənin etdiyi alçaqlıqlar qarşısında nə qədər çətin və ağır olsa da belə!

Bəli, alçaq düşmən şərəfsizcəsinə cəbhə xəttindən çox-çox uzaqda yerləşən Gəncə, Tərtər, Bərdə, Goranboy şəhərlərini raket və mərmi atəşinə tutduğu bir vaxtda!

Gecə vaxtı Gəncənin yaşayış məhəllələri, günün-günorta çağı Bərdə şəhərinin ən çox insanın toplaşdığı yer, gecə-gündüz bilmədən Tərtərin kənd, qəsəbə və şəhəri dağıdılanda!

Ballistik raketlər dalbadal qeyri-hərbi obyektlərə atılanda!

Qadağan olunmuş fosforlu, kasetli bombalar dinc əhaliyə qarşı tətbiq ediləndə!

Bəli, belə məqamlarda əsəblərini və hisslərini cilovlamaq çox çətin idi!

Ancaq Azərbaycan tərəfi bir an belə olsun ləyaqət hissini unutmadı!

Bütün alçaqlıqların əvəzini döyüş meydanında verdi!

Həm də artıqlaması ilə!

❖❖❖

Azərbaycan xalqı bu müharibədə düşmənə qəhrəmanlığı, vətənpərvərliyi, ləyaqət hissi ilə də qalib gəldi!

Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 gün ərzində Ermənistan ordusunu məhv etdi.

Düşməni qarşısında diz çökdürdü!

"Dəmir yumruğ"u ilə başını əzdi!

Həm də informasiya müharibəsində biabırçı məğlubiyyətə uğratdı.

Onun yalançı, riyakar, vandal olduğunu konkret faktlarla ifşa etdi.

Müharibə qanunlarını dəfələrlə pozduğunu, qadağan olunmuş silahlardan, bombalardan, ballistik raketlərdən istifadə etdiyini sübutlarla göstərdi.

Bu gün də erməni vandallığı, murdarlığı, 30 illik işğal dövründə törətdiyi vəhşiliklər, dini, mədəni, tarixi abidələrə vəhşi, qeyri-insani münasibətləri dünyaya təqdim edilməkdədir.

Təkcə "böyük Ermənistan" mifi deyil, "qədim mədəni xalq" əfsanəsi də puça çıxarılmışdır.

Düşmənin növbəti ləyaqətsizliyi diz çökərək imzaladığı kapitulyasiya aktının bəndlərini yerinə yetirmək istəməməsi, üzərinə götürdüyü öhdəliklərin müxtəlif şəkildə, bəhanələrlə icrasından boyun qaçırmasıdır!

"Dəmir yumruq" hər bir hiylədən, oyunbazlıqdan yüksəkdə dayanır və gücünü daha da artırır!

İstənilən an düşmənə daha ağır formada dərs vermək imkanımız var və bu hüququ özümüzdə saxlamışıq!

Terrorçulara və separatçılara qarşı daha bir ləyaqətli hərbi əməliyyat keçirmək hər zaman mümkündür!

Yenə də seçim Ermənistanındır!

Onlar istəməsələr də, Zəngəzur dəhlizi yaradılacaq!

Onlar istəməsələr də, Azərbaycan öz ərazisində öz qanunlarını tətbiq edərək terrorun və separatizmin kökünü birdəfəlik kəsəcəkdir!

Həm də son dərəcədə ləyaqət hissi ilə!

***31 mart 2022-ci il***

## Əsl rəhbər, qüdrətli sərkərdə

Dünyada elə şəxsiyyətlər var ki, onlar haqqında yazmaq, əslində, mənsub olduqları xalqın, rəhbərlik etdikləri dövlətin müəyyən dövründən, uğur, qələbə və sınaqlarından bəhs etmək deməkdir.

Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun tarixində də belə şəxsiyyətlər var!

Onlardan biri də müstəqil Azərbaycanın Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevdir!

Cənab İlham Əliyev on doqquz ildir ki, Azərbaycana rəhbərlik edir.

Dördüncü dəfə xalqın etimadı və etibarı ilə prezident seçilməsinin 4 ili tamam olur.

Zaman baxımından o qədər də çox deyil!

Görülən işlərin miqyası və möhtəşəmliyi sarıdan isə misilsizdir!

İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının və dövlətinin qazandığı nailiyyətlər və qələbələr barədə danışsaq, cild-cild kitablara sığmaz!

Qısaca söhbət açsaq isə, yalnız görülən işləri xatırlada bilərik.

Beləliklə, Azərbaycan Prezidenti, xalqın pənahı və sevimlisi cənab İlham Əliyev hansı nailiyyətlərə imza atıb.

❖❖❖

Bir maraqlı məqama diqqət çəkmək istəyirik:

Cənab İlham Əliyev respublika əhəmiyyətli vəzifələrə təyin olunanda və ya seçiləndə belə daim xarizması, intellekti, yaradıcı fəaliyyəti, təşkilatçılıq məharəti və istedadı sayəsində gördüyü işlərin nəticələrini dünya miqyasına çıxarmağa, çoxlarının bəhrələnməsinə nail olub!

İlk dəfə biz İlham Əliyevi ARDNŞ-nin (SOCAR-ın) birinci vitse-prezidenti vəzifəsində gördük.

O ZAMAN:

* Ərazilərimizin 20 faizi düşmən işğalında idi...

* Sabitlik və əmin-amanlıq tam bərpa olunmamışdı, hələ iki dövlət çevrilişinə cəhd baş verəcəkdi...

* Dövlət büdcəsi yoxsul, qaçqınlar və məcburi köçkünlər ağır durumda qalmışdı...

* Yeni ordu qurmaq, onu silahlandırmaq, bazar iqtisadiyyatı prinsiplərini tam bərqərar etmək vacib vəzifə kimi qarşıda dururdu...

* AXC-Müsavat cütlüyünün uğursuz iqtidarı ölkədə xaos və anarxiya yaratmış, onların naşılığı və səriştəsizliyi, maddi maraqlarını üstün tutmaları neft danışıqlarını yarıda qoyaraq dalana dirəmişdi...

Belə ağır məqamda Ulu Öndər Heydər Əliyev danışıqların bütün məsuliyyətini və yükünü cənab İlham Əliyevə həvalə etdi.

Beləliklə, gərgin və mürəkkəb keçən neft danışıqları prosesində Azərbaycan xalqının maraqlarını əks etdirən müqavilə layihəsi hazırlandı.

Sonralar "Əsrin müqaviləsi" adlanan bu neft kontraktı hələ də qüvvədədir, Azərbaycana və Avropaya, həm də dünyaya böyük fayda gətirməkdə davam edir.

❖❖❖

Cənab İlham Əliyevin Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi təkcə ölkəmizdə deyil, bütün dünyada idmanın inkişafına yeni təkan verdi.

Azərbaycanda yaranmış ümummilli böhran idmandan da yan keçməmişdi!

Sovet dövründə tikilmiş idman qurğuları və sarayları baxımsızlıq üzündən dağılmış, respublika stadionu, velotrek "tolkuçka"ya çevrilmişdi...

Daha ölkə daxilində idman yarışları keçirilmir, vəsaitsizlik üzündən beynəlxalq yarışlara idmançılar göndərilmirdi...

"İşsiz" qalan idmançılar və məşqçilər xarici ölkələrə gedərək özgə bayraqları altında çıxış edirdilər...

Hər şeyə təzədən başlamaq lazım gəlirdi...

İlham Əliyevin Azərbaycan idmanına rəhbərlik etdiyi müddətdə idmanımız dünya miqyasına çıxdı, ön sırada özünə yer tutdu, yüzlərlə gənc olimpiya, dünya, Avropa çempionu olaraq bayrağımızı yüksəltdi, himnimizi səsləndirdi.

Ölkə daxilində qırxdan artıq olimpiya idman kompleksi tikildi, Azərbaycan I Avropa Oyunlarının və IV İslam Həmrəyliyi Oyunlarının təşkilatçısı oldu, beynəlxalq idman yarışlarının uğurla keçirildiyi məkana çevrildi.

❖❖❖

Milli Məclisin AŞ PA-dakı nümayəndə heyətinə rəhbərliyi cənab İlham Əliyevin beynəlxalq aləmdə qazandığı sonrakı uğurlarının ilki oldu.

İlham Əliyev beynəlxalq təşkilatlarda Azərbaycanın maraqlarını necə qorumağın, haqq işini müdafiə etməyin, özünə yeni dostlar qazanmağın, bədxahların isə ağzından vurmağın əsl nümunəsini yaratdı!

Məhz bundan sonrakı dövrlərdə Azərbaycan beynəlxalq qurum və təşkilatlarda fəal iş apararaq yeni nailiyyətlər qazandı, bölgədə və dünyada söz sahibinə çevrildi.

Hücum diplomatiyasına start verildi.

❖❖❖

2003-cü ilin oktyabrında cənab İlham Əliyev Ulu Öndərimizin zəmanəti, habelə xalqımızın Heydər Əliyev siyasi kursuna sarsılmaz inamı və sədaqəti ilə ilk dəfə Azərbaycan Prezidenti seçildi!

Qısa zaman kəsiyində inam və etimadı doğrultdu, sınaqlarla dolu rəhbərliyi dövründə xalqın sonsuz məhəbbətini və etibarını qazandı.

Ölkəyə rəhbərliyinin hər ilində yeni uğurlar qazandı, cari və perspektiv problemlərin həlli ilə yanaşı, nisbətən uzaq hədəflərə çatmaq üçün təməllər yaratmağı, imkanları səfərbərliyə almağı bacardı.

Qeyd edək ki, İlham Əliyevin prezidentliyinin ilk dövründə görüləsi işlər və problemlər kifayət qədər çox idi.

MƏSƏLƏN:

* bölgələrə elektrik enerjisi fasilələrlə verilirdi;
* regionlara qaz xətti çəkilmədiyindən böyük çətinliklər yaşanırdı;
* şəhərlərarası magistral yollar darısqal, dağılmış və bərbad vəziyyətdə idi;
* sahibkarlıq formalaşmamışdı, işsizlik baş alıb gedir, kəndlər boşalırdı;
* qaçqın və məcburi köçkünlər çadır şəhərciklərində, ictimai binalarda ağır vəziyyətdə yaşayırdı;
* sürətlə ordu qurmaq, onu silahlandırmaq tələb olunurdu;
* transmilli layihələri maliyyələşdirməkdə ciddi çətinliklər mövcud idi;
* Ermənistan sülh danışıqlarına gəlmir, ATƏT öz vəzifəsini icra etmir, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi həyata keçirilmirdi və s.

Qurucu rəhbər adını qazanan cənab İlham Əliyev prezidentliyi dövründə yuxarıda sadalanan bütün problemləri çox böyük uğurla həll etdi, ölkə daxilində, xarici siyasətdə, ordu quruculuğunda möhtəşəm nailiyyətlər qazandı.

Azərbaycan xalqı öz sınanmış oğluna, görkəmli dövlət xadiminə dəfələrlə yüksək etimad göstərdi, dövlət sükanını böyük əminliklə ona etibar etdi.

Bu gün dünya müstəqil Azərbaycanı büsbütün dəyişmiş, yenidən tikilib qurulmuş, güclü iqtisadiyyatı, müstəqil daxili və xarici siyasəti, demokratik təsisatları, müasir beynəlxalq imici, qüdrətli ordusu, milli birliyi və tolerantlığı olan ölkə kimi tanıyır!

Hətta bəzən ona "İlham Əliyevin Azərbaycanı" da deyirlər!

❖❖❖

Sonuncu prezident seçkilərindən 4 il keçir!

Prezident İlham Əliyev bu müddətdə də Azərbaycanı inkişaf etdirmiş, ölkə qarşısında duran ciddi problemləri müvəffəqiyyətlə yoluna qoymuş, dövlətin möhkəmlənməsi, xalqın rifahının yüksəlməsi, insanların arzu və istəklərinin həyata keçirilməsi yolunda əsaslı dəyişikliklərə nail olmuş, apardığı islahatları daha da dərinləşdirmişdir.

Axırıncı 4 ildə baş verən mühüm hadisələrdən ikisi haqqında ayrıca danışmağa ehtiyac duyulur.

Bunlardan biri COVID-19 adını almış, dünyanın yaşam tərzini, insanların həyatını dəyişmiş pandemiyadır!

Heç kim təsəvvür belə etməzdi ki, XXI əsrdə qəflətən meydana çıxan hansısa yoluxucu xəstəlik pandemiyaya çevriləcək, qısa müddətdə dünyanı caynağına alacaq, milyonlarla insanın ölümünə səbəb olacaq, dünyanı özünə qapadacaq, iqtisadiyyata böyük zərbə vuracaq, tibb elmini aciz durumda qoyacaqdır!

Amma bütün bunlar baş verdi!

Həm də ildırım sürəti ilə!

Çoxları başını itirdi...

Bir çox dövlətlər bu bəlanın öhdəsindən gələ bilmədiklərinə, vaxtında zəruri addımlar atmadıqlarına görə pandemiyaya çevrilmiş COVID-19-un əlində girov qaldılar, ciddi iqtisadi və insan tələfatı verərək çətin və çıxılmaz vəziyyətə düşdülər!

İlham Əliyevin uzaqgörənliyi və xarizması, hadisələri qabaqlamaq bacarığı və zamanında düzgün qərarlar qəbul etmək məharəti bu məqamda da kara gəldi!

Pandemiyanın genişlənməsinin, vüsətlənməsinin qarşısına sipər çəkildi, ağırlaşmaların hər dövründə öncədən qabaqlama işləri aparıldı, insanlar və iqtisadiyyat ağır nəticələrdən, sonrakı fəsadlardan uğurla qorundu!

Dövlət rəhbəri xalqa müraciət etdi, vəziyyətin ciddiliyini və çətinliyini insanlara anlatdı, hamını əlbir, əlaqəli və mütəşəkkil fəaliyyətə səslədi, Azərbaycan səhiyyəsini qısa müddətdə ekstremal vəziyyətə köklədi.

Prezident İlham Əliyevin pandemiyanın qarşısını almaq, xalqı bu bəladan sovuşdurmaq üçün gördüyü işlərin sayı-hesabı yoxdur!

İnfeksiyanın aşkarlandığı ilk gündən təxirəsalınmaz addımlar atıldı:

* Dövlət başçısının sərəncamı ilə Nazirlər Kabineti yanında Operativ Qərargah fəaliyyətə başladı;

* Xəstəliyin yayılmasının qarşısının alınmasına dair "Fəaliyyət planı" və "Tədbirlər planı" təsdiq edildi;

* 19 mart 2020-ci ildə dünyada ilk olaraq Azərbaycanda Koronavirusla Mübarizəyə Dəstək Fondu təsis edildi və Prezidentin ehtiyat fondundan oraya 20 milyon manat vəsait köçürüldü;

* Dövlət başçısının tapşırığı əsasında qısa zamanda səhiyyə infrastrukturu koronavirusla mübarizəyə istiqamətləndirildi, yoluxmuş xəstələrin müalicəsi üçün 46 xəstəxana müəyyən edildi, 11 modul tipli yeni xəstəxana istifadəyə verildi;

* Bu bəlaya qarşı mübarizə məqsədilə dövlət büdcəsindən 4 milyard manat vəsait ayrıldı;

* Koronavirusla mübarizə çərçivəsində məşğulluq və sosial rifahın dəstəklənməsinə 610 mln. manat, səhiyyə məqsədlərinə 754,2 mln. manat, iqtisadi artım və sahibkarlıq fəaliyyətinin dəstəklənməsinə 1,1 mlrd. manat, verilmiş kredit portfeli üzrə 1,5 mlrd. manat, beynəlxalq miqyasda tədbirlərin dəstəklənməsinə 39,3 mln. manat vəsait xərcləndi.

* Prezident İlham Əliyevin göstərişi ilə minlərlə Azərbaycan vətəndaşı, xüsusən də xaricdə təhsil alan tələbələrimiz müxtəlif ölkələrdən dövlət hesabına təşkil olunmuş çarter reysləri vasitəsilə Vətənə qaytarıldı;

* Cənab İlham Əliyevin dünya miqyasında rəğbətlə qarşılanan mühüm təşəbbüsləri də oldu. Belə ki, 2020-ci ilin aprel ayında koronavirusa qarşı mübarizə ilə bağlı Türk Şurasının Zirvə görüşü, may ayında isə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə Zirvə görüşü keçirildi;

* 2021-ci il dekabrın 16-da BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində assambleyanın plenar iclasında Qoşulmama Hərəkatının Sədri qismində Azərbaycan Prezidentinin təşəbbüsü ilə QH üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT-yə üzv dövlətlərin mütləq əksəriyyətinin (179 dövlət) dəstəyi ilə qəbul edildi;

* Peyvəndlərə çıxışla əlaqədar dövlətlər arasında dərinləşən qeyri-bərabərliyin aradan qaldırılması üçün Azərbaycan ÜST-yə 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi etdi ki, onun yarısı Qoşulmama Hərəkatının üzvlərinə birbaşa yardım oldu;

* Azərbaycan Qoşulmama Hərəkatının üzvləri daxil olmaqla, 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərdi, təmənnasız olaraq dörd ölkəyə 150 min doza peyvənd ianə etdi. Son olaraq 2021-ci il dekabrın 6-da Azərbaycan Burkina Faso dövlətinə 100 min doza "Sinovac" peyvəndi ianə etdi.

Prezident İlham Əliyevin zamanında atdığı addımlar gərəkli və faydalı olmaqla yanaşı, Azərbaycanın və onun rəhbərinin beynəlxalq nüfuzunun və imicinin yüksəlməsinə də töhfə vermiş oldu.

❖❖❖

İlham Əliyevin böyüklüyü həm də ondadır ki, ən çətin, ən ağır, ən mürəkkəb vəziyyətdən belə qələbə ilə çıxmağı bacarır!

2020-ci il dünya üçün mürəkkəb, qorxulu, iqtisadi cəhətdən sarsıdıcı bir il idi!

COVID-19 insanları çöl-bayırdan məhrum etmiş, iqtisadiyyatın normal ritmini pozaraq inkişaf sürətini aşağı salmış, ümidsiz vəziyyət yaratmışdı!

İlham Əliyevin müdrikliyi və uzaqgörənliyi, nəyi nə vaxt və necə etmək məhurəti dünya üçün ən ağır keçən ili Azərbaycan üçün möhtəşəm qələbə, zəfər ilinə çevirdi!

İqtidara gəldiyi ilk gündən işğal altındakı torpaqları azad etməyi qarşıya məqsəd qoyan, hər gün, hər saat bu barədə düşünən, əməli iş görərək zəruri, hesablanmış addımlar atan cənab İlham Əliyev pandemiyanın tüğyan etdiyi 2020-ci ili Azərbaycan tarixinin ən şərəfli ili etdi!

Öz adını da qızıl hərflərlə tariximizin ən böyük sərkərdələri sırasına yazdı!

Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsi dövründə:

* Ermənistan ordusunu məhv etdi!
* Azğın düşməni qarşısında diz çökdürdü!
* "Dəmir yumruğ"u ilə başını əzərək kapitulyasiya aktına imza atdırdı!
* Ağdam, Laçın, Kəlbəcər rayonlarını döyüşsüz geri aldı!
* "Məğlubedilməz" erməni ordusunu fərarilər, qorxaqlar yığnağına çevirdi!
* XXI əsrin ən yeni müharibəsini apardı!
* Bu müharibədə tətbiq etdiyi silahlar, taktika və strategiyanı dünya üçün örnəyə çevirdi!
* Azərbaycan xalqını dünyaya məğrur, qalib, qəhrəman xalq kimi tanıtdı!

Bu müharibədə İlham Əliyevin tərbiyələndirdiyi, idman meydanlarında erməniləri dəfələrlə məğlub edən yeni gənc nəsil əsl rəşadət, qəhrəmanlıq göstərdi!

Bu müharibədə multikultural ənənələrə sadiq Azərbaycanın bütün millətlərinin və etnik qruplarının nümayəndələri hünərlə döyüşərək Vətən sevgisini hərb meydanında da nümayiş etdirdilər!

Yüzlərlə gənc qəhrəmancasına çarpışaraq ərazi bütövlüyünün bərpası, Vətən torpaqlarının urder düşməndən təmizlənməsi uğrunda ağır döyüşlərdə şəhidlik zirvəsinə ucaldılar!

İlham Əliyev Azərbaycan xalqının milli birliyinə nail oldu, ölkə vətəndaşlarını Vətən sevgisi, azğın düşmənə qarşı müharibədə yumruq kimi birləşdirdi, indiyədək görmədiyimiz həmrəylik yaratdı!

❖❖❖

Son illərdə Azərbaycanın qlobal dünyanın həssas problemlərinin müzakirə olunduğu məkana çevrilməsi, belə görüş və müzakirələrin təşkilində ölkəmizin aparıcı rol alması, dövlət başçısının beynəlxalq səviyyəli nüfuzlu tədbirlərə daim dəvətli olması və çıxış etməsi iftixar doğuran hadisələrdir!

Artıq Azərbaycan Prezidenti cənab İlham Əliyev dünya miqyasında daha aydın görünən, mövqeyinə, fikirlərinə və təkliflərinə hörmətlə yanaşılan dövlət başçıları sırasındadır!

Prezidentimizin Qoşulmama Hərəkatına uğurlu rəhbərliyi, sədrlik dövrünün daha bir il artırılması böyük sevinc və fərəh doğuran haldır.

Azərbaycan-Türkiyə dostluğu və qardaşlığının yeni, indiyədək görünməmiş səviyyəyə yüksəlməsi tarixi əhəmiyyətli hadisələrdəndir.

Bu yaxınlaşma həm də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə cənab İlham Əliyevin şəxsi dostluğundan və səmimi münasibətlərindən qaynaqlanır.

Hər iki dövlətə böyük fayda gətirir, güclərinə güc qatır.

44 günlük Vətən müharibəsində biz türk qardaşlarımızı daim yanımızda gördük, bütün sahələrdə və məsələlərdə köməklərini aldıq.

Şuşa Bəyannaməsi isə iki qardaş dövləti strateji müttəfiqə çevirərək münasibətləri ən uca zirvəyə yüksəltdi!

İki görkəmli liderin qurduğu möhtəşəm birlik artıq hamı tərəfindən etiraf və qəbul olunur:

Türkiyə deyəndə Azərbaycan, Azərbaycan deyəndə Türkiyə yada düşür və atılan addımlarda bu vəhdət daim diqqətdə saxlanılır.

Prezident İlham Əliyevin ən böyük uğurlarından biri də Rusiya-Azərbaycan dostluğunu daha yüksək səviyyəyə qaldırmaqla müttəfiqlik qarşılıqlı əlaqələrinin yeni imzalanan Moskva Bəyannaməsi ilə daha da möhkəmləndirməsidir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsindəki Zəfəri, əslində, 3 qat qələbədir!

Cənab İlham Əliyev təkcə hərb meydanında düşmənin başına od ələyərək onu məhv etmədi!

Həm də diplomatiya sahəsində və informasiya müharibəsində də biabırçı məğlubiyyətə uğratdı!

❖❖❖

Müharibədən sonrakı dövr isə bu zəfərin müxtəlif sahələrdə və ayrı-ayrı müstəvidə davamıdır:

Yeni yollar çəkilir, dəmir yolu xətti salınır, şəhərlərin baş planı tutularaq təsdiq edilir, bir-birindən maraqlı, baş müəllifi cənab İlham Əliyev olan layihələrin icrasına start verilir, mina sahələri təmizlənərək Böyük qayıdışın tezliklə baş tutmasına şərait yaradılır.

Bir sözlə, Qarabağa azadlıq gətirən Prezident İlham Əliyev onun dirçəldilməsi və cənnətə çevrilməsi üçün mümkün olanların hamısını fədakarlıqla edir.

Regionların sosial-iqtisadi inkişafına dair IV Dövlət Proqramı uğurla icra olunur.

Qeyri-ənənəvi enerji istehsalı sahəsində bir-birindən uğurlu layihələr reallaşdırılır.

Şəhid ailələrinə, müharibə əlillərinə xüsusi diqqət və qayğı göstərilir, onlara dövlət hesabına tikilmiş təmirli mənzillər, minik avtomobilləri verilir, sosial ehtiyacları qarşılanır.

Pandemiyadan uğurla çıxmış, torpaqlarını erməni işğalçılarından azad edərək böyük zəfər qazanmış Azərbaycanı qarşıda daha böyük işlər, yerinə yetiriləsi vəzifələr gözləyir.

Azərbaycan xalqı əmindir ki, bütün hədəflərə ən tez vaxtda və ən qısa yolla çatacaqdır!

Çünki müstəqil dövlətimizin sükanı arxasında əsl rəhbər, qüdrətli sərkərdə, müasir dünya liderləri sırasında özünə layiqli yer qazanmış cənab İlham Əliyev dayanıb!

Onun güclü əlləri, iti zəkası, müstəqil və uzaqgörən siyasəti, xalqına xidmət amalı ilə döyünən vətənpərvər qəlbi vardır.

Belə rəhbərlə yalnız uğur qazanmaq, qalib gəlmək mümkündür!

Sözünün sahibi olan, nəyi, nə vaxt və necə etməyi hamıdan yaxşı bilən, doğma Azərbaycanı daim ucaldan, xalqın hər bir arzu və istəyini reallaşdıran Prezidenti olmaq özü də bir xoşbəxtlikdir!

İlham Əliyev kimi qüdrətli, müdrik, işıqlı qəlb sahibi olan Prezidenti!

***12 aprel 2022-ci il***

## Zəfərin təməli

Xalqımızın gözəl deyimi var:

Bir-biri üçün yaranmışlar!

Geniş mənada bu ifadəni Ulu Öndər Heydər Əliyevlə Azərbaycana da şamil etmək olar.

Bəli, Heydər Əliyev üçün Azərbaycan hər şeydən qiymətli və əziz idi, onu bütün varlığı ilə sevirdi!

Azərbaycan isə daim Heydər Əliyevlə ucaldı, tikilib-quruldu, şöhrət zirvəsinə çatdı!

Heydər Əliyevin müdrikliyi, böyüklüyü və uzaqgörənliyi həm də onda idi ki, özündən sonrakı Azərbaycanın gələcəyini, yüksəlişini, qüdrətini və firavanlığını da düşünürdü.

Həm də təkcə düşünmürdü, görüləsi vacib işlərin təməlini, əsasını yaradırdı.

❖❖❖

"Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan".

Ulu Öndərimizin kövrələrək söylədiyi bu məşhur misralar hər birimizi də duyğulandırır, riqqətə gətirir.

Şüurlu həyatının bütün dövrlərində Heydər Əliyev Azərbaycana xidmət edib, bütün varlığı ilə onun yüksəlməsinə, qüdrətlənməsinə, Azərbaycan xalqının daha azad, daha firavan, daha əmin-amanlıq içərisində yaşamasına səy göstərib!

Və istədiyinə də nail olub!

Həm ölkəyə birinci rəhbərliyi dövründə, həm də xalqın arzu və tələbi ilə yenidən hakimiyyətə qayıdışı dövründə.

Çox maraqlı bir məqam da var:

Ulu Öndər Heydər Əliyev artıq illərdir ki, Azərbaycanın uğur və inkişafının simvoluna çevrilib!

Belə ki, Heydər Əliyev Azərbaycana rəhbərlik edəndə ölkə tərəqqi yolu ilə sürətlə irəliləyir, bütün məqsədlərinə nail olurdu!

Əgər Ulu Öndərimiz Azərbaycandan ayrılıbsa, onda Azərbaycan da fəlakətli sınaqlara məruz qalır, böhrana yuvarlanır, insanlar ümidsiz vəziyyətə düşürdülər!

Sonuncusu, Ümummilli Liderimizin bizi cismən tərk etməsi istisna olmaqla!

Bu halda isə özünün yetişdirdiyi, müəyyən etdiyi siyasi kursun ən layiqli davamçısı cənab İlham Əliyev Ulu Öndərin yoxluğunu bizə hiss etdirmədi!

Nəinki hiss etdirmədi, hətta onun qoyduğu yarımçıq işləri böyük müvəffəqiyyətlə başa çatdıraraq müqəddəs vəsiyyətini də şərəflə yerinə yetirdi!

Keçilən yola nəzər salaq.

❖❖❖

1941-1945-ci illər müharibəsindən Azərbaycan böyük çətinliklərlə çıxmışdı.

SSRİ adlanan superdövlət darmadağın olmuş, iqtisadiyyat pozulmuş, kənd təsərrüfatı çökmüşdü.

Cəbhəyə göndərilən 600 mindən çox azərbaycanlının 300 mini geri qayıtmamışdı.

Faşizmlə qələbəyə böyük töhfələr verən ölkəmizin neft sənayesi də ağır dövrünü yaşayırdı.

Hasilat aşağı düşmüş, texnika köhnəlmiş, yeni yataqlar kəşf olunmamışdı.

Stalin repressiyasının fəsadları da digər tərəfdən.

Dəfələrlə respublika rəhbərliyi dəyişdirilsə də, irəliləyiş müşahidə olunmamışdı...

1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi, əslində, ölkənin yeni intibahının başlanğıcı oldu!

❖❖❖

Heydər Əliyev qeyri-adi zəka, tükənməz enerji sahibi, məharətli təşkilatçı idi.

O, insanları inandırmağı, səfərbər etməyi, arxasınca aparmağı, qarşıya qoyduğu hədəflərə ən qısa yolla çatmağı bacarırdı!

Həm də bütün sahələr üzrə sürətlə irəliləməyin, cari vəzifələri uzaq perspektivlərlə üzvi surətdə əlaqələndirməyin də ustası idi.

Biz deyilənlərin Azərbaycana rəhbərliyi dövründə dəfələrlə şahidi olduq.

Heydər Əliyev həm də mənəviyyat təəssübkeşi idi və mənəvi sferanın bütün sahələrinə - elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyəyə böyük diqqət və qayğı göstərirdi.

Ulu Öndərimiz inkişafa hərtərəfli baxır, kompleks yanaşırdı.

Azərbaycana birinci rəhbərliyi dövründə respublikanı gerilikdən, durğunluq bataqlığından çıxarmaq üçün böyük və əhatəli işlər gördü:

* Şəxsi nüfuzundan və inandırmaq bacarığından istifadə etməklə hər il ittifaq büdcəsindən respublikaya kifayət qədər vəsait ayrılmasına nail oldu;

* Neft hasilatını artırmaq üçün yeni yataqlar kəşf edildi, texniki yeniliklərin tətbiqinə diqqət artırıldı;

* Dənizdən neft çıxarılmasını yaxşılaşdırmaq üçün ciddi addımlar atıldı, dünyada ilklərdən sayılan "Möcüzələr adası"nın şöhrəti yüksəldildi;

* Neft maşınqayırma və neft-kimya maşınqayırma sahələri güclü şəkildə inkişaf etdirildi;

* İttifaq əhəmiyyətli məişət kondisionerləri, dərin dəniz qazma qurğuları, elektronika, hərbi təmayüllü və digər zavodların Azərbaycanda inşasına nail oldu.

Ölkəmiz həm də sənaye respublikası kimi tanınmağa başladı.

Kənd təsərrüfatında əsaslı dönüş yaradıldı:

* Əkin sahələri genişləndirildi, gəlirli sahə sayılan pambıqçılığın inkişafı üçün təsirli tədbirlər görüldü;

* Bu sahədə əl əməyinin yüngülləşdirilməsi üçün yeni texnikanın tətbiqinə üstünlük verildi;

* Yeni heyvandarlıq kompleksləri tikildi, ət və süd istehsalı artırıldı;

* Üzümçülüyün və şərabçılığın inkişafı ilə bağlı Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin qərarı verildi, beləliklə, respublikaya külli miqdarda əlavə vəsait ayrıldı;

* Yeni qəsəbələr salındı, Azərbaycan kəndinin siması əsaslı şəkildə dəyişdi, kəndlinin rifahı və mədəni-məişət səviyyəsi xeyli yüksəldi.

Təhsil və mədəniyyət sahəsində də mühüm dəyişikliklər baş Verdi:

* Respublikanın hər bir guşəsində yeni məktəblər, uşaq bağçaları tikildi;

* Təhsil ocaqlarının sayı artırıldı, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu çoxaldıldı;

* Hər il SSRİ-nin ali məktəblərinə ittifaq büdcəsi hesabına yüzlərlə gənc göndərilərək ən nadir ixtisaslar üzrə mütəxəssislər hazırlandı;

* Bakıdakı hərbi məktəbə azərbaycanlı gənclərin qəbulunu asanlaşdırmaq üçün xüsusi kvota ayrıldı;

* SSRİ-nin hər yerindəki ali hərbi məktəblərə xeyli gənc göndərilərək hərbi kadrlar hazırlandı;

* Çoxsaylı xəstəxanalar, poliklinikalar tikildi, sanatoriyalar şəbəkəsi genişləndirildi.

Bütün bunların nəticəsində Azərbaycan yeniləndi, xalqın rifahı və erdi vəziyyəti yüksəldi, ölkəmiz SSRİ miqyasında qabaqcıl mövqelərə çıxdı.

Bundan erdi Ulu Öndər vəzifə pilləsi ilə irəli çəkilərək SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin olundu.

Heydər Əliyevlə Azərbaycanın müvəqqəti ayrılığı baş verdi.

Bu ayrılıq fəlakətli və ağrılı oldu, xalqın müsibətli günləri ilə müşayiət edildi.

❖❖❖

Ümummilli Lider Heydər Əliyevin Azərbaycana yenidən qayıdışı müstəqil dövlətin və dövlətçiliyin xilası, ölkənin yeni intibahının başlanğıcı kimi də xarakterizə oluna bilər.

Yenidən öz sevimli rəhbərinə qovuşan Azərbaycan artıq əvvəlki ölkə deyildi!

Xain əməllər, məkrli planlar nəticəsində ərazilərinin 20 faizi işğala məruz qalmış, iqtisadiyyatı dağılmış, ölkədə xaos yaranmış, idarəetmə iflic vəziyyətinə düşmüşdü!

Dövlətin büdcəsi isə boş qalmışdı...

Belə çətin və mürəkkəb vəziyyətdən yalnız Heydər Əliyev kimi nəhəng siyasi xadimlər çıxış yolu tapa bilərdilər.

Həm də gələcəyi görməklə, ölkənin əvvəlki qüdrətini qaytararaq ərazi bütövlüyünü hədəfləməklə!

Ən əvvəl düşmənlə atəşkəs barədə razılığa gəlindi.

Beləliklə, ordusuz və silahsız Azərbaycanın yeni ərazilərinin işğalının qarşısı alındı!

Təkcə işğalının deyil, dövlətin əvvəlki kimi kiçik xanlıqlara parçalanmasının da!

Ən vacib məsələ ölkədə möhkəm və dönməz sabitliyin yaradılması idi.

Ulu Öndərimiz qətiyyətli addımlarını atdı:

* Qeyri-qanuni silahlı dəstələr ləğv edildi;

* 4 oktyabr 1994-cü ildə və 13-18 mart 1995-ci ildə iki dövlət çevrilişi cəhdinin qarşısı uğurla alındı;

* Sabitlik və əmin-amanlıq bərpa olundu;

* Ümummilli böhrandan çıxmaq üçün təsirli tədbirlər görüldü;

* Baş müəllifi Ulu Öndər Heydər Əliyev olan yeni Konstitusiya hazırlanaraq ümumxalq səsverməsi yolu ilə qəbul edildi;

* Bazar iqtisadiyyatı prinsiplərinə keçid üçün zəruri hüquqi baza yaradıldı;

* İki özəlləşdirmə proqramı hazırlanaraq reallaşdırıldı;

* Kənddə yeni münasibətlərin formalaşdırılması və sahibkarlığın inkişafı üçün aqrar islahatlar keçirildi, torpaq həqiqi sahiblərinə qaytarıldı;

* Azərbaycanın müstəqil daxili və xarici siyasət yeritməsi praktiki şəkildə təmin olundu!

Tariximizə "Qurtuluş" adı ilə düşən bu qayıdış əslində Azərbaycanın taleyinin dəyişməsi, müstəqilliyinin əbədiliyə və dönməzliyə çevrilməsi ilə nəticələndi!

❖❖❖

Qarşıda görüləsi işlər, ümdə vəzifələr dururdu!

Ən əsası iqtisadiyyatı yüksəldərək ölkənin imkanlarını artırmaq, güclü ordu qurmaq, dünya miqyasında erməni yalanlarını ifşa edərək əsl həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq idi.

Ulu Öndərimiz tərəfindən böyük uzaqgörənliklə hazırlanan və uğurla həyata keçirilən yeni neft strategiyası bütün bu məsələlərdə açar rolunu oynadı!

Azərbaycan tarixinin qara səhifəsinə çevrilən AXC-Müsavat iqtidarı nəinki ölkəni viran qoyaraq qanunsuzluq və özbaşınalıq burulğanına salmışdı, hətta neft danışıqlarını da uğursuzluğa düçar etmişdi.

Ulu Öndər bu çətin və məsuliyyətli işi cənab İlham Əliyevə həvalə etdi.

Beləliklə, gərgin və mürəkkəb şəraitdə keçən neft danışıqları uğurla başa çatdı, tarixə "Əsrin müqaviləsi" adı ilə düşən neft kontraktı imzalandı.

Əslində, Azərbaycan neftinin dünya bazarına qeyri-ənənəvi marşrutla çıxarılması ölkənin gələcək taleyinə gur işıq saldı.

Bakı-Tbilisi-Ceyhan həyat vəsiqəsi qazanan ilk transmilli layihəmiz oldu!

Daha sonra Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars layihələri gerçəkləşdirildi.

Azərbaycan bu layihələri reallaşdırarkən həm də özünə haqq işini dəstəkləyən xeyli dostlar da qazandı.

İlham Əliyevin AŞ PA-da Azərbaycan nümayəndə heyətinə rəhbərliyi dövründə qazandığı uğurlar sonralar beynəlxalq təşkilatlarla iş sahəsində əldə olunan müvəffəqiyyətlərin təməlinə çevrildi!

Tarixi qayıdışından sonra Ulu Öndər Heydər Əliyev ordu quruculuğu məsələlərinə də böyük diqqət yetirirdi.

Onun rəhbərliyi ilə 1994-cü ilin yanvarında Horadiz də daxil 22 kəndin düşməndən qaytarılması artıq hərbi sahədə də vəziyyətin Azərbaycanın xeyrinə dəyişdiyindən xəbər verirdi və bu hadisə düşmənin atəşkəs barədə razılığa gəlməsində az rol oynamadı.

İki xüsusi məqama da diqqət çəkmək istəyirik.

Azərbaycan NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulmaqla bu imkandan da faydalandı və öz ordusunda islahat və dəyişikliklərin aparılmasında, müəyyən silahlarla silahlanmasında mövcud təcrübədən bacarıqla istifadə etdi.

Digər mühüm addım isə Ulu Öndərimiz tərəfindən verilən fərmanla 1999-cu ildə Azərbaycan Ordusunda Xüsusi Təyinatlı Qüvvələrin yaradılması və Türkiyə ilə hərbi sahədə sıx əməkdaşlıq əlaqələrinin qurulması oldu.

Xatırladırıq ki, 44 günlük Vətən müharibəsində qazanılan Zəfərdə ordumuzun xüsusi təyinatlılarının böyük şücaəti olmuşdur.

❖❖❖

Prezident İlham Əliyev siyasi varislik yolu ilə və Azərbaycan xalqının dəstəyi sayəsində ölkəyə rəhbərliyə başlayanda təkcə Heydər Əliyev siyasi kursunu qoruyub saxlamadı, həm də qurtuluşun yaratdığı təməl üzərində möhkəm və etibarlı qala da qurdu!

Başqa sözlə, təkcə daxili və xarici siyasət məsələlərində deyil, iqtisadi və hərbi quruculuqda da qazanılan uğurları artırmaqla yeni səviyyəyə yüksəltdi.

Belə ki, büdcəyə daxil olan neft gəlirləri investisiyalara, qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə, xalqın güzəranının yüksəldilməsinə, habelə ordu quruculuğuna və yeni silahların alınmasına da yönəldildi.

Hücum diplomatiyasının tətbiqi, beynəlxalq qurum və təşkilatlarda Azərbaycanın fəallığının yüksəldilməsi erməni yalanlarının və ikili standartların ifşası ilə yanaşı, diplomatik cəbhədə də ölkəmizin mövqelərini xeyli gücləndirdi.

İdmanın inkişafı, bu sahəyə kifayət qədər diqqət və qayğı göstərilməsi, yeni idman qurğuları və arenalarının inşası, idmançılarımızın bütün beynəlxalq yarışlarda iştirakı və yüksək yeri tutmaları, Azərbaycanın nüfuzlu idman yarışlarının keçirildiyi məkana çevrilməsi gənclərin təkcə fiziki deyil, vətənpərvərlik tərbiyəsinə də müsbət təsir göstərdi.

❖❖❖

Biz ilk dəfə müharibədən sonra doğulan, Qarabağı görməyən, cənab İlham Əliyevin dövründə böyüyən və vətənpərvərlik tərbiyəsi alan yeni gənclər nəslini 2020-ci ilin iyul ayının 15-də gördük.

Həmin gənclər Bakının küçələrinə çıxaraq torpaqların işğaldan azad edilməsinə hazır olduqlarını və Ali Baş Komandan İlham Əliyevin "İRƏLİ!" əmrini gözlədiklərini bəyan etdilər.

Vətən müharibəsi başlayandan sonra biz həmin gənclərin Cəbrayılın, Füzulinin, Qubadlının, Zəngilanın, Hadrutun azad edilməsində necə qəhrəmanlıqla döyüşdüklərinin şahidinə çevrildik!

Azərbaycan gənci Xüsusi Təyinatlı Qüvvələrin tərkibində dağ cığırları ilə irəliləməklə, sıldırım qayalara dırmaşmaqla, keçilməz maneələri dəf etməklə, az qala yalın əllə, əlbəyaxa döyüşməklə Şuşanı işğaldan azad etdi!

Qurtuluşun açdığı yolla hünər və qəhrəmanlıqla, sərkərdə məharəti ilə irəliləyən Müzəffər Ali Baş Komandan İlham Əliyev "dəmir yumruğu" ilə düşməni diz çökdürərək ona kapitulyasiya aktını imzalatdırdı!

Onun sayəsində müqəddəs Azərbaycan bayrağı Qarabağın ən uca zirvələrində dalğalandı!

İlham Əliyev bu Zəfəri qazanmaq üçün xalqı öz ətrafında birləşdirdi, indiyədək görmədiyimiz milli birliyə nail oldu!

Müstəqil Azərbaycan dövlətini möhkəmləndirən, alçaq düşməni məğlubiyyətə uğradaraq yerləyeksan edən birliyə!

Bu gün Xalq-Heydər birliyi Xalq-İlham Əliyev birliyi şəklində yenidən təzahür edərək Azərbaycanın qüdrətini daha da artırır.

❖❖❖

44 günlük Vətən müharibəsində qazanılan Zəfər, əslində, həm də Heydər Əliyev siyasi kursunun qələbəsidir!

Ermənistan ordusunu 44 gündə darmadağın edən Azərbaycan Ordusunun əsası da Ulu Öndərimiz tərəfindən qoyulmuşdur!

Qarabağın, xüsusən də Şuşanın işğaldan azad edilməsi həm də Ümummilli Liderimizin müqəddəs vəsiyyətlərindən biri idi!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin qazandığı möhtəşəm Zəfərin əsasını da Ulu Öndərimizin yaratdığı qüdrətli bünövrə üzərində möhtəşəm bina ucaltması, olanları yaradıcılıqla və qətiyyətlə davam etdirərək yeni səviyyəyə qaldırması, hədəfə doğru hünərlə irəliləyərək Heydər Əliyevin müəllifi olduğu və qurduğu müstəqil Azərbaycana bir-birindən dəyərli töhfələr verməsi, ən nəhayət, xalqın müqəddəs arzusunu və ata vəsiyyətini şərəflə yerinə yetirməsi təşkil edir.

ƏHSƏN BU YOLA, BU TƏMƏLƏ, BU ZƏFƏRƏ!

***15 iyun 2022-ci il***

# "Dəmir yumruq" Laçın şəhərindədir

Daha ermənilər heç kəsi təəccübləndirə bilmirlər...

"Erməni soyqırımı" deyib ağladılar, boşa çıxdı.

Özlərinə "məzlum", "zavallı millət" söylədilər, Qarabağdakı və Şərqi Zəngəzurdakı vəhşiliklərini bütün dünya görüb bildi!

"Məğlubedilməz xalq", "məğlubedilməz millət" mifi yaratmaq istədilər, "dəmir yumruq" başlarını əzib, bellərini qırdı, Ermənistan ordusunun qorxaqlar və fərarilər dəstəsi olduğunu bütün dünyaya nümayiş etdirdi!

İndi isə İrəvandan "qaçqın statusu" almaq üçün ağlaşma qururlar.

Laçın şəhərini də "quzu balası" kimi tərk edəndən sonra daha deməyə sözləri, işlətməyə hiylələri qalmayıb!

❖❖❖

Fikrimizcə, 44 günlük Vətən müharibəsinin ən "uğurlu kadrı" Kəlbəcərdə evlərin yandırılması fonunda yaşlı bir erməninin unitazı bağrına basaraq maşına yükləməsi oldu!

Bu kadr Qarabağda qanunsuz məskunlaşmış ermənilərin köçünün simvoluna çevrilib!

Bu o deməkdir ki:

* Ermənilərin məişətdə ən çox sevdikləri əşya unitaz olub!

* Ermənilər Kəlbəcərə gələnə qədər unitazın nə olduğunu bilməyiblər, yalnız Azərbaycan torpağında görərək ona vurulublar.

* Azərbaycan xalqının alın təri, əl qabarı ilə tikdiyi, ermənilərin 27 il yaşadıqları ev onlar üçün dəyərli deyil, odur ki, yandırıb gedirlər...

* İtilib gedəndə isə murdarlıqlarının simvolu olan unitazı da özləri ilə aparırlar.

* Deməli, həm torpaqlarımızı təmizləmiş olurlar, həm də murdarlıqlarından heç cürə ayrılmırlar.

* Bunun bir mənası da odur ki, erməni murdarlığı hələ də davam edir, odur ki, "dəmir yumruq" daim hazır vəziyyətdədir.

❖❖❖

Bəli, Azərbaycan qanunlarını qəbul etmək, onlara tabe olmaq istəməyən ermənilər birdəfəlik rədd olurlar!

Qalanlar isə nə status görəcəklər, nə müstəqillik, nə də xüsusi bir imtiyaz!

Azərbaycanda digər yaşayanlar necə, onlar da elə!

Seçim özlərinindir!

Amma bu gedişin artıq ənənəyə çevrilmiş yeni forması da yaranıb:

Əvvəlcə, "özünümüdafiə ordusu" asıb-kəsir, bizə "ciddi zərbələr" endirəcəklərindən danışaraq lovğalanırlar.

Sonra Rusiya sülhməramlı qüvvələrinin arxasında dayanaraq sistemli şəkildə atəşkəsi pozur, tələfat verdirməyə çalışırlar!

Komando və "Bayraqdar" hərəkətə başlayanda isə girməyə deşik axtarır, silah-sursatlarını töküb qaçırlar!

SONUNCU "Qisas" əməliyyatında olduğu kimi...

Laçından isə üçtərəfli Bəyanatdakı razılaşmaya görə çıxdılar!

Düzdür, onlardan olsaydı, hələ gələn ilin yazına qədər qalmaq istəyirdilər, lakin "dəmir yumruq" bu istəyin üstündən çalın-çarpaz xətt çəkdi.

## *Başlarının daşı da bizik, başdaşıları da bizdəndir*

Ermənilər qanunsuz məskunlaşdıqları Laçın şəhərindən köçərkən öz qəbirlərini də dağıdır, içərisindəki sür-sümüyü götürərək aparırlar.

Təəccüblənmirik, əslində, belə də olmalıdır...

ÇÜNKİ...

Əvvəla, I Qarabağ müharibəsindən əvvəl heç zaman Laçında erməni yaşamayıb.

İndi dağıtdıqları qəbirlərdən götürdükləri sür-sümük işğal dövründə burada məskunlaşdırılan Suriya və Livandan olan gəlmələrə məxsusdur.

Düz də edirlər ki, əlləri ilə saldıqları qəbiristanlıqları özləri də dağıdırlar.

ONA GÖRƏ Kİ...

Birincisi, ermənilər qəbir dağıtmağa, goreşənliyə vərdiş ediblər.

İkincisi, özləri ilə sür-sümüyü ona görə aparırlar ki, sonradan gəlib qəbirlərə baş çəkə, üstlərinə çaxır tökə bilməyəcəklər.

Həm də axı hansı üzlə təzədən dağıtdıqları kəndlərə, yandırdıqları meşə və bağların ərazisinə qayıda bilərlər...

Daha bir maraqlı məqam...

Ermənilər 27 illik işğal dövründə Qarabağda və Şərqi Zəngəzurda bir dənə də salamat qəbir və qəbiristanlıq qoymayıblar.

Birincisi, yuxarıda qeyd etdiyimiz kimi, xislətləri belədir, goreşən millətdirlər!

İkincisi, tamahlarından bu addımları atıblar!

Həmin dövrdə işğal bölgəsindəki rayonlarda qəbirüstləri götürülərdi.

İmkanı olan da, olmayan da özünü cəmləyərək qara mərmərdən ("qabro" daşından) başdaşı düzəltdirər, məzarların ətrafına dəmir çağ çəkdirərdilər.

Həmin erməni vandalları dəmir çağları "yaxın dostlar"ına sataraq xeyli pul qazandılar.

"Qabro" mərmər daşlarının üzərinə çəkilən şəkilləri və kitabələri pozaraq özlərinə biznes qurdular.

Azərbaycandan oğurlanan mərmər başdaşılarının böyük bir qismini Ermənistan dövləti öz qarətçilərindən satın alaraq müharibədə Azərbaycan Ordusunun cəhənnəmə vasil etdikləri erməni əsgərlərinin qəbirlərinə qoydular.

Beləliklə, erməni diasporunun göndərdiyi pulun (ianələrin) bir qismini bu yolla mənimsəyib milyonlarını milyardlara çevirdilər.

Digər tərəfdən, "ədalət" də öz yerini tutmuş oldu.

Oğru millətin yatdığı qəbrə qoyulan başdaşı da oğurluq olmalıdır də!

Ən əsası bu "ədalət"in böyük bir rəmzi mənası da var:

Sağlıqlarında ermənilərin başlarının daşı biz idiksə, öləndən sonra da başdaşıları bizdən oldu!

İstədikləri qədər daşımız altında yata bilərlər!

## *Əqrəb vurmağa canlı tapmayanda özü-özünü sancır*

İndi isə erməni köçü "tökə-tökə gəldiyini, yığa-yığa" gedir.

Kəlbəcərdən cəhənnəm olduqları kimi, Laçın şəhərindən də çıxırlar.

Bu, Laçının ikinci dəfə qarət edilməsi, yandırılmasıdır.

Birinci dəfə bu, rayonun 1992-ci ildə işğalı zamanı baş vermişdir.

Erməni silahlıları əhaliyə yır-yığışa, normal köçə imkan yaratmamışdılar.

Laçınlılar on saat ərzində əsrlərboyu yaşadıqları doğma yurd-yuvanı, ev-eşiyi tərk edib getməliydilər...

Belə tələskənlik, əslində, qarətə və talana şərait yaradılmasına xidmət edirdi.

Bəli, azərbaycanlılar qaçaraqda ən yüngül və zəruri şeylərini götürüb canlarını qurtarmaq üçün məchulluğa üz tutdular!

Ermənilər isə yaşayış məntəqələrinə soxularaq evləri, şəxsi mal-qaranı, minik maşınlarını talan edib mənimsəyərək sonra od vurdular.

Beləliklə, həm də "məzlum millətin" vandal simasını nümayiş etdirdilər.
Bu gün isə Azərbaycan tərəfinin verdiyi gen-bol vaxtdan istifadə edərək yır-yığışa tələsmirdilər, nəsə bir hoqqa çıxararaq ayaqlarını sürüyürdülər.
Bəlkə də, erməni ağılları ilə elə düşünürdülər ki, yubansalar, özgə torpaqlarında həmişəlik qala biləcəklər...
Sonda xislətləri əsl mahiyyətlərini yenidən üzə çıxardı!
Əqrəb vurmağa canlı tapmayanda özü-özünü sancır!
Yenə qarət etdilər, yenə yandırmağa başladılar.
Bu dəfə öz qəbirlərini qarət edib dağıtdılar.
Ölülərinin sümüklərini və başdaşılarını yığıb apardılar.
Sonra öz əlləri ilə özgə torpağında tikdikləri fərdi evlərini yandırdılar!
Əqrəblər kimi zəhərlərini özlərinə tökdülər.
Daha sonra ətrafdakı meşələrə od vurdular!
Kəlbəcərdə də belə etmişdilər.
Ağaclardan qırıb apara bildikləri qədərini maşınlara yüklədikdən sonra qalan meşəni yandırmışdılar!
Bəli, meşəni özləri ilə daşıya bilmirlər!
Heç torpaq aparmağa da imkanları çatmır!
Belə cənnətməkandan ayrılmaq isə onlarçün çox çətindir!
"Dəmir yumruğ"un qorxusundan getməyə məcburdurlar!
Bəli, murdarlıqlarını, xəbisliklərini və xislətlərini özləri ilə götürərək müqəddəs torpaqlarımızdan zorla ayrılaraq yoxsulluğa, dilənçiliyə, ümidsizliyə, dövlətsizliyə və məchulluğa doğru gedirlər!
Bizə öz torpağımız lazımdır!
Şəhidlərimizin qanı, ordumuzun canı, baş sərkərdəmizin qüdrəti, xalqımızın dəyanəti sayəsində vandal işğalçıların başını əzərək torpaqlarımızdan qovuruq!
Qarabağın, Şərqi Zəngəzurun torpağı, meşəsi, çayı, gölü, dağları, dərələri, çöl-çəməni bizimdir!
Onların qədrini biz bilirik!
Çünki biz yaradan, quran millətik!
Bu gün torpağımıza yenidən sahib çıxdıq!
Düşmənin başını "dəmir yumruğ"umuzla əzdik!
Sabah isə Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə geri qaytardığımız torpaqları cənnətə çevirəcəyik!
Buna heç kəsin şübhəsi yoxdur!

## *Saxta göz yaşı tökənlər*

Təəssüf ki, Avropa mediası haxçıqlara qoşularaq onlarla bir yerdə göz yaşı tökür.

Nədənsə biz I Qarabağ müharibəsi dövründə bu göz yaşlarını bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün dədə-baba torpaqlarından zorla qovulduğu, soyqırımları törədildiyi dövrdə görmədik.

Bu göz yaşları erməni vandalları tərəfindən mina xəritələri (həqiqi xəritələr) verilmədiyindən iki yüzdən artıq azərbaycanlının öldüyü və ömürlük əlillik qazandığı zaman da görmürük.

Nədənsə bu gözyaşları boşaldılan kəndlərdə evlər yandırılarkən, meşələrə od vurulub ekologiya korlanarkən də görünmür.

Mənbəyi ikili standartlardan başlanan belə saxta, qərəzli və qeyri-obyektiv gözyaşlarına inanmaq olarmı?!

Artıq Azərbaycan dövləti belə mövqeyə və ağlaşmaya vərdiş edib!

Nə beynəlxalq qurumlardan, nə beynəlxalq hüquqdan heç bir obyektivlik və kömək gözləmir.

Öz problemlərini özü həll edir:

Qalib Azərbaycan Ordusunun və "dəmir yumruğ"un köməyi ilə!

❖❖❖

Əlqərəz...

Bu köç də belə getdi...

Azərbaycan dövlətinin alicənablığından, torpaqları tərk etmələri üçün verilən müddətdən ermənilər həmişəki kimi məkrli niyyətlə istifadə etdilər:

* quldur hərbçilər ərazilərə 2021-ci ildə Ermənistanda istehsal etdikləri minaları düzdülər;

* erməni dığaları yaşadıqları evlərə, meşələrə od vurub yandırdılar;

* haxçıqlar isə yalançı göz yaşları tökdülər.

Hər üç tərəf, əslində, öz mahiyyətini, milli mentalitetini əks etdirir.

"Məzlum millət"in kişi cinsliləri mahiyyətcə vəhşi, barbar olduğunu, etibarsız və talançı, oğru simasını göstərir.

Qadınlar isə məkrlərini, dünyanı və dünyadakı kişiləri ələ almaq üçün göz yaşlarından məharətlə faydalana bildiklərini nümayiş etdirirlər.

Axı ermənilər bir yerə soxulmaq, özlərinə yer etmək üçün, adətən, qadınlardan istifadə edirlər.

Qadınlarını qabağa salırlar!
Onların bu xislətini də unutmaq olmaz!

❖❖❖

Bəli, bu köç də belə getdi...
Biz insanlıq edərək onlara kifayət qədər yır-yığış vaxtı verdik...
Onlar isə öz erməniliklərindən qalmadılar: yandırdılar, oğurladılar, daşıdılar...
Bütün bunlara baxmayaraq, torpaqlarımız murdar ləpirlilərdən birdəfəlik təmizlənir!
Azərbaycan bayrağı Laçın şəhərində dalğalanır!

***26 avqust 2022-ci il***

## "Dəmir yumruğ"un qətiyyətli və sarsıdıcı cavabı

Düşmən toparlanmaq istəyir.

Düşmən özünə gələrək qüvvətlənmək istəyir.

Düşmən havadarlarına güvənərək qisas almaq istəyir.

Amma yenə unudur:

* İlham Əliyevin Azərbaycanı 90-cı illərin Azərbaycanı deyil!

* İlham Əliyevin qurduğu möhtəşəm ordu 90-cı illərdəki özünümüdafiə batalyonlarına bənzəmir!

* Azərbaycan Ordusunun indiki silahları 90-cı illərin köhnə-kürüş silahlarından deyil!

* Azərbaycan gəncləri də yeni təfəkkürlü, yüksək hərbi hazırlıqlı, yalın əllə Şuşanı azad edənlərdir!

Belə qəhrəmanların qarşısında dağ da dayanmaz, nəinki dılğır, onun-bunun arxasında gizlənərək güllə atan ermənilər…

Bəli, düşmən atəşkəsi pozdu!

Bəli, düşmən sülh müqaviləsini imzalamaq istəmir!

Bəli, düşmən Rusiyanın iştirakı ilə qol çəkdiyi üçtərəfli Bəyanatı saya salmır!

Nəticəsi nədir?!

* Torpaqlarımızdan it kimi qovulub!

* Ordusu məhv edilərək özü diz çökdürülüb!

* Yaxınlarda keçirilən "Qisas" əməliyyatı zamanı 44 günlük Vətən müharibəsindəki kimi, başı yenidən "dəmir yumruq"la əzildi!

Verilən dərslər, görünür, azlıq edir!

Sentyabrın 12-dən 13-nə keçən gecə yenidən ürəklənərək atəşkəsi pozdu!

Bu dəfə də "dəmir yumruğ"u başı üzərində gördü:

Təkcə başı əzilmədi, həm də Azərbaycan Ordusundan növbəti dəfə qətiyyətli və sarsıdıcı zərbə aldı:

* Budəfəki zəruri hərbi əməliyyat da yüksək peşəkarlıqla həyata keçirildi, əsas hədəflərə nail olundu;

* Ermənistanın Azərbaycanla sərhəddə - Laçın, Kəlbəcər və Zəngilan istiqamətində qurduğu bütün hərbi təyinatlı obyektlər darmadağın edildi;

* Azərbaycan Ordusunun ərazidəki bütün əsas nəqliyyat - kommunikasiya nöqtələrinə nəzarəti təmin olundu;

* Ölkəmizin sərhədlərində yaradılaraq hərbi hissələrimizin mövqeyinə təhdid və təhlükə törədə biləcək bütün strateji nöqtələr nəzarətə götürüldü;

* Azərbaycan Ordusunun mövqelərini hədəfə alan Ermənistanın bütün hərbi nöqtələri şəxsi heyətlə birlikdə məhv edildi;

* "Dəmir yumruğ"un cavab zərbəsi nəticəsində Ermənistanın daha 200-dək hərbçisi cəhənnəmə vasil oldu;

* Düşmənin xeyli sayda hərbi texnikası, yüz milyonlarla dollardan artıq dəyəri olan iki S-300 raketi, onlarca postu məhv edildi, yüzlərlə hərbçisi yaralanaraq sıradan çıxarıldı.

Bu dəfə də Ermənistana əyani dərs verildi!

Ermənistanın hərbi-siyasi rəhbərliyi və müdafiəçiləri gördülər ki, Azərbaycanın mövqeyi qəti, "dəmir yumruğ"u daim hazır vəziyyətdədir!

Heç kəs bizim səbrimizi sınağa çəkməsin!

Kimsə bizim nədənsə qorxub çəkinəcəyimizi, mövqeyimizin yumşalacağını güman etməsin!

Hər bir revanşizm cəhdi Ermənistanın öz başında çatlayacaq, ona bağışlanan silahları, zirehli texnikası məhv ediləcək, canlı qüvvəsi o dünyaya göndəriləcək!

Azərbaycan II Qarabağ müharibəsindən Zəfərlə çıxmış qalib ölkədir!

Azərbaycan ərazi bütövlüyünü bərpa edərək torpaqlarını qorumağa qadir ölkədir!

Azərbaycanın qəhrəman Ordusu, Vətən uğrunda hər an canından keçməyə hazır igid övladları, ən müasir silahları, İlham Əliyev kimi Müzəffər Ali Baş Komandanı vardır!

Düşmən bütün bunları unutmasın!

Unutsa, dərhal "dəmir yumruq" yenidən yaddaşını təzələyəcəkdir!

***15 sentyabr 2022-ci il***

## "Dəmir yumruğ"un düyünləndiyi gün

*Hüququn gücsüzlüyünü gücün hüququ əvəz etdi*

**27** sentyabr 2020-ci il!

Həmin gün 27 il ərzində dolan "səbir kasası" daşdı!

Həmin gün Müzəffər Ali Baş Komandanın "dəmir yumruğ"u düyünləndi!

Xalq ayağa qalxaraq özünə məxsus olan torpağı geri qaytarmağa başladı!

Ordu silaha sarılaraq Ali Baş Komandanın əmri ilə əks-hücuma keçdi!

Yer-göy lərzəyə gəldi, igidlərin hayqırtısı motor səsinə qarışdı!

Toplar guruldadı, təyyarələr qanadlandı, pilotsuz uçuş aparatları hədəfə doğru şığıdı!

Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqına, xalq ordusuna, ordu isə sərkərdəsinə güvənərək qəti və qanlı döyüşə atıldı!

BMT Təhlükəsizlik Şurasının 28 il ərzində kağız üzərində qalan dörd məlum qətnaməsinin icrasına başlandı!

ATƏT-in Minsk qrupunun boş və mənasız fəaliyyəti donduruldu, onun görmədiyi işi Azərbaycan əsgəri yerinə yetirməyə başladı!

Hüququn gücsüzlüyünü gücün hüququ əvəz etdi!

İkili standartlar dünyası öz mövqeyində qalaraq hadisələrin gedişini izləməyə başladı!

"Qordi düyünü"nü açmaq üçün qılınc qınından sıyrıldı!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qüdrətli Azərbaycan Ordusu yeni dövrün - qalibiyyət dövrünün şərəf salnaməsinin ilk abzaslarını yazmağa başladı!

❖❖❖

Azərbaycan xalqının 44 günlük Vətən müharibəsində qazanacağı qələbənin ilk təməli hələ 1993-cü ildə, Qurtuluş günü qoyulmuşdu!

Düşmən antimilli qüvvələrin hakimiyyəti ələ keçirməsindən, ölkədə baş alıb gedən xaos və anarxiya vəziyyətindən, vaxtında ordu qurularaq torpaqların etibarlı müdafiəsinin təşkil edilməməsindən, habelə xəyanət əməllərindən istifadə edərək 20 faiz ərazimizi ələ keçirmişdi.

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanı fəlakətdən qurtarmaq üçün qısa zaman kəsiyində bir-birindən vacib və gərəkli işləri görməli oldu!

Yeni ərazilərin işğalının qarşısını almaq üçün müharibədə atəşkəs yaradıldı, əhalidəki külli miqdarda silah-sursat yığıldı, xaos, özbaşınalıq və qanunsuzluqların qarşısı alındı, ölkədə möhkəm və dönməz sabitlik yaradıldı, ordu quruculuğuna start verildi, "Əsrin müqaviləsi" neft kontraktı imzalandı, milli maraqlara əsaslanan daxili və xarici siyasət yeridilməsinə, bazar iqtisadiyyatı prinsiplərinin tətbiqinə yol açan islahatların keçirilməsinə başlandı.

Azərbaycana düşmən qüvvələr baş verən müsbət dəyişikliklərin qarşısının alınması üçün iki dəfə - 4 oktyabr 1994-cü il və 13-18 mart 1995-ci ildə dövlət çevrilişinə cəhd etdilər. Ulu Öndərimiz bütün bu cəhdlərin qarşısını qətiyyətlə aldı!

Azərbaycan sürətli və dayanıqlı inkişaf yoluna qədəm qoydu. Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən cənab İlham Əliyev Azərbaycanı inkişafın yeni mərhələsinə yüksəltdi.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərindən sonra Bakı-Tbilisi-Ərzurum qaz və Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin işə salınması, Azərbaycanın beynəlxalq logistika mərkəzinə çevrilməsi ölkənin iqtisadi qüdrətini və siyasi nüfuzunu əhəmiyyətli dərəcədə artırdı.

Güclü ordu yaradıldı və ən müasir silahlarla təchiz olundu. Hücum diplomatiyasına start verildi, beynəlxalq qurum və təşkilatlarda erməni yalanlarının ifşası gücləndirildi, Azərbaycan həqiqətləri geniş yayıldı, haqq işimizi dəstəkləyənlərin, dostlarımızın sayı xeyli artdı.

Azərbaycan beynəlxalq tədbirlərin, mötəbər idman yarışlarının keçirildiyi arzuolunan məkana çevrildi, yeni vətənpərvər gənclər nəsli yetişdirildi, neft kapitalının insan kapitalına çevrilməsi sahəsində uğurlu addımlar atıldı.

Cənab İlham Əliyevin müdrik və uzaqgörən siyasəti, beynəlxalq təşkilatlarda apardığı səmərəli iş, nəyi, nə vaxt və necə etmək məharəti müstəqil Azərbaycanı güclü və nüfuzlu dövlətə çevirdi!

İlham Əliyevin səyləri nəticəsində ölkə daxilində düşmənə qarşı mübarizədə milli birlik yarandı, bütün siyasi partiyalar iqtidarı dəstəklədi.

Düşmən ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə gedən danışıqlar prosesini uzadır, ərkəsöyünlük edir, ona qarşı sanksiya və təzyiq göstərilməməsindən ruhlanaraq özünü əmin və yekəxana aparır, bizi mövcud reallıqlarla barışmağa çağırırdı...

Hətta sonda o qədər qudurdu ki, baş nazir Paşinyan "Qarabağ Ermənistandır və nöqtə" söyləməklə, əslində, sülh yolu ilə torpaqları qaytarmayacağını bəyan etdi.

Aprel müharibəsində Azərbaycanın verdiyi dərs və etdiyi xəbərdarlıqlardan da nəticə çıxarılmadı.

Tovuz hadisələrində isə Ermənistan həddini aşdı, Azərbaycanın strateji boru kəmərləri və dəmir yolu xəttinin keçdiyi əraziləri ələ keçirmək üçün Qarabağdan kənar ərazilərimizə hücum etdi, kəndlərimizi top atəşinə tutdu, təxribatçı dəstələr göndərərək bizi cavab atəşinə sövq etməyə çalışdı.

Məqsədi Azərbaycanı Ermənistan ərazisini atəşə tutdurmaqla Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını öz tərəfindən müharibəyə cəlb etmək idi.

Azərbaycan tərəfi bütün bu hiylə və təxribatlara uymadı, səbir və təmkin göstərdi.

Ermənistan edilən bütün xəbərdarlıqlara heç bir məhəl qoymur, daha da quduzlaşırdı.

Ali Baş Komandan cənab İlham Əliyev düşməni yerində oturtmaq üçün əks-hücum əmrini verdi.

Beləliklə, İkinci Qarabağ müharibəsi başladı!

Atəşkəs qüvvədə olduğu müddətdə dəfələrlə pozulub!

Ermənilər daim mülki əhalini hədəfə alıb, əkin-biçinlə məşğul olan Azərbaycan vətəndaşlarını yaralayıb, öldürüblər.

Atəşkəs dövründə erməni faşistləri 9 yaşlı ağdamlı Farizi, 13 yaşlı tovuzlu Aygünü də qətlə yetiriblər.

Xislətləri budur…

Aprel müharibəsində də belə oldu, atəşkəs pozuldu, atışma gücləndi və dörd gündən sonra hərbi əməliyyatlar dayandırıldı.

Sentyabrın 27-də də atəşkəs pozulmuş, təmas xəttinin bir neçə nöqtəsində silahlar dillənmişdi…

Prezident İlham Əliyevin Azərbaycan televiziyası ilə xalqa müraciətində isə biz artıq vətənin ərazi bütövlüyünün bərpası uğrunda yeni müharibənin başlandığını öyrəndik!

Bu, İkinci Qarabağ müharibəsi idi!

Ali Baş Komandan təmkinlə, inamla, qətiyyətli səslə Azərbaycanın mövqeyini bir daha xatırlatdı: "Biz öz torpaqlarımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpaqlarında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir".

Sonra hərbi əməliyyatların elə ilk günündə qazanılan uğurlara işarə etdi. Həm də böyük zəfərin anonsunu irəlicədən verdi: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq!

Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Müharibənin davam etdiyi müddətdə dövlət başçısı sistemli şəkildə xalqa müraciət etdi, döyüşlər, qazanılan qələbələr, azad olunan kənd, qəsəbə və şəhərlər barədə dəqiq məlumatlar verdi. Düşmənin itkilərini xatırlatdı!

Hər dəfə onun çıxışını həsrətlə, intizarla gözləyirdik!

Bilirdik ki, bizə daim şad xəbərlər verəcək, düşmənə endirilən sarsıdıcı zərbələrdən, geri qaytarılan yaşayış məntəqələrindən söhbət açacaq!

Xalqımızı da, Azərbaycanın dostlarını da sevindirəcəkdir!

Müharibənin son gününədək Prezidentimiz xoş xəbərlər müjdəçisi oldu!

Cənab İlham Əliyev təkcə xalqımızın istədiyini etmirdi, həm də etdikləri barədə açıq danışaraq ürək sevindirən məlumatlar verirdi.

Bütövlükdə dövlət başçısı İlham Əliyev 44 günlük Vətən müharibəsində üç mühüm istiqamətdə gərgin və yorulmaz fəaliyyət göstərdi.

Birincisi, hərb meydanında.

Cənab İlham Əliyev bu müharibəyə hakimiyyətə gəldiyi ilk gündən hazırlaşırdı.

Əks-hücum əmrini verəndə artıq torpaqların işğaldan azad olunması zamanının yetişməsi qənaətinə gəlmişdi.

Adətən, müharibə zamanı ən çətin, ən məsuliyyətli, bəzən isə ən riskli qərarları Ali Baş Komandan qəbul edir!

Çünki son söz sahibi odur!

Uğurun da, uğursuzluğun da ən böyük yükünü və məsuliyyətini məhz baş Sərkərdə daşıyır!

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev hərbi əməliyyatlara qüsursuz, ən yüksək səviyyədə rəhbərlik etdi və onun bu məharəti son nəticədə möhtəşəm Zəfərdə öz əksini tapdı!

İkinci fəaliyyət sahəsi informasiya müharibəsi idi!

Müasir dövrdə informasiya müharibəsinin gedişi və nəticələri hərbi əməliyyatlara ciddi şəkildə təsir edir.

Dünya erməniliyinin, ATƏT-in Minsk qrupu sədrlərinin təmsil etdikləri ölkələrdəki güclü erməni diasporlarının mövcudluğu informasiya müharibəsində üstünlük qazanılmasının əhəmiyyətini qat-qat artırırdı.

Cənab İlham Əliyev informasiya müharibəsində təkbaşına çarpışdı.

Satılmış dünya KİV-I, telekanalları və informasiya agentliklərinin özlərini "prokuror" kimi aparan müxbirləri üzərində parlaq qələbə qazandı.

Onların qərəzli, qeyri-obyektiv tərəf tutan olduqlarını faktlarla özlərinə sübut etdi, feyk xəbərlərin yalan və uydurma olduğunu açıb göstərdi!

Üçüncü diplomatiya sahəsi idi.

Biz diplomatiya müharibəsinin detallarını gözlərimizlə görə bilmirdik, yalnız Prezidentimizin üstüörtülü şəkildə söylədiklərindən hadisələrin gedişi barədə xəbər tuturduq.

Bilirdik ki, Ermənistanın baş naziri Paşinyanın yalamadığı daban, zəng edib yalvarmadığı dövlət başçısı qalmayıb.

Lakin cənab İlham Əliyev bütün bu xahiş, hətta təzyiq cəhdləri qarşılığında bircə tələb irəli sürüb:

- Ermənistan ordusunun Azərbaycan ərazilərindən çıxarılması barədə qrafik təqdim olunmayana qədər hərbi əməliyyatlar dayandırılmayacaqdır!

Məhz Müzəffər Ali Baş Komandanın dediyi kimi də oldu!

Beləliklə, üç cəbhənin üçündə də cənab İlham Əliyev qalib gəldi!

❖❖❖

Sentyabrın 27-də Azərbaycanın başladığı müharibə təkcə haqq işi, ədalət uğrunda başlanan müharibə deyildi!

Bu müharibə həm də dünya müharibələri tarixində yeni bir müharibə, XXI əsrin ən yeni müharibəsi kimi qiymətləndirilən müharibə oldu!

Bu müharibə pilotsuz uçuş aparatlarının həlledici rol aldığı, ən müasir silahlarla ən dəqiq zərbələr endirildiyi bir müharibə idi!

Bu müharibədə düşmən siçan kimi girməyə deşik axtarırdı, lakin onu tapanda belə ölümdən yaxa qurtara bilmirdi: nə səngərdə, nə zirehli texnikalarda, nə də beton bunkerlərdə!

Bu müharibə bütün dünya üçün nümunəyə çevrilən, hətta dünyanın ən güclü orduya malik dövlətlərinin belə hərbi əməliyyatlarda tətbiq edilən yeni taktika və strategiyanın öyrənildiyi və özlərində tətbiqi üçün hərbi islahatlara rəvac verən müharibə oldu!

Bu müharibə Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzunmüddətli hazırlığının, hərbi sahədəki uzaqgörənliyinin təsdiqinə çevrilən yeniliklərin, zəfərə çatdıran möcüzəli qələbələrin yekunu, ikili standartların, səmərəsiz qətnamə və qərarların, mənasız danışıqların məğlub edildiyi, ikiəsrlik Qarabağ münaqişəsinə qələbə ilə son qoyulduğu müharibə oldu!

Bu müharibə həm də qalib millət adına Azərbaycan xalqının, məğlubedilməz ordu tituluna Azərbaycan Ordusunun layiq olduğunu bütün dünyaya sübut etdi!

❖❖❖

Xalqımız Vətən torpaqlarının işğaldan azad edilməsi üçün Azərbaycan Ordusuna veriləcək "İrəli!" əmrini uzun müddət, həm də səbirsizliklə gözləmişdi!

Xalq müqəddəs amal uğrunda müharibənin başlanmasını, azğın düşməndən viran qoyulmuş kənd və şəhərlərin, yaşayış məskənlərinin, məscid və tarixi abidələrin qisasının alınacağı günü qəzəblə, hiddətlə gözləmişdi!

Öz Prezidentinə inanaraq gözləmişdi!

Ali Baş Komandanına güvənərək gözləmişdi!

Nəhayət, uzun illər boyu gözlənilən gün gəlib çatdı!

"İrəli!" əmri ilə Azərbaycan Ordusu yayından çıxmış ox kimi şığıdı!

Düşmənin gözünün oxuna, ürəyinin xəncərinə çevrildi!

44 gün ərzində zəfər hücumunu bir an da olsun belə dayandırmadı!

44 gün ərzində bir qarış belə geri çəkilmədi!

Yalnız irəli, irəli getdi!

Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın bütün əmrlərini rəşadətlə, qəhrəmanlıqla yerinə yetirdi.

Azərbaycan Prezidenti İlham Əliyev xalqın etimadını doğruldaraq işğal edilmiş torpaqları qaytaracağı barədəki vədini şərəflə yerinə yetirdi!

Düyünlənmiş yumruq düşmənin başında dəmirə çevrildi, onun başını əzdi, belini qırdı, diz üstə çökdürdü!

Qəhrəman millətin, qəhrəman əsgər və zabitlərin, qalib xalqın kim olduğunu bütün dünya çox qısa bir müddətdə gördü və bildi!

27 sentyabrda hünər müharibəsi başladı!

Qeyrət müharibəsi başladı!

Şərəf müharibəsi başladı!

Zəfər müharibəsi başladı!

Qəhrəmanlıq müharibəsi başladı!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və sərkərdəliyi ilə bu müharibə qeyrətlə, hünərlə, şərəflə, zəfərlə və qəhrəmanlıqla başa çatdı!

***27 sentyabr 2022-ci il***

# DEDİ və ETDİ!

*Üç il öncə "Valday" konfransında*
*"Qarabağ Azərbaycandır və nida işarəsi" deyən*
*İlham Əliyev "dəmir yumruğ"u ilə ədaləti bərpa etdi*

Söz eşidilən, əməl isə gözlə görünəndir!

Biz bir işə başlamazdan əvvəl beynimizdə müəyyən planlar cızır, qərarlar qəbul edir, sonra düşüncələrimizi dilimizə gətiririk!

Aydın məsələdir ki, hər düşüncə, söz əmələ çevrilmir!

Bəzən isə sözlə əməl arasında "böyük məsafə" olur!

Amma sözün də, əməlin də ləzzəti, şirinliyi ondadır ki, dediyin tez başa gələ, həm də söylədiyindən də artıq!

Müzəffər Ali Baş Komandan İlham Əliyev kimi!

Dedi və il tamam olmamış vədinə əməl etdi!

Kriminal "hərbi xunta"nın korrupsiya cinayətlərini, xalqa zidd siyasətini və Ermənistanı məhvə aparan əməllərini ifşa edən sorosçu Paşinyan meydandan ölkə rəhbərliyinə gəldi!

Siyasətdən bixəbər, dövlət idarəçiliyində naşı, diplomatiyada piyada olan Ermənistanın baş naziri Paşinyan yalan danışmaq ustası, lovğa, həm də özünü hamıdan ağıllı sayan, bütün fəaliyyətində "erməni hiyləgərliyi"nə arxalanan birisidir.

Özünü sələflərindən daha qətiyyətli, daha uzaqgörən, daha bacarıqlı olduğunu göstərmək üçün daim ağlına gələni edərək ağzına gələni danışırdı.

Gah Şuşada sərxoş vəziyyətdə yallı gedir, gah qondarma "dqr"in "parlamenti"ni Şuşaya köçürmək üçün orada yeni bina tikdirir, gah da müharibə başlayacağı təqdirdə Azərbaycandan yeni ərazilər qoparacaqları ilə hədələyirdi!

Sonda o qədər qudurdu, ağlını itirdi ki, "Qarabağ Ermənistandır - nöqtə" deyərək sülh danışıqlarının, Azərbaycan torpaqlarının geri qaytarılması barədə otuz ildə görülən bütün işlərin, ilkin razılaşmaların üzərindən bir qara xətt çəkdi!

Bununla Azərbaycan Prezidenti İlham Əliyevin qəzəbinə də səbəb oldu!

❖❖❖

Artıq bütün dünya bilir ki, İlham Əliyev sözü ilə əməli bir olan dövlət xadimi və sərkərdədir!

O zaman kimsə Paşinyanın bu bəyanatının nə ilə nəticələnəcəyini bilmirdi!

Nəinki bilmirdi, heç ağlına da gətirmirdi!

Amma görünən o idi ki, artıq Ermənistan Qarabağı öz ərazisi sayır və onu geri qaytarmaq niyyətində deyil!

O vaxtadək Ermənistanın Qarabağla bağlı belə açıq və "cəsarətli" bəyanatı olmamışdı.

Azərbaycan bu çılğınlığa necə cavab verəcəkdi - hamı bu barədə düşünür və hadisələrin sonrakı gedişini maraqla izləyirdi.

❖❖❖

Dünya onu da gözəl bilir ki, İlham Əliyevin dili də var, əməli də!

"Dil" deyəndə biz Prezidentimizin sinədəftər, ağıllı, məntiqli, cəlbedici və maraqlı, eyni zamanda faktlarla zəngin nitq söyləmək məharətini nəzərdə tuturuq.

Cənab İlham Əliyev hakimiyyətə gəldiyi ilk günlərdən kağızsız, yazısız, heç nəyə baxmadan saatlarla çıxış edə bilir.

İndiyədək nitq və çıxışlarında, jurnalistlərin suallarını cavablandıranda bir dəfə də olsun faktoloji, üslub və ifadə səhvinə (Maşallah!) yol verməyib!

İlham Əliyev həm də yüksək diskussiya, mübahisə mədəniyyətinə malikdir!

Opponentinin "fakt" və arqumentlərini özünün tutarlı fakt və rəsmi mənbələrə söykənən sitatları ilə darmadağın etməyi, mövqeyini sübut və dəlillərlə əsaslandıraraq qəbul etdirməyi məharətlə bacarır.

Biz bunu 44 günlük Vətən müharibəsi dövründə otuzdan çox dünya KİV-inin, tanınmış televiziya kanallarının və informasiya agentliklərinin müxbirlərinə verdikləri müsahibə zamanı gördük, onların qərəzli sual və yanaşmalarını necə bacarıqla, dəmir məntiq və özlərindən gətirdiyi misallarla darmadağın etdiyinin dəfələrlə şahidinə çevrildik!

Biz bunu Prezidentimizin 26 fevral 2021-ci ildə Xarici İşlər Nazirliyinin onlayn formada təşkil etdiyi və iştirakçılardan birinin qeyd etdiyi kimi, "Ginnesin rekordlar kitabına düşəcək beş saatlıq mətbuat konfransında"kı suallara verdiyi cavablarda da məmnuniyyətlə dinlədik və seyr etdik!

...Cavabın veriləcəyi şəksiz idi!

❖❖❖

Bəli, İlham Əliyev həddini aşan, boyundan hündürə tullanmaq istəyən Paşinyana cavab verməli, necə deyərlər, ağzından vurmalı idi!

Əvvəla, Paşinyan başından böyük qələt eləmişdi və onu yerində oturtmaq lazım gəlirdi.

İkincisi, Ermənistanın rəhbərləri heç zaman öz ağızları ilə hürməyiblər, havadarlarına, müdafiəçilərinə arxalanaraq danışıblar.

Prezident İlham Əliyev isə "Valday" və Münhen konfranslarında təkcə Paşinyana yox, onun havadarlarına da xəbərdarlıq etdi.

Ən nəhayət, İlham Əliyev gözəl bilirdi ki, Paşinyan əyalət səviyyəli siyasətçidir. Onu sıxan kimi daha ciddi səhvlərə yol verəcək, özünə erməni xalqı qarşısında "Qarabağı özününküləşdirən lider" imicini qazandırmaqdan ötrü yanlış, Azərbaycanın xeyrinə işləyən addımlar atacaqdır!

Hadisələrin sonrakı gedişi də göstərdi ki, Ali Baş Komandan İlham Əliyev artıq işğal altındakı torpaqların hərbi yolla geri qaytarılması üçün hərbi hazırlıq məsələlərini tam başa çatdırıbmış!

Piyada erməni siyasətçisinin başına ip salıb oynadan siyasət qrossmeysteri İlham Əliyev Paşinyanı dalbadal yanlış, əslində, Azərbaycana sərf edən hərəkətlərə sövq etdi, Ermənistan isə yeni müharibənin başlanmasının səbəbkarı və təhrikçisi kimi dünya ictimaiyyətinə təqdim olundu.

❖❖❖

İlk cavab kəskin və tutarlı oldu!

Sonrakı addımlar da göstərdi ki, Azərbaycan Prezidenti cavabın "sürətli" yox, daha əsaslı və faktlarla zəngin olmasına, üstəlik, daha böyük "auditoriya"da bütün dünyanın görəcəyi və eşidəcəyi şəkildə verilməsinə xüsusi diqqət yetirib.

Beləliklə, 2019-cu il avqustun 5-də Ermənistanın baş naziri Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" cəfəng açıqlamasına İlham Əliyev həmin ilin oktyabrın 3-də Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik plenar iclasında cavab verdi:

"Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də "Valday" Forumu çərçivəsində müvafiq cavab verilib.

Beləliklə, bəyanat sözbəsöz belədir: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə".

Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

Ancaq zaman göstərdi ki, Azərbaycan Prezidentinin qətiyyətli mövqedən söylədiyi fikir düşmənə verilən cavabın yalnız birinci hissəsidir.

Cənab İlham Əliyev ikinci dəfə bu mövzuya 15 fevral 2020-ci ildə Almaniyada keçirilən Beynəlxalq Münhen Təhlükəsizlik Konfransında qayıtdı.

Həm də necə?!

Əslində, bu, iki düşmən dövlət başçısının dünyanın gözü qarşısında baş tutan söz və ağıl dueli idi!

Burada dilbilmə qabiliyyətindən tutmuş məntiqli mübahisə, tarixi fakt və hadisələrdən yerində, bacarıqla istifadə, opponentinin yalanını çıxarma və onu çaşdırma, gülünc vəziyyətinə salmağa qədər hər şey açıq-aşkar görünürdü.

Cənab İlham Əliyev bu açıq qarşıdurmada keçmişə çox qısa bir ekskurs edərək Paşinyana Kürəkçay, Türkmənçay və Gülüstan müqavilələrini xatırlatdı, 1921-ci ildə Bolşevik partiyasının Qafqaz Bürosunun Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanılması barədə qərarından, 1923-cü ildə Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması barədə fərman qəbul etdiyindən söhbət açaraq ona tarix dərsi keçdi.

Həm də beynəlxalq tədbirdə yalanlar söylədiyini ifşa etdi!

Bu söz duelinin nəticəsində biz dövlət başçımızla sonsuz qürur duyduğumuz halda, ermənilər pərt oldular və bütün utancgətirən məqamları öz aralarında, sosial şəbəkələrdə bölüşərək açıq-açığına etiraf etdilər.

Əməl cavabını isə Ermənistan və onun havadarları bir qədər sonra - 27 sentyabrda başlanan və 10 noyabrda üçtərəfli Bəyanatla Azərbaycanın tam qələbəsini əks etdirən 44 günlük Vətən müharibəsinin doğurduğu real nəticələrdən aldı:

* Ermənistan ordusu 44 günlük müharibədə məhv edildi;

* Düşmən Azərbaycan torpaqlarından birdəfəlik və it kimi qovuldu;

* Ermənistan bütün dövlət başçılarına yalvararaq onları Azərbaycan Prezidentinə minnətçi salsa da, düşmən öz qoşunlarının Qarabağdan çıxarılmasına dair qrafiki verməyənədək hərbi əməliyyatlar dayandırılmadı;

* Ermənistan Azərbaycan qarşısında diz çökərək onun bütün tələblərini yerinə yetirəcəyinə söz verərək üçtərəfli Bəyanata imza atdı;

* "Qarabağ Azərbaycandır və nida işarəsi" söyləyən Müzəffər Ali Baş Komandan İlham Əliyev əslində bu möhtəşəm qələbəsi ilə iki əsr ərzində davam edən Dağlıq Qarabağ münaqişəsinə son qoyulduğunu bəyan etdi.

Beləliklə, "nöqtə" ilə başlayan növbəti söz davası "nida" işarəsilə - müharibə formasında davam etdi və İlham Əliyevin qətiyyət və qəhrəmanlığı, Azərbaycan Ordusunun sarsıdıcı zərbələri sayəsində tam qələbə ilə başa çatdırıldı!

Ermənistanın baş naziri desə də, sonradan dediyini yedi!

Müzəffər Ali Baş Komandan İlham Əliyev isə dedi, dediklərini Ermənistana yedirtdi və "dəmir yumruğ"u ilə Ermənistan ordusunu məhv edərək Qarabağı və Şərqi Zəngəzuru murdar ləpirlilərdən təmizlədi!

❖❖❖

İndiyədək dünyada baş verən hadisələr göstərir ki, dövlət başçılarının, siyasətçilərin söz dueli real həyatda heç nəyi dəyişərək həll etmir!

Bu daha çox dünya ictimaiyyətinə ünvanlanan mesajlar olur.

Amma belə "əyani" görüşlər kimin kim olduğunu da ortaya qoyur.

Həmin dövrədək Azərbaycan Prezidenti İlham Əliyev BMT Təhlükəsizlik Şurasının iclaslarına sədrlik etmiş, BMT-nin, Avropa Şurasının, Davos İqtisadi Forumunun iclaslarında dəfələrlə yaddaqalan nitqlər söyləmiş, dünyanın ən böyük dövlətlərinin rəhbərləri ilə çoxsaylı görüşlər keçirmiş, bütövlükdə yeni dünyanın yeni liderlərindən biri kimi tanınaraq qəbul edilmişdi.

Paşinyan isə bu sahənin ibtidai mərhələsindəydi.

Ən əsası cənab İlham Əliyev sözü ilə əməli eyni olduğundan müstəqil Azərbaycanı qüdrətli dövlətə çevirmişdi.

Başqa sözlə, İlham Əliyev Azərbaycanı iqtisadi gücə, yüksək siyasi nüfuza, qüdrətli orduya, müasir, çevik və hücumçu diplomatiyaya, müasir müsbət beynəlxalq imicə, ölkə daxilində isə milli birliyə malik dövlət səviyyəsinə yüksəltmişdi.

Və hamıdan da yaxşı özü bilirdi ki, yeni müharibənin başlayacağı təqdirdə Azərbaycan Ordusu Ermənistanı qısa müddətdə məğlubiyyətə uğradaraq işğal altındakı torpaqları azad edəcəkdir!

Başqa sözlə, Azərbaycanın haqq işinin ədalətli, beynəlxalq hüququn norma və prinsiplərinə uyğunluğunu, tarixi baxımdan bütün Qarabağın və Şərqi Zəngəzurun Azərbaycana məxsusluğunu təkzibolunmaz faktlarla sübut edirdisə, sözdə dediklərini güc yolu ilə real həyatda da gerçəkləşdirməyə qadir olduğuna əmin idi.

Müzəffər Ali Baş Komandanımız dediklərini 44 günlük Vətən müharibəsi ilə həyata keçirdi.

Dedi və etdi!

Danışdı və göstərdi!

Azərbaycanı qalib dövlətə çevirdi, öz gücü ilə haqqı, ədaləti bərpa etdi!

Rəhbər qətiyyəti, Sərkərdə iradəsi, diplomat məharəti, informasiya müharibəsində döyüşmək bacarığı, ən nəhayət, kişi sözü belə olur!

❖❖❖

Əsl gülən, sonuncu gülən olur - demişlər!

İlham Əliyev Münhen Təhlükəsizlik Konfransında Paşinyanın yalanlarını ifşa edərək onu gülüş hədəfinə çevirdi.

İkinci Qarabağ müharibəsində isə bu rişxənd gülüşünü məmnun qələbə gülüşü ilə əvəz etdi!

Əvvəldə də güldü, sonda da!

Bu gün isə hamımız Prezidentimizin həm söz duelindəki, həm də Vətən müharibəsindəki möhtəşəm qələbələrini xatırlayaraq sonsuz qürur və sevinc hissi keçiririk!

Əsl rəhbər, dövlət xadimi, diplomat, siyasətçi və qəhrəman Sərkərdə belə olur!

***2 oktyabr 2022-ci il***

# Qüdrətli Komandanın möhtəşəm Zəfəri

*Böyük möcüzə kiçik möcüzələrdən yaranır*

İnsan nəyisə öyrənmək istəyəndə sual verir.

İnsan hərdən bildiyini dəqiqləşdirmək üçün də sual verir.

İnsan bəzən ritorik sual da verir.

Başqa sözlə, cavabı içərisində gizlənən suallar da olur.

İndi isə belə bir sualı nəzərdən keçirək:

Həyatda möcüzə varmı?

Gəlin biliyimiz və dünyagörüşümüz həddində bu suala cavab tapmağa çalışaq.

❖❖❖

Biz hamımız uşaqlıqda möcüzə görmək arzusunda olmuşuq...

İstəmişik ki, bütün arzularımız bir anda, möcüzəvi şəkildə yerinə yetsin.

Hətta bunun icrasının yolunu da tapmışıq:

Sehirli çubuq!

Nağıllarda rast gəldiyimiz sehirli çubuq!

Belə çubuğa sahib olmağı o qədər arzulamışıq ki...

Bir qədər böyüdükdən sonra anlamışıq ki, sehirli çubuq yalnız əfsanə kimi mövcuddur.

Həyatda isə arzuna, istəyinə çatmaq üçün zəhmətə qatlaşmalı, yorulmadan çalışmalısan, daim məqsədinə doğru irəliləməlisən.

Ancaq bəzən insan həyatda möcüzəyə və ya möcüzəyəbənzər hadisələrə də rast gəlir!

Əfsanəvi yox, real möcüzəyə!

Sehirli çubuqla yaranan möcüzəyə yox, real həyatda yaranan möcüzəyə!

Gözü ilə gördüyü, şahidi olduğu, adi insanların iştirakı, əli ilə yaranan möcüzəyə.

Onlardan bir qismi barədə danışmaq istəyirik.

❖❖❖

Azərbaycan ərazisinin zorla alınaraq Ermənistana verilməsinə xidmət edən "Qarabağ problemi" uydurulandan, XX əsrin sonlarında isə SSRİ-nin dağılma prosesi başlayandan ölkəmiz daim təklənib, haqsızlıqlara məruz qalıb.

Əvvəlcə dünyaya yeganə informasiya çıxışı kanalları olan sovet informasiya agentlikləri, mərkəzi televiziya və mərkəzi qəzetlərdə problem təhrif olunmuş şəkildə işıqlandırılıb və dünyaya təqdim olunub.

Azərbaycan "məzlum", "zavallı" erməniləri sıxışdıran, öldürən tərəf kimi göstərilməklə məsələnin mahiyyəti saxtalaşdırılıb.

Sonra sovet ordusunun bölmələri və silahları vasitəsilə Azərbaycan ərazisi işğala məruz qalıb.

BMT Təhlükəsizlik Şurasının məşhur 4 qətn aməsi - Qarabağın Azərbaycana məxsus olmasını və erməni silahlı birləşmələrinin dərhal, qeyd-şərtsiz Azərbaycan ərazilərindən çıxarılmasını tələb edən sənəd isə uzun illər boyu yerinə yetirilməyib.

Əksinə, ərazisi işğala məruz qalan Azərbaycana qarşı ABŞ Konqresi bədnam 907-ci düzəlişi qəbul edib.

Həmin dövrdən başlayaraq erməni diasporunun güclü olduğu dünyanın aparıcı dövlətlərində ermənilərin sözü keçib, beynəlxalq hüquq ayaqlar altında qalıb, ATƏT-in Minsk qrupu isə münaqişəni həll etmək əvəzinə saqqız kimi uzadıb, özünün mənasız və səmərəsiz fəaliyyəti ilə məşhurlaşıb.

Xalqın arzu və tələbi ilə Ulu Öndər Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıtması nəticəsində Qarabağın işğaldan azad olunması məsələsi yeni mərhələyə qədəm qoymuşdur.

Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə isə başlanan işlər daha yüksək səviyyədə davam etdirilmiş, yaranan vəziyyət və mövcud şərait dəqiq qiymətləndirilərək torpaqlar hərbi yolla işğaldan azad olunmuşdur.

İkili standartların hökm sürdüyü, BMT-nin, ATƏT-in Minsk qrupunun acizlik göstərdiyi, erməni diasporunun at oynatdığı və Ermənistanın sülh danışıqlarına gəlmədiyi bir zamanda Müzəffər Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsinə başlayaraq 44 gün ərzində Ermənistan ordusunu məhv etməsi, düşməni qarşısında diz çökdürməsi və ona kapitulyasiya aktını imzalatdırması əsl möcüzə oldu!

Görünən odur ki, 44 gün ərzində Azərbaycan təkcə işğalçı Ermənistana deyil, üstəlik, onun müdafiəçilərinə və havadarlarına, erməni diasporuna, beynəlxalq hüququ pozanlara da qalib gəldi, üstəlik, BMT-nin və digər beynəlxalq qurum və təşkilatların görəcəkləri işi təkbaşına özü gördü!

İlham Əliyevin xalqın ən müqəddəs arzusunu həyata keçirərək yaratdığı bu böyük möcüzə, əslində, onun bu istiqamətdəki kiçik möcüzələrinin məntiqi yekunu idi.

Bəs həmin kiçik möcüzələr hansılardır?!

❖❖❖

İkinci Qarabağ müharibəsində Azərbaycanın qazandığı qələbə dünya tərəfindən birmənalı şəkildə və eyni cür qiymətləndirildi:

Azərbaycan Vətən müharibəsində sürətli və möhtəşəm Zəfər qazanıb!

Yeni strategiya və ən müasir taktika tətbiq edib!

PUA-ların nümunəsində yeni silahlar işlədib!

Bütün bunlar isə ölkəmizə XXI əsrin ən yeni müharibəsini aparmağa və dünya müharibələri tarixində təzə səhifə açmağa imkan verib!

Möcüzə deyilmi?!

❖❖❖

Müzəffər Ali Baş Komandan İlham Əliyev baş sərkərdəsi olduğu bu müharibədə iki rekorda da imza atmış oldu:

Əvvəla, son beşəsrlik dövrdə Azərbaycan ilk dəfə olaraq işğal olunmuş torpaqlarını geri qaytardı!

İkincisi, Vətən müharibəsindəki Zəfər həm də iki əsr ərzində mövcud olan, habelə tarixinin ən keşməkeşli dövrlərində Azərbaycandan kimlərinsə əli ilə torpaq qoparılması ilə nəticələnən Qarabağ münaqişəsinə birdəfəlik son qoydu!

Daha heç kəs "Qarabağ problemi" adı ilə bizə təsir və təzyiq göstərə bilməyəcək!

Daha kimsə kimlərinsə havadarlığı ilə bizdən müxtəlif üsul və bəhanələrlə torpaq qopara bilməyəcək!

Möcüzə deyilmi?!

❖❖❖

Hər bir müharibənin çoxsaylı şəhidi və qəhrəmanı olur.

Onlarsız ötüşmək mümkün deyil!

Hər bir müharibənin həm də yeganə baş qəhrəmanı olur!

Müharibəyə hazırlığı təmin və təşkil edən, bütün qərarlara "hə" deyərək icrasına yaşıl işıq yandıran, son söz sahibi olaraq hər şey üçün cavabdehlik daşıyan səlahiyyət sahibi!

Hər bir müharibənin taleyini həll edənə həmin insana isə Ali Baş Komandan deyilir!

44 günlük Vətən müharibəsinin əsl baş qəhrəmanı cənab İlham Əliyev oldu!

Müzəffər Ali Baş Komandan İlham Əliyev diplomatiya və informasiya müharibəsinin də yeganə baş qəhrəmanıdır!

Cənab İlham Əliyev ixtisasca diplomatdır.

Dünyanın ən tanınmış ali təhsil ocaqlarından birini - Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirib!

Təkcə bitirməyib, həm də orada dərs deyib!

Və bu gün də İlham Əliyevlə qürur duyan təhsil ocağı onun şəklini "Şərəf lövhəsi"ndə saxlayır.

Azərbaycan Prezidenti nə hərbi təhsil alıb, nə də peşəkar zabit kimi orduda xidmət edib!

II Qarabağ müharibəsi ilk döyüşü, Ali Baş Komandan kimi rəhbərlik etdiyi ilk hərbi əməliyyat oldu!

Bütün bunlara baxmayaraq, cənab İlham Əliyev elə bir qeyri-adi müharibə apardı, elə bir zəfər qazandı ki, bütün dünya heyran qaldı.

Həm də təkcə heyran qalmadı!

Həmin müharibədə Müzəffər Ali Baş Komandan İlham Əliyevin tətbiq etdiyi straregiya və taktikanı öyrənərək ordularında tətbiq etməyə başladılar!

İlk dəfə müharibə aparan cənab İlham Əliyev yeni müharibə örnəyi yaratdı!

Möcüzə deyilmi?!

❖❖❖

Erməni işğal etdiyi ərazilərdə yerləşmiş, rahat oturmuşdu.

Artıq Qarabağı da, Şərqi Zəngəzuru da özününkü sayırdı!

Xislətinə uyğun olaraq hər yeri söküb dağıdır, dostlarına satıb pula çevirir, viran qoyurdu...

Tutduğu yerləri geri qaytarmaq niyyətində də deyildi!

Amma içində bir qorxu da vardı!

Bilirdi ki, torpağın əsl sahibi nə vaxtsa geri dönəcək, itirdiklərini geri qaytaracaq, qisasını alacaqdır!

Odur ki, 30 il ərzində havadarlarının və dostlarının köməyi ilə hər tərəfdə müdafiə istehkamları qurmuş, dərin səngərlər qazmış, dəmir qapılarının qalınlığı 70 santimetr olan beton bunkerlər tikmişdi.

Bakıda yaradılan Hərbi Qənimətlər Parkında Qarabağdakı 6 qatlı müdafiə sədlərinin bütün elementlərini açıq-aydın görmək mümkündür.

Təbii relyefin də "kömək göstərdiyi" hərbi mühəndis qurğularından bir pişik belə keçə bilməzdi!

AMMA...

Sən öz saydığını say...

Müzəffər Ali Baş Komandan İlham Əliyev elə bir müharibə apardı, elə hərbi manevrlər etdi ki, düşmən 30 ildə qurduğu mövqelərdən bir güllə belə ata bilmədi...

Ağdam, Laçın və Kəlbəcər kimi rayonlar dinməz-söyləməz geri qaytarıldı!

Halbuki həmin mövqelərdən Azərbaycana güclü zərbələr vurmaq, böyük miqdarda canlı qüvvə itkisinə nail olmaq nəzərdə tutulmuşdu!

Beləliklə, erməninin 30 ildə qurduğu müdafiə mövqeləri gərəksiz şeyə çevrildi!

Möcüzə deyilmi?!

❖❖❖

Hücuma keçən tərəf yalnız qələbə barədə düşünür!

Qələbənin şərtləri isə çoxdur!

Burada şəxsi heyətin hazırlığından, ruh yüksəkliyindən, silahlanmasından, tətbiq olunan taktika və strategiyadan, dəqiq kəşfiyyat məlumatlarından, öndə döyüşənlərin bütün növ təchizatlarla təminatından və digər amillərdən də çox şey asılıdır.

Təbii ki, hücum tərəfinin işi daha çətin olur.

Minalanmış sahələrə rast gəlmək, pusquya və tələyə düşmək, müxtəlif sürprizlərlə qarşılaşmaq hər an mümkündür.

Odur ki, birnəfəsə keçilən hücumla qələbəyə çatmaq olduqca müşkül məsələdir!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin qurduğu Azərbaycan Ordusu isə müharibə başlayandan hərbi əməliyyatların dayandırıldığı anadək daim hücumda oldu!

Daim irəli getdi!

Hər gün qarşıya qoyulan döyüş tapşırıqlarını uğurla yerinə yetirdi!

Bircə gün də olsun hücumunu dayandırmadı!

44 gün ərzində nə müdafiəyə keçdi, nə də geriyə çəkildi!

Möcüzə deyilmi?!

❖❖❖

Hər bir müharibənin uğuru qarşı tərəfin hazırlığı, mövqeləri və yerləşməsi, silahlanma səviyyəsi ilə bağlı dürüst məlumatlara malik olmasından da asılıdır.

Azərbaycanla Ermənistan 27 il ərzində təmas xəttində qarşı-qarşıya dayanmış, bir-birilərinə güllə atmışlar.

Ermənilər xislətlərinə uyğun olaraq dəfələrlə təsərrüfat işləri ilə məşğul olan mülki əhalini, hətta körpə uşaqları belə hədəfə çevirmişlər.

Düşmənin sülh danışıqlarına gəlməməsi, özünü qalib tərəf kimi təkəbbürlü və iddialı aparması gec-tez Qarabağda müharibənin yenidən alovlanacağına dəlalət edirdi!

Aprel müharibəsi isə, necə deyərlər, bunun anonsuna çevrildi.

Azərbaycan isə sülh danışıqlarının baş tutmayacağı təqdirdə münaqişəni hərbi yolla həll edəcəyini gizlətmirdi.

Həm də hər il hərbi sahəyə Ermənistanın dövlət büdcəsindən də çox vəsait ayırır, silahlanırdı.

İndiki dövrdə düşmən tərəf barədə yetərincə məlumat əldə etmək üçün imkan və vasitələr çoxdur.

Kosmosdan peyk vasitəsilə izləmələr, PUA-larla kəşfiyyat aparmaq, kimin hansı ölkədən hansı silahları almasından, habelə keçirilən hərbi təlimlərdən yetərincə məlumat toplamaq çoxları üçün əlçatandır.

Xüsusən Ermənistanın dostlarının imkanlarını və ərazilərimizə yaxınlıqlarını nəzərə alanda bunun bir o qədər də çətin olmadığını görürük.

AMMA...

Müharibə başlayanda Azərbaycan elə silahlardan istifadə etdi, elə taktika işlətdi, elə nöqtələrdən hücuma keçdi ki, təkcə Ermənistanın özü yox, müdafiəçiləri də çaş-baş qaldılar!

Bu qədər "dostu", havadarı olan Ermənistanın Azərbaycanın hərbi potensialı, silahları, sürətli müharibə aparmaq imkanları barədə dəqiq və geniş informasiya əldə edə bilməməsi möcüzə deyilmi?!

❖❖❖

Hər bir müharibənin öz hesablamaları olur.

Tərəflər döyüş meydanına nə qədər canlı qüvvə, texnika, silah-sursat çıxaracaqlarını, müharibənin təqribən nə qədər çəkəcəyini, hər gününün neçəyə başa gələcəyini və bütövlükdə nə qədər vəsait xərclənəcəyini təxmini olsa da, hesablaya bilirlər!

İtkilər də irəlicədən hesablanır.

Adətən, hücuma keçən tərəf 3-5 dəfə çox canlı qüvvə itkisi verir!

Çünki müdafiə tərəfi irəlicədən hazırlanmış səngərlərdə, istehkamlarda, atəş nöqtələrində daldalanaraq üzərinə hücuma keçənləri aydın görə bilir.

II Qarabağ müharibəsində Azərbaycan hücuma keçən tərəf idi.

Ermənistan isə 30 illik hazırlıqla, yerli relyefin imkanlarından istifadə etməklə möhkəm müdafiə sistemi qurmuşdu!

Nəticə heyrət doğuracaq qədər gözlənilməz oldu!

Azərbaycan təqribən 3000 nəfər - Ermənistandan 3 dəfə az itki verdi!

Ermənistan hələ də ərazimizdəki leşlərin hamısını yığıb qurtara bilməyib!

Hələ də gizlətdiyi meyitlərinin kimliyini müəyyən edərək yiyəsinə qaytara bilməyib!

Hücum edən tərəfin müdafiə olunandan bu qədər az itki verməsi möcüzə deyilmi?!

❖❖❖

Vətən müharibəsinin ən çətin məsələsi Şuşanın işğaldan azad edilməsi sayılırdı.

Şəhərin yerləşdiyi coğrafi mövqe, relyefi, ona doğru gedən mümkün yolların asanlıqla nəzarətdə saxlanması, üstəlik, düşmənin Şuşanı israrla vermək istəməməsi vəziyyəti xeyli çətinləşdirirdi.

Məqsəd həm də az itki ilə qala şəhəri geri qaytarmaq, hücum əməliyyatı zamanı mümkün qədər dağıntılardan qaçmaq idi.

Qəhrəman Azərbaycan əsgəri bu vəzifənin öhdəsindən şərəf və bacarıqla gəldi.

Cənab İlham Əliyevin tərbiyələndirdiyi yeni gənclər nəslinin də iştirak etdiyi qüdrətli ordu, mükəmməl hazırlanmış və xüsusi təlim keçmiş "xüsusi təyinatlı"ların hünəri və incəliyinə qədər düşünülərək hazırlanmış məxsusi hücum planı möhtəşəm qələbəni təmin etdi!

Azərbaycan əsgəri həftələrlə, aylarla gündüzlər gizlənərək gecələr yol getdi, keçilməz cığırlardan keçdi, yalçın qayalardan dırmaşdı, düşmənin gözləmədiyi yerdən, qəflətən hücuma keçdi.

"Şuşa əməliyyatı"nda dağıntı olmasın deyə zirehli texnikadan, raket və mərmi atəşlərindən, habelə əlverişsiz havaya görə PUA-lardan istifadə edilmədi!

Qəhrəman Azərbaycan döyüşçüsü bu qala şəhəri əsgər süngüsü və lopatkası ilə vuruşaraq, əlbəyaxa çarpışaraq geri qaytardı!

Şuşanın bu sayaq alınması möcüzə deyilmi?!

❖❖❖

SSRİ 1941-1945-ci il müharibəsində alman faşizminə böyük itkilər bahasına qalib gəlmişdilər.

Bu müharibədə keçmiş ittifaqdakı bütün xalqlar iştirak etmiş, qurbanlar vermişdi.

Müharibədən sonrakı illərdə sovet xalqının bu qələbəsindən yüzlərlə bədii film çəkilmişdi.

Hamı bu filmlərə böyük maraqla baxır, sovet əsgərinin əfsanəvi qəhrəmanlığından zövq alırdı.

Ara-sıra müharibə dövrü çəkilmiş sənədli kadrlar da nümayiş etdirilirdi.

II Qarabağ müharibəsinə qədər müharibədən canlı döyüşləri isti-isti izləmək heç kəsə müyəssər olmamışdı!

Amma Vətən müharibəsində bunu da gördük!

Həm də necə...

Evimizdə, rahat kreslomuzda oturaraq mavi ekranda "Bayraqdar"lar, "Harop"-lar vasitəsilə, dəqiq mərmi zərbələri ilə düşmən hədəflərinin - zirehli texnikasının, bunker və səngərlərdə gizlənən canlı qüvvəsinin, köməyə tələsən əsgər dolu maşınlarının, ön cəbhəyə gedən təchizat avtomobillərinin və digərlərinin darmadağın edilməsinə ləzzətlə baxırdıq!

Təkcə biz yox, bütün dünya da müharibədən "canlı reportaj"ları heyrətlə izləyirdi!

Evində oturaraq döyüş əməliyyatlarının fraqmentlərini canlı izləmək möcüzə deyilmi?!

❖❖❖

İndiki müharibələrə "allis müharibə" də deyilir.

Çünki döyüşlər təkcə cəbhədə deyil, informasiya meydanında da aparılır.

Həm də bir cəbhənin uğuru digərinə də ciddi təsir göstərir.

Vətən müharibəsi də istisna deyildi.

Dünyanın tanınmış KİV, televiziya kanalları, informasiya agentlikləri ölkəmizə tökülmüşdü.

Çoxu da xoş niyyətdə deyildi, maliyyəsini aldığı erməni diasporunun tapşırıqlarını icra edirdi.

Sual verənlər müxtəlif olsa da, suallar təqribən eyni xarakter daşıyırdı:

* Azərbaycan niyə sülh danışıqlarını pozdu;
* Niyə hərbi əməliyyatları dayandırmır;
* Türkiyə niyə sizə kömək edir;
* Niyə siz tərəfdə muzdlular döyüşür;
* Qadağan olunmuş silahlardan istifadə edirsinizmi və s.

Əslində, məqsəd erməni tərəfinin günahlarını bizim üzərimizə yıxmaq və dünya ictimaiyyətinə yanlış məlumat vermək idi!

Müzəffər Ali Baş Komandan İlham Əliyev informasiya cəbhəsində demək olar ki, təkbaşına döyüşdü və qalib gəldi!

Əslində, həmin informasiya vasitələrinin tribunasından bəhrələnərək Qarabağ müharibəsi, hərbi əməliyyatlar və onların gedişi barədə əsl həqiqətləri bütün dünyaya yaydı, Ermənistanın ikiüzlü, riyakar mövqeyini ifşa etdi, erməni tərəfinin muzdlulardan, qadağan olunmuş silah və sursatlardan istifadə etdiyini, cəbhə xəttindən xeyli aralıda yerləşən yaşayış məntəqələrinə ballistik raket zərbələri endirdiyini, mülki əhaliyə tələfat yaşatdığını konkret faktlarla ifşa etdi!

Azərbaycan dövlətinin mövqeyini, atdığı addımları da geniş izah etdi.

Düşməni bütün cəbhələrdə məğlub və ifşa etmək, təkbaşına informasiya müharibəsində dünya mediasına qalib gəlmək möcüzə deyilmi?!

❖❖❖

II Qarabağ müharibəsi başlayanda hamımız çox nigaran, çox narahat idik!

Düşmənə kimlərin nə sayaq kömək etdiyindən də xəbərdar idik, onun yaratdığı müdafiə qurğularından və keçilməz sədlərindən də, hətta "yeni müharibə, yeni ərazi işğalı olacaq" xəbərdarlığını da eşitmişdik!

Ancaq dövlətimizə, ordumuza, ən əsası, Ali Baş Komandanımıza da inanırdıq, arxayın idik!

Zaman hər şeyi öz yerinə qoyur!

Zaman hətta möcüzələri də adiləşdirə bilir!

Ancaq zamanın fövqündə duran möcüzələr də var.

Belə möcüzələr çoxsaylı kiçik möcüzələrdən yaranır.

44 günlük Vətən müharibəsi əsrlərboyu öz dəyərini itirməyən möcüzələrdəndir.

Azərbaycan xalqını qalib xalqa, bəxtəvər xalqa çevirən möcüzə!

Dünyanın güclü dövlətlərini belə Azərbaycandan öyrənməyə sövq edən möcüzə!

Azərbaycan əsgərini, qəhrəmanlığı ilə dastanlar yaradan Azərbaycan şəhidini daim ucalıqda saxlayan möcüzə!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrəti, qətiyyəti, iradəsi və qəhrəmanlığı ilə yaranan möcüzə!

***6 noyabr 2022-ci il***

## Sınaqlarla dolu Zəfər yolu

Yeni Azərbaycan Partiyasının 30 illik yubileyini böyük sevinc, qürur və fərəh hissi ilə qeyd edirik.

Cənubi Qafqazın ən böyük partiyasının yaranması və fəaliyyəti elə də uzun dövrü əhatə etmir.

Lakin onun gördüyü işlər, çatdığı hədəflər, nail olduğu nəticələr əsrlərə sığmayan nailiyyətlərdir.

Əvvəlcə iki yığcam suala konkret cavab verməyə çalışaq:

Yeni Azərbaycan Partiyası Azərbaycan xalqına və dövlətinə nə verib?

Cavab çox qısa və lakonikdir!

Əslində, hər şey!

Ən əvvəl Azərbaycan xalqının bütün arzu və istəklərini gerçəkləşdirib!

Yeni Azərbaycan Partiyasının uğurlarının səbəbi nədir?

Bu sualın da cavabı çox qısadır:

Daim xalqa arxalanmasında, demokratik prinsipləri dönmədən rəhbər tutmasında, birmənalı şəkildə milli maraqlara xidmət etməsində, milli birliyə nail olmasındadır!

İndi isə otuz il ərzində keçilən yola, görülən işlərə qısa şəkildə nəzər salaq, hadisələri faktların köməyi ilə xatırlayaq.

❖❖❖

Yeni Azərbaycan Partiyası Azərbaycanın ən çətin, ən ağır günlərində yarandı.

Qırmızı imperiyanın dağılması, SSRİ adlı super dövlətin tərkibinə qatılmış müttəfiq respublikaların müstəqil dövlətə çevrilməsi siyasi kataklizmlərlə müşayiət olunurdu.

İmperiyasevər qüvvələr parçalanma prosesi zamanı Azərbaycanın malik olduğu sərvətlərdən asanlıqla əl çəkmək istəmirdilər.

Odur ki, köhnə ssenarilər işə salınaraq "Dağlıq Qarabağ problemi" yenidən meydana atıldı, Azərbaycandan ərazi qoparmaq üçün məkrli planlar işə salındı.

Mərkəzdəkilər Ermənistanın özünə ordu yaratmasına göz yumdular, azərbaycanlılardan isə ov tüfənglərini belə yığdılar.

Ermənistandan Qarabağa gələn emissarlar Xankəndidə mitinqlər keçirəndə, separatçılıq əməlləri törədəndə susdular.

Ermənistanda qədim dədə-baba torpaqlarında yaşayan iki yüz mindən çox azərbaycanlı doğma yurd-yuvalarından qovulanda da özlərini görməzliyə qoydular.

Əksinə, Moskva Qarabağda "xüsusi idarəetmə komitəsi" təşkil edərək bölgənin Azərbaycanın nəzarətindən çıxarılmasına şərait yaratdı.

Belə bir məsuliyyətli məqamda ölkəyə Vəzirov kimi maymaq, Mütəllibov kimi qətiyyətsiz və qorxaq, AXC-Müsavat cütlüyü kimi səriştəsiz və şəxsi maraqlara xidmət göstərənlərin başçılıq etməsi vəziyyəti daha da mürəkkəbləşdirdi.

Heydər Əliyevin Azərbaycan Ali Sovetinin sessiyasında çıxış edərək baş verənlərin adi məsələ olmadığını, Qarabağı qoruyaraq Azərbaycanın tərkibində saxlamaq üçün xüsusi tədbirlər görülməsini söyləməsi, təhlükə barədə irəlicədən ciddi xəbərdarlıq etməsi isə kimsəni ayıltmadı.

Ölkə idarəolunmaz vəziyyətə çatdı, xaos və anarxiya baş alıb getdi, Azərbaycanın müstəqilliyini itirməsi bir yana, dövlət kimi mövcudluğu da təhlükə altına düşdü.

Əvvəlcə bir qrup ölkə ziyalısı - 91 nəfər Heydər Əliyevə müraciət edərək hadisələrə müdaxilə etməsini, siyasi partiya yaradaraq vətənpərvər insanları ətrafında birləşdirməsini xahiş etdi.

Sonra isə Azərbaycan xalqı onun yenidən ölkə rəhbərliyinə qayıtmasını arzu və tələb etdi.

❖❖❖

Məşhur bir deyim var: qəhrəmanlıq zirvəni fəth etməkdə deyil, orada qərar tutmaqdadır.

Bəli, əgər əldə etdiyini qoruyub saxlaya bilmirsənsə, itirirsənsə, deməli, əslində, ona yiyələnməmiş olursan, çünki əlin boşda qalır.

Yaxud qazandığına sahib çıxıb, onu artırıb inkişaf etdirmirsənsə, itirəcəksən, ovcun boş qalacaqdır.

Zirvədə dayanmaq isə hər kəsə nəsib olmur!

Bunun üçün təkcə bilik, bacarıq, təşkilatçılıq məharəti, zəngin təcrübə də azdır!

Gördüyün işlərlə xalqın məhəbbətini, etibar və etimadını da qazanmalısan!

Ulu Öndər Heydər Əliyev kimi!

Azərbaycan xalqı hələ Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə gördüyü işləri - xalqın həyat şəraitinin yüksəldilməsi, ölkədə abadlıq və quruculuq aparılması, təhsilin, elmin, mədəniyyətin inkişaf etdirilməsi, yeni kadrlar nəslinin yetişdirilməsi ilə bağlı addımlarını bəyənərək sevmişdir.

Həm də Ulu Öndərin xalqımızın ən böyük vətənpərvəri olduğunu görüb ona inanmışdı.

Odur ki, dövlətin ən çətin, ən ağır dövründə yenidən ona üz tutdu, ölkəni çıxılmaz durumdan çıxarmaq üçün yenidən ölkə rəhbərliyinə dəvət etdi!

Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra çox işlər gördü, çox məsələ və problemləri həll etdi.

Bu barədə bir qədər sonra ətraflı bəhs edəcəyik.

İkinci mühüm hadisə isə Azərbaycan tarixinə düşən və Azərbaycanı tarixdə yaşadan, qüdrətli dövlətə çevirən məsələ oldu.

Ulu Öndər Heydər Əliyev ikinci rəhbərliyi dövründə müstəqil Azərbaycanın davamlı, sürətli və daimi inkişafını təmin edən xalqın ehtiramla "Heydər Əliyev siyasi kursu" adlandırdığı inkişaf istiqamətlərini müəyyən etdi.

İkinci xidməti isə özünün yarıda qalan işlərini uğurla davam etdirə biləcək siyasi varisini hazırlaması oldu!

❖❖❖

Yeni Azərbaycan Partiyasını iqtidar partiyasına Ulu Öndər Heydər Əliyev çevirdi!

Seçkilər keçirməyə vaxt yox idi!

İtirilən hər gün, hər saat qiymətli sayılırdı!

Yeni Azərbaycan Partiyası müxalifdə olduğu tarixən qısa müddətdə demokratiya nümunəsi göstərdi.

Bu partiya heç zaman demokratik prinsipləri pozmadı, dağıdıcılıq törətmədi.

Hətta həmin dövrdə iqtidarda olan AXC-Müsavat cütlüyünün təzyiqlərinə, zora əsaslanan addımlarına belə zorakılıqla reaksiya vermədi.

Yeni Azərbaycan Partiyası öz fəaliyyətində daim milli maraqları rəhbər tutdu, hadisələrə partiya mənafeyindən yox, milli maraqlar baxımından yanaşdı.

Bütövlükdə ortaya bir siyasi mədəniyyət nümunəsi qoydu.

❖❖❖

Yeni Azərbaycan Partiyasının proqram və vəzifələri daim müstəqil Azərbaycan dövlətinin qarşısında duran vəzifələrlə üst-üstə düşüb.

Partiyamız öz vəzifələrinin icrasına çalışarkən, əslində, dövlətin öz məqsədlərinə çatmasına cəhdlər göstərmiş olub.

Xoşbəxtlikdən Yeni Azərbaycan Partiyasının hər iki sədri eyni zamanda xalqın böyük səs çoxluğu ilə dövlət başçısı seçilib və bu yüksək etimadı ləyaqətlə doğruldaraq uzun müddət Azərbaycana rəhbərlik ediblər.

Əslində, onların Prezident kimi gördükləri işlər həm də partiya rəhbəri kimi fəaliyyətlərinin bir hissəsini təşkil edib.

Beləliklə, Ulu Öndər Heydər Əliyevin və möhtərəm Prezident İlham Əliyevin Azərbaycana rəhbərlikləri dövründə gördükləri nəhəng işləri qısa şəkildə xatırladırıq.

❖❖❖

Ulu Öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra Azərbaycanı bir dövlət kimi məhvolmadan xilas etdi, müstəqilliyimizi əbədiliyə çevirdi.

Müharibə bölgəsində atəşkəsə nail oldu, qanunsuz silahlı dəstələri tərksilah etdirdi, xaos və anarxiyaya son qoydu, ölkədə möhkəm və dönməz sabitlik yaratdı.

Cənab İlham Əliyev prezidentliyinin ilk günlərindən Heydər Əliyev siyasi kursuna dönmədən əməl etdi, demokratik prinsiplərin bərqərar olmasına, vətəndaş cəmiyyətinin inkişafına, sabitliyin qorunub saxlanılmasına dəyərli töhfələr verdi.

Ulu Öndər Heydər Əliyev Azərbaycanın bütün dövrlərdə inkişafını təmin edən yeni neft strategiyası hazırladı. Beləliklə, əvvəlki iqtidarların heç birinin bacarmadığı bir işi reallaşdırdı.

20 sentyabr 1994-cü ildə dünyanın aparıcı dövlətlərinin iri neft şirkətləri ilə "Əsrin müqaviləsi" neft kontraktının imzalanması isə müstəqil Azərbaycanın iqtisadi yüksəlişinin təməlinə çevrildi. Ümummilli Liderimiz tərəfindən böyük müdriklik və uzaqgörənliklə hazırlanan bu strategiya neft amilindən məharətli istifadənin klassik nümunəsinə çevrildi. Bu strategiya iqtisadiyyatı dirçəltməklə yanaşı, Azərbaycanın dünyaya inteqrasiyasında, beynəlxalq əlaqələrinin yaranmasında, inkişafında və möhkəmlənməsində də mühüm rol oynadı.

Prezident İlham Əliyev isə inkişafın Azərbaycan modelini formalaşdırdı.

Dünyanın bir sıra dövlətlərinin yüksəlişini təmin etmiş inkişaf modelləri çoxdur. Azərbaycan onların heç birini götürərək mexaniki şəkildə tətbiq etmədi. Qabaqcıl ölkələrin təcrübəsini öyrənməklə öz tarixi ənənələrinə, yerli imkanlarına və xüsusiyyətlərinə uyğun gələn yeni, daha müasir model hazırladı. Bu model cənab İlham Əliyevin "Düşünülmüş, sürətli və davamlı" inkişaf konsepsiyasına əsaslanır. Qısa dövr ərzində inkişafın Azərbaycan modeli özünü doğrultdu. Ölkəmiz neçə illərdir ki, ümumi daxili məhsul istehsalının artım tempinə görə dünya birincisidir. Başqa bir maraqlı məqam. Son illər dünyanı bürüyən maliyyə və iqtisadi böhran inkişafın Azərbaycan modeli üçün əsl sınaq oldu. Həm də uğurlu sı-

naq. Böhran ölkə iqtisadiyyatına ciddi ziyan vurmayaraq yan ötüşdü. Ən ürəkaçan məqamlardan biri isə budur ki, düşünülmüş, sürətli və davamlı inkişaf yoluna düşən Azərbaycan MDB məkanında birinci olaraq iqtisadi sahədə keçid dövrünü başa çatdırmışdır.

Heydər Əliyevin gəlişindən və "Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənəcəyini görən düşmən qüvvələr yenidən "köhnə ssenarilər"ə əl atdılar. Bir neçə terror aktı törədildi. Əvvəlcə 4 oktyabr 1994-cü ildə, sonra isə 13-18 mart 1995-ci ildə dövlət çevrilişinə cəhdlər oldu. Xalqın sonsuz inam və məhəbbətinə, güclü dəstəyinə arxalanan Ulu Öndər Heydər Əliyev dəyanət və qorxmazlıq nümunəsi göstərməklə hər iki cəhdin qarşısını qətiyyətlə aldı. Beləliklə, Azərbaycanı az qala banan respublikasına çevirəcək mənfur bir ənənəyə son qoydu.

Prezident İlham Əliyev müstəqil Azərbaycanda yeni eranın başlandığını və zorakılıqla hakimiyyətə gəlmək dövrünün artıq arxada qaldığını 2003-cü ilin 15 və 16 oktyabr günlərində bir daha sübut etdi.

Aqressiv və dağıdıcı müxalifət antiazərbaycançı şəbəkənin muzdu və diktəsi əsasında 2003-cü ilin prezident seçkilərini tanımamaq və zorla hakimiyyəti ələ almaq üçün seçkilərin nəticələri elan edildikdən dərhal sonra hərəkətə keçdi. Bir neçə xarici ölkənin səfirliyi aqressiv müxalifətin özbaşınalığını və zorakılığını idarə edən və onların nümayəndələri üçün sığınacaq rolunu oynayan məntəqəyə çevrilmişdi. Heydər Əliyev siyasi kursuna səs verdiyini bəyan edən Azərbaycan xalqı dağıdıcılıq əməllərinin genişlənməsinə imkan vermədi. Prezident İlham Əliyev isə qətiyyət və əzmkarlıq göstərərək Azərbaycanda hakimiyyətə yalnız seçkilər yolu ilə, xalqın dəstəyini qazanmaqla gəlməyin mümkünlüyünü bəyan etdi.

Ümummilli Lider Heydər Əliyev qısa müddətdə döyüşkən ordu yarada bildi. Vaxtilə Ulu Öndərin təşkil etdiyi C.Naxçıvanski adına Hərbi Təmayüllü Liseyi bitirənlər və SSRİ-nin hərbi məktəblərində təhsil alaraq zabit rütbəsində ayrı-ayrı hərbi hissələrdə xidmət edən zabitlər kara gəldilər. Ulu Öndər Heydər Əliyevin çağırışı ilə orduya gələn yeni qüvvələr Horadizdə və Kəlbəcər istiqamətində düşmənə güclü zərbələr endirdilər. Güclü ordu yaradıldığını görən ermənilər atəşkəs müqaviləsini imzalamağa məcbur oldular. Beləliklə, yeni ərazilərin işğalının qarşısı alındı. Eyni zamanda ordu quruculuğu prosesi uğurla və səriştəli şəkildə davam etdirildi. Vahid komandanlığa tabe olan və bir mərkəzdən idarə edilən ordu strukturu yaradıldı, müasir bilik və vərdişlərə yiyələnmiş zabitlərin ha-

zırlığı üçün yeni təhsil müəssisələri təşkil edildi, hərbi sahədə əməkdaşlığa dair yeni əlaqələr quruldu. Beləliklə, torpaqlarımızı müdafiəyə qadir yeni və müasir ordu formalaşdırıldı.

Prezident İlham Əliyev müasir dünya təcrübəsinə arxalanaraq milli ordumuzun yeniləşdirilməsini, ən yeni silahlarla təchizini və modernləşdirilməsini, beləliklə, Cənubi Qafqazın ən güclü ordusuna çevrilməsini təmin etdi.

Maddi-texniki təchizatı durmadan yüksəldilən, NATO sisteminə keçirilən, döyüş qabiliyyətini daim artıran ordu dünyanın qaynar nöqtələrində sülhyaratma missiyasında müntəzəm və yaxından iştirak edir, üzərinə qoyulan tapşırıqların öhdəsindən məharətlə gəlir. Dövlət başçısı hər il silahlı qüvvələrin birgə təlimində Ali Baş Komandan kimi şəxsən iştirak edir, ilboyu hərbi hissələri gəzir, vəziyyətlə yerində tanış olur, sərhəd bölgələrindəki səngərlərə baş çəkir, əsgərlərlə nahar edir, onları mükafatlandırır. Cənab İlham Əliyev verdiyi vədə əməl edərək hər il ordunun ehtiyaclarına Ermənistanın bütün büdcəsindən daha çox vəsait ayırır. Müdafiə sənayesinin yaradılması, bir sıra silah və sursatın Azərbaycanda hazırlanması ordunun döyüş qabiliyyətinin artırılmasına dəyərli töhfədir.

Ulu Öndər Heydər Əliyev Azərbaycanın bazar iqtisadiyyatı prinsiplərinə keçidinə nail oldu. Bundan ötrü mərhələlər üzrə ardıcıllıqla xeyli iş görüldü.

İlk növbədə, xüsusi mülkiyyətin mövcudluğuna yol açan, insanların sərbəst və maneəsiz istehsal fəaliyyəti ilə məşğul olmasına geniş imkan yaradan qanunçuluq bazası formalaşdırıldı. Sonra özəlləşdirmə proqramları uğurla həyata keçirilərək bir sıra müəssisələr dövlətsizləşdirildi. Aqrar islahatlar keçirilərək torpaq əsl sahibinə qaytarıldı. Ölkədə azad sahibkarlığın inkişafına şərait yaradan və təşviq edən mühit yaradıldı. Bazar iqtisadiyyatı prinsiplərinin işləməsinə əlverişli şərait yaradan yeni qurum və təsisatlar təşkil olundu. Beləliklə, istehsal vasitələri üzərində ümumi mülkiyyətə əsaslanan sosializmdən imtina edilərək bazar iqtisadiyyatına keçid tam reallaşdırıldı.

Prezident İlham Əliyev iqtisadi sahədə keçid dövrünün başa çatdığını bəyan etdi.

Azərbaycan hələlik MDB məkanında yeganə ölkədir ki, bu çətin vəzifənin öhdəsindən qısa zamanda gəlməyə nail olub.

Cənab İlham Əliyevin müəllifi olduğu "Düşünülmüş, sürətli və davamlı inkişaf" konsepsiyası qazanılan uğurun təminatçısıdır. Ölkə rəhbərliyinə başladığı ilk günlərdən yaradılmış təməl üzərində istehsalın artım sürətini yüksəldən dövlət başçısı Azərbaycanı ÜDM-in artım tempinə görə dünya liderləri sırasına çıxar-

mışdır. Artıq ölkəmizdə güclü iqtisadi potensial formalaşdırılmış, Azərbaycan özünü tam təmin edən ölkəyə çevrilmişdir. İqtisadiyyatın strukturu müsbətə doğru dəyişmiş, çoxşaxəli iqtisadiyyata çevrilmiş, qeyri-neft sektorunun dinamik inkişafı təmin edilmişdir.

Ulu Öndər Heydər Əliyev azərbaycanlı gənclərin SSRİ-nin ali məktəblərində təhsil almalarına xüsusi fikir verirdi.

Ölkənin gələcəyi, cəmiyyətin sabahı bugünkü gənclərdən asılıdır. Dərin biliklərə yiyələnmiş, müasir dünyagörüşlü, vətənpərvər və bacarıqlı gənclərin tərbiyəsi Ümummilli Liderimizi daim düşündürmüşdür. Heydər Əliyev Azərbaycana birinci rəhbərliyinin hələ ilk dövrlərindən etibarən vətən övladlarının dövlət hesabına keçmiş SSRİ-nin ayrı-ayrı şəhərlərində nadir və gərəkli ixtisaslar üzrə təhsil almalarına şərait yaratmışdı. Şəxsi nüfuzundan istifadə edən Ulu Öndər ilbəil daha çox gəncin başqa şəhərlərə təhsil almağa göndərilməsinə nail olurdu. Həm də onlarla şəxsən görüşər, tövsiyə və fikirlərini çatdırardı. Moskvaya hər rəsmi səfərində, sonralar isə orada işləyərkən tələbə-gənclərlə görüşər, problemlərini həll edərdi. Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra Heydər Əliyevin oxutdurduğu və müxtəlif ixtisaslara yiyələnmiş gənclər xeyli kara gəldilər. Bu gün də onlar inkişaf və quruculuq proseslərində fəallıq göstərirlər.

Prezident İlham Əliyev bu gün ölkə gənclərini dünyanın inkişaf etmiş ölkələrində oxudur.

Azərbaycanın dünyaya getdikcə daha sıx inteqrasiya etdiyi bir vaxtda müasir düşüncə və təfəkkür tərzinə malik mütəxəssislərin yetişdirilməsi vacib məsələdir.

Bu, ölkəmizin bu günü üçün deyil, gələcək inkişafın davamlılığı sarıdan da vacibdir. Cənab İlham Əliyevin imzaladığı dövlət proqramına əsasən, təkcə 2007-2015-ci illər ərzində 5 min azərbaycanlı gənc dünyanın inkişaf etmiş ölkələrinin qabaqcıl təhsil ocaqlarında prioritet ixtisaslar üzrə dövlət hesabına oxumuşdur.

Ulu Öndər Heydər Əliyev mətbuat və söz azadlığını daim diqqət mərkəzində saxlayırdı. O, daim jurnalistlərlə görüşər, onların bütün suallarını cavablandırar, təklif və müraciətlərinə həssaslıqla yanaşardı.

Heydər Əliyev dəfələrlə jurnalistləri əfv edərək vaxtından qabaq həbsxanadan qurtardı, dövlət məmurlarının qəzetlərlə bağlı məhkəməyə müraciətlərini geri götürdü, bir sıra mətbu orqanın mətbəələrə olan borcunu dondurdu, qəzetləri ƏDV-dən azad etdi. Ən önəmlisi isə, 6 avqust 1998-ci ildə mətbuata senzura nəzarətini ləğv edərək KİV-in mənəvi intibahını yaratdı.

Prezident İlham Əliyev milli mətbuatın inkişafına xüsusi qayğı göstərir. O, qəzetlərin mətbəəyə borclarını bağışlamış, dəfələrlə redaksiyalara böyük məbləğdə maddi yardım göstərmiş, jurnalistləri fəxri adlar, dövlət mükafatları ilə təltif etmişdir. 2009-cu ildə müvafiq sərəncam imzalayaraq KİV-in İnkişafına Dövlət Dəstəyi Fondu yaratdı və beləliklə, mətbuatın maddi intibahının əsasını qoydu. Bütün bunlara görə "Jurnalistlərin dostu" adına layiq görüldü.

❖❖❖

Yeni Azərbaycan Partiyası 30 illik yubileyinə alnıaçıq, üzüağ gəlir.

Partiyamızın Sədri, Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsində möhtəşəm zəfər qazanaraq xalqımızın ən müqəddəs arzusunu həyata keçirdi. "Dəmir yumruğ"u ilə düşmənin başını əzərək qarşısında diz çökdürdü, kapitulyasiya aktına qol çəkdirdi.

Beləliklə, ikiəsrlik Qarabağ münaqişəsinə Azərbaycanın möhtəşəm qələbəsi ilə son qoydu.

Bu gün isə Qarabağın və Şərqi Zəngəzurun cənnətə çevrilməsi prosesi uğurla davam edir.

Böyük qayıdışa sürətli hazırlıq görülür.

Bəli, Azərbaycan bütün uğur və nailiyyətlərə məhz Yeni Azərbaycan Partiyasının iqtidarı dövründə nail olmuşdur.

***20 noyabr 2022-ci il***

# "Dəmir yumruğ"un hikməti

*O, təkcə cəza vermir, həm də ədaləti bərpa edir!*

"Dəmir yumruq" Müzəffər Ali Baş Komandan İlham Əliyevin yumruğudur!

Həm də təkcə onun yumruğu deyil!

"Dəmir yumruq" gücün, qüvvətin, qüdrətin və ədalətin real həyatdakı təcəssümüdür!

Həm də rəmzidir!

"Dəmir yumruq" ikili standartların hökm sürdüyü ədalətsiz dünyada haqlını müdafiə edən, haqqa qovuşduran qüdrətli vasitədir!

"Dəmir yumruq" beynəlxalq hüququn gücü çatmadığı, icrasında acizlik, qətiyyətsizlik göstərdiyi qərarları həyata keçirən gücdür!

"Dəmir yumruq" simvolik səslənsə də, əslində, reallığı dəyişə bilən qüdrətdir, qüvvətdir, ədalətdir!

❖❖❖

"Dəmir yumruq" zərurətdən yarandı!

"Dəmir yumruq" Azərbaycan xalqının ən müqəddəs arzu və istəyini həyata keçirmək üçün yarandı!

"Dəmir yumruq" havadarlarına və müdafiəçilərinə güvənərək beynəlxalq hüquqa məhəl qoymayanın qulağını burmaq, ağıllandırmaq üçün yarandı!

"Dəmir yumruq" haqlının həm də güclü olduğunu sübuta yetirmək üçün yarandı!

"Dəmir yumruq" sözlə əməlin birliyini əyani şəkildə göstərmək üçün yarandı!

"Dəmir yumruq" səbrin qəzəbə çevriləndə nəyə qadir olduğunu nümayiş etdirmək üçün yarandı!

"Dəmir yumruq" həm də:

* BMT Təhlükəsizlik Şurasının otuz ildən çox müddətdə havada qalmış 4 qətnaməsinin icrası...

* ATƏT-in Minsk qrupunun boş və bəhrəsiz, lətifəyə çevrilmiş "vasitəçiliyi"nin sonuclanması...

* Şərtləri tez-tez dəyişən, sonu görünməyən və aydın olmayan "sülh danışıqlarına" nöqtə qoyulması...

* Ermənistanın ərköyün və şıltaq davranışlarının birdəfəlik kəsilməsi üçün yarandı!

Bütövlükdə "dəmir yumruq" Azərbaycan xalqının "bir qarış torpağını belə heç kimə güzəştə getməyəcəyini", "Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəyi" fikrində israrlılığını, torpaq uğrunda qəhrəmanlıqla çarpışmağa, vətən uğrunda şəhid getməyə daim hazır olduğunu, öz rəhbəri və baş Sərkərdəsi ətrafında yumruq kimi birləşərək məqsədinə çatmağa qadir milli qürurlu xalq olduğunu döyüşərək isbat etmək üçün yarandı!

❖❖❖

"Dəmir yumruğ"un müəllifi və yaradıcısı Müzəffər Ali Baş Komandan İlham Əliyevdir!

Bəllidir ki, bir metal olaraq dəmirin yaranması üçün ilk növbədə filiz, od, texnika və nəqliyyat vasitələri, məharətli və güclü usta, bilikli mütəxəssis lazımdır.

"Dəmir yumruq" da belədir, boş yerdən, təkcə metaldan yarana bilməz!

Ədalətli "dəmir yumruğ"un meydana gəlmə şərtləri isə daha çox, daha geniş və əhatəlidir!

Prezident İlham Əliyev ölkə rəhbərliyinə gəldiyi ilk günlərdən xalqa vəd etmişdi ki, işğal altındakı Azərbaycan ərazilərini hansı vasitələrlə olursa olsun, azad edəcəkdir!

Sözü ilə əməli vəhdət təşkil edən Prezidentimiz məqsədə çatmaq üçün uzun illər dayanıb-durmadan, yorulub-usanmadan, gecə-gündüz bilmədən bir çox mühüm istiqamətlərdə çalışıb-çarpışdı, zərgər dəqiqliyi ilə hesablamalar apardı, nəyi, nə vaxt və necə edəcəyini dəqiq müəyyənləşdirdi!

Sülh danışıqlarının mənasızlığını bilsə də, düşmənə və ermənilərin havadarlarına heç bir bəhanə verməmək üçün Azərbaycanın maraqlarını qorumaqla uzun-uzadı, yorucu görüş və müzakirələrdə iştirak etdi.

Ancaq 44 günlük Vətən müharibəsindəki Zəfər göstərdi ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev problemin güc yolu ilə həllini daim diqqətində saxlayıbmış!

❖❖❖

Gücün əsasında güclü iqtisadiyyat dayanır!

İqtisadiyyatı isə qurmaq, inkişaf etdirmək, möhkəmləndirmək böyük uzaqgörənlik, ağıl, bacarıq, yorulmaz və məqsədyönlü fəaliyyət tələb edir!

Heydər Əliyev siyasi kursuna sadiq qalan Prezident İlham Əliyev həm də yarımçıq qalmış, başa çatdırılmamış işləri də görməli, etimadı doğrultmalı idi.

Həmin dövrdə - yeni əsrin əvvəllərində isə ölkə iqtisadiyyatı bir o qədər də ürəkaçan deyildi!

Neft müqavilələri bağlansa da, hələ büdcəyə neft gəlirləri daxil olmurdu...

Bir milyondan çox qaçqın və məcburi köçkün çadır şəhərciklərində, ağır şəraitdə yaşayırdı...

Regionlara elektrik enerjisi fasilələrlə verilir, kəndlərə, ucqar yaşayış məntəqələrinə təbii qaz getmirdi...

Yol infrastrukturu dağılmış, işsizlik və yoxsulluq yüksək səviyyəyə çatmışdı...

Bir-birindən vacib, təxirəsalınmaz məsələlər öz həllini gözləyirdi...

İlham Əliyev bütün bunların öhdəsindən böyük ustalıqla, məharətlə gəldi:

* Bütün maneə və sədləri dəf edərək Azərbaycana böyük dividendlər gətirən transmilli layihələri reallaşdırdı;

* Ölkənin enerji və nəqliyyat təhlükəsizliyini təmin etdi;

* İşsizliyi və yoxsulluğu beş faiz həddinə endirərək əhalinin güzəranını əhəmiyyətli sürətdə yüksəltdi;

* Regionların inkişafına dair dörd dövlət proqramı hazırlayıb həyata keçirərək ölkənin simasını büsbütün dəyişdi, yenilədi;

* Sahibkarlığın inkişafını stimullaşdırdı, aqrar sahənin sürətli yüksəlişinə nail oldu;

* Azərbaycanı müasir, demokratik, multikultural dövlət kimi dünyaya yenidən, yeni imicdə təqdim etdi;

* Ölkədə idmanın inkişafına, yeni gənclər nəslinin tərbiyələndirilməsinə, neft kapitalının insan kapitalına çevrilməsinə nail oldu;

* Çadır şəhərciklərini ləğv etdi, 120-dək qaçqın şəhərciyi və yaşayış kompleksi tikdirərək 320 mindən çox məcburi köçkünü rahat evlərə və mənzillərə köçürdü;

* Azərbaycan daim milli maraq və mənafeyinə əsaslanan müstəqil daxili və xarici siyasət yeritdi;

* Ölkə dünyada etibarlı tərəfdaş, Avropanın qaz təchizatında xüsusi yeri olan dövlət kimi tanındı;

* Güclü, müasir ordu quruldu, ən yeni silahlar, taktika və strategiya ilə təmin olundu!

Azərbaycan diplomatiya sahəsində də böyük uğurlara imza atdı, cənab İlham Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində dostlarımız, haqq işimizi dəstəkləyənlərin sayı xeyli çoxaldı!

Beləliklə, "dəmir yumruğ"un hazırlanma prosesi başa çatdı, hər an düşmən ordusunu məhv edəcək vəziyyətə gətirildi!

❖❖❖

"Dəmir yumruq" öz gücünü ilk növbədə xalqdan, milli birlikdən və həmrəylikdən alır!

İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadırdır - demişdi Ulu Öndər Heydər Əliyev!

"Dəmir yumruq" dayanıqlı, davamlı və sürətli inkişaf edən ölkə iqtisadiyyatından qidalanır!

Son illərdə Qarabağı görməsələr də, Qarabağı sevən, hünərvər və vətənpərvər gənclər nəsli yetişdirildi, onlar özlərini idman meydanlarında sınaqdan çıxardılar, dünyanın ən önəmli universitetlərində, hərbi məktəblərində təhsil aldılar!

"Dəmir yumruğ"un yaranmasında və güc toplamasında vətənpərvər Azərbaycan gəncləri, cəsur, qəhrəman əsgər və zabitlərimiz mühüm rol oynadılar!

Bizim heç kəsin torpağında gözümüz yoxdur və öz torpağımızın bir qarışını belə kimsəyə güzəştə getmərik - deyib cənab İlham Əliyev!

Azərbaycan öz fəaliyyətində daim beynəlxalq hüquqa əsaslanır, doğru, ədalətli addımlar atır!

"Dəmir yumruğ"un qüdrəti həm də onun ədalətindədir!

Ədaləti bərpa etmək niyyətindədir!

Bu yolda heç kəsdən, heç nədən çəkinməmək, məqsədinə çatmamış geri dönməmək hünərindədir!

"Dəmir yumruğ"un gücü, qüdrəti, əzəməti onun yaradıcısında və sahibindədir!

Müzəffər Ali Baş Komandan İlham Əliyevdədir!

Onun zəkasında, qətiyyətində, uzaqgörənliyində, diplomatik bacarığında, sərkərdəlik məharətindədir!

Əslində, "dəmir yumruğ"u möhtəşəm və sarsılmaz gücə çevirən də məhz cənab İlham Əliyevdir!

❖❖❖

Dünya "dəmir yumruğ"un qüdrətini və imkanlarını da gördü!

Həm də təkcə hərb meydanında deyil, diplomatiya və informasiya cəbhəsində də!

Müzəffər Ali Baş Komandan İlham Əliyev dünyanın gözü qarşısında hər üç istiqamətdə məharətlə döyüşdü, üç cəbhənin qəhrəmanına çevrildi:

* 44 gün ərzində Ermənistan ordusunu məhv etdi!

* Düşməni qarşısında diz çökdürərək kapitulyasiya aktını imzalatdırdı!

* Öz istəyinə nail olmayanacan, düşmən Azərbaycan ərazilərindən qoşunlarını çıxarmaq barədə konkret qrafik təqdim etməyənədək hərbi əməliyyatları dayandırmadı, heç bir təsir və təzyiq cəhdlərinə əhəmiyyət vermədi!

* Dünya KİV-inə, informasiya agentlikləri və telekanallara verdiyi müsahibələrdə Ermənistanın yalanlarını, faşist xislətini, müharibə qanunlarını pozmasını, qadağan olunmuş silahlardan istifadə etməsini, qorxaqlığını və riyakarlığını konkret faktlarla ifşa edərək sübuta yetirdi!

* ATƏT-in Minsk qrupunu pensiyaya, "status" məsələsini isə cəhənnəmə, gora göndərdi!

* Qalib tərəf, qalib dövlət olsa da, yenə sülhə, Cənubi Qafqazda əməkdaşlığa tərəfdar olduğunu müharibədən sonrakı dövrlərdə də dəfələrlə ortaya qoydu.

Beləliklə, Müzəffər Ali Baş Komandan İlham Əliyev "dəmir yumruğ"un ədalətini növbəti dəfə də nümayiş etdirdi!

Və ...

"Dəmir yumruğ"u ilə dünyaya həm də ədalət dərsi verdi!

***24 dekabr 2022-ci il***

# İki müharibə...

## *...və onların ibrət dərsləri*

Azərbaycan hər dəfə dövlət müstəqilliyinə nail olmaq istəyəndə "alət millət" sayılan ermənilərin əli ilə ona "Dağlıq Qarabağ problemi" adlı tələ qurublar.

Bu, 1918-ci ildə də, XX əsrin 90-cı illərində də belə olub!

Ötən əsrin əvvəlində qazanılan dövlət müstəqilliyinin ömrü cəmi 23 ay çəkdi.

Azərbaycandan həm Şərqi Zəngəzur qarışıq xeyli torpaq qopardılar, həm də müstəqilliyimizi əlimizdən aldılar.

Əsrin sonunda eyni ssenari yenidən işə salındı.

Bu dəfə Azərbaycan 20 min övladını şəhid versə də, ərazisinin 20 faizi işğala məruz qaldı.

Havadarlarına arxalanan murdar düşmən 30 ilədək bir müddətdə işğal etdiyi ərazilərdə daş üstə daş qoymadı.

Təkcə yaşayış məntəqələrini deyil, meşələri, bağları, məscidləri, tarixi abidələri, hətta qəbiristanlıqları da yerləyeksan etdi, təbii sərvətlərimizi çapıb talayaraq apardı.

Bəli, Birinci Qarabağ müharibəsi məğlubiyyətlə, itkilərlə başa çatdı.

Nə BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsi, nə beynəlxalq qurum və təşkilatların müvafiq qərarları, nə də beynəlxalq hüquq ədaləti bərpa etdi!

Düşmən ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə sonsuza qədər uzanan sülh danışıqları əsasında bir qarış torpağımızı belə qaytarmadı.

Ona sanksiya tətbiq edilmədi, təzyiq göstərilmədi.

❖❖❖

Nəhayət, İkinci Qarabağ müharibəsi başladı və tam fərqli nəticə - Azərbaycan Ordusunun möhtəşəm zəfəri ilə başa çatdı!

Dostları və havadarları nə qədər çalışsalar da, Ermənistanı acınacaqlı məğlubiyyətdən xilas edə bilmədilər.

Düşmən Müzəffər Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğ"u ilə diz çökdürülərək kapitulyasiya aktını imzaladı!

Qarabağ uğrunda iki müharibə və iki tam fərqli nəticə!

Bəs bu müharibələr nələri aşkara çıxardı, məğlubiyyətin və qələbənin səbəbləri nə oldu, baş verənlərdən hansı ibrət dərsləri götürülməlidir?




**Kəlbəcər rayonunda hərbi hissənin açılışı.** 27 iyun 2022-ci il




**Müdafiə Nazirliyinin Komando hərbi hissəsinə döyüş bayrağı təqdim edilərkən.** 23 iyun 2023-cü il



**Şuşada hərbçilərlə görüş.** 8 noyabr 2021-ci il






**Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbir.** 8 noyabr 2022-ci il




**Kəlbəcər rayonunda hərbi hissənin açılışı.** 27 iyun 2022-ci il



**Cəbrayıl rayonunda Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin açılışı .** 26 aprel 2021-ci il





**Bakıda Hərbi Qənimətlər Parkının açılışı.** 12 aprel 2021-ci il





**Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ağcabədi rayonunda yeni inşa olunan hərbi şəhərciyinin açılışı.** 14 fevral 2022-ci il



**İlham Əliyev Laçın şəhərində.** 21 sentyabr 2022-ci il



**Şuşada hərbçilərlə görüş.** 8 noyabr 2021-ci il



**Cəbrayıl rayonunda Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin açılışı.** 26 aprel 2021-ci il



**Füzuli rayonunda Müdafiə Nazirliyinin hərbi hissəsində.** 8 noyabr 2022-ci il

Birinci Qarabağ müharibəsinin başlanmasının 35 illiyinin qeyd olunduğu bu gündə geriyə baxmaqla bəzi nəticələr çıxarmaq mümkündür.

❖❖❖

Millət də övlad kimidir: ağıllı, güclü, imkanlı atası - rəhbəri olanda firavan və təhlükəsiz yaşayır, xoş gün-güzəran görür, xoşbəxt gələcəyini qura bilir.

Amma hər millətə də həmişə müdrik, uzaqgörən, həqiqi siyasət qrosmeysteri sayıla biləcək rəhbər qismət olmur.

Bu da Tanrının və taleyin bir qismətidir!

Azərbaycan xalqının əsl rəhbərindən - Ulu Öndər Heydər Əliyevdən müvəqqəti olaraq ayrı düşməsi böyük məhrumiyyətlərə səbəb oldu.

Birinci Qarabağ müharibəsində uduzmağımızın başlıca səbəbi də elə bu idi!

❖❖❖

Ermənistanın ən çox çəkindiyi insan Ulu Öndər Heydər Əliyev idi!

Nə qədər ki Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi Moskvada çalışırdı, ermənilər Kremldə Azərbaycan əleyhinə qərar çıxara bilməyəcəklərini yaxşı anlayırdılar. Odur ki, həmin müddətdə səslərini içlərinə salaraq susurdular.

Ulu Öndər Heydər Əliyevin yüksək postundan kənarlaşmasından cəmi bir həftə sonra düşmənlərimizin əl-qolu açıldı və onlar Qarabağa iddialarını açıq şəkildə bəyan etdilər.

Dövr ağır, zaman çətin idi...

Bu ağırlıqların və çətinliklərin obyektiv və subyektiv səbəbləri vardı...

SSRİ adlı nəhəng dövlət çökürdü. Qorbaçovun imperiyanın xilası naminə ortaya atdığı "yenidənqurma" oyunu baş tutmamışdı.

Qırmızı imperiyanın çöküşü ağır fəsadlara da yol açırdı:

* Ölkə iqtisadiyyatı dağılır, istehsalın nizamı pozulurdu;

* Ərzaq qıtlığı yaranır, mağazaların rəfləri boşalır, sonsuz növbələr yaranır, dolanışıq günbəgün çətinləşirdi;

* Xalqa "maddi nemətlərin sel kimi aşıb-daşdığı" kommunizm əvəzinə ərzaq talonları verilirdi;

* İnflyasiya baş alıb gedir, istehsal əlaqələri pozulduğundan fabrik və zavodlarda işlər dayanırdı;

* "Sosializmə yad olan" mitinq və tətillər isə ideyasızlığa, hərc-mərcliyə yol açırdı.

Bütün bunlar dağılmaqda olan "qırmızı imperiya"nın iflası əlamətləri idi.

Subyektiv səbəblər daha ciddi fəsadlar törədirdi:

* Azərbaycanda bütün bu həqiqətləri görən və doğru, cəsarətli addımlar atmağı bacaran rəhbər yox idi;

* Ə.Vəzirov Moskvaya qul sədaqəti göstərir, Qarabağda baş verən proseslərin əsl mahiyyətini anlamırdı;

* A.Mütəllibov başını itirdiyindən dağılmaqda olan SSRİ-ni "xilas etmək" üçün referendum keçirirdi;

* AXC-Müsavat cütlüyü bu qarmaqarışıq vəziyyətdən istifadə edərək hakimiyyəti ələ almaq üçün pozuculuqla məşğul olur, xaos və anarxiyaya rəvac verir, idarəetməni iflic vəziyyətinə salırdı.

SSRİ-nin birinci və sonuncu prezidenti M.Qorbaçova və onun arvadı Larisaya arxalanan ermənilər isə qurduqları plan üzrə addım-addım irəliləyirdilər:

* Ordu yaradır, Moskvanın köməyi ilə silahlanırdılar;

* "Məzlum və fağır" millətin "sıxışdırılması" və "soyqırımı" ilə bağlı əfsanələr uydurараq dünyaya yayır, gələcək işğallarına "ideoloji təminat" hazırlayırdılar;

* Qərbi Azərbaycan ərazisində yaşayan azərbaycanlılar zorla dədə-baba torpaqlarından qovulurdular;

* Kənardan Qarabağa ötürülən silahlı "fədai"lər və "saqqallı"lar Azərbaycan kəndlərini atəşə tutur, əhali arasında vahimə yaradırdılar.

Ulu Öndər Heydər Əliyevin Milli Məclisdə çıxış edərək hadisələrin gələcək təhlükəli nəticələri barədə etdiyi xəbərdarlığı, Qarabağın müdafiəsi üçün xüsusi konsepsiya hazırlanması və ordu quruculuğu barədə tövsiyəsi isə "ağıllı rəhbər"lər tərəfindən eşidilmədi...

Nəticədə Azərbaycan 20 min övladını şəhid verdi, ərazisinin 20 faizi işğala məruz qaldı.

Bir milyondan çox soydaşımız 30 ilədək müddətdə əzablı qaçqın və məcburi köçkün həyatı yaşadı...

Ölkə vətəndaş müharibəsi həddinə, bir dövlət kimi məhvolma məqamına çatdırıldı...

Birinci Qarabağ müharibəsi məğlubiyyətlə nəticələndi.

❖❖❖

Əslində, İkinci Qarabağ müharibəsinə hazırlıq Ulu Öndər Heydər Əliyevin xalqın arzu və tələbi ilə ölkə rəhbərliyinə qayıtdığı ilk gündən başlandı!

Bu istiqamətdə çox gərəkli və zəruri işlər görüldü:

* Müharibədə atəşkəs elan olunması ilə yeni ərazilərin işğalının qarşısı alındı;

* Ölkə xaos və anarxiyadan, qanunsuzluqdan xilas olundu, möhkəm və dönməz sabitlik yaradıldı;

* Sürətlə ordu quruculuğuna başlanıldı, zabit kadrlarının hazırlanmasına diqqət artırıldı;

* "Əsrin müqaviləsi" imzalandı, ölkənin iqtisadi imkanlarının artırılması üçün zəruri tədbirlər görüldü;

* Yeni Konstitusiya qəbul olundu, bazar iqtisadiyyatı prinsiplərinə keçidi şərtləndirən addımlar atıldı, islahatlar aparıldı;

* 1994-cü ilin yanvarında Horadiz əməliyyatı keçirilərək 22 kənd işğaldan azad edildi;

* ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə sülh müzakirələri aparılaraq torpaqların danışıqlar yolu ilə azad olunmasına cəhdlər göstərildi.

Təəssüf ki, ömür vəfa etmədi...

❖❖❖

Tale yarımçıq işlərin sona çatdırılması missiyasını cənab İlham Əliyevin üzərinə qoydu!

Dövlət başçısı İlham Əliyev də prezidentliyinin ilk günlərindən torpaqların işğaldan azad olunmasını diqqət mərkəzində saxladı, sülh danışıqlarını davam etdirməklə bərabər, müharibəyə ciddi və özünəxas formada hazırlaşdı.

Ən əvvəl:

* Tarixin ən qüdrətli Azərbaycanını yaratdı;

* "Hücum diplomatiyası" tətbiq edərək beynəlxalq qurum və təşkilatlarda Azərbaycanın haqq işinin müdafiəsini gücləndirdi;

* Azərbaycanı dünyaya yeni imicdə - demokratik və müstəqil siyasət yürüdən dövlət kimi təqdim etdi;

* Dönmədən milli maraqlara, qarşılıqlı hörmətə əsaslanan xarici siyasət yürüdərək dostlarımızın sayını artırdı;

* Ölkəmizi Cənubi Qafqazda söz sahibinə, ən güclü dövlətə çevirdi;

* Yeni gənc nəsil yetişdirərək onların da iştirakı ilə möhtəşəm ordu qurdu;

* Yaratdığı modern ordunu ən yeni texnologiyaya əsaslanan silahlarla, taktika və strategiya ilə təmin etdi;

* XXI əsrin ən yeni müharibəsini apardı, düşmən ordusunu məhv edərək diz çökdürdü, kapitulyasiya aktına imza atdırdı!

* Təkcə hərb meydanında deyil, diplomatiya sahəsində və informasiya müharibəsində də şəksiz qələbəni təmin etdi!

Müzəffər Ali Baş Komandan İlham Əliyev beş əsr ərzində ilk dəfə olaraq itirilmiş Azərbaycan torpaqlarını geri qaytardı, ikiəsrlik "Qarabağ problemi"nə zəfərlə son qoydu, beləliklə, adını Azərbaycan tarixinin görkəmli şəxsiyyətləri ilə bir sırada xalqın şərəf salnaməsinə həkk etdi!

❖❖❖

İkinci Qarabağ müharibəsindən sonra Üçüncü Dünya müharibəsi başlayıb.

Onun nə vaxt və necə bitəcəyi hələ bilinmir.

Məlum olan odur ki, dünyanın yeni düzəni formalaşır.

İlham Əliyev Azərbaycanın yeni dünya düzənində özünə layiqli yer tutması üçün ağıllı və uzaqgörən addımlar atır.

Bu addımlarda Birinci və İkinci Qarabağ müharibələrinin ibrət dərsləri də nəzərə alınır.

İki müharibədən çıxan əsas nəticələr nədir?

Ən əvvəl dövləti səriştəli, təcrübəli, bacarıqlı, milli maraqları şəxsi mənafedən üstün tutanlar idarə etməlidirlər!

* Dönmədən milli maraqlara söykənən, uzaqgörən siyasət yeridilməlidir!

* Azərbaycan xalqını və dövlətini daim qalib və qüdrətli edən Heydər Əliyevin siyasi kursu ilə getməliyik!

* Milli birlik olmalı, xalq öz rəhbəri ətrafında yumruq kimi birləşməlidir!

* Xalqın milli sərvəti dövlətin qüdrətlənməsinə, insanların rifahının yüksəlməsinə sərf edilməlidir!

* Azərbaycan dostlarının sayını durmadan artırmalı, bədxahlarına qarşı qətiyyətli və prinsipial mübarizə aparmalıdır!

* Ordumuz daim gücləndirilməli, düşmənin başına od yağdıraraq onu məhv etməyə hazır vəziyyətdə olmalıdır!

❖❖❖

Müharibə qurtarsa da, döyüş davam edir!

Ermənistanın arabir atəşkəsi pozması, ərazimizi müxtəlifçaplı silahlarla atəşə tutması istisna olmaqla, bu döyüş müxtəlif formada və müxtəlif cəbhələrdə aparılır!

Hələ də "böyük ermənistan" sərsəm ideyasından əl çəkməyənlər var;

Hələ də Ermənistanda revanşizm barədə düşünənlər çoxdur;

Hələ də ara-sıra gorbagor olmuş "status" barədə sayıqlamalar baş verir;

Hələ də ATƏT-in Minsk qrupunu xortlatmaq istəyənlər tapılır;

Hələ də Ermənistanı BMT-də, frankofoniyada, hansısa senatda, milli assambleyada müdafiə cəhdlərinə rast gəlinir;

Hələ də ermənilər kiməsə, nəyəsə ümid bağlayaraq üçtərəfli Bəyanatda üzərlərinə götürdükləri öhdəliklərini yerinə yetirməkdən müxtəlif bəhanələrlə boyun qaçırırlar.

Amma əbəs yerə!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin İkinci Qarabağ müharibəsində onlara verdiyi dərsləri unutmamalıdırlar!

"Dəmir yumruğ"un əzici və məhvedici zərbələrini unutmamalıdırlar!

Diz çökərək İlham Əliyevə yalvarmaqlarını, dostlarını ona minnətçi saldıqlarını unutmamalıdırlar!

Keçmişə arxalanaraq özgə torpaqlarını 30 il işğalda saxladıqdan sonra Azərbaycan Ordusunun qarşısından qaçdıqlarını, "qalib xalq", "qalib millət", "məğlubedilməz ordu" miflərini necə biabırcasına itirdiklərini unutmamalıdırlar!

Ən nəhayət, "dəmir yumruğ"un yerində olduğunu, hər an başlarına enə biləcəyini yaddan çıxarmamalıdırlar!

İndi reallıq tam başqadır!

Yeni reallığı Müzəffər Ali Baş Komandan İlham Əliyev yaradıb!

Bu reallıq isə daimi və əbədidir!

***22 fevral 2023-cü il***

# Qarabağ probleminin
# həll olunduğu məkan - Qarabağ

Artıq otuz ildir ki, beynəlxalq qurum və təşkilatlarda Qarabağ problemi ("Dağlıq Qarabağ problemi" adı ilə) müzakirə olunur.

Artıq otuz ildir ki, dünya KİV-i Qarabağ probleminə öz səhifələrində, telekanallar informasiya buraxılışlarında səxavətlə yer ayırırlar.

Artıq otuz ildir ki, dünya əhalisi əsl mahiyyətini bilməsə də, "Dağlıq Qarabağ münaqişəsi" adlı problemin mövcudluğundan xəbərdardır.

Bu münaqişənin həlli ilə dünyanın ən böyük beynəlxalq qurumu olan BMT və onun Təhlükəsizlik Şurası məşğul oldu...

Bu münaqişəni həll etmək üçün qoca qitə ATƏT-in Minsk qrupunu yaratdı...

Bu münaqişənin həlli ilə bağlı Avropa İttifaqı, Avropa Şurası və digər qurumlar dəfələrlə müxtəlif qərarlar qəbul etdilər...

Bu münaqişənin həlli ilə bağlı uzun illər boyu dayanmadan çoxsaylı görüş və müzakirələr aparıldı, müxtəlif təkliflər, şərtlər irəli sürüldü, "həll paketləri" hazırlandı.

Eyni zamanda:

* İşğalçı ilə işğala məruz qalanın kim olduğu ucadan və aydın şəkildə deyilmədi;

* Ermənistana "işğal etdiyin əraziləri tərk elə" sözləri söylənilmədi;

* Beynəlxalq hüququ pozaraq başqa dövlətin ərazisini işğal edənə heç bir təsir və təzyiq göstərilmədi;

* İşğalçıya qarşı heç bir sanksiya tətbiq olunmadı;

Əksinə, tərəflərə "mövcud reallıqla barışmaq" tövsiyə edildi.

NƏTİCƏDƏ:

* BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qəbul etdiyi və Ermənistan qoşunlarının işğal etdikləri ərazilərdən qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsi havada, icrasız qaldı;

* ATƏT-in Minsk qrupu saysız-hesabsız görüş və danışıqlar aparsa da, vəzifəsinin öhdəsindən gələ bilmədi;

* Beynəlxalq hüquq ayaqlar altında tapdalandı;

* Bircə dəfə olsa belə, UNESCO-nun faktaraşdırıcı missiyası işğal ərazilərinə gələrək buradakı dağıntılar və erməni vəhşilikləri barədə dünya ictimaiyyətinə obyektiv və ətraflı məlumat vermədi;

* Hamı mövcud status-kvonu dondurmağa, Azərbaycan tərəfini işğalla barışmağa sövq etməyə can atdı;

* Hamı Azərbaycanı "münaqişənin hərbi yolla həlli variantı yoxdur" deyərək mənasız və nəticəsiz sülh danışıqlarını davam etdirməyə çağırdı.

Hətta Ermənistanın yeni rəhbəri N.Paşinyan cəzasızlıq şəraitindən o qədər qudurdu ki, "Qarabağ Ermənistandır və nöqtə" deyərək, əslində, işğal ərazilərindən xoşluqla çıxmayacaqlarını bəyan etdi.

❖❖❖

Azərbaycanın işğalla heç zaman barışmayacağını daim ucadan söyləyən Prezident İlham Əliyev isə Qarabağ problemini "dəmir yumruq"la həll etdi!

* "Tövsiyə"lərin əksinə olaraq hərbi yolla həll etdi!

* 44 gün ərzində Vətən müharibəsi aparmaqla həll etdi!

* Düşmən ordusunu darmadağın edərək, Ermənistanı diz çökdürərək həll etdi!

* Həm hərb meydanında, həm də diplomatiya və informasiya müharibəsində qazandığı möhtəşəm qələbələri ilə həll etdi!

* Düşmənin belini qıraraq, başını əzərək kapitulyasiya aktına imza atdıraraq həll etdi!

Ən əsası, Qarabağ problemini məhz Qarabağda, Qarabağ torpağında həll etdi və bununla müqəddəs məkanımızı murdar ləpirlilərdən təmizlədi!

Beləliklə, bütün dünyaya sübut etdi ki, Qarabağ probleminin həll yolu məhz hərbi yolla imiş!

Əyani şəkildə sübut etdi ki, Qarabağ problemi dünyanın, Avropanın hansısa qurumunun iclas zalında yox, məhz döyüş meydanında, özü də ikili standartlara söykənən münasibət və yanaşmalarla yox, güclü dövlətin güclü ordusu, uzaqgörən siyasəti ilə həll oluna bilərmiş!

Bütün bunlardan sonra cənab İlham Əliyev bu dəfə dünyaya özü bəyan etdi ki, artıq Qarabağ məsələsində yeni reallıqlar yaranıb və bu reallıqlarla hamı barışmalıdır!

Və bu gün şərtləri diktə edən tərəf Ermənistan deyil, AZƏRBAYCANDIR!

Hərb meydanında düşmən ordusunu darmadağın edən Azərbaycan!

❖❖❖

Qalib sərkərdə və məğrur dövlət başçısı cənab İlham Əliyev bu gün də Azərbaycanın şərtlərini ucadan və açıq şəkildə bəyan edir:

* Azərbaycan qalib gəlsə də, bu gün sülh tərəfdarıdır və qalan məsələləri sülh yolu ilə həll etmək niyyətindədir!

* Azərbaycan sülh sazişinin 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatın bütün maddələrinin icrası yolu ilə bağlanmasında israrlıdır!

* Azərbaycanda daha "Dağlıq Qarabağ" adlı ərazi vahidi yoxdur!

* Status məsələsi birdəfəlik cəhənnəmə göndərilib, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisinin hüquqları ölkədəki digər milli azlıqların hüquqları kimi qorunacaq, onlar mövcud imkanlardan hamı kimi istifadə edəcəklər;

* Azərbaycan özünün daxili işi olan Qarabağ məsələsini daha heç bir dövlətlə, beynəlxalq qurumla müzakirə etməyəcək, heç kəsə onun daxili işlərinə qarışmasına yol verməyəcək;

* Azərbaycan Qarabağdakı heç bir qondarma qurumu və onun qeyri-legitim başçısını tanımır və qəbul etmir.

Bütün bu məsələlərdə Azərbaycanın mövqeyi dəqiq, aydın və qətidir!

Ermənistan isə...

❖❖❖

Müharibə dövrü çoxsaylı telefon zəngləri ilə dünya liderlərinə müraciət edərək onların zəhləsini tökən, Azərbaycan Prezidentinə minnətçi salan Ermənistanın baş naziri Paşinyan hələ də köhnə ampluasındadır!

* Hər vəchlə sülh müqaviləsinin imzalanmasını uzadır;

* "Xankəndi-Laçın yolu blokadaya alınıb" - deyə yalandan vay-şivən qopararaq özünə Avropada yeni müdafiəçilər axtarır;

* Qarabağ erməniləri üçün nə isə qoparmağa, hazırlanacaq sülh müqaviləsinə bununla bağlı nə isə salmağa can atır;

* Ermənistana Avropa İttifaqının çoxsaylı müşahidəçilərini gətirərək sərhəddə yerləşdirir;

* Moskvaya naz edir, onu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxacağı ilə hədələyir;

* Yenidən "blokadaya alınan məzlum və zavallı" erməni obrazı yaratmağa çalışır.

Amma bütün cəhdləri boş və mənasızdır!

❖❖❖

Bu gün sülh danışıqları qalib tərəflə məğlublar arasında aparılır!

Sülhün şərtlərini Azərbaycan qalib dövlət olaraq diktə edir!

Danışıqların qalan iştirakçıları isə yalnız qərəzsiz və tərəfsiz vasitəçilər ola bilərlər!

Sülhün şərtləri də, Azərbaycanın mövqeyi də aydındır, bəllidir və qətidir!

Kimsə İlham Əliyevdən heç bir güzəşt, geriyə addım gözləməsin, çünki bu, mümkün deyil!

Ən nəhayət, bir daha təkrar edirik:

* Qarabağın və Qarabağda yaşayanların taleyi artıq yalnız Qarabağda, məlum şərtlər və tələblər əsasında həll olunur!

* Başqa heç yerdə, heç harada və heç kəsin yersiz müdaxiləsi ilə yox!

28 illik sülh danışıqlarından sonra yaradılan reallığı anlamaq və qəbul etmək vacibdir!

Sülh müqaviləsinin bağlanmasının uzadılması Ermənistanın xeyrinə deyil!

Necə ki 28 illik sülh danışıqları imitasiyası sonda harada və necə nəticələndi - bunu gərək ilk növbədə Ermənistan özü unutmasın və daha heç bir havadarına arxayın olmasın!

Prezident İlham Əliyev Münhen Təhlükəsizlik Konfransında Azərbaycanın qəti mövqeyini bir daha ortaya qoydu:

"Biz istəyirik ki, Qarabağ məsələsi beynəlxalq gündəlikdən çıxsın. Biz imkan verə bilmərik ki, Qarabağ məsələsi hər hansı bir formada Azərbaycanla Ermənistan arasında imzalanacaq sazişə daxil edilsin. Bunu mən bu gün cənab Blinkenin iştirakı ilə keçirilmiş görüşdə də bildirmişəm. Biz istəyirik ki, sərhədlərimiz tarixi xəritələr əsasında delimitasiya olunsun. Bunun da tarixi məntiqi var. Biz istəyirik ki, Ermənistan bizə qarşı ərazi iddialarından əl çəksin və normallaşma olsun".

Prezident İlham Əliyev həmişə dediyini edir!

Bunu təkcə Avropada yox, bütün dünyada da yaxşı bilirlər!

***23 fevral 2023-cü il***

# Məğlubiyyəti məğlub edən əbədi qalib

Hansısa müdrikin fikridir:

Uduzmaq hələ məğlub olmaq demək deyil!

Məğlub olduğunu qəbul etmək məğlubiyyətdir!

Mübarizələr və müharibələr tarixində döyüşü uduzan, geri çəkilmək məcburiyyətində qalan sərkərdələr çox olub.

Sonra ordunu yenidən toparlayıb, yüksək döyüş əhvali-ruhiyyəsi yaratmaqla yenidən hücuma keçənlərə, düşməni darmadağın edərək qələbə bayrağını qaldıranlara da təsadüf edilib.

Əsl qələbə istədiyin nəticəyə nail olmaq, nəzərdə tutduğun hədəfə çatmaqdır!

Ulu Öndər Heydər Əliyevin həyatında da müxtəlif uğursuzluqlar baş verib.

Lakin Ümummilli Liderimiz heç zaman uğursuzluqlarla barışmayıb, özünü məğlub saymayıb!

Bütün qüvvə və imkanları səfərbər etməyi, xalqa arxalanaraq ən çətin hədəfləri belə fəth etməyi bacarıb!

Möhkəm iradəsi, sarsılmaz qətiyyəti, cəsarəti və qorxmazlığı, tutduğu yolun doğruluğuna və ədalətə inamı sayəsində daim həlledici döyüşləri udub!

Əslində, dünyaya qalib kimi gələrək, bir qalib kimi də əbədiyyətə qovuşub!

❖❖❖

Böyük şəxsiyyətlər, görkəmli dövlət xadimləri və siyasətçilər adətən açıq mübarizə aparırlar.

Onlar istədiklərini ucadan səsləndirir, hədəflərini aydın və dəqiq göstərir, məqsədlərinə çatmaqdan ötrü yorulmadan çarpışırlar.

Adətən uğurlu insanlara qısqanclıqla yanaşanlar, paxıllıq edənlər, gizlincə ayağından çəkərək əngəl yaratmağa çalışanlar da olur.

Beləlləri üzdə gülsələr də, açıq şəkildə rəqiblərini tərifləyib hətta bəzən yaltaqlansalar da, əllərinə fürsət düşən kimi kəndir kəsməkdə, murdar niyyətlərini ən miskin formada həyata keçirməkdə mahirdirlər.

Təəssüf ki, hərdən bu xəbislər uğur da qazana bilirlər.

Mənfur niyyətlərinə yetəndə sanki "rahatlıq" tapırlar.

Amma heç zaman sonadək qalib ola bilmirlər.

Çünki xain və xəbis niyyətlilər daim məqsədlərinə çatsalar, yəqin ki, həyat inkişafdan dayanar, dünya zülmətə bürünər.

Tanrı işıqlı insanları, xoş niyyətliləri sevir!

Onlara arxa duraraq onların əli ilə həyatı yaxşılaşdırır, insanlara sevinc və xoşbəxtlik nəsib edir!

Ulu Öndər Heydər Əliyev də Tanrının sevdiyi, qoruduğu, arxa durduğu, onun əli ilə dünyaya ədalət və sevinc çatdırdığı insanlardan biri olub!

❖❖❖

Ulu Öndər Heydər Əliyev Azərbaycana birinci rəhbərliyi dövründə respublikanı başdan-başa yenidən tikib qurdu, sənayeni, kənd təsərrüfatını, elmi, təhsili, mədəniyyəti, habelə xalqın sosial rifahını əsaslı şəkildə yüksəltdi!

Bu uğur və nailiyyətləri ilə bərabər, özü də görkəmli dövlət xadimi, siyasətçi və təşkilatçı kimi tanındı, yüksəldi!

SSRİ kimi superdövlətdə görünmək, fərqlənmək, başqalarından əsaslı şəkildə seçilmək o qədər də asan deyildi.

Lakin böyük miqyaslı rəhbər kadrlar da hər zaman yetişmir.

Ulu Öndər Heydər Əliyevin gördüyü işlər, bacarıq və məharəti diqqət cəlb etdi!

Onu həmin dövr üçün ən yüksək vəzifələrdən sayılan SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin etdilər, Sov. İKP MK Siyasi Bürosunun üzvü seçdilər!

Moskvaya, SSRİ-nin rəhbərlərindən biri kimi işləməyə dəvət etdilər!

Çətin və ciddi sınaqlarla dolu etimad və təyinat!

Dünya "Türk oğlu işləmək üçün Kremlə aparıldı!" - deyə bu seçimə reaksiya verdi.

Heydər Əliyev nəhəng miqyaslı fəaliyyətə başladı, iyirmiyədək nazirliyə rəhbərlik etdi, Baykal-Amur Magistralının həyata vəsiqə qazanmasında böyük zəhmət sərf etdi!

Bu gün də rus elitası, həmin dövrü araşdıran tarixçilər və tədqiqatçılar Heydər Əliyevin fəaliyyətini qədirbilənliklə dəyərləndirirlər.

❖❖❖

Təbiidir ki, bədxahlarsız da ötüşmək mümkün olmur.

"Donos"çular, "anonimçi"lər işə salındı, "gözdənsalma" kampaniyasına start verildi.

Bu qaragüruhun başında o zaman Sov.İKP MK-nın katiblərindən biri olan M.Qorbaçov dururdu.

Sonralar öz əqidəsinə xəyanət edən, öz vətəndaşına ordunun əli ilə güllə atdıran, xəyanətə yuvarlanaraq xidmət etdiyi SSRİ-ni dağıdanlar sırasında başlıca "fiqur"a çevrilən M.Qorbaçov!

Heydər Əliyevin ölkədəki nüfuzundan, onun kölgəsində qalmaqdan qorxan M.Qorbaçov baş katib vəzifəsinə keçdikdən sonra paxıllıq və qısqanclığını düşmənçilik səviyyəsində davam etdirdi!

Xalq arasında başqa bir deyim də vardı: "Moskvaya aparılan "türk kadrları" oradan geriyə salamat qayıtmır".

Bu deyimin ən tutarlı nümunəsi xalq komissarı Nəriman Nərimanovun başına gətirilənlər idi.

Heydər Əliyevi də belə bir aqibət gözləyirdi!

Gözlənilənlər baş verdi.

Sapsağlam insan qəfildən ölüm yatağına düşdü.

Sui-qəsd, demək olar ki, baş tutdu.

Lakin başqa bir həqiqət də var: Tanrının sevdiyi və qoruduğu insana heç bir bəndənin gücü çatmaz!

Çox çəkmədən Heydər Əliyevin özünün imtina etdiyi partiya da, tutduğu vəzifə də, 15 müttəfiq respublikadan yaranmış nəhəng SSRİ də parçalandı, yox oldu.

Heydər Əliyev isə yenidən doğma Azərbaycanına qayıtdı!

Sağaldı, əvvəlki kimi enerjili, qətiyyətli və işgüzar oldu!

Bu qayıdış məğlubiyyət deyildi!

Sonrakı hadisələr də bunu göstərdi.

Əslində, Heydər Əliyev xəyanətkarlar, satqınlar üzərində qələbə çalaraq geri dönmüşdü!

Doğma xalqı, hər şeydən çox sevdiyi Azərbaycan qarşısında tarixi missiyasını yerinə yetirmək naminə qayıtmışdı!

❖❖❖

Lakin Ulu Öndəri vətəndə də etibarsızlar, xainlər, vəzifə hərisləri və şəxsi maraqlarını ümumi mənafedən yüksək tutanlar gözləyirdilər.

Bakıda daha bir sui-qəsd cəhdi oldu və bu plan da boşa çıxdı!

Ulu Öndərin vaxtilə oxutdurduğu, arxa durduğu, vəzifə pillələri ilə irəlilətdiyi insanların bir qismi ona qarşı dönüklük etdilər.

Hətta bu böyük insanın uzun illər boyu öz əlləri ilə tikib qurduğu Bakıda yaşamasına imkan yaratmadılar.

Heydər Əliyev doğma yurdu Naxçıvana üz tutdu.

Yenə də məğlub kimi yox!

Çünki yaxşı bilirdi ki, təsadüfən ölkə rəhbərliyinə gələn, yüksək vəzifə tutan bu dönüklər, əslində, nə siyasətdən baş çıxarırlar, nə də həmin dövrdə baş verən hadisələrdən.

Ayaz Mütəllibov SSRİ dağılan dövrdə onu saxlamaq, qorumaq üçün ölkədə referendum keçirirdi!

AXC-Müsavat cütlüyü yaratdığı anarxiya və başıpozuqluqdan istifadə edərək hakimiyyəti ələ almağa, bu yolla var-dövlət yığmağa can atırdı.

Ulu Öndər yenidən güc toplamaq, dövləti və xalqı fəlakətdən qurtarmaq üçün kiçik vətəninə döndü.

Onun Naxçıvana qayıdışı isə həm də Naxçıvanı aclıqdan, soyuqda donmaqdan və işğaldan qurtardı!

❖❖❖

M.Ə.Sabir necə də gözəl deyib:

Çalxalandıqca, bulandıqca zaman nehrə kimi,

Yağı yağ üstə çıxır, ayranı ayranlıq olur!

Sular durulmağa başlayanda Heydər Əliyevin yeri göründü!

Ə.Vəzirovdan sonra A.Mütəllibov da təyyarəyə minərək ölkədən qaçdı.

Səriştəsizlər və naşılar - AXC-Müsavat cütlüyü isə "vəzifələrini donduraraq" hakimiyyətdən getdilər.

Ancaq bundan əvvəl Naxçıvana Heydər Əliyevə dalbadal çağırış göndərərək geriyə qayıdıb ölkəni fəlakətdən qurtarmasını xahiş-minnət etdilər.

Əsl qələbənin, Ulu Öndərin qələbəsinin etirafı da məhz bu idi!

Çünki Azərbaycanda yaşayan hər kəs yaxşı anlayırdı ki, dövləti və xalqı bu fəlakətdən yalnız Heydər Əliyev dühası xilas edə bilər!

Ulu Öndər Heydər Əliyev yarımçıq işləri başa çatdırmaq üçün yenidən geriyə döndü!

Lakin Azərbaycanın müstəqilliyini istəməyənlər, antiazərbaycançı şəbəkəyə qulluq edənlər hələ də niyyətlərindən əl çəkməmişdilər.

İki dəfə -1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında dövlət çevrilişinə cəhd olundu.

Silahlanmış müxalifət hakimiyyəti ələ keçirməyə çalışırdı.

Onlar elə güman edirdilər ki, Ə.Vəzirov, A.Mütəllibov, Ə.Elçibəy kimi Heydər Əliyev də postunu tərk edərək harasa qaçacaqdır!

Amma çox ciddi səhv etmişdilər!

Heydər Əliyev "Mən özümün də, övladlarımın da həyatını Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə qurban verməyə hazıram", - deyərək Prezident kürsüsünü tərk etmədi, xalqı mübarizəyə qaldırdı!

Artıq başı daşdan-daşa dəyən, həqiqi rəhbərlə qorxaq dövlət başçılarını yaxşı ayırd edən xalq Heydər Əliyevin ətrafında yumruq kimi birləşdi, öz dövlətinin və rəhbərinin müdafiəsinə qalxdı!

Xalq-Heydər birliyi son qələbəni müəyyən etdi!

Xalqın çağırışı ilə Azərbaycan rəhbərliyinə qayıdan Ulu Öndər Heydər Əliyev tarixi missiyasının icrasına başladı, bu yolda sonadək qətiyyət və qəhrəmanlıq göstərdi.

❖❖❖

Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərliyinin ikinci dövründə ölkədə möhkəm və dönməz sabitlik yaratdı.

Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi.

Zəruri islahatlar apararaq bazar iqtisadiyyatı münasibətlərinə keçidi təmin etdi!

"Əsrin müqaviləsi" ilə ölkənin gələcək iqtisadi inkişafına dəyərli töhfə verdi!

Ulu Öndər Heydər Əliyevin Azərbaycan qarşısındakı xidmətləri saysız-hesabsızdır.

Onlardan ikisini xüsusi qeyd etmək istərdik:

Heydər Əliyev siyasi kursunu müəyyən edərək Azərbaycanın əbədi inkişafını təmin etməsini;

Ən layiqli siyasi varisini yetişdirərək ölkənin taleyini etibarlı əllərə tapşırmasını!

❖❖❖

Həyatının son dövrlərində Heydər Əliyevin ən böyük "düşmən"i səhhətində yaranan problemlər oldu.

Uzun illərin gərgin işi, Moskvada sağlamlığına vurulan zərbə, çoxsaylı problemlərin həllinə sərf edilən enerji, dövlətə qarşı xəyanətlərin ifşası, Qarabağ məsələsi ilə bağlı illərlə çəkən gərgin danışıqlar və digərləri yorulmaq bilmədən çalışan Ümummilli Liderimizin fiziki cəhətdən zəifləməsinə və xəstəliklərlə mübarizəsinə mənfi təsir göstərmişdi.

Ulu Öndərin xəstəliklə son "döyüş"ü bu gün adını daşıyan sarayda baş verdi.

21 aprel 2003-cü ildə.

İnsanların maraq və məhəbbətlə iştirak etdiyi görüşdə, televiziya ilə birbaşa ölkə ərazisinə translyasiya olunan tədbirdə.

Əvvəlcə xəstəlik güc gəldi, bu yenilməz insanın müvazinəti pozuldu.

Sonra bütün Azərbaycan xalqının sonsuz məhəbbət və heyrətlə izlədiyi hadisələr baş verdi...

Bu görüşdə həm də Ulu Öndərin yaratdığı C.Naxçıvanski adına Hərbi Liseyin kursantları da iştirak edirdilər.

Ali Baş Komandan gələcək hərbçilərə də məğlubedilməzlik nümunəsini göstərdi!

Həkimlərin bütün xahiş və xəbərdarlıqlarına baxmayaraq, Heydər Əliyev yenidən çıxış etdiyi kürsüyə qayıtdı!

Sözünün mabədini söylədi...

Azərbaycan xalqını böyük nigarançılıqdan qurtardı...

Hələ də ayaqda olduğunu, mübarizənin, quruculuğun davam etdiyini nümayiş etdirdi!

Gələcək zabitlərə ən çətin anlarda qələbəyə doğru necə irəli getməyin nümunəsini göstərdi!

Göstərdi ki, qalib gəlməyin, məqsədə çatmağın yeganə yolu ayaqda qalmaq, sonadək mübarizə aparmaqdır!

Bütün həyatı boyu Heydər Əliyev kimi yorulmadan, dayanmadan, heç bir təhdid və təhlükədən qorxmadan mübarizə aparmaqdır!

Ən nəhayət, sübut etdi ki, o, sınaqlardan çıxmış, heç zaman məğlub olmayan Heydər Əliyevdir!

Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqın əbədi sevgi və məhəbbət ünvanı olan Heydər Əliyev!

***26 aprel 2023-cü il***

# Qapını bağladıq, açarı da cibimizdədir!

*105 il ərzində ilk dəfədir ki, Azərbaycan öz sərhədlərinə tam şəkildə nəzarət edir*

Birinci dövlət müstəqilliyi dövründə (1918-1920-ci illər) Azərbaycan daxili və xarici qovğalardan baş açaraq sərhədlərini dəqiq müəyyənləşdirib tam nəzarətə götürə bilmədi.

Buna nə vaxtı çatdı, nə maliyyə imkanı.

Bu funksiyanı icra edəcək silahlı qüvvələr də hələ tam formalaşmamışdı.

Texniki nəzarəti təmin edəcək digər zəruri amillərin çatışmazlığı da bir yandan.

On dörd müttəfiq respublikanı zorla öz tərkibinə qatan (sözdə "qardaş xalqların könüllü ittifaqı" adlandırılsa da) Rusiya - mərkəz üçün yalnız bütöv SSRİ-nin hüdudları sərhəd sayılırdı.

Müttəfiq respublikalar arasında torpaq çəkişmələri baş verəndə isə mərkəzin nümayəndəsi gəlib hər ikisinin üstünə çımxırırdı: "Sizin torpağınız var ki ona görə mübahisə edirsiniz, oturun öz yerinizdə!" (Qazax rayonunda baş verən sərhəd mübahisəsini xatırlayın).

Müttəfiq respublikaların xarici işlər nazirlikləri formal və rəmzi xarakter daşıyırdı.

Xarici siyasət və əlaqələrlə bağlı bütün məsələlər, xaricə getmək üçün verilən vizalar Moskvada həll olunurdu.

Hətta bu gün öz yurdumuz kimi gedib-gəldiyimiz qardaş Türkiyəyə hər adam ayaq basa bilməzdi!

Bunun üçün yüzqat yoxlamadan keçməli, sonra Moskvaya uçaraq oradan sərhədi adlamaq barədə razılığa uyğun hərəkət etməli idin.

Bəli, SSRİ-yə daxil olan bütün müttəfiq respublikaların sərhəd qapıları açıq idi, yalnız öz aralarında.

Qırmızı sovet pasportu ilə istədiyin vaxt istədiyin "qardaş ölkə"yə gedə bilərdin.

Səninlə "çəpər qonşusu" olan xarici dövlətlərin yolu isə Moskvadan keçirdi.

Hamı buna alışmışdı və qəbul etmişdi.

Necə deyərlər, ağa deyər sür dərəyə, sür dərəyə də.

Düz 70 il daxilə açıq, xaricə bağlı qapılar arxasında yaşadıq.

❖❖❖

Sovet dövründə Azərbaycanla Hayastan arasında da sərhədlər formal xarakter daşıyırdı.

Hətta o qədər formal ki, haylar Moskvadakı hamilərinin (Moskvada həmişə haylara hay verənlər çox olub) dəstəyindən istifadə edərək "örüş yerləri" adı ilə hissə-hissə Azərbaycan torpaqlarını mənimsəyirdilər.

Sərhəddə yaşayan əhali arasında "otlaq mübahisələri" baş verəndə isə səssizcə, həm də amiranə şəkildə həll olunurdu.

Bu "sərhədsizlik" və "qapısızlıq" Qarabağ probleminin meydana gəlməsində, əvvəlcə münaqişəyə, sonra müharibəyə çevrilməsində, ən nəhayət, otuzillik işğalla sonuclanmasında mühüm amillərdən birinə çevrildi.

İrəvan-Laçın-Xankəndi yolu həmişə təxribat, xəyanət və mənfur planlar yolu olub.

* Qarabağda yaşayan ermənilərə həmişə təlimat və tapşırıqlar o yolla gəlib.

* "Böyük Ermənistan" sərsəmləməsi və "miatsum" sayıqlaması hərəkatı o yolla içərilərimizə ötürülüb.

* Separatizm hərəkatı o yolla Azərbaycan ərazisinə daxil edilib.

* Keçmiş DQMV-nin Azərbaycanın tərkibindən çıxarılmasına xidmət edən mərkəzin qərar və tapşırıqları, ermənipərəst nümayəndəsi A.Volski də həmin yolla ölkəmizə gəlib. (A.Volskinin "əmisi oğlu" R.Vardanyan da həmin yolla təşrif buyurmuşdu.)

* Otuz il "sülh danışıqları" adı ilə başımızı qatan ATƏT-in Minsk qrupu da gedib-gəlməkdən həmin yolu yağır etmişdi.

* 1988-1990-cı illərdə Xankəndidəki "xalqın etiraz hərəkatını" qızışdıran və silahlı toqquşmalara çevirən "irəvanlı saqqallılar" da həmin yolla gəlirdi.

* Azərbaycan ərazisinə silah-sursat, terrorçu-təxribatçı dəstələr hələ də o yolla gətirilirdi.

* Xocalıda soyqırımı törədən 366-cı alay da Laçın-Xankəndi yolu ilə ərazimizə soxulmuşdu.

* Otuzillik işğal dövründə işğalçı ordunun bütün təminatı həmin yolla aparılırdı.

* I və II Qarabağ müharibəsi dövründə işğalçılara göndərilən canlı qüvvə, sursat, zirehli texnika və digər təminatlar həmin yoldan keçmişdir.

Hələ bu harasıdır, bütün mənəvi və siyasi dəstək də İrəvan-Laçın-Xankəndi yolu vasitəsilə baş tuturdu:

* Baronessa Koks həftə səkkiz mən doqquz;
* Rusiya Dövlət Dumasının iqtidar partiyasından olan deputatları;
* Hayların "böyük bacısı" fransızların senator və konqresmenləri;
* Avropadan, ABŞ-dən gələn, ciblərində erməni pulu olan bütün ermənipərəstlər həmin yolla Azərbaycan ərazisinə icazəsiz-filansız soxulurdular.

O yolun daha bir "missiyası" da vardı;

* Azərbaycanın bütün talan olunmuş evləri, əmlakları, muzeyləri, yeraltı və yerüstü sərvətləri həmin yolla ölkə ərazisindən xaricə daşınırdı.

Əslində, Laçın yolu ölkəmizin müstəqilliyinə qara kölgə salan anarxiya, xəyanət, təhlükə, özbaşınalıq yoluna çevrilmişdi.

Başda dünya erməniliyi olmaqla bütün erməni təəssübkeşləri həmin yola Azərbaycan tərəfindən nəzarətin bərpasına hər vəchlə mane olmağa çalışır, müxtəlif adlarla və bəhanələrlə əngəlləməyə can atırdılar.

Müzəffər Ali Baş Komandan İlham Əliyev bu bəlalı yolun qapadılması üçün çox uzun, çox uzaqgörən, çox müdrik, çox qətiyyətli gedişlər etdi, dəfələrlə qabaqlayıcı addımlar atdı!

Hayastanın səhvlərindən məharətlə istifadə edərək beynəlxalq rəyi öz xeyrimizə köklədi!

Ən nəhayət, vədəsində və məqamında Laçın qapısını qapadaraq bu "şər yolu"na dövlətimizin nəzarətinə nail oldu!

Əslində, Müzəffər Ali Baş Komandan İlham Əliyev "status", "hüquq", "sülh müqaviləsinə əlavə şərt" deyənlərin ağızlarına daş basaraq hayların, Qarabağdakı separatçıların sonuncu "ümid qapı"larını üzlərinə çırparaq birdəfəlik bağladı!

❖❖❖

Şişirtmədən deyək ki, İkinci Qarabağ müharibəsindən sonra bu, Azərbaycanın ikinci mühüm qələbəsi sayıla bilər!

Həm də bu uğurun çox böyük tarixi əhəmiyyəti var:

Bütün ərazimiz boyu sərhədlərimizə özümüz etibarlı şəkildə nəzarət edirik!

İNDİ:

* O yolla ölkəmizə gəlmək istəyənləri özümüz yoxlayıb buraxacağıq!
* Vizasızları mədəni şəkildə geri qaytaracağıq!
* "Qara siyahı"ya saldıqlarımıza dirsək göstərəcəyik!
* Bizim razılığımız olmadan oradan heç bir silah, sursat, hərbçi keçə bilməyəcək!

* Nəyəsə ümid bağlayaraq və RSK-nin üçtərəfli Bəyanatın tələblərini yerinə yetirməməsindən istifadə edərək Qarabağda qalan silahlılar daha kənardan heç bir yardım və təminat ala bilməyəcəklər!

* Qarabağda doğulmayıb sonradan burada məskunlaşdırılanları həmin yolla gəldikləri yerə yola salacağıq!

* Qanunlarımıza tabe olmaq istəməyənləri, Vardanyan kimilərinin sözlərinə inanaraq nəyəsə ümid bəsləyənləri həmin yolla ölkədən çıxaracağıq!

Bu yolla yalnız müstəqil Azərbaycanı sevənlər, onun qanunlarına hörmətlə yanaşanlar gedib-gələ biləcəklər!

Laçında nəzarət-buraxılış məntəqəsinin qurulması həm də tezliklə Zəngəzur dəhlizinin açılacağından xəbər verir!

***27 aprel 2023-cü il***

# Qəhrəmanlar ordusu

*İlham Əliyevin yaratdığı ordu dünyada belə tanınır*

"Ordun varsa, yurdun var" - dəfələrlə tarixin sınaqlarından çıxmış Azərbaycan atalar sözüdür.

Onun həqiqiliyini gözlərimizlə gördük, həyatımızda təsdiqini tapdıq!

Torpaqlarımız ona görə işğala məruz qaldı ki...

Doğma el-obadan ona görə qaçqın düşdük ki...

Otuz il əzablı məcburi köçkün həyatı yaşadıq ki...

Min bir zillətə düçar olduq ki...

Ordumuz yox idi!

Sovet hökuməti ərazimizi qorumaqdan ötrü bizə ordu yaratmağa icazə vermirdi.

"Özümüzünkülər" isə hətta ov tüfənglərini də yığmışdılar ki, düşmənə "zərər" yetirməyək!

Beləliklə, "böyük qardaş"ımız bizim əl-qolumuzu bağlayaraq düşməni silahlandırdı.

Sonra isə arxasında durub yardım göstərməklə torpaqlarımızın işğalında kömək etdi.

Torpaq da getdi, evlərimiz, əmlakımız, maddi və mənəvi sərvətlərimiz də.

Neçə-neçə igid övladlarımız isə şəhidliyə qovuşdu.

❖❖❖

Artıq tarixə qovuşmuş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başlayanda yaşayış məntəqələrini erməni yaraqlılarından və terrorçularından qorumaq üçün dəfələrlə təşəbbüs göstərildi, müxtəlif vaxtlarda müxtəlif adlar altında silahlı dəstələr yaradıldı.

A.Mütəllibovun prezidentliyi dövründə DİN-in nəzdində XTPD (Xüsusi Təyinatlı Polis Dəstəsi) təşkil olundu.

Yüngül atıcı silahlarla təchiz olunmuş bu azsaylı dəstə sovet ordusunun arsenalından gen-bol istifadə edən erməni silahlı qüvvələri ilə mübarizədə gözlənilən səmərəni vermədi.

Polis nəfərləri nə qədər igid olsalar da, sayları az, müdafiə edəcəkləri ərazilər isə geniş idi.

Sonralar onların say tərkibi artırılaraq, silahlanma keyfiyyəti, "çeşidi" xeyli dəyişdirildi.

Təəssüf ki, daxili işlər nazirinin müavini vəzifəsinə qədər yüksəldilən R.Cavadov sonralar OMON adı ilə məşhurlaşan bu qurumu dövlətə qarşı yönəldərək xəyanətə yuvarlatdı.

Beləliklə, OMON-un ölkəyə xeyrindən çox ziyanı dəydi.

Keçmiş DQMV ilə təmas xəttindəki kəndləri "erməni saqqallıları"nın (o zaman İrəvandan Azərbaycan ərazisinə terrorçu kimi göndərilən erməni silahlıları belə adlanırdı) hücumundan qorumaq üçün bir sıra rayonlarda könüllü özünümüdafiə batalyonları yaradıldı.

Hətta bu batalyonların bir qismində ZTR və PDM (zirehli transportyor və piyadaların döyüş maşını) da vardı.

AXC də özünə silahlı batalyonlar təşkil etmişdi.

Bunların da taleyi uğursuz oldu.

Həmin batalyonların bir qismi kimlərinsə maraqlarını təmin edən və ya hansı qrupunsa hakimiyyətə gətirilməsinə xidmət göstərən münaqişələrə cəlb olunduğundan iflasa uğradı.

AXC batalyonları da sonda "silahlı müxalifət"ə çevrilərək dövlətə qarşı çıxdı.

AXC-Müsavat iqtidarı dövründə ordu yaradılması "ideya"sı da baş tutmadı.

Halbuki həmin adla əhalidən və ayrı-ayrı şəxslərdən xeyli pul da yığılmışdı.

Xəyanətkar müdafiə naziri R.Qazıyevin başçılıq etdiyi ordu nə olacaqdı ki...

Başıpozuq, bir mərkəzə tabe olmayan, siyasiləşdirilmiş, qanunsuz silahlılar...

Beləliklə, torpaqların müdafiəsi vaxtında və lazımi qaydada təmin olunmadı, vətəndaş müharibəsi alovlandı, Azərbaycanın təkcə deklarativ müstəqilliyi deyil, bir dövlət kimi mövcudluğu da real təhlükə qarşısında qaldı.

❖❖❖

Əsl ordu quruculuğuna Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə 1993-cü ilin iyun ayından - Ümummilli Liderimizin xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdışından sonra başlanıldı.

Əvvəla, Ulu Öndər bu sahədə böyük təcrübəyə sahib idi.

Hələ sovet dövründə azərbaycanlılardan ibarət hərbi kadrların yetişdirilməsi qayğısına qalmış, bu məqsədlə C.Naxçıvanski adına Hərbi Təmayüllü Məktəb yaratmışdı.

Azərbaycanda yerləşən ali hərbi məktəblərdə yerli zabit kadrlarının hazırlanması üçün məhz onun təşəbbüsü və təkidi ilə Moskva tərəfindən həmin təhsil ocaqlarında azərbaycanlı gənclərin təhsil alması üçün xüsusi kvota da müəyyənləşdirilmişdi.

Ulu Öndər Heydər Əliyev Naxçıvanda həyatının ən çətin dövrünü yaşayarkən bu qədim diyarın erməni işğalından qorunması üçün mühüm zəruri addımlar atmışdı.

Belə ki, keçmiş SSRİ-nin muxtar respublika ərazisindəki hərbi hissələrinin dinc yolla köçürülməsi təşkil edilmiş, həmin hərbi hissələrdəki silah-sursat və hərbi texnika yerində qalmış və bunların əsasında yeni ordu yaradılmışdı.

Nəticədə Naxçıvan düşmən işğalından qorunmuşdu.

Qısa müddətdə Azərbaycanda yeni ordu yaradan və onların gücü ilə 1994-cü ilin yanvarında Horadiz əməliyyatı keçirərək 22 yaşayış məntəqəsini düşməndən geri alan Ulu Öndər Heydər Əliyev, əslində, hələ o zaman müharibənin gedişində ciddi dönüşə nail olmuşdur.

Bundan sonra atəşkəs barədə razılaşma imzalanmış, ATƏT-in vasitəçiliyi ilə sülh danışıqları aparılsa da, yeni ordu yaradılması daim diqqət mərkəzində saxlanılmışdır.

❖❖❖

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev də ölkə rəhbərliyinə başladığı ilk günlərdən müasir və modern ordu quruculuğu ilə məşğul olmuşdur.

Ordu quruculuğu isə böyük səriştə ilə yanaşı, külli miqdarda vəsait, çoxsaylı və profilli kadr hazırlığı da tələb edir.

Həmin dövr ölkənin çiyinlərində bir milyondan çox məcburi köçkün yükü də var idi.

Onları yerləşdirmək, normal həyatlarını və güzəranlarını təmin etmək, neft pullarının olmadığı bir şəraitdə iqtisadiyyatı yüksəltmək müşkül məsələ sayılırdı.

İlham Əliyev bütün bunları bacardı:

* Həm məsələnin sülh yolu ilə həlli üçün danışıqları davam etdirdi;

* Həm ölkənin davamlı və sürətli inkişafına nail olmaqdan ötrü zəruri addımlar atmaqla İnkişafın Azərbaycan Modelini formalaşdırdı;

* Həm Azərbaycanı yeni imicdə dünyaya təqdim edərək ölkənin siyasi nüfuzunu yüksəltdi, Cənubi Qafqazın ən güclü dövlətinə və söz sahibinə çevirdi;

* Həm də möhtəşəm, modern, ən müasir texnologiyalara əsaslanan silahlara malik olan qüdrətli ordu - hamının məhəbbətlə "İlham Əliyev ordusu" adlandırdığı yeni silahlı qüvvələr yaratdı!

Bu ordu 2020-ci ilin 44 günlük Vətən müharibəsində bütün dünya qarşısında öz sözünü söyləyərək müqəddəs missiyasını uğurla, qəhrəmanlıqla yerinə yetirdi!

❖❖❖

Yeni Azərbaycan Ordusunun baş sərkərdəsi və baş qəhrəmanı Müzəffər Ali Baş Komandan İlham Əliyevdir!

Onun rəhbərliyi ilə bu ordu 44 gün ərzində mümkün olmayanı gerçəkləşdirdi:

* 30 illik işğala 44 gündə son qoydu!

* BMT-nin, beynəlxalq qurum və təşkilatların, beynəlxalq hüququn 30 ildə edə bilmədiyini qısa müddətdə həyata keçirdi!

* Düşmən ordusunu məhv etdi, onu diz çökdürdü, ölkə ərazisindən iti qovan kimi qovdu!

* Özlərini lovğalıqla "məğlubedilməz xalq", "məğlubedilməz millət" adlandıranları fərarilərə, qorxaqlar yığnağına, əbədi məğlublara çevirdi!

* Qarabağın Azərbaycana məxsusluğunu iradəsinin, silahının, mənəviyyatının, iqtisadiyyatının və siyasətinin qüdrəti ilə də göstərdi!

Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsinin baş qəhrəmanı olaraq bu şanlı döyüşlərdə düşmənə üç mühüm cəbhənin hər birində - həm hərb meydanında, həm diplomatiya sahəsində, həm də informasiya savaşında qalib gəldi!

❖❖❖

Bugünkü Azərbaycan Ordusu ən əvvəl özünün hərbi vərdişlərə dərindən yiyələnmiş əsgər və zabitləri ilə güclüdür!

Ən müasir silahlardan istifadə etməklə hərbi əməliyyatlar zamanı ən yeni strategiya və taktika tətbiq edir!

Tarixən qısa müddətdə yaranan və 44 gün ərzində sınaqdan şərəflə çıxan Azərbaycanın Silahlı Qüvvələri bütün dünya orduları üçün nümunəyə çevrildi, XXI əsrin müharibələr tarixində ilk olaraq yeni səhifə açdı!

Bu ordunun əsgər və zabitləri keçilməz cığırlardan keçməklə, sıldırım qayalara dırmaşmaqla, əliyalın, yalnız əsgər xəncəri və "lopatkası" ilə döyüşməklə Şuşa kimi qala şəhərini almağa qadir olduqlarını sübuta yetirdilər!

Bu ordu xalqımızın qürurunu, milli mənliyini qəhrəmanlığı sayəsində geri qaytardı!

Bu ordu qəhrəman şəhidləri ilə daim qürur duyan, onların qisasını döyüş meydanında artıqlaması ilə alan bir ordudur!

❖❖❖

Bu gün 105 yaşını qeyd etdiyimiz Azərbaycan Ordusu 70 illik sovet dövrü nəzərə alınmaqla, əslində, 30 ildir ki, mövcuddur!

Ancaq əsrlərə bərabər inkişaf yolu keçərək hərb tarixinə düşəcək qəhrəmanlıqlar göstərmişdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu ordunun qüdrəti sayəsində beş əsrdə ilk dəfə olaraq itirilmiş Azərbaycan əraziləri geri qaytarılmış, ikiəsrlik Qarabağ münaqişəsinə birdəfəlik son qoyulmuşdur!

Hazırda Azərbaycan Ordusunun nümunəsindən dünyanın ən güclü dövlətləri belə, örnək götürərək öz silahlı qüvvələrində islahatlar keçirir, onun tətbiq etdiyi taktikadan öyrənərək istifadə edirlər!

Bu gün Azərbaycan Ordusu vətənin keşiyində mərdliklə və möhkəm dayanıb, düşmənin hər bir təxribatına dərhal, güclü və sarsıdıcı zərbələri ilə cavab verir!

Azərbaycan-Türkiyə qardaşlığı ordumuzu qüdrətləndirir, güclü və yenilməz edir!

Müzəffər Ali Baş Komandan İlham Əliyev zəfər ordumuza daim xüsusi diqqət və qayğı göstərir!

Silahlı Qüvvələr Günü münasibətilə bütün hərbçilərimizi, hərbi geyimli və əlisilahlı hər bir Azərbaycan əsgərini və zabitini səmimi-qəlbdən təbrik edirik!

***26 iyun 2023-cü il***

# II Fəsil

# *Qlobal lider*

## Şuşa Bəyannaməsi - sülh bəyannaməsi

Biz həmişə Tanrıya üz tutanda gözlərimizi göyə zilləyirik.

Əslində, hamımız Allahın səmanın sonsuzluğunda qərar tutduğunu qəbul etmişik.

Odur ki, yüksəkliyə qalxanda Allaha yaxınlaşdığımızı zənn edirik.

Şuşa Azərbaycanın ən hündür nöqtələrindən birində yerləşdiyindən Allaha yaxın şəhər sayılır.

Belə şəhərlərdə, adətən, xoş istək və arzular səsləndirilir, onların daha tez reallaşacağına inam olur.

Azərbaycan xalqını böhrandan, dövlətini və dövlətçiliyini itirmək təhlükəsindən xilas edən Milli Qurtuluş Günündə Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının və birliyinin yeni təsdiqi sayılan Şuşa Bəyannaməsinin məhz burada imzalanmasının ikiqat rəmzi mənası var.

Bu, Uca Tanrının da yaxından xeyir-dua verdiyi birlikdir, sazişdir!

Bu birlik Qarabağın daha etibarlı müdafiəsini təmin edəcəkdir!

Üstəlik, bu birlik Şuşa da daxil bütün Qarabağın sürətlə yenidən tikilib qurulmaqla cənnətə çevrilməsinə öz töhfəsini verəcəkdir!

Bu birlik həm də dosta sevinc, fərəh gətirir, düşmənə gözdağına çevrilir!

❖❖❖

I Qarabağ müharibəsində ona görə məğlub olduq ki:

* Xalq həqiqi rəhbərindən - Ulu Öndər Heydər Əliyevdən uzaq düşmüşdü;

* Dövlətə maymaqlar, qorxaqlar, səriştəsizlər, şəxsi maraqlarını milli mənafedən üstün tutanlar başçılıq edirdilər;

* Düzgün daxili və xarici siyasət formalaşdırılmamışdı;

* Vaxtında ordu qurulmadı və silahlandırılmadı;

* Torpaqların etibarlı müdafiəsi təşkil olunmadı;

* Ölkədə sabitliyin pozulması, özbaşınalığın və qanunsuzluğun baş alıb getməsi vətəndaş müharibəsinə, ən nəhayət, torpaqların itirilməsinə səbəb oldu!

* Məğlubiyyətin bir səbəbi də Ermənistanın bir neçə mənbədən silahlandırıldığı, maliyyələşdirildiyi və digər formalarda yardım göstərildiyi halda Azərbaycanın tək və köməksiz qalması idi.

Hətta qardaş Türkiyə də bizə həmin vaxt yardım göstərə bilmədi.

❖❖❖

Münaqişənin ilkin mərhələsində Azərbaycan problemin sülh yolu ilə, danışıqlar vasitəsilə həllinin tərəfdarı olduğunu açıq şəkildə ortaya qoydu.

Ermənistan tərəfi isə bunu güzəşt və qorxaqlıq əlaməti kimi qiymətləndirərək daha da azğınlaşdı.

Bəli, ötən əsrin 90-cı illərində meydanda zəif Azərbaycan və arxalı Ermənistan var idi!

Ermənistan həmişəki kimi, həm də xain xislətinə sadiq olaraq bu məqamdan bəhrələndi, Dağlıq Qarabağı və ətrafdakı yeddi rayonu işğal etdi.

Azərbaycan yenə də məsələnin çözülməsinin sülh danışıqları yolu ilə, eyni zamanda ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarı olduğunu söylədi.

Lakin Ermənistan və münaqişəni nizamlamalı olan ATƏT-in Minsk qrupu sözdə bu ideyanı dəstəkləsə də, əməldə "özünüz aranızda hansı razılığa gəlsəniz, biz də onu qəbul edəcəyik" və daha sonra "reallıqla hesablaşmaq lazımdır" kimi məkrli və qəbuledilməz mövqe sərgilədilər.

Beynəlxalq qurumlardan heç bir təsir və təzyiq görməyən Ermənistan Azərbaycan torpaqlarını öz gücünə işğal etdiyinə inanaraq "qalib millət", "məğlubedilməz ordu" eyforiyasına uyaraq sözün həqiqi mənasında qudurdu və bizi yeni ərazilərin işğalı ilə hədələməyə başladı.

Amma iki vacib məqamı unutmuşdu:

Birincisi, zamanı və onun gedişatını!

İkincisi isə, Azərbaycana İlham Əliyev kimi siyasət nəhənginin və qüdrətli sərkərdənin rəhbərlik etdiyini!

44 günlük Vətən müharibəsi başlayandan bir neçə gün sonra ciddi səhv və yekəbaşlıq etdiyini anladı!

Döymədiyi qapı, zəng etmədiyi dövlət başçısı, yalamadığı daban qalmadı!

Lakin Müzəffər Ali Baş Komandan İlham Əliyevin prinsipial mövqeyi və şərti - Ermənistan öz qoşunlarının işğal ərazilərindən çıxarılması ilə bağlı konkret tarix göstərilən qrafik təqdim edilməyənə və kapitulyasiya sənədini imzalamayana qədər hərbi əməliyyatlar dayandırılmadı.

❖❖❖

XXI əsrin ən müasir müharibəsini aparan, ən yeni strategiya və taktika tətbiq edən Azərbaycan 44 gün ərzində düşməni təkcə hərb meydanında deyil, diplomatiya sahəsində və informasiya müharibəsində də darmadağın etdi!

Qısa müddətdə 3 cəbhədə möhtəşəm zəfər qazanılmasının bir neçə səbəbi vardı:

Əvvəla, Azərbaycana və onun qüdrətli Ordusuna cənab İlham Əliyev kimi görkəmli dövlət xadimi, mahir sərkərdə rəhbərlik edirdi.

İkincisi, ordu qələbəyə köklənmiş, mətin və təcrübəli əsgər və zabitlərlə komplektləşdirilmiş, ən yeni silah və vasitələrlə təmin edilmişdi.

Üçüncüsü, dövlət başçısı İlham Əliyev hakimiyyətdə olduğu müddətdə diplomatiya sahəsində böyük uğurlara imza atmış, müəllifi olduğu "hücum diplomatiyası" taktikasını tətbiq etmiş, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı əsl həqiqətləri dünyaya çatdırmış və Ermənistanın işğalçı simasını yetərincə ifşa etmişdi.

Dördüncü, hərbi əməliyyatlar davam edən müddətdə cənab İlham Əliyev dünya KİV-inə açıq oldu, jurnalistlərin bütün suallarını cavablandırdı, problemin mahiyyəti ilə bağlı dünya ictimaiyyətini maarifləndirdi, feyk xəbərləri təkzib və ifşa etdi, informasiya müharibəsinin şəriksiz qalibi oldu.

Beşincisi və ən əsası, qardaş Türkiyə bu müharibədə əvvəldən sonadək bütün məsələlərdə daim dəstəyimiz oldu, arxamızda durdu, hər bir köməyi göstərdi və indi də göstərir!

Məhz bu birlik, dostluq, qardaşlıq Qarabağın işğaldan azad olunmasının və bu gün yenidən dirçəldilməsinin təməli, əsasıdır!

Şuşa Bəyannaməsi isə tarixi birliyimizin yeni və daha yüksək mərhələsinə keçidinin həm də rəsmən təsdiqlənməsidir!

❖❖❖

Əslində, Şuşa Bəyannaməsi indiyədək iki qardaş ölkə arasında mövcud olan və hamıya bəlli məsələlərin bir daha ucadan söylənilməsidir:

* Azərbaycana qarşı hər hansı hədə, təhlükə və ya təcavüz törətmək istəyənlər öz qarşılarında həm də Türkiyəni görəcəklər;

* Türkiyə ordu quruculuğunda daim Azərbaycana dəstək olacaq, əsgər, zabit və hərbi mütəxəssislərin hazırlanmasında yaxından kömək edəcək;

* Hər iki dövlətin hərbi sənaye kompleksi birgə fəaliyyət göstərəcək, Türkiyənin ən müasir silahları ölkəmiz üçün əlçatan olacaq;

* Hərbin bütün sahələrində - məsləhətləşmələrdən tutmuş təcavüzə qarşı birgə müdafiəyədək hər iki qardaş dövlət daim bir-birinin yanında olacaq, birgə fəaliyyət göstərəcəkdir.

Bütün bunlardan öncə Şuşa Bəyannaməsi, əslində, həm də sülh bəyannaməsidir, sülhsevər bəyannamədir:

O, bölgədəki 6 dövləti Cənubi Qafqazın bütün imkanlarından bərabər şəkildə bəhrələnməyə çağırır və buna şərait yaradır!

Bölgədə təhlükə mənbəyi rolunu oynayan, işğalçı dövlət Ermənistanı əməkdaşlığa dəvət edir, qisasçılıqdan uzaq durmağa, öz dövlətinin və xalqının gələcək inkişafı üçün Zəngəzur dəhlizindən bəhrələnməyə səsləyir!

Hətta qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan açıq şəkildə bildirdi ki, Ermənistanın Azərbaycanla sülh müqaviləsi bağlayacağı təqdirdə Türkiyə dövləti sərhədlərin açılması məsələsinə yenidən baxa bilər, Ermənistan blokadadan qurtular;

Bütövlükdə Şuşa Bəyannaməsi prinsipcə bölgədə sülhün təmininə, Zəngəzur dəhlizinin açılmasına töhfələr verməklə yeni nəqliyyat dəhlizindən yararlanacaq bütün dövlətlərə təhlükəsiz və səmərəli əməkdaşlıq şəraiti də yaradır!

Şuşa Bəyannaməsi əməlcə və mahiyyətcə sülh bəyannaməsidir!

Bu sənəd Cənubi Qafqaz regionuna sülh, əmin-amanlıq və əməkdaşlıq təklif edir.

Həm də onun yolunu, imkanlarını göstərir.

Sənədin arxasında iqtisadi imkanlar, nəhəng layihələr, eyni zamanda, hərbi güc də dayanır!

Azərbaycan, Türkiyə və Rusiya Cənubi Qafqazda sülhün və əməkdaşlığın bərqərar olunmasında maraqlıdır.

Bunu dəfələrlə bəyan etmiş və müxtəlif sənədləri imzalamaqla xoş niyyətlərini ortaya qoymuşlar.

İran və Gürcüstan da bölgənin nəqliyyat və logistika imkanlarından bəhrələnməyin tərəfdarıdırlar.

Nala-mıxa döyən isə təkcə Ermənistandır!

Üçtərəfli Bəyanatı imzalasalar da, qisasçılıqdan əl çəkmədiklərini, sərsəm xülyaları başlarından çıxarmadıqlarını müxtəlif formada səsləndirirlər.

Seçim yenə də Ermənistanındır!

Sülh və əməkdaşlıq, yoxsa dəmir yumruq!

Altılıqda olmaq, yoxsa çoxluğa qarşı çıxmaq!

"Böyük Ermənistan" söyləyərək kiçik Ermənistanı da itirmək, yoxsa dilənçi və məhv olmuş vəziyyətdən qurtulmaq!

Şuşa Bəyannaməsi həm də Ermənistanın qurtuluşu üçün sonuncu şansdır!

***22 iyun 2021-ci il***

# İndi şərti diktə edən İLHAM ƏLİYEVDİR!

Ulu Öndər Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşması ilə "Dağlıq Qarabağ problemi"nin yenidən ortaya atılmasının arası cəmi bir həftə çəkdi.

Əvvəla, ermənilər yaxşı bilirdilər ki, Heydər Əliyevin Siyasi Büronun üzvü və SSRİ-nin rəhbərlərindən biri olduğu müddətdə heç zaman bu məsələni müzakirəyə çıxara və müsbət həll edə bilməzlər.

Digər tərəfdən isə, Azərbaycanın taleyüklü məqamlarında ermənilər ölkəmizdən torpaq qoparmağa vərdiş etmişdilər.

Bu, 1918-ci ildə, Azərbaycan ilk dəfə dövlət müstəqilliyi qazanan zaman da belə olmuşdu.

Ulu Öndərimizin böyük siyasətdən müvəqqəti ayrılması ermənilərin əlinə yeni fürsət verdi.

Onlar həm də irəlicədən satqın Qorbaçovun və arvadının simasında məsələnin öz xeyirlərinə həll olunacağına razılıq da almışdılar.

Və bu razılığı mətbuat vasitəsilə ictimaiyyətə Qorbaçovun yaxın ətrafı sayılan akademik Aqanbekyan və müşavir Şahnazarov bəyan etmişdi.

Bundan sonra SSRİ rəhbərliyinin dəstəyi ilə müxtəlif "erməni oyunlarına" start verildi.

Əvvəlcə keçmiş DQMV-də yaşayan ermənilər "iqtisadi cəhətdən geri qaldıqları, pis yaşadıqları" barədə donquldanmağa başladılar.

Sonra Ermənistandan gələn "saqqallılar" onlara qoşuldular.

Beləliklə, əvvəlcə tətillərə, etiraz mitinqlərinə başlanıldı, daha sonra isə "krunk" təşkilatı vasitəsilə Ermənistana birləşmək barədə tələblər irəli sürüldü.

Keçmiş DQMV-nin partiya-sovet orqanları rəhbərlərinin mitinqlərdə iştirakı, sonralar təşkilatçılığı və separatçı çıxışları deyilənlərin doğruluğunu, yəni bu isə Moskvanın "xeyir-dua" ("dobro") verdiyini təsdiqlədi.

Xocalı soyqırımında 366-cı sovet alayının iştirakı isə mərkəzin ermənilərə bütün formada dəstəyinin təsdiqinə çevrildi!

Azərbaycan isə həmin dövrlərdə həqiqi rəhbərindən - Ulu Öndər Heydər Əliyevdən ayrı düşdüyündən maymaqların, qorxaqların və səriştəsizlərin əlində qalmışdı.

Nə dünyada və SSRİ məkanında gedən proseslərdən baş çıxaran, nə hadisələri təhlil edərək qabaqlamağı bacaran, nə torpaqların müdafiəsini təşkil edən, nə də ordu yaratmaq barədə düşünən vardı!

Ermənilər isə hər şeyə irəlicədən hazırlaşmışdılar və ardıcıllıqla öz planlarını həyata keçirirdilər.

❖❖❖

Torpaqlarımız işğal edilənə, beynəlxalq qurum və təşkilatlara üzv olaraq onlara işimiz düşənə qədər elə bilirdik ki, dünyada haqq və ədalət var!

Elə sanırdıq ki, beynəlxalq hüquq işləyir, hər yerdə ədalətli və obyektiv qərarlar qəbul edilərək dərhal da həyata keçirilir!

Elə bilirdik ki, BMT dünyanın sahibidir, onun bir sözü iki olmur!

Hətta BMT Təhlükəsizlik Şurasının 4 məlum - 822, 853, 874 və 884 nömrəli qətnamələrini çox böyük ümidlə qarşılamışdıq.

Hətta inanırdıq ki, Ermənistan qoşunları həmin qətnamələrdə deyildiyi kimi, "dərhal və qeyd- şərtsiz" Azərbaycan ərazilərindən çıxarılacaqdır!

Deyir, sən öz saydığını say...

❖❖❖

Qarabağ münaqişəsinin həlli ATƏT-in (əvvəlcə ATƏM-in) Minsk qrupuna tapşırılmışdı.

ATƏM-in tarixi 24 mart 1992-ci ildə Helsinkidən başlayır.

1994-cü il dekabrın 5-6-da Budapeştdə keçirilən Zirvə toplantısında həmsədrlik institutu təsis edilmişdi.

1 yanvar 1997-ci ildən isə ATƏT-in Minsk Prosesinə həmsədrlər qismində ABŞ, Rusiya və Fransa başçılıq edirlər.

Qrupun əsas vəzifəsi Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması və Qarabağ probleminin dinc vasitələrlə həllinə nail olmaq kimi müəyyənləşdirilmişdir.

ATƏT arxada qalan otuz illik dövründə söz deyib, söz verib, gedib-gəlib, görüşlər təşkil edib, bəyanatlar verib, vəssalam!

Nə bir qarış torpaq qaytarıb, nə işğalçı ilə işğala məruz qalanı adı ilə çağırıb, nə Ermənistana təzyiq göstərib, sanksiya tətbiq edib, nə də "mən bacarmaram" deyərək yaxasını qırağa çəkib!

Azərbaycan xalqının yaddaşında ATƏT dişsiz, səmərəsiz, mənasız səfərlər edib danışıqlar aparan, əlindən heç nə gəlməyən boş bir qurum kimi qalıb!

Hətta bir neçə lətifənin yaranmasına da səbəb olub...

44 günlük müharibə Azərbaycan xalqının möhtəşəm zəfəri ilə başa çatanda hamı güman edirdi ki, buna sevinənlərdən biri də ATƏT olacaqdır!

Çünki mənasız gediş-gəlişdən, boş danışıqlardan, səmərəsiz görüşlərdən yaxası qurtarırdı.

Amma nədənsə ATƏT sevinmək əvəzinə "işini" davam etdirməkdə israrlı görünür.

Yəqin ki, ATƏT-in ABŞ-dən olan həmsədrlərindən biri Riçard Hoqlandın dediyi kimi, yüksək əməkhaqqı, beşulduz hotellərdə qalmaq, ən yaxşı restoranlarda yemək vərdişini tərgitmək onlar üçün o qədər də asan deyil!

Xoşbəxtlikdən qalib Azərbaycan Ordusu ATƏT-in bu "sevimli missiyasına" da son qoymuş oldu.

❖❖❖

Azərbaycan Prezidenti cənab İlham Əliyev ATƏT-in nəticəsiz "fəaliyyətini", Ermənistanın şıltaqlıqlarını və onun nazı ilə oynayanları yaxşı görür, eyni zamanda, ikili standartların yaratdığı fəsadları da diqqətlə izləyirdi.

Çətin vəziyyətdə yaşayan məcburi köçkünlərin həyat şəraitini yüngülləşdirmək üçün ardıcıl tədbirlər görmək, ölkəni gücləndirmək, beynəlxalq aləmdə səmərəli iş aparmaq, eyni zamanda, torpaqların hərbi yolla azad edilməsi məqsədilə zəruri addımlar atmaq, habelə bir çox məsələləri həll etmək qarşıda duran təxirəsalınmaz məsələlər idi..

Bütün bunlar dayanmadan, yorulmadan, gecə-gündüz bilmədən çalışmağı tələb edirdi!

Cənab İlham Əliyev uğurlu hərbi əməliyyatlar aparmaq, Azərbaycanı qalib dövlətə çevirmək üçün, ilk növbədə, dövləti gücləndirməli idi!

Əslində tarixinin ən qüdrətli Azərbaycanını yaratmalı idi və onu yaratdı!

Belə ki, müstəqil Azərbaycanı:

* İqtisadi cəhətdən gücləndirdi. - Yeni transmilli layihələrə həyat vəsiqəsi verməklə, Azərbaycanı logistika mərkəzinə çevirməklə, Böyük İpək yolunu işə salmaqla, qeyri-neft sektorunu və sahibkarlığı inkişaf etdirməklə;

* Siyasi cəhətdən gücləndirdi. - Azərbaycanı yeni imicdə dünyaya təqdim etməklə, hücum diplomatiyasına keçməklə, beynəlxalq qurum və təşkilatlarda fəal iş aparmaqla, ölkəmizi beynəlxalq siyasi tədbirlərin və idman yarışlarının keçirildiyi məkana çevirməklə, habelə BMT Təhlükəsizlik Şurasına, Türk Dövlətləri Şurasına, Qoşulmama Hərəkatına sədrliyi dövründə gündəliyə aktual, dünyanı düşündürən və narahat edən məsələləri salaraq həllinə şəxsi töhfələrini verməklə;

* Etibarlı dostlarla əməkdaşlığı möhkəmləndirməklə gücləndirdi.

- Avropanın neft və təbii qazla təchizatı zamanı dövlətlər arasında bərabərhüquqlu və qarşılıqlı maraqların təmininə əsaslanan əlaqələr yaratmaqla, ölkənin haqq işini dəstəkləyənlərin sayını artırmaqla, Azərbaycan-Türkiyə dostluğunu ən yüksək səviyyəyə qaldırmaqla, Pakistanı qardaş ölkəyə çevirməklə, COVID-19 pandemiyası dövründə zəif ölkələrə təmənnasız yardımlar göstərməklə;

* Hərbi cəhətdən gücləndirdi.

- Yeni nəsil vətənpərvər gənclər tərbiyələndirməklə, dünyanın öndə gedən hərbi məktəblərində yeni zabit kadrları hazırlamaqla, ordunu ən yeni texnologiyaya əsaslanan müasir silahlarla silahlandırmaqla, zabit və sıravi heyət üzvlərini daim təkmilləşdirmək, hərbi vərdişləri daim yüksəltmək üçün sistemli təlimlər keçirməklə, habelə yüksək peşəkarlığa malik xüsusi təyinatlılar hazırlamaqla;

Bütün bunlardan sonra isə 44 günlük müharibədə Ermənistan ordusunu məhv edərək Azərbaycanı dünyaya qalib dövlət kimi tanıtdı, BMT Təhlükəsizlik Şurasının və ATƏT-in Minsk qrupunun 30 ildə görə bilmədiyi işi, həll edə bilmədiyi məsələni qısa zaman kəsiyində birdəfəlik yoluna qoydu!

❖❖❖

Nə qədər ki Azərbaycan zəif idi, ATƏT-in Minsk qrupuna ehtiyacı vardı.

Hətta ölkəmiz güclənəndən sonra da münaqişənin sülh yolu ilə nizamlamasına çalışırdı və ATƏT-dən bu istiqamətdə konkret iş, əməli kömək gözləyirdi.

ATƏT-in Minsk qrupu isə öz ampluasında idi!

Gəlirdi, gedirdi, danışırdı, görüşlər təşkil edirdi və s.

Hərdən isə müəyyən bəyanatlar, açıqlamalar verirdi.

Hamısı da məzmunca standart olurdu: tərəfləri sülh danışıqlarına davam etdirməyə çağırır, məsələnin yalnız sülh yolu ilə həlli variantının olduğunu söyləyir, masada yeni təkliflərin mövcudluğunu göstərirdi.

Bir sözlə, problemin həllindən, sözdən, bitib-tükənməyən danışıqlardan başqa hər şey vardı.

Son illərdə isə xoşladıqları, tez-tez təkrarladıqları ifadələr də vardı:

* "Münaqişə ərazi bütövlüyü, millətlərin öz müqəddəratını təyin etməsi prinsipi əsasında həllini tapmalıdır. - Amma özləri də bilmirdilər və bizə də göstərmirdilər ki, "ərazi bütövlüyü" ilə "öz müqəddəratını təyinetməni" necə uzlaşdırmaq, hər ikisinə eyni vaxtda necə əməl etmək mümkündür;

* "Azərbaycanla-Ermənistan öz aralarında hansı razılığa gəlsələr, ATƏT də onu dəstəkləyəcək". - Amma heç demirdilər ki, iki düşmən dövlət, həm də oğru

ilə torpağı oğurlanan öz aralarında necə razılığa gələ bilər. Əgər bu mümkün olsaydı, onda ATƏT-in Minsk qrupunu niyə yaradırdılar? Ən nəhayət, razılaşma iki dövlət arasında baş tutacaqsa, onda ATƏT-ə nə ehtiyac və o, niyə bacarıqsızlığını etiraf edərək bir kənara çəkilmir?!

* "Mövcud status-kvo dəyişdirilməlidir". - Bu dəyişikliyi kim etməlidir, hansı yolla həyata keçirilməlidir? Bunları da söyləmirdilər.

* "Hazırda yeni reallıqlar yaranıb və onlar nəzərə alınmalıdır". - Reallıq isə o idi ki, Ermənistan Azərbaycan ərazilərini işğal edib və xoşluqla geri qaytarmaq istəmir. ATƏT və dünya birliyi tərəfindən isə ona nə təzyiq göstərilir, nə də məcburetmə tədbirləri görülür!

Azərbaycan xalqının məşhur misalında deyildiyi kimi: paraya dəymə, bütövü kəsmə - doğra, doyunca ye!

ATƏT-in bu mövqeyi, dişsizliyi, münaqişəni həll etmək niyyətindən uzaqda durması Azərbaycan torpaqlarının otuz ilədək işğalda qalması ilə nəticələndi!

Bu illər ərzində vəhşi Ermənistan işğal ərazilərində daş üstə daş qoymadı!

Hər şeyi dağıtdı, viran qoydu, talan etdi, satdı, sovurdu!

Məqsədi münaqişəni uzadıb soyutmaq, insanların öz yurdlarına qayıtmasını mümkünsüz etmək, sonda isə torpaqları Ermənistana birləşdirmək idi.

Əslində, münaqişənin həllinin otuz il uzanmasının səbəbkarı ATƏT-in Minsk qrupu oldu! Odur ki, torpaqlarımızın viran qoyulmasında, maddi sərvətlərimizin talan olunub tarixi abidələrimizin dağıdılmasında ATƏT dolayısı olsa da, mənəvi məsuliyyət daşıyır.

Anlamaq olmur ki, hansı üzlə onlar yenidən meydana girmək, olmayan münaqişəni "həll etmək", olmayan "Dağlıq Qarabağa" status vermək barədə danışır, acı bağırsaq kimi uzanmış mənasız danışıqlara yenidən başlamaq üçün əldən, ayaqdan gedirlər!

Məgər 30 ildə edə bilmədiyini bir neçə ayda edəcəkdir?

Belə bacarıqlı idinizsə, 30 il nəyi gözləyirdiniz?

Azərbaycan hərbi qüdrəti ilə təkcə sizin yox, BMT-nin də görəcəyi işləri reallaşdırıb!

İndi status-kvo da dəyişib, daha ədalətli və uzunmüddətli, həm də əbədi davam edəcək reallıq yaranıb!

Bunu təkcə ATƏT və Ermənistan deyil, bütün dünya nəzərə almalı və qəbul etməlidir!

Çünki ədalət də budur, beynəlxalq hüquq da budur, hərbi güc də budur, üstəlik Ermənistanın imzaladığı kapitulyasiya aktının maddələri də indiki reallıqla hesablaşmağı tələb edir!

"Dəmir yumruq" isə hazır vəziyyətdə gözləyir!

❖❖❖

Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycana rəhbərlik etdiyi ilk günlərdən bütün məqsəd və niyyətini daim açıq şəkildə və ucadan bəyan edib:

* Azərbaycan öz ərazilərinin işğalda qalması ilə heç zaman barışmayacaqdır!

* Azərbaycan öz ərazilərində ikinci erməni dövlətinin yaradılmasına yol verməyəcəkdir!

* Azərbaycan münaqişəni sülh yolu ilə həll etmək istəyir, əgər bu baş tutmasa, digər vasitələrlə torpaqlarını geri qaytaracaqdır!

Azərbaycan hətta məsələnin sülh yolu ilə həll olunacağı təqdirdə Dağlıq Qarabağdakı erməni əhalisinə müəyyən özünüidarə hüququnu verməyə də hazır idi!

Ancaq Ermənistan razılığa gəlmədi.

Artıq "müstəqil yaşamağa adət etdiklərini" bəhanə gətirərək "müstəqil dövlət", "ayrıcana respublika" olmaq iştahasında idilər.

Aprel müharibəsi də onları ağıla gətirmədi!

"Yeni müharibə və yeni ərazilər" hədəsi ilə bizi qorxutmağa çalışdılar!

Küçədən gəlmiş yeni baş nazirləri Paşinyan isə "Qarabağ Ermənistandır və nöqtə" deməklə sülh danışıqlarına da nöqtə qoydu, könüllü şəkildə torpaqları qaytarmayacaqlarını açıq şəkildə söylədi!

Azərbaycanın başqa yolu qalmadı!

❖❖❖

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin yaratdığı əsl və pozulmaz reallıqlar isə bunlardır:

* Azərbaycan torpaqlarını hərbi yolla azad etdi.

* Rusiyanın Sülhməramlı Qüvvələrinin müvəqqəti yerləşdikləri ərazilərdə isə Azərbaycanın idarəetməsi mərhələlərlə - Rusiya, Azərbaycan və Ermənistan rəhbərlərinin imzaladıqları 10 noyabr 2020-ci il bəyanatına və 11 yanvar 2021-ci il razılaşmasına uyğun şəkildə həyata keçiriləcəkdir!

Müxtəlif ağızlardan hərdən eşidilən "status" məsələsi barədə isə Azərbaycan Prezidenti cənab İlham Əliyev dəfələrlə öz mövqeyini və fikirlərini açıq şəkildə bildirmişdir!

Prezidentimizin sözü ilə əməlinin daim eyni olduğunu xatırladaraq bu barədə dediklərini bir daha diqqətə çəkirik:

* "Artıq mövcud olmayan "qurumun" statusu haqqında danışmağın yeri yoxdur. Çünki məğlub Qarabağ mövcud deyil. Bizim ərazimizdə belə inzibati vahid yoxdur. Bu il iyulun 7-də mən Azərbaycanın iqtisadi zonalarının yeni konfiqurasiyası ilə bağlı fərman imzaladım. Biz iki iqtisadi zona - Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarını yaratdıq və onlar bütün bu ərazini əhatə edir".

* "Mən deyəndə ki, münaqişə həllini tapıb, bu, mənim mövqeyimdir. Mən bu mövqeyi müdafiə edirəm. Mövcud reallıq onu nümayiş etdirir ki, bu, düzgün mövqedir. Münaqişənin həll olunması ilə bağlı istənilən bəyanat yersiz olmaqla yanaşı, təhlükəlidir. Münaqişə həll edilməyib deyənlər göstərsinlər ki, o, necə həll olunmalıdır. "Dağlıq Qarabağ" dedikdə onlar nəyi nəzərdə tuturlar? Hansı sərhədlər çərçivəsində, hansı ərazidə, hansı formada? Həmin sualları cavablandırmaq üçün eyham belə yoxdur. Bu səbəbdən münaqişənin həll edilmədiyini söyləmək qeyri-səmərəli və təhlükəlidir".

* "Dağlıq Qarabağ" adlı inzibati ərazi mövcud deyil və əgər kimsə "Dağlıq Qarabağ" adlı ölünü diriltmək istəyirsə, onu öz ərazisində diriltsin, öz ərazisində "Dağlıq Qarabağ" adlı qurum yaratsın, respublika yaratsın, cəmiyyət yaratsın. Biz də onu tanıyarıq, ancaq Azərbaycanda yox! Bu məsələ öz həllini tapdı. Bunu mən deyirəm - Azərbaycanın Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı. Hər kəs bu sözlərlə hesablaşmalıdır və hesablaşacaqdır".

* "Nə oldu, Paşinyan, yol çəkirdin Cəbrayıla, rəqs edirdin? Nə oldu bəs status? Cəhənnəmə getdi status, gora getdi status, gorbagor oldu status, yoxdur status və olmayacaq".

❖❖❖

Azərbaycan qalib dövlətdir!

Azərbaycanın qalib Sərkərdəsi, nəyi, nə vaxt və necə etməyi hamıdan yaxşı bilən müdrik Prezidenti var!

Adətən, şərti qalib tərəf diktə edir!

Bu həm də o deməkdir ki, özü istəməsə, qalibə heç nəyi qəbul etdirə bilməzsən!

Müzəffər Ali Baş Komandan İlham Əliyevə hətta Azərbaycanın zəif olduğu dövrlərdə belə milli maraqlarımıza uyğun gəlməyən nəyisə qəbul etdirmək mümkün olmayıb!

Qoy hamı bilsin, eşitməyənlər də eşitsin!

Bu gün şərtləri qalib Azərbaycanın qalib rəhbəri İlham Əliyev diktə edir!

Dedisə, edəcəkdir!

Artıq statusu lazım bildiyi yerə göndərib!

Zəngəzur dəhlizi də açılacaq və işləyəcəkdir!

Ermənistan bunu nə qədər tez, həm də "dəmir yumruq"suz etsə, özü üçün yaxşıdır!

Həm də bir dəfə tərsliyin ona nəyə başa gəldiyini özü hamıdan yaxşı bilir!

Ağıllanmaq vaxtıdır!

Qarabağ Azərbaycandır!

***7 oktyabr 2021-ci il***

# Artan güc
# Qüdrətli ordu
# Dəyişdirilmiş reallıq
# Hərtərəfli hazırlıq
# Dəqiq hədəflər

Görünən odur ki, İlham Əliyev daim öndədir!

Hadisələrin önündədir!

Baş verəcək prosesləri, bir qayda olaraq, həmişə qabaqlayır!

İrəlicədən hər məqamı sezərək nəzərə alır, vaxtında tədbirin görür!

Prezident İlham Əliyevin bir qrup jurnalistin suallarını cavablandırarkən söylədiyi fikirlər, gətirdiyi konkret faktlar bütün bunları bir daha təsdiq etdi.

Son bir neçə ildə dünyada, habelə Azərbaycanda o qədər mürəkkəb, gözlənilməz, proqnozedilməz hadisələr baş verib ki...

Bütün bunları irəlicədən görüb qabaqlayıcı addımlar atmaq hər rəhbərə müyəssər olmayan müdriklik və uzaqgörənlikdir.

Prezident İlham Əliyev bu mürəkkəbliklərdən, gözlənilməzliklərdən, taleyüklü sınaqlardan müstəqil Azərbaycanı uğurla, üstəlik, möhtəşəm qələbə ilə çıxarmağı bacardı.

❖❖❖

XXI əsrdə həm də dünyanın yeni siması müəyyənləşib.

Böyük və qüdrətli dövlətlər daha özlərinin əvvəllər müəyyənləşdirdikləri prinsiplərə əməl etmirlər!

Daha beynəlxalq hüquq işləmir!

Daha imzalanmış beynəlxalq konvensiyalara əməl edən yoxdur!

Daha beynəlxalq qurum və təşkilatlar haqlı dövlətin haqqını, ədaləti müdafiə etmirlər!

Artıq gücün hüququ meydan sulayır!

Bunu bilən, nəzərə alan və güclü olmağı bacaran kiçik dövlətlər də özlərini qorumağı, inkişaf etməyi, öz problemlərini müstəqil surətdə çözməyi, ən nəhayət, söz sahibi olmağı bacarmalıdırlar!

Ərazi bütövlüyünü 44 gün ərzində bərpa etmiş müstəqil Azərbaycan kimi!

Amma buna qədər uzun bir yol getmək, keçilməz maneələri, süni əngəlləri dəf etmək, güclü olduğunu isbata yetirmək də gərək olmuşdu!

Azərbaycan bu gün də güclüdür!

Həm də dünyanın gücdən düşdüyü, COVID-19-un əsirinə çevrildiyi, qapandığı, iqtisadiyyatı tənəzzülə uğradığı, planetin 500 milyon insanının pandemiya səbəbindən yoxsulluq səviyyəsinə düşdüyü bir vaxtda da!

Dediklərimizi rəqəmlər də sübut edir.

Baxın, Ermənistan ordusunu məhv edərək 20 faizlik ərazisinin böyük hissəsini işğalçılardan azad edən, viran qoyulmuş Qarabağda minalardan təmizləmə, bərpa və quruculuq işlərinə başlayan, koronavirusla əlbəyaxa mübarizə aparan Azərbaycan dünyanın çökdüyü bir vaxtda bütün parametrlər üzrə irəliləmişdir:

* iqtisadi artım 5 faizdən yüksəkdir;

* qeyri-neft sektoru 7,2 faiz artıb;

* qeyri-neft sənayesində artım 20 faizə yaxındır;

* ixrac idxalı böyük dərəcədə üstələyib və müsbət saldo 10 milyard dollardır;

* qeyri-neft ixracı 40 faizdən artıqdır;

* valyuta ehtiyatlarımız daha 2,5 milyard dollar çoxalıb;

* ən əsası, manat sabitdir və həm də ölkə əhalisi bundan faydalanır, üstəlik, manata inam böyük dərəcədədir!

Ağır dövrdən inamla çıxan Azərbaycan yeni ilə tarixinin ən böyük büdcəsi ilə (büdcə xərcləri 30 milyard manata çatacaq) qədəm qoyur.

Yenə də cənab İlham Əliyev tərəfindən müəyyənləşdirilən və dəyişməz qalan prinsiplər qüvvədədir:

* köklü iqtisadi islahatlar davamlı olacaqdır;

* sosial sahə daim diqqət mərkəzində saxlanılacaqdır;

* daha bir geniş - 1,5 milyard manatlıq sosial paket həyata keçirilir;

* imkan yarandıqca, əlavə vəsait toplandıqca, onlar da xalqın güzəranının yüksəldilməsinə yönəldiləcəkdir.

Qarabağın cənnətə çevriləcəyi barədə dövlət başçısı İlham Əliyevin vədinə uyğun olaraq işğaldan azad olunmuş ərazilərə böyük vəsait qoyulur:

* minalardan təmizləmə işlərinə;

* yeni yolların çəkilməsinə;

* alternativ elektrik enerjisi istehsalı qurğularının inşasına;

* zəruri infrastruktur yaradılmasına;
* "ağıllı" kənd və qəsəbələrin, şəhərlərin salınmasına;
* yeni iş yerlərinin yaradılmasına;
* bütövlükdə "Böyük qayıdışa" möhtəşəm hazırlıq işlərinə!

Uğurumuzu təmin edən məqamlardan biri də budur ki, bütövləşməyimiz, torpaqları geri qaytarmağımız gücümüzə yeni güc də qatır!

Başqa sözlə, iqtisadi imkanlarımızı genişləndirir:

* faydalı qazıntı yataqlarından özümüz bəhrələnəcəyik;
* dövriyyəyə məhsuldar torpaqlar, yeni əkin sahələri qatılacaqdır;
* suvarma suyuna tələbat daha dolğun ödəniləcəkdir;
* elektrik enerjisi istehsalı artacaq, onun ixrac imkanları genişlənəcəkdir;
* yaylaq və otlaq sahələrinin əsaslı şəkildə genişlənməsi heyvandarlığın inkişafına güclü təkan verəcəkdir;
* bağçılıq, meyvəçilik, əkinçilikdə yeni texnologiyalar, sortlar hesabına məhsuldarlıq xeyli yüksələcəkdir;
* turizmin inkişafı büdcəyə əlavə vəsait və valyuta gətirəcəkdir və s.

İlham Əliyevin rəhbərliyi ilə icrasına başlanan, görüləsi nəzərdə tutulan bütün işlər müstəqil Azərbaycanı daha güclü, daha qüdrətli və daha sözükeçər edəcəkdir.

❖❖❖

Dövlət başçısı kimi fəaliyyətə başladığı ilk gündən cənab İlham Əliyev hərbi quruculuğa xüsusi diqqət ayırıb, gündəlik işinin birinci dərəcəli məsələsi sayıb!

Qarabağ probleminin həllini xalqının ən böyük arzusu, müqəddəs istəyi hesab edib!

Torpaqların işğaldan azad edilməsi uğrunda dayanmadan, gecə-gündüz bilmədən, yorulmadan, həm də bir çox mühüm istiqamətlərdə səmərəli fəaliyyət göstərib:

* hər il dövlət büdcəsində ən böyük xərcləri hərbi quruculuq üçün ayırıb;
* yeni vətənpərvər gənclər nəsli yetişdirib;
* dünyanın tanınmış hərbi məktəblərində zabit kadrları oxutdurub;
* xüsusi təyinatlı qüvvələr hazırlayıb;
* sistemli keçirilən təlimlər sayəsində əsgər və zabitlərin peşəkarlığını yüksəldib;
* ordunu ən müasir silahlarla, taktika və strategiya ilə təmin edib;
* hərbçilər üçün nümunəvi məişət şəraiti yaradıb;

* daim ordu ilə təmasda olub, onları ruhlandırıb, təltif edib, qələbəyə kökləyib!

Bütün bunların bəhrəsini 44 günlük Zəfər müharibəsində gördük!

Həm də təkcə biz yox, bütün dünya gördü və bildi!

Müzəffər Ali Baş Komandan İlham Əliyev Ermənistan ordusunu məhv etdi!

Düşməni qarşısında diz çökdürdü!

Kapitulyasiya aktına imza atdırdı!

Erməni vandallarını torpaqlarımızdan iti qovan kimi qovdu!

Əgər indi Ermənistan revanşizm barədə düşünürsə, kiməsə, yaxud nəyəsə güvənərək Azərbaycandan qisas alacağını zənn edirsə, deməli, həmin dövlətin rəhbərləri də, hərbçiləri də, Qarabağı qaytara biləcəklərini düşünənlərin hamısı axmağın axmağıdır!

❖❖❖

Azərbaycan öz torpaqlarına, Qarabağa güclü iqtisadiyyatı, qüdrətli ordusu və mükəmməl siyasəti ilə qayıdıb!

Bunu bütün dünya görür və bilir!

Hətta düşmənlərimiz də!

Amma dəvədən yıxılanın hələ də "höt-höt" deməsi istehzalı təbəssüm və acı gülüş doğurur...

Azərbaycan Qarabağda dövlət sərhədlərinə çıxıb!

Bütün sərhədboyu - Arazdan Murovadək əsas məntəqələrdə yerləşib!

Nəinki yerləşib, hətta orada xidmət aparmaq üçün müasir infrastruktur da qurub!

Ermənistanla həmsərhəd olan Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı rayonlarının ərazilərində 700 kilometrə yaxın xidməti yol, hərbi yol çəkilib!

Bütün azad edilmiş torpaqlarda bir ildə 7 yarımstansiya inşa olunub, bu yarımstansiyalar ümumi dairəvi şəbəkəyə qoşularaq ərazi tam elektrikləşdirilib.

İsti, rahat və abad hərbi şəhərciklərimizdən ermənilərin çadırdan ibarət acınacaqlı postlarına baxanda onların nə gündə xidmət apardıqlarına şahid olursan.

Əslində, Ermənistan Birinci Qarabağ müharibəsində dinc əhaliyə qarşı vuruşmuşdu, sovet ordusuna arxalanaraq torpaqlarımızı işğal etmişdi!

Xocalı soyqırımını da 366-cı sovet alayının vasitəsilə törətmişdi.

Azərbaycanda ölkəyə qorxaqların və naşıların, şəxsi mənafeyini milli maraqlardan üstün tutanların başçılıq etməsi, vaxtında ordu yaradılmaması və müdafiənin təşkil olunmaması da öz mənfi rolunu oynamışdı.

Qəribədir ki, işğaldan keçən 27 il ərzində faşist xislətli ermənilər, onların rəhbərləri və hərbçiləri özləri özlərini inandırmışdılar ki, onlar "qəhrəman", "məğlubedilməz" xalqdır, Azərbaycan ərazilərini "öz orduları sayəsində" ələ keçiriblər və "öz hesablarına" özgə torpaqlarını işğalda saxlayırlar!

Ermənistanın "milli qəhrəmanı" adını almış erməni general və zabitlərinin sayı-hesabı yox idi.

Hamısının döşü bu gün zibil qutusuna atılan dəmir-dümürlə bəzənmişdi.

O qədər qudurmuşdular ki, artıq bizə hədə-qorxu gəlir, "yeni müharibə, yeni ərazilər" deyərək təhdid edirdilər!

Amma 44 günlük Zəfər müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyev Ermənistan ordusunun necə ordu, müdafiə naziri, general, zabit və əsgərlərinin necə "qəhrəman" olduğunu əyani şəkildə özlərinə və bütün dünyaya nümayiş etdirdi.

Alçaq erməni hələ bu gün də öz hərbçilərinin leşlərini Azərbaycan ərazisindən yığıb qurtarmayıb!

Utanmaz-utanmaz qisasçılıqdan dəm vururlar.

Tez-tez atəşkəsi pozur, itkiyə səbəb olurlar.

Azərbaycan tərəfi isə hər dəfə atəş açılan nöqtəni darmadağın edərək düşmənə ikiqat, üçqat, beşqat artıq tələfat yaşadanda yalvar-yaxara başlayır, rus sülhməramlılarını minnətçi salaraq atışmanı dayandırmağı xahiş edirlər...

Cənab İlham Əliyevin son xəbərdarlığı da qəti və sərtdir: "Onlar başa düşməlidirlər ki, azərbaycanlı hərbi qulluqçunun ölümü heç vaxt onlara bağışlanmayacaq".

Azərbaycan darmadağın edərək zəlil günə saldığı düşmənin hansı hiyləyə, alçaqlığa, şərəfsizliyə qadir olduğunu yaxşı bilir və ordunu hər an ayaqda saxlayaraq daha da gücləndirir.

Dalbadal hərbi təlimlər keçirilir, yeni Komando qüvvələri hazırlanır, daha yeni və müasir silahlar alınır və s.

Cənab İlham Əliyevin daha bir xəbərdarlığını hamı diqqətdə saxlamalıdır: "Biz Ermənistanda həm öz qüvvələri, həm də onların tərəfdaşlarının köməyi ilə bütün hərbi quruculuq cəhdlərini çox diqqətlə izləyirik. Buna görə mən səmimi və açıq demişəm ki, əgər bizim təhlükəsizliyimizə azacıq da olsa təhdid görsək, bu təhdid harada, Ermənistan ərazisinin hansı dərinliyində olsa da, biz onu dərhal, sadəcə, məhv edəcəyik. Bunu hamı, ilk növbədə, Ermənistan rəhbərliyi bilməli və başa düşməlidir".

Ermənistanın bizimlə ayaqlaşma cəhdi, revanşizmdən danışması gülünc və mənasızdır.

Müharibə ən əvvəl iqtisadi imkan və hərbi güc deməkdir!

Burada isə nisbət müqayisəyəgəlməzdir:

* Azərbaycanın 2022-ci il dövlət büdcəsi 15,6 milyard dollardır;

* hərbi büdcəmiz isə 5 milyard dollar təşkil edir;

* Ermənistanın dövlət büdcəsi 3,9 milyard dollardır;

* hərbi büdcəsi isə heç 1 milyard dollara belə çatmır - 687 milyon dollardır.

Dəqiq müqayisə isə belədir:

* Azərbaycanın 2022-ci il dövlət büdcəsi Ermənistanınkından 4 dəfə, hərbi büdcəsi isə 3,7 dəfə çoxdur!

Ordunun döyüş qabiliyyəti, təminat və təchizatı, ruh yüksəkliyi isə müqayisəyəgəlməzdir!

Əgər Ermənistan yenidən müharibə istəsə, II Qarabağ müharibəsindən də betərini görəcəkdir!

Yox, əgər sülh istəyirsə, Azərbaycan onlara sülhün yolunu və şərtlərini də açıq-aydın şəkildə göstərir!

Xatırladaq ki, 27 illik işğal dövründə Azərbaycan daim sülh danışıqlarında iştirak etdi.

Ermənistan qoşunlarının işğal ərazilərindən dinc yolla çıxması müqabilində statusla bağlı hətta müəyyən güzəştə hazır olduğunu da söylədi...

Ermənistan isə bütün bunları Azərbaycan tərəfinin zəifliyi kimi anladı, quduru, barışmaz mövqe nümayiş etdirdi!

Nəticədə Azərbaycan 44 günlük Zəfər müharibəsində Ermənistanı diz çökdürərək kapitulyasiya aktını imzalamağa vadar etdi!

Ermənistan yenidən nala-mıxa döyür, qudurğan mövqe nümayiş etdirir, Azərbaycanın ərazi bütövlüyünü tanıması və qəbulu prosesini müxtəlif bəhanələrlə uzadır.

Sərhədlərin delimitasiya və demarkasiyasından yayınır, hərdən xam xəyallara qapılaraq mövqelərimizi atəşə də tutur.

Bir dəfə sülhə razılıq vermədi, ağır nəticələrini gördü!

Yenə də Azərbaycanın sülh təklifini eşitmək istəmir!

Amma unutmasın ki, budəfəki peşmançılığı daha ağır və şiddətli olacaqdır!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin son xəbərdarlıqları da bu haqdadır:

* "Ermənistan bizim qabağımızda heç vaxt dayana bilməz... Bizi heç nə dayandıra bilməz. Bizi dayandıran yeganə amil odur ki, biz müharibə istəmirik".

* "Bizim xoşniyyətli davranışımız şərt deyil ki, əbədi olacaq və şərt deyil ki, bu təkliflər əbədi masa üzərində qalacaq. Əgər bizim ərazi bütövlüyümüzü tanımaq istəmirlərsə, o zaman biz də onların ərazi bütövlüyünü tanımayacağıq".

❖❖❖

ATƏT-in Minsk qrupunun ötən illərdə oxuduğu bayatılardan biri bu idi ki, "bölgədə yeni reallıq yaranıb və Azərbaycan bunu nəzərə almalıdır!"

"Dəmir yumruğ"un qüdrəti ilə Azərbaycan həmin reallığı darmadağın etdi və özünün yeni reallığını, beynəlxalq hüquqa və gücə arxalanan reallığını yaratdı!

ATƏT-in Minsk qrupu gec də olsa, deyəsən, yeni reallığın dərkinə başlayıb.

Həm də Azərbaycan daha elə ölkələrdən deyil ki, onun mənafelərinə kimsə barmaqarası baxsın.

Artıq BMT, Qoşulmama Hərəkatı, ATƏT, Avropa İttifaqı, MDB bizim yaratdığımız reallıqları qəbul edib!

Amma hər şey başa çatandan sonra!

Sadəcə, ATƏT-in Minsk qrupu yeni mərhələdə nə ilə məşğul olacağını dəqiq müəyyənləşdirməlidir.

Dağlıq Qarabağ münaqişəsi ilə məşğul olmamalıdır!

Azərbaycan rəhbəri münaqişəni onların yerinə müzəffər ordusu ilə bir yerdə həll edib!

Hətta belə bir niyyətə düşsələr belə, Prezident İlham Əliyev buna yol verməyəcəkdir!

Daha lətifələrə səbəb olan mənasız gediş-gəlişə, dişsiz fəaliyyətə, qəbuledilməz təkliflərin hazırlanmasına hacət yoxdur!

Cənab İlham Əliyev ATƏT-in Minsk qrupunun əldən-ayaqdan gedəcəyi təqdirdə yeni sülh prosesinə hansı formada kömək edə biləcəklərini də dəqiqləşdirdi: "Birincisi, bu qrupun nə dərəcədə həyat qabiliyyətli olması aydınlaşdırılmalıdır. İkincisi, onlar nə ilə məşğul olmağı planlaşdırdıqlarını əks etdirən gündəlik təqdim etməlidir, özü də gündəlik onların üçünün arasında razılaşdırılmalıdır. Daha sonra Azərbaycan və erməni tərəfi buna öz münasibətini bildirməlidir. Hələlik bu iki ilk bənd yoxdur. Buna görə də prinsip etibarilə danışmaq üçün mövqe yoxdur".

Bundan daha aydın, dəqiq və konkret söyləmək mümkün deyil!

❖❖❖

Ermənistanın kaputilyasiya aktına qol çəkdikdən sonra müxtəlif bəhanələrlə yayınmaq istədiyi məsələlərdən biri Zəngəzur dəhlizinin açılmasıdır.

Paşinyan gah müxalifətdən qorxduğunu bəhanə gətirir, beləliklə, zaman udmağa çalışır, gah da Zəngəzurdan dəhliz yox, yol açılacağını söyləyir və s.

Sözünün sahibi olan Prezident İlham Əliyev isə lap əvvəldən məsələni açıq və kəskin qoyub:

- Ermənistan istəsə də, istəməsə də Zəngəzur dəhlizi olacaq və işləyəcək!

Əslində, Zəngəzur dəhlizi hamıdan çox blokadada olan Ermənistana gərəkdir.

Azərbaycan da Naxçıvan və Türkiyə ilə birbaşa quru yolunun mövcudluğunda maraqlıdır və bunu gizlətmir.

Türkiyə isə bu qısa yolla Orta Asiyaya çıxmaq niyyətindədir.

Ermənistanda hərbi bazası olan Rusiyanın da dəmir yolu ilə ucuz başa gələn daşımalara marağı var.

Bütövlükdə region dövlətləri Zəngəzur dəhlizini istəyirlər və bu istiqamətdə müxtəlif formatlı əməkdaşlıq barədə düşünürlər.

Məğlub dövlətin qalib ölkə qarşısında duruş gətirməsi və regionun güclü dövlətlərinin istəyi ilə hesablaşmaması ağlasığmazdır.

Cənab İlham Əliyevin diplomatik uzaqgörənliyi nəticəsində dünya leksikonuna "Zəngəzur dəhlizi" kimi düşən bu ticarət və əməkdaşlıq yolu vaxtilə Azərbaycana məxsus olub və sovet dövründə işləyib.

Dövlət başçısı İlham Əliyev bu dəhlizdən təkcə qatarların və avtomobillərin deyil, təbii qaz nəqli kəmərlərinin və elektrik xətlərinin də keçəcəyini nəzərdə tutur.

Deməli, gec-tez belə də olacaqdır!

Artıq Zəngəzur üzərindən hava yolu işləyir, təyyarələr gedib gəlir!

Həm də Ermənistana deyilmədən, ondan (bir az böyük çıxmasın) icazə alınmadan.

Çünki bu, beynəlxalq dəhlizdir və dünya aviasiyasının mövcud qaydalarına uyğundur.

Zəngəzur dəhlizinin reallaşması artıq həll olunmuş məsələdir.

Ona mane olmağa məğlub və gözdəndüşmüş Ermənistanın gücü çatmaz.

Cənubi Qafqazın ən güclü dövləti və söz sahibi uzun müddətdir ki, Azərbaycandır!

❖❖❖

Prezident İlham Əliyevin yaxın və uzaq hədəfləri çoxdur və onların hər birinin reallaşdırılacağı kimsədə zərrə qədər də şübhə doğurmur!

Bu gün müstəqil Azərbaycan Avropanın xam neft və təbii qazla təchizatında etibarlı tərəfdaş sayılır.

Okeana çıxış olmayan bir ölkə logistika mərkəzinə çevrilib.

"Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri fəaliyyətə başlayıb və getdikcə öz səmərəliliyini daha çox isbata yetirir.

Azərbaycan dünya türk birliyinin yaranmasında mühüm rol oynayan ölkələrdəndir.

Prezident İlham Əliyev Qoşulmama Hərəkatına rəhbərliyi dövründə bu qurumun nüfuzunu və imkanlarını daha da artırdı, şəxsi təşəbbüsləri, ədalətli və cəsarətli mövqeyi ilə dünya dövlətlərinin xalqlarının dərin hörmətini qazandı, "vaksin millətçiliyinin"mövcudluğunun qəbuledilməzliyini açıq şəkildə bəyan etdi, kəskin etirazını bildirdi.

Azərbaycan dünyanın və bir sıra ölkələrin pandemiyadan əziyyət və zərər çəkdiyi bir dövrdə onlara dayaq oldu, dəfələrlə real kömək və yardımlar göstərdi.

Avropa İttifaqı ilə hər iki tərəfin maraqları təmin olunan sazişin imzalanacağı vaxt da uzaqda deyil, sənədin 90-92 faizi razılaşdırılıb.

Həm də bu əlaqələrin çoxtərəfli və ən müxtəlif sahələri əhatə edəcəyi gözlənilir.

Ancaq prinsipial məsələlərdə geri çəkilmək, milli maraqların təminində cüzi də olsa güzəştə getmək söhbəti mümkün deyil!

İkili standartlar isə yenə də mövcuddur, dövlətimiz heç zaman belə yanaşmalarla razılaşmayıb və yenə də razılaşmayacaqdır.

❖❖❖

Müasir dünya sürprizlərlə doludur və artıq qəribəliklərə təəccüblənməməyə alışmalıyıq!

Kimin ağlına gələrdi ki, COVID-19 adlı bir pandemiya bütün dünyanı caynağına alacaq, milyonlarla insanın həyatına son qoyacaq, dövlətləri qapanmağa, sərhədlərini bağlamağa sövq edəcək, iqtisadi inkişafı ləngidəcək və digər ciddi fəsadlar törədəcəkdir.

Kim düşünərdi ki, özünü dünya demokratiyasının ağsaqqalı və qurucusu hesab edən ABŞ-də seçkilərdən sonra narazı elektorat Kapitoliyə hücum edəcək, bir neçə insan öldürüləcək, yaralanacaqdır.

Azərbaycan 44 günlük Vətən müharibəsində Ermənistan ordusunu məhv edərək düşməni diz çökdürəcək, 27 illik işğala göz qırpımında son qoyacaq, təslim sənədini imzalatdıracaqdır.

Artıq bunların hamısı hamının gördüyü, bildiyi və qəbul etdiyi reallıqlardır.

Prezident İlham Əliyevin dahiyanə uzaqgörənliyini sübut edən bir fikrinə də diqqət çəkirik: "Mən öz çıxışlarımda dəfələrlə deyirdim ki, indi güc amili ön plana çıxır və biz buna hazır olmalıyıq. Deyirdim ki, bu, bizim seçimimiz deyil. Biz hər zaman beynəlxalq hüququn aliliyini müdafiə edirdik və ümid edirdik ki, bu, bizim məsələmizin həllinə, bizə köməklik göstərəcək. Amma görürük ki, bu yoxdur, bu işləmir".

Bəli, Azərbaycan hüququn gücü ilə həll olunmayan problemini ordusunun və iqtisadiyyatının gücü ilə daha tez və əhatəli həll etdi!

Çünki dövlət vaxtında bu vəziyyətə hazırlaşmışdı!

Həm də ciddi və hərtərəfli!

Və müdrik rəhbərimiz İlham Əliyev digər zəruri hazırlıqlarını da davam etdirir.

Cənab İlham Əliyevdən daha bir sitat: "Bu gün Azərbaycan beynəlxalq aləmin məsuliyyətli üzvü kimi və Qoşulmama Hərəkatının Sədri kimi, əlbəttə, bundan sonra da beynəlxalq hüququn aliliyini müdafiə edəcək. Biz dünya təsisatlarının - BMT və İkinci Dünya müharibəsindən sonra yaradılmış digər təsisatların fəaliyyətində fəal iştirak edəcəyik, bu imkanlardan bu gün daha rahat istifadə edəcəyik. Çünki artıq biz Qarabağ problemi kimi ağır yükü çiynimizdən atdıq və hesab edirəm ki, yeni dünya düzənində də təşəbbüs göstərən ölkələrdən biri olacağıq. Çünki de-fakto bu, artıq baş verib və biz bu de-fakto vəziyyətə tam hazırıq, bütün daxili resurslarla hazırıq".

Dünyada, habelə Cənubi Qafqazda yaranmış yeni vəziyyəti və mövcud reallıqları Ermənistan və onun havadarları da bilməli və qəbul etməlidirlər.

Belədə hər kəs sülhə, inkişafa və əməkdaşlığa daha yaxşı xidmət göstərmiş olar!

***18 yanvar 2022-ci il***

# Möhtəşəm fəaliyyətlə qazanılan yüksək nüfuz

*ABŞ Prezidenti Cozef Baydenin məktubu bu nüfuzun bir daha təsdiqidir!*

Dünya miqyasında görünmək, fərqlənmək, tanınmaq və yüksək nüfuz qazanmaq o qədər də asan məsələ deyil!

Xüsusən də mahir siyasətçi və uzaqgörən dövlət başçısı kimi!

Yenicə dövlət müstəqilliyi qazanan nisbətən kiçik ölkələrin rəhbərlərinin isə nüfuz sahibinə çevrilməsi daha çox zaman tələb edən mürəkkəb prosesdir!

Böyük, əsrlərlə ölçülən demokratiya təcrübəsinə və tarixinə malik dövlətlər üçün bu, elə də problem sayılmır.

Çünki dövlətin keçmişdə qazandığı imic, iqtisadi, hərbi güc, beynəlxalq qurum və təşkilatlardakı sabitləşmiş yer və mövqe dövlət başçısının nüfuzuna əlavə dividendlər gətirir.

"Cavan" dövlətlər isə bütün bunlardan məhrumdurlar və həmin vəzifələri özləri yerinə yetirərək, zəruri işləri şəxsən görməlidirlər!

BELƏ Kİ:

* İqtisadiyyatı qaldırmaq və inkişaf etdirmək;

* Demokratik prinsip və tələbləri bərqərar edərək genişləndirmək, gündəlik həyat tərzinə çevirmək;

* Beynəlxalq qurum və təşkilatların işində yaxından iştirak edərək diqqətçəkən və faydalı təkliflər vermək, təşəbbüslər irəli sürməyi bacarmaq;

* Digər dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı hörmətə və maraqlara əsaslanan münasibətlər qurmaq;

* Dünyada baş verən hadisə və proseslər zamanı düzgün mövqe tutmaqla səhvsiz addımlar atmaq;

* Habelə bir sıra şəxsi keyfiyyətlərə - yüksək diplomatik bacarığa, ünsiyyət qurmaq məharətinə, cəlbedici və maraqlı nitq qabiliyyətinə, müxtəlif dillərdə təmiz danışmaq imkan və istedadına malik olmaq!

Tanrı bütün bu bacarıq və keyfiyyətləri Azərbaycan Prezidenti cənab İlham Əliyevə səxavətlə verib!

İlham Əliyev Heydər Əliyev məktəbində əyani təhsil alan və həmin "universiteti" fərqlənmə diplomu ilə bitirən yeganə "məzun" sayılır!

İlham Əliyev dünyanın ən tanınmış təhsil ocaqlarından biri olan Moskva Beynəlxalq Münasibətlər İnstitutunda nəinki müvəffəqiyyətlə təhsil alaraq oranı fərqlənmə diplomu ilə bitirib, hətta sonradan dərs də deyib.

İlham Əliyev heç bir kağıza və tezisə baxmadan saatlarla, ən maraqlı və gerçək faktlara, rəqəmlərə istinad etməklə parlaq nitqlər söyləyir.

İlham Əliyev saatlarla, dörd dildə danışmaqla dünyanın ən tanınmış KİV-inin, informasiya agentliklərinin, telekanalların müxbirlərinin bütün suallarını xüsusi bacarıq və məharətlə cavablandırır.

İlham Əliyev çaşanlara çox mədəni və etik şəkildə yerini göstərməklə layiq olduqları cavabı verib susdura bilir!

İlham Əliyevin sözü imzası qədər etibarlıdır, dediyini hökmən edəndir!

İlham Əliyevin sevgisi də müqəddəsdir, qəzəbi də!

Biz bütün bu deyilənlərin möhtərəm Prezidentimizin on doqquz illik rəhbərliyi dövründə, 44 günlük Vətən müharibəsində dəfələrlə, dönə-dönə canlı şahidi olmuşuq!

Azərbaycanın dövlət başçısı dünya miqyasında aydın görünən, obyektiv, dəyərli söz sahibi olan, daim qətiyyətli və ədalətli mövqe nümayiş etdirən liderlərdəndir!

O, beynəlxalq tədbirlərə daim dəvət alan, çıxışları və təşəbbüsləri hörmətlə dinlənilərək bəyənilən dövlət rəhbərlərindəndir.

Hazırkı nüfuz və sanbalı təkcə Azərbaycanı qısa müddətdə güclü, sayılıb-seçilən və Cənubi Qafqazın lider dövlətinə çevirməsi ilə deyil, həm də BMT Təhlükəsizlik Şurasının iclaslarına sədrliyi, İslam Əməkdaşlıq Təşkilatına, Qoşulmama Hərəkatına rəhbərliyi dövründə, habelə COVID-19 pandemiyasına qarşı mübarizə zamanı nümayiş etdirdiyi prinsipial, humanist addımlarla bağlıdır.

ABŞ Prezidenti Cozef Baydenin Azərbaycan Prezidentinə ünvanladığı məktubda söylənilən fikirlər, habelə fəaliyyətinə verilən yüksək dəyər əslində cənab İlham Əliyevin uzun illər ərzində həyata keçirdiyi praqmatik siyasətin də etirafı və qiymətləndirilməsidir.

"Əsl siyasət konkret və real iş görməkdən ibarətdir" söyləyən cənab İlham Əliyev dediklərini etmiş, verdiyi vədləri daim həyata keçirmiş, sözü ilə imzasının vəhdət təşkil etdiyini sübuta yetirmişdir!

Azərbaycanın inkişafı və xalqın rifahı naminə gördüyü işlərin, habelə dünyaya verdiyi dəyərli töhfələrin sayı-hesabı isə yoxdur.

Ölkəmizin yüksəlişi və beynəlxalq aləmdə müsbət imic qazanması naminə İlham Əliyevin gördüyü işlərə qısa nəzər salaq:

* Bütün dünya üçün faydalı olan Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars layihələrini əngəlləri dəf edərək və çətinliklərə üstün gələrək reallaşdırmışdır;

* "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərini işə salmış, Azərbaycanı tranzit logistika mərkəzinə çevirmişdir;

* Azərbaycanı terrorizmə qarşı mübarizədə fəallıq göstərən dövlət kimi tanıtmışdır;

* Avropanın enerji təchizatına dəyərli töhfələr verilməsini təmin etmişdir;

* Dünyada idmanın inkişafına Azərbaycanın öz sözünü söyləməsinə nail olmuşdur;

* Beynəlxalq təşkilatlara sədrliyi dövründə daim hamı tərəfindən bəyənilən təşəbbüslər irəli sürmüşdür;

* Ləyaqətli müharibə apararaq, 44 gün ərzində işğal altındakı torpaqları azad edərək Azərbaycanı qalib və qürurlu millət kimi tanıtmışdır;

* Dəfələrlə Ukraynaya humanitar yardımların göndərilməsini təmin etmişdir;

* Bu gün isə Ermənistanla sülh müqaviləsi bağlanılması, Cənubi Qafqazın sülh və əməkdaşlıq regionuna çevrilməsi üçün aydın və konkret mövqe ortaya qoyur!

ABŞ Prezidentinin məktubunda bütün bu məqamlara toxunulmuş, görülən işlərin dəstəkləndiyinə aydın işarələr verilmişdir.

Odur ki, Cozef Baydenin məktubundakı fikirlər hər bir azərbaycanlının qəlbindən xəbər verməklə bərabər, həm də razılıqla qarşılanır!

Məktubda yer alan bir neçə məqama diqqət yetirək:

* "Azərbaycan Avropa və dünya bazarlarının təhlükəsizliyinin təmin olunması və sabitləşdirilməsində önəmli rol oynayır".

* "...Sizin terrorizmə qarşı qlobal mübarizəyə verdiyiniz əhəmiyyətli töhfələrinizi təsdiq edirik".

* "Rusiyanın Ukraynaya qarşı müharibə ilə beynəlxalq təhlükəsizliyin əsas sütunlarını sıradan çıxarmağa çalışdığı bu qlobal qeyri-sabitlik dönəmində Amerika Birləşmiş Ştatları Azərbaycanın müstəqilliyi və suverenliyinə öz dəstəyini bir daha təsdiq edir".

* "Azərbaycanın Ukraynanın suverenliyinə dəstəyi, habelə Ukraynaya göstərdiyi humanitar və enerji sahəsində yardımı vacib ismarış verir".

* "Amerika Birləşmiş Ştatları bütün Qafqaz və trans-Xəzər regionunun çiçəklənməsinə imkan verəcək Azərbaycan ilə Ermənistan arasında diplomatik təmasların intensivləşdirilməsinə və Azərbaycanın iqtisadi, nəqliyyat və insanlararası əlaqələrinin qurulmasına kömək etməyə hazırdır".

* "Biz qarşıdan gələn illər və onilliklərdə münasibətlərimizi daha da dərinləşdirmək arzusundayıq".

❖❖❖

Məktubda yer almış bütün bu fikirlər eyni zamanda:

* Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü müdrik siyasətə verilən yüksək qiymətdir;

* 44 günlük Vətən müharibəsinin nəticələrini bəyənməkdir;

* Azərbaycanın atdığı bütün addımların doğruluğunun təsdiqidir!

* Azərbaycanın irəli sürdüyü beş prinsip əsasında aparılan sülh danışıqlarına dəstəkdir!

* Həm də bədxahlarımıza, araqarışdıranlara verilən ciddi mesajdır!

* Cənubi Qafqazdakı yeni reallıqların etirafı və qəbul edilməsidir!

* ABŞ-nin Azərbaycanla birgə olduğunu göstərən əyani sübutlardır!

Bütövlükdə ABŞ Prezidentinin Azərbaycanın dövlət başçısına göndərdiyi bu məktub Prezident İlham Əliyevin beynəlxalq miqyasda gördüyü işlərin ən yüksək formada və açıq şəkildə bəyənilməsi, dəstəklənməsidir!

Dostlar sevinsin, düşmənlər...

***24 may 2022-ci il***

## Köhnə bayatılar köməyə gəlmir

*İndi sülhyaratma prosesini İlham Əliyev idarə edir*

Əsrlər boyu ermənilər qulluq göstərdikləri ağalarına sonda xəyanət ediblər!

Çünki xəyanətkarlıq bu millətin xislətindədir!

Əsrlər boyudur ermənilər "soyqırımı"na uğradıqlarını söyləyərək yalançı göz yaşları axıdıblar...

Amma arxivlərə girməyə qorxublar! Çünki bilirlər ki, arxivdəki sənədlər onların yalanlarını və saxtakarlıqlarını ifşa edəcəkdir!

Əsrlər boyudur ki, ermənilər havadarlarına, müdafiəçilərinə güvənərək Azərbaycan torpaqlarını ələ keçirməklə özlərinə dövlət yaradır, ərazilərini genişləndirirlər.

Bunun da bir sonu olmalı idi! Çünki Azərbaycan həmişə zəif, sahibsiz və müdafiəsiz qalmayacaqdı!

Artıq qədim əyyam da, köhnə dövran da dəyişib!

Azərbaycan nə ordusuzdur, nə də müdafiəsiz!

Bu gün müstəqil Azərbaycana İlham Əliyev kimi mahir diplomat, uzaqgörən, qətiyyətli və prinsipial dövlət xadimi, qəhrəman sərkərdə rəhbərlik edir!

Amma göründüyü kimi, hər şey dəyişsə də, nə erməni, nə onun havadarları, nə də bu xalqın xisləti dəyişib!

Yenə öz ampluasındadır...

Ancaq daha əməlləri keçmişdəki kimi işləmir, hiylələri keçmir, niyyətləri baş tutmur!

Necə deyərlər, daş qayaya rast gəlib!

❖❖❖

Ermənilər həmişə özlərini fağır göstəriblər...

Məzlum göstəriblər...

Zavallı göstəriblər...

Lakin bu fağırlığın, məzlumluğun, zavallılığın arxasında daima bir hiylə də dayanıb!

Erməni hiyləgərliyi!

Bu hiyləgərliyi gündəlik siyasətə isə erməni diasporu çevirib!

"Böyük Ermənistan" yaratmaq üçün daim bütün ermənilərdən pul yığan, illər boyu ianələr hesabına böyük vəsait toplayan erməni diasporu!

Diaspor yığılan pullardan özü də çox yaxşı bəhrələnib!

Əvvəlcə toplanan məbləğdən öz payını götürüb!

Sonra diasporun mövcud olduğu (xüsusən güclü olduğu) ölkələrdə həmin puldan yerli siyasətçiləri, senat, konqres və dumadakı deputatları, Avropa İttifaqı və Avropa Şurası Parlament Assambleyasındakı deputatları, yüksək çinli məmurları ələ almaq üçün yüksək məbləğ ayırıb.

Yerdə qalan qismi Ermənistana göndərilib.

Ermənistana gələn məbləğdən isə bu ideyaya ("Böyük Ermənistan" ideyasına) xidmət edənlər əvvəlcə öz paylarını götürmüş, sonra isə avam xalqın baş verən yeyintilərindən xəbər tutmaması üçün xırda-para tədbirlərlə oğurluqlarını pərdələmişlər.

Məhz bu hesaba Ermənistanın keçmiş prezidentləri Koçaryan, Sərkisyan, indi isə qondarma "dqr"in "prezidenti" Arutunyan milyarder olublar.

Halbuki "prezident" olana qədər acından köpük qusurdular!

Erməni xalqına çatan real pay isə yoxsulluq, dilənçi həyatı yaşamaq, işğalçı müharibədə öldürülən oğullarının tabutları olub!

Bu mexanizm hələ də işləyir!

Birinci Qarabağ müharibəsində toplama-mənimsəmə mexanizmi yüksək effekt vermişdi!

Göz yaşı tökən "zavallı millət" əvvəlcə sovet xalqını keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayanların "ağır iqtisadi durumda" olduqlarına inandırmışdı...

Sonra dünyanın hər yerinə Azərbaycanda yaşayan ermənilərin hüquqlarının pozulduğu, sıxışdırıldıqları barədə rəvayətlər yaymışdı.

Naxçıvanda dəmir yolunun bağlanması, Ermənistanın blokadaya salınması haqqında nağıla isə ABŞ Konqresində güclü reaksiya verildi!

Naxçıvandan xəbərsiz, Azərbaycanın özünü yox, hətta xəritəsini belə görməyənlər, dəmir yolunun əvvəlcə Ermənistan ərazisindən keçdiyini, sonra Naxçıvana çatdığını bilməyənlər "Azadlığı Müdafiə Aktı"na 907-ci düzəlişi qəbul etdilər!

Beləliklə, ABŞ-nin Azərbaycana birbaşa yardımına veto qoyulmuş oldu.

Sumqayıt hadisələrini SSRİ DTK-sının köməyi və əli ilə təşkil edənlər hadisədən bir neçə saat sonra bütün dünyaya Azərbaycandakı ermənilərə divan tutulduğu barədə şəkillər, videoçəkilişlər və informasiyalar yaydılar.

Bunları çəkən "operator"ların, hadisələrin baş vermə anında foto və video müxbirlərin Sumqayıtda haradan, necə peyda olduğunu kimsə soruşmadı...

Hətta hadisələrin önündə gedən erməni Qriqoryanın məhkəmədə sübut olunmuş qəddarlıq cinayətləri, onun uzunmüddətli həbs cəzasına məhkum olunduqdan sonra türmədən necə və nə səbəblə azad edilərək Moskva vilayətində rahat ömür sürməsi də kimsədə şübhə yaratmadı.

Çünki bu hadisələri törədənlərin üzündə məzlumluq, fağırlıq, zavallılıq maskası vardı!

Arxada isə erməni diasporunun pulları və satılmışların dəstəyi həlledici rol oynayırdı.

Ötən əsrin 90-cı illərinin əvvəllərində, SSRİ-nin dağılan, ermənipərəst Qorbaçovun super dövlətin rəhbəri olduğu vaxtlarda Azərbaycan dövləti erməni məkrinə üstün gəlmək gücündə deyildi!

Çünki həmin dövrdə ölkə rəhbərliyinin kürsüsündə Moskvaya mütilik göstərənlər oturmuşdular!

Meydan hərəkatının dalğaları üzərində iqtidara gələn AXC - Müsavat cütlüyünün başbilənləri isə dövlət idarəçiliyində naşı, siyasətdən bixəbər adamlar idi.

Onlar səriştəsiz, köntöy, yekəxana əməlləri ilə, əslində, ermənilərin dəyirmanına su tökürdülər:

* gah Azərbaycanda olan "atom bombası"ndan istifadə edəcəkləri;
* gah Yakutiyaya bayraq sancacaqları;
* gah da Rusiyanın Azərbaycandakı səfirinin başına "güllə çaxacaqlarını" bəyan edirdilər.

Əslində, dövlət rəsmilərinin gülüş doğuran belə açıqlamaları təkcə Azərbaycan haqqında mənfi fikirlər formalaşdırmır, üstəlik, ermənilərin Qarabağda törətdikləri vəhşilikləri, soyqırımlarını pərdələmələrinə, həm də bizim "vəhşi", "qaniçən" olmağımız barədə erməni şayiələrinin möhkəmlənməsinə xidmət edirdi!

❖❖❖

İkinci Qarabağ müharibəsindən sonra Müzəffər Ali Baş Komandan İlham Əliyevin atdığı uğurlu addımlar, gördüyü işlər, yeritdiyi müdrik və uzaqgörən siyasət sayəsində erməni hiyləgərliyi ifşa olundu, erməni vəhşiliyi, barbarlığı bütün dünyaya tam çılpaqlığı ilə nümayiş etdirildi.

Azərbaycan dünyanın hər yerindən jurnalistləri, bloqçuları, siyasətçiləri, din adamlarını, beynəlxalq təşkilatların nümayəndələrini, tanınmış televiziya kanallarının, informasiya agentliklərinin müxbirlərini ölkəyə gətirərək ermənilərin Qarabağda törətdikləri vəhşilikləri hamıya göstərdi.

Azərbaycana gələnlər Qafqazın Xirosiması, ruhlar şəhəri Ağdamı, yerlə yeksan olunmuş, soyularaq dağıdılmış, viran qoyulmuş küllü Qarabağı gözləri ilə gördülər!

İnsanlar gördüklərinə, şahidi olduqlarına daha çox inanırlar və heç zaman unutmurlar!

Dünyanın hər yerindən gələnlər Qarabağda daş üstə daş qalmadığının, meşələrin, bağların qırılaraq məhv edildiyinin, qəbiristanlıqların dağıdıldıqlarının, məscidlərin uçurulduğunun və içərisində donuz, inək saxlanıldığının şahidi oldular!

Həm də "məzlum", "fağır", "zavallı" ermənilərin əsl simalarından, hansı vəhşilikləri törətmək "qabiliyyətlərindən" şəxsən xəbər tutdular.

Necə deyərlər, kor olmuş dünyanın gözləri açıldı!

Bütün bunları Prezident İlham Əliyev etdi!

Əvvəlcə, 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm zəfər ilə!

Çünki bu qələbə olmasaydı, adamları Qarabağa aparmaq, dağıntı və vandallığı onlara göstərmək mümkün olmazdı!

Sonra isə erməni riyakarlığını, erməni həyasızlığını, erməni hiyləgərliyini addımbaşı konkret faktlar və hadisələr əsasında ifşa etməklə!

Ən əsası isə "dəmir yumruğ"u ilə əsl həqiqətləri meydana çıxarıb faş etməklə!

❖❖❖

Erməni fitnəsi, erməni hiyləsi, erməni həyasızlığı bu gün də davam edir!

Mahiyyətində isə revanşist niyyətlər, 10 noyabr 2020-ci il, 11 fevral 2021-ci il və 26 oktyabr 2021-ci il bəyanatlarında, təslimçilik aktında üzərlərinə götürdükləri öhdəliklərə əməl etməmək niyyəti durur!

Erməni həmişə kimə xidmət edibsə, nökərçilik göstəribsə, sonda onu keçi qiymətinə satıb!

Bu xalq üçün müqəddəs heç nə yoxdur!

Hətta ibadət etdikləri kilsələr də özlərininki deyil, oğurluqdur!

Xeyir gördüklərinin, fayda gördüklərinin daim kölgəsinə çevriliblər.

Quyruqları qapı arasında qalanda, ağaları daha onlara sərf etməyəndə isə başqa ağa axtarıblar!

Bu gün Paşinyan gah Moskvaya yaltaqlanır, gah da Kremlin dalınca danışır, Rusiyanı etibarsızlıqda ittiham edir!

Gah da Qərbə yarınır, hərdən ATƏT-in Minsk qrupunun xortlamasından bəhs edir, qərbin üzünə gülərək onun vasitəsilə istəyinə çatmağa çalışır.

Özündən olsa, hiyləgər açıqlamalar, bir-birinə zidd bəyanatlar verməklə kapitulyasiya aktında üzərinə götürdüyü öhdəliklərdən qaçmağa çalışır!

Amma xeyri yoxdur!

Nə ona inanan var, nə də onu ciddi siyasətçi, sabit mövqeyi olan dövlət başçısı kimi tanıyan!

Azərbaycan da ötən əsrin 90-cı illərindəki dövlət deyil!

İlham Əliyev müstəqil Azərbaycanı iqtisadi cəhətdən gücləndirmiş, siyasi nüfuzunu ən yüksək səviyyəyə qaldırmış, beynəlxalq təşkilatlarda sözü eşidilən, mövqeyi müdafiə olunan dövlətə çevirmiş, qüdrətli ordu yaratmış, Azərbaycan xalqını qalib xalq, məğrur millət etmişdir!

Azərbaycanın rəhbəri dünyada sözü ilə işi, imzası ilə əməli bir olan prinsipial, qətiyyətli dövlət xadimi kimi tanınır!

Hamı bilir ki, İlham Əliyev dedisə, edəcəkdir!

Baxın, Ermənistan Zəngəzur dəhlizini dəbbələyir, yeni Laçın yolunun özünə aid hissəsini çəkməyərək Laçın rayonunu boşaltmaq istəmir, vaxtaşırı atəşkəsi pozmaqla "münaqişənin bitmədiyi" rəyini yaratmağa çalışır, statusdan, "Qarabağın özünümüdafiə qoşunu"ndan danışır.

İlham Əliyev bir neçə dəfə xəbərdarlıq etdi!

Nəticəsi olmadı!  Əksinə, düşmən ordumuzun gənc əsgərini qətlə yetirdi!

Müzəffər Ali Baş Komandanımızın "Qisas" əməliyyatı özünü çox gözlətmədi!

Komandolarımızın və "Bayraqdar"ın birgə əməliyyatı yüksək nəticələrə səbəb oldu:

* Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər ordumuz tərəfindən nəzarətə götürüldü!

* Buzdux dağı və ətrafındakı yüksəkliklər nəzarətimiz altına alındı. Bunun sayəsində ordumuz Ağdaban, Suqovuşan, Sərsəng su anbarları və Vəng istiqamətində atəş və müşahidə imkanlarını kifayət qədər genişləndirmiş oldu. Həm də ordumuzun Murovdağ istiqamətinə çıxışı təmin olundu!

* Bütövlükdə 3 avqust 2022-ci ildə keçirilən "Qisas" əməliyyatı sayəsində 164,5  kvadratkilometr əraziyə nəzarəti təmin etdik!

İndi isə növbədə Zəngəzurdur!

Qədim Azərbaycan torpağı olan Zəngəzur!

Əgər Paşinyan sayıqladığı kimi hərəkət edərək Zəngəzur dəhlizini açmasa, onda daim hazır vəziyyətdə olan "dəmir yumruq" öz sözünü deyəcəkdir!

Buna həm hüququmuz çatır, həm də qüdrətimiz!

❖❖❖

Bu gün dünya erməni hiyləgərliyindən, ermənilərin göz yaşlarından, ah-zarından bezib!

Paşinyan nə qədər atılıb-düşsə də, sonda İlham Əliyevin dediklərini edəcəkdir!

Çünki başqa çarəsi yoxdur!

Çünki buna məhkumdur!

Həm də əyani şəkildə görür ki, "dəmir yumruq" hazır vəziyyətdə dayanıb gözləyir!

İstənilən an düşmənin başını əzərək istədiyimizə nail oluruq!

Artıq ermənilər və onların havadarları hər bir təxribat-terror əməlinə artıqlaması ilə cavab verildiyini gözəl anlayırlar!

Laçından da rədd olmalarına sayılı günlər qalıb!

Yaxşı bilirlər ki, Zəngəzur dəhlizini istifadəyə verməsələr, Laçın dəhlizi bağlanacaq!

Heç kəsə, heç nəyə arxayın olmasınlar!

Xüsusən hiyləyə və göz yaşlarına bel bağlamasınlar!

Bu gün köhnə havalar köməyə gəlmir!

Çünki Qarabağda və Şərqi Zəngəzurda sülhyaratma prosesini İlham Əliyev idarə edir!

***11 avqust 2022-ci il***

# Müstəqil siyasət yürütmək qüdrəti

*Milli ideologiyanın əsas təməl prinsipi*
*müstəqil dövlətçilik kursudur*

*"Bu gün şəhidlərimizin əziz xatirəsini yad edərək,*
*bir daha hər birimiz özünə söz verməlidir, vəd verməlidir,*
*and içməlidir ki, biz müstəqilliyimizin keşiyində əbədi duracağıq,*
*biz ərazi bütövlüyümüzün keşiyində əbədi duracağıq.*
*Qoymayacağıq ki, bir daha düşmən başını qaldırsın,*
*qoymayacağıq ki, bir daha bizim üçün təhdid yaratsın.*
*Əgər bunu görsək, dərhal hərəkətə keçəcəyik".*
***İlham ƏLİYEV***

Dünyada beş minədək millət və xalq var.

Onlardan yalnız 203-ü özünə dövlət qura bilib.

Bu dövlətlərin heç də hamısı müstəqil fəaliyyət göstərə bilmir - kimdənsə, hansısa formada asılıdırlar.

ÇÜNKİ:

* Müstəqil dövlət yaratmaq üçün ərazin, Vətən adını daşıyan torpağın olmalıdır!

* Həmin torpaqdakı insanları yaşatmaq üçün yeraltı və yerüstü sərvətlərə, lazımi imkan və şəraitə malik olmalısan!

* Yaratdığın dövləti yaşatmaq, idarə etmək üçün ağıllı, savadlı, bacarıqlı, vətənpərvər və dövlət idarəçiliyində çalışa bilən övladların olmalıdır.

* Ən nəhayət, müstəqil dövləti qurmağı, yaşatmağı, yüksəltməyi, təlatüm və bəlalardan qorumağı, xalqı ətrafında yumruq kimi birləşdirərək irəli aparmağı bacaran liderin, müdrik və uzaqgörən rəhbərin mövcudluğu da vacib şərtdir.

Bunlardan hansısa çatmayanda, nə dövlət olur, nə də onun müstəqilliyi və siyasəti.

❖❖❖

Azərbaycan xalqı ilk dəfə müstəqillik arzusunu 28 may 1918-ci ildə həyata keçirdi.

Əslində, bu, Azərbaycan adlı müstəqil dövlətin yaradıldığının bəyan edilməsi idi.

Dövlətçilik təsisatlarını və zəruri strukturları qurmaq, büdcə formalaşdırmaq, xalqın istək və arzularını gerçəkləşdirmək, ölkənin müdafiəsini təşkil etmək və digər təxirəsalınmaz məsələlər öz həllini gözləyirdi.

Mühüm məqamlardan biri Azərbaycanı müstəqil dövlət kimi dünyaya tanıtmaq və qəbul etdirmək idi!

Odur ki, Azərbaycan Xalq Cümhuriyyəti əsas diqqətini Paris Sülh Konfransında Azərbaycanın müstəqil dövlət kimi təsdiqinə yönəltmişdi.

Belə də oldu: Azərbaycan müstəqil dövlət kimi tanındı, amma çox yaşaya bilmədi!

XI Qızıl ordu Azərbaycanı işğal edərək Rusiyanın tərkibinə qatdı.

Beləliklə, ilk müstəqilliyin ömrü cəmi 23 ay çəkdi.

❖❖❖

Yetmiş il ömür sürən SSRİ adlı super dövlət 15 müttəfiq respublikadan ibarət idi.

Onların hər birinin ayrıca himni, gerbi, bayrağı və büdcəsi vardı.

Hamısı da özünü müstəqil sayırdı...

Amma "böyük qardaş" - mərkəz nə desəydi, onun sözündən çıxa bilməzdilər.

Moskva isə sözünü "Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qərarı" şəklində yerlərə çatdırırdı.

Hər respublika qazandığını "Ümumittifaq fondu"na göndərirdi, fond isə kimə nə qədər məsləhət bilsə, o qədər ayırırdı.

Əslində, "müstəqil dövlət" adlanan subyektin dövlət büdcəsini Moskva müəyyənləşdirirdi.

Müttəfiq respublikaların hər birinin "Xarici işlər nazirliyi" olsa da, reallıqda formal xarakter daşıyırdı.

Bütün xarici siyasət məsələlərini "SSRİ Xarici İşlər Nazirliyi" həyata keçirirdi.

"Müstəqil dövlət"lərin öz ordusu ola bilməzdi, çünki SSRİ Silahlı Qüvvələri hamısını "qoruyurdu".

Bir sözlə, formal dövlət, formal müstəqillik idi.

❖❖❖

Qırmızı imperiya laxlayaraq parçalananda SSRİ-nin çətiri altında yaşayan xalqlar müstəqillik arzularını gerçəkləşdirməyə başladılar.

Azərbaycanda bu proses çox ağrılı keçdi!

Həmin dövrdə ölkəyə başçılıq edən A.Mütəllibov Azərbaycanın müstəqil dövlət kimi yaşayacağını ağlına belə gətirmirdi.

Naxçıvanda fəaliyyət göstərən Ulu Öndər Heydər Əliyev muxtar respublikanın müstəqilliyini elan edib dövlət atributlarını qəbul edəndə A.Mütəllibov Azərbaycanın SSRİ-nin tərkibində qalmasına xidmət edən referendum keçirirdi.

1991-ci ildə qəbul olunan "Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" isə deklorativ xarakter daşıyırdı.

Müstəqil dövlət yaradaraq müstəqil siyasət yürüdülməsi yolunda real və konkret addımlar atılmırdı.

Xalq hərəkatının dalğalarında iqtidara gələn AXC-Müsavat cütlüyünün isə siyasətdən xəbəri belə yox idi!

Onlar "Yakutiyaya bayraq sancmaq"dan danışır, guya, "özlərində olan atom bombası" ilə başqalarına hədə-qorxu gəlirdilər.

Belə ağılsız "siyasətləri" sayəsində ölkəni bir dövlət kimi məhvolma həddinə çatdıraraq "vəzifələrini dondurub" aradan çıxdılar.

❖❖❖

Xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan dünyaşöhrətli siyasətçi Heydər Əliyev Azərbaycanı bəlalardan qorumaq, müstəqilliyi qoruyub saxlamaq və reallığa çevirmək üçün çox çalışıb-çarpışmalı oldu.

Əvvəlcə Azərbaycanda möhkəm və dönməz sabitlik yaratdı, iki dəfə dövlət çevrilişinə cəhdin qarşısını aldı.

Beynəlxalq təşkilatlarla əlaqələr quruldu, Azərbaycan Avropa Şurasına üzv seçildi.

Dövlətin iqtisadi gücünün möhkəmləndirilməsi üçün "Əsrin müqaviləsi" neft kontraktı imzalandı, daxili və xarici siyasətin konturları cızıldı.

Tale Ulu Öndərimizin düşüncələrini tam reallaşdırmağa imkan vermədi.

Ümummilli Liderimiz qalan işləri siyasi varisinə etibar edərək əbədiyyətə qovuşdu.

Azərbaycan tarixinin ən çətin, ən məsuliyyətli dövründə ölkə rəhbərliyinə gələn cənab İlham Əliyev yarımçıq işləri başa çatdırmaqla yanaşı, ölkənin qarşısında duran və dövrün çağırışlarından irəli gələn bir-birindən məsul, gərəkli və təxirəsalınmaz vəzifələri yerinə yetirməli oldu!

Xoşbəxtlikdən, bunların hamısını uğurla bacardı, Ulu Öndərimizlə bərabər, Azərbaycan xalqının da etibar və etimadını şərəflə doğrultdu.

❖❖❖

İlham Əliyev ölkəyə rəhbərliyinin ilk günündən Azərbaycan xalqının və dövlətinin maraqlarına xidmət edən müstəqil siyasət yürütdü.

Bunun üçün iqtisadi müstəqilliyə nail oldu, transmilli layihələri gerçəkləşdirdi, Azərbaycanı logistika mərkəzinə çevirdi, "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin işə düşməsini təmin etdi.

Beləliklə, tarixinin ən qüdrətli Azərbaycanını yaratdı!

İlham Əliyev ölkəyə rəhbərliyinin ilk günündən Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyünün qorunması şərtilə həllini qarşıya məqsəd qoydu.

Yeni vətənpərvər gənclər nəsli tərbiyə etdi, onların iştirakı ilə möhtəşəm ordu yaratdı, ən müasir texnika ilə silahlandırdı, 44 günlük Vətən müharibəsində Ermənistan ordusunu məhv edərək düşmənə kapitulyasiya aktını imzalatdırdı.

İlham Əliyev Azərbaycanı müasir, yüksək beynəlxalq imici olan dövlətə çevirmək üçün beynəlxalq qurum və təşkilatlarla müntəzəm iş apardı, hücum diplomatiyasına start verdi, idmanı inkişaf etdirdi, ölkəmizi dünyanı düşündürən problemlərin və çağırışların müzakirə olunduğu beynəlxalq məclislərin keçirildiyi məkana çevirdi.

BMT Təhlükəsizlik Şurasının iclaslarına rəhbərlik etdiyi, Qoşulmama Hərəkatına sədrliyi dövründə inkişaf etməkdə olan ölkələrlə bağlı atdığı xeyirxah addımlar, qəbul etdiyi qərarlar ölkəmizə xeyli dost qazandırdı və beynəlxalq təşkilatlarda dəstəyimizi əsaslı şəkildə gücləndirdi.

Bu gün Avropa və dünya Azərbaycana ciddi ehtiyac duyur, onunla əməkdaşlığa can ataraq müəyyən fayda görür.

Bütün bunlar müdrik, düşünülmüş, uzaqgörən və cəsarətli siyasətin bəhrələridir.

❖❖❖

Çex Respublikasının paytaxtı Praqa şəhərində keçirilən Avropa Siyasi Birliyinin ilk Zirvə toplantısında Ermənistan böyük bacısı Fransa, Avropa İttifaqı və digər dostlarının köməyi ilə Azərbaycana təzyiq göstərərək istəklərinin bir qisminə nail olmaq niyyətində idi.

Bu dəfə də niyyəti puça çıxdı, Paşinyan boynubükük vəziyyətdə qaldı!

Azərbaycan Prezidenti İlham Əliyevin yüksək nüfuzu, şəxsiyyətinə göstərilən dərin hörmət, mühüm məsələlərin həllində mövqeyinin və rəyinin nəzərə alınması, habelə qətiyyətli mövqeyi və möhkəm iradəsi qarşısında təkcə Ermənistan tərəfi deyil, onun havadarları və dostları da geri çəkilmək məcburiyyətində qaldılar.

İlham Əliyev bütün görüş və tədbirlərdə nümayiş etdirdiyi cəsarətli və dönməz iradəsinin arxasında qüdrətli Azərbaycanın iqtisadi gücü, Cənubi Qafqazda

tutduğu mühüm mövqe, dünya və Avropa üçün vazkeçilməz gərəkliliyi, dövlət başçısının qətiyyətli, müdrik və uzaqgörən siyasəti dayanır.

Cənab İlham Əliyevin zamanın sınaqlarından çıxmış müdrik deyimi yada düşür: "Müstəqillik sadəcə olaraq dövlət atributları deyildir. Müstəqillik müstəqil həyatdır, müstəqil siyasətdir, dövlətin və milli maraqların qorunmasıdır".

❖❖❖

Siyasət məqsəd və vəzifədən ibarət olur.

Məqsəd strateji hədəf, vəzifə isə ona çatmaq yollarıdır.

Eyni məqsədə müxtəlif yollarla, üsul və vasitələrlə çatmaq mümkündür.

Əsl siyasətçilər ən qısa və optimal yolları tapıb həyata keçirməkdə bir-birilərindən fərqlənirlər.

Təbii ki, daha səmərəli şəkildə və qısa müddətdə məqsədə çatan siyasətçilər, xalqının və dövlətinin maraqlarını daha yaxşı, dolğun təmin edən bacarıqlı və uzaqgörən siyasətçilər, əsl dövlət xadimi sayılırlar.

Vacib bir məqamı da qeyd edək: yalnız real gücə və imkanlara əsaslanan siyasət insanları məqsədə çatdırır!

Bütövlükdə siyasət ağıllı, düşünülmüş, uzaqgörən, irəlicədən bütün məqamlar nəzərə alınmış olanda gözlənilən səmərəni verir.

Cəsarətli siyasət isə bambaşqadır!

Burada ağıl da, uzaqgörənlik də, dəqiq hesablamalar da olur.

Amma bütün bunların mayasında özünəinamla yanaşı, iqtisadi imkan və siyasi bəsirət də dayanır!

Siyasətin cəsarəti onu yeridənin müdrikliyindən və əminliyindən, tutduğu xəttin doğruluğuna sarsılmaz inamından, məxsus olduğu xalq tərəfindən birmənalı şəkildə dəstəklənməsinə arxalanmağından qaynaqlanır.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyev düşünülmüş və cəsarətli siyasət yürüdən yeni tipli lider kimi tanınır.

Onu Avropada məşhurlaşdıran və sevdirən də bu siyasətidir!

Dediyinə daim əməl etməsi, sözünü əmələ çevirməsidir!

Belə siyasətçilərə həmişə və hər zaman hörmət edirlər və onunla hesablaşırlar.

❖❖❖

* Bu gün İlham Əliyev Avropaya qalib dövlətin rəhbəri və müzəffər sərkərdəsi kimi gedir.

* Bu gün İlham Əliyev Avropaya bu qitənin ciddi ehtiyac duyduğu təbii qazın təchizatçısı kimi gedir.

* Bu gün İlham Əliyev Avropaya güclü Azərbaycanın Prezidenti olaraq öz şərtlərini diktə etmək üçün gedir.

* İlham Əliyev bu mövqeyə vaxtında reallaşdırdığı və hazırda işləyən transmilli layihələrin müəllifi və icraçısı kimi nail olub.

* İlham Əliyev bu mövqeyə böyük uzaqgörənliklə, maneələri dəf etməklə rəhbəri olduğu Azərbaycanın vəsaiti hesabına reallaşdırdığı "Cənub qaz dəhlizi", TANAP və TAP-ın sahibi kimi çatıb.

İlham Əliyev bu mövqeyə həm də 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm qələbəsi ilə nail olub!

❖❖❖

Əslində, Praqa görüşləri İlham Əliyevin diktə etdiyi şərtlərin təsdiqi ilə başa çatdı:

* Qəbul edilmiş bəyanatda Azərbaycan və Ermənistan bir-birilərinin ərazi bütövlüyü və suverenliyini tanıdılar, bu xüsusda BMT Nizamnaməsi əsas sənəd kimi götürüldü;

* Sərhədlərin delimitasiyası üzrə komissiyanın iclasının tezliklə keçirilməsi razılaşdırıldı;

* Azərbaycanın etirazı təmin olundu. Belə ki, Aİ və Fransanın birgə sərhəd monitorinq missiyası yalnız Ermənistan ərazisində olacaq, Azərbaycan isə öz maraqlarına uyğun şəkildə missiya ilə əməkdaşlıq edəcəkdir;

* Ən nəhayət, Azərbaycan Ermənistanın və müdafiəçilərinin canfəşanlığını və ümidlərini boşa çıxararaq kapitulyasiya aktındakı bütün bəndlərin məcburən icrasına nail olur.

❖❖❖

İlham Əliyevin ölkəyə rəhbərliyinin 19 ilində Azərbaycan möhtəşəm nəticələrə nail olub.

Tam müstəqil siyasət yürüdüb!

Müstəqil siyasət aparmaq üçün gərək kiminsə qapısını döyərək heç kəsdən heç nə istəməyəsən!

Çünki sənə nəsə verəndə öz şərtlərini də qəbul etdirirlər.

Düşünülmüş siyasət yeridib!

Hər şey hesablanıb, zərgər dəqiqliyi ilə ölçülüb-biçilib, təhdidlər və təhlükələr əvvəlcədən duyularaq qarşısı alınıb, vədəsində qabaqlayıcı işlər görülüb!

Belə olmasaydı, hadisələri qabaqlamaq da mümkün deyildi.

Cəsarətli siyasət yürüdüb!

Bu işdə uzaqgörənliyi və xarizması köməyinə çatıb, daima cəsarətinin arxasında ağıllı tədbiri, diplomatik məharəti və özünəgüvəni dayanıb.

Dəyişməz siyasət aparıb!

Çünki bütün addımlarında müstəqil dövlətimizin maraq və mənafeyini güdüb, dövləti gücləndirmək, xalqın arzu və istəklərini həyata keçirmək, rifahını yüksəltmək niyyəti dayanıb!

Dönməz siyasət yürüdüb!

Daim arxasında Azərbaycan xalqının dəstəyini, etimad və etibarını, sevgisini hiss edib!

Xalqın milli birliyinə arxalanıb!

Bütün bunlar müstəqil Azərbaycanımızı möhtəşəm qələbələrə çatdırıb, uğur və nailiyyətlərimiz isə Vətənimizi dünyada hörmət, nüfuz və söz sahibinə çevirib!

***13 oktyabr 2022-ci il***

## İlham Əliyevdən daha bir dərs

İlham Əliyev təkcə müstəqil Azərbaycanın Prezidenti və Müzəffər Ali Baş Komandanı deyil!

İlham Əliyev həm də müasir dünyanın görkəmli dövlət xadimlərindən, xarizmatik liderlərindən, mahir diplomatlarından biridir!

İlham Əliyev öz fəaliyyətində daim beynəlxalq hüququn norma və prinsiplərinə, beynəlxalq konvensiyaların tələblərinə əməl edir, verdiyi qərarlar doğru və ədalətli olur!

İlham Əliyev eyni zamanda parlaq nitq qabiliyyətinə, çıxışlarında təkzibolunmaz faktlara, dəmir məntiqə əsaslanan, tarixdən götürülmüş misallardan yerli-yerində istifadəni bacaran, insanların qəlbinə və beyninə yol tapan gözəl natiqdir!

Çox qəribədir ki, İlham Əliyev bəzən əsəbiləşəndə nəinki çıxışında heç bir yanlışa və qeyri-dəqiqliyə yol vermir, əksinə, daha tutarlı faktlardan, heyrətamiz dərəcədə hədəfi dəqiq vuran ifadə və sözlərdən istifadə etməklə opponentini mat vəziyyətinə salır.

❖❖❖

Biz bunu 44 günlük Vətən müharibəsində 30-dan çox KİV-ə və telekanala, informasiya agentliyinə verdiyi müsahibələrində əyani şəkildə gördük, yalan, şər, böhtan və feyk xəbərləri konkret fakt və misallarla necə darmadağın etdiyinə maraq və heyranlıqla, sevə-sevə tamaşa etdik.

Prezidentimizlə qürur duyduq!

Fəxr etdik!

Əhsən dedik!

Bu nitq, bu istedad, bu qabiliyyət, bu bacarıq dövlət başçısına hörmət və məhəbbətimizi bir daha, həm də qat-qat artırdı.

Eyni hissləri MDB Dövlət başçılarının Astanada keçirilən şura iclasında yaşadıq.

❖❖❖

Fransa qədim tarixə və demokratik ənənələrə malik dövlətdir.

BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biridir.

Təəssüf ki, müasir Fransa tarixi keçmişindən uzaq düşmüş, demokratik prinsiplərə və ədalətə arxa çevirən bir dövlətə çevrilmişdir.

Bunun ən mühüm səbəblərindən biri, bəlkə də, elə birincisi, ölkədə ciddi lider böhranının yaranmasıdır!

Son illərdə seçilən üç prezident, xüsusən Makron dediklərimizin əyani sübutudur.

Tarixi və demokratik ənənələrdən üz döndərən Fransada yeni, xoşagəlməz bir ənənə yaranmışdır.

Bütün bu tənəzzülün baiskarı olan ənənə!

Fransa prezidentləri nədənsə öz fəaliyyətlərində və seçkilərdə qələbə qazanmaq imkanlarında Fransa xalqına deyil, Fransadakı erməni diasporuna arxalanırlar.

Bu isə onların öz xalqlarından çox erməni diasporunun və vassal Ermənistan dövlətinin maraqlarına xidmət etmələrini şərtləndirir.

DİQQƏT YETİRƏK:

* Fransada prezidentliyə namizədlər fransız seçicilərindən qabaq erməni diasporu ilə, onun təmsilçiləri ilə təmas qururlar;

* Fransada prezidentliyə namizədlərin hamısı müxtəlif bəhanələrlə Ermənistanı ziyarətə gedir, saxta erməni soyqırımı abidəsinə əklil qoyaraq baş əyir, kədərlənir, hətta bəzən daha çox erməni səsi qazanmaq üçün göz yaşı da tökürlər;

* Qarabağa baş çəkərək "artsax"ın müstəqilliyini dəstəkləyəcəklərinə söz verirlər;

* Fransada prezidentliyə namizədlər fransız seçicilərdən daha çox Fransadakı erməni səsini toplamağa çalışır, bundan ötrü bütün yollara əl atırlar;

* Fransızlardan daha çox ermənilərin xoşuna gəlməyə çalışırlar.

Nəticədə Fransada prezident seçilənlər hələ and içərək real fəaliyyətə başlamazdan qabaq ermənilərə, erməni diasporuna borclu düşmüş olurlar, daha doğrusu, erməni diasporundan boğaz olurlar.

Beləliklə, prezidentlikləri dövründə daha çox erməni maraqlarını güdüb, erməni mənafeyini təmin etmək zorunda qalırlar!

Artıq Fransa Senatının üzvlərinin erməni diasporunun maliyyəsinə (ianə və yardım adlı rüşvətə) uyaraq öz maraqlarına arxa çevirmələri, Fransanın zədələnən imicinə bir daha ciddi zərbə vurmaları hamının aşkar bildiyi faktlardır.

Hətta iş o yerə çatıb ki, Fransa BMT-nin Nizamnaməsinə, beynəlxalq hüquqa əhəmiyyət verməyərək ədalətsiz qərarlar çıxarır, Fransa Prezidenti yalan, böhtan xarakterli qərəzli bəyanatlar verir, başqa dövlətlərin daxili işlərinə kobud və ədəbsiz şəkildə qarışır.

Məsələn, cari ilin sentyabr ayında Ermənistan üçtərəfli Bəyanata əməl etmədən, özünün imzasına məhəl qoymadan dəfələrlə atəşkəsi pozduqdan sonra Azərbaycana qarşı silahlı təxribat - terror əməli törətdi.

Fransa könüllü vasitəçi iddiasında olduğundan hadisəyə obyektiv yanaşıb sülhyaratma prosesinə kömək etmək əvəzinə "dal yetimi"nə qahmar çıxmağa, onu əsassız şəkildə müdafiə edərək Azərbaycanı şərləməyə can atdı.

BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusundan istifadə edərək məsələni BMT-də müzakirəyə çıxardı.

Məqsədi Azərbaycana qarşı sanksiyaların tətbiqinə nail olmaq idi!

Lakin, necə deyərlər, ağzı daşa dəydi!

Azərbaycanın dostlara və hadisələrə obyektiv yanaşaraq ədalətli qiymət verənlər Makronun arzusunu gözündə qoydular!

Makron utanaraq özünə gəlmək əvəzinə erməniləri daha həvəslə və ehtirasla müdafiəyə başladı.

Dövlət başçısı olduğunu "unudaraq" küçə leksikonunu işlətməklə qərəzli, hikkəli və qəbuledilməz bəyanatlar, açıqlamalar verən Makron hətta Rusiyanı aşağılamaqdan da çəkinməyərək "Rusiya Azərbaycan oyununu oynadı" kimi qəribə və yalan iddia səsləndirdi.

Artıq Fransadakı siyasətçilər Makronla ağız-ağıza verərək ağıllarına gələni danışırlar və edirlər.

Məsələn, Fransanın xarici işlər naziri Azərbaycanın əleyhinə yalan bəyanatlar verir.

Yada salırıq ki, II Qarabağ müharibəsi dövründə Fransa senatı və aşağı palata qondarma "Dağlıq Qarabağ"ı tanıyan qətnamə qəbul edərək ermənidən betər ermənilik etdilər!

Əslində, ciddi bir qurum Ermənistanın özünün belə tanımadığı "Dağlıq Qarabağ"ı tanımaqla özünü gülünc vəziyyətə qoydu.

Azərbaycanın gorbagor etdiyi ATƏT-in Minsk qrupunu xortlatmaq üçün Fransa əldən-ayaqdan gedir, bilmir ki, daha nə oyun çıxartsın!

Çifayda!

Azərbaycanın razılığı olmadan heç kəs nə vasitəçiliklə məşğul ola, nə də ölkə ərazisinə hər hansı missiya göndərə bilər!

Mümkün deyil!

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 14-də Astanada Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclasındakı çıxışında Fransa Prezidenti E.Makronun bəyanat və açıqlamalarını qəti surətdə pisləyərək rədd etdi və bundan sonra Fransa hökumətinin belə münasibəti çərçivəsində Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması işində Fransanın hər hansı rol oynamasının qeyri-mümkünlüyünü bəyan etdi!

Azərbaycan Prezidenti Makronun yalançılığını da konkret faktla göstərdi: "Azərbaycanın Parisdəki səfirliyinə iki dəfə basqın edildi. Özü də birinci hücumdan sonra Fransa Prezidenti telefonda mənə vəd verdi ki, bunun təkrarlanmaması məqsədi ilə tədbir görüləcək. Lakin bunun, yumşaq desək, doğru olmadığı ortaya çıxdı. Birinci vandalizm aktından və səfirliyin binasına soxulmaq cəhdindən sonra Azərbaycan səfirliyinin qarşısında qoyulmuş mühafizə götürüldü. Çox güman ki, bu, erməni tərəfi ilə razılaşdırılıb. Mühafizə götürülən kimi ikinci basqın cəhdi oldu, təhqiramiz yazılar oldu. Azərbaycan səfirliyinə hücum edən özündən çıxmış radikalların izdihamı oldu".

Cənab İlham Əliyev səfirliyin qorunmasına belə məsuliyyətsiz yanaşmanın diplomatik konvensiyalarla bir araya sığmadığını göstərərək kəskin mövqeyini də bildirdi:

Bu, qətiyyən yolverilməzdir!

❖❖❖

Azərbaycan Prezidenti öz çıxışında daha 3 məsələyə konkret münasibətini açıqlayaraq qəti xəbərdarlıq etdi:

Birinci, Azərbaycan üçtərəfli Bəyanatın bütün müddəalarını yerinə yetirir, o cümlədən Ermənistandan Qarabağa maneəsiz girişi təmin edir. Ermənistan isə bəyanatın özünə aid hissəsini yerinə yetirməməklə Azərbaycandan Naxçıvana maneəsiz girişi təmin etmir. Halbuki bu onun hüquqi öhdəliyidir!

İkinci, Azərbaycan ərazisindəki erməni silahlı qüvvələri hələ də tam çıxarılmayıb!

Üçüncü, Qarabağın erməni əhalisinin hüquqları və təhlükəsizliyi Azərbaycan Konstitusiyasına uyğun olaraq təmin ediləcək, Azərbaycan daxili məsələlərini heç bir tərəflə müzakirə edəsi deyildir!

"Biz hələ ki səbir nümayiş etdiririk, lakin bunun da bir həddi var".

"İki vacib bənd icra edilməsə, bizim adekvat tədbir görməkdən başqa seçimimiz olmayacaq".

Bu sözləri də Prezident İlham Əliyev dedi!

Xatırladırıq, Azərbaycanın dövlət başçısının sözü ilə əməli birdir, dediyini edəndir!

"Dəmir yumruq" isə daim hazır vəziyyətdədir!

***18 oktyabr 2022-ci il***

# Dünyanın həsəd apardığı DOSTLUQ və QARDAŞLIQ

*Rəbbimiz birliyimizi, bərabərliyimizi əbədi etsin!*

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Qarabağa növbəti səfəri Vətən müharibəsindəki möhtəşəm qələbənin ikinci ildönümü ərəfəsində oldu.

Bu dəfə əziz qonaq "köhnə" hava limanına - Füzuli aeroportuna enmədi.

Türkiyə Prezidentinin təyyarəsi açılışına təşrif gətirdiyi yeni Zəngilan Hava Limanında qarşılandı.

Qardaş ölkənin qardaş Prezidenti təyyarənin trapı ilə enərkən ayağını torpağa basmamış, pillələrin üstündə dayanaraq sağa-sola nəzər saldı.

Sonra sağ əlinin baş barmağını dik tutaraq "əla" işarəsi göstərdi.

Bu, Rəcəb Tayyib Ərdoğanın qardaşı İlham Əliyevin Zəngəzurda və Qarabağda qeyri-adi sürətlə apardığı bərpa və quruculuq işlərinə verdiyi ilk və yüksək qiymət idi.

Bəli, dostlar öz dostlarının uğur və nailiyyətlərinə sevinməyi, lazımi dəyər verməyi də bacarırlar.

❖❖❖

Dostluq ən böyük mənəvi dəyərlərdəndir!

Dostluq müqəddəs hissdir, duyğudur!

Dostluq insanları bir-birinə bağlayan möhkəm, qırılmaz tellərdir!

Dostluq insanları doğmalaşdıran, dövlətləri birləşdirən, gücə-güc qatan qüvvətdir, keyfiyyətdir!

Dostluq etməyi bacarmaq özü bir istedad, qabiliyyət tələb edir!

Əsl dosta malik olmaq böyük sərvətə sahib olmağa bərabərdir.

Bitməz, tükənməz sərvətə!

❖❖❖

Azərbaycan-Türkiyə dostluğu bütün dünyanın həsəd apardığı, qibtə etdiyi dostluqdur!

Bu dostluğun kökü uzaq keçmişə, qədimlərə gedib çıxır...

Bu dostluğun təməlində milli dəyərlər, dini dəyərlər, dil, adət-ənənə eyniliyi, mədəni və mənəvi birlik dayanır.

Bu dostluq əsrlərin sınağından, dünyanın əndişələrindən keçib gəlmiş, Çanaqqala savaşında və Bakının bolşevik-daşnak istilasından azad edilməsində axıdılan şəhid qanı ilə möhkəmlənmişdir.

Azərbaycan-Türkiyə dostluğu, birliyi bu gün də davam edir, yeni sınaqlardan çıxır, gündən-günə möhkəmlənir, yeni səviyyəyə yüksəlir!

Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın şəxsi dostluqları və qardaşlıqları dövlətlər arasındakı səmimi və doğma münasibətləri də tarixinin ən yüksək məqamına, indiyədək görünməmiş qardaşlıq mərtəbəsinə ucaltmışdır.

❖❖❖

Hər görüşəndə dövlət başçıları İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan mehribanlıqla, səmimiyyətlə bir-birilərini qucaqlayır, bağırlarına basırlar.

Bu iki dünya çaplı liderin simasında Azərbaycan-Türkiyə qardaşlığı ilbəil möhkəmlənərək bütün dünya üçün ən parlaq nümunəyə çevrilmişdir.

Rəcəb Tayyib Ərdoğan olmayan yerdə kimsə Türkiyə barədə mənfi nəsə deyə bilməz!

İlham Əliyevin iştirak etmədiyi tədbirdə Azərbaycanın ünvanına xoşagəlməz ifadə səsləndirməyə heç kəs cəsarət etməz!

Dərhal hər iki rəhbər "Qardaşım burada olmasa da, mən buradayam!" - deyə danışanın ağzından vuraraq cavabını verər.

Azərbaycan həmişə Türkiyə ilə tikəsini yarı bölüb!

Türkiyə ən çətin günlərdə Azərbaycana arxa durub!

İndi dünyada hamı bu birliyi və doğmalığı bilir, həsəd aparır, həm də nəzərə alır, birgə güclə hesablaşır!

Allah bədnəzərdən qorusun iki qardaşın, iki dövlətin qarşılıqlı məhəbbətini, bir-birinə olan inamını, güvənini, qaynayıb-qarışmağını.

❖❖❖

Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra buna ən çox sevinən, müstəqilliyimizi ilk tanıyan qardaş Türkiyə oldu!

Qırmızı imperiyanın yaratdığı dövlətlərarası dəmir pərdə aradan qaldırıldı, dostlar, qardaşlar bir-birinə qovuşdular...

İllərin həsrəti sevinc göz yaşları ilə əridildi, get-gəllər aralı düşmüş insanları lap qısa zamanda yaxınlaşdırdı, doğmalaşdırdı, hətta qohumlaşdırdı.

Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə hər səfəri görünməmiş sevincə, hadisəyə çevrilir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana hər gəlişi şadyanalığa, el bayramına səbəb olur.

HƏR İKİ DÖVLƏTDƏ:

* Bu dostluqdan sevinməyən yoxdur!

* Bu dostluqla qürur hissi keçirməyən, fərəh duymayan yoxdur!

* Bu dostluğun daim möhkəm, əbədi olmasını istəməyən yoxdur!

Bircə düşmənlərimizdən başqa!

Onlar isə daim bu birliyin önündə geri çəkilirlər, gizlənirlər!

❖❖❖

Əziz dostum və qardaşım!

İki qardaş ölkənin qardaşlaşmış prezidentlərinin hər dəfə görüşərkən sonsuz məhəbbət və ehtiramla bir-birilərinə xitabən söylədikləri bu müraciət forması artıq sevgi və hörmət rəmzi kimi xalqlarımızın leksikonuna möhkəm daxil olmuşdur.

Hər bir türk və azərbaycanlı da artıq istəkli dostu ilə görüşəndə bir-birilərinə bu sayaq müraciət edirlər:

Əziz dostum və qardaşım!

Qardaşların Qarabağdakı ikinci beynəlxalq hava limanının açılışı münasibətilə Zəngilandakı aeroportda görüşləri də bu gözəl və səmimi kəlamlarla başladı.

❖❖❖

Təxminən bir il bundan qabaq - 26 oktyabr 2021-ci ildə iki qardaş Prezident Füzuli Hava Limanının açılışını etmişdilər.

Hər iki dövlət başçısına rəmzi açar təqdim olunmuşdu.

Daha bir neçə açılış mərasimində iştirakdan sonra mətbuata açıqlamalar verilmişdi.

Cənab İlham Əliyevin həmin görüşdə söylədiyi sözlər hamının ürəyindən xəbər verməklə yaddaşlara əbədi həkk olundu:

"Bizim birgə addımlarımız tarixdə əbədi qalacaq. Bu tarixi biz birlikdə yazırıq. Necə ki bütün müharibə dövrü ərzində birlikdə idik, bu gün də bir yerdəyik.

...İkinci Qarabağ savaşının ilk saatlarından son dəqiqələrinə qədər Türkiyə Azərbaycanın yanında olmuşdur. Əziz qardaşım, hörmətli Cümhurbaşqanı ilk saatlarda Azərbaycana dəstək göstərdi, bütün dünyaya bəyan etdi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu, bizə çox böyük siyasi və məna-

vi dəstək, əlavə güc verdi. Əziz qardaşım, bu gün Azərbaycan xalqı haqlı olaraq Sizə öz təşəkkürünü bildirir. Bilirsiniz ki, Azərbaycanda hər kəs Sizi sevir, Sizə böyük hörmətlə yanaşır. Siz bizim Zəfərimiz üçün çox böyük işlər görmüsünüz və bu gün artıq quruculuq dövründə, bərpa dövründə yenə də bizimlə bərabərsiniz".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sözləri də ürəklərə sevinc və sevgi paylamışdı:

"Azərbaycan bütün dünyaya örnək olacaq inkişaf modeli ilə bu bölgənin inkişafı üçün fəaliyyətini davam etdirir. Burada hər şeydən əvvəl təməlini qoyduğumuz istər tunellər, istər yol ötürücüləri, istər avtomobil yolları bərpa işlərinin həyata keçirilməsi baxımından çox önəmlidir. Bu fəaliyyətə liderlik edən İlham qardaşımı və əməyi keçən hər kəsi ürəkdən təbrik edirəm.

...Türkiyə olaraq biz də bu fəaliyyətlərdə üzərimizə düşəni etməkdə, qardaş Azərbaycana bütün imkanlarımızla dəstək olmaqda davam edəcəyik".

Bu unudulmaz görüşdən az vaxt keçməsinə baxmayaraq, çox mühüm işlər görülmüş, birgə fəaliyyətlə mühüm uğurlar qazanılmışdır.

Uğurlarımıza və qələbələrimizə qısqanan düşmən də sakit qalmamışdı...

❖❖❖

Son vaxtlarda Azərbaycanın Fransadakı səfirliyinə erməni vandalları iki dəfə hücum ediblər.

Azərbaycanın Vaşinqtondakı səfirliyinin xidməti maşını atəşə tutulub.

Hələ ki hər iki dövlət cinayəti törədənləri tapıb cəzalandırmayıb!

Özlərini demokratik sayan Fransa və ABŞ nədənsə ərazilərindəki digər dövlətlərin səfirliklərinin qorunması ilə bağlı beynəlxalq konvensiyalara əməl etmirlər.

Bəlkə də, əməl etmək istəmirlər...

Fikirləri-zikirləri Qarabağa soxulmaq, oradakı sülh prosesinə Ermənistanın maraqları baxımında müdaxilə etmək, bölgədə Rusiyanı sıxışdırmaq, status sayıqlamalarını, ATƏT-in Minsk qrupunu xortlatmaqdır.

Baş tutan sevda deyil!

Azərbaycan qərarında möhkəm və qətidir, "dəmir yumruq" da daim hazır vəziyyətdədir.

Belə bir məqamda qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Qarabağa növbəti dəfə səfər etməsi xam xəyallara düşənlər üçün ciddi və açıq ismarışdır!

Türkiyənin daim Azərbaycanla birlikdə, Azərbaycanın yanında olduğunun açıq nümayişidir!

İki qardaş Prezident bir-birinin ardınca Zəngilan Beynəlxalq Hava Limanının, "Dost Aqropark" "Ağıllı Kənd Təsərrüfatı" Kompleksinin birinci mərhələsinin açılışında iştirak etdi.

Sonra birlikdə Qumlaq Dəmiryol Stansiyasının, Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzinin, "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin təməlini qoydular.

Cəbrayıl şəhərində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi böyük təntənə ilə keçdi.

Sonra iki dövlət başçısı təkbətək görüşdü və mətbuata birgə bəyanatla çıxış etdilər.

❖❖❖

Bərpa edilən Qarabağın və Zəngəzurun ən əziz qonağı görülən işlərlə tanış olmağa gəlmişdi.

Bütün diplomatik etiketlərə əməl edildi.

Əslində, bunlar rəsmi qaydalar olsa da, həmişə gördüklərimizə bənzəmirdi.

Üzlərdən, dodaqlardan sevinc qarışıq təbəssüm əskik olmurdu.

Hər addımda, hər təmasda bir səmimiyyət, mehribanlıq duyulurdu.

Hamının davranışında bir qürur, fəxarət də vardı.

Otuz illik işğala düşməni məhv edərək son qoyan qaliblər məğrurcasına, fərəhlə, qalib ədası ilə addımlayırdılar.

Müharibədən sonrakı iki ildə görülən işlər də sürət və miqyasına görə zəfərə bərabər idi.

Şübhəsiz, bütün bunlara ali qonağımız Rəcəb Tayyib Ərdoğanın verdiyi qiymət daha obyektiv və dəyərli sayılırdı.

Cəbrayılda mətbuat üçün verilən bəyanatda hər iki dövlət başçısının çıxışlarından bəzi məqamları diqqətə çəkirik.

Azərbaycan Prezidenti İlham Əliyev:

"Bütün bu şanlı tarix bizim müştərək tariximizdir. Çünki İkinci Qarabağ savaşının ilk saatlarından əziz qardaşım, Türkiyə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan Azərbaycana dəstək ifadə etdi. Bildirdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu siyasi və mənəvi dəstək savaşın son gününə qədər davam edirdi. Bu, bizə əlavə güc verirdi, bu, bəzi qüvvələrin bu məsələyə müdaxiləsinin qabağını alırdı. Türkiyə-Azərbaycan birliyi bir daha zəfər çaldı".

"Əziz qardaşımın liderliyi sayəsində Türkiyə son illər böyük uğurlu yol keçib, dünya çapında güc mərkəzinə çevrilib. Türkiyədəki sabitlik, inkişaf göz qabağın-

dadır. Bu gün dünyanın bir çox ölkələrində böhran yaşanır, ölkələr idarəolunmaz vəziyyətə düşür, iqtisadi çətinliklər, sıxıntılar insanların haqlı etirazına səbəb olur. Türkiyə isə inamla irəliləyir, nəhəng layihələr gerçəkləşdirir, bölgədə söz sahibidir, dünyada önəmli güc mərkəzidir. Hər kəs bununla hesablaşmalıdır və hər kəs bilməlidir ki, bu uğurların səbəbkarı mənim qardaşım Rəcəb Tayyib Ərdoğandır. Azərbaycanda Tayyib bəyə çox böyük hörmət, məhəbbət vardır və bunu Azərbaycana gələn hər bir insan görür".

"Bu gün Əziz qardaşımın böyük heyətlə, hökumət nümayəndələri ilə burada olması bir daha onu göstərir ki, biz hər zaman olduğu kimi, bir yerdəyik və bir yerdə olacağıq. Bundan sonra bölgədə gedən işlər, əlbəttə ki, Türkiyə və Azərbaycanın fəal iştirakı və izni ilə aparılacaq. İstər siyasi təşəbbüslər, iqtisadiyyat, enerji, nəqliyyat - bütün bu sahələrdə bizim işbirliyimiz artıq regional çərçivədən çıxıb, beynəlxalq səviyyəyə qalxıbdır".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan:

" İşğaldan azad edilən qədim Azərbaycan torpaqlarında bir il ərzində ikinci hava limanının açılışında iştirak etmək, ikinci hava limanını, həqiqətən, müasir dünyanın müşahidə etdiyi şəkildə ən müasir hava limanlarından biri olaraq açmaq bu qədər çətin dövrdən sonra hər ölkənin bacara biləcəyi bir iş deyildir".

"Mən qardaşımdan soruşdum, dedim, bu ATƏT, Avropa İttifaqı bunları gəlib görmədimi? Yox, gəlmirlər. Niyə gəlmirlər? Çünki öz üzqaralarını görəcəklər, Qərbin etdiklərini görəcəklər. Onlar burada dəstəklədikləri həmin işğal dövründə Cəbrayılı, Qarabağın digər bölgələrini nə hala gətirdiklərini görəcəklər. Təbii ki, bunları görmək istəmirlər. Əslində, onlar nələr törədildiyini bilirlər".

"Dağıdılmış, yerləyeksan edilmiş bu bölgələr hazırda qardaşım İlham Əliyevin liderliyi ilə bənzərinə az rast gəlinən böyük bir inkişaf həmləsi ilə yenidən dirçəlir. Körpüləri, dəmir yolları, avtomobil yolları, magistralları ilə yenidən bir Azərbaycan inşa edilir. İndi biz bunları yaşayırıq, görürük. Eşidərək deyil, görərək bu ifadələri işlədirik. Bu, təbii ki, başda qardaşım İlham Əliyev olmaqla, bütün komandası ilə əl-ələ verərək atdıqları addımlar, gördükləri işlərlə bu qədər qısa müddətdə Azərbaycan, necə deyərlər, burada sıfırdan başlayaraq yenidən ayağa qalxır".

" Azərbaycan əmin addımlarla yoluna davam edir. Bu yol bölgənin sülh, əmin-amanlıq və sabitliyinə töhfə verəcəyi kimi, Xəzərdən keçməklə "Şərq-Qərb", Orta dəhliz marşrutları üzərində yerləşən bütün ölkələr üçün ticarət və sərmayə imkanları təqdim edəcək".

"Hörmətli media nümayəndələri, Cümhuriyyətimizin 100-cü ilini qeyd edəcəyimiz 2023-cü ilin Azərbaycanda da "Heydər Əliyev İli" olaraq qəbul edilməsindən məmnunluq duyuruq. Ümummilli Liderimiz Heydər Əliyevin əziz xatirəsini birlikdə yaşatmağa davam edəcəyik".

❖❖❖

Maraqlı bir atalar sözü var: "Dostunu göstər, kim olduğunu sənə deyim!"

Ermənistanın "dostları" ondan maşa kimi, alət kimi istifadə edənlərdir.

Bu dostluqdan Ermənistan daim itirib: ölkə blokada şəraitində dilənçi kökünə düşüb, əhali yoxsulluğa, işsizliyə, aclığa dözməyərək başqa ölkələrə qaçıb gedib, cavanlar özgə torpaqlarının işğalında qırılıb, qalanları əlilə, fərariyə çevrilib.

Türkiyə və Azərbaycan isə ağır və təhlükəli, müharibə, qarşıdurma, pandemiya dövrünü yaşayan dünyada daim inkişafdadırlar.

Əl-ələ verərək problemlərini birlikdə, dostcasına həll edirlər, öz xalqlarına əmin-aman şərait, yüksək rifah, təhlükəsiz yaşayış təmin edirlər.

Uğur, inkişaf, qələbə isə belə dostluqda, belə əməkdaşlıqdadır.

Tanrı belə dostları və belə dostluğu heç birimizə çox görməsin...

***22 oktyabr 2022-ci il***

# Dostunu mənə göstər, kim olduğunu sənə deyim

"Yaxın" qonşularımızın hamısının dabbaqdakı gönlərinə bələdik!

Kimin özünü necə göstərməsindən, kimin özünü necə təqdim etməsindən, kimin dildə nə danışmasından asılı olmayaraq!

Təkcə ona görə yox ki, kosmosda kəşfiyyat peykimiz uçur, dronlarımız, gecə-gündüz müşahidə cihazlarımız hər addımı, hər hərəkəti qeydə alır.

Əvvəla, tarixdə hadisələr təkrar olunduğundan biz də keçmişdə baş verənləri unutmamışıq.

İkincisi, kimin hansı yuvanın quşu olduğundan da yaxşı xəbərdarıq.

Üçüncüsü, hər bəd əməlin üstü "40 gün" ərzində açılır!

Ən nəhayət, Azərbaycanda hamı çörəyi ağzına yeyir, saxta təbəssümlə riyakar gülümsəməni hələ dodaq qaçmamışdan müəyyən edə bilir!

❖❖❖

Məşhur ifadəylə desək, artıq "kartlar" açılır!

Yaxud açıq "kartlar" ucadan, bəzək-düzəksiz "oxunur"!

"Din qardaşlarımız", "şiə qardaşlarımız" (Allah, sən bizi belə "qardaşlardan" və belə "qardaşlıqdan" özün qoru!) maskalarını çıxararaq əsl simalarını olduğu kimi göstərirlər!

Məgər biz bilmirik ki, İran "islam dövləti" olsa da, müqəddəs Quranın qadağan etdiyi "uyuşdurucu maddələr" istehsal edib dünya bazarında satmaqla büdcələrinə haram vəsait yığır, sonra həmin vəsaiti haram işlərə - terrorizmin dəstəklənməsinə xərcləyir.

Məgər biz bilmirik ki, İranın fars rejimi heç zaman müstəqil və güclü Azərbaycanın mövcudluğunu istəməyib, həmişə ona qarşı gizli və məkrli şəkildə mübarizə aparıb!

Məgər biz bilmirik ki, ən çətin məqamlarda İran bizim yox, düşmənlərimizin, özü də islam düşmənlərinin yanında dayanıb!

"Din qardaşlarımızın" su bulandırmaqdan, arxadan kürəyimizə bıçaq saplamaqdan başqa əlindən nə gəlib?!

Deməsək də, danışmasaq da, kimin hansı əmələ qulluq etdiyini, arxamızda nələr törətdiyini özlərindən də yaxşı bilirik.

İstəyərlərsə, yadlarına salarıq da!

* Birinci Qarabağ müharibəsində İran erməni qardaşlarının yanında dayandı!

* Şuşanın işğalında erməniyə bacardığı qədər dəstək verdi!

* Məşhədə, Quma "dini təhsil almaq" adı ilə Azərbaycandan apardığı səbatsız gəncləri "verbovka" edərək sonradan onların cəbhə bölgəsinə yeridilməsinə nail oldu, topladıqları hərbi sirləri, məxfi məlumatları ermənilərə ötürdü, beləliklə, tələfat verməyimizə, ərazi itirməyimizə "qardaşlıq" köməyi göstərdi!

* Bakı şəhərində sonradan dövlət təhlükəsizliyi orqanı tərəfindən ifşa olunan casus şəbəkəsi yaratdı, müəyyən ünvanlarda məxfi məlumatları ötürmək üçün radioqurğular da quraşdırdılar.

Bu gün isə belə əməllərin davamı kimi Azərbaycanda cinayət törədərək axtarışda olanları qanadları altına alır, sığınacaq tapdıqları İranda məskunlaşmalarına şərait yaradırlar.

* Həmişə də üzümüzə gülərək, ayağımızın altını qazırlar!

İkinci Qarabağ müharibəsində isə:

* Hərbi əməliyyatlar davam edən müddətdə bizə qarşı döyüşlərdə istifadə olunacaq silah-sursatın Ermənistana hava yolu ilə daşınmasına hər bir şərait yaratdılar.

* İndi isə Zəngəzur dəhlizinin açılmasına mane olmaq üçün dəridən-qabıqdan çıxırlar!

* Bizim üçün (Ermənistan üçün yox!) qırmızı xətt müəyyənləşdirir və onun pozulmasının "ağır fəsadlar verəcəyindən" dəm vururlar!

* Azərbaycan sərhədləri boyu vaxtaşırı mənasız təlimlər keçirir, Araz çayını panton körpülərlə biz tərəfə keçilməsini məşq edirlər!

İran narkotikinin Qarabağ ərazisindən dünyaya daşınan "trafikinin" Azərbaycan tərəfindən bağlanılmasını heç cürə bağışlaya bilmirlər!

* Qafanda tez-tələsik konsulluq açaraq Ermənistanla birgə bizə qarşı yönəlik əlaqələrini daha da sıxlaşdırmağa cidd-cəhd göstərirlər!

* Özünün istehsalı olan və Rusiya-Ukrayna müharibəsində sınaqdan çıxarılan PUA-ları ilə Ermənistan ordusunun yenidən silahlandırılmasına birbaşa yardım edirlər!

* Faktiki olaraq islamı və islami dəyərləri dini liderlərinin, şovinist və aqressiv siyasətlərinin maraqlarına qurban veriblər.

* Təxribatçı "Səhər" televiziya kanalı ilə ölkəmizə qarşı murdar təbliğat aparır, hərzə-hədyan söyləyir, bizə hədə-qorxu gəlir, ağızlarının üfunətini ölkəmizə püskürməyə çalışırlar!

❖❖❖

Əsrlərboyu Rusiya erməniləri əl alətinə çevirərək daim türk dünyasına qarşı istifadə edib.

"Çar Rusiyası", "Sovet Rusiyası" adları dəyişsə də, ermənilərlə birgə oyunlarının mahiyyəti və hədəfləri dəyişməyib!

Hər şey həmişəki kimi davam edir:

* Ötən əsrin 90-cı illərində Qarabağda "fədailər ordusunun" yaranmasına etdikləri köməyi bu gün Xankəndidəki qanunsuz silahlı birləşmələrin yenidən formalaşmasına və dirçəldilməsinə yönəldirlər.

* Ermənistana dəfələrlə milyardlarla dollarlıq havayı silah-sursat verməsini gizli-aşkar formada davam etdirirlər.

* Volskinin "xüsusi idarəetmə komitəsini" indi Rusiyadan gətirilən milyarder, erməniəsilli rus vətəndaşı Ruben Vardanyanın simasında yenidən, amma köhnə niyyətlə dirçəltməyə çalışırlar.

* Qarantı olduğu üçtərəfli Bəyanatın icrasını qulaqardına vuraraq "cəhənnəmə, gora göndərilən statusu" bərpa etməyə yönəlik oyunlar qururlar.

* Köhnə sovet ssenarisini, separatçılığın dəstəklənməsi və çiçəklənməsi üçün sınaqdan çıxarılan üsul və metodları təzədən işə salırlar.

Amma Ermənistanın Cənubi Qafqazdakı hər iki ürək dostu bircə şeyi unudur!

Azərbaycan 90-cı illərin Azərbaycanı deyil!

Müstəqil, güclü iqtisadiyyatı və ordusu olan dövlətdir!

Dünya da həminki dünya deyil, indi çox şey dəyişib!

Üstəlik, İranın və Rusiyanın özləri də əvvəlki güclü, nüfuzlu, sözükeçər dövlət də deyillər!

Yeni reallıqları görmək, bilmək və nəzərə almaq zəruridir!

Bunları biləndən sonra köhnə oyunları diriltmək cəhdinin mənasızlığı asanlıqla dərk edilir!

❖❖❖

İşğalın 27 ili ərzində BMT-nin əsl sifətini, dişsiz və mənasız, boş fəaliyyətini açıq-aşkar gördük!

Gördük ki, güclü dövlətlərin maraqlarına xidmət edən BMT qətnamələri dərhal, mürəkkəbi qurumamış icra olunur.

Həm də gördük ki, BMT Təhlükəsizlik Şurasının Azərbaycanla bağlı 4 qətnaməsi qəbul olunduğu kimi də qaldı.

Nə yadlarına saldılar, nə də icra etdilər!

BMT-nin 5 daimi üzvündən üçü - ABŞ, Fransa və Rusiya ATƏT-in Minsk qrupunun həmsədrləri idilər.

Gözləmək olardı ki, həmin qətnamənin qəbuluna səs verən həmin dövlətlər Minsk qrupunun üzvü kimi çıxardıqları qətnamənin icrasını təmin edəcəklər.

Lakin nə özlərinə hörmət qoydular, nə imzalarına, nə də BMT-nin daimi üzvü olan dövlətlərinə!

Nə Ermənistanın xətrinə dəydilər, nə də təcavüzkara qarşı sanksiya tətbiq etdilər.

Çünki ABŞ və Fransa dünya erməniliyindən və hər iki dövlətdəki erməni diasporundan asılı vəziyyətdədirlər.

Artıq bütün dünya bilir ki, "erməni səsi" olmasa, ABŞ-yə və Fransaya prezident seçilə bilməz!

Odur ki, prezidentliyə namizədlər əvvəlcə erməni diasporunun bığının altından keçir, onlara bol-bol vədlər verir, müəyyən maliyyə yardımı alır, sonra isə yeni seçkilərə gedirlər.

Erməni diasporu təkcə ABŞ və Fransa prezidentlərini seçkiqabağı gözükölgəli etmirlər.

Onlar senat və konqres üzvlərini də məlum vasitə ilə ələ alır, parlamentin palatalarında erməni marağına xidmət göstərərək qanun və layihələri qəbul etdirirlər.

Bu gün Rusiya KİV və telekanalları da eyni rəzil vəziyyətdədirlər.

Dövlətin, dövlət başçısının dediyi bir kənarda qalır, televiziya və qəzetlər isə erməni məkrinin və intriqasının ruporuna çevrilərək ermənidən betər ermənilik edirlər!

❖❖❖

27 il ərzində ATƏT-in Minsk qrupunun hər 3 həmsədri erməni mövqeyində dayandı!

Ermənin şıltaqlıqlarına dözdü və onları nazlandırdı!

Erməniyə xoş gəlsin deyə "millətlərin öz müqəddəratını təyinetmə hüququndan" dəm vurdu!

Dövlətlərin ərazi bütövlüyü prinsipini arxa plana keçirdilər.

"Gedin öz aranızda razılaşın. Biz sizin qəbul etdiyiniz qərarı dəstəkləyəcəyik" - söyləməklə işğalçı ilə işğala məruz qalanı bərabər tutdular.

Elə ki, İspaniyada Barselona separatçıları hərəkətə keçdilər, sanki ağılları başlarına gəldi.

"Öz müqəddəratını təyinetmə hüququndan" ehtiyatla, bir qədər astaca danışmağa başladılar.

Çünki ABŞ-də Kaliforniya ştatı, Fransada Korsika var, Rusiya isə az qala başdan-başa müsəlman muxtar qurumlarından ibarətdir!

Amma yenə də erməniyə verdikləri dəstəkdən əl çəkmədilər!

"Münaqişənin hərbi yolla həlli variantı yoxdur", - deyə məsələni uzatmaqla Azərbaycanı işğalla barışmağa razı salacaqlarını düşündülər.

Elə ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğ"u işə düşdü, nə BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə, nə ATƏT-in Minsk qrupuna, nə sülh danışıqlarına, nə də "millətlərin öz müqəddəratını təyin etməsinə" daha ehtiyac qalmadı.

İlham Əliyev 27 illik problemi 44 gün ərzində elə ustalıqla həll etdi ki, Ermənistanın dostları erməniləri güclə Azərbaycan Ordusunun əlindən ala bildilər!

Amma müharibə dövründə gecə-gündüz Rusiyadan Ermənistana dayanmadan silah-sursat daşındı...

Xristian Gürcüstan hava məkanını Ermənistanın üzünə bağlasa da, müsəlman İran ağuşunu gen açdı, hava məkanını da, aeroportlarını da ermənilərin istifadəsinə verdi...

Həm də təkcə silah-sursat daşınmasına şərait yaratmadı.

Öz maşınlarının nömrələrini gizlədərək erməniyə yanacaq, ərzaq daşıdı, qoymadı ki, "can qardaşları" çətinlik çəksinlər...

Dəvə başını kolluğa soxaraq arxasından xəbərsiz qaldığı kimi, İran da elə bilirdi ki, Azərbaycanın onun əməllərindən, yaramazlıqlarından nə xəbəri var, nə də rəzil siyasətinin riyakarlığına kifayət qədər bələd deyil!

Üzümüzə gülüb, daldada erməniyə qardaşlıq edəndə elə bilirdilər ki, xoruzun quyruğunu görən olmayacaqdır!

Bizə "şirin quyruğu ilə oynamamağı" tövsiyə edənlər "öz quyruqlarından" "xəbərsiz" idilər!

Nə İranın, nə də Rusiyanın köməyi bir fayda verdi!

Azərbaycan Ordusu öz Sərkərdəsinə, Azərbaycan xalqı isə türk qardaşına arxalanaraq Ermənistan ordusunu məhv etdilər, diz üstə qoydular!!!

İndi özləri düşünsünlər: Biz 30 il ərzində "Qarabağ problemi" ilə məşğul olduqdan sonra onu 44 günə çözmüşüksə, indi kimsə bizimlə təzədən oyun oynaya, saqqalımıza soğan doğraya bilərmi!

Ay-hay!

Əslində, ən böyük saqqal sahibi iranlı mollalardır!

Biz isə saqqalımız olmasa da, İranın bütün riyakarlığını və murdarlığını ovcumuzun içi kimi görürük və bilirik!

❖❖❖

Ermənistan İran bazarı və yanacağı olmadan keçinmədiyi kimi, iranlılar da erməni çaxırı içmədən dayana bilmirlər!

Sonra da ağızlarını yaxalayıb namazlarını qılırlar!

Məhəmməd Peyğəmbər salavatullahın məşhur bir kəlamını xatırlatmaq yerinə düşər: "Qəsb edilmiş kərpiclə tikilən xanə xaraba qalmağa girovdur!"

Oğurlanmış daş, taxta, dəmirlə tikilən evlər haram sayılır!

Ona görə də İranda tez-tez zəlzələlər baş verir.

Çünki haram daş-divar uzun müddət duruş gətirə, dik dayana bilməz!

Gec-tez oğrunun, qəsb edənin başına uçaraq altında qalanın qəbrinə çevriləcəkdir!

❖❖❖

İran özünü dünya şiəliyinin rəhbəri, dini dövlət sayır!

* Heç görün həqiqi müsəlman da Allahın evini uçuranla, məsciddə donuz saxlayanla dostluq edər?

* Heç görün məsciddə inək saxlayıb onu murdarlayanla çörək kəsib, çaxır içib, alış-veriş edərlər?

* Heç görün onun müqəddəs kitabını və dinini təhqir edənlə qucaqlaşıb öpüşərək konsulluq əlaqələri qurarlar?

Görəsən, çarşab örtmədiyindən saçı görünən ana-bacıları döyüb qətlə yetirənlər məscid, Quran, din düşmənləri ilə niyə bu qədər mehribandırlar?

Axı bu məzlum qadınlar dini, məscidləri təhqir etmirlər, yalnız geyim azadlığı istəyirlər!

Bəlkə, bu qarşılıqlı "məhəbbət" hər ikisinin soyadının "yan"la qurtarmasından qaynaqlanır?!

❖❖❖

Rusiya sülhməramlı qüvvələri bu bölgəyə "təzə" gəliblər...

İndi Qarabağda nə Volski var, nə də erməniləşdirilmiş 366-cı alay!

Doğrudur, 102-ci ordu ordadır!

Amma onlar heç zaman Azərbaycanla açıq döyüşə girməyiblər!

İndiki məqamda necə, ermənilərin yerinə bizimlə döyüşərək ölmək istəyərlərmi?

Bu günlərdə Belarus Prezidenti A.Lukaşenko bu barədə açıq və ucadan danışıb: "Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ermənilərin əvəzinə döyüşərək onların yerinə ölmək fikrində deyil!"

Rusiya sülhməramlıları Qarabağa "sülhü qorumağa" gəliblər!

Həm də Azərbaycanın icazəsi ilə və bəlli müddətə gəlib!

Üçtərəfli Bəyanatın məlum bəndlərinin yerinə yetirilməsini təmin etməyə gəlib!

* O başqa məsələdir ki, hazırda ermənilərlə işbirliyindədir!

* O başqa məsələdir ki, erməni silahlılarını Qarabağdan çıxarmaq əvəzinə onları gizlincə (hamının bildiyi fakta "gizli" demək mümkündürsə) silah-sursatla təmin edir!

* O başqa məsələdir ki, onun gözü qarşısında müntəzəm olaraq Xankəndidə Azərbaycan əleyhinə kütləvi aksiyalar keçirilir!

Rusiya sülhməramlıları nəinki belə hoqqabazlığın qarşısını alır, heç qisasçılara yerini göstərərək, həqiqi sülhyaratma ilə məşğul belə olmur!

Əksinə, "artsax"a "təzə baş nazir" gətirərək, yeni oyunlar qurur.

Belə oyunların bir qismi də ermənilərə rus pasportunun paylanması, "rus icması" yaradılması, kilsələr tikilərək, yeni yaşayış qəsəbələrinin salınmasıdır.

Amma görünən budur ki, tezliklə bu oyunlara ermənilərin özləri son qoyacaqlar:

* Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxmaqla;

* Anti-Rusiya çağırışlarını gücləndirib rus bazasının Gümrüdən çıxarılmasını tələb etməklə;

* Qərbin qucağında oturaraq Rusiyaya dirsək göstərməklə!

❖❖❖

Erməni yiyəsini yıxmış atdır!

Erməni satqınlığa, ağasını vaxtaşırı dəyişməyə adət etmiş millətdir!

Erməni həmişə güclünün yanında yer almağa alışıb!

Erməni məğlubiyyətin acı nəticələrini get-gedə daha dərindən hiss edərək yaşamaq və ölüb-qalan dövlətini qoruyub saxlamaq hayındadır!

Erməni səbirsizliklə Rusiya-Ukrayna müharibəsinin nəticələrini gözləyir.

Həm də kimin yanında olacağını artıq qətiləşdirərək gözləyir!

❖❖❖

Gözəl bir Azərbaycan atalar sözü var:

Dostunu mənə göstər, kim olduğunu sənə deyim!

Görünən budur ki, bu gün (hətta dünən də və sabah da) İranın ən yaxın dostu ermənilər və Ermənistandır!

Ayrı qazanıb, bir yeyirlər!

Biri əlində müqəddəs Qurani-Kərimi tutub, o biri boynundan xaç asıb.

Hər ikisi saxta dindardır!

Birincisi dünyada terroru dəstəkləməklə, dini dəyərləri rəzil siyasətinin alətinə çevirməklə islamı dayanmadan hörmətdən salır.

O birisi isə əsrlərboyu kilsə oğurluğu, torpaq oğurluğu, mədəniyyət və "tarixi abidə"lər oğurluğu ilə məşğul olur.

Ermənistan məlumdur, ağasına - Rusiyaya xidmət edir.

İndi isə onunla yanaşı, elə İran da Rusiya haçan, hansı havanı çalsa, ona oynayır.

Bu zaman dinlərini də, dövlətlərini də, millətlərini də unudaraq əlaltıya çevrilirlər.

Müsəlman İranı ilə qriqoryan ermənini təkcə kölə psixologiyası, bir də türkə, azərbaycanlıya nifrət hissi birləşdirir.

Bu hiss onları ayrılmaz dosta da çevirir!

Amma bir şeyi unudurlar: batmaqda olan gəmini tərk edən siçovullar kimi tezliklə girməyə deşik belə tapa bilməyəcəklər!

Biri içəridən çürüyür, digəri çöldən boğulur!

Ağaları isə başını soxduğu motaldan çıxara bilmir ki, bilmir!

Çünki xalqına qənim kəsilənlərin, millətini, vətəndaşlarını qırğına verənlərin nə axırı olur, nə də xoş aqibəti!

❖❖❖

Artıq yeni dövr, yeni zaman başlayıb!

Həm də bu dövr və zaman haqqa, ədalətə, güclünün gücünə işləyir!

Azərbaycan daha BMT qətnamələrinə güvənmir.

Azərbaycan daha beynəlxalq hüquqa güvənmir.

Azərbaycan daha ATƏT kimi dişsiz və barsız təşkilatlara güvənmir.

Azərbaycan Avropadan gələcək ədalətə də inanmır.

Azərbaycan yalnız özünün "dəmir yumruğ"una arxalanır!

Azərbaycan Türkiyə kimi sözünə və əməlinə sadiq qardaşına arxalanır!

Azərbaycan öz xalqına, öz ordusuna əminliklə öz həqiqətini addım-addım bərpa edir və daim edəcəkdir!

Sonda bir sınanmış həqiqəti də xatırladırıq:

Aqressorun, zəifin, məğlubun yanında yer almaq uçurumun kənarında dayanmağa bərabərdir!

Cəhənnəmə getmək istəyənlər isə həmişə özlərinə yoldaş tapırlar!

***15 noyabr 2022-ci il***

## Qalibin məğlublara yeganə şərti

*Müzəffər Ali Baş Komandan İlham Əliyev kapitulyant ölkəyə sonuncu xəbərdarlığını etdi*

Müzəffər Ali Baş Komandan İlham Əliyev Novruz bayramı münasibəti ilə Azərbaycan xalqına növbəti müraciətini etdi.

Həm də məğlub, kapitulyant Hayastana və onun havadarlarına sonuncu xəbərdarlığını edərək son sözünü söylədi!

Üstəlik, Baş Sərkərdəmiz qalib görkəmi, məğrur duruşu, vüqarlı baxışı, sıxılmış "dəmir yumruğ"u, qətiyyətli səsi, özünəməxsus məntiqi və təkzibolunmaz faktları ilə ağlı çaşanlara yerlərini göstərərək meydan oxudu!

Üç cəbhədə - müharibə, diplomatiya və informasiya meydanında düşməni ağır məğlubiyyətə uğradaraq qarşısında diz çökdürən Müzəffər Ali Baş Komandanımıza necə də yaraşırdı bu şahanə duruş, sərt və qəti mövqe nümayişi!

Artıq bütün dünya Azərbaycan Prezidentini sözü ilə əməli bir olan dövlət başçısı kimi tanıyır.

Hamı şahiddir ki, İlham Əliyev dediyini edir!

Odur ki, cənab İlham Əliyevin növbəti dəfə dediklərini və etdiyi xəbərdarlıqları da qəbul etmək zorundadırlar!

❖❖❖

Gah Rusiyaya qarşı "xalqın etirazı"nı təşkil edən, gah da ona yalvaran, Qərbdə özünə yeni ağa axtaran, İranla cici-bacı olan, böyük bacısı Fransanın əli ilə beynəlxalq təşkilatlarda məsələ qaldıraraq dəstək axtaran, "konyak diplomatiyası"nı yenidən işə salaraq korrupsiyalaşmış Avropa Parlamentində qərarlar qəbul etdirən Hayastan sülh müqaviləsini imzalamaqdan boyun qaçırır.

Üç ilə yaxın zaman keçməsinə baxmayaraq, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın maddələrinin birinə də sonadək əməl etməyib.

Halbuki müharibənin dayandırılması, danışıqlara başlanaraq sülh müqaviləsi imzalanması üçün neçə dövlət başçısının zəhləsini tökərək dayanmadan zənglər etmiş, neçə prezidentin dabanını yalamış, yalvar-yaxarla Azərbaycanın dövlət başçısına minnətçi salmışdı.

Xeyli xahiş-minnətdən sonra Prezident İlham Əliyevin irəli sürdüyü bütün şərtlərin əks olunduğu sülh müqaviləsinin bağlanacağı təqdirdə hərbi əməliyyatları dayandırmağa razılaşmışdı.

Rusiya Prezidenti Vladimir Putinlə Azərbaycanın dövlət başçısı İlham Əliyev aşkarda, televiziya kameraları qarşısında, məğlub və miskin erməni baş naziri Paşinyan isə gizlində, gözə görünmədən üçtərəfli Bəyanatı imzaladılar.

Əlbəttə, kimsə öz adına, imzasına əhəmiyyət verməyə bilər.

Azərbaycan Prezidenti İlham Əliyevin isə sözü ilə əməli birdir və sonadək daha neçə dəfə təsdiqlənmiş birgə bəyanatların bütün bəndlərinin tam şəkildə icrasında israrlıdır!

Görünür, Paşinyanın ya ağlı çaşıb, ya da yaddaşı itib:

* Sanki İkinci Qarabağ müharibəsində uzun illər "məğlubedilməz" adlandırdıqları ordularının məhv edildiyini unudub!

* Sanki itkilərinin tam sayı barədə hələ də xalqa dəqiq informasiya verməkdən necə çəkindiyini xatırlamır!

* Sanki on bir min əsgər və zabitinin silahını ataraq fərari kimi qaçdığını yaddan çıxarıb!

* Sanki Ağdam, Laçın və Kəlbəcər kimi möhkəmləndirilmiş, xüsusi istehkam, səngər və atəş nöqtələri, mina sahələri ilə qorunan rayonları bir güllə belə atmadan məcbur olub geri qaytardığından xəbəri yoxdur!

* Sanki indi əməl etmək istəmədiyi sülh müqaviləsinin bağlanması üçün kimlərə nə qədər yalvardığını, özünü alçaltdığını yaddaşından silib!

Xam xəyallara düşüb:

* Elə zənn edir ki, İrandan, Hindistandan aldığı silahlar, gətirdiyi muzdlular sayəsində yenidən güclənərək Azərbaycana üstün gələcək.

* Elə bilir ki, kimsə gəlib onun əvəzində döyüşəcək, öləcək, Qarabağı alıb təzədən ona verəcək.

* Elə fikirləşir ki, haralardasa, hansı yollasa, kiminsə vasitəsi ilə (yaxud diasporun pulu) çıxartdırdığı qərarlar nəyisə dəyişəcək, Azərbaycanın mövqeyinə və iradəsinə təsir edəcək.

AY-HAY!

Elə bu ağılla torpaqları vaxtında qaytarmadınız ki, indi çaş-baş vəziyyətdə qalmısınız.

Şübhəsiz, Azərbaycan Prezidentinin Novruz bayramı münasibətilə Talış kəndindən etdiyi müraciəti hamınız eşitmisiniz!

İndi isə yadda möhkəm saxlayın:

Azərbaycan qalib ölkədir!

* Güclü ordusu, ən yeni və müasir silahları var!

* Güclü iqtisadiyyata, yüksək beynəlxalq nüfuza malikdir!

* II Qarabağ müharibəsindən sonra ordusunu yenidən silahlandırıb, sərhəddə müasir hərbi şəhərciklər salıb, yeni komando qüvvələri hazırlayıb və onlara müntəzəm təlimlər keçir!

* Ölkənin müdafiə sənayesi yeni silahlar (sizin hələ görmədiyiniz və "dadına baxmadığınız") istehsalını qaydaya salıb!

* Dövlət başçısı son sözünü və qəti mövqeyini bildirib, kimsə onu iradəsindən heç zaman döndərə bilməz!

* "Dəmir yumruq" artıq hazır vəziyyətdədir, əzicilik qabiliyyəti isə həmişəkindən də yüksəkdir!

Bütün bunları yaddaşları təzələmək üçün söylədik!

❖❖❖

Azərbaycan ona görə səbir edib gözləmir ki, guya, kimdənsə, yaxud nədənsə qorxur.

ƏSLA!

Azərbaycan zəruri və vacib saydığı işləri görür və bir an belə dayanmır!

Əslində, zaman Azərbaycanın xeyrinə işləyir!

Buyurun, baxın:

* Qeyd etdiyimiz kimi, ordu əvvəlkindən də qüdrətli vəziyyətə gətirilib;

* Qarabağın və Şərqi Zəngəzurun bərpası və dirçəldilməsi prosesi yüksək sürətlə gedir;

* Böyük qayıdış proqramına uyğun olaraq nəzərdə tutulan bütün işlər planlı qaydada görülür, məcburi köçkünlər hissə-hissə geri dönürlər;

* Yeni yollar çəkilir, dəmir yolu xətti salınır, ilin bütün fəsillərində Laçın və Kəlbəcərə rahat gediş-gəlişi təmin etmək üçün dağların altından tunellər qazılır;

* Çayların qarşısı kəsilərək süni göllər yaradılır, elektrik stansiyaları tikilir, suvarma kanalları çəkilir və təmir olunur;

* "Smart" tipli yaşayış məntəqələri inşa olunur, məktəblər, uşaq bağçaları açılır, geri qayıdanlar üçün iş yerləri yaradılır;

* Zəngəzur dəhlizinə aparan avtomobil yolunun 70, dəmir yolunun isə 40 faizi artıq hazırdır;

* Şuşada, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Xocavənddə planauyğun şəkildə bərpa və tikinti işləri aparılır;

* Azərbaycan etibarlı sözü, təbii qazı və "yaşıl enerji"si ilə Avropaya əvəzsiz tərəfdaş olduğunu daim və dönmədən sübut edir, yeni-yeni müqavilələr bağlayır, iqtisadi imkanlarını genişləndirir, siyasi nüfuzunu yüksəldir!

Azərbaycanın xeyrinə işləyən zaman məğlub, vassal, alət dövlət olan Hayastanın miskin vəziyyətini daha da dərinləşdirir, ölkənin gələcəyini görməyən əhalinin bu perspektivsiz dövləti tərk etmələrini daha da sürətləndirir.

❖❖❖

Ağılsız siyasət yürüdən Hayastanın öz təqsiri ucundan blokada vəziyyətində qalması bir dövlət kimi onun sonunu yaxınlaşdırır.

İşğal dövründə təcrid vəziyyətində olsa da, xeyli gəlir mənbəyi də vardı:

* Azərbaycanlı əhalinin dolu vəziyyətdə qoyub çıxdığı evlərdəki əmlak və əşyaları satıb pula çevirirdilər;

* Evləri terrorçu fars qardaşları ilə sökərək dəmir, taxta materiallarını, mişar daşlarını İrandakı tikinti materialları bazarında sataraq qazanırdılar;

* Azərbaycan ərazisindəki mis, qızıl, gümüş, molibden mədənlərindəki qiymətli metalları, habelə tikinti materiallarını yağmalayıb xaricə ötürürdülər;

* Meşələri, xüsusən oradakı qiymətli ağac növlərini qırıb inşaat materialları kimi satıb sovururdular;

* İşğal ərazilərindəki elektrik stansiyalarında istehsal olunan elektrik enerjisindən məişətdə və istehsalda istifadə etməklə qabaq düşürdülər;

* Azərbaycana məxsus hazır meyvə bağlarının və üzüm plantasiyalarının məhsullarını, habelə mədən sularını öz adları ilə dünya bazarına çıxararaq satırdılar;

* Azərbaycan ərazisindəki çay və göllərin suyundan kənd təsərrüfatı məhsullarının istehsalında gen-bol istifadə edirdilər.

44 günlük Vətən müharibəsindən sonra Azərbaycan xalqı öz sərvətlərinə yenidən sahib çıxdı!

Blokadadan qurtula bilməyən Hayastan isə daha nə oğurlaya bilir, nə sata, nə də qazana.

Üstəlik, işsiz qalaraq dilənçi vəziyyətində yaşayan haylar sürətlə ölkəni tərk edirlər.

On bir min fərarisi olan, müharibə iştirakçıları və əlilləri adam yerinə qoyulmayan bu dövlətdə yeni müharibə qorxusu qarşısında başıpapaqlıların hamısı qaçıb aradan çıxır.




**Bakıda Qoşulmama Hərəkatının Zirvə görüşü.** 2 mart 2023-cü il



**Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi.** 26 oktyabr 2021-ci il



**Co Baydenlə görüş.** 31 mart 2016-cı il



**Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüş.** 24 aprel 2019-cu il



**Ali Avrasiya İqtisadi Şurasının iclası.** 25 may 2023-cü il



**Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel ilə görüş.** 14 may 2023-cü il



**Almaniya Kansleri Olaf Şolts ilə görüş.** 14 mart 2023-cü il



**Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Zirvə Toplantısı.** 13 oktyabr 2022-ci il




**Münhen Təhlükəsizlik Konfransının plenar iclası.**
18 fevral 2023-cü il



**İtaliyada beynəlxalq forum.** 2 sentyabr 2022-ci il




**Bolqarıstanda anlaşma memorandumunun imzalanması mərasimi.**
25 aprel 2023-cü il



**Qazaxıstana rəsmi səfər.** 10 aprel 2023-cü il




**Münhendə televiziya kanallarına müsahibə.** 18 fevral 2023-cü il




**Şuşa Qlobal Media Forumu.** 22 iyul 2023-cü il



**Azərbaycan və Özbəkistan prezidentlərinin Şuşaya səfəri.**
23 avqust 2023-cü il



**Kişineuda "Avropa siyasi birliyi"nin 2-ci Zirvə toplantısı.** 1 iyun 2023-cü il

Ordu Anna Akopyanın "sərkərdəliyi" ilə haxçiklərın ümidinə qalır.

Belə bir vəziyyətdə olan haylar, görəsən, kimə və nəyə arxayın olub Azərbaycanı qəzəbləndirirlər.

Artıq qaçmağa yerləri də çox dardır.

❖❖❖

Vaxt var idi elə güman edirdik ki, "Qarabağ problemi" BMT-nin 4 məlum qətnaməsi əsasında sülh yolu ilə həll ediləcək, məsələ beynəlxalq hüquqa uyğun olaraq AŞ PA-da, Aİ-nin Parlament Assambleyasında qəbul olunan qərarlarla çözüləcək.

Dünyada ədalətin mövcudluğuna, beynəlxalq hüququn işlənməsinə inanırdıq, yaxud inanmaq istəyirdik.

İkili standartların mövcudluğunu hər an hiss etsək də, özümüzü o yerə qoymur, "sülh yolu"ndan gözümüzü çəkmirdik.

Hərdən ermənipərəst qüvvələrin, ermənilərin ələ aldıqları Avropa Parlamenti deputatlarının qərəzli addım və açıqlamalarından, erməni dəyirmanına su tökən çıxış və addımlarından narahat olsaq da, yenə gözləyirdik.

Azərbaycanda mətbuat və söz azadlığının "boğulması", insan haqlarının "pozulması" ilə bağlı öz satqınlarımızın (5-ci kolonun) "arayış"ları əsasında beynəlxalq qurum və təşkilatlar tərəfindən hazırlanan "hesabat"ları oxuyanda qərəzi, yalanı açıq-aşkar görsək də, yenə özümüzə bəraət qazandırmağa can atır, əsl həqiqətin necə olduğunu ermənipərəstlərə sübut etmək üçün xeyli çabalar göstərərdik.

Artıq öz işimizi özümüz həll etmişik!

Həm də ATƏT-in Minsk qrupunun vasitəçiliyi, "sülh danışıqları yolu ilə" yox!

"Dəmir yumruq"la həll etmişik!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin yaratdığı qüdrətli Azərbaycan Ordusu sayəsində həll etmişik!

Birliyimizlə, əsgər və zabitlərimizin rəşadəti ilə, şəhidlərimizin torpağa tökülən qızıl qanı ilə həll etmişik!

İndi kim harda hansı "qərar"ı çıxarmaq istəyirsə, qoy çıxarsın.

Qoy erməni diasporu Avropa Parlamentində istədiyi qədər deputatı "konyak diplomatiyası", korrupsiya və rüşvət yolu ilə ələ alsın.

Qoy Ermənistan Avropadakı bütün "nəzarətçi"ləri yığaraq öz ərazisində sərhəddə yerləşdirsin, gecə-gündüz dayanmadan bizə "nəzarət" etdirsin, istədiyi qədər atəşkəsi pozsun.

* Artıq Azərbaycan öz torpaqlarına qayıdıb!
* Artıq Azərbaycan öz ərazisinə özü nəzarət edir!
* Artıq Azərbaycanı öz ordusu, öz əsgərləri qoruyur!
* Artıq Azərbaycanın razılığı olmadan heç bir ordu, heç bir nəzarətçi onun ərazisinə ayaq basa bilməz!
* Artıq Azərbaycanın təbii sərvətlərini kimsə talayıb apara bilməz!
* Artıq hər şey nəzarətdədir!

Hər məsələ zamanı çatan kimi həllini tapır!

Prezident İlham Əliyev nəyi, nə vaxt və necə edəcəyini hamıdan yaxşı bilir və edir də!

Azərbaycanı əsəbiləşdirmək olmaz!

Azərbaycanla hesablaşmaq, üçtərəfli Bəyanata sözsüz əməl etmək lazımdır!

Sonra gec olacaq!

Necə ki məsələnin "sülh yolu ilə həlli" gecikdirildi!

Nəticədə "dəmir yumruq" işə düşdü!

"Dəmir yumruğ"u qəzəbləndirmək olmaz!

❖❖❖

Özünə yeni ağa axtaran Hayastan öz ərazisinə "mülki missiya" adı ilə müşahidəçilər gətirdi.

Əvvəla, bu necə "mülki" missiyadır ki, onun üzvlərinin yarısını fransız jandarmasının, o biri yarısını isə alman hərbi polisinin keçmiş zabitləri təşkil edirlər?!

İkincisi, bu "mülki" müşahidəçilər gələndən sonra niyə Hayastan tərəfi xeyli ürəklənib və atəşkəsi tez-tez pozmağa başlayıb?

Üçüncüsü, "müşahidəçi"lər Azərbaycan tərəfinə baxdıqlarından, deyəsən, qulaqlarının dibində bizə sarı tuşlanan silahları "görmür", atılan güllələrin səsini "eşitmirlər".

Yoxsa təkcə biz tərəfdə "pozuntu" axtarırlar?!

Müşahidəçiləri ermənilər çağırdıqları üçün onların dediklərini də özləri eşidib əməl etməlidirlər.

Gələn gündən özlərini karlığa və korluğa qoyanların rəyi və mövqeyinin bizim üçün heç bir əhəmiyyəti yoxdur!

Azərbaycan istəmədiyi istənilən "missiya"nı, yaxud "missiya daşıyıcısı"nı qəbul etmir!

Azərbaycanın qəbul etmədiklərinin isə axırı olmur!

* Necə ki ATƏT-in Minsk qrupu dağıldı!

* Necə ki qondarma qurumun "dövlət naziri" yoxa çıxdı!

"Mülki missiya" və onun təşkilatçıları təkcə ATƏT-dən yox, yaxın tarixdə baş verən "Vardanyan əhvalatı"ndan da özlərinə ciddi nəticə çıxarmalıdırlar!

❖❖❖

Biz bundan sonra yalnız irəliyə gedəcəyik!

Bu, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sözləridir!

Elə gedirik də!

HƏM DƏ:

* Bizə qarşı törədilən bütün bədxahlıqlara və düşmənçilik hərəkətlərinə baxmadan!

* İranın və Fransanın düşmənçilik əməllərinə əhəmiyyət vermədən!

* Guya, bizə sanksiya tətbiq ediləcəyi barədə eyhamlardan çəkinib qorxmadan!

* "Konyak diplomatiyası"nın korrupsiyalaşmış "uğur"larını heçə saymadan!

Düşməndən qat-qat güclü olduğumuzu dərk edərək ədalətin və beynəlxalq hüququn tərəfimizdə olduğuna arxalanaraq, Ulu Tanrıya, ordumuzun gücünə, dostlarımızın sədaqətinə, Müzəffər Ali Baş Komandanımızın qətiyyət və uzaqgörənliyinə, hadisələri qabaqlamaq məharətinə güvənərək, yumruq kimi birləşərək gedirik!

Əgər Hayastan 29 min kvadratkilometrlik ərazidə rahat yaşamaq istəyirsə:

* Ağlını başına yığmalı və xam xəyallara qapılmamalıdır!

* Revanşist xülyalardan, Azərbaycana qarşı ərazi iddialarından dərhal əl çəkməlidir!

* Kimlərəsə arxalanaraq özgə ağzı ilə hürməməlidir!

* Avropa Parlamenti kimi korrupsiyalaşmış qurumun qəbul etdiyi boş kağız-kuğuza, baxıcı-müşahidəçiyə güvənməklə nəyəsə ümid bəsləməməlidir!

* Kiminsə gəlib onun yerinə döyüşərək, ölərək yenidən Qarabağı Hayastana qaytaracağına heç bir ümid bəsləməməlidir!

* Azərbaycanın nə vaxtsa zəifləyəcəyi, əlinə fürsət düşəcəyi və qisas alacağı kimi sərsəm yuxularının çin çıxacağına sadəlövhcəsinə inanmamalıdır!

* Ən əsası daim hazır vəziyyətdə gözləyən "dəmir yumruğ"u unutmamalıdır!

Onun nicatının bircə yolu var:

İmzaladığı bəyanatın şərtlərini tez bir zamanda yerinə yetirməlidir!

❖❖❖

"Dəmir yumruğ"u ilə yeni reallıqlar yaradan, erməni ordusunu məhv edərək Azərbaycan torpaqlarından qovan Müzəffər Ali Baş Komandan İlham Əliyevin düşmən qarşısında bir şərti var:

"Ermənistanın 29 min kvadratkilometrlik ərazidə rahat yaşaması üçün bir şərt var - bizim şərtlərimizi qəbul etməlidir, rəsmən Qarabağı Azərbaycan ərazisi kimi tanımalıdır, bizimlə sülh müqaviləsi imzalamalıdır, bizim şərtlərə əsasən, delimitasiya işlərini aparmalıdır. Ancaq o təqdirdə onlar 29 min kvadratkilometrlik ərazidə, - hansı ki indi onlar ancaq bunu istəyirlər, - rahat yaşaya bilərlər".

Əgər Hayastan rəhbərliyi bu dəfə də kiməsə, yaxud nəyəsə güvənərək sülhdən yayınsa, ərazi iddialarını davam etdirsə, İkinci Qarabağ müharibəsindən betərini alacaqdır!

Bəli, Azərbaycanın yalnız bir şərti var!

Bircə şərti!

Bütün şərtlərinin danışıqsız yerinə yetirilməsi şərti!

Sonra gec olar!

❖❖❖

***PS.** Novruz bayramı şənlikləri başa çatmamış Müzəffər Ali Baş Komandan İlham Əliyev dediyini etdi!*

*Bir güllə atıb, bir damcı qan tökmədən ordumuz Laçın yoluna alternativ olan torpaq yolu nəzarətinə götürdü!*

*Beləliklə, həm ermənilərin gizlincə silahlanmalarının, həm də Hayastana xəlvəti gediş-gəlişin qarşısı alındı!*

*Üstəlik, RSK-ni erməniyə vaxtaşırı qulluq göstərmək "əziyyəti"ndən də qurtardı!*

*Həm də bir daha yüksək peşəkarlığını və hazırlıq vəziyyətini nümayiş etdirdi!*

*Bəli, Müzəffər Ali Baş Komandan İlham Əliyev heç zaman sözü havayı söyləmir!*

*Dedisə, deməli, edəcəkdir!*

*Bu da sözlə əməlin birliyinə daha bir nümunə!*

***28 mart 2023-cü il***

## Səbrimizi sınağa çəkməyin!

*Erməni vandallığı və revanşizminin yeni təzahürləri*

Haylar İrəvanda daha bir şərəfsizlik etdilər.

İştirakçıların təhlükəsizliklərinə qabaqcadan zəmanət verdikləri beynəlxalq idman tədbiri zamanı bayrağımızı əldən qaparaq yandırdılar.

Bununla növbəti dəfə:

* Alçaq və yalançı olduqlarını dünyaya göstərdilər;

* Faşist xislətində qaldıqlarını bütün cahana nümayiş etdirdilər;

* Hələ ağıllanmadıqlarını, qisasçılıq hissi ilə yaşadıqlarını və yandıqlarını sübut etdilər.

Həm də bir daha yalnız dinc, silahsız, sülh niyyətli insanlar qarşısında "qəhrəmanlıq" edə bildiklərini ortaya qoydular.

Əsl ermənilik də bax budur!

❖❖❖

İndi bu "igidliyi" edən haylar dünən qarşımızda diz çökərək müharibəni dayandırmağımız üçün bizə yalvarırdılar.

Dünyanın bir sıra dövlət başçılarını minnətçi salırdılar.

Onun-bunun dabanını yalayaraq bizdən aman diləyirdilər.

Təzədən dönüb "kişi" oldular?!

Yoxsa II Qarabağ müharibəsində onlara verdiyimiz dərsləri, necə darmadağın edib "dəmir yumruq"la başlarını əzməyimizi unudublar?!

Onda tülküyə dönmüşdülər, canlarını qurtarmaq üçün girməyə deşik axtarırdılar.

Təzədən "qəhrəman"a çevrilən bu dığalar iki il əvvəl Müzəffər Ali Baş Komandan İlham Əliyevin yaratdığı möhtəşəm ordu qarşısında aciz və miskin vəziyyətdə qalmışdılar.

Üçrəngli qələbə bayrağımızın:

* Füzulidə

* Cəbrayılda

* Zəngilanda

* Qubadlıda

* Hadrutda
* Ağdamda
* Laçında
* Kəlbəcərdə
* Şuşada

ucaldılmasının qarşısını heç bir vasitə ilə ala bilmədilər!

"Məğlubedilməz" adlandırdıqları orduları çox qısa bir vaxtda on bir min nəfər fərarisi olan qorxaqlar dəstəsinə çevrildi!

Anna Akopyanın "yaratdığı" qadın "döyüşçüləri"nin ümidinə qalmışdılar.

Yoxsa "kişilik"lərini sülh elçiləri sayılan idmançılara, əsir düşmüş silahsız əsgərlərə göstərməyə başlayıblar?!

Niyə unudurlar ki, bizim:

* 44 gün ərzində düşməni "dəmir yumruq"la əzib təslim edən əsgər və zabitlərimiz;
* ən çətin döyüş tapşırıqlarını çox asanlıqla yerinə yetirən komandolarımız;
* yalançı qəhrəmanların canına vic-vicə salan xüsusi təyinatlılarımız;
* başlarına hər yerdə və hər zaman od yağdıra bilən pilotsuz uçuş aparatlarımız var!

❖❖❖

Azərbaycan sülh istəyir, sülh sazişi bağlamaq istəyir!

Amma bunu alicənablıqla güzəştə gedərək, humanizm göstərərək edir.

"Dəmir yumruq" hər zaman hazır vəziyyətdədir!

Müzəffər Ali Baş Komandan İlham Əliyev daim dediyini edəndir!

Sonuncu şərti isə bu oldu:

Azərbaycanın bütün şərtləri sözsüz yerinə yetirilməlidir!

Başqa yol yoxdur!

Kiməsə, nəyəsə arxayın olub axmaq fikirlərə düşmək mənasızdır!

* Nə "böyük bacı"ya;
* Nə Avropadan gəlmiş müşahidəçilər dəstəsinə;
* Nə "köhnə dostlar"a;
* Nə "din ayrı" qardaşlara;
* Nə təzə əldə olunan xırda-para silahlara güvənmək heç bir fayda verməyəcək!

Onsuz da Azərbaycan istədiyini edib və edir!

Onsuz da Müzəffər Ali Baş Komandan İlham Əliyev dediyini edib və son xəbərdarlıqlarından da hamının xəbəri var!

Səbir kasamızı daşırtmayın!

Verdiyimiz "güzəşt günləri"ndən sui-istifadə edərək məsələni uzatmayın!

Nə özümüzü, nə də səbrimizi cılız hərəkətlərlə sınağa çəkin!

Hər şey Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi olacaq!

Hər şey Azərbaycan xalqının istədiyi kimi olacaq!

Daha sizi 27 il gözləyəsi deyilik!

Revanşist, qorxaq, gündə bir ağa tapıb ona yalmananların, gündə bir söz verib sonra dalından qaçanların bircə əlacı qalır:

"Dəmir yumruq"!!!

O da bizdədir!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamındadır!

***18 aprel 2023-cü il***

## Yeni intibah dövrünün müəllifləri və ayrılmaz dostlar

Qardaşlar həmişə dost olmurlar.

Həqiqi və səmimi dostlar isə bir-birilərini qardaşdan da artıq sevirlər!

Qardaş qədər istədiyin, səmimi və etibarlı dostun olması hər kəsə də nəsib olmur.

Bu, Allahın insanlara verdiyi böyük nemət və ərməğan sayılır.

Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluğunu və qardaşlığını bütün dünya görür, bilir.

Türkiyəni və Azərbaycanı sevənlər bu dostluqla sevinir, fəxr edir, qürur duyurlar.

Bədxahlarımız isə uzaqdan həsədlə, paxıllıqla, qibtə ilə baxır, pərişan olurlar.

Prezident İlham Əliyevin təbirincə desək, sevinən qoy sevinsin, sevinməyən isə kor olsun!

Həqiqət budur ki, müasir dünyada İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan kimi bir-birilərinə, hörmət və ehtiramla yanaşan, dar gündə bir-birinin yanında olan nə dövlət başçıları var, nə də həqiqi və səmimi dostluğun şirin barından bəhrələnən dövlətlər!

❖❖❖

Hər iki xalqın dostluq və qardaşlıq haqqında çoxlu müdrik sözləri, fikirləri var.

Hətta hamısını bir yerə toplasan, qalın kitab olar.

Onlardan ikisini xatırlatmaq istəyirik:

"Tək əldən səs çıxmaz" və

"Güc birlikdədir!"

Bəli, iki əlin birləşməsindən yaranan səs gur və güclü olur!

Belə səsi hamı eşidir!

Tək adamın gücü çatmadığı yükü isə əl-ələ verərək qaldırmaq mümkün və asan olur!

Bütün bunlar hər birimizin dəfələrlə şahidi olduğu, həyatın və zamanın sınaqlarından çıxmış gerçəkliklərdir.

❖❖❖

Tarixən Türkiyənin qüdrətli başçıları, iqtisadi cəhətdən güclü dövlətləri olub.

Ötən əsrin son dönəmlərində Turqut Özalın və Süleyman Dəmirəlin rəhbərlik etdikləri dövrü türk qardaşlarımız tez-tez xatırlayırlar.

Azərbaycanda da sovet dövründə və müstəqilliyin ilk illərində Ulu Öndər Heydər Əliyevin ölkəyə rəhbərliyini heç zaman unutmur və daim minnətdarlıqla anırlar!

Türk tarixinin xatırlanan dönəmində və Azərbaycanın sovet zamanında nə qədər uğurları, iqtisadi imkanları olsa da, daxili və xarici siyasət məsələlərində tam sərbəstlikləri, müstəqillikləri olmayıb.

Türkiyə NATO-nun üzvü kimi təkcə öz maraqlarını deyil, alyansın digər dövlətlərinin də maraqlarını nəzərə almalı olub.

Məsələn, Azərbaycanın yenicə müstəqillik qazandığı bir vaxtda Naxçıvanın ən ağır dövründə orada yaşayan Ulu Öndər Heydər Əliyev Türkiyənin ozamankı baş naziri Süleyman Dəmirəldən kömək istədi.

Türk qardaşlarımız blokadada yaşayan naxçıvanlılara yardım göstərmək üçün "Ümid körpüsü" tikdilər, bütün zəruri yardımları göstərdilər.

Xalqımız hər an bu təmənnasız dost yardımını minnətdarlıqla xatırlayır.

Lakin Kəlbəcərin işğalı zamanı mülki vətəndaşların təxliyəsi üçün Süleyman Dəmirəl iki mülki vertolyot ayıra bilmədi.

Bu, NATO-nun hərbi əməliyyatlarda iştirakını təsdiqləyəcək addım olardı...

Ulu Öndər Heydər Əliyev sovet Azərbaycanına rəhbərliyi dövründə respublikanı güclü inkişaf yoluna çıxardı, SSRİ-nin qabaqcıl regionlarından birinə çevirdi.

Amma xarici siyasət məsələləri Moskvanın müstəsna səlahiyyətində olduğundan Türkiyə ilə əlaqələr qurmaq, yaxınlaşmaq, açıq-aşkar şəkildə dostluq etmək mümkün deyildi.

Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan öz rəhbərliyi dövründə Türkiyənin yeni intibahının yaradıcısı oldu:

* Ölkəni iqtisadi cəhətdən qüdrətləndirdi, ən yeni texnologiyaların tətbiqini, çox sahədə dünyada birincilər sırasına çıxmasını təmin etdi;

* "Feto"nun dövlətin təhlükəsizliyinə qarşı yönəlmiş xain və xəyanətkar əməllərinə birdəfəlik son qoydu;

* Türkiyənin yalnız öz maraq və mənafelərini güdən müstəqil daxili və xarici siyasət yürütməsinə birmənalı şəkildə nail oldu;

* Ölkənin müdafiə sənayesini gücləndirdi, yeni texnologiyalara əsaslanan ən müasir PUA-ların, modern silahların hazırlanmasını və istehsalını qaydaya saldı;

* Tarixində ilk dəfə Türkiyəni qaz istehsalçısına çevirdi;

* Türk dövlətlərinin birliyinin yaranmasına, birgə əməkdaşlıqlarına böyük töhfələr verdi!

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən, onun yarımçıq qalmış işlərini uğurla həyata keçirən İlham Əliyev də Azərbaycanın yeni intibahının müəllifi oldu:

* Yalnız xalqın və dövlətin maraqlarına xidmət edən müstəqil daxili və xarici siyasət yeritdi;

* Azərbaycanı Cənubi Qafqazın ən güclü dövlətinə və söz sahibinə çevirdi;

* Türkiyə və Azərbaycana böyük faydalar gətirəcək "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərini işə saldı;

* Açıq dənizə çıxışı olmayan Azərbaycanı beynəlxalq nəqliyyat logistika mərkəzinə çevirdi;

* Azərbaycanı Avropanın ən etibarlı tərəfdaşı kimi tanıdaraq ölkənin dostlarının sayını artırdı;

* Dəyərli təşəbbüsləri, qabaqlayıcı addımları və uzaqgörənliyi sayəsində Azərbaycanın dünyada nüfuzunu artırdı, mövqelərini möhkəmləndirdi;

* Otuz il işğal altında qalan torpaqları 44 günlük Vətən müharibəsində azad edərək Azərbaycanı qalib və vüqarlı dövlətə çevirdi.

İyirmi illik rəhbərlikləri dövründə iki qardaş dövlətin yeni intibahlarının yaradıcıları olan xarizmatik dövlət rəhbərlərinin səmimiliyi və mehribanlığı, möhkəm dostluğu və qardaşlığı nə qədər fərəhli, qiymətli və əzizdir!

❖❖❖

İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın prezidentlikləri dövründə Azərbaycan-Türkiyə əlaqə və əməkdaşlığının pik nöqtəyə çatması da fərəhləndirici haldır.

Vətən müharibəsindəki qələbədən az sonra bu dostluğun, qardaşlığın tarixi təsdiqinə və müqəddəs sənədinə çevrilən Şuşa Bəyannaməsi isə münasibətlərimizin əbədiliyinin mühüm göstəricisidir.

Faktlardan göründüyü kimi, bunadək də Azərbaycan və Türkiyə daim birlikdə hərəkət edib, heç zaman bir-birilərinin maraqlarına xələl gətirməyiblər.

Əksinə, qardaş olaraq tikələrini yarı bölüb, xoş və çətin günlərdə bir-birilərini yaddan çıxarmayıblar.

Bir neçə paralel fakta birlikdə nəzər salaq:

* Rəcəb Tayyib Ərdoğanın iştirak etmədiyi tədbirlərin birində Türkiyənin əleyhinə fikir söylənəndə Azərbaycan Prezidenti "Türkiyə Prezidenti burada yoxdur, amma mən buradayam", - deyə fürsətçinin ağzından vurdu!

İrəvanda keçirilən beynəlxalq ağırlıqqaldırma yarışında erməni dığasının Azərbaycan bayrağını yandırması cavabsız qalmadı. Türkiyə atletləri qızıl medal qazanaraq himnlərini səsləndirdilər, bayraqlarını qaldırarkən qələbələrini Azərbaycana həsr etdiklərini dünyanın diqqətinə çatdırdılar!

* Azərbaycan neft-qaz sərvətlərinin dünya bazarlarına çıxarılmasında, transmilli layihələrinin gerçəkləşdirilməsində qardaş ölkəni unutmayıb, daim maraqlarını təmin edib.

Belə ki, BTC, BTQ və "Cənub qaz dəhlizi" Türkiyənin ərazisi ilə dünya bazarına çıxarılıb, dost ölkənin qaz habına çevrilməsinə Azərbaycan öz töhfələrini verib!

İkinci Qarabağ müharibəsi başlayanda qardaş Türkiyə sözü, özü və silahları ilə daim Azərbaycanın yanında oldu!

* Düşmənlərimizin ciddi narahatlığına səbəb olan "F-16"lar Azərbaycan ərazisində saxlanıldı, ermənilərin havadarlarına və müdafiəçilərinə ciddi mesaja çevrildi.

Bu gün Qarabağın dirçəldilməsində türk şirkətləri yaxından və həvəslə iştirak edir, prosesin sürətlənməsinə öz töhfələrini verirlər.

* Dəhşətli zəlzələnin gətirdiyi fəlakət və dağıntılara ən çox yanan və ağrıyan azərbaycanlılar oldu. Azərbaycan xalqı təbii fəlakətin ilk günlərindən köməyə gedərək əlindən gələni etdi. İndi zəlzələdən ən çox zərər görən ərazidən biri kimi Kahramanmaraşda Azərbaycan dövlətinin yardımı ilə 1000 ev və sosial obyektləri olan yeni şəhər inşa edilir.

Səmimi qardaşlığa ən sonuncu və bariz nümunə olacaq daha bir fakt:

* Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə qüdrətli hərbi dövlətə çevrilən qardaş dövlət yenə də öz uğur və nailiyyətlərini bizimlə səxavətlə bölüşür!

Tezliklə ölkəmizdə "Bayraktar" mərkəzi yaradılacaq, Azərbaycan-Türkiyə birlikdə yeni hərbi məhsullar istehsal edəcəklər!

Türklər və azərbaycanlılar hər iki dövlətin banilərinin müqəddəs vəsiyyət kimi səslənən müdrik kəlamlarını heç zaman unutmurlar!

Mustafa Kamal Atatürk: "Azərbaycanın sevinci sevincimiz, kədəri isə kədərimizdir".

Heydər Əliyev: "Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir".

Müdrik rəhbərlərimizin söylədikləri bu qiymətli kəlamlar hər an yadımızdadır və hər dəfə öz təsdiqini əməli işlərimizdə, qarşılıqlı əlaqə və münasibətlərimizdə tapır.

❖❖❖

Bugünkü dünya neçə illərdir ki, ABŞ-nin və Avropanın timsalında lider böhranı keçirir.

Makron kimilərinin hakimiyyətə gəlməsi nəinki demokratik dəyərlərə dağıdıcı zərbə vurur, ölkə daxilində insanların narazılıq dalğalarının dayanmadan artmasına, ölkələrarası münasibətlərdə gərginliklər yaşanmasına, beynəlxalq hüququn iflicinə, ziddiyyət və qarşıdurmalara səbəb olur.

Uzun illərdir ki, qoca qitədə və ABŞ-də hakimiyyət başında görkəmli dövlət xadimləri görünmür.

Hazırkı böhranlı illərdə türkdilli dövlətlərə xarizmatik, uzaqgörən, dünyada baş verən prosesləri dərindən bilən, hadisələri qabaqlamağı bacaran, mənsub olduqları xalqın və dövlətin maraqlarını məharətlə təmin edən, yüksək diplomatik keyfiyyətlərə malik əsl liderlərin rəhbərlik etməsi hədsiz fərəh və razılıq doğurur.

İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan kimi qətiyyətli, aydın və konkret mövqeli, sözü və əməli bütöv, dünyanın digər dövlət başçıları tərəfindən hörmət və ehtiramla qarşılanan və birmənalı şəkildə qəbul olunan prezidentlərin səmərəli və möhtəşəm fəaliyyətləri sonsuz qürur doğurmaqla yanaşı, dünyaya da böyük fayda gətirir.

Rəcəb Tayyib Ərdoğanın Rusiya-Ukrayna müharibəsi fonunda dünyanı taxıl böhranından qurtarması, İlham Əliyevin qaz böhranı dövründə Avropanın dadına çatması, üstəlik, "yaşıl enerji" ilə təminatda atdığı uzaqgörən addımlar hamı tərəfindən təqdir edilir.

Türkiyədə ən yeni texnologiyalara əsaslanan müasir silahların və PUA-ların istehsalı, onların uğurla sınaqdan keçərək özünü doğrultması, müstəqil dövlət kimi ilk dəfə müharibə aparan Azərbaycanın "XXI əsrin ən yeni müharibəsi" kimi dünyaya nümunə olacaq taktika və stategiya nümayiş etdirməsi dövlətə rəhbərlik edən şəxsiyyətlərin qeyri-adiliyindən, intelektual səviyyələrindən və siyasətçi, diplomat kimi yüksək bacarıqlarından xəbər verir!

Rəhbərlərin əl-ələ verib birgə addımlar atmaları, öz dövlətlərinin imkanlarını birləşdirərək əlbir fəaliyyət göstərmələri ölkələrinə də, mənsub olduqları xalqa da fayda və mənfəət gətirir.

❖❖❖

Adətən, dövlətlər və rəhbərlər kiməsə, nəyəsə qarşı birləşirlər.

Təkcə iki dövlət üçün yox, artıq dünya üçün problemə çevrilən Rusiya-Ukrayna müharibəsi dediklərimizə əyani misaldır.

Türkiyə ilə Azərbaycanın, Rəcəb Tayyib Ərdoğan ilə İlham Əliyev dostluğu və əməkdaşlığı isə dünyanı müharibə və dağıntılardan, miqrant problemindən, ərzaq və enerji böhranlarından qurtarmağa xidmət edir!

Məhz zəmanəmizin iki müdrik və görkəmli dövlət xadiminin əlbir və əlaqəli fəaliyyəti sayəsində Türkiyə-Azərbaycan bir millət, iki dövlət və bir yumruğa çevrildi!

Getdikcə dünyada bu dostluğun dəyərini anlayanların və faydasını dərk edənlərin də sayı artır.

Tanrı bu sevgini və sarsılmaz dostluğu bizə çox görməsin!

***2 may 2023-cü il***

# Məğlub dövlət və məğlub xalq öz seçimində tələsməlidir

## *Hayastan vaxtı uzatmaqla yalnız özünə ziyan edir*

*"Delimitasiya bizim şərtlərimiz əsasında, yəni ədalətli şərtlər əsasında olmalıdır, sülh müqaviləsi beynəlxalq şərtlər əsasında olmalıdır, Naxçıvana yolumuz açılmalıdır və Qarabağda hələ də kök salmış Ermənistan ordusunun nümayəndələri oradan çıxarılmalıdır. Bu, bizim şərtlərimizdir".*

***İlham ƏLİYEV***

Müharibənin alternativi sülhdür!

Sülhün alternativi isə müharibə.

Hayastan bir dəfə sülhə gəlmədi, havadarlarına güvənərək Azərbaycandan torpaq qoparmaq istədi.

Hətta olmayan gücünə arxalanaraq "Qarabağ Ermənistandır və nöqtə", "Yeni ərazilər uğrunda yeni müharibə" deyə sərsəmləməklə bizə hədə-qorxu da gəldi.

44 günlük müharibədə Müzəffər Ali Baş Komandan İlham Əliyev düşməni diz çökdürdü, "dəmir yumruğ"u ilə başını əzdi, yalnız irəli sürdüyü şərtlər yerinə yetirildikdən sonra hərbi əməliyyatları dayandırdı!

Miskin günə salınmış forpost dövlət dağılmış ordusu, on bir min fərarisi və axmaq düşüncəsi ilə hələ də qisasçılıq niyyətindən əl çəkmir.

Yenə kiməsə, nəyəsə güvənərək özgə ağzı ilə hürür, sülh müqaviləsinin imzalanmasını gülünc bəhanələrlə, gündə bir sərsəm fikir söyləməklə uzatmağa çalışır, boş xülyalara ümid bəsləyir.

Amma haylar lap yaxınlarda aldıqları dərsdən düzgün nəticə çıxararaq əmin olmalıdırlar ki, Azərbaycanın irəli sürdüyü prinsiplər əsasında sülhdən başqa yolları yoxdur, yeni müharibə onlar üçün yeni, daha ağır məğlubiyyətlə başa çatacaq!

Bu dəfə təkcə olub-qalan ordularını yox, dilənçi dövlətlərini də itirəcəklər!

❖❖❖

30 il Hayastan özünü qalib kimi apardı.

Bizimlə yüksək tonda danışdı, havadarlarına, müdafiəçilərinə arxalanaraq torpaqlarımızdan çıxmadı, yaratdığı "yeni reallıqlar"la hesablaşmağımızı "məsləhət" gördü.

30 il ermənilər sərvətlərimizi çapıb-taladılar.

Faydalı qazıntı yataqlarını xarici şirkətlərlə birgə istismar etdilər, evlərimizi söküb daşıdılar, meyvə bağlarını, meşələri qırdılar, qarət malları hesabına farsmolla rejimi ilə işbirliyi qurdular, birlikdə oğurlayıb, birgə satdılar.

30 il ATƏT-in Minsk qrupunun həmsədrləri ilə sülh danışıqları getdi.

ATƏT-in həmsədr dövlətlərinin nümayəndələri gəldilər, yedilər, içdilər, danışdılar, getdilər, əslində isə hayları müdafiə etdilər, nə sanksiya qoydular, nə də təzyiq göstərdilər.

Əksinə, Azərbaycanı güzəştə sövq etməyə çalışdılar, beş rayonu qaytarıb, ikisini haylara güzəştə getməyə məcbur etmək istədilər, mənasız və səmərəsiz danışıqları acı bağırsaq təki uzatdılar.

Sülh danışıqları dövründə dövlət başçısı İlham Əliyev haylara heç bir məsələdə güzəştə getmədi, heç bir təsir və təzyiq qarşısında geri çəkilmədi, qətiyyətli və prinsipial mövqeyindən dönmədi, münaqişənin sülh yolu ilə baş tutmasa, digər vasitələrlə həll olunacağını qətiyyətlə bildirdi!

Sonda sözünə sahib çıxaraq dediyini də etdi!

44 günlük Vətən müharibəsində düşmən ordusunu məhv edərək başını əzdi, qarşısında diz çökdürərək kapitulyasiya aktına imza atdırdı!

30 il ipə-sapa yatmayan Hayastanı məğlub və aciz duruma salaraq Azərbaycanın şəksiz qələbəsini təmin etdi!

❖❖❖

İndi Paşinyan da, onun havadarları da Hayastanın rəzil vəziyyəti ilə barışmaq istəmir, hansısa formada Qarabağda qalmaq, Qarabağa nəsə bir status, yaxud gələcək üçün əltutar, "ümid yeri" vermək üçün hədsiz çabalar göstərirlər.

Sanki hərbi əməliyyatları dayandırmaqdan ötrü Azərbaycan Prezidentinə minnətçi düşdüklərini, yalvardıqlarını yaddan çıxarıblar.

Görünür, Hayastanın kapitulyant baş naziri Paşinyan Azərbaycanın üç cəbhədə qələbə çaldığını unudub.

Müzəffər Ali Baş Komandan İlham Əliyev "dəmir yumruğ"u ilə təkcə "qalib millət"ə, "məğlubedilməz xalq"a məxsus ordunu darmadağın etmədi, düşməni informasiya müharibəsində və diplomatiya cəbhəsində də üstələyərək biabırçı məğlubiyyətə uğratdı!

Azərbaycanı "günahkar" çıxarmaq üçün ermənipərəst dünya KİV nümayəndələrinin feyk xəbərlərini Müzəffər Ali Baş Komandanımız dəqiq və konkret faktlarla, məharətlə ifşa edərək onların qondarma "fakt"larını özlərinə qarşı çevirdi,

Hayastan ordusunun Azərbaycanın yaşayış məntəqələrini "İskəndər" raketləri, fosforlu və kasetli bombalarla atəşə tutduğunu dəqiq misallarla göstərərək dünya KİV-inin qərəzli tribunasını, əslində, düşmənin özünün ifşası platformasına çevirdi!

Haylar yenə yalanlarından, saxta "ittihamlar"ından əl çəkmək istəmirlər.

Təzədən "zavallı millət", "hüquqları tapdalanan xalq" cildinə girməyə cəhd edirlər.

Lakin onların bütün niyyətləri Azərbaycan Prezidenti İlham Əliyevin bircə ifşaedici çıxışı ilə sabun köpüyü tək partlayır!

Bunun son nümunəsinə Ali Avrasiya İqtisadi Şurasının Moskvada keçirilən iclasında şahid olduq.

Cənab İlham Əliyev təkcə Paşinyanın yalanlarını ifşa etmədi, həm də onu siyasətdən, diplomatiyadan baş çıxarmayan, siyasi debatda naşı və piyada birisi kimi rəzil vəziyyətə saldı!

Hayastan gah İrandan, gah Hindistandan silah alır, gah da Rusiyaya verdiyi pulun əvəzində ona satılacaq silah-sursatın yubadılmasından gileylənir.

Deyən gərəkdir ki, güclü, arxalı olduğun vaxtda nə etdin ki, yenidən silahlanaraq meydana girsən nə edəcəksən?

* "Böyük Ermənistan" xülyası dünya erməniliyinə bütün ermənilərdən pul yığıb müəyyən hissəsini mənimsəmək üçün lazımdır.

* "Erməni soyqırımı" haray-həşiri dünyanı gözyaşlarına inandıraraq özgə torpaqlarını zəbt etməklə cəzadan yayınmağa gərəkdir.

* Qisasçılıqla yaşayaraq faşist Njdeyə, "Nemezis" terrorçularına abidə qoymaq, xalqın başını "məğlubedilməzlik" nağıllarına qataraq hakimiyyətdə çox qalmaq üçündür.

Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 gün ərzində apardığı hərbi əməliyyatlarla, tətbiq etdiyi yeni strategiya və taktika ilə sübut etdi ki, Azərbaycan Ordusu ilə vuruşmaq Hayastanın və hayların xörəyi deyil!

Bu gün dünyanın ən güclü dövlətləri belə Azərbaycanın 44 günlük Vətən müharibəsindən öyrənir, ordularında islahatlar aparırlar.

İndi hayların yeni silahlanma və yeni qisas müharibəsi barədə düşünmələri qeyri-ciddi və özləri üçün çox təhlükəlidir.

ƏVVƏLA:

* Ölkəni blokadadan necə çıxaracaqları barədə düşünməlidirlər;

* Əhalini dilənçi vəziyyətindən xilas edərək işsizlərə iş, qaçqın düşüb evsiz qalanlara ev verməyin qayğısına qalmalıdırlar;

* Ölkədən qaçıb gedənlərin qarşısını almağı bacarmalıdırlar;

* Bu gün İrəvanın meydanlarında müharibəyə göndərilmiş övladlarını tapmaq üçün nümayiş keçirən valideynlərə cavab verməlidirlər;

* İllərdir morqlarda saxlanılan meyitlərin kimliyini müəyyənləşdirərək sahiblərinə çatdırmalıdırlar.

Ən nəhayət, dünyaya, xalqına, insanlara yalan danışmaqdan əl çəkməli, ictimai fikri yanıltmaq şakərini tərgitməlidirlər.

Həm də axı dünya əvvəlki deyil, erməni xislətinə xeyli bələd olub.

❖❖❖

Müzəffər Ali Baş Komandan İlham Əliyev son görüş və çıxışlarında, Laçında xalqa etdiyi müraciətdə mövcud vəziyyətin dərin təhlilini verib, eyni zamanda Hayastanın nə etməli olduğunu birbaşa, açıq mətnlə söyləyib.

Dövlət başçısının çıxışından bir neçə mühüm məqamı xatırladırıq:

* "Sizin kitabınız bağlandı. "Miatsum" kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə. Ona görə yeganə yol qalıb - Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dıqnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq, "parlament"i buraxmaq. Guya orada "parlament" fəaliyyət göstərir, guya orada prezident var, guya nazir var, bunlar hamısı gülməlidir. Biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə "parlament" buraxılmalıdır, özünü "prezident" adlandıran ünsür təslim olmalıdır, bütün "nazirlər", "deputatlar" və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər. Ancaq o təqdirdə hər hansı bir amnistiyadan söhbət gedə bilər".

* "Delimitasiya istəmirlərsə, olmasın delimitasiya. Onda nə olacaq, harada desək, sərhəd də orada olacaq. Onlar bilirlər ki, biz bunu edə bilərik. Heç kim onlara kömək etməz, nə Avropadan gələn pensiyaya çıxmış Fransa polisləri, nə də başqaları, heç kim".

* "Onlara ancaq o halda amnistiya düşə bilər ki, özləri könüllü olaraq bütün saxta vəzifələrini kənara qoyub Azərbaycan vətəndaşlığı üçün müraciət etsinlər. Ona da biz hələ baxacağıq".

* "Hər şəhər, hər kənd bizimdir və torpaqdan pay ola bilməz".

Bütün bu deyilənlər Müzəffər Ali Baş Komandan İlham Əliyevin qəti mövqeyi, dəyişməz prinsipləridir!

Azərbaycan səbir edirsə, bunu güzəşt kimi anlamaq ağılsızlıqdır.

Biz yenə də ilk olaraq məsələnin həllinin sülh variantına üstünlük veririk.

Birincisi, Azərbaycan sülh danışıqları üçün təklif olunan və keçirilən bütün formatlı görüşlərdə iştirak edir. Bununla da tezliklə sülh sazişinin imzalanmasında, münaqişəyə birdəfəlik son qoyulmasında maraqlı olduğunu göstərir.

İkincisi, mövqeyinin qalib mövqe, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olduğunu, həm də 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın bəndlərinin icrasında israrlığını ortaya qoyur.

Ən nəhayət, Azərbaycan danışıqların harada, hansı formatda keçirilməsindən, orada kimlərin iştirak edərək nə söyləmələrindən asılı olmayaraq daim qətiyyətli, açıq, prinsipial mövqe nümayiş etdirir və dediklərindən geriyə bir addım belə atmır!

Bütün dünya Azərbaycan Prezidenti İlham Əliyevi artıq yaxşı tanıdığından onun öz sözündən və mövqeyindən heç zaman və heç bir halda geri çəkilməyəcəyini gözəl anlayır!

❖❖❖

Son vaxtlar fərqli məkanda və müxtəlif formatda keçirilən sülh danışıqlarına kimin hansı mövqe ilə qatıldığını da hamı çox aydın bilir.

Bir də "görünən dağa nə bələdçi" - demişlər.

Avropanın maraqlarını güdən, Azərbaycanın Avropanın bu gün çox ciddi ehtiyac duyduğu təbii qaz və "yaşıl enerji" ilə təminatında etibarlı tərəfdaş funksiyasını lazımınca dəyərləndirən Avropa İttifaqı sülh müqaviləsinin ölkəmizin beynəlxalq normalara və qaydalara cavab verən beş prinsipi əsasında imzalanmasına dəstək verir.

Ermənipərəst mövqeyi və birtərəfli yanaşması, qəbuledilməz açıqlamaları ilə daim sülh danışıqlarına soxulan Fransa hədsiz canfəşanlığından əl çəkmir.

Hər dəfə Prezident İlham Əliyev tərəfindən burnundan vurulan Makron yenə öz ampluasındadır, hələ ki ruhdan düşmür...

Sözü və mövqeyi Azərbaycan tərəfindən nəzərə alınmasa belə...

Təşəbbüsü əldə saxlamağa çalışan Rusiya danışıqlarda Prezident V.Putinlə, Qarabağda isə üçtərəfli Bəyanata əsasən yerləşmiş RSK (Rusiya sülhməramlı kontingenti) ilə təmsil olunur.

Nədənsə sülhməramlılar bəyanata əsasən, üzərlərinə düşən vəzifələrin icrasını uzadır və yubadırlar.

Qarabağdakı qanunsuz erməni silahlı birləşmələri isə onların bu "səbr"indən və "dözüm"ündən sui-istifadə edirlər.

❖❖❖

Bu gün də erməni separatçıları sülhməramlıların arxasında gizlənərək ərazilərimizə atəş açır, kvadrokopterlərlə kəşfiyyat aparmağa cəhd göstərirlər.

RSK isə sanki bunları nə "görür", nə də "eşidir".

10 noyabr 2020-ci il Bəyanatının 4-cü bəndinə əsasən, Ermənistanın 10 min nəfərədək silahlı birləşməsini hələ də ərazimizdən çıxarmır.

Əksinə, onlara silah və sursat, ərzaq daşımalarında, şəxsi heyətin dəyişdirilməsində yardım göstərir.

Sual olunur: RSK buna görəmi Qarabağa gəlib?

Əslində, münaqişənin qorunub saxlanılması, ömrünün uzadılması niyyəti açıq-aşkar görünür.

Bəs haylar?

30 ildən sonra başları əziləndən, "miatsum" hərəkatı gorbagor olandan sonra yenə müharibə istəyirlər?

* Axı hələ də məhv edilən əsgər və zabitlərinin sayını dəqiq hesablayıb ictimaiyyətə açıqlamayıblar...

*Axı hələ də fərarilərinin miqdarını dəqiqliklə müəyyənləşdirməyiblər...

*Axı hələ də oğulları öldürülmüş valideynlərin qarşısına çıxa bilmirlər...

Nəyə və kimə arxalanıb üstümüzə hürürsünüz?

R.Vardanyana, A.Arutyunyana?

Yoxsa kiminsə gəlib sizin yerinizə müharibə apararaq "böyük Ermənistan" yolunda öləcəyinə inanırsınız?

Azərbaycan Ordusu qalibdir!

* Azərbaycan Ordusunun arsenalında hələ sizin görmədiyiniz və "dad"ını bilmədiyiniz çoxsaylı yeni silahlar var!

* Azərbaycan Ordusu müntəzəm təlimlər keçməklə hər an Qarabağı tör-töküntülərdən təmizləməyə hazır vəziyyətdədir!

Özünüzə yazığınız gəlsin.

Küyə getməyin.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin yaratdığı imkanlardan vaxtında bəhrələnin!

Sonra gec olacaq!

Lap gec!

❖❖❖

İki od arasında qalan Paşinyan isə vəzifəsini və canını qorumaq hayındadır.

Gündə bir söz deyib, fərqli mövqe nümayiş etdirməklə sülh sazişinin imzalanmasını uzadır.

Amma məğlub Ermənistan ordusunun vəziyyətini də, blokadada qalan ölkəsinin iqtisadi imkanlarının da hansı səviyyədə olduğunu hamıdan yaxşı dərk edən, yeni müharibənin bu forpost dövləti hansı faciələrə gətirəcəyini də ən yaxşı anlayanlardan biri elə Paşinyandır.

İndi Hayastanın gələcəyi onun əlindədir.

Seçim konkretdir:

Ya yoxsullaşaraq dalanda qalan, əhalisi miqranta çevrilən Hayastan;

Ya da beynəlxalq layihələrə qoşularaq inkişaf edən, qonşularla sülh şəraitində yaşayan dövlət.

İlk addımlarından biri atılıb.

Paşinyan Azərbaycanın Qarabağla birlikdə 86,6 min kvadratkilometrlik ərazisini tanıyıb.

Qalıb digər şərtlərə əməl etməsi.

❖❖❖

Hayastanın Azərbaycanın şərtləri əsasında sülh müqaviləsi imzalamasını istəməyənlər də var.

Həm ölkənin daxilində, həm də xaricdə.

Bu günlərdə dünyanın hay keşişləri İrəvana toplaşıb.

Hazırda erməni revanşizminin qızışdırılması funksiyasını erməni kilsəsi yerinə yetirir.

Xaricdə rahat həyat sürən, yalnız aydan-aya "miatsum" hərəkatına üzvlük haqqı verən diaspor üzvlərinin sərsəm ideologiya yolunda qurban gedənlərin taleyi vecinə deyil.

Keşişlər hərbi əməliyyatlarda əldə silah iştirak etmirlər.

Yerablurda dua oxumaqla məşğul olurlar.

Gələcək talelərini Hayastanda və Qarabağda yaşayanların özləri həll etməlidirlər!

Əgər ağıllarını başlarına toplayıb Azərbaycanın gücü və imkanları, qətiyyətli addımları ilə hesablaşmalı olduqlarını dərk etsələr, özləri üçün faydalı olar!

Seçimdə tələsmək vacibdir!

***9 iyun 2023-cü il***

# Güclü siyasi iradə

*Azərbaycanı qüdrətli və sözükeçər edən də budur*

*Bu gün bizə qarşı aparılan çirkin kampaniyanın heç bir əhəmiyyəti yoxdur və olmayacaq. Bizim iradəmizə heç kim təsir edə bilməz. Əgər Vətən müharibəsi dövründə bizim iradəmizə heç kim təsir edə bilmədisə, bu gün, təbii ki, heç kim təsir edə bilməz.*

***İlham ƏLİYEV***

Siyasət təkcə yüksək intellekt, uzaqgörənlik, zəruri biliklər, peşəkarlıq və təcrübə tələb etmir.

Siyasətdə həm də:

* ənənə;
* varislik;
* qətiyyət və prinsipiallıq;
* bütövlükdə möhkəm siyasi iradə olmalıdır!

Yaxın keçmişimizdə Azərbaycana rəhbərlik edənlərin qorxaqlığı və naşılığı səbəbindən başımıza gətirilən müsibətlər həm də zəif siyasi iradənin, daha doğrusu, iradəsizliyin nəticəsi idi.

Ə.Vəzirov SSRİ-nin ilk və son prezidenti M.Qorbaçovun Azərbaycana qoşun yeridilməsi barədəki qərarına müqavimət göstərə bilmədi.

Nəticədə paytaxt Bakıda 1990-cı ilin 20 Yanvar faciəsi yaşandı.

Sovet ordusu öz xalqına güllə atdı, yüzlərlə ölən və yaralanan oldu.

A.Mütəllibov adlarını "demokrat" qoyan bir qrup cəbhəçi - qaragüruhla bacarmadı.

Nəticədə onlar parlament çevrilişi yolu ilə iqtidara gələrək Azərbaycan xalqını müsibətlərə düçar etdilər.

Xəyanət yolu ilə Şuşa və Laçını düşmənə verdilər, naşı və səriştəsiz siyasət yürütdülər, ölkəni xaos və anarxiya, qanunsuzluqlar bataqlığına sürüklədilər.

İradəsizlik simvolu sayılan Ə.Elçibəy ortabab riyaziyyat müəllimi R.Qazıyevi müdafiə naziri, ortabab fizika müəllimi T.Qasımovu xarici işlər naziri, ortabab "obxss" İ.Həmidovu daxili işlər naziri, ortabab laborant P.Hüseynovu baş nazir, ortabab qəzet müxbiri Ə.Kərimovu dövlət katibi təyin etdi.

Nəticədə Azərbaycan bir dövlət kimi məhvolma həddinə çatdırıldı, vətəndaş müharibəsi alovlandı.

Yalnız siyasət nəhəngi Ulu Öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra bütün işlər öz yerini, öz axarını tapdı!

Onun simasında bir daha əsl siyasətçinin və yetkin siyasətin necə olmasının şahidinə çevrildik!

❖❖❖

Ulu Öndərin Azərbaycan xalqına məşhur və tarixi müraciətində İlham Əliyevlə bağlı maraqlı bir fikir də var:

"O, dünya siyasətini dərindən bilir!"

Artıq bütün dünya buna şahiddir!

Bəli, Heydər Əliyev siyasi kursunu ləyaqətlə davam etdirən Prezident İlham Əliyev yüksək biliyə, analitik intellektə, qətiyyət və prinsipiallığa, möhkəm və dönməz siyasi iradəyə malik xarizmatik liderdir!

İlham Əliyev 2003-cü ilin prezident seçkilərindən dərhal sonra bir dövlət başçısı kimi çətin sınağa çəkildi.

O ərəfədə baş nazir kimi prezident səlahiyyətlərini də icra edirdi.

Daxili və xarici xəyanətkarlar ölkədə yenidən xaos və anarxiya yaratmaq, hakimiyyəti zəbt etmək üçün xaricdəki ağalarının göstərişi ilə küçəyə çıxdılar.

İnsanlara çağırışlar etdilər, avtobusların qarşısını kəsərək sərnişinləri bayıra çıxarmaqla öz sıralarına qoşulmağa məcbur etməyə çalışdılar, "Azadlıq" meydanını "ələ keçirdilər", tribunaya qalxdılar.

Lakin başı bəlalar görmüş Azərbaycan xalqı beləl251ərinə qoşulmadı!

İlham Əliyev isə qətiyyəti və güclü siyasi iradəsi sayəsində hakimiyyət hərislərini və bu yolda hər xəyanətə hazır olanları yerlərində oturtdu!

Azərbaycan xalqı da, bütün dünya da gördü ki, hakimiyyət sükanı möhkəm və etibarlı əllərdədir!

❖❖❖

Cənab İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başladığı ilk gündən - Prezident kimi and içəndə işğala son qoyacağını, ölkənin ərazi bütövlüyünü bərpa edəcəyini Azərbaycan xalqına vəd, bütün dünyaya isə bəyan etdi!

Bunun üçün zəruri olan bütün addımları atdı, etibarlı təməl yaratdı!

* Daim Azərbaycan xalqının maraqlarını təmin edən müstəqil siyasət yürütdü!

* ATƏT-in Minsk qrupu çərçivəsində nəticəsiz danışıqları davam etdirsə də, torpaqların hərbi yolla azad edilməsi istiqamətində yorulmadan çalışdı!

* Beynəlxalq qurum və təşkilatlarda səmərəli iş apardı, Azərbaycanın siyasi nüfuzunu yüksəltdi, regionda və dünyada söz sahibinə çevirdi!

* Qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün zəruri tədbirlər gördü, xalqın milli birliyini yaratdı!

* Hər hansı dövlət və beynəlxalq təşkilat tərəfindən ölkəmizə hansısa formada müxtəlif təzyiqlərin göstərilməsinə yol vermədi, Azərbaycanın ziyanına olan heç bir sənədə imza atmadı!

Hərbi sahədə də ciddi hazırlıqlar gördü:

* Yeni gənc nəsli tərbiyə etdi, idman arenalarında ilkin sınaqlardan keçirərək, onların iştirakı ilə qüdrətli ordu yaratdı!

* Çox böyük üzaqgörənliklə ordunu ən yeni texnologiyalara əsaslanan silahlarla təchiz etdi!

* Hərbi əməliyyatlara başlamaq üçün ən uğurlu və münasib vaxt seçdi!

* 44 günlük Vətən müharibəsi dövründə hərbi əməliyyatlara məharətlə rəhbərlik edərək xalqda və orduda ruh yüksəkliyinin, döyüş əzminin qorunub saxlanılmasına nail oldu!

* Ən yeni strategiya və taktika tətbiq etməklə hərbi əməliyyatların qısa müddətdə, böyük zəfərlə başa çatmasını təmin etdi!

* Ən az itki ilə ən yüksək nəticəyə nail oldu!

* Təbii relyef baxımından çətin, düşmənin ən güclü və mürəkkəb müdafiə istehkamları qurduğu Ağdam, Laçın və Kəlbəcər rayonlarını bir güllə atmadan azad etdi!

* Hər üç cəbhədə - həm hərb meydanında, həm də diplomatiya və informasiya müharibəsində şəksiz qələbə qazandı!

* İrəli sürdüyü şərtlər yerinə yetirilməyənədək hərbi əməliyyatları dayandırmadı!

* Düşmən ordusunu məhv edərək qarşısında diz çökdürdü, kapitulyasiya aktını imzalamağa məcbur etdi!

* XXI əsrin müharibələr tarixində yeni səhifə açaraq ortaya müasir müharibə nümunəsi qoydu!

* Azərbaycan xalqını qalib xalqa çevirərək milli mənliyini özünə qaytardı, bir dövlət rəhbəri və mahir sərkərdə kimi adını tariximizin qızıl səhifələrinə əbədi həkk etdi!

❖❖❖

Azərbaycan möhtəşəm qələbə qazanaraq ərazi bütövlüyünü bərpa etsə də, mübarizə hələ də davam edir.

Diplomatik və hərbi-siyasi sahədə:

* Dünyada gərgin geosiyasi vəziyyət yaşanır;

* Bölgəmizdə yeni təhdidlər mövcuddur;

* Hayastanda revanşist qüvvələr baş qaldırırlar;

* Hayların havadarları və müdafiəçiləri nəyəsə nail olmaq üçün bütün vasitələrə əl atır, dəridən-qabıqdan çıxırlar;

Müzəffər Ali Baş Komandan İlham Əliyev bütün bunları görür və bilir, səbir və təmkin göstərir, nəyin nə vaxt və necə baş verəcəyini dəqiq müəyyənləşdirərək zamanında və məqamında lazım olanı edir!

Ordunun qüdrətinin və döyüş qabiliyyətinin artırılması daim diqqət mərkəzində saxlanılır:

* Yeni silahların alınması prosesi davam edir;

* Ölkəyə yeni pulotsuz uçuş aparatları gətirilir;

* Böyük dağıdıcı qüvvəyə və yüksək dəqiqliyə malik uzaqmənzilli raketlər alınır;

* Yeni döyüş birləşmələri, ilk növbədə, Komando Qüvvələri yaradılır;

* Xüsusi təyinatlıların say tərkibi genişləndirilir;

* Dəniz piyadalarının sayı dəfələrlə artırılır;

* Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti kimi qurumlarda xidmət edənlərin sayı və döyüş keyfiyyəti yüksəldilir!

Uğurlu iqtisadi siyasət, Azərbaycanın iqtisadi imkanlarının genişləndirilməsi bütün bu məsələlərin yüksək səviyyədə icrasına imkan yaradır!

❖❖❖

Ərazi bütövlüyünü döyüş meydanında bərpa edən Azərbaycan bu gün ordusunun qüdrətini artırmaqla yanaşı, Qarabağ və Şərqi Zəngəzurda sürətli və genişmiqyaslı bərpa və quruculuq işləri də aparır.

Bölgədə gündəliyi müəyyən edən, söz sahibi olan yenə də Azərbaycandır!

Azərbaycan yeni reallıqlar yaradıb və hamını bu reallıqlarla hesablaşmağa vadar edir!

Hayastanın özünün və havadarlarının dedikləri və istədikləri İlham Əliyevin möhkəm siyasi iradəsi sayəsində havada qalır:

* ATƏT-in Minsk qrupu artıq tarixin arxivinə verilib!
* Status məsələsi lazım olan yerə göndərilib!
* Laçında sərhəd-buraxılış məntəqəsi yaradaraq ölkəmizə kimin gəlib-getməsini özümüz müəyyənləşdiririk!
* Dünən "Qarabağ Ermənistandır və nöqtə" söyləyənlər bu gün Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Qarabağ Azərbaycandır - nida" sözlərini təkrarlayırlar!

Bütün addımlar möhkəm iradə, düşünülmüş siyasət və vahid proqram əsasında atılır!

Heç kim bizim daxili işlərimizə qarışa, burun soxa bilmir!

Biz daim ikili standartlara qarşı mübarizə aparmış, haqq-ədalət tələb etmişik!

Biz erməni vandallığına və vəhşiliyinə göz yuman beynəlxalq qurum və təşkilatları qınamış, obyektiv olmağa çağırmışıq!

Biz Avropanın və digər dövlətlərin parlamentlərində oturaraq rüşvət müqabilində erməni maraqlarını qərəzli şəkildə müdafiə edən deputatları ifşa etmişik!

Vaxtilə onlar bizdən xəbərsiz və icazəsiz Xankəndiyə gəlir, burunlarını daxili işlərimizə soxurdular!

Gələ bilirlərsə, indi də gəlsinlər!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi kimi şərtləri də dönməz və dəyişməzdir:

* Paşinyanın Qarabağın Azərbaycana məxsusluğu barədə etirafları kağız üzərində, sülh müqaviləsində də əksini tapmalıdır!
* Zəngəzur dəhlizi açılmalı, gediş-gəliş sərbəst olmalıdır!
* Xankəndidəki Hayastana məxsus on min nəfərlik qanunsuz silahlılar çıxarılmalıdır!
* Bütün növ təxribatlara son qoyulmalıdır və onu törədənlər bilməlidirlər ki, hər əməllərinin cavabını dərhal və artıqlaması ilə alacaqlar!

Biz qaliblərik!

Biz hələlik özümüzü təmkinli aparırıq!

Ancaq səbrin də hüdudu olur!

***5 iyul 2023-cü il***

## Hayastanın hiyləgər gedişləri

*Azərbaycanın real addımları və onların nəticələri*

Mərdlik yalnız insana xas olan keyfiyyətdir!

Hiyləgərlik isə insanda da olur, heyvanda da.

Heyvan hiyləni instinktlə, genində yaşatdığı "kod yaddaşı" ilə edir.

İnsanın hiyləgərliyi isə xislətində olur.

Məsələn, erməni hiyləgərliyi yalnız bu millətə xasdır.

Onun içində bicliklə yanaşı, satqınlıq, aldatmaq, etibarsızlıq, arxadan kürəyə bıçaq saplama, yaxşı gündə ağadan bəhrələnmə, yaman gündə onu düşmənə güdaza vermə və s. var.

Bu xisləti rus şairi A.Puşkin daha dəqiq ifadə edib: "Sən qorxaqsan, sən qulsan, sən ermənisən!"

Erməni həyatda nəyə nail olubsa, bu xislətinə görə "qazanıb":

Yaltaqlıqla vəzifə alıb, sonra aldadıb;

Hiylə ilə etibara nail olub;

Məqam çatanda çörəkverənini zərbə altında qoyaraq sudan quru çıxıb və s.

Erməni müəyyən müddətdə bicliyindən qazansa da, bütövlükdə bu hiylə, məkr, qırdı-qaçdılıq, etibarsızlıq, xəyanətə meyillilik, satqınlığı əsas fəaliyyət növünə çevirmək ona heç vaxt xeyir gətirməyib.

Rəhbərləri, diasporu qazanıb, xalq isə daim əziyyət çəkib, qaraçı həyatı sürüb, yoxsulluq içində yaşayıb, bütövlükdə "alət millətə" çevrilib.

Odur ki, nə özlərinin vətəni olub, nə mədəniyyəti, nə kilsələri, nə də tarixi abidələri.

Hamısını yaşadıqları yerlərdəki xalqlardan oğurlayıblar!

* Mənimsəyiblər!

* Özününküləşdiriblər!

* Öz adlarına çıxıblar!

Çünki başqa çarələri olmayıb!

Özündə olmadığına, özü yarada bilmədiyinə (hiylə ilə aldatmaq olur, yaratmaq yox) görə başqalarından oğurlayıb!

Erməni həm də mahir oğrudur!

Həm də təkcə mənəvi və mədəniyyət nümunələrini yox, torpağı da oğurlayır.

Millətin daha bir "nadir" xüsusiyyəti var.

Erməni həyasızlığı və utanmazlığı.

Çox rahatlıqla və həyasızlıqla səndən oğurladığını "dəlillər"lə sübut etməyə çalışacaq ki, elə bu onun özününküdür.

Məsələn, alban kilsələrini ələ keçirərkən üzərindəki alban nişanələrini dəyişib yerinə erməni xaçı qoymaqla, yaxud "erməni elementləri"ni müxtəlif üsullarla köhnəltdikdən sonra (məsələn, Kəlbəcərdə olduğu kimi, daşı sirkədə saxlayıb "köhnəltməklə" və digər vasitələrlə) məbədə pərçim etməklə erməni kilsəsi olduğunu "sübut" edir.

Kilsəni oğurlayandan hansı düzlük və mərdlik gözləmək olar?!

Ömrü boyu terrorla - gizlənib namərdcəsinə insanı qətlə yetirməklə məşğul olan ermənilərin ən böyük arzusu "soyqırımına uğramaq"dır.

Əsrlərdir ki, 1915-ci ildə olmayan "erməni soyqırımı"nı dünyaya qəbul etdirmək istəyirlər.

Öz millətini hiylə və qəddarlıqla qırğına verərək sonradan "yeni erməni soyqırımı" baş verdiyini car çəkərək dünyaya qəbul etdirmək istəyirlər.

Amma bütün bu hiylələrdə qazananlar erməni "rəhbərləri" (məsələn, otuzillik münaqişə dövründə ən çox qazanan Robert Koçaryan, Serjik Sərkisyan və Seyran Ohanyandır) olur, miskin xalq isə özgə torpaqlarında ölən "beyni zəhərli" oğlanlarının gizlədilmiş nəşini belə illərlə axtararaq tapa bilmirlər.

II Qarabağ müharibəsində isə erməni hiyləgərliyinin, riyakarlığının, saxtakarlığının, satqınlığının, çoxüzlülüyünün və həyasızlığının yeni variantları ilə tanış olduq!

Paşinyan variantı ilə.

❖❖❖

Hayastan saxta, qondarma dövlət olaraq Azərbaycan torpaqları hesabına Azərbaycan ərazisində yaradılıb.

Rusiyanın niyyəti Türkiyənin qarşısında özünə bir forpost dövlət qurmaq olub.

Bu zaman niyyət həm də türkdilli dövlətlər arasındakı quru yolla mövcud əlaqəni kəsmək, onları bir-birindən ayrı salmaq olub.

Məqsədlərinə çatıblar.

Haylar isə əvvəldən "peşka millət" olduqlarından hansı ağaları daha çox muzd versə, ona mütiliklə nökərçilik ediblər.

Ta özlərinə yeni, daha "səxavətli" ağa tapana qədər...

Adətən Azərbaycanın ən çətin, ən təlatümlü günlərində ondan torpaq qoparmağı bacarıblar.

Azərbaycan Xalq Cümhuriyyəti yarananda İrəvanı "məcburi razılıq"la onlardan alaraq özlərinə paytaxt etdilər, güzəşt olunan ərazilər hesabına özlərinə dövlət yaratdılar.

Azərbaycan XX əsrin sonlarında ikinci dəfə dövlət müstəqilliyinə nail olduqda 366-cı sovet alayının köməyi ilə Qarabağı və ətrafındakı iki rayonu işğal etdilər.

İşğalı əbədiləşdirmək üçün dostlarının və havadarlarının köməyi ilə bütün vasitələrə əl atdılar.

R.Koçaryan və S.Sərkisyan Qarabağda doğulmuş ermənilərdir.

Hiyləgərlik, yaltaqlıq, qəddarlıq onlara genlə keçmiş xüsusiyyətlərdir.

Torpaqların işğalında "xüsusi şücaətlər" göstərdiklərinə görə sonradan gedib Ermənistanda prezident seçildilər.

Korrupsiya və erməni xalqını talamaq hesabına dövlətdən milyardlarla dollar vəsait oğurladılar.

Sadə erməni xalqı bu yalançı millət qəhrəmanlarının əsl simalarını gördükdən sonra onlara arxa çevirdi.

Bu məqamdan istifadə edən "Soros uşağı" Paşinyan "xalq inqilabı" (əslində, Sorosun dünyanın bir çox ölkəsində törətdiyi "rəngli inqilablar"dan biri) hesabına Serjiki hakimiyyətdən qovdu.

Ermənistanın rəhbəri oldu.

İt damın kölgəsində yatar, elə bilər öz kölgəsidir - misalındakı kimi.

Bu qələbə onu eyforiyaya gətirdi.

Əsl həqiqətdə isə:

* Paşinyan siyasətdə piyadadır!

* Diplomatiyadan xəbəri belə yoxdur.

* Hələ də hakimiyyətə gəldiyi "meydan səviyyəsi"ndən yuxarı qalxa bilməyib.

* Erməni xislətinə xas keyfiyyətlərlə yanaşı, əlavə olaraq yalançı, qorxaq, qırdı-qaçdı və şəxsiyyətsizdir.

Özünü layiq olmadığı yerdə görəndə müvəffəqiyyətdən başı gicəlləndi, kreslodan bərk-bərk yapışdı.

Qorxaqlığından irəli gələn instinktlə dərk edir ki, vəzifədən getsə, ermənilər onu ya öldürəcək, ya da türməyə soxacaqlar.

Odur ki, nəyin bahasına olursa-olsun hakimiyyətdən getmək istəmir.

Bu yolda hansı sifətə desən, düşə bilir.

Təzə-təzə vəzifə havasına Azərbaycana bir "xox" gəldi:

"Yeni müharibə yeni ərazilər deməkdir".

Bununla öz ağlı ilə Azərbaycana özlərinə sərf edən sülh müqaviləsi imzalatdırmaq istəyirdi.

Hədədən bir şey çıxmadığını gördükdə bütün ermənilərə xoş gəlsin deyə özünün "məşhur" "Qarabağ Ermənistandır və nöqtə" tezisini irəli sürdü.

Paşinyan Azərbaycan Prezidenti İlham Əliyev kimi siyasət və diplomatiya nəhəngi ilə cəngə girdiyini anlamaq iqtidarında deyil!

Əslində, bununla o, lazım olan məqamda lazım olan sözü demişdi!

İlham Əliyev Hayastanın yeni başçısının bu açıqlamasına dərhal reaksiya vermədi.

Paşinyan elə başa düşdü ki, Azərbaycan bu hədələrdən qorxub və tezliklə onlar deyən sülhə gələcək.

İlham Əliyev isə ağılsız baş nazirin ağılsız bəyanatlarından çox məharətlə istifadə etdi!

Paşinyan hələ də dərk etmirdi ki, bununla o, sülh danışıqlarına nöqtə qoyub, Qarabağın kimə məxsusluğuna yox!

Cənab İlham Əliyev əvvəlcə Azərbaycanın sonadək münaqişənin sülh yolu ilə çözməsində israrlı olduğunu bir daha diqqətə çəkdi!

Çünki yaxşı bilirdi ki, Azərbaycan ilk olaraq sülh danışıqlarından imtina etsə, gələcəkdə ermənilər və onların dostları bu məqamdan əleyhimizə güclü vasitə kimi istifadə edəcəklər.

Sonra Paşinyanın bu açıqlamasını beynəlxalq tədbirlərdə - əvvəlcə "Valday" Diskussiya Klubunda, sonra isə Münhen Təhlükəsizlik Konfransında yenidən gündəmə gətirməklə ictimailəşdirdi və beynəlxalq aləmin diqqət mərkəzinə gətirdi!

Paşinyan hələ də ayılmamışdı.

Odur ki, dediklərini reallaşdırmaq üçün 2020-ci ilin iyununda Tovuz əməliyyatını törətdi.

Bununla öz aləmində Ermənistana yeni "güclü rəhbər" gəldiyi fikrini ictimai mühitə yeritmək istəyirdi.

Amma yenə də anlamırdı ki, hər addımında İlham Əliyevə lazım olanları edir.

Çünki artıq Azərbaycanda qüdrətli ordu hazır idi, əlverişli məqam yetişmişdi, Ermənistan isə rəsmən sülh danışıqlarına "nöqtə" qoymuşdu.

❖❖❖

44 günlük müharibə dövründə Paşinyanın, əslində, kim olduğunu bütün dünya lap yaxından tanıdı.

Bir neçə məqama diqqət yetirək.

Hayastanın baş naziri hərbi əməliyyatlar zamanı hökumət başçısına xaş olmayan formada öz xalqına dalbadal, sistemli şəkildə yalan danışdı.

Müharibənin ilk günlərindən uduzmalarına, hərbi texnikalarını, silah-sursatı kütləvi şəkildə ataraq qorxaqcasına qaçmalarına baxmayaraq, qalib gəldikləri, yeni əraziləri ələ keçirdikləri barədə yalan informasiyalar yaydırdı.

Hətta Azərbaycanın xüsusi təyinatlıları Şuşanı əlbəyaxa döyüşlərlə ələ keçirəndən, Şuşanı qorumalı olan Ohanyan belə qaçıb gedəndən sonra da şəhərin öz əllərində olduğunu dedi.

Artıq münaqişənin Hayastanın xeyrinə bitdiyini və hərbi əməliyyatlar başlanacağı halda yeni əraziləri ələ keçirəcəkləri ilə hədələyən Paşinyan bu xınanın o xınadan olmadığını anladı, utanmadan günlərlə çoxsaylı dövlət başçılarına zəng edərək, onları dəng edib, zəhlələrini tökərək Azərbaycan Prezidentinə minnətçi saldı, hərbi əməliyyatların dərhal dayandırılması üçün yalvar-yaxar etdi.

Xalqına yalan danışıb aldatdığına görə üçtərəfli Bəyanata, əslində, kapitulyasiya aktına Rusiyanın və Azərbaycanın prezidentləri kimi açıq şəkildə, mavi ekran qarşısında imza atmağa cəsarət və kişiliyi çatmadı!

Hansısa qaranlıq zirzəmiyə girib, sənədə qol çəkərək üzə çıxmadı.

44 gün ərzində yalvaran, ona-buna xahiş edən, daban yalayan Paşinyan hərbi əməliyyatlar dayandırılandan az sonra yenidən ermənililiyini sübut etdi:

* Sülh müqaviləsinin bağlanmasını uzatmaqdan ötrü gündə bir söz dedi.
* Bu gün söylədiyini sabah dandı.
* Gah Moskvanı aldatdı, gah Avropa İttifaqını, gah da ABŞ-ni.
* Özünü cığal küçə uşağı kimi aparmağa başladı.
* Hərdən öz ağlı ilə olsa, "hiyləgər gedişlər" də etdi.

Məqsədi danışıqlarda hər dəfə bir yalan söyləyib, fərqli mövqe sərgiləməklə ATƏT-in Minsk qrupunun boş və mənasız müzakirələrini yenidən davam etdirmək, darmadağın edilmiş ordusunu silahlandıraraq qisas müharibəsi yolu ilə torpaqları təzədən işğal etmək, müasir dünyadakı ikili standartlardan, müxtəlif ölkələrdə yaşayan satqın və rüşvətxor siyasətçilərin, parlament üzvlərinin köməyindən, korrupsiyaya yuvarlanmış beynəlxalq qurum və təşkilatların ədalətsiz və riyakar mövqelərindən istifadə etməklə Azərbaycana təsir və təzyiq göstərmək, mövcud situasiyanın öz xeyirlərinə dəyişdirilməsinə nail olmaqdır!

Ancaq bir məsələdə ciddi səhvə yol verir:

BAŞA DÜŞMÜR Kİ:

* Hiylə ağıla;
* Əyrilik gücə;
* Çoxüzlülük mərdliyə;
* Oyunbazlıq qətiyyətli mövqeyə;
* Həyasızlıq möhkəm iradəyə heç bir halda qalib gələ bilməz!

44 günlük müharibə nəticəsində Azərbaycanın yaratdığı yeni reallığı nəzərə almaq da istəmir.

YADDAN ÇIXARIR Kİ:

* Azərbaycan otuz il bundan qabaqkı Azərbaycan deyil!

* Azərbaycan güclü, nüfuzlu, sözü keçən qalib dövlətdir!

* Azərbaycan bütün parametrlər üzrə - əhalinin sayı, iqtisadi gücü, çevik və qabaqlayıcı siyasəti, möhtəşəm ordusu, dövlət başçısının müdrik addımları sayəsində Hayastandan müqayisəyəgəlməz dərəcədə üstündür!

❖❖❖

Bu gün hamının gördüyü və bildiyi budur ki, Azərbaycan Prezidenti İlham Əliyev Paşinyanın hər bir hiyləsini puça çıxarmağı, dalından qaçdığı hər sözünü fakta çevirərək özünə qarşı istifadə etməyi, bütün bicliklərini özünüifşaya yönəltməyi, özünün istəklərini isə qısa vaxtda və uğurla həyata keçirməyi məharətlə bacarır!

Məşhur müqayisəni xatırlatsaq, əjdaha ilə cırtdan vuruşa bilməz!

II Qarabağ müharibəsində hamı bu qarşıdurmanın nəticəsini əyani şəkildə gördü.

Artıq zaman Azərbaycanın xeyrinə işləyir!

Hadisələrin ssenarisini yazan, prosesləri istənilən istiqamətə yönləndirən, hansı addımı nə vaxt və necə atacağını hamıdan yaxşı bilən İlham Əliyevdir!

İndiyədək baş verənlər dediklərimizi əyani şəkildə göstərir.

❖❖❖

Hadisələrin təhlili həm də onu göstərir ki, Hayastanın baş naziri Paşinyanın hiylə hesabına etmək istədiklərini Azərbaycan artıq real olaraq həyata keçirib!

MƏSƏLƏN:

* Hayastan sülh danışıqlarını müxtəlif bəhanələrlə uzatmaqla əslində İran və Hindistandan aldığı yeni silahlar hesabına məğlub və dağıdılmış ordusunu bərpa etmək və gücləndirmək istəyindədir.

Azərbaycan müharibədən dərhal sonra kifayət qədər yeni silahlar, sursat və zirehli döyüş maşınları, təyyarələr almış, öz ordusunu əvvəlkindən də güclü vəziyyətə gətirmişdir!

Azərbaycanın iqtisadi qüdrəti hər il silahlı qüvvələrinə Ermənistanın dövlət büdcəsindəkindən də çox vəsait ayırmağa imkan verir və ayırır da!

* Ermənistan hər yeni danışıqlar prosesi ərəfəsində havadarlarının və dostlarının təhriki ilə atəşkəsi pozur, Azərbaycanın ərazilərini atəşə tutur, bəzən tələfata da səbəb olur.

Azərbaycan isə belə vəziyyətdə uğurlu hərbi əməliyyatlarla həlledici yüksəklikləri ələ keçirir və orada möhkəmlənir!

* Ermənistan RSK-nin köməyi ilə Qarabağdakı separatçıların qanunsuz silahlı qüvvələrinə mina, silah-sursat daşıyır, təbii sərvətlərimizi talamağa davam edirdi.

Azərbaycan öz ekoloqlarının dinc etiraz aksiyalarından istifadə etməklə bu özbaşınalıqlara son qoydu, 23 aprel 2023-cü ildə Laçında nəzarət-buraxılış məntəqəsi yaratmaqla sərhədlərinə sahib durdu!

* Ermənistan "humanitar fəlakət" şousu düzəldərək Laçın dəhlizi ilə bağlı Beynəlxalq Məhkəməyə müraciət etdi, dünya ictimai rəyini Azərbaycana qarşı yönəltməyə çalışdı.

Azərbaycan Beynəlxalq Məhkəmədə Ermənistana qalib gəldi, Laçın dəhlizindəki yeni postunu legitim, qanuni hüquqlar əsasında yaratdığını sübuta yetirdi, "humanitar yardım"ın yalnız Ağdam-Xankəndi yolu ilə ünvana çatdırıla biləcəyini qəti şəkildə ortaya qoydu!

Azərbaycan həm də Ermənistana və onun baş naziri Paşinyana anlatdı ki, məğlublar qaliblərə şərt qoya bilməzlər!

44 günlük Zəfər müharibəsindən sonra şərti qoyan da, ona əməl etdirən də Azərbaycandır!

❖❖❖

Hiyləgərlik uşaq oyunlarında nəticə verə bilər!

Siyasətdə isə real addımlar atılır və ona uyğun nəticələr qazanılır!

Bu gün diktə edən də, reallığı öz gedişləri ilə dəyişə bilən də, sözünə sahib çıxaraq dediyini yerinə yetirən də qalib Azərbaycandır!

* Azərbaycan gecikmir!

* Azərbaycan vaxt itirmir!

* Azərbaycan addım-addım, təmkinlə hədəflərinə yaxınlaşır!

* Azərbaycan dağılmış kənd və şəhərləri bərpa edir, tikir, qurur, cənnətə çevirir!

* Azərbaycan "Böyük qayıdış"ı reallaşdırır!

Kimin nə deməsindən, nə istəməsindən asılı olmayaraq, Azərbaycan öz iradəsini yeridir və qəbul etdirir!

Bunların nəticəsi isə Müzəffər Ali Baş Komandan İlham Əliyevin yaratdığı yeni reallıqlardır!

***16 avqust 2023-cü il***

## İradə, cəsarət, əminlik nümunəsi

*İlham Əliyev müdrikcəsinə, tədbirlə, cəsarətlə,*
*ən əsası özünəəminliklə separatçıların*
*və onların havadarlarının şah damarını kəsdi*

Taleyüklü hər bir məsələ və ya problemin həlli düşüncədən, fikirdən başlayır.

Sonra bu düşüncə amala, məqsədə, ideyaya çevrilir.

Milyonların arzu, məqsəd və ideyasını gerçəkləşdirmək üçün isə hər zaman güclü və uzaqgörən liderə ehtiyac yaranır.

Həmin lider öz siyasəti, möhkəm iradəsi, sarsılmaz qətiyyəti və dönməzliyi sayəsində ideyanı gerçəyə çevirir.

Beləliklə, milyonların arzusu və istəyini həyata keçirmiş olur.

❖❖❖

Azərbaycan ötən əsrin sonlarında ikinci dəfə dövlət müstəqilliyi qazananda qarşısında bir sıra həlli vacib məsələlər dayanırdı.

Başlıca problemi isə Qarabağ münaqişəsi idi!

Onu yoluna qoymadan bazar iqtisadiyyatı münasibətlərinə keçmək, dövlət müstəqilliyini bərpa edib möhkəmləndirmək, xalqın həyat səviyyəsini yüksəltmək müşkül görünürdü.

"Baş problem"i Azərbaycan tarixinə "maymaq dövlət başçısı" kimi düşən, "muştuluğumu verin, ermənilər qayıdıb" deyimi ilə yadda qalan Ə.Vəzirov həll edə bilmədi.

Elə bu səbəbdən də xalqın qəzəbinə tuş gəldiyindən hərbi təyyarəyə minərək ölkədən qaçdı.

"Qorxaq və qətiyyətsiz prezident" kimi ad çıxaran, "AXC-nin bəyləri" ilə ittifaqa girən A.Mütəllibov da "baş problem"in öhdəsindən gələ bilmədi.

Parlamentə mandat verdiyi "cəbhəçi bəylər" elə parlament yolu ilə də onu devirib özləri iqtidara gəldilər.

A.Mütəllibov da Rusiyaya sığınmalı oldu.

"Naşılar və səriştəsizlər iqtidarı" kimi ad çıxaran AXC-Müsavat cütlüyü dövlətçilikdən xəbərləri olmadıqları, siyasətdə piyadalıqları, şəxsi maraqlarını dövləti maraqlardan üstün tutmaları səbəbindən iflasa uğradı.

Xalq onları hakimiyyətdən süpürüb atdı!

Başı daşdan-daşa dəyən, Vətəndə vətənsizə, məcburi köçkünə çevrilən xalq üzünü sınanmış oğluna - Ulu Öndər Heydər Əliyevə tutdu!

Heydər Əliyev xalqın çağırışına səs verərək yenidən ölkə rəhbərliyinə qayıtdı.

Təəssüf ki, iş işdən keçmiş, Azərbaycanın böyük bir ərazisi işğala məruz qalmışdı.

Ulu Öndərimizin qarşısında bir sıra təxirəsalınmaz məsələlər dururdu və ilk növbədə onlar həll edilməli idi.

Ulu Öndər Heydər Əliyev problemlərin həlli üçün böyük zəhmət, qüvvə və enerji sərf etdi:

QISA BİR MÜDDƏTDƏ:

* Müharibə bölgəsində atəşkəsə nail olundu;

* Azərbaycan bir dövlət kimi məhvolmadan xilas edildi, müstəqilliyimiz əbədiliyə və dönməzliyə çevrildi;

* Ölkədə möhkəm və dönməz sabitlik yaradıldı;

* Ordu quruculuğuna başlanıldı və 1994-cü ilin yanvarında Qarabağda 22 kənd düşməndən geri alındı;

* Yeni Konstitusiya qəbul olundu, zəruri islahatlar aparıldı, bazar iqtisadiyyatına keçid təmin olundu;

* "Əsrin müqaviləsi" imzalanaraq Azərbaycanın gələcək iqtisadi inkişafı təmin edildi;

* Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə əsl həqiqətlər dünya ictimaiyyətinə çatdırıldı, Azərbaycan Avropa Şurasına üzv qəbul olundu...

Lakin vəfasız ömür Ulu Öndər Heydər Əliyevə düşündüklərini və istədiklərini sonadək həyata keçirməyə imkan vermədi.

Cənab İlham Əliyev Azərbaycana rəhbər seçiləndə onun da qarşısında çoxsaylı və təxirəsalınmaz vəzifələr dururdu.

"Baş problem" isə yenə əvvəlki idi:

Torpaqların işğaldan azad edilməsi!

İlham Əliyevin bütün fəaliyyəti hamımızın və dünyanın gözü qarşısında olduğundan təfərrüata varmırıq.

Bircə onu xatırladırıq ki, Azərbaycan Prezidenti fəaliyyəti dövründə üç mühüm məqamı daim və açıq şəkildə söyləyirdi:

* Azərbaycan bir qarış torpağını belə heç kəsə güzəştə getməyəcəkdir!

* Azərbaycan heç zaman öz ərazisində ikinci erməni dövləti yaradılmasına yol verməyəcəkdir!

* Münaqişənin həlli sülh yolu ilə baş tutmasa, digər vasitələrdən istifadə olunacaqdır!

"Digər vasitə" isə hərb yolu idi!

Beləliklə, İlham Əliyev son sözünü hərb meydanında söylədi, münaqişəni müharibə yolu ilə, həm də uğurla həll etdi!

❖❖❖

2020-ci il sentyabrın 27-si heç zaman heç birimizin yadından çıxmayacaqdır!

Azərbaycan xalqı 8 Noyabrı əsrlərboyu Zəfər günü kimi qeyd edəcəkdir!

Hərbi əməliyyatların gedişi, müharibə dövründə Müzəffər Ali Baş Komandan İlham Əliyevin daim xalqa etdiyi müraciətlər, dünya KİV-inə verdiyi müsahibələr bütün bunları görənlərin xatirindən heç zaman silinməyəcəkdir!

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyev düşmənə bütün parametrlərdə - həm hərb meydanında, həm diplomatiya cəbhəsində, həm də informasiya müharibəsində qalib gəldi!

"Dəmir yumruğ"u ilə Ermənistan ordusunu darmadağın edərək qorxaqlar və fərarilər dəstəsinə çevirdi, möhtəşəm qələbəmizi təmin etdi!

Bu döyüşlərdə böyük iradə, cəsarət və əminlik göstərdi!

Biz indi də Prezidentimizdə həmin iradə, cəsarət və əminliyin şahidiyik!

Düşmən ordusu məhv edilsə də, Paşinyan kapitulyasiya aktına qol çəksə də, hələ də onu müdafiə edənlərə arxalanaraq sülh müqaviləsinin imzalanmasını müxtəlif bəhanələrlə uzadır.

Azərbaycan xalqı isə İlham Əliyevin rəhbərliyi ilə qurub-yaratmaqla, məcburi köçkünləri doğma yurdlarına qaytarmaqla, xoşbəxt həyatlarını təmin etməklə məşğuldur!

Bəli, cəmi 8 ayda yenidən tikilib qurulan Laçın öz sakinlərini qoynuna alır!

Hələ ki, Azərbaycan səbir və təmkin göstərir!

"Dəmir yumruq" isə əvvəlkitək hazır vəziyyətdədir!

❖❖❖

"Bu gün biz bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Bunu biz müharibə dövründə göstərmişik, 44 gün ərzində ancaq və ancaq irəli gedərək, düşməni məhv edərək, bayrağımızı qaldıraraq göstərmişik. Müharibədən sonra keçən 3 ilə yaxın müddətdə də bunu sübut etməyə məcburuq. Çünki bizə qarşı aparılan kampaniya, çirkin təbliğat bizim iradəmizə təsir edə bilməz, bizi yolumuzdan döndərə bilməz".

Cənab İlham Əliyevin Laçın Şəhəri Günündə qürurla söylədiyi sözlərdir!

Həm də təkcə söz deyil, real, hamının gördüyü və bildiyi gerçəkliklərdir.

Müzəffər Ali Baş Komandanın dönməz iradəsinin arxasında həm də cəsarət dayanır!

Çünki xalqına güvənən rəhbərlər heç zaman heç bir halda heç kimdən çəkinmirlər!

* 44 günlük müharibədə Rusiyadan, İrandan Ermənistana gecə-gündüz dayanmadan silah-sursat daşındı;

* Ermənipərəst dövlət başçıları durmadan Azərbaycan Prezidentinə zənglər edərək hərbi əməliyyatların dayandırılmasını xahiş etdilər, bəzən hətta tələb etdilər;

* Dünyanın bütün satılmış KİV-ini, telekanallarını Azərbaycana göndərərək bizi borclu çıxarmağa, bizə şər-böhtan ataraq qara yaxmağa çalışdılar!

* Fransanın təşəbbüsü ilə BMT-nin Təhlükəsizlik Şurasında iclas keçirilərək Azərbaycanın əleyhinə qərəzli və birtərəfli sənəd qəbuluna cəhd göstərildi!

İlham Əliyev böyük iradə, cəsarət və təmkinlə hamısının cavabını verdi, hamısını yerində oturtdu!

❖❖❖

Şuşa yalın əllə geri qaytarıldı!

Ermənistanın məğlub ordusunun Azərbaycan ərazisindən çıxma qrafiki təqdim edilməyənədək, Paşinyan kapitulyasiya aktına qol çəkməyənədək hərbi əməliyyatlar dayandırılmadı!

Biz İlham Əliyevin dönməz iradəsinin hələ sülh danışıqları dövründə də şahidi olmuşduq.

Azərbaycanı Laçın və Kəlbəcəri güzəştə getməyə, 5+2 prinsipi əsasında iki rayondan vaz keçməyə vadar etmək istədilər.

Baş tutmadı!

Təsir və təzyiq göstərməyə çalışdılar.

Faydası olmadı!

İndi isə yeni "forma" tapıblar.

"TIR şousu" düzəldiblər.

"Humanitar fəlakət" ssenarisi oynayaraq Laçın yolundan əvvəlki kimi sərbəst istifadəyə cəhdlər edirlər.

Gah Avropadan "müşahidəçilər" gətirir, gah ölkələrindəki diplomatları və səfirləri yığaraq şəkil çəkdirməyə göndərir, gah da rüşvət və korrupsiya yolu ilə saxta "hesabatlar" və "arayışlar" hazırlatdırırlar.

Hər dəfə məğlubiyyətə düçar olaraq uğursuzluqlara yuvarlansalar da, yenə murdar niyyətlərindən əl çəkmirlər.

"Humanitar şou" iştirakçıları bu gün də Laçın-Gorus yolunda "günəş vannası" qəbul edirlər.

Yəqin ki, Laçında keçirilən ilk şəhər gününün atəşfəşanlığını da seyr etdilər.

Başda Paşinyan olmaqla Fransa, ABŞ, Rusiya, hətta BMT Təhlükəsizlik Şurası da bilir ki, bu maşınlar Laçın yolundan heç bir halda keçə bilməyəcəkdir!

İndi pərişan və çarəsiz vəziyyətə düşüblər:

İrəli getməyə gücləri, geri qayıtmağa üzləri yoxdur!

İstədikləri qədər yatıb dincələ bilərlər.

❖❖❖

Azərbaycan ərazisində bütün məsələləri Azərbaycan Prezidenti həll edir, bütün icazələri dövlətimizin başçısı verir!

İlham Əliyev isə sözünü bir dəfə deyir!

Onu da artıq deyib:

Əgər, həqiqətən, aclıq çəkirsinizsə, Ağdam-Xankəndi yolundan qanun çərçivəsində istifadə edə bilərsiniz!

Zəhmət çəkin, beton bloklarınızı və plitələrinizi necə qoymusunuzsa eləcə də götürün!

❖❖❖

"Biz istədiyimizə hər zaman nail oluruq".

Bu da Prezident İlham Əliyevin sözüdür!

Arxasında real iş, konkret əməl duran gerçək söz!

Bu il aprelin 23-də Azərbaycan Laçında öz sərhədlərinə sahib çıxmaqla nəzarət-buraxılış məntəqəsini qurdu!

Bu, bizim 44 gündə qazanılan zəfərdən sonra ikinci möhtəşəm qələbəmiz oldu!

* Azərbaycana xəyanət, fitnə-fəsad həmişə bu yolla gəlib.

* Düşmənlərimizin və onların havadarlarının erməniyə verdikləri silah-sursat bu yolla Qarabağa ötürülüb.

* Satqın və rüşvətxor siyasətçilər, deputatlar, müxtəlif ölkələri təmsil edən diplomatlar bizdən icazəsiz bu yolla ölkəmizə soxularaq separatçılara dəstək veriblər.

* Qarabağın və Şərqi Zəngəzurun bütün sərvətləri, dağıdılan evlərin materialları və qarət olunan əmlak bu yolla ölkədən kənara daşınıb.

Əslində, bu yolu - Laçın-Gorus yolunu erməni separatizminin şah damarına çevirmişdilər.

İlham Əliyev müdrikcəsinə, tədbirlə, cəsarətlə, ən əsası özünəəminliklə separatçıların və onların havadarlarının şah damarını kəsdi!

İndi isə eyni əminliklə dağıdılan əraziləri bərpa edir, 30 ildən çox qaçqın həyatı yaşamış insanları yenidən geri qaytararaq torpağının sahibinə çevirir!

* Biz sərhədlərimizin sahibiyik!

* Biz qapılarımızı istədiyimiz vaxt, həm də dostlarımızın, xoş niyyətlə gələnlərin üzünə açırıq!

* Biz güclüyük, vahidik, rəhbərimizin ətrafında sıx birləşmişik!

* Biz yaradan, quran xalqıq!

Gücümüzü düşmənə də, dünyaya da əvvəlcə hərb meydanında göstərdik!

İndi isə quruculuq meydanında birliyimizi və imkanlarımızı nümayiş etdiririk!

Nə qədər gec deyil, Prezident İlham Əliyevin şərtləri əsasında sülh müqaviləsi imzalanmalıdır!

***29 avqust 2023-cü il***

# Azərbaycan həqiqətləri və erməni yalanları

Həqiqət acı olar - demişlər.

Yalnız həqiqəti eşitmək və görmək istəməyənlər onu acı hesab edərlər.

Onsuz da həqiqət gec-tez öz yerini tutur.

Yalan ayaq tutar, amma yeriməz - söyləyirlər.

Amma yalanın ayaq tutması özü də xoşagəlməz haldır.

Deməli, kimlərsə yalana dəstək verir, onu bəsləyir, ondan istifadə etməyə çalışır.

Yoxsa yalan niyə ayaq tutsun ki...

Həqiqətdə həmişə güc olur!

Yalan isə hiyləyə söykənir.

Sonda həqiqət qalib gəlir!

Nə qədər çətin, ağır, mürəkkəb çarpışma getsə də!

Yalan isə haqsızların, ədalətsizlərin, zəiflərin silahı kimi küt olsa belə əl altında saxlanılır.

Azərbaycanla Hayastan arasında iki əsr ərzində Qarabağla bağlı gedən münaqişə, əslində, həm də həqiqətlə yalan arasında gedən mübarizədir!

Bu mübarizənin mahiyyəti qarşı-qarşıya duran tərəflərə, digər gizli və aşkar iştirakçılara da bəllidir!

Çox az qisim olar ki, əsl həqiqətdən xəbərsiz olsun...

44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın böyük qələbəsi ilə başa çatan və sonuncu fazasına daxil olan bu mübarizə və münaqişə yalanın dəstəkçiləri sayəsində hələ də son nöqtəsinə çatmayıb.

Baş verən son mühüm dəyişikliklər, mübarizə və müharibə edən tərəflərin güc nisbəti, yeni reallıqlar, Azərbaycan Prezidentinin qəti, prinsipial və ədalətli mövqeyi separatçıların lap az zaman kəsiyində tam cilovlanacağından, Xankəndidə tezliklə üçrəngli bayrağımızın dalğalanacağından xəbər verir!

❖❖❖

İki əsrdir ki, iki dövlət qarşı-qarşıyadır.

Bir tərəfdə qədim tarixə, zəngin mədəniyyətə, çoxsaylı tarixi, dini, mədəni abidələrə, milli və mənəvi dəyərlərə, hətta özünəxas musiqiyə və mətbəxə malik Azərbaycan!

Digər tərəfdə türk dünyasına qarşı Azərbaycan torpaqlarında süni şəkildə yaradılan, özünə saxta tarix, qondarma, oğurluq "tarixi və dini abidələr" yaradan, mədəniyyət, musiqi, hətta mətbəx oğurluğu ilə məşğul olan, alət dövlət və millət sayılan Hayastan.

Bir tərəfdə beynəlxalq hüquqa, haqqa-ədalətə söykənən, öz ərazisini qəhrəmanlıqla, şəhidlər verməklə, hətta bəzən yalın əllə qoruyan Azərbaycan!

Digər tərəfdə saxta göz yaşları tökən, özünü "məzlum", "zavallı" millət kimi qələmə verən yalançı, əslində isə Xocalı soyqırımını törətməyə qadir vəhşi, barbar, arxalı Hayastan.

Əslində, bu mübarizə düzlə əyrinin, həqiqətlə yalanın, doğru ilə saxtakarlığın çarpışmasıdır!

Ədaləti, həqiqəti, doğrunu məğlub etmək olar, məhv etmək yox!

Sonda qələbə yenə də onunku olur!

Bunu həm də bəşəri təcrübə, tarixi faktlar göstərir!

Necə ki göstərdi!

❖❖❖

Ərazilərimizin 20 faizini otuz ilədək işğalda saxlayan haylar nəyə nail oldular, nə qazandılar?

Bəli, Azərbaycanın bütün yaşayış məntəqələrini İranla birlikdə söküb dağıdaraq apardılar, tikinti materialı kimi satıb qazandılar, meşələri, faydalı qazıntıları daşıdılar, narkotik əkib-becərdilər.

Həmin müddət ərzində torpağın əsl sahibi olan Azərbaycan vətəndaşları məcburi köçkün həyatı sürərək çox çətinliklər çəkdilər!

Bəs sadə ermənilər. Həmin talandan onlara kimsə nəsə verdi, həyat şəraitini yaxşılaşdırdı?

Koçaryan, Sarkisyan, Ohanyan, habelə "tuşonka" oğurluğu ilə məşğul olan generallar milyarderlərə, milyonçulara çevrildilər, harın həyat sürdülər.

Bu gün də erməni əsgər anaları Müdafiə Nazirliyinin qapıları ağzında köməksiz vəziyyətdə qalıb, dul erməni arvadlarını isə yada salan yoxdur, nə iş tapırlar, nə də çörək...

"Məğlubedilməz ordu" beləmi olur?!

"Qalib dövlət"in axırı beləmi qurtarır?!

Hələ də ağla gəlməyiblər!

❖❖❖

Ötən əsrin doxsanıncı illərində Azərbaycan əraziləri işğala məruz qalanda ona kömək göstərən, arxa duran bir dövlət də yox idi.

Xalq hətta əsl rəhbərindən, Ulu Öndər Heydər Əliyevdən belə ayrı düşmüşdü.

Ölkəyə maymaqlar, qorxaqlar, təcrübəsizlər və səriştəsizlər rəhbərlik etdiyindən tam başsızlıq idi.

Nə ordu qurulurdu, nə torpaqların müdafiəsi təşkil edilirdi, nə də ağıllı, uzaqgörən siyasət yeridilirdi.

Sovet ordusu hesabına Hayastan silahlandırılır, torpaqların işğalında ona kömək göstərilir, İran islam dövləti gizli dəstəyini həyata keçirir, erməni diasporları isə maliyyə yardımları vasitəsilə ABŞ-nin Senatında "Azadlığı Müdafiə Aktı"na 907-ci düzəliş etməklə əlindən gələni əsirgəmirdilər.

Hətta iş o yerə çatdı ki, Rusiya haylara bir milyard dollarlıq pulsuz silah-sursat bağışladı.

Rəhbərsizlik vəköməksizlik Azərbaycanı ağır məğlubiyyətə uğratdı.

Özgə ağzı ilə hürən, hər tərəfdən dəstək və yardım görən Hayastan isə qalib tərəfə çevrildi.

Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra vəziyyət büsbütün dəyişdi!

Bu dəyişikliyi Müzəffər Ali Baş Komandan İlham Əliyev hərb meydanında, diplomatiya və informasiya müharibəsində parlaq zəfərə çevirdi!

İndi qalib tərəf Azərbaycandır!

Məğlub və miskin günə salınan Hayastan isə hər kəsə və hər şeyə ümid bağlamaqla məğlubiyyətini yazılı surətdə rəsmiləşdirməyi uzadır, sülh müqaviləsini imzalamır.

* Anlamırlar ki, daha ötən əsrin 90-cı illəri deyil!

* Anlamırlar ki, Azərbaycan o Azərbaycan deyil!

* Anlamırlar ki, indi tam başqa vəziyyət, tam başqa situasiyadır!

Bu anlamazlıq onlar üçün yeni fəlakətlə, hətta dövlətlərini və dövlətçiliklərini itirmələri ilə nəticələnə bilər.

Gec anlasalar, sonra gec olacaq!

❖❖❖

Son 20 ildə Azərbaycan görünməmiş sürətlə inkişaf edib!

İqtisadi cəhətdən güclənib, dünyada siyasi nüfuzu artıb, mövqeləri möhkəmlənib, qüdrətli ordu yaradıb, Cənubi Qafqazda söz sahibinə çevrilib!

Bütün bu uğur və nailiyyətlərin müəllifi Azərbaycan Prezidenti İlham Əliyevdir!

Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən cənab İlham Əliyev Azərbaycan xalqına Qarabağ münaqişəsini də həll edəcəyini, torpaqları işğaldan qurtaracağını, ərazi bütövlüyünə nail olacağını vəd etmişdi!

Bütün dünya Azərbaycan Prezidentini sözü ilə əməli bir olan rəhbər kimi tanıyır.

Artıq düşmənlərimiz də buna əmin olublar!

İlham Əliyev dediyini etdi!

Düşmən ordusunu "dəmir yumruğ"u ilə əzdi, fərarilər və qorxaqlar dəstəsinə çevirdi, torpaqlarımızdan iti qovan kimi qovdu!

İndi isə xalqa verdiyi digər bir vədin icrası ilə məşğuldur: Qarabağ dirçəldilir, yeni yaşayış məntəqələri və istehsal sahələri yaradılır, keçmiş məcburi köçkünlər doğma torpaqlarına qaytarılırlar!

Küçədən, meydandan hakimiyyətə gələn sorosçu Paşinyan isə dünyada qeyriciddi, siyasətdə və diplomatiyada piyada təsiri bağışlayan, gündə bir söz deyib sonra dalından qaçan baş nazir kimi məsxərə obyektinə çevrilib.

Nə ölkə daxilində hörməti var, nə də beynəlxalq aləmdə.

Sözdə dediyini əməldə təsdiq etmir, bu gün söylədiyinin sabah arxasından qaçır, hiyləgərliklə nəyəsə nail olacağına inanır.

Əslində, Paşinyan korrupsioner, qorxaq və dələduz Koçaryan və Sarkisyanın yeni variantı, o biri üzləridir: yalançı, yaltaq, qorxaq, xalqı aldatmaqla hakimiyyətdə qalmaq üçün min bir oyun çıxaran simasız, təsadüfən hakimiyyətə gələn avantüristdir.

Bunların hamısı fərdi keyfiyyətləri, daha doğrusu, keyfiyyətsizlikləri ilə bir nöqtədə birləşirlər: erməni xalqını müsibətlərə düçar edir, dövləti məhvə aparır, vətəndaşları dilənçi kökündə yaşadır, yalnız özlərini, öz karyeralarını düşünürlər.

❖❖❖

Müzəffər Ali Baş Komandan İlham Əliyev böyük humanizm və güzəşt nümayiş etdirərək Qarabağ müharibəsini vaxtında başa çatdırdı!

Bütün müraciət, xahiş, hətta təhdid zənglərinə məhəl qoymadan!

Yalnız öz şərtini - Ermənistanın öz qoşunlarını Azərbaycan ərazisindən çıxarılma qrafikini təqdim etdikdən sonra uğurlu hərbi əməliyyatları dayandırdı.

Hadisələrin sonrakı gedişi - kapitulyant dövlətin sonrakı addımları isə üçtərəfli Bəyanatda əksini tapmışdı.

Rusiya Prezidenti V.Putinin zəmanəti ilə razılaşdırılan həmin bəyanatı Azərbaycan və Rusiya prezidentləri televiziya ekranı qarşısında, Ermənistanın baş naziri isə gizlində imzaladı.

Kimin necə qol çəkməsindən asılı olmayaraq, üç dövlət başçısının imzaladığı bəyanat qüvvəyə mindi.

İlham Əliyev sürətli və uğurlu hərbi əməliyyatları dayandırmaqda bir məqsəd güdürdü: Azərbaycan əsgər və zabitlərinin həyatını qorumaq, daha az şəhid vermək!

Çünki dövlət başçısı olaraq hər bir vətəndaşının qədrini bilir və həyatını yüksək dəyərləndirir!

Eyni zamanda Xankəndiyə girərkən mülki əhaliyə ziyan dəyilməməsini də istəyirdi.

Hərçənd ki Gəncə, Bərdə, Tərtər və Goranboya ballistik raketlər atan haylar mülki vətəndaşlara daha çox zərər yetirərək çaxnaşma yaratmaq məqsədi güdürdülər.

İki millətin bir fərqi də məhz bundadır!

İndi isə Azərbaycan Qarabağda yaşayan erməniəsilli vətəndaşlarının reinteqrasiyası, Azərbaycan Konstitusiyası əsasında yaşaması üçün əlindən gələni edir.

Qalib dövlət olsa da, sülh təklifi, sülh çağırışı ilə çıxış edir, bu istiqamətdə real addımlar atır!

Paşinyan isə erməni xislətinə və öz xarakterinə sadiqlik nümayiş etdirir.

Üçtərəfli və sonrakı bəyanatların şərtlərini yerinə yetirmir, müxtəlif bəhanə və oyunbazlıqlarla sülh danışıqlarını pozur.

Öz aləmində "hiylə işlədərək" müharibənin dayanmasından bəhrələnməklə yenidən toparlanmağa, məğlubiyyətinin qisasını almağa hazırlaşır.

İrandan və Hindistandan silah almaqla ordusunu "gücləndirir", vaxtaşırı atəşkəsi pozaraq şərti sərhəddə gərginlik yaradır, Xankəndidəki qanunsuz silahlı birləşmələri və terrorçuları ərazimizdən çıxarmır, separatçı qurumu Ermənistan büdcəsi hesabına maliyyələşdirməkdə davam edir, tez-tez mənasız, yeni şərtlər irəli sürməklə sülh müqaviləsinin imzalanmasını uzadır.

Sözdə 86,6 min kvadratkilometrlik Azərbaycan ərazisinin bütövlüyünü və suverenliyini tanısa da, yazılı şəkildə bunu təsdiq edərək imzalamır.

Hansı ordu, hansı şəxsi heyət, hansı imkanlarla qisasa hazırlaşdığını heç özü də dərk etmir.

Onun güvəndikləri və müdafiə edənləri isə heç zaman Hayastanın əvəzinə Azərbaycanla müharibə edərək ordusunu qırğına verməyəcəkdir.

Erməni bicliyi məişətdə keçərlidir, siyasətdə, dövlətlərarası münasibətlərdə belə primitiv oyunlar yalnız təbəssüm doğurur!

❖❖❖

Hayastan bir daha yalançı, riyakar, beynəlxalq hüquqa, özünə, sözünə və imzasına hörmət etməyən dövlət olduğunu sübut etdi!

Onun dəstəyi və dirijorluğu ilə sentyabrın 10-da Qarabağda qalmış separatçıların tör-töküntüləri saxta "prezident seçkiləri" keçirdilər.

Bununla bir daha dünyaya nümayiş etdirdilər ki:

* Hələ də Azərbaycana qarşı ərazi iddialarından əl çəkməyiblər;

* Sülh danışıqları vaxtı uzatmaq, qisasçılıq niyyətlərini gizlətmək üçün bir pərdədir;

* Qarabağdan qeyri-qanuni silahlı dəstələrini çıxarmaq niyyətində deyillər;

* Qarabağ ermənilərini girov kimi saxlamaqla reinteqrasiyaya şərait yaratmaq fikrindən çox uzaqdılar;

* "Humanitar şou" baş qatmaq, Azərbaycanın beynəlxaq nüfuzuna xələl gətirmək cəhdindən başqa bir şey deyil;

* Ağdam-Xankəndi yolundan imtina, əslində, çirkin, separatçı əməllərin davamı, Laçın yolunu zorla açdırmaq cəhdidir;

* Acınacaqlı məğlubiyyətlərini sanki yaddan çıxaran haylar havadarlarına güvənərək, özlərini "qaliblər" təki apararaq iradələrini Azərbaycana qəbul etdirmək istəyirlər!

Həm də bir sıra vacib həqiqətləri də deyəsən "unudublar"!

Unudublar ki:

* 44 gün ərzində Ermənistan ordusunu darmadağın edən Azərbaycan Ordusu əvvəlkindən də qüvvətli və qüdrətlidir!

* Müzəffər Ali Baş Komandan İlham Əliyevə heç kəs öz istəyini qəbul etdirə bilməz, əksinə, İlham Əliyev dəfələrlə sübuta yetirib ki, o, dediyini və istədiyini "dəmir yumruğ"u və siyasəti ilə həyata keçirir!

* Azərbaycan üçün "Dağlıq Qarabağ" adlı münaqişə artıq yoxdur, Qarabağı separatçıların tör-töküntülərindən təmizləmək yalnız zaman məsələsidir!

* Nə saxta seçkilər, nə Xankəndiyə ordan-burdan toplanmış erməni dığaları, nə müxtəlif məkrli oyunlar, nə orda-burda iclas keçirən havadarları forpost dövləti və onun separatçı əlaltılarını İlham Əliyevin qəzəbindən xilas edə biləcəkdir.

Lap yaxın zamanlarda özləri buna şahid olacaqlar!

Yəqin ki, yaxın keçmişdə Şuşada "qondarma parlament" üçün bina tikdirdiklərini və həmin binanın aqibətini unutmayıblar!

Xüsusi bina inşa edərək "parlament"lərini Şuşaya necə köçürdülərsə, təzə "prezident"lərinin rəhbərliyi ilə də həmin sayaq fəaliyyət göstərəcəklər!

❖❖❖

Azərbaycan Prezidenti İlham Əliyev müharibəni dayandırsa da, məqsəd və hədəflərinə doğru inamla, təmkinlə, qətiyyətlə irəliləyir!

44 günlük Vətən müharibəsindən sonra ikinci ən mühüm uğur Laçında nəzarət-buraxılış postunun yaradılması oldu!

Bununla da Müzəffər Ali Baş Komandanımız Ermənistan tərəfindən Xankəndidəki separatçıları hər cəhətdən qidalandıran şah damarı birdəfəlik kəsdi!

Azərbaycan tarixində ilk dəfə öz sərhədlərinə və ərazilərinə nəzarəti ələ aldı!

Laçın yolundan yenidən sərbəst istifadəyə nail olmaq üçün Hayastan dəridən-qabıqdan çıxır!

O oyun qalmayıb ki, oynamasın...

Gah Beynəlxalq Ədalət Məhkəməsinə müraciət edir, gah "böyük bacısı" Fransa vasitəsilə məsələni BMT-nin Təhlükəsizlik Şurasında müzakirəyə çıxarır, gah "humanitar şou" tamaşasını oynayır, gah da RSK-nı qınayır, Rusiyanı borclu çıxarır.

Azərbaycan isə çox ağıllı və təmkinli addımları ilə bütün bu oyunbazlıqları puç edir!

Laçın yolunu ciddi nəzarətində saxlayacağını açıq söyləməklə bərabər, Ağdam-Xankəndi yolundan istifadəni tövsiyə edir və yalnız bundan sonra Laçın yolunun da açılacağını bildirir.

Niyə müdafiəçiləri haylardan soruşmurlar ki:

* Əgər, həqiqətən, acsansa, niyə Qızıl Aypara Cəmiyyətinin 40 tonluq yardımından imtina edirsən?

* Əgər, həqiqətən, acsansa, "türk çörəyi yemirəm" iddiası nədir və otuzillik işğal dövründə Azərbaycan ərazisində əkib-biçib yediyiniz "türk taxılı" deyildimi?

Daş qayaya rast gəlib!

Əgər Fransanın 10 TIR-ı Laçın yolundan keçə bilmədisə, Paşinyanın 22 "fur"u hələ çox gözləməli olacaq!

❖❖❖

Azərbaycan Prezidenti İlham Əliyev həmişə xalqa arxalanıb, xalqın və dövlətin maraqlarını hər şeydən üstün tutub, xalqına həmişə düz söz deyib və verdiyi vədləri şərəflə yerinə yetirib!

* Bir qarış Vətən torpağını belə düşmənə vermədi!

* Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasının qarşısını aldı!

* Qüdrətli ordu yaradaraq Azərbaycan torpağını murdar ləpirlilərdən təmizlədi!

* İndi isə keçmiş məcburi köçkünləri doğma yurd-yuvalarına qaytarmaq, normal yaşayışlarını təmin etməklə məşğuldur.

Paşinyan isə iqtidara gəldiyi gündən erməni xalqını aldatmaqla, yalan vədlər verməklə məşğuldur!

* Əvvəlcə "yeni müharibə yeni ərazilərin zəbti olacaq", - deyə Azərbaycanı hədələdi!

* "Qarabağ Ermənistandır və nöqtə" söyləməklə yeni müharibəni tətiklədi!

* Hərbi əməliyyatlar zamanı daim xalqını aldadaraq, erməni ordusunun irəlilədiyini, qalib gəldiyini bildirdi!

* Üçtərəfli Bəyanata imza ataraq onun bəndlərini yerinə yetirmədi.

İndi isə müxtəlif hoqqalar çıxararaq, separatizmi dəstəkləyərək bölgədə hərbi gərginliyi artırır, yeni müharibə təhlükəsi yaradır.

Əsas niyyət və məqsədi hakimiyyət ömrünü uzatmaq, sülh müqaviləsi imzalamamaq və beləliklə, yeni ordu yaradaraq qisas almaq, Ermənistan dövlətini və xalqını yenidən fəlakətlərə düçar etməkdir.

Bu ağıl və davranışla istədiyinə - yeni müharibəyə nail olacaqdır!

Çünki xalqı üçün yox, özü üçün çalışır.

❖❖❖

Azərbaycan keçmişi keçmişdə qoyaraq gələcəklə yaşayır!

Öz fəaliyyətində beynəlxalq hüququ, ədaləti, dövlətin və xalqın maraqlarını əsas tutur.

Zaman Azərbaycanın xeyrinə işləyir:

* Ərazilər minalardan təmizlənir;

* İşğaldan azad edilmiş bölgələrə yeni yollar çəkilir, normal yaşayış infrastrukturu yaradılır;

* "Ağıllı” şəhər və kəndlər salınır;

* Yeni sənaye məhəllələri, aqroparklar yaradılaraq iş yerləri açılır;

* Böyük qayıdış proqramı uğurla və sürətlə icra edilir;

* Düşmənin bütün alçaq və hiyləgər niyyətləri puça çıxarılır!

Hayastan isə keçmişi geriyə qaytarmaq barədə axmaq düşüncələrdən yaxa qurtara bilmir:

* Azərbaycanın reinteqrasiya çağırışlarını müxtəlif bəhanələrlə pozur;
* Dünya ictimaiyyətini aldatmaq, ölkəmizə şər-böhtan atmaq xəstəliyindən əl çəkmir;
* Ağdam-Xankəndi yolunu bloklayaraq Laçın yolundan öz maraqlarına uyğun istifadə etmək niyyətindən əl çəkmir, "humanitar şou"nu davam etdirir;
* Xankəndidəki qeyri-qanuni separatçı quruma yeni "seçkilər" keçirir;
* Atəşkəs rejimini mütəmadi şəkildə pozmaqla gərginliyi daim artırmağa can atır!

Düz əyrini kəsər - demişlər!

Xüsusən də ədalətli tərəfin güclü olduğu bir məqamda!

Otuz il torpaqları işğalda saxlayan, xalqını dilənçi günündə, daim müharibə qorxusu altında yaşadan hayları, görünür, yalnız "dəmir yumruq" ağıllandıra bilər!

"Dəmir yumruq" isə həmişəkitək hazır vəziyyətdədir!

❖❖❖

İndi Hayastan sahibsiz tulaya dönüb: kim başını sığallayırsa, ona quyruq bulayır!

"Ağa"ları çox olduğundan və onların hər birinə yarınmağa çalışdığından simasını tam olaraq itirib.

Üzeyir bəy Hacıbəylinin "O olmasın, bu olsun" komediyasındakı Məşədi İbadın gününə düşüb.

Kim gəlib deyirsə ki, bir qədər pul ver, işini düzəldim, dərhal cibinin ağzını açır.

Gah ABŞ-dən gələn Nensi nənə və digər konqresmenlər, gah Fransadan gələn Parisin və digər şəhərlərin merləri, Fransa Senatının deputatları, gah Rusiya Dövlət Dumasının üzvləri, hətta keçmiş prokuror Okampo və NATO-nun sabiq sədri Rasmussen belə erməniləri aldadaraq onların diasporları hesabına seçkilərdə qalib gəlir, çoxluca pul qoparırlar.

Haylardan pul qazananların hamısı öz marağını güdür və təmin edir.

Hayastana qalan isə 44 günlük müharibədə biabırçı məğlubiyyət, indiyədək sayı bilinməyən və nəşi tapılaraq sahibinə verilməyən canlı qüvvə itkisi, özgə torpaqlarından qovulub çıxarılması, əhalisinin böyük qisminin ölkəni tərk etməsi və hərbi əməliyyatların yenidən başlanması təhlükəsi ilə üz-üzə qalmasıdır!

Axmaq baş sahibinə qapaz yedizdirər - demişlər!

Nə Rusiya ordusu və KTMT gəlib Hayastanın əvəzinə Azərbaycanla müharibə aparasıdır, nə İran onun arxasında sonadək durandır, nə Fransa və Aİ-nın mü-

şahidəçiləri nəyisə dəyişmək iqtidarındadırlar, nə də ABŞ və BMT Laçın yolunu açdırmaq imkanındadırlar!

Hayastanın da, hayların da, Xankəndidəki separatçıların da yeganə çıxış yolları Azərbaycanın şərtlərini qəbul edərək sülh müqaviləsini imzalamaq, Azərbaycan Konstitusiyasının prinsiplərinə uyğun Qarabağda yaşamaqdır!

İkinci yolları isə "dəmir yumruğ"un dadına yenidən baxmaq və Azərbaycan ərazisini tərk-silah olunaraq tərk etməkdir.

Başqa yol yoxdur!

❖❖❖

Məsələni uzatmaqla heç nəyə nail olmayacaqsınız!

Kimlərəsə arxalanmaqla,vəziyyətin dəyişəcəyinə ümid bəsləməyin!

Laçın yolu Azərbaycanın nəzarəti altındadır!

Oradan Azərbaycanın icazəsi olmadan nə Hayastana, nə də Fransaya məxsus bir maşın (nəinki TIR) keçə bilər!

Qalib tərəf Azərbaycandır!

Şərtləri Müzəffər Ali Baş Komandan İlham Əliyev diktə edir!

Reallıq isə yenidir və əbədidir!

***12 sentyabr 2023-cü il***

# III Fəsil

# *Qurucu rəhbər*

## Ağdamı düşməndən geri alan onu həm də tikib quracaqdır

Həmişə doğma ana dilimlə, onun saflığı, şirinliyi, zəngin ifadə imkanları ilə fəxr etmişəm!

Amma...

Azərbaycan dilində:

* erməni mənfurluğunu;
* erməni şərəfsizliyini;
* erməni murdarlığını;
* erməni alçaqlığını;
* erməni xəyanətkarlığını...

- əks etdirən, özündə dolğun ehtiva edən bir sözün olmaması məni həm təəssüfləndirir, həm də kədərləndirir...

Bəlkə də, Azərbaycan xalqı mövcud olduğu minilliklər ərzində özündə bütün alçaqlıqları, yaramaz xislətləri birləşdirən bir ünsürə rast gəlmədiyindən belə bir sözü yaratmayıb?!

Bu fikir ağlabatan olduğundan bir qədər sakitləşirəm.

Müharibədən sonra Qarabağa gedən jurnalistlərin çəkib göstərdikləri fotolara və telesüjetlərə baxdıqdan sonra keçirdiyim hisslər məndə qəti qənaət yaradıb ki, belə əməlləri yalnız insan cildinə girmiş nəsə başqa bir varlığa bənzərlər törədə bilirlər!

Bir baxın:

* evləri yandır və dağıt;
* məscidləri və kilsələri xaraba günə qoy;
* Allahın evində inək, donuz saxla;
* ağacları, meşələri qır, yandır;
* tarixi abidələri məhv et;
* qəbiristanlıqları yerlə yeksan elə...

Gör insana və insanlığa, yerə və göyə, dirilərə və ölülərə, keçmişə və bu günə, bütün canlılara və cansızlara, ən nəhayət, Allaha və onun yaratdıqlarına nə qədər kin, nifrət bəsləməlisən ki, qabağına çıxan hər şeyi dağıdıb məhv edəsən, özündən sonra yalnız xarabalıqlar, bayquş ulayan yerlər-yurdlar qoyub gedəsən!

Bu millət özünün qənimidir!

Bu millət heç zaman gün görüb xoşbəxt ola bilməz!

Bu millətə Allah həmişə bəla göndərər!

Bu millət öz ağlı və xisləti ilə heç zaman vətənə, yurda, daimi yaşayış yerinə sahib ola bilməz!

İndi başa düşdüm ki, niyə erməninin öz vətəni, tarixi, keçmişi, mədəniyyəti, musiqisi, mətbəxi yoxdur!

Niyə həmişə gözü onda-bundadır!

Niyə daim başqalarından oğurlayaraq özününküləşdirir!

Niyə soyqırımına uğramaq arzusundadır və bu adı almaq uğrunda daim mübarizə aparır!

Bu onun illərboyu törətdiyi çirkin əməllərinin bəhrəsi, Allahın ona verdiyi əbədi cəzadır!

## *Mənim gözəl Vətənim*

Vətənin hər guşəsi gözəldir!

Ölkə paytaxtı Bakı isə ayrı bir aləmdir!

Əyalətlərdə yaşayan hər kəsin ən böyük uşaqlıq arzularından biri Bakını görmək olur!

Nə vaxtsa hər bir azərbaycanlı bu arzusuna qovuşur...

Hətta bu nəhəng şəhərin daimi sakininə də çevrilə bilir...

Bakı təkcə gözəl deyil!

Həm də mehriban, qonaqpərvər, çörəkli, arzuların reallığa çevrildiyi şəhərdir!

Bu gözəl məkanı bir dəfə görən, daha ondan ayrılmaq istəmir.

Aralı düşəndə darıxır, tezliklə dönməyə, yenidən görməyə can atır.

Bəlkə də, Bakıya böyük Azərbaycanın kiçildilmiş, yığcam variantı desək, yanılmarıq!

Doğulduğumuz yer, yurd və paytaxt Bakı!

Hansı birinci yerdə durur, o da baxır bu barədə düşünərkən harada olmağımızdan!

Bakıda olanda Vətən çəkir, Vətəndə olanda isə Bakı!

27 illik yurd həsrəti, 27 illik qaçqın həyatı, 27 illik ayrılıq, möhnət hər adamın çəkə biləcəyi dərd deyildi!

Çoxları yurd həsrətilə dünyasını dəyişdi...

Ən böyük arzumuz və alqışımız isə "növbəti ili Vətəndə qarşılamaq", "tezliklə doğma torpaqda görüşmək" idi!

Ən nəhayət, bu müqəddəs, qarışıq hisslərlə dolu görüş baş tutdu!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin şücaət və qəhrəmanlığı sayəsində!..

İlham Əliyevin "dəmir yumruğu"nun qüdrəti sayəsində!..

Azərbaycan əsgəri və zabitinin misilsiz igidliyi sayəsində!..

Bu xoşbəxtliyi bütün Azərbaycan xalqına yaşadan Ali Baş Komandanımıza əbədi minnətdarıq!

Bu səadəti bizə qismət edən Azərbaycan Ordusuna, al-qanları ilə ucalan və vətəni ucaldan şəhidlərimizə daim borcluyuq!

## *Abad eldən viran yurda*

Bakıdan çıxıb ölkənin hansı səmtinə doğru hərəkət etsən, boş torpaq, boş sahə görməzsən!

Yolboyu rast gəldiklərin ya bir-birindən gözəl evlərin tikildiyi yaraşıqlı yaşayış məntəqələri, ya da əkin sahələri, üzüm plantasiyaları olacaqdır.

Müstəqillik illərində, xüsusən son dövrdə Azərbaycan başdan-başa yenidən tikilib, qurulub, abadlaşıb, gözəlləşib.

Ta keçmiş təmas xətlərinə qədər...

Bəli, bu bir faktdır ki, işğalın davam etdiyi 27 ildə Azərbaycan daim tikilib, qurulub, abadlaşıb, yeniləşib!

İşğalın davam etdiyi 27 ildə faşist xislətli erməni isə Qarabağı yandırıb, dağıdıb, meşələri və ağacları qırıb, tarixi və mədəni abidələri məhv edib - bir sözlə, ərazini xarabalığa çevirərək orada pərakəndə şəkildə bayquş kimi ömür sürüb.

Özündən sonra isə yalnız dağıntılar və ölüm tələləri sayılan minalar qoyaraq cəhənnəm olub!

Normal məntiqlə anlamaq çox çətindir:

Niyə bütün evləri, meşələri, abidələri, qəbiristanlıqları yandırıb dağıdırsan?

Doğrudanmı erməni elə zənn edirdi ki, Azərbaycan xalqı öz torpağından əl çəkəcək, viran qoyulmuş yerlərə geri dönməyəcək, Vətənini murdar ünsürlərə bağışlayacaqdır?!

Belə düşünmək üçün, belə məntiqə sahib olmaqdan ötrü yalnız erməni olmalısan!

Axı heç zaman öz vətəni, öz torpağı olmayan başqa cür necə fikir yürüdər?

Keçmiş təmas xəttini adlayan kimi mənzərə kəskin şəkildə dəyişir!

Cənnət bölgə arxada qalır...

Buradan oyana isə...

İndiyə qədər Ağdamın dağıdılmış yaşayış məntəqələri, məhv edilmiş təbiəti və abidələri ilə bağlı hər birimiz çoxlu şəkilləri görmüş, videolara baxmışıq...

Ürəkağrısı, nifrət və qəzəb hissi ilə!

Dodaqaltı söylədiyimiz söyüşlər, sıxılmış yumruqlar yalnız ürək soyutmaq üçündür!

Əsas təsəllimiz budur ki, artıq Vətənimizə qayıtmışıq!

Müzəffər Ali Baş Komandan ermənini bu torpaqlardan iti qovan kimi qovub!

"Dəmir yumruğ"u ilə belini qıraraq qovub!

Ordusunu diz çökdürərək məhv edib!

Başını ilan başı kimi əzib!

İlham Əliyevin Ermənistan ordusuna tutduğu divandan sonra ordunun da, vassal dövlətin də özünə gəlməsi, dirçəlməsi bir də getdi Allah bilir nə vaxta!..

İndi bilmirlər ölülərini ağlasınlar, ya dirilərinin dərdini çəksinlər!

Hakimiyyət, xalq, ordu, müxalifət, qisasçı ünsürlər qarışıb bir-birinə!

İt yiyəsini tanımır!

Hamısı başını itirib, nə edəcəyini kəsdirmir!

Nə ölən əsgərə, nə əlilə, nə evsizə yiyə duran var, nə də işsizə iş, aca çörək verən!

Dövlət, xalq, cəmiyyət - hamısı birlikdə əməllərinin bəhrəsini bol-bol dadırlar!

Hələ bu harasıdır!

Azərbaycan xalqı isə öz müdrik Prezidenti ilə bundan sonra hansı işləri görəcəyini dəqiqləşdirib və fəaliyyətə başlayıb!

## *Göylərə ucalan qoşa minarə*

Ağdamın nəbzi, adətən, şəhərin mərkəzi meydanında, unikallığı ilə seçilən bazarında və məsciddə döyünüb!

İlin və günün müxtəlif vaxtlarında bu döyüntü artıb, yaxud da zəifləyib.

Ağdam məscidi qoşa minarəlidir!

Göylərə doğru ucalan minarələr məscidlərə xüsusi əzəmət gətirir.

Həm də uzaqdan insanlara Allah evinin yerini nişan verir.

Əsas təyinatı isə azan səsini ətrafa yaymaqla mömin bəndələri namaza çağırmaqdır.

Qaydaya görə, gündə üç dəfə Ağdam məscidindən azan verilərdi.

Bu səsi eşidənlər ayaq saxlayaraq salavat çevirib yollarına davam edər, namaz qılanlar isə ibadətə tələsərdilər.

Azan vermək o qədər də asan iş deyil.

Əvvəla, yaxşı, həm də güclü səsin olmalıdır.

İkincisi, gündə üç dəfə darısqal pillələrlə minarəyə qalxıb-düşməyi bacarmalısan.

Adətən, azan verənlər yaşlı insanlar olur.

Elə pilləkən çıxmağın çətinliyi də ondadır.

Yaxşı azançılardan Molla Rəşid və Alış kişi yadımda qalıb.

Bəli, Ağdamın məşhur "Alış, nəynən?" lətifəsinin qəhrəmanı Alış kişi!..

Nə sirri-Xudadırsa, azanı hamı dinləmək istəyir, onu eşidən kimi dayanaraq qulaq kəsilirlər...

Sovet ideologiyası Allahı tanımırdı, onu inkar edirdi.

Yeniyetmələr və gənclər arasında ateizm təbliğatı aparılır, pionerdən tutmuş Sov.İKP üzvünə qədər hamıya dini etiqad, məscidə getmək qadağan edilirdi.

"Dini inanclılara şərait yaradılır" görüntüsü yaratmaqdan ötrü çox az miqdarda məscidlərin fəaliyyətinə icazə verilmişdi.

Onlardan biri də Ağdam məscidi idi və bütün dövrlərdə qapıları daim hamının üzünə açıq olmuşdu.

Hətta qonşu rayonlardan da buraya molla dalınca, yaxud dua etməyə gələrdilər.

Xüsusən məhərrəmlik ayında və aşura günündə...

O zaman insanlar nəinki məscidin binasına, heç həyətinə də sığışmaz, küçədə maşın-maşına söykənər, qarşı tərəfdəki Lenin bağında adamlar toplaşaraq həyətə girməyə məqam gözləyərdilər.

Qətl sınanda isə iynə atsan yerə düşməzdi!

Ağlayan, dua edən kim, sinə döyən, zəncir vuran kim!

Bax belə günlərdə görərdin ki, heç kim Allahını unutmayıb, ondan üz döndərməyib!

"Ateistlik" isə dövrün tələbinə uyğunlaşmaq, cəza, repressiya və təqibdən yaxa qurtarmaq naminədir!

Ağdam məscidi həmişə dinimizi, adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi qoruyub saxlayan bir məkan olub!

Erməninin dağıtdığı Ağdam məscidi...

Bu müqəddəs yerin ikinci həyatı isə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi dövründə başladı.

Çoxtərəfli funksiya daşıdı.

Əsas funksiyası şəhidlərin yuyulub kəfənlənməsi, dini qaydada dəfni üçün sahibinə, habelə müxtəlif rayonlardakı insanlara çatdırılması idi.

I Qarabağ müharibəsi dövründə Ağdam Qarabağın qeyri-rəsmi mərkəzinə çevrildiyindən bu funksiyanı da yerinə yetirirdi. Azərbaycanın hər yerindən ürəyinin hökmü ilə torpaqların müdafiəsinə gələn, müxtəlif özünümüdafiə batalyonlarında döyüşən igid əsgərlərimiz həmişə Ağdamı özlərinə dayaq bilirdilər.

Hər yerdən əlləri üzülən, kimsədən kömək ala bilməyən insanlar da Ağdam məscidinə gələr, Allahın mərhəmətinə sığınaraq ondan kömək dilərdilər.

Ağdam məscidinə xeyli ziyan dəysə də, bu gün yenə öz yerindədir.

Dövlət başçısı İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva Ağdam məscidinə baş çəkdilər, burada Allaha dua etdilər, müqəddəs Qurani-Kərimi bağışladılar.

Müzəffər Ali Baş Komandan İlham Əliyev məscidin həyətindən xalqa müraciət etdi, düşmənə növbəti xəbərdarlığını çatdırdı.

Həm də Ağdam məscidinin tezliklə təmir edilərək əvvəlkindən də yaxşı hala gətiriləcəyini, yenidən qapılarını dindarların üzünə açacağını bildirdi.

## *Sükuta dalmış baş meydan*

Ağdamın baş meydanı heç zaman boş olmazdı.

Gün ərzində daim dolub-boşalar, müxtəlif istiqamətlərə gedən, yaxud gəzməyə gələn insanlar üçün "qapısı" daim açıq olardı.

Bakıdan Şuşaya gedən magistral yolun Ağdam ərazisindəki ən kəsəsi də bu meydandan keçərdi. Odur ki, gecə sübhədək maşın səsi də əskik olmazdı.

Baş meydan həm də rayonun inzibati mərkəzini ətrafına cəmləmişdi.

Məscidlə arası heç bir kilometr olmazdı.

Meydanın mərkəzində Fərhadın qaya çapan fəvvarəli heykəli qoyulmuşdu.

Külüngü dəyən yerdən su fışqırardı...

Ətrafa gözəllik və sərinlik yayırdı...

Ermənilər bu heykəli də qırıqlayaraq uzaqlara atdılar...

Hər il mayın 1-də ənənəyə uyğun olaraq baş meydanda parad qəbul edilərdi.

Əvvəlcə taxtadan tribuna qurardılar.

Sonralar onu mərmər üzlüklü daş tribuna ilə əvəz etdilər.

Meydanın bir tərəfində raykomun (rayon partiya komitəsinin) köhnə, ikimərtəbəli binası, digər tərəfində isə RİH-in yeni tikilən üçmərtəbəli binası vardı. "Ağdam" qəzeti redaksiyası da burada idi.

Meydanın bir qırağında ikimərtəbəli (uçuqları qalmaqdadır) mehmanxana vardı.

Onun 1-ci mərtəbəsində Tələtin apteki yerləşirdi.

Ağdamda mağazaları müdirinin, yaxud satıcısının adı ilə tanıyardılar.

Məsələn, məscidin yaxınlığında "Səmədin kitab mağazası", ondan aralıda "Məcidin qəlyanaltısı" yerləşirdi.

Yaxud raykomun köhnə binasının üst tərəfində "Kamilin çörək dükanı", ondan bir qədər yuxarıda "Hüseynin dükanı" yerləşirdi.

Son illərdə mağaza, univermaq, ticarət mərkəzlərinin sayı o qədər artmışdı ki, saymaqla qurtarmazdı.

Qıtlığın hökm sürdüyü sovet dövründə Ağdam bazarında və mağazalarında nə desən tapılardı.

Dövlət Dram Teatrının binası meydana xüsusi yaraşıq verərdi (indi yalnız ön tərəfindəki tağları qalıb).

Sovet dövrünün tipik "Mədəniyyət evi" kimi inşa olunmuşdu.

Əvvəllər xalq teatrı bu binada yerləşirdi.

Xalq artisti Arif Babayevin "Əsli və Kərəm" operasına uşaq vaxtı burada tamaşa etmişəm.

Teatrı bizə sevdirməkdə bu binanın və buradakı tamaşaların xüsusi rolu olub.

Sovet dövrünün maraqlı mədəniyyət siyasəti vardı.

Yay aylarında Bakıdakı teatrlar mövsümü başa çatdırar, tamaşalarını dayandırardılar.

Sonra rayonlara qastrol səfərlərinə başlardılar.

Hansı rayonlarda sərinlik, tamaşalar verməyə və qalmağa yaxşı şərait vardısa, orada qərar tutardılar.

Ağdam tamaşaçı sarıdan da bol idi.

Hamı bəzənib-düzənib teatra gələr, respublikanın məşhur artistlərini, ifaçılarını görməkdən, dinləməkdən, tamaşalara baxmaqdan zövq alar, qürur duyardılar.

Axşam tamaşalarına uşaqları buraxmazdılar.

Amma, necə də olsa, tanışlıqla keçmək mümkün olardı.

SSRİ Xalq artisti Ələsgər Ələkbərovun ifasında V. Şekspirin "Otello", Səməd Vurğunun "Vaqif" əsərlərinə Ağdam Mədəniyyət Evinin səhnəsində baxmışam...

Otello haray çəkərək Dezdomonanı boğanda qorxub ağlamışam...

Hüseyn Cavidin "Şeyx Sənan" pyesindəki Kor Ərəbin mahnısı hələ də qulaqlarımdadır...

Ağdamda mədəniyyət, musiqi, elm, bilik mühiti var idi.

Şahbulağın ağ daşından insanlar özlərinə gözəl evlər tikmişdilər.

Dövlət Dram Teatrının binası ilə üzbəüzdə bizim bina - doğulduğum, boya-başa çatdığım ev yerləşirdi.

27 ailənin yaşadığı ilk üçmərtəbəli bina...

İndi heç bünövrəsi də qalmayıb.

Bu binada, əsasən, ziyalılar yaşayardılar.

Əməkdar artist Narınc Məlikova, Xalq artisti Fatma Mahmudova qonşumuz idi.

Göz xəstəxanasının baş həkimi Nazxanım, burun-qulaq həkimi Soltan Bayramov, neçə-neçə tanınmış müəllim bu yaraşıqlı binada yaşayırdı.

Baş meydan həm də görüş, ünsiyyət qurmaq yeri idi.

Xüsusən yay aylarında...

İşdən evə qayıdanlar yemək yedikdən sonra ailə və uşaqları ilə meydana çıxar, gəzişər, necə deyərlər, havalarını dəyişərdilər.

Ali məktəbə qəbul olmuş tələbələr, yay tətilinə gələnlər meydanda gəzişməklə fəxr duyar, sinif yoldaşları ilə görüşüb söhbətləşər, gələcək planlarından danışardılar...

Üçmərtəbəli binanın arxasında Nizami parkı vardı. Dahi şairə burada heykəl də ucaldılmışdı. Park 1941-1945-ci il müharibəsindən sonra salınmışdı. Bəzəkli ağaclar, çoxsaylı skamyalar, dekorativ heykəllər, uşaqlar üçün əyləncəli karusellər burada istirahəti maraqlı edərdi.

Ağdamda 3 yay kinoteatrı fəaliyyət göstərərdi. Biri Mədəniyyət evinin arxa həyətində, biri Müəllimlər evində, biri də “kino” Fazilə məxsus idi. Hamısı baş meydana yaxın idi. Ən çox tamaşaçı hind filmlərinə toplaşardı. Aralarında rəqabət olsa da, hərəsinin öz kontingenti vardı.

Hərdən səsgücləndirici ilə filmdəki hind musiqisini ətrafa yayar və tamaşaçı yığardılar.

Ağdamın özünün tumsatanları da vardı. Ən məşhuru Bəndalı sayılırdı. Ağzı qızıl dişlə dolu idi. Tumları çox dadlı qovurardı. Gəzməyə çıxanlar hökmən tum çırtlayardılar.

Hər səhər Komxozun (rayon kommunal təsərrüfatı şöbəsi) süpürgəçiləri meydanı, parkları və küçələri deyinə-deyinə süpürərdülər.

Rayon icraiyyə komitəsinin, təzə mehmanxananın binası da meydana yaxın idi.

Ağdamın baş meydanının ikinci həyatı müharibə dövrünə təsadüf edir.

Əslində, Qarabağ müharibəsi bu meydanın da mahiyyətini və funksiyasını dəyişdi.

Onu yurd-yuvasından zorla qovularaq Ağdam şəhərinə pənah gətirən insanların toplaşdıqları, bu haqsızlıqlara, dövlət başçılarının fəaliyyətsizliyinə etirazlarını bildirən meydana çevirdi.

1992-ci ilin fevralında qələmə aldığım və "Həyat" qəzetində dərc etdirdiyim "Qaçqınlar meydanı" adlı yazımda bu barədə ətraflı bəhs etmişdim. Məqaləni yenidən diqqətinizə təqdim edirəm:

"Hər rayonun mərkəzində bir baş meydan olur. Burada nümayiş keçirilər, parada çıxardılar, tribuna önündən addımlayarkən "yuxarıda" duranlara əl yelləyib, bəxtəvərliklə gülümsəyərdilər. Adətən, bu meydanlar "böyük Lenin"in adını daşıyırdı. Sonra çoxlarına elə həmin adət üzrə "Azadlıq" adı verildi. Ağdam şəhərində də belə bir meydan var. İcra hakimiyyəti aparatının, Qarabağ üzrə respublika qərargahının yerləşdiyi binalar da bu meydanın kənarındadır. İndi burada nə parad olur, nə də nümayiş keçirilir. Ancaq meydanın boş vaxtı da olmur. Dağ Qarabağının azərbaycanlılar yaşayan kəndlərindən qovulan qaçqınlar buraya toplaşırlar. Daha gülüş səsi və alqış sədaları eşidilmir. Ancaq bolluca göz yaşı axıdılır, göylərə ah-nalə yüksəlir. Kişi də ağlayır, qadın da, acından və soyuqdan gömgöy göyərmiş uşaq da. Doğrudur, hərdən sevinc yaşlarını da görmək olur... Tankın və avtomatın qabağında pərən-pərən düşərək hərəsi bir tərəfə qaçan, sonra xeyli müsibətlə uzun-uzadı piyada yol gedərək bir-birini ölmüş zənn edən qohum-qardaş, həmkəndli rastlaşanda. Sakitcə bir-birilərinin boynunu qucaqlayaraq azacıq göz yaşı axıdaraq, sonra başqaları barədə hal-əhval tuturlar. Hərdən meydanda mitinq də olur. Natiqlər respublika hökumətini qətiyyətsizlikdə, tökülən qanların qarşısını vaxtında almamaqda ittiham edir, prezidenti, müdafiə nazirini Ağdama "çağırır", ürəklərini boşaltdıqdan sonra dağılışırdılar.

1991-ci ilin oktyabrından bəri meydana gələn "dəstələr" dəfələrlə dəyişib. Dəyişməz qalan ümumi mənzərə olub.

Sübh tezdən kimisi yük maşınında, kimisi avtobusla, bəziləri isə pay-piyada meydana yığışır. Gümrah görkəm, gülümsər üz görmək qeyri-mümkündür. Hərə əlinə keçəni əyninə geymiş olur. Adətən, qadınlar çiyin şalı ilə kürəklərini sarıyır, kişilər üst-üstə pencək, gödəkçə geyinirlər. Çiyni ov tüfəngli, əliavtomatlı

adamlar da olur. Qadınlar meydanın yuxarı hissəsində yığışıb dəstə bağlayır, ağı deyərək üzlərini cırır, başlarını yolur, əzizlərini oxşayırlar. Kişilərdən də onlara qoşulan olur. Ancaq onlar ağı söyləmirlər. Hərdən üzlərini göylərə tutub Allahı bu zülmü götürməməyə, kömək durmağa çağırırlar. Sonra respublika qərargahından meyitləri gətirmək üçün maşın, yaxud helikopter almaq barədə "danışıqlar" başlayır. Qərargah kömək edir, bəzən də aciz, "köməksiz" qalır...

Bu kükrəyən qəzəb dalğası, ərşə dirənən ah-nalə uzaqlara getmir. Nəinki Bakıya, hətta bir çox ətraf rayonlara belə çatmır... o ki qaldı suveren respublikanın sərhədlərindən çox-çox uzaqlara ola...

"Qaçqınlar meydanı"nda hamı qanıqara, kövrək və əsəbi olur. Burada mətbuata da inanmırlar. "Qarabağdan düzgün informasiya getmir", - deyə biz jurnalistləri məzəmmət edirlər. Televiziyadan xüsusilə narazıdırlar: "Burada qan tökülür, - orda isə bütün günü "Qarabağ şikəstəsi" oxudurlar. Guya, bundan dərdimizə əlac olacaq. Hanı əsl vəziyyəti əks etdirən gündəlik xəbərlər, videoreportajlar?". Fotoaparatı işə salmaq, dəftərçə çıxarıb qeyd aparmaq kimsəyə xoş gəlmir. Kinokameraya isə heç dözmürlər. Xüsusən də yadellilərin əlində görəndə. O qədər bizim kəndlərin acınacaqlı mənzərəsini çəkib erməni yaşayış məntəqələri adı ilə göstəriblər ki... Daha heç kimə etibar qalmayıb.

"Qaçqınlar meydanı"ndakı söhbətlər də eyni mövzuda olur. Adamlar yana-yana qoyub gəldiklərindən danışırlar: kimi ömürboyu özünün və ailəsinin boğazından kəsib tikdirdiyi evinin yandırıldığından, kimi mal-qarasının qovulub aparıldığından, kimi taxılını və qış azuqəsini, minik maşınını qoyub gəldiyindən təəssüflə söz açır. Basqınlar eyni ssenari üzrə keçirilmiş olur. Ermənilər vərəqlər atmaqla, hava telefonu ilə bir neçə günə kəndi boşaltmaq barədə xəbərdarlıq edirlər. Müddət bitəndə Xankəndidəki "sovet ordusu"nun zirehli texnikası ilə kəndə yerli sakinlərdən qat-qat artıq sayda yaraqlılar yeridilir. Silahda və qüvvədə geri qalan, kömək almayan camaat qaçmağa üz tutur. Düşmən qırdığını qırır, sonra isə evlərə od vurub yandırır, nəhayət, gətirilən buldozerlərlə kəndin yerini düzləyir. Ələ keçən qız-qadınlar isə rüsvay edilir...

Meydan söhbətlərindən:

Meşəli kəndindən qaçan zaman ata qoşalülə tüfəngini 14 yaşlı oğluna verib 12 yaşlı bacısını ona qoşur: "Yolda erməni quldurlarına rast gəlsən, əvvəlcə bacını vur öldür, sonra özünü", - deyə bərk-bərk tapşırır. Tələsiyən ata bu sözləri qızının yanında deyir. Onlar bir zülmlə Ağdama gəlib çatırlar. Səhəri gün qızın bədəni şişməyə başlayır. Həkimlər onu müayinə etdikdə bunun keçirdiyi güclü qorxu və həyəcan nəticəsində yaranan fəsad olduğunu müəyyənləşdirirlər.

... Göz yaşını sel kimi axıdan qadına yanındakı yaşlı kişi toxtaqlıq verir:

- Yarasını öz əlimlə sarıdım, güllə ayağından dəymişdi.

- Bəs deyirlər... - hönkürtü sözün sonrasını eşidilməz edir.

- Mənə inanmırsan? Yarası yüngüldür... Sabah gedərik Gəncəyə, xəstəxanada özün görərsən, indi gecdir...

- Evimizi də yandırıb külə döndərdilər.

Gəlinin qucağından körpə nəvəsini alan ağsaqqal qəzəbini güclə boğur:

- Cəhənnəmə yandırsınlar. Evi mən tikdirmişdim, birini də tikdirərəm. Yüz elə ev qurban olsun bu uşağın bir tükünə, - deyə nəvəsini bağrına basır.

Ağdamdakı "Qaçqınlar meydanı"ndan Qarabağın dağlıq hissəsindəki azərbaycanlılar yaşayan Tuğ, Xocavənd, İmarət-Qərvənd, Həsənabad, Cəmilli, Meşəli, Kərkicahan, Axullu, Salakətin, Zəyəm... kəndlərinin "nümayəndələri" gəlib keçiblər. İndi meydan malıbəylililərlə dolub. Növbədə isə xocalılılar dayanıblar. Şuşada da vəziyyət son dərəcə ağırdır. Ondan sonra isə Ağdamdakı "Qaçqınlar meydanı" da yerini dəyişə bilər: ya Kürün o tərəfinə, ya da Xankəndiyə köçürülməsi mümkündür. "Qaçqınlar meydanı" heç olmaya da bilər. Bundan ötrü isə indiyədək etdiyimiz kimi etməməliyik. Daha Beyker də gəlib-getdi, Avropa müşahidəçiləri də..."

İndi isə boş meydanın üçüncü dövrüdür!

Dağıdılmış, kimsəsiz qalmış dövrü!

Amma həm də yeni başlanğıc dövrüdür!

## *Oğru və qatil millət*

Bu qədər xarabalıqları gördükdən sonra istər-istəməz öz-özündən xəbər alırsan:

- Görəsən, erməni niyə hər şeyi və hər yeri söküb dağıdıb?

Əvvəla, sirr deyil ki, sökülən evlərdəki tikinti materiallarının alıcısı olub!

Erməni bundan pul qazanıb!

Amma özgə evini söküb özünə ev tikənlər gərək heç zaman unutmasınlar ki, bundan heç zaman xeyir tapmayacaqlar!

Məhəmməd Peyğəmbər salavatullahın dəyərli bir kəlamını xatırlatmaq yerinə düşər: "Qəsb edilmiş kərpiclə tikilən xanə xaraba qalmağa girovdur!"

İkincisi, heç nəyi olmayan millət dəyərlərin qədrini bilməz!

Bu millət oğru millətdir!

Təkcə torpağımızı yox, musiqimizi, xalçalarımızı, mətbəximizi, alban kilsələrini də oğurlayır.

Ermənilər yaxşı bilirdilər ki, Ağdamda qızıl diş saldırmaq dəbdə olub. Hər kəsin yaşından asılı olmayaraq, ağzında bir neçə qızıl dişi olub.

Odur ki, qəbirləri söküb, meyitlərin qızıl dişlərini oğurlayıblar!

İnsanın, torpağın, dini abidələrin, keçmişin qədrini bilməyən millətin gələcəyi ola bilməz!

## *Dönüşün başlanğıcı*

Bura qədər danışdıqlarım hamısı xatirimdəki Ağdam idi!

Bir zamanlar qaynayıb-daşan, yaraşıqlı evləri, abad küçələri, gözəl park və bağları, ziyalı və əməksevər insanları, məlahətli səs sahibi olan xanəndə və müğənniləri, düşmənə ağır zərbələr endirən igid oğulları ilə fəxr edən Ağdam!

Yiyə vay dərdindən işğala məruz qaldı!

Qorxaq, maymaq, səriştəsiz, şəxsi maraqları xalqın marağından üstün tutan bacarıqsız dövlət başçıları Ağdamı da köməksiz və arxasız qoydular!

Nə ordu yarada bildilər, nə torpaqların müdafiəsini təşkil etdilər, nə də düzgün siyasət yürütdülər!

Onların bəd əməllərinin ağrı-acısını bütün xalq, o cümlədən müharibənin ilk günlərindən düşmənlə qabaq-qarşıya döyüşən Ağdam çəkdi.

Dünyanın ən varlı şəhərlərindən biri sayılan Ağdam!..

Ağdamın etdiklərinin əvəzini çıxmaq üçün düşmən onu viran qoydu!

Bu gün isə dövlətin rəhbəri və sahibi öz yerindədir!

İlham Əliyev ordu da qurdu, müharibə də apardı, 44 gündə düşməni yerlə yeksan edərək Ağdam qarışıq torpaqları azad etdi!

Bəli, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsindəki zəfərlə ikiəsrlik münaqişəyə birdəfəlik son qoydu, beşəsrlik tariximizdə ilk dəfə olaraq itirilən torpaqları geri qaytardı!

Bütün Qarabağı, o cümlədən Şuşanı murdar ləpirlilərdən təmizlədi.

Azərbaycan xalqına verdiyi vədini şərəflə yerinə yetirdi!

İndi isə geniş və vüsətli quruculuq işlərinə başlanılıb.

Möhtərəm Prezidentimiz Qarabağı yenidən dirçəldəcəyinə, cənnətə çevirəcəyinə söz verib!

Biz öz rəhbərimizə inanırıq!
Sözü ilə əməli bir olan müdrik rəhbərimizə!..

❖❖❖

27 il bundan qabaq Ağdamdan çıxmışıq...
Dünyanın ən varlı, ən inkişaf etmiş əyalət şəhərlərindən birini qoyub gəlmişik.
Biz Ağdamı tərk edəndə 5 il düşmənlə gecə-gündüz çarpışan, 6 minədək şəhid verən bir şəhər qoyub gəlmişdik.
Bu şəhərdə hər şey vardı:
* bir-birindən gözəl evlər, binalar;
* yaraşıqlı küçələr, parklar, bağlar;
* Məşhur Ağdam bazarı, dolu univermaqlar, ticarət mərkəzləri, mağazalar;
* Kinoteatrlar, mədəniyyət evləri, kitabxanalar, unikal Çörək muzeyi;
* İstehsalat müəssisələri, restoranlar, kababxanalar, yeməkxanalar, çayxanalar;
* Abad qəbiristanlıqlar, üstügötürülmüş, dəmir çağlara alınmış qəbirlər;
* Və daha nələr, nələr...
İndi onların heç biri yoxdur!
Çünki ora 27 il ərzində ermənilər sahiblik ediblər!
Faşist və bayquş xislətli ermənilər!
Qayıtdığımız Ağdam əvvəlki Ağdam deyil!
Amma bu viran yurda qayıtdığımıza görə "dəmir yumruq" sahibinə - Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarıq!
Azərbaycan əsgər və zabitlərinə minnətdarıq!
Şəhidlərimizin xatirəsi önündə baş əyirik!
Qayıda bildiyimizə görə hədsiz dərəcədə xoşbəxtik!
Viran qoyulmuş yaşayış məntəqəsi də bizə son dərəcə əziz və doğmadır.
Ağdamda yox olan təkcə daş, divar, ağac və s. deyil.
Daha Ağdamda erməni də yoxdur!
Və heç zaman olmayacaqdır!
Vətənin, torpağın qədrini onun əsl sahibi bilər!
Əminik ki, torpağı düşməndən qaytarıb alan onu həm də yenidən tikib-quracaqdır!
Qarabağ Azərbaycandır!

***16 mart 2021-ci il***

# Yeni Qarabağın baş qurucusu

Həmişə Bakıdan səfərə çıxanda "Ağdama gedirik" desək də, əslində, Ağdamın Quzanlı qəsəbəsinə getmişik...

Bu dəfə isə, həqiqətən, Ağdam şəhərinə gedirdik!

Ulu Tanrıya dua edə-edə...

Bizə bu xoşbəxtliyi nəsib edən Müzəffər Ali Baş Komandan İlham Əliyevə dərin təşəkkür və minnətdarlıq duyğuları ilə!..

Həm də qeyri-adi bir məramla...

Yeni tikiləcək Ağdam şəhərinin təməlqoyma mərasimində iştirak edəcəkdik!

Bəzən insan uzun illər həsrətini çəkdiyi xoşbəxtliyə qovuşanda səadət duyğularından başı gicəllənir, istəyinə yetdiyinə inanmaqda çətinlik çəkir...

Doğrudanmı biz öz Ağdamımıza gedirik?!

28 il həsrətini çəkdiyimiz, uzaqdan yana-yana, qovrula-qovrula baxdığımız Ağdama!..

Hamımıza belə bir hiss hakim kəsilmişdi!

❖❖❖

Yolboyu sevinc hissi bizi tərk etmirdi.

Mühəndislərin söylədiyi kimi, birincidərəcəli rahat asfalt yolla maşınımız şütüyürdü.

Pəncərədən isə bizə çoxdan tanış olan, gözümüzün öyrəşdiyi mənzərəni seyr edirdik.

Arabir mobil telefona nəzər salır, yeni baş verən hadisələri də öyrənirdik.

Yenidən tikilib-qurulan, öz gözəlliyi ilə turistləri və qonaqları heyran qoyan qədim və gözəl Bakımızı tərk edirik.

Əbəs yerə mayı ayların gözəli saymırlar.

Bu ayda yenidən canlanan təbiət ən gözəl libasını geyinərək bəzənir, ağaclar yaşıl dona bürünür, çöl-çəmən laləzara çevrilir.

Müstəqillik dövründə böyüməyən, genişlənib abadlaşmayan kənd və qəsəbə, rayon mərkəzləri qalmayıb.

Yolboyu onlara fərəhlə, razılıqla tamaşa edirik.

Hamı özünə yeni, yaraşıqlı, hər bir rahatlığı olan ev tikib, güzəran qurub.

Elə kəndlərimiz var ki, insanlarımız ikimərtəbəli evlərlə qane olmayıblar, özlərinə üçmərtəbəli "villa"lar tikdiriblər.

Getdiyimiz yol da, bizi sürətlə aparan "Mersedes" markalı avtobus da, seyr etdiyimiz abad, yaraşıqlı yaşayış məntəqələri də, cibimizdəki mobil telefon da, hətta gözəl Qarabağın azadlığa qovuşması da müstəqilliyimizin bəhrəsidir.

Dövlət müstəqilliyimiz, onun sayəsində təbii sərvətlərimizə sahib çıxmağımız belə bir güzəran qurmağa şərait yaradıb!

Ən əsası dövlətimiz milli maraqları təmin edən uğurlu siyasət yürüdüb, dövlət başçısı daim vətəndaşlarının yanında olub, onların arzu və istəklərini gerçəkləşdirib.

❖❖❖

Bəli, müstəqillik gözəl, əvəzsiz nemətdir.

Ancaq onun şirin bəhrəsindən doyunca dada bilməmişdik.

30 il bundan əvvəl özlərini Xalq Cümhuriyyətinin varisləri kimi bu müstəqilliyi Konstitusiya aktı şəklində bəyan edənlər yalnız müstəqil dövlət olduğumuzu ucadan söyləmişdilər!

Vəssalam!

Müstəqil ölkəmizi inkişaf etdirəcək iqtisadiyyatımız, bu respublikanı dünya dövlətləri sırasına çıxaracaq siyasətimiz, yeni dövləti qorumağa qadir ordumuz, ölkə daxilində həmrəylik, barış və intibah yaradan daxili siyasətimiz, gələcəklə bağlı aydın və uzaqgörən proqramlarımız yox idi!

Dövlətə başçılıq edənlərin bir qismi Azərbaycanın SSRİ tərkibində qalması barədə referendum keçirir, başqa bir qrup hakimiyyət hərisi isə iqtidara gəlmək, şəxsi maraqlarını təmin etmək barədə düşünərək anarxiya və başıpozuqluq yaradırdı.

Sadə xalq isə torpağını necə qoruyacağını, düşməndən nə sayaq müdafiə olunacağını, dərdini kimə deyərək kimdən əlac umacağını kəsdirə bilmirdi...

1918-ci ildə - Xalq Cümhuriyyətinin qurulduğu dövrdə Azərbaycanın torpaqları hesabına özlərinə dövlət quran ermənilər isə yaranmış vəziyyətdən istifadə edərək yeni ərazilərimizi ələ keçirmək üçün "miatsum" hərəkatına başlamışdılar.

Onlar havadarlarına arxalanaraq əməli addımlar atırdılar.

Həqiqi rəhbərindən, dünyaşöhrətli siyasətçi və dövlət xadimi Ulu Öndər Heydər Əliyevdən ayrı düşən Azərbaycan xalqı isə bu mürəkkəb situasiyadan qurtulmaq, baş verənlərdən baş açıb kimə güvənəcəyini kəsdirə bilmirdi.

Gözlənilənlər ən pis, ən ağır formada baş verdi: ermənilər nəinki Dağlıq Qarabağı, hətta ətrafındakı 5 rayonu da işğal edərək niyyətlərinə çatdılar!

Xalqın etimadını doğrultmayan, torpaqların müdafiəsini təşkil edə bilməyən, ölkəni Vətəndaş müharibəsi həddinə çatdıran maymaq, qorxaq, səriştəsiz dövlət başçıları isə xalqın əli ilə iqtidardan qovuldular.

Azərbaycan xalqı başqa bir istəyinə qovuşdu:

Ulu Öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtdı.

Ancaq, necə deyərlər, artıq iş-işdən keçmişdi...

Azərbaycan özü boyda problemlərin içində boğulurdu:

* bir miyondan çox qaçqını və məcburi köçkünü yerləşdirmək, onların həyat və yaşayışını qaydaya salmaq;
* müharibədə atəşkəsə nail olaraq yeni ərazilərin işğalına imkan verməmək;
* Vətəndaş müharibəsinin alovlarını söndürmək, əhalidəki külli miqdarda silah-sursatı yığmaq, xaos və anarxiyanın qarşısını almaq;
* bazar iqtisadiyyatına keçidi şərtləndirən zəruri islahatlar aparmaq;
* milli maraqların təmin olunduğu neft müqavilələri imzalayaraq təbii sərvətlərdən istifadəni qaydaya salmaq;
* yeni iş yerləri yaradaraq xalqın güzəranının yüksəlməsinə nail olmaq;
* müstəqil dövlətçiliyin atributlarını yaratmaqla müstəqil daxili və xarici siyasət yürütmək;
* Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə əsl həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, məsələni sülh yolu ilə nizama salmaq və s. kimi problemlər təxirəsalınmaz həllini gözləyirdi!

Bu qədər problemləri olan dövlətdə müstəqilliyin verdiyi imkanlardan bəhrələnmək mümkün idimi?!

Amma Ulu Öndər Heydər Əliyev mümkün olmayanları da mümkün etdi!

Azərbaycan, sözün həqiqi mənasında, müstəqil xarici siyasət yürütməyə, əsaslı islahatlar keçirərək bazar iqtisadiyyatı prinsipləri ilə fəaliyyət göstərməyə başladı, dünya birliyinin bərabərhüquqlu üzvləri sırasında özünə yer aldı.

Lakin ömür vəfa etmədi, Ulu Öndərimiz Qarabağ probleminin həllini siyasi varisi İlham Əliyevə saxlayaraq: "Mən ona özüm qədər inanıram və əminəm ki, mənim axıra çatdıra bilmədiyim məsələlərin həllinə nail olacaqdır" vəsiyyətini edərək ölməzliyə qovuşdu.

❖❖❖

Bir qədər sonra keçiriləcək tarixi və unudulmaz görüşdə Müzəffər Ali Baş Komandan İlham Əliyev xilaskarı olduğu Qarabağın baş şəhəri sayılan Ağdamın

baş planının təsdiqlənmə mərasimini niyə məhz 28 maya saldığını söyləyəcəkdi: "Mən hesab etdim ki, ən düzgün tarix bizim milli bayramımız olan Respublika Günüdür, Müstəqillik günüdür".

Sonra bu fikrinə bir qədər də aydınlıq gətirəcəkdi: "Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq güclü Azərbaycan, müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi".

Hələlik isə keçmiş təmas xəttinə, ömrünü başa vurmuş cəbhə bölgəsinə yaxınlaşırdıq...

İllərlə həsrətini çəkdiyimiz Ağdamla yeni görüşə tələsirdik.

Mənfur düşmənlərimizin Ağdamda törətdikləri vəhşiliklərdən, kənd və qəsəbələri, şəhərləri viran qoyduqlarından, meşələri qırdıqları və təbii sərvətlərimizi talan etdiklərindən, hətta məscid və qəbiristanlıqları belə dağıtdıqlarından yaxşı xəbərdar idik.

Dəfələrlə televiziya ekranlarından bu qandonduran mənzərəni izləmiş, bir qismini gözlərimizlə görmüşdük.

Bəli, düşmən düşməndir!

Amma babalarımız da həmişə qarşılarında mərd düşmən olmasını istəmişlər.

Çünki özləri mərd olmuşlar, insanlarla döyüşmüşlər, qocadan, qadından, uşaqdan, daş-divardan qisas almağı özlərinə sığışdırmamışlar.

❖❖❖

28 ildən sonra "Dördyol" adlanan ərazidən Müzəffər Ali Baş Komandan İlham Əliyevin misilsiz şücaəti sayəsində düşməndən geri alınan Ağdamın ərazisinə daxil oluruq...

Dərhal əhvali-ruhiyyəmiz dəyişir, içimizə qapılır, keçmiş günləri, qoyub gəldiyimiz Ağdamı yenidən xəyalımızda canlandırırıq.

Yol yoldaşımız olan millət vəkili Aqil Abbasın "Dolu" romanında "Dünyanın ən varlı şəhəri" adlandırdığı Ağdamı...

Əcnəbilər bu mənzərəni atom bombası ilə dağıdılmış Xirosima şəhərinə bənzədirlər...

I Qarabağ müharibəsi dövründə əliyalın Ağdam camaatı və respublikanın hər yerindən onlara köməyə gələn igidlər sovet imperiyası tərəfindən silahlandırılan ermənilərə yaxşı toy tutmuş, ciddi tələfat yaşatmışdılar. Ancaq üstümüzə göndərilən nizami ordu ilə sonadək bacarmamışdılar...

Düşmən isə ağdamlıların hayfını onların məcburiyyət qarşısında tərk etdikləri vətənlərindən, daşından, torpağından, təbiətindən, ev-eşiyindən çıxmışdı...

Əslində, gördüyümüz bu mənzərə faşist Ermənistanı ilə sülhpərvər, multikultural ənənələrə sahib Azərbaycan xalqı arasındakı mahiyyət fərqindən yaranmışdı.

Və bizim bu səfərimizdə həm də düşmənin vandal əməli ilə xalqımızın sülhpərvər niyyətinin müqayisəsini görürdük.

Bu gün Ermənistan acınacaqlı durumdadır!

Döymədikləri qapı, yalvarmadıqları dövlət başçısı, yalamadıqları daban qalmadı.

Amma nə havadarları, nə hələ də arxalarında dayanaraq sözlərini deyənlər onları Müzəffər Ali Baş Komandan İlham Əliyevin müqəddəs qəzəbindən, "dəmir yumruğ"undan xilas edə bildi!

Ermənistan ordusu döyüş meydanında məhv edildi!

İlham Əliyev onları diplomatiya sahəsində, informasiya müharibəsində də təkbaşına rüsvayçı məğlubiyyətə uğratdı.

Yalnız Azərbaycan rəhbərinin qoyduğu şərtlər yerinə yetirildikdən sonra düşmənə aman verildi, hərbi əməliyyatlar dayandırıldı!

Ermənistan rəhbəri hansısa qaranlıq zirzəmidə gizlənərək kapitulyasiya sənədinə imza atdı!

"Dəmir yumruğ"un zərbəsindən Ermənistan hələ də özünə gələ bilməyib.

Daxili didişmələr, dağılan iqtisadiyyat, aybaay artan xarici borc, əhalinin sürətli miqrasiyası bu dövləti çıxılmaz duruma salıb.

Əslində, Ermənistanı dövlət adlandırmaq da gülünc görünür.

Vassala və forposta çevrilən bu ölkənin sərhədlərini özgə əsgərləri qoruyurlar.

Strateji obyektləri başqalarına satılıb.

Hazırda Azərbaycan ərazisində qoyub getdikləri məğlub əsgərlərinin leşlərini axtarmaq, onları gizlincə dəfn etməklə məşğuldurlar.

Amma yenə də faşist xislətlərindən, qisasçılıq niyyətlərindən əl çəkmək istəmirlər.

Bəli, biz I Qarabağ müharibəsini uduzduq, torpaqlarımızı qoruya bilmədik.

Odur ki, viran qoyulmuş Ağdamın ürəkağrıdan mənzərəsini seyr etmək məcburiyyətindəyik!

Ancaq Tanrı bizə Heydər Əliyev kimi nadir şəxsiyyət, dövlət xadimi qismət etdi, o, bizi toparlandırdı!

Tanrı bizə İlham Əliyev kimi parlaq zəka sahibi, uzaqgörən, qətiyyətli sərkərdə bəxş etdi!

Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsində torpaqlarımızı geriyə qaytardı, murdar düşməndən qisasımızı aldı!

Bu gün də onun qüdrətli “dəmir yumruğ”u hazır vəziyyətdədir!

Düşmən başını qaldıran kimi ilan başıtək əziləcəkdir!

Bəli, biz ümumilikdə iyirmi beş mindən artıq şəhid versək də, torpaqlarımızı qaytardıq, Vətənimizə sahib çıxdıq!

Prezidentimizi sevir, onunla qürur duyur və inanırıq ki, xilaskarı olduğu Qarabağı yenidən tikib-quraraq əsl cənnətə çevirəcəkdir!

Viran qoyulmuş Vətən mənzərəsi bizə nə qədər ağır gəlsə də, inam və təsəllimiz də böyükdür:

* torpağımıza qayıtmışıq;

* Vətənimizə sahib çıxmışıq;

* güclü ordumuz və güclü iqtisadiyyatımız var;

* Xalq rəhbərini sevir, onun ətrafında birləşərək bütün problemləri həll etmək iqtidarındadır;

* sabah bu gündən daha yaxşı, daha firavan olacaqdır!

30 mindən çox itki verən Ermənistanın isə sabahı yoxdur!

Qonşularına qarşı ərazi iddiaları olan, daim başqa dövlətlərin əlində alətə çevrilən, özünə dövlət qurmağa qadir olmayan, ağıllı, hamının qəbul etdiyi rəhbər tapmayan bu faşıst dövlətini hansı aqibət gözlədiyi bəllidir.

Biz şəhidlər və itkilər versək də, məqsədimizə çatdıq və daha heç kəs, heç zaman bizdən torpaq qopara bilməz!

Otuz il Qarabağın xarabalıqlarında dilənçi həyatı sürən, bu gün isə məhv edilmiş orduya, qorxaq fərarilər yığnağına arxalana bilməyən, korrupsioner dövlət başçılarına inanmayan, özgə torpağından birdəfəlik qovulanlar ağır itkilərinə, dövlətsiz qalmalarına, şərəfsiz duruma düşmələrinə görə özləri günahkardırlar.

Artıq biz qisasımızın yeni mərhələsinə qədəm qoyuruq:

* işğaldan azad edilmiş ərazilərin bərpası;

* məcburi köçkünlərin geriyə qaytarılması;

* Qarabağımızın dirçəldilərək cənnətə çevrilməsi mərhələsinə!

❖❖❖

Ağdamda heç zaman belə möhtəşəm görüş olmamışdır!

Prezidentimizi görən kimi elə bil üstümüzə gün doğdu!

Xalqımızın ümidi, pənahı cənab İlham Əliyev dünyanın hər bir guşəsində, hər bir tədbirdə ən çox arzu edilən və sevilən qonaqdır!

Hər yerdə onu hörmətlə qarşılayır, diqqətlə dinləyir, müdrik fikirlərindən, səmərəli təkliflərindən bəhrələnirlər.

Koronavirus pandemiyası dünya ölkələrini öz qapılarını bağlamaq məcburiyyətində qoysa da, ünsiyyətin yeni forması, videokonfranslar yeni körpülər yaradıb.

Və biz bu yeni formatın mükəmməl nümunələrinin dəfələrlə canlı şahidinə çevrilmişik!

İlham Əliyevlə canlı ünsiyyət isə hər kəsə qismət olan xoşbəxtlik deyil!

Prezidentimizin xoş aurası, sadə və səmimi davranışı, inamlı və qətiyyətli çıxışı bizi özgə bir aləmə apardı!

Viranəliyin şokundan ayılaraq yeni layihələrin yaradacağı xoş mənzərələrin təsiri altına düşdük.

Ağdamın dirçəlişindən danışan Qarabağın xilaskarı İlham Əliyevin hər kəlməsi, hər fikri canımıza yağ kimi yayılırdı.

Çünki deyilənlərin təsdiqini, hər bir məqamın nəzərə alındığını yeni Ağdamın baş planında aydın görürdük.

Həm də yaxşı bilirik ki, bu planın ideyası dünyanın ən uzaqgörən, ən işıqlı və ən zövqlü zəka sahibi olan cənab İlham Əliyevdən gəlib.

Sözünün sahibi olan cənab İlham Əliyevdən...

Deyir, Allah dərd verəndə, dərman da verir!

Bəli, yurdumuz viran qoyulsa da, onu qısa müddətdə dirçəltməyə qadir rəhbərimiz, güclü iqtisadiyyatımız, vətənpərvər insanlarımız da var!

Prezidentimiz Ağdamı nəinki ən müasir şəkildə yenidən tikib-qurmaq, üstəlik, düşmən üçün gözdağına çevirmək niyyətindədir!

Odur ki, qarşıya qəti tələb qoyub:

* Hər şeyin yaxşısı Ağdamda olmalıdır!
* Ağdam ən müasir yaşayış məntəqəsinə çevrilməlidir!
* Bütün dünyaya örnək olan Ağdam qurulmalıdır!
* Burada yaşayanlar özlərini rahat və asudə hiss etməlidirlər!

❖❖❖

İlahi, Ağdamda nələr olmayacaqdır!

Müstəqillik dövründə sərhədlərimiz açılmış, istənilən ölkəyə gediş-gəliş başlamışdır.

Yaranan imkandan bəhrələnənlərimiz, dünyanın ən gözəl guşələrində istirahət edənlərimiz də çoxdur!

Gizlətmirəm, həmişə dünyanın harasındasa gözəl, maraqlı, heyrətamiz bir şey görəndə ürəyimdə paxıllıq da etmişəm:

Bunlardan bizdə niyə yoxdur!

Kiçik bir haşiyə çıxmaq istəyirəm.

1941-1945-ci il müharibəsindən sonra, yetmişinci illərə qədər Azərbaycan çox yoxsul yaşayırdı (əslində, bütün SSRİ bu gündə idi). Əllinci illərdə evlərdə ağ nöyüt lampası yandırılar, ağ nöyütlə işləyən "maşınka"larda çay qaynadılar, xörək bişirilər, otaqlar isidilərdi.

Hələ nə Mingəçevir Su-Elektrik Stansiyası vardı, nə kifayət qədər maşın, mexanizm.

Ağdam bazarında ağ neft də satılırdı.

Ağdamlı dəmirçilərin ağ dəmirdən düzəltdikləri 20 litrlik neft qabları dəbdə idi.

Bazarda xüsusi hamballar da vardı. Həmin qabları ağ nöyütlə doldurduqdan sonra arxalarına yükləyər, müəyyən haqq məbləğində evə gətirməyə kömək edərdilər.

Bir qədər imkanlılar nöyüt alanda bazarlıq da edər, sonra bazarın qabağında "xaltura" üçün dayanan eşşək arabalarına yükləyərək fəxrlə yanınca gedər, dolu zənbilin aşıb dağılmamasına "nəzarət" edərdilər.

Sonra bu eşşək arabalarının yerini "Molotov moskviçləri" , "Zinbalalar", daha sonra "QAZ -21" və "QAZ-24", "Volqa"ları tutdu!

Son dövrlərdə isə "VAZ-2106"lar dəbə minmişdi.

Yeni salınan Ağdamda isə tramvaylar, həm də ən müasirləri, elektriklə işləyən təkərsiz tramvaylar cövlan edəcəkdir!

Ağdam şəhərinə içməli su Qaraqaya adlanan yerdən gətirilərdi.

Əhaliyə çatmazdı.

Hər məhəllədə bir, ya bir neçə su kranı qoyulardı.

İnsanlar əllərində vedrə növbəyə duraraq evlərinə su daşıyardılar!

Yeni Ağdamda motorlu qayıqların üzə biləcəyi 2 kilometrlik kanal olacaqdır!

İnsanların dincəlməsi, zövq alması üçün göl yaradılacaq, şəlalə gurlayacaqdır.

79 kilometrlik velosiped yolu çəkiləcəkdir.

Ağdamın öz dağüstü parkı, cürbəcür karuselləri olacaqdır.

Yeni Qarabağ qəbiristanlığı salınacaqdır.

Şəhərin yeni baş planının bütün elementlərini sadalamaq niyyətində deyiləm. Sadəcə, əvvəlki Ağdamla yeni Ağdamın fərqini nəzərə çarpdırmaq istəyirəm.

Təqdimetmə mərasimində hər bir ideyanın Prezidentimizə məxsus olduğunun, hər bir layihənin onun tapşırığı və nəzarəti altında həyata keçirildiyinin şahidinə çevrildik.

Baş planla tanışlıqdan sonra Ağdamın xarabalıqlarını unutduq, bədbin ovqatdan qurtulduq.

Buna həm də İlham Əliyevin sadə, səmimi davranışları, isti, xoş münasibəti səbəb oldu!

Prezidentimiz hər birimizlə şəkil də çəkdirdi!

Uzun müddət Ağdam itkisi, Ağdam nisgili, Ağdam ayrılığı bizi sıxıb, əzib hərdən isə ümidsiz duruma salıb.

İndi yeni Ağdamın təməlini qoyanlardan biri olduğuma görə özümü hədsiz dərəcədə xoşbəxt sanıram!

Bu xoşbəxtlik duyğularını bizə yaşadan, Ağdamımızı, bütün Qarabağımızı bizə qaytaran xalqımızın xilaskar oğlu, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevdir!

* Beş əsr ərzində itirilmiş torpaqları geri qaytaran qüdrətli Sərkərdə İlham Əliyev!

* İkiəsrlik Qarabağ münaqişəsinə uğurla birdəfəlik son qoyan Müzəffər Ali Baş Komandan İlham Əliyev!

* Müqəddəs ata vəsiyyətini şərəflə yerinə yetirən İlham Əliyev!

* Azərbaycan xalqını ən böyük arzusuna çatdıran Xilaskar İlham Əliyev!

Şükür Tanrımıza!

Dünən Ulu Öndərimizlə fəxr edirdik!

Bu gün isə Prezidentimiz İlham Əliyevlə qürur duyuruq!

Allah bu xoşbəxtliyi, bu xoş günləri bizə çox görməsin!

***1 iyun 2021-ci il***

## Salam, Ağdam!

Salam, Ağdam!

Soruşmuram necəsən!

Görünən dağa nə bələdçi, demişlər.

Dünya gördü sənin dağıntılarını, viranəliklərini...

Yarıdağılmış məscidindən başqa, bir salamat binan qalmayıb.

Düşmən qabaq-qənşər döyüşdə onlara etdiklərinin əvəzini daşından, torpağından, ağacından, gözünə görünən hər şeydən çıxıb.

Alçaqniyyətli, faşistxislətli, Hitlerin əlaltılarına heykəl qoyan ermənidən başqa nə gözləmək olar?!

Səndən sonuncu dəfə 1993-cü ilin iyulunda ayrıldım...

Uzundərəni keçəndən sonra maşından düşüb həsrətlə geri boylandım.

Yaşıllığa bürünmüş yaraşıqlı evlərinin abad görünüşünü beynimə yazmaq istəyirdim...

Başqa nə etmək olardı ki...

Bilirdim ki, Ağdamın düşmən əlinə keçməsinə sayılı günlər qalıb.

Aylar öncə strateji yüksəkliklər əldən verilmişdi, havadarlarına arxalanan düşmən isə silah-sursat, canlı qüvvə cəmləyərək rayon mərkəzinə qəti hücuma hazırlaşırdı.

Başı hakimiyyət şirinliyinə, şəxsi maraqlarını ödəməyə qarışan AXC-Müsavat cütlüyü torpaqları müdafiə barədə düşünməyə vaxt tapmırdı.

Əksinə...

Onların müdafiə naziri Rəhim Qazıyev xəyanət yolu ilə torpaqların düşmənə verilməsinə münbit şərait yaratmışdı.

Əvvəlcə Şuşaya gedərək orada özünə qarşı qondarma "sui-qəsd əməliyyatı" təşkil etmiş, bununla da "personası"nın vacibliyini diqqətə çatdırmışdı.

Ardınca Şuşanın müdafiəsində can-başla iştirak edən, insanları səfərbərliyə almağı bacaran şəhərin ozamankı rəhbəri Mikayıl Gözəlovun və Şuşa Özünümüdafiə Batalyonunun komandiri Ramiz Qənbərovun müəmmalı qətli şəhərin düşmənə verilməsi ilə nəticələnmişdi.

Daha sonra Ağdama gələn Rəhim Qazıyev iki özünümüdafiə batalyonunun komandirləri arasında qan düşmənçiliyi salaraq buranın da müdafiəsini zəiflətmişdi.

Bax beləcə, Ağdam xəyanət əməllərindən və yiyəvay dərdindən işğala məruz qaldı...

Amma buna qədər ağdamlı igidlər, respublikanın hər bir guşəsindən köməyə gələn mərd oğullar düşmənə mümkün olan zərbələri vurmuşdular.

Qarabağ uğrunda müharibənin ilk şəhidlərini Əlinin və Bəxtiyarın simasında məhz sən vermişdin.

Daha sonra altı minədək övladın şəhid oldu!

Əfsus!

Təkcə vətənpərvərliklə, təkcə sücaət və qəhrəmanlıqla torpaq qorumaq mümkün deyil!

Lap iyirmi min insanı şəhid versən də belə!

Mərd, müdrik və uzaqgörən Sərkərdən, nizami ordun və mükəmməl silah-sursatın da olmalıdır!

Həmin dövrdə isə bunların heç biri yox idi!

Beləliklə, doğma Vətənin bir parçasını müvəqqəti də olsa itirdik!

O parçanın içində sən də vardın, Ağdamım mənim!

Və bu ayrılıq düz 27 il sürdü...

İztirab, məşəqqət, əzab, həsrət dolu 27 il!

Nə müsibətlər çəkdi başımız...

Qəddimiz əyilsə də, bükülmədi...

Qürurumuz sınsa da, özümüz sınmadıq!

Vətən həsrəti ilə çoxları ölsə də, ümidimizi ölməyə qoymadıq!

Əmanət qəbirlərdə yataraq, sənə qovuşacağımız günü gözlədik!

Prezidentimizə, rəhbərimizə inandıq, ona güvəndik, ona arxalandıq!

Bilirdik ki, bu işğal əbədi çəkməz!

Bilirdik ki, Tanrı bu dərdi əlacsız qoymaz!

Bilirdik ki, torpaq əsl sahibi qayıtmadan uzun müddət boş qalmaz!

Düşmən arxalı idi, müdafiəçiləri, köməkçiləri, sözünü deyənləri çox idi...

Acgöz və tamahkar, bayquş kimi xarabalıqlar sevirdi...

İçi mebellə, qab-qaşıqdan tutmuş yorğan-döşəyədək dolu olan bütün evləri, mənzilləri "yaxınları"na satdı, taladı...

Evlərin dəmir, taxta materiallarını, daşlarını belə pula çevirdi...

Qəbirlərin baş daşlarının üstünü silərək yenidən satdı, məzarları eşib ölənlərin qızıl dişlərinə qədər çıxardı.

Nə bacardısa, etdi!

Amma ürəyində bir xof da vardı: bilirdi ki, torpağın əsl sahibi hökmən geri qayıdacaq, cəzasını verəcək!

Kimlər nə qədər qorusalar da, müdafiə etsələr də!

Prezidentimizin kövrələrək dedikləri sözlər biz məcburi köçkünlərə verilən ən yüksək qiymətdir: "Hər zaman mənim gözlərim önündə onlar idi, nə qədər əzab çəkdilər, nə qədər əziyyət çəkdilər, amma sınmadılar, möhkəm oldular. Budur Azərbaycan! Budur Azərbaycan xalqı!"

❖❖❖

Xalq əsl rəhbərini, ordu isə inandığı qəhrəman sərkərdəsini tapanda bütün müşküllər həll olunur!

Müzəffər Ali Baş Komandan İlham Əliyev qüdrətli bir ordu yaratdı, onu ən müasir silahlarla silahlandırıb, ən yeni taktika və strategiya tətbiq etdi, nəticədə ən az itki ilə ən yüksək nəticə qazanıldı!

Azərbaycan Ordusu qarşısında kimsə duruş gətirə bilmədi!

Azərbaycan-Türkiyə qardaşlığı və müttəfiqliyi qarşısında bütün bədniyyətlilər geri çəkildilər!

27 ilin gözyaşı, 27 ilin həsrəti, 27 ilin möhnəti 44 gündə qurudu, işğal sona çatdı, bütün həsrət, əziyyət, möhnət möhtəşəm Zəfərlə bitdi!

Düşmən ordusu "dəmir yumruğ"un zərbələri ilə məhv edildi!

Bir qismi fərarilik edərək döyüş meydanından qaçdı, qalanları qarşımızda diz çökdü!

Müzəffər Ali Baş Komandan İlham Əliyev hərb meydanında sübut etdi ki, əsl məğlubedilməz ordu Azərbaycan Ordusudur, əsl qalib millət Azərbaycan xalqıdır!

❖❖❖

Son 26 il ərzində 23 iyulu "qara bayram" kimi qeyd edirdik.

Müzəffər Ali Baş Komandan İlham Əliyev isə əsl bayramımızı, sənin düşmən işğalından geri qaytarılmağını şəxsi sücaət və qəhrəmanlığı ilə təmin etdi!

Azərbaycan tarixinə 20 noyabrı Ağdamın xilası günü kimi həkk etdi!

Halbuki düşmən 6 qat müdafiə xətti yaradaraq qəhrəman ordumuzun mərkəzdən hücuma keçəcəyini gözləyirdi.

Bu, əslində, Baş Sərkərdəmizin uğurlu, aldadıcı hərbi manevri idi!

Ermənilərin dostlarının köməyi ilə 27 il ərzində qurduqları müdafiə səngərləri, beton bunkerlər, "Ohanyan xətti", mina sahələri və başqa maneələr Azərbaycan Ordusuna ciddi tələfat verməyə hazırlanmışdı!

İlham Əliyev sərkərdə qüdrəti ilə ermənilərin bu tələsini puça çıxardı!

Beləliklə, həm də sənin qoynundan öz övladlarına doğru güllə atılması niyyəti baş tutmadı!

❖❖❖

Salam, Ağdam!

Azadlığın mübarək!

Yeni növrağın mübarək!

Daha heç vaxt yadlar sənin üstündə gəzməyəcək, qulağın yad səslər eşitməyəcək!

Daha heç vaxt biz səni yad əllərə vermərik, səndən ayrı düşmərik!

Çəkdiklərimiz həm sənə, həm də bizə bəs edər!

Keçmiş olsun, bəlalı günlərin arxada qalsın.

Müzəffər Ali Baş Komandan İlham Əliyev təkcə şəhidlərimizi deyil, dağıdılan kənd və şəhərlərimizin də qisasını aldı, ermənini Qarabağdan iti qovan kimi qovdu!

İndi növbə sənin yaralarını sağaltmaq, həsrətində olanları yenidən qoynuna qaytarmaqdır.

Düşmən murdar xislətini sonadək davam etdirib.

Torpaqlarımızdan cəhənnəmə qovulsalar da, basdırdıqları ölüm toxumları - mina və mərmilər zərərsizləşdirilməsə, hər an cücərə, fəlakət törədə bilər.

Bizə verdiyi mina xəritələrinin dəqiqliyi isə vur-tut 25 faizdir.

Bu addımında da mənfurluğuna, murdar xislətinə sadiq qalıb!

❖❖❖

Vüsalına qovuşmaq üçün hələ çox iş görməliyik, lap çox!

Dövlət başçısı İlham Əliyev ilk olaraq Ağdam şəhərinin baş planını təsdiq etdi!

Həmin baş plana görə dünya şəhərsalma tarixində yaxşı və nadir nə varsa, hamısı yeni Ağdamda olacaq!

Bir-birindən gözəl layihələrin baş müəllifi, əslində, Prezident İlham Əliyevdir.

Yeni salınacaq Ağdam şəhərində çoxmərtəbəli binalar, park və xiyabanlar, yaşıl zonalarla yanaşı, süni göllər, şəlalələr, su kanalları, tramvay və velosiped yolları, uşaq əyləncə meydançaları, daha nələr, nələr olacaqdır!

Yüz min insanın yaşaması üçün planlaşdırılan şəhər gözəlliyi, rahatlığı ilə fərqlənəcək, Qarabağın baş şəhərinə çevriləcəkdir.

Bir sözlə, köhnə Ağdam unudulmayacaq, təzəsi isə düşmən gözü çıxaracaqdır!

Tələsirik, çox tələsirik!

Yenidən sənə qovuşmağa, yaralarını sağaltmağa, doğma yurda qayıtmağa, şən-firavan yaşamağa can atırıq!

Prezidentimiz bizi bu istəyimizə də daha tez qovuşdurmaq üçün nə mümkünsə edir!

İnanırıq ki, vüsal günümüz uzaqda deyil!

Tezliklə, lap tezliklə əbədi görüşəcəyimiz, əbədi birgə olacağımız günün həsrəti ilə!

Ağdam bizimdir!

Qarabağ Azərbaycandır!

***20 noyabr 2021-ci il***

# İlham Əliyevin hədəfləri

*Dostların sayı artdıqca və dostluğumuz möhkəmləndikcə gücümüz də artır*

Azərbaycan Prezidenti İlham Əliyev bizi hər zaman möhtəşəm addımları ilə təəccübləndirməyi və sevindirməyi bacarır.

Qəflətən elə gözlənilməz gedişlər edir ki, heyran olmaya və qürur duymaya bilmirsən!

15 iyun 2021-ci ildə Şuşa şəhərində imzalanan Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik bəyannaməsini ratifikasiya və təsdiq edərək yenicə qüvvəyə mindirmişdik.

Bunun ardınca 22 fevral 2022-ci ildə Moskvada daha bir vacib və mühüm əhəmiyyətli sənəd - Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında bəyannamə imzalandı.

Yaxın tarixə baş vursaq, bu müqavilələrin necə vacib əhəmiyyət daşıdığını, xüsusən müstəqil Azərbaycan üçün nə qədər vacib və gərəkli olduğunu görərik!

Türkiyə bizə dost və qardaş ölkədir!

Necə deyərlər, əti ətimizdən, qanı qanımızdandır!

Ulu Öndərimizin təbirincə söyləsək: bir millət, iki dövlətik!

Amma 1992-ci ildə ozamankı Prezident Ə.Elçibəy Kəlbəcərdən dinc əhalini təhlükəsiz, sağ-salamat çıxarmaq üçün Türkiyədən 2 mülki vertolyot ala bilmədi!

Çünki Süleyman Dəmirəl Türkiyəsi icazə olmadan qardaş Azərbaycana kömək göstərmək imkanında deyildi!

Rəcəb Tayyib Ərdoğan Türkiyəsi isə artıq dünya dövlətinə çevrilib, öz maraqlarını təmin edən müstəqil siyasət yürüdür!

Azərbaycan Prezidenti cənab İlham Əliyev isə Türkiyə-Azərbaycan qardaşlığını tarixində görünməyən səviyyəyə yüksəltməyi, strateji müttəfiqliyə çevirməyi bacardı!

II Qarabağ müharibəsində və bu gün də qardaş Türkiyə bütün varlığı - silahı, ordusu, iqtisadi qüdrəti, mənəvi dəstəyi ilə Azərbaycanın yanında oldu və indi də Qarabağdadır!

SSRİ-nin birinci və sonuncu prezidenti M.Qorbaçovun Azərbaycana qarşı murdar mövqeyi, sovet ordusunun, xüsusən 366-cı alayın birbaşa yardımı olmasaydı, Ermənistan Azərbaycan torpaqlarını heç zaman işğal edə bilməzdi!

Vətən müharibəsi dövründə isə Rusiya Ermənistan tərəfindən döyüşmədi, əksinə, sülh yaradaraq məsələnin sonrakı mərhələsini diplomatiya müstəvisində həllinə yönəltdi və beləliklə, bəzi təhlükələri qabaqlamış oldu.

Bu, bir reallıqdır ki, Rusiyanın iştirakı olmadan Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq mümkün deyil!

Xüsusən dünyanın indiki dövründə!

Bəli, Azərbaycan Prezidenti İlham Əliyev ən çətin, ən ağır məqamdan uduş ilə çıxmağı gözəl bacarır!

Baxın, COVID-19 dünyanı iflic vəziyyətinə salıb, ölkələr özünə qapanır, insanlar normal həyatlarını yaşaya bilmir, iqtisadi fəallıq azalır, istehsal aşağı düşür, çıxılmaz durum yaranır...

Cənab İlham Əliyev isə dünya üçün ən pis, fəlakətli il sayılan 2020-ci ili Azərbaycan üçün ən şərəfli, tarixi Zəfər ilinə çevirir, 44 günlük Vətən müharibəsi apararaq ərazi bütövlüyünü bərpa edir!

2022-ci il də dünya üçün narahat və qorxulu bir ildir!

ABŞ və Avropa Rusiyanın üstünə düşərək onu Ukraynaya hücumdan, fəlakətə çevrilə biləcək müharibədən çəkindirməyə çalışır, yeni sanksiyalarla hədə-qorxu gəlir.

Azərbaycan Prezidenti İlham Əliyev isə dünyanın bacarmadığı, ipə-sapa yatmayan Rusiya ilə dostluq və əməkdaşlıq münasibətlərini yeni səviyyəyə yüksəldir, qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında müqavilə imzalayır!

Bununla da Rusiya ilə dostluğu daha da möhkəmləndirərək bundan milli maraqlar naminə faydalanmağı, eyni zamanda bu dostluğu məharətlə düşmənə qarşı yönləndirməyi də bacarır!

Əsl müdriklik də, məharət də, diplomatiya da budur!

❖❖❖

Maraqlı bir detalı da diqqətdən qaçırmayaq:

Moskvada yeni bəyannamə imzalanan gün Milli Məclisin iki deputatı

AVRONEST Parlament Assambleyasının komitə iclasında iştirak etmək üçün İrəvana səfər etmişdilər!

Ermənistan paytaxtı bir-birinə dəymişdi!

Erməni xalqı qalib Azərbaycanın iki nümayəndəsinin öz paytaxtlarına səfərini həzm edə bilmirdi!

Çünki biabırçı məğlubiyyətlərinin ağrı-acısını get-gedə daha çox duyurlar!

Hələ mənasız etiraz aksiyaları vaxtı Azərbaycanla Rusiya arasında yeni, daha yüksəksəviyyəli dostluq və əməkdaşlıq sənədinin imzalanmasından xəbərsiz idilər!

Üstəlik, bilmirdilər ki, yeni bəyannamədə baş nazirlərinin gizlənərək qol çəkdiyi kapitulyasiya aktındakı mühüm müddəaların icrasının zəruriliyi də öz əksini tapıb!

Bəyannamənin 9-cu bəndində yazılıb: "Rusiya Federasiyası və Azərbaycan Respublikası regionda sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası və Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşdırılması üçün əsas kimi çıxış etmiş Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin 9/10 noyabr 2020-ci il tarixli, 11 yanvar 2021-ci il tarixli və 26 noyabr 2021-ci il tarixli bəyanatlarının müddəalarının həyata keçirilməsi üzrə səylərə bundan sonra da hər cür dəstək verəcəklər".

Azərbaycan Prezidenti cənab İlham Əliyev dünyada yeri, sözü olan və özü görünən siyasi xadimdir!

Dövrümüzün ən mahir diplomatlarındandır.

Ən böyük məharəti isə kiçik Azərbaycanın maraqlarını böyük dövlətlərin maraqları arasında qoruyub saxlamağı, müstəqil siyasət yürütməyi, dövlətini qovğalardan sovuşdurmağı bacarmasındadır!

Etibarsız dünyada uzaqgörən və çevik siyasət yürütməsən, salamat baş saxlaya bilməzsən!

Azərbaycan bütün dünya ilə, o cümlədən Avropa ilə sıx əməkdaşlıq edir. Hazırda BMT-dən sonra ikinci ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatının sədridir.

Pandemiya dövründə atdığı əməli addımları, səmərəli təşəbbüsləri ilə bir sıra ölkələrə müxtəlif yardımlar etdi, hörmət qazandı.

"Cənub qaz dəhlizi" layihəsini vaxtında reallaşdırmaqla Avropa dövlətlərinin indiki çətin məqamında qolundan tutdu, etibarlı tərəfdaş olduğunu sübuta yetirdi, dostlarının sayını artırdı.

Azərbaycan artıq Avropa İttifaqı ilə mühüm saziş imzalamaq ərəfəsindədir!

Həmişə siyasətində, əməlində düzdür, səmimidir, kimdənsə kiməsə qarşı istifadə etməyə yol vermir və özü də başqalarına yönəlik əməllərin heç zaman iştirakçısına çevrilmir, nə də buna şərait yaratmır.

❖❖❖

Bütün dünya ilə qarşılıqlı maraqlar əsasında dostluq əlaqələri yaradan Azərbaycan niyə məqam yaranan kimi nəhəng qonşusu Rusiya ilə əlaqələrini daha da yaxşılaşdırmasın!

* Rusiya ən böyük qonşumuzdur;

* Bu gün də yüz minlərlə azərbaycanlı orada işləyərək çörək qazanır;

* Rus elmi, mədəniyyəti, ictimai fikrinin həmişə Azərbaycana təsiri olub və inkişafında mühüm rol oynayıb;

* Rusiya ən böyük ticarət tərəfdaşımızdır və ticari əlaqələrin həcmi 3 milyard dolları keçib;

* Rusiya bölgədə əsas söz sahibidir;

* Rusiyanın gücünü və imkanlarını görmədən, maraqlarını nəzərə almadan yeridilən siyasətin, atılan addımların uğuru real görünmür.

İlham Əliyevin bir siyasətçi kimi nəhəngliyi bunların hamısını bilməsində, nəzərə almasında və dəqiq hesablamalar aparmasındadır!

Reallıq göstərir ki, Vətən müharibəsində əldə etdiyimiz Zəfərdən sonra Cənubi Qafqazda formalaşmış yeni konfiqurasiyanın əsas oyunçuları Azərbaycan, Türkiyə və Rusiyadır. Azərbaycanın hər iki ölkə ilə müttəfiqlik bəyannamələrini imzalaması yeni konfiqurasiyanı rəsmən təsbit edir.

Moskva Bəyannaməsinin bəndləri ilə yaxından tanışlıq oradakı müddəaların Azərbaycanın maraqlarını tam əhatə etdiyini göstərir.

Bir neçə bəndə birlikdə nəzər salaq:

"1. Rusiya Federasiyası və Azərbaycan Respublikası öz münasibətlərini müttəfiqlik qarşılıqlı fəaliyyəti, iki ölkənin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə və dövlət sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət, eləcə də bir-birinin daxili işlərinə qarışmamaq, hüquq bərabərliyi və qarşılıqlı fayda, mübahisələrin dinc yolla həlli və güc tətbiq etməmək və ya güclə hədələməmək prinsiplərinə sadiqlik əsasında qururlar".

"2. Rusiya Federasiyası və Azərbaycan Respublikası öz milli maraqlarının müdafiəsinə yönəlmiş müstəqil xarici siyasət yürüdürlər".

"18. Rusiya Federasiyası və Azərbaycan Respublikası beynəlxalq terrorçuluq, ekstremizm və separatçılıq təhdidlərinə, transmilli mütəşəkkil cinayətkarlığa, silahların, narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə, insan alveri və informasiya-kommunikasiya texnologiyaları sahəsində cinayətlərə, eləcə də digər yeni təhlükəsizlik çağırışlarına qarşı mübarizədə və onların neytrallaşdırılmasında səylərini birləşdirirlər. Bu kontekstdə Tərəflər məlumat mübadilə edir və qeyd edilən hüquqazidd fəaliyyətlərin maliyyələşdirilməsi mənbələrinin müəyyən edilməsi və qarşısının alınmasında sıx qarşılıqlı fəaliyyət göstərirlər".

❖❖❖

Azərbaycan heç zaman heç kəsə arxayın olmur, kimsənin arxasında gizlənmir, milli maraqlarını heç bir halda qurban vermir!

Yaxın tariximiz də göstərdi ki, ən doğru yol məhz budur!

BMT Təhlükəsizlik Şurası otuz ildən çox müddətdə dörd məlum qətnaməsinin icrası üçün sözdən o yana keçmədi...

ATƏT-in Minsk qrupu "öz aranızda razılığa gəlin", "bölgədə yeni reallıqlar yaranıb" kimi cəfəng fikirlərlə yaxasını münaqişənin sülh yolu ilə həllindən kənara çəkdi...

Beynəlxalq qurum və təşkilatlar nə ədaləti bərpa etdilər, nə də beynəlxalq hüququn prinsiplərinin tətbiqinə cəhd göstərdilər...

Bircə dəfə də Ermənistana qarşı sanksiya tətbiq olunmadı, işğal ərazisindən çıxması üçün ona heç bir təzyiq göstərilmədi...

Məhz buna görə də Azərbaycan yalnız özünə, öz gücünə və imkanlarına, dostlarının yardımına arxalanaraq problemi hərbi yolla həll etdi!

Münasibət qurduğu ölkələrdən silah-sursat aldı, yüksək hərbi biliklərə malik zabit kadrları hazırladı, qazandığı dostlar hesabına hərbi əməliyyatlar dövründə bir neçə ədalətsiz addımın atılmasının qarşısını vaxtında aldı.

Tarix də göstərdi ki, ən doğru yol Azərbaycanın tutduğu yol, Prezident İlham Əliyevin atdığı cəsarətli və dəqiq hesablanmış addımlardır!

Ermənistanın Rusiyadan incidiyi indiki məqamda bizim Rusiya ilə dostluğu daha da möhkəmləndirməyimiz olduqca vacibdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsində Ermənistan ordusunu məhv etdi, düşməni qarşısında diz çökdürdü, kapitulyasiya aktını imzalatdırdı.

Baş sərkərdəmiz düşmənə təkcə hərb meydanında deyil, informasiya cəbhəsində də qalib gəldi və bu müharibənin yeganə baş qəhrəmanına çevrildi!

İlham Əliyev bütün bu möhtəşəm qələbələrini həm də diplomatiya sahəsindəki yüksək peşəkarlığı, uzaqgörənliyi və hadisələri qabaqlamağı, vaxtında zəruri addımlar atmaq bacarığı ilə qazandı!

❖❖❖

Bu gün hərbi əməliyyatlar başa çatıb, düşmən işğal ərazilərindən qovulub, zəhərli dişi çəkilib!

Lakin zamana ehtiyacı olan məsələlər və həllini gözləyən problemlər də var!

Belə ki, informasiya sahəsində döyüşlər səngiməyib və hələ uzun müddət davam edəcəkdir.

Əsas ağırlıq mərkəzi isə diplomatiya müstəvisindədir.

Məğlub ermənini müdafiə edənlər, sözünü deyənlər hələ də azalmayıb.

Ordusu məhv edilən, əsgər, zabit və generalları fərariyə çevrilən, silah-sursatı tükənən Ermənistan isə revanşizmdən dəm vurur, arada "status" deyə sayıqlayır.

Dövlətimizin iqtisadi gücünü və hərbi qüdrətini artırmaqla yanaşı, diplomatiya sahəsindəki çarpışmaları, bu cəbhənin əhəmiyyətini də unutmamalıyıq!

* Müharibənin sülh danışıqları fazasına keçməsinin təşəbbüsçüsü və vasitəçisi Rusiyadır!

* Təslim aktında göstərilən bəndlərin icra olunmasının qarantı Rusiyadır!

* Azərbaycanla Ermənistan arasında danışıqların vasitəçisi yenə Rusiyadır!

* ATƏT-in Minsk qrupunun ağırlıqlarını daşıyan və hardasa onu əvəz edən Rusiyadır!

* Faktiki olaraq çözülmüş münaqişənin son akkordları da Rusiyanın ağsaqqallığı ilə münaqişə tərəfləri arasında vurulmaqdadır.

Bir gözü və bir ayağı Qərbdə olan Ermənistan Rusiyadan narazıdır və bunu heç gizlətmir də!

Hələ imkanı düşəndə 102-ci bazanın ölkədən çıxarılacağı ilə hədələyir.

Belə olan halda Rusiya ilə əməkdaşlıq niyə də genişləndirilməsin və dərinləşdirilməsin!

Əslində, bizim yaxınlaşmağımız həm də Ermənistanın Rusiyadan aralanması, narazılığının daha da artması deməkdir!

Qayda belədir: döyüşən tərəf dostlarının, tərəfdarlarının sayını artırmalıdır!

Dostun nə qədər çoxdursa, gücün də bir o qədər çox olur!

Düşməni təkləmək, müdafiəsini zəiflətmək isə diplomatiyanın üzərinə düşən vəzifədir!

Azərbaycan Prezidenti İlham Əliyev dayanmadan Vətən müharibəsindəki şanlı Zəfəri daha da artırır və möhkəmləndirir!

Həm Qarabağı yenidən tikib-qurub bərpa etməklə, həm bu regionu əməkdaşlıq, ticari əlaqələr üçün açmaqla, həm də diplomatiya sahəsində yeni nailiyyətlərə imza atmaqla!

Məğlub və dilənçi, əhalisi miqranta çevrilən Ermənistan isə hadisələrin arxasınca sürünməkdədir!

***25 fevral 2022-ci il***

# Əziz Şuşa, biz qayıtmışıq!

## *Xəyanətlə verilən Şuşa mərdliklə qaytarıldı, məhəbbətlə qurulur*

*Şuşanın Azərbaycan tarixində xüsusi yeri vardır. Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlər boyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir.*

***İlham ƏLİYEV***

Şuşaya daxil olan hər bir azərbaycanlı Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalq arasında böyük şöhrət qazanmış bu kəlamını qeyri-ixtiyari olaraq pıçıldayır:

"Əziz Şuşa, biz qayıtmışıq!"

Sonra sinədolusu nəfəs alır, gözdolusu ətrafa baxır!

Nə gözəldir qalib xalq kimi yenidən doğma Şuşaya qayıtmaq!

Nə gözəldir qələbə sevincini, qələbə qürurunu Şuşada da yaşamaq!

Nə gözəldir Vətəninə, torpağına sahib çıxmaq!

Nə gözəldir Vətən uğrunda "uf" demədən canını şəhid edən qəhrəman övladlara, iğid əsgər və zabitlərə sahib olmaq, onlarla qürur duymaq!

Nə gözəldir İlham Əliyev kimi rəhbəri, Sərkərdəsi olmaq!

Bax, onda qalib xalqa çevrilirsən!

Bax, onda məğrur, qürurlu millət sayılırsan!

Bax, onda dünyada da tanınırsan və sevilirsən!

Bax, onda sənə hörmətlə yanaşırlar, müharibə təcrübəndən öyrənərək bəhrələnirlər!

Bütövlükdə itirdiklərini döyüşərək geri qaytarmaqla Vətəninə, torpağına yiyə durmuş olursan!

❖❖❖

Əziz Şuşa, biz qayıtmışıq!

Növbəti dəfə bu sözləri Milli Məclisin bir qrup deputatı böyük sevinclə, fərəhlə, inamla söylədi!

Hamımızın ən böyük arzusu idi ki, Milli Məclisin iclaslarından birini azad Şuşada keçirək!

Bu arzumuza yaşıl işıq yandıranlar var olsunlar.

Bizə bu bəxtəvərliyi qismət etdilər...

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu ilə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitələrinin birgə iclasının Şuşada keçirilməsinə qərar verildi!

Xəbəri eşidəndə minnətdarlıq etməyə söz tapmadıq!

Erməninin saxta parlamenti və onun Şuşadakı yeni binası gorbagor edildən sonra Azərbaycan Parlamentinin üzvlərinin burada iclas keçirmələri düşmənə daha bir zərbə sayılır!

Bəli, Azərbaycan Respublikasının Milli Məclisi də Şuşaya qayıtdı!

Orada ilk komitə iclasını keçirdi.

❖❖❖

Böyük sevinc və həyəcanla yola düzəldik.

Bu gün Azərbaycanda ümumilikdə 2 mənzərə var:

İşğal zonasına qədər müasir Azərbaycanın görünüşü və işğal ərazilərinin ürəkağrıdan mənzərəsi.

Bakıdan çıxıb ölkənin istənilən bölgəsinə üz tutsan, hər yerdə geniş və rahat yollar, yaraşıqlı, gözoxşayan evləri olan abad yaşayış məntəqələri, əkin sahələri və bağ-bağçalar görərsən.

İşğaldan azad olunmuş ərazilər isə erməni vəhşiliyinin və vandallığının əlamətləri olan dağıntı və xarabalıqlardır.

Ancaq bu viran qoyulmuş yurd yerləri, qırılmış meşələr və kimsəsiz torpaqlar bizim üçün daha çox doğma və əzizdir!

Çünki ata-baba torpaqlarımızdır!

Çünki onları döyüşərək, qan tökərək geri qaytarmışıq!

Çünki onları şəhid verərək geri qaytarmışıq!

İşğal ərazilərinin əsas simvolu Zəfər yoludur!

44 günlük Vətən müharibəsində qəhrəman Azərbaycan döyüşçüsünün günlərlə rəşadətlə irəlilədiyi, bütün təhlükələrə sinə gərdiyi, nəhayət, əlbəyaxa döyüşlə qədim Şuşamızı geri qaytardığı cığır qısa müddətdə dövlət başçımız cənab İlham Əliyevin iradəsi ilə "Zəfər" adını daşıyan qələbə yoluna çevrildi.

Bu gün azad Qarabağın şah damarı Zəfər yolu sayılır!

Artıq işğal ərazilərində çoxsaylı yollar çəkilir, quruculuq, abadlıq işləri aparılır, böyük qaydışa sürətli hazırlıq işləri görülür.

Yolboyu əsasən rast gəldiklərin torpaq, qum, çınqıl, mişar daşı daşıyan ağırtonnajlı yük maşınları, bir də xüsusi geyimli inşaatçılar olur!

Daş, qum-çınqıl karxanaları, sement zavodları dayanmadan işləyir.

Elektrik xətləri hər elə-obaya işıq, nur daşıyır!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xarabalıqların lalə-zarlığa çevrilməsi üçün genişmiqyaslı nəhəng işlər görülür.

❖❖❖

Şuşanı təkcə şuşalılar, qarabağlılar deyil, bütün Azərbaycan xalqı ürəkdən sevir!

Hərə öz sevgisini bir tərzdə, bir formada ifadə edir!

Mənim təsəvvürümdə isə bu qədim şəhəri Müzəffər Ali Baş Komandan İlham Əliyev qədər sevən tapılmaz!

Mübaliğə etmirəm!

Hamının gördüyünü, bildiyini dilə gətirirəm!

Bir də qısa müddətdə İlham Əliyevin etdiklərini xatırladıram:

* Şuşa Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qeyri-adi hücumla alındı;

* Döyüşlər vaxtı şəhərdə heç bir dağıntıya yol verilmədi;

* Şuşa ilə bağlı xüsusi qanun qəbul edilərək şəhərə fərqli status verildi;

* Heydər Əliyev Fondunun xətti ilə tarixi abidələrin və dini məbədlərin bərpasına başlanıldı;

* Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan edildi;

* 2022-ci il Azərbaycanda "Şuşa ili"nə çevrildi;

* Şuşada bir-birinin ardınca mədəniyyət, musiqi tədbirləri keçirilməyə başladı!

* Cıdır düzündə Novruz tonqalı qalandı;

* Azərbaycan-Türkiyə qardaşlığını strateji müttəfiqliyə çevirən Şuşa Bəyannaməsi bu şəhərdə imzalandı!

* Şuşadakı erməni vəhşiliyini və vandallığını bütün dünyaya nümayiş etdirmək üçün beynəlxalq KİV-lərin, QHT-lərin, din xadimlərinin, bloqçuların, tanınmış insanların buraya çoxsaylı səfərləri təşkil edildi;

* Şuşanın bərpasını və insanların qayıdışını təmin etmək üçün zəruri işlərin görülmə sürəti artırıldı...

Bütün bunların hamısını Prezident İlham Əliyev etdi!

Öz düşüncəsi, öz iradəsi, öz təşəbbüsü ilə!

Bununla həm də doğma yurda, doğma Azərbaycana tükənməz sevgisini bir daha büruzə verdi!

Həm də bir daha Vətənin, xalqın sevgi və ehtiramını qazandı!

❖❖❖

Milli Məclisin budəfəki iclası qeyri-adi idi.

Ona görə yox ki, iki komitə birgə tədbir keçirirdi.

Ona görə yox ki, iclas parlament binasında deyildi.

Bir neçə komitənin eyni vaxtda toplaşması və iclasların birlikdə keçirilməsi təcrübəsi dəfələrlə baş vermişdi.

Qeyri-adilik onda idi ki, Milli Məclis komitələrinin birgə iclası Şuşada keçirilirdi!

Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən işğaldan azad edilmiş Şuşada!

Yeni dövrünü, yeni həyatını yaşayan Şuşada!

Dövlət başçısı tərəfindən mədəniyyət paytaxtı elan olunmuş Şuşada!

2023-cü il üçün türk dünyasının mədəniyyət paytaxtı seçilmiş Şuşada!

Həm də "Şuşa ili"ndə!

Cənab İlham Əliyev bu xoşbəxtliyi də bizə qismət elədi!

Ermənilərin Şuşada qondarma parlament yaradaraq qondarma qurumlarının iclaslarını bu qədim Azərbaycan şəhərində keçirmək istəklərini gözlərində qoydu!

Parlament binalarını gorbagor etdi!

❖❖❖

Bu sevinc, bu qürur, bu minnətdarlıq duyğuları iclasın gedişində aydın duyulurdu, deputatların əhvali-ruhiyyələrində hiss olunurdu, danışan dillərdə səslənirdi!

Hər çıxışda həyəcan qarışıq sevinc də vardı!

Millət vəkilləri Şuşa ilə bağlı xatirələrini söyləyir, Şuşaya olan məhəbbətlərini bölüşürdülər!

Hamı burada özünü həm də şuşalı hiss edirdi!

Azərbaycan Milli Məclisinin də qədim Şuşaya qayıdışının təsdiqi sayılan iki komitənin birgə iclası daha bir maraqlı məqamla yadda qaldı:

İclasda iştirak edən bütün deputatlar söz alıb ürəyini boşaltdı!

Bu xoşbəxtliyi, Şuşada ilk parlament iclasının iştirakçısı olmaq səadətini onlara qismət edən Müzəffər Ali Baş Komandan İlham Əliyevə dərin təşəkkür və minnətdarlığını söylədi.

❖❖❖

Erməni yalan danışmaq üçün yaranıb!
Hiyləgərlik üçün yaranıb!
Aldatmaq üçün yaranıb!
Yaltaqlanmaq üçün yaranıb!
Yarınmaq üçün yaranıb!
Oğurlamaq üçün yaranıb!
Dağıtmaq, məhv etmək üçün yaranıb!
Bu xalq döyüşməyə qadir deyil!
Bu xalq sözünün sahibi deyil!
Bu xalq müstəqil yaşamağa qadir deyil!
Bu xalq müstəqil dövlət qurmağa qadir deyil!
Bu xalq ağasız, sahibsiz mövcud olmağa qadir deyil!
Bu xalq qurmağa, yaratmağa qadir deyil!
Torpaq oğrusudur!
Mədəniyyət oğrusudur!
Kilsə oğrusudur!
Mətbəx oğrusudur!
EYNİ ZAMANDA:
* Yalan tarix yazmaq ustasıdır!
* Dini məbədləri saxtalaşdırmaq ustasıdır!
* Özünə "qəhrəman keçmiş" uydurmaq ustasıdır!
* "Böyük Ermənistan" xülyasına qapılmaq ustasıdır!
* "Məğlubedilməz millət" mifi düzəltmək ustasıdır!
* Bütövlükdə alçaq və şərəfsiz əməllər ustasıdır!

Qədim Azərbaycan torpaqlarında məskunlaşdığı iki əsrə yaxın müddətdə bütün bunları dəfələrlə nümayiş etdirib!

Deyilənlərin şahidi olmaq üçün bu gün işğaldan azad edilmiş Qarabağa və Şərqi Zəngəzura baş çəkmək kifayətdir!

Ermənilər bütün vəhşi mahiyyətlərini, rəzil silqətlərini viran etdikləri bu ərazilərdə tam çılpaqlığı ilə ortaya qoyublar...

Əsl sifətlərini, simalarını göstəriblər.

Goreşən olduqlarını isbat ediblər.

Başqalarının qoltuğuna qısılaraq mütiliklərini və qorxaqlıqlarını sübuta yetiriblər.

Güclünün qabağında kölə kimi, zəifin qabağında təkəbbürlü davrandıqlarını göstəriblər.

Bir sözlə, əsl erməni olublar!

Su murdarlıq götürməz - demişlər.

Şuşa da su kimi təmiz, saf və pakdır!

Doğrudur, uzun müddət murdarləpirlilərin sinəsində gəzməsinə dözdü…

Arxalı köpəklər Şuşanın dağlarında çox hürdülər…

Əsgər payı yeməkdən peysərləri qat baglamış, sinələri dəmir-dümürlə dolu "generallar" burada çox lovğalandılar…

Erməni "haxçıqları" poza verərək özlərini nümayiş etdirdilər…

Sərxoş dövlət başçıları yallı getdilər…

"Parlament binası" tikərək iclas keçirmək fikrinə düşdülər…

Hətta bu qədim Azərbaycan şəhərinin adını belə dəyişərək özününküləşdirməyə çalışdılar…

Amma elə ki bu qala-şəhərin əsl sahibləri hünər və qəhrəmanlıqla geriyə qayıtdılar, bax, həmin anda əsl sifətləri, mahiyyətləri üzə çıxdı!

Dabanlarına tüpürərək tülkü kimi qaçdılar!

İndi hürmək səsləri ara-sıra eşidilir!

Uzaqdan, kiminsə arxasından!

Tezliklə o səsləri də kəsəcəyik!

Bunu özləri də yaxşı bilirlər!

Hazırda işimiz çoxdur: Şuşanı bərpa edirik, yenidən tikib-qururuq.

Şuşaya şöhrət gətirən şuşalıların büstlərini geri qaytararaq yerinə qoymuşuq!

Ulu Öndərimizdən yadigar qalan Vaqifin məqbərəsini yenidən bərpa edərək əvvəlki görkəminə qaytarmışıq!

EYNİ ZAMANDA:

* Dağıdılmış, yad nəfəs dəymiş və yad yazılar yazılmış məscidləri təzələyib bərpa edirik!

* Yeni içməli su xətləri çəkirik!

* Qurumuş bulaqlara həyat veririk!

* Cıdır düzü də əvvəlki növrağına qayıdıb...

* İndi buradan "Qarabağ şikəstəsi", muğam sədaları ucalır...

* "Xarıbülbül" festivalı keçirilərək Azərbaycanda yaşayan xalqların və bütün millətlərin musiqisi, mədəniyyəti nümayiş etdirilir.

* Ənənəvi "Vaqif Poeziya Günləri" keçirilir.

Təzələnən, saflaşan, əsl həyatına qayıdan Şuşa yenidən dünyanın hər yerindən gələn qonaqlarını sevinclə, fərəhlə qəbul edir!

❖❖❖

Müstəqil dövlətimizin parlament tarixində qeyri-adi iclaslar çox olub.

Onların bir qismi tarixə çevrilməklə bərabər, biz deputatların da yaddaşında silinməz izlər buraxıb.

Ulu Öndərimizin iştirak etdiyi plenar iclaslar...

Möhtərəm Prezident İlham Əliyevin iştirakı ilə keçirilən iclaslar...

Dünyanın görkəmli siyasi xadimlərinin iştirak etdikləri iclaslar...

Milli Məclisin belə möhtəşəm komitə iclasını isə kimsə xatırlamır.

Həm də işğaldan azad olunmuş, Prezidentimiz tərəfindən mədəniyyət paytaxtı elan edilmiş Şuşada!

Bu tarixi iclasın iştirakçıları arasında olmaq da böyük sevinc və xoşbəxtlik sayılır!

Bəli, Azərbaycan xalqı sübut etdi ki, o, döyüşkən və qəhrəman xalqdır!

Əsl sərkərdəsini tapanda itirdiklərini geri qaytarmağı, qudurmuş düşməni cəzalandırmağı, qisasını almağı bacarır!

Sonra isə yenidən tikib-quraraq xoşbəxt günlərini də geri qaytarır!

❖❖❖

"Əziz Şuşa, biz səni dirçəldəcəyik!"

Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu vədi artıq böyük sürətlə reallığa çevrilməkdədir.

Çünki Müzəffər Ali Baş Komandanımız hər şeyi vaxtında və özü bildiyi kimi edir!

İlham Əliyev qüdrətli, müasir ordu yaratdı!

İlham Əliyev bu ordunu ən yeni silahlarla, yeni strategiya və taktika ilə təmin etdi!

İlham Əliyev yeni gənclər nəsli - Qarabağı görməyən, amma Qarabağ uğrunda hər an döyüşməyə, lazım gələndə şəhid getməyə hazır olan qəhrəmanlar nəsli tərbiyələndirdi.

Bu ordu, bu gənclər, bu qəhrəmanlar Şuşanı yalın əllə - keçilməz cığırlardan keçməklə, yalçın qayalara dırmaşmaqla, əsgər süngüsü və lopatkası ilə əlbəyaxa döyüşməklə aldı!

İndi isə yenə də İlham Əliyevin rəhbərliyi ilə Şuşanı yenidən şəhərlər tacına, Qafqazın incisinə çevirmək üçün ürəklə, hünərlə çalışırlar!

❖❖❖

Şuşanın çox qəribə aurası var...

Buraya gələnlər geri qayıtmağa heç zaman tələsmirlər!

Geri dönəndə isə bir daha Şuşa ilə yenidən görüşəcəkləri barədə düşünürlər.

Biz də bu düşüncə ilə əziz, doğma Şuşanı tərk etdik!

I Qarabağ müharibəsində Şuşa xəyanətlə düşmənə verilmişdi.

Şəhərin rəhbəri və özünümüdafiə batalyonunun komandiri xaincəsinə qətlə yetirilmişdi.

AXC-nin xəyanətkar müdafiə naziri Şuşaya gedərək özünə yalançı "sui-qəsd" təşkil etdirmiş və şəhərin müdafiəsini zəiflətmişdi.

Bütövlükdə Şuşanın müdafiəsi düzgün qurulmamışdı, imkanlar səfərbərliyə alınmamışdı.

Beləliklə, başsızlıq və səriştəsizlik nəticəsində qala-şəhər düşmən əlinə keçmişdi.

❖❖❖

Vətən müharibəsində Şuşanın qəhrəman Azərbaycan döyüşçüləri tərəfindən geri qaytarılması özünün qeyri-adiliyi ilə dünya müharibələri tarixinə düşdü.

İndi isə qədim Şuşa Prezident İlham Əliyevin rəhbərliyi ilə xüsusi plan əsasında və məhəbbətlə, Heydər Əliyev Fondunun bir-birindən dəyərli layihələrinin gerçəkləşdirilməsi yolu ilə bərpa olunaraq abadlaşdırılır.

Bütün bunlar hər bir azərbaycanlıda haqlı qürur, minnətdarlıq və sevinc hissi doğurur!

Qarabağ bizimdir!

Qarabağ Azərbaycandır!

***10 aprel 2022-ci il***

## Dünya Şuşaya baxır

On yeddi ay bundan əvvəl əsirlikdə idin, Əziz Şuşa!

Erməni əsirliyində!

Susuz dəyirmana, odsuz ocağa bənzəyirdin!

Mərd igidlərin, başda baş Sərkərdələri İlham Əliyev olmaqla səni xilas etmək üçün ölüm-dirim savaşına atıldılar!

Keçilməz cığırlardan keçdilər, divar kimi yalçın qayalara dırmaşdılar!

Nə yoruldular, nə də qorxub dayandılar!

Murdar düşməni gözləmədiyi yerdə, gözləmədiyi gündə və saatda qəflətən yaxaladılar.

Əsgər xəncəri, əsgər lopatkası ilə döyüşdülər!

Mərmi və raket atmağa qıymadılar.

Axı sənin hər binan bir abidə, hər daşın bir tarixdir!

Onlar ziyan çəkə bilərdilər!

Bu yerlərdə yuva qurmağa çalışan murdarləpirliləri iti qovan kimi qovdular!

Yenidən sənin paklığını, gözəlliyini özünə qaytardılar!

Bu qələbənin memarı və təşkilatçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev "dəmir yumruğu"nu sıxaraq sənə gözaydınlığı verdi:

Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!

Əziz Şuşa, biz səni dirçəldəcəyik!

❖❖❖

Şuşanın dirçəlişi günlərlə deyil, saatlarla baş verir.

Bu işdə Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva da ən fəal iştirakçılardan oldu!

Qısa müddətdə qədim Şuşamız öz ənənəvi simasını bərpa etdi!

Cıdır düzündə Novruz tonqalı qalandı...

Bayram paxlavası, şəkərburası yeyildi...

Yenidən bərpa olunan Gövhər ağa məscidindən azan səsi ucaldı...

Qurumuş bulaqlardan su axdı...

Şuşanın dünyaca məşhur övladlarının güllələnmiş heykəlləri geri qaytarılaraq əbədi yerlərinə qoyuldu...

Cıdır düzündə keçirilən "Xarıbülbül" festivalında Azərbaycanda yaşayan bütün xalqların və millətlərin nümayəndələri milli geyimlərində çıxış edərək öz mahnılarını, musiqi və rəqslərini, birlik və həmrəyliklərini nümayiş etdirdilər.

Vaqifin yenicə bərpa olunmuş məqbərəsi önündə ənənəvi poeziya bayramı keçirildi.

Qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdogan Şuşaya gələrək dostu və qardaşı İlham Əliyevlə Türkiyə-Azərbaycan dostluğunun strateji müttəfiqliyə çevrilməsinin təsdiqi sayılan Şuşa Bəyannaməsini imzaladılar!

Dostlar baxdı sevindi, düşmənlər kor oldular!

❖❖❖

İndi isə azad Şuşa dünyanın hər yerindən bura gələrək Zəfər sevincini bölüşən övladlarını isti qoynuna alır!

Burada dünya azərbaycanlılarının növbəti - V Qurultayı keçirilir.

44 günlük Vətən müharibəsi dövründə özləri Yer kürəsinin ən müxtəlif yerlərində yaşasalar da, ürəkləri Azərbaycan Ordusunun, Azərbaycan əsgərinin yanında olan, sonsuz həyəcanla Vətən müharibəsinin bitəcəyini, qələbə cəngisinin çalınacağını gözləyən vətənsevərlər sevinclərini bölüşmək, minnətdarlıqlarını və təbriklərini çatdırmaq üçün qürur və iftixarla buraya toplaşmışlar!

Bu, xalqımızın milli birliyinin daha bir təsdiqidir!

Bu, hərb meydanını qələbə ilə bitirən dövlətimizin dünyaya sülh mesajıdır!

Bu, vətəndən uzaqda yaşayan soydaşlarımızın tükənməz vətən sevgisinin daha bir təntənəsidir!

Bu həm də Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasətinin, diplomatiya və informasiya müharibəsindəki qələbəsinin bir daha nümayişidir!

❖❖❖

Bu gün doğma diyara təşrif gətirmiş azərbaycanlılar dünyaya Şuşadan baxırlar!

Zəfər qalası Şuşadan!

Bütün şəhərlərin ən ucası Şuşadan!

Azərbaycanın mədəniyyət paytaxtı Şuşadan!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin 44 günlük Vətən müharibəsi ilə azad etdiyi Şuşadan!

❖❖❖

2020-ci ilin 8 noyabrına qədər biz Şuşaya kənardan, həsrətlə baxırdıq!

Bu doğma şəhərə nə səsimiz çatırdı, nə də əlimiz!

Heç Şuşanı geri qaytarmağa gücümüz də yox idi!

Nəhayət, Müzəffər Ali Baş Komandan İlham Əliyev "dəmir yumruğu"nun qüdrətini göstərdi!

Qəhrəman Azərbaycan əsgəri Şuşanı azad etdi.

İndi isə ermənilər Şuşaya uzaqdan yana-yana baxırlar...

Biz növbəti tədbirimizi - Dünya azərbaycanlılarının Zəfər qurultayını azad Şuşada qələbə sevinci, qürur və iftixar hissi ilə keçiririk!

Qurultay iştirakçıları həm də Cıdır düzündə qalanacaq Zəfər tonqalının işığına və istisinə toplaşırlar.

❖❖❖

Bu gün dünya da Şuşaya baxır...

Azərbaycan xalqının, Azərbaycan diasporunun nümayəndələri mədəniyyət paytaxtı Şuşaya toplaşaraq qürurla ucadan bəyan edirlər:

Biz azərbaycanlılarıq!

Biz vətənsevərlərik!

Biz qalib xalqın təmsilçiləriyik!

Biz sülh və əməkdaşlıq tərəfdarıyıq!

Eyni zamanda:

* İşğalçı ordunu məhv etməyi;

* Xain düşmənləri Vətəndən qovmağı;

* Torpaqlarımızı qorumağı;

* Vətənimizi tikib-quraraq cənnətə çevirməyi;

* Dosta mehriban, düşmənə qənim olmağı;

* "Dəmir yumruq" ətrafında hər an sıx birləşməyi də bacarırıq!

Biz qaliblərik!

Qarabağ Azərbaycandır!

***22 aprel 2022-ci il***

## Ağdamın yeni intibahı

*Onun müəllifi Müzəffər Ali Baş Komandan İlham Əliyevdir*

**20** noyabr 2020-ci il...

28 may 2021-ci il...

Bu iki gün ağdamlılar üçün ən əziz və unudulmaz tarixlərdir!

Biri Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən Ağdamın erməni işğalından azad olunduğu gündür!

Digəri Prezident İlham Əliyev tərəfindən yeni Ağdam şəhərinin təməlinin qoyulduğu gündür!

Hər iki tarixi Azərbaycan xalqının xilaskar oğlu, 44 günlük Vətən müharibəsinin qəhrəmanı və qalibi cənab İlham Əliyev yaradıb!

Cənab İlham Əliyev 10 noyabr 2020-ci il qələbəsinə imza atmaqla təkcə ağdamlıların deyil, bütün Azərbaycan xalqının, türk dünyasının ən qüdrətli şəxsiyyətlərindən, qəhrəman sərkərdələrindən biri olduğunu sübuta yetirdi!

Beş əsr ərzində ilk dəfə işğal edilmiş Azərbaycan torpaqlarını geri qaytardı!

İkiəsrlik Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə möhtəşəm zəfərlə son qoydu!

Azərbaycan xalqını qalib xalqa, alnıaçıq, üzügülər xalqa çevirdi!

Dediyi sözü, verdiyi vədi şərəflə yerinə yetirdi!

Hərbi əməliyyatlar başa çatan kimi dərhal Qarabağın dirçəldilməsi, yenidən tikilib-qurulması prosesinə start verdi!

Bir ildən çoxdur ki, Qarabağda, Şərqi Zəngəzurda gecə-gündüz iş dayanmır!

Bir tərəfdən ölüm təhlükəsi sayılan minalar təmizlənir, digər yandan zəruri infrastrukturun yaradılması, Böyük qayıdışın sürətlə baş tutması üçün planlı qaydada quruculuq aparılır.

Cənab İlham Əliyev Qarabağı cənnətə çevirəcəyinə söz verib!

Sözü ilə əməli bir olan Prezidentimiz Mehriban xanım Əliyeva ilə əl-ələ verərək Qarabağın maddi və mənəvi intibahı üçün yorulmadan çalışırlar!

Azərbaycan xalqı inanır ki, bu istək tezliklə baş tutacaqdır!

Məcburi köçkünlər əmindirlər ki, lap qısa zamanda əzəli torpaqlarına, doğma yurd-yuvalarına qayıdacaqlar!

❖❖❖

Faşist Nijdeyə abidə ucaldan ermənilər babalarına layiq nəvə olduqlarını, faşistlərdən də çox vəhşilik etdiklərini Qarabağ müharibəsindəki əməlləri ilə hamıya göstərdilər.

İşğal edilən ərazilərdə bir dənə də salamat tikili, toxunulmamış ev qalmayıb.

Göz nə görürsə, işğal dövründə hamısını söküb dağıtmış, "dostları" ilə əlbir olaraq talamışlar.

İndi dünyanın hər yerindən Qarabağa gələnlər yalnız yerlə yeksan olunmuş yaşayış məntəqələri, dağıdılmış məscidlər, qəbiristanlıqlar, yollar, körpülər görürlər.

Həm də erməni vandallığının, erməni vəhşiliyinin və alçaqlığının canlı şahidinə çevrilirlər.

❖❖❖

Ermənilər Ağdama qarşı xüsusi qəddarlıq və dağıdıcılıq törətmişlər.

Çünki Ağdam əvvəldən axıradək onlarla döyüşdü, respublikanın hər guşəsindən köməyə gələn igidlərlə birgə düşmənə sarsıdıcı zərbələr vurdu, necə deyərlər, öz qisaslarını qabaqcadan aldılar!

Əgər həmin dövrdə Azərbaycana Heydər Əliyev kimi dahi şəxsiyyət, İlham Əliyev kimi qüdrətli sərkərdə rəhbərlik etsəydi, düşmən nəinki Ağdamı, heç Azərbaycanın bir qarış torpağını belə ala bilməzdi!

Çox təəssüf ki, Birinci Qarabağ müharibəsi ərəfəsində və dövründə Azərbaycana Ə.Vəzirov kimi manqurt, A.Mütəllibov kimi qorxaq və qətiyyətsiz adamlar başçılıq edirdilər.

Xalqı aldadaraq, şirin vədlər verərək milli-azadlıq hərəkatının dalğaları üzərində iqtidara gələn AXC-Müsavat cütlüyü isə təkcə təcrübəsizliyi və naşılığı ilə deyil, üstəlik şəxsi maraqlara xidmət etmələri, ciblərinin hayına qalaraq Vətən torpaqlarının işğalına şərait yaratmaları kimi xəyanətkar əməllərlə də yadda qaldılar!

Arxasız, köməksiz, ordusuz, silahsız və sursatsız qalan insanlar min bir əziyyətlə tikdikləri evlərini, doğma obalarını tərk edərək canlarını götürüb qaçmaq məcburiyyətində qaldılar.

Arxalı köpək qurd basar - demişlər.

Düşmən isə bütün acığını və heyifini daşdan, torpaqdan, evlərdən, obalardan, bağlardan, meşələrdən, çaylardan, yollardan - bir sözlə, gözünə nə göründüsə, ondan çıxdı!

❖❖❖

"Dəmir yumruğ"u ilə düşmənin başını əzən, xain gözlərini ovub çıxaran Müzəffər Ali Baş Komandan İlham Əliyev bu gün Qarabağı və Şərqi Zəngəzuru sürətlə, böyük sevgi və məhəbbətlə, əsl qurucu liderə xas olan məharətlə tikir, qurur!

Yüz minlərlə məcburi köçkünün ən müqəddəs arzusunu həyata keçirir!

Milyonlarla Azərbaycan vətəndaşının istəyini gerçəkləşdirir!

Cənab İlham Əliyev təkcə görkəmli dövlət xadimi, mahir siyasətçi və diplomat kimi tanınmır.

Dünya onun həm də qurucu rəhbər, yüksək zövq sahibi olan nəhəng inşaatçı olduğuna şahiddir.

Azərbaycana rəhbərliyi dövründə Bakını necə sürətlə və zövqlə tikdiyinə, abadlaşdırdığına, dünyanın ən gözəl şəhərlərindən birinə çevirdiyinə paytaxtımıza gələn hər bir əcnəbi qonaq, turist şahidlik edir, heyrət və razılığını ən xoş sözlərlə ifadə edir.

İndi isə növbə Qarabağındır!

İlham Əliyevin düşmən əsarətindən xilas etdiyi Qarabağ!..

Yeni, ikinci intibahını gözləyən Qarabağ!..

❖❖❖

Qarabağın ilk intibahı Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə baş vermişdi!

Başda Ağdam olmaqla, bu qədim bölgədə Heydər Əliyevin nəhəng fəaliyyəti sayəsində iqtisadi, mədəni, quruculuq sahəsində böyük uğurlar qazanılmışdı.

Kənd təsərrüfatı sürətlə inkişaf etdirilmiş, sənaye müəssisələri tikilmişdi.

Hər rayonun coğrafi mövqeyinə və təbii imkanlarına uyğun olaraq təsərrüfat sahələri yaradılmış, pambıqçılıq, heyvandarlıq, üzümçülük, yemçilik, bağçılıq, baramaçılıq, arıçılıq və digər sahələr inkişaf etdirilmiş, yeni texnikanın tətbiqinə, əmək məhsuldarlığının yüksəldilməsinə, insanların gəlirlərinin, sosial rifahlarının yaxşılaşdırılmasına nail olunmuşdu.

Gəlirləri və bütövlükdə qazancları artan kənd əməkçiləri özlərinə ağ mişar daşlarından yeni evlər tikdirmiş, minik maşınları almış, məişət şəraitlərini xeyli yüksəltmişdilər.

Ulu Öndərin təşəbbüsü ilə rayon mərkəzləri də əsaslı şəkildə tikilərək abadlaşdırılmış, çoxsaylı yaşayış evləri, məktəblər, uşaq bağçaları, xəstəxanalar, mədəni-maarif ocaqları inşa edilmişdi.

Qarabağ camaatı ağ günlərə çıxmışdı...

Lakin xoşbəxt günlər çox da uzun çəkmədi:

* Ulu Öndər Heydər Əliyev Moskvaya yüksək vəzifəyə aparılaraq müvəqqəti olaraq Azərbaycandan ayrıldıqdan...

* Qorbaçov "yenidənqurma" adı ilə SSRİ miqyasında oyunbazlığa başladıqdan....

* Alət millət olan ermənilər üstümüzə qısqıdılaraq "Dağlıq Qarabağ problemi" adlı məkrli oyunlara rəvac verildikdən...

* Azərbaycan başsız və sahibsiz qaldıqdan sonra hər şey dəyişdi!

Xoş günləri qara günlər əvəz etdi!

Sonda isə 27 il çəkən möhnət başladı:

* 27 il Qarabağa, doğma el-obaya həsrət qaldıq!

* 27 il çadır şəhərciklərində ehtiyac və dərd çəkdik!

* 27 il insanlar əmanət qəbirlərdə doğma qəbiristanlığa qayıdacaqları günü gözlədilər...

* 27 il məğlub, diligödək, gözükölgəli millət kimi gəzdik!

Az qala ümidimizi də itirmişdik!

❖❖❖

Ulu Öndər yenidən ölkə rəhbərliyinə qayıdanda sanki üstümüzə gün doğdu.

İtmiş inamımız geri dönməyə başladı.

Görülən işlərə, Ulu Öndər Heydər Əliyevin yürütdüyü siyasətə baxıb özümüzə gəldik.

Yeni tikilən qəsəbələrə köçürüldük, güzəranımız xeyli yaxşılaşdırıldı.

Vətən həsrəti isə heç zaman bizi tərk etmədi...

İlham Əliyev hakimiyyətə gəldiyi ilk günlərdən xalqın sevgi və məhəbbətini qazandı.

Ona inandıq, inandıq ki, bizi hökmən geriyə, doğma torpaqlarımıza qaytaracaqdır!

Dövləti gücləndirdi, Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltdi, Cənubi Qafqazın ən güclü dövlətinə, söz sahibinə çevirdi, qüdrətli ordu qurdu, onu ən müasir silahlarla silahlandırdı, xalqın milli birliyinə nail oldu.

Hər işi vaxtında, lazımi qaydada gördü.

Düşmənin ipə-sapa yatmadığına, sülhə gəlmək istəmədiyinə əmin olduqda isə "dəmir yumruğ"unu işə saldı!

44 gün ərzində Azərbaycan tarixinin ən möhtəşəm zəfərinə imza atdı, düşməni qarşısında diz çökdürərək kapitulyasiya aktını imzalatdırdı!

Beləliklə, bizi çoxdan gözlədiyimiz, həsrətini çəkdiyimiz böyük qələbəyə qovuşdurdu!

❖❖❖

Prezident İlham Əliyev biz ağdamlılara bir il bundan əvvəl daha böyük sevinc yaşatdı: Ağdam ictimaiyyətinin nümayəndələri ilə, hamımızın gözü qarşısında yeni Ağdamın, Ağdam şəhərinin təməlini qoydu!

Həmin tədbir iştirakçılarına daha bir xoşbəxtlik də nəsib oldu: Ağdam şəhərinin bünövrəsinə hərə bir lopatka beton məhlulu tökdü!

Beləliklə, rəmzi olaraq yeni Ağdamın təməlini qoyanlardan birinə çevrildilər!

Həm də bu hadisə çox mühüm tarixi gündə baş verdi: 28 Mayda!

Respublika Günündə - Bu ildən Müstəqillik Günü kimi qeyd olunan möhtəşəm bir tarixdə!

Bu tarixi də Müzəffər Ali Baş Komandan İlham Əliyev özü müəyyən etmişdi.

Mərasimdəki çıxışı zamanı dedi: "Bu mərasim üçün, bu görüş üçün başqa vaxt da müəyyən oluna bilərdi. Ancaq mən hesab etdim ki, ən düzgün tarix bizim milli bayramımız olan Respublika Günüdür, Müstəqillik Günüdür. Çünki bu gün burada olmağımız bir daha müstəqilliyimizin nə qədər güclü olmasını göstərir. Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq güclü Azərbaycan, müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı yerinə yetirdi".

❖❖❖

Düz bir il keçir həmin görüşdən!

İztirablı 27 ildən sonra baş tutan görüşdən!

Amma həmin görüş bütün ağdamlıların xatirəsində əbədi yaşayacaq, nəsillərdən-nəsillərə ötürüləcəkdir!

Çünki həmin görüşlə yeni Ağdamın intibahı başlayır!

Yeni Ağdamın bünövrəsi qoyulurdu!

Özü də 44 günlük Vətən müharibəsinin baş qəhrəmanı Müzəffər Ali Baş Komandan İlham Əliyevin iştirakı ilə!

Qoyulan hər bir bünövrəyə Prezident İlham Əliyev öz əli ilə beton qarışığı tökürdü!

Hər tikintinin təməlinə öz imzasını atırdı.

Bəli, Ağdamı, Şuşanı, külli Qarabağı erməni alçaqlarından azad edən Müzəffər Ali Baş Komandan İlham Əliyev Qarabağı öz əlləri ilə dirçəltməyə, cənnətə çevirməyə başlayıb!

Bu möhtəşəm quruculuğa isə Ağdamda start verdi.

❖❖❖

Həmin unudulmaz görüşdə hər birimiz nəfəs dərmədən Prezidentimizə qulaq asır, dediyi hər sözü, söylədiyi hər fikri dərk etməyə, yaddaşımıza həkk etməyə çalışırdıq.

Sözlər isə yeni tarixi dövrün, Qarabağın dirçəliş dövrünün başlanmasından xəbər verirdi.

Yaddaşları təzələmək üçün cənab İlham Əliyevin Ağdamdakı çıxışından bəzi parçaları yenidən xatırlatmaq istəyirəm:

"Hesab edirəm ki, bu gün tarixi gündür. Çünki bu gün azad edilmiş torpaqlarda birinci baş plan artıq təsdiqlənir".

Sonra Prezidentimiz görüşdən qabaq təməlini qoyduğu yeni obyektlər barədə fərəhlə məlumat verdi:

"Ağdam şəhəri üçün çox önəmli olan 1 saylı məktəbin təməli qoyuldu. Siz yaxşı bilirsiniz ki, bu məktəbin çox böyük tarixi var. 140 illik tarixi var. Gələcəkdə burada iş yerlərinin yaradılması üçün Ağdam Sənaye Parkının təməli qoyuldu. Bu parkın ərazisi təqribən 200 hektara yaxındır və orada yüzlərlə, gələcəkdə, bəlkə də, minlərlə insan işlə təmin ediləcək. Bərdə-Ağdam avtomobil yolunun təməli qoyuldu və artıq yaxın gələcəkdə yol istismara veriləcəkdir. Eyni zamanda mənim göstərişimlə Bərdə-Ağdam dəmir yolunun və dəmiryol vağzalının tikintisi nəzərdə tutulur. "İmarət" kompleksinin bərpası ilə əlaqədar artıq işlərə start verilir. Ağdamda "İşğal" muzeyi və "Zəfər" muzeyi konsepsiyası mənə təqdim edildi. Yer seçildi və həm "Zəfər", həm "İşğal" muzeyləri çox möhtəşəm olacaq. Digər obyektlər, digər tədbirlər, böyük meşə sahəsinin təməli qoyuldu. Şəhərin içində böyük bir meşə zolağı olacaq - 125 hektarlıq. Süni göl yaradılacaq, kanallar, körpülər. Şəhərin müasir standartlara, müasir tələblərə uyğun inkişaf planı artıq tam işlənib hazırlanıb. Bütün Qarabağ zonası "yaşıl enerji" zonası olacaq. Bütün şəhərlər "ağıllı şəhər" konsepsiyası əsasında qurulacaq".

❖❖❖

Ağdamlılar zarafat etməyi sevirlər.

Zarafatlardan biri Ağdamda tramvayın işləməsi ilə bağlı idi.

Görüşə gecikənlər "tramvayla gəlirdim, ona görə yubanmışam" - deyirdilər!

Yeni Ağdamda isə zarafatsız, həqiqətən, tramvay işləyəcəkdir!

Həm də ən müasiri, elektriklə işləyən, təkərsiz tramvaylar küçələrdə cövlan edəcəkdir!

Bəli, Prezidentimiz göstəriş veribdir ki, dünyanın harasında yaxşı, yeni nə varsa, hamısından Ağdamda da olmalıdır!

MƏSƏLƏN:

* Yeni Ağdamda ən gözəl layihələrlə tikilmiş yaraşıqlı ictimai və yaşayış binaları olacaqdır!

* Motorlu qayıqların üzəcəyi 2 kilometrlik su kanalları çəkiləcəkdir!

* İnsanların dincəlməsi, zövq alması üçün göl yaradılacaq, şəlalə axacaqdır!

* 79 kilometrlik velosiped yolu istifadəyə veriləcəkdir.

* Ağdamın öz dağüstü parkı, cürbəcür karuselləri olacaqdır!

Yeniliklərin hamısını sadalamaq istəmirəm, çünki ən qısa müddətdə onların çoxunu öz gözlərimizlə görəcəyik!

❖❖❖

Ağdamın yenidən tikilib-qurulmasında və insanların geriyə qayıtmasında ən böyük maneə ərazilərin minalardan təmizlənməsidir!

Bu sahədəki maneə isə ermənilərin öz alçaq xislətlərinə sadiq qalaraq minalanmış sahələrin xəritələrini verməkdən müxtəlif vasitələrlə boyun qaçırmaları və verdikləri xəritələrin dəqiq olmamasıdır.

Eybi yox!

Düşmənin başını "dəmir yumruğ"u ilə əzərək torpağı geri qaytaran onu ölüm təhlükəsi sayılan minalardan da təmizlədəcəkdir və bu sahədə də sürətli, səmərəli iş gedir!

Artıq bir il ərzində xeyli iş də görülmüşdür.

❖❖❖

Böyük qayıdış yoldan başlayır...

Yol təkcə insanların rahatlığı üçün deyil!

Yol görüləcək bütün işlərin - material daşınması, digər infrastrukturun yaradılması, bütün layihələrin gerçəkləşdirilməsi və quruculuq işlərinin sürətlə getməsində əsas vasitədir.

Ötən bir ildə dörd hərəkət zolaqlı, ümumi uzunluğu 45 kilometr olan Bərdə-Ağdam avtomobil yolunda sürətli iş gedib.

Həmin yolun davamı olan və Ağcabədi ilə Füzulini birləşdirən yeni yol da sürətlə tikilir.

Yol infrastrukturunun çox mühüm hissələrindən biri olan Bərdə-Ağdam dəmir yolunda isə tikinti işlərinin 50 faizi görülüb.

190 hektarlıq Ağdam Sənaye Parkında bir sıra mühüm işlər görülüb. Buraya 50 milyon manatdan çox investisiya yatırılacaq və hələlik 9 şirkətlə müqavilə imzalanıb.

Görüləcək bir sıra zəruri işlərin isə layihələri hazırlanır. Bunların sırasında Ağdam şəhərini içməli su ilə təmin edəcək "ağıllı su" layihəsini, şəhərin tullantı və yağış sularının idarə edilməsi layihəsini, habelə Ağdamdan, Əsgərandan keçməklə Şuşaya çəkiləcək yeni yolun planlaşdırılmasını qeyd etmək olar.

Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidinin bərpası ilə bağlı işlərə başlanılması da hamını sevindirir.

❖❖❖

Torpaq uğrunda ölən varsa, Vətəndir - deyilib!

Bunu həm Birinci Qarabağ, həm də Vətən müharibəsində igidliklə döyüşən, milliyyətindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı sübut edib!

Bu gün bütün şəhidlərimizi ehtiramla yad edir, ruhlarına dualar oxuyuruq!

Bu gün bütün qaziləri, müharibə iştirakçılarını hörmətlə anırıq, minnətdarlığımızı bildiririk.

Bu gün Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qəhrəmanlığı, üç cəbhədə - hərb, diplomatiya və informasiya müharibəsindəki qələbəsi ilə hədsiz qürur və iftixar hissi keçirir, fəxr edirik!

Məhz bunların sayəsində biz bütün Qarabağa və Şərqi Zəngəzura əbədi qayıtdıq!

Həm də döyüşərək, təkcə ermənilər yox, bütün havadarlarını da məğlub edərək!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi: "Otuz il bizə meydan oxuyan, bizim əsəblərimizlə oynayan, xalqımızı təhqir edən, özündən uydurma qəhrəman düzəldən düşmən diz çökdü bizim Qarabağımızda, ağ bayraq qaldırdı, təslim oldu və kapitulyasiya aktına imza atdı. Biz Ağdamı bir güllə atmadan, bir şəhid vermədən azad etdik və bu gün buradayıq və bundan sonra əbədi burada olacağıq".

Həm də Qarabağı, Şərqi Zəngəzuru dünyanın ən gözəl guşələrindən birinə çevirəcəyik!

Ağdam Azərbaycandır!

Qarabağ Azərbaycandır!

***28 may 2022-ci il***

# Qapısız açarlar

İnsan həyatda nə qədər qapı görür?
Sayı-hesabı varmı?
İnsan həyatında neçə dəfə qapı açıb- örtür?
Hesablamaq mümkündürmü?
Amma bu qapıların ən yaxını, ən doğması, şübhəsiz, evimizin qapısı olur...
Xüsusən, dünyaya göz açdığımız evin qapısı...
Adətən, qapını örtəndə evdə özümüzü təhlükəsiz hiss edirik: çünki içəri nə qurd-quş girə biləcək, nə də qapını döyməyən kənar adam.
Bayıra çıxıb qapımızı açarla bağlayanda isə evimizi təhlükəsiz sayırıq: heç kim bizdən xəbərsiz və icazəsiz evə girə bilməz!
I Qarabağ müharibəsində min bir zəhmətlə, sevinclə, xərclə tikdirdiyi evini zorən düşmən işğalında qoyaraq tərk etməyə məcbur olan yüz minlərlə məcburi köçkün də evdən çıxanda qapısını açarla kilidlədi!
Sonra Allaha əmanət edərək sonuncu dəfə həyətinə, evinə baxıb ah çəkməklə doğma yurdu tərk etdi...

❖❖❖

Çoxları hələ hara gedəcəyini, harada məskunlaşacağını dəqiqləşdirməmişdi...
Heç biri haçan geriyə dönəcəyini də bilmirdi...
Amma hamının içində zorən, özünü inandırmaq bahasına bir ümid işartısı da vardı!
Tezliklə geri dönəcəklər!
Mütləq geri dönəcəklər!
Geri qayıdanda qoyduqları evi olduğu kimi, salamat görəcəklər!
Bağladıqları qapını bərk-bərk saxladıqları açarla açacaqlar!
Və həmin açarı ən möhkəm yerdə gizlətdilər!
Heç vaxt onu itirmədilər!
Sönməyən ümid şöləsi kimi qoruyub saxladılar!
Dünyalarını dəyişənlər isə doğmalarına etibar etdilər!
Beləcə, doğma evin qapı açarını əziz-əziz saxlayaraq uzun illər boyu gözlədilər, dözdülər!
Heyhat!!!

❖❖❖

Hara getsək, harada qalsaq da, öz evimizin dadını, rahatlığını heç yerdə tapmadıq...

Ən yaraşıqlı parklar belə qoyub gəldiyimiz həyəti əvəz etmədi...

Heç bir meyvə öz zəhmətimiz, alın tərimiz ilə hasilə gətirdiyimiz meyvələrin tamını vermədi...

Gözümüz həmişə doğma yurdu axtardı...

Ürəyimiz həmişə bizi geriyə səslədi...

Özümüzü özümüzlə gətirdiyimiz açarla ovundurduq!

Bizə təsəlli olan, ümidimizin itməyinə yol verməyən "sirli açar"la!

Artıq bizim üçün bircə evin yox, bütün Vətənin rəmzinə çevrilən açarla!

Nə biləydik ki...

❖❖❖

Düşmənin də layiqlisi və şərəfsizi olur!

Düşmənin də mədənisi və vəhşisi olur!

Düşmənin də insanı və faşisti olur!

Erməni düşməni isə bambaşqadır!

O, həm şərəfsizdir, həm vəhşidir, həm qəddardır, həm də faşistdən də artıq faşistdir!

O, dildə özünü "məzlum", "mədəni", "qədim" xalq kimi təqdim edir.

Əməldə isə...

Bunun nə olduğunu görmək və bilmək üçün işğaldan azad edilmiş Qarabağa baş çəkmək kifayətdir!

İşğal dövründə erməni Qarabağda "daş üstə daş qoymayıb".

Hər iki mənada!

Yalnız dağıdıb, oğurlayıb, söküb-daşıyıb, məhv edib!

Bayquş xislətli olduğundan hər yanı xarabalığa çevirib.

Bütün murdarlığını yaşayış məntəqələrinə, evlərə, yollara, ağaclara, təbiətə, çaylara, göllərə töküb!

"Mədəni"liyini, "məzlum"luğunu, "qədim"liyini bu yolla sübuta yetirib!

Od düşdüyü yeri yandırdığı kimi, o da ayaq basdığı yeri məhv edib!

Özündən sonra yalnız dağıntı, viranəlik qoyub!

"Bura mənimdir" desə də, amma buradan qovulacağını dəqiq bilib və heç zaman unutmayıb!




**Füzuli Beynəlxalq Hava Limanında.** 18 oktyabr 2021-ci il




**Zəfər yolunun açılışı.** 7 noyabr 2021-ci il



**Şuşada Yuxarı Gövhər ağa məscidinin açılışı.** 10 may 2023-cü il




**Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməlinin qoyulması mərasimi.** 27 sentyabr 2021-ci il




**Laçın şəhərində İşğal və Zəfər Muzeyi Kompleksinin təməlinin qoyulması mərasimi.** 28 may 2023-cü il





**Zəngilan rayonunda "Ağıllı kənd" layihəsinin açılış mərasimi.** 27 may 2022-ci il





**Talış kəndində.** 18 mart 2023-cü il



**Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimi.** 28 may 2021-ci il




**Şuşada yeni məscidin təməlinin qoyulması mərasimi.** 12 may 2021-ci il



**Şuşada Mehmandarovların malikanə kompleksinin açılışı.** 09 may 2023-cü il




**Murovdağında inşa olunacaq 11.6 kilometrlik tunelin təməlinin qoyulması mərasimi.** 16 avqust 2021-ci il






**Laçın şəhərinə qayıdan əhali ilə görüş.** 28 may 2023-cü il

Odur ki, bacardığı qədər ziyan vurmağa çalışıb!

Bu düşmən üçün müqəddəs heç nə yoxdur!

Məsələn:

Özünü "xristian dinini birinci qəbul edən millət" adlandırsa da, bir kilsəni belə abadlaşdırmayıb!

Məscidləri dağıdıb, orada murdar heyvanlar saxlayıb!

Qəbirləri sökərək ölənlərin qızıl dişini oğurlayıb!

Çayları zəhərləyib, "qırmızı kitab"a düşən ağacları belə qırıb aparıb.

Yəqin ki, əli səmaya çatsaydı, ulduzları da oğurlayıb satardı...

❖❖❖

Müzəffər Ali Baş Komandan İlham Əliyev təkcə Qarabağı azad etmədi!

Həm də bu murdarları, insan adına yaraşmayan varlıqları cəzalandırdı!

Qarşısında diz çökdürdü, belini qırdı, "dəmir yumruğ"u ilə başlarını əzdi!

"Bayraqdar"larla parça-tikə etdi, leşlərini torpağa qarışdırdı!

Əsgərlərini fərariyə, ordenli generallarını qorxağa, gizlənməyə deşik axtaran siçovula çevirdi!

Nə yaxşı ki, İlham Əliyev kimi qüdrətli sərkərdəmiz var!

Nə yaxşı ki, Müzəffər Ali Baş Komandanımız düşməni darmadağın edərək torpaqlarımızdan qovdu!

Nə yaxşı ki, 44 gün ərzində İlham Əliyev qisasımızı da alaraq ürəyimizə bir sərinlik gətirdi!

Yoxsa viran qalmış yurda qayıdarkən dözə bilməzdik!

İndi torpağımız da qaytarılıb, qisasımız da alınıb!

Prezidentimiz isə Qarabağı tikib-qurmağa, cənnətə çevirməyə başlayıb!

Sönməkdə olan ümidimiz gur tonqala, möhkəm inama çevrilib!

İndi, həqiqətən də, Qarabağ bizimdir!

İndi, həqiqətən, Qarabağ Azərbaycandır!

❖❖❖

Məcburi köçkünə çevrilib qaçqın düşəndə qeyri-müəyyənliyə üz tutmuşduq!

Doğma Vətəndə, doğmalar arasında olsaq da, cavabsız suallar, məchulluqlar çox idi!

Lap çox!

Həmin məchulların bir qismi məcburi köçkünlük dövründə bizi tərk etmədi!

Düzdür, bir çox suallar cavabını tapdı!

Baş sualın cavabını isə bizə Müzəffər Ali Baş Komandanımız 8 noyabr 2020-ci ildə verdi!

Həsrətlə gözlədiyimiz cavabı, bizim üçün hər şeydən vacib, hər şeydən əziz və qiymətli olan cavabı!

Zəfər müjdəli o cavab bizim geriyə doğru yolumuzu açdı!

Bizi 27 il həsrətlə, əzabla, səbirsizliklə gözlədiyimiz xoşbəxtliyə qovuşdurdu!

İndi isə həsrətlə doğma yurda dönəcəyimizi gözləyirik.

Dövlətimiz, Prezidentimiz həmin günün mümkün qədər tez gəlməsi üçün hər şey edir!

Bilirik ki, tezliklə cənnət Qarabağa qayıdacağıq!

"Ağıllı" kəndlərə, şəhərlərə qayıdacağıq!

Yeni çəkilən yollarla qayıdacağıq!

Xoşbəxt günlərimizə qayıdacağıq!

Açıq qapılı yeni, rahat evlərimizə qayıdacağıq!

O evlərin, o qapıların açarını bizə irəlicədən dövlətimiz, Prezidentimiz verəcək!

27 il saxlayıb, sonra qapısını tapmadığımız evlərin köhnə açarlarını əvəz edəcək açarları!

Bizim üçün yeni həyata çevrilən açarları!

Və həmin açarları heç zaman itirməyəcəyik!

Çünki yurd itkisinin, ev itkisinin, Vətən itkisinin nə olduğunu, necə əzablı olduğunu qaçqın həyatı dövründə yaxşı gördük!

Heç nə unudulmur, heç kəs yaddan çıxmır!

***23 iyul 2022-ci il***

# İlham Əliyevin sərkərdəliyi və rəhbərliyi ilə "ruhlar şəhəri" dünya şəhərinə çevrilir

## *"Mina əkinləri"ndən dirçələn Ağdam*

Birinci Qarabağ müharibəsi dövründə Ağdam Qarabağın qeyri-rəsmi mərkəzi sayılırdı.

Rayonda kənd təsərrüfatının bütün sahələri yüksək səviyyədə inkişaf etmişdi: torpağı münbit olduğundan hər il bol məhsul götürülürdü.

Sənaye sahələri də vardı.

Əhali zəhmətə qatlaşaraq yaxşı işlədiyindən yaxşı da qazanırdı.

Ulu Öndər Heydər Əliyevin o dövrdə ölkə vətəndaşlarına yaratdığı əlverişli şəraitdən ağdamlılar da gen-bol bəhrələnirdilər.

Kənddə yaşayanların, demək olar ki, hamısı özünə ağ mişar daşından fərdi mənzil tikmişdi, evində "xarici mebel", həyətində minik maşını, rahat dolanışığı vardı.

Rayon mərkəzində isə fərdi evlərlə yanaşı, çoxsaylı, çoxmərtəbəli binalarda şəhərdəkilər firavan yaşayırdılar.

Ermənilər qudurub cızıqlarından çıxaraq Azərbaycana qarşı ərazi iddialarına başlayanda buna ən çox təəccüblənən, bəlkə də, ağdamlılar oldu!

Çünki erməni həmişə ağdamlının qapısında fəhlə işləmiş, hündürdən danışmağa cürəti çatmamış, "baş üstə"dən başqa ayrı sözü olmamışdı.

I Qarabağ müharibəsinin əsas ağırlığı da Ağdamın üzərinə düşdü:

* ilk şəhidi Ağdam verdi;

* ilk özünümüdafiə dəstələri Ağdamda yarandı;

* Qarabağ ərazisindəki azərbaycanlı kəndlərinə bütün yardımlar Ağdama gətirilir, buradan bələdçilərin və mühafizəçilərin köməyi ilə yerlərə çatdırılırdı;

* ermənilər tərəfindən kəndlərindən qovulan azərbaycanlılar Ağdama pənah gətirirdilər;

* yaralılar və şəhidlər Ağdam xəstəxanasına və Cümə məscidinə gətirilərək yerbəyer edilirdi;

* münaqişəni yoluna qoymaq üçün Bakıdan gələn dövlət adamları Ağdamın qonaq evində qalırdılar;

* bu maharibədə ermənilərə ən ağır zərbəni də Ağdam vurdu!

Düşmən bütün bunları yaxşı bilirdi, odur ki, xüsusi haqq-hesab çəkməyə hazırlaşırdı.

Laçın və Şuşanı ələ keçirdikdən sonra əsas hədəfi Ağdamı almaq idi.

Çünki bundan sonra digər rayonların işğalı bir o qədər də çətinlik törətməyəcəkdi.

Ayaz Mütəllibovun ölkəyə qorxaq və qətiyyətsiz rəhbərliyi, parlament çevrilişi yolu ilə iqtidara gələn AXC-Müsavat cütlüyünün naşılığı və səriştəsizliyi, yalnız cibinin hayına qalması, xəyanətkar "ortabab riyaziyyat müəllimi"nə ölkənin müdafiəsini etibar etməsi, idarəetməni itirərək Azərbaycanı xaos və özbaşınalığa sürükləməsi, ən nəhayət, vətəndaş müharibəsinin astanasına gətirməsi ermənilərin öz planlarını gerçəkləşdirməsinə şərait yaratdı.

Ermənilər bütün kin və nifrətlərini Ağdama püskürdülər.

Gözlərinə nə göründüsə, hamısını yerlə yeksan etdilər!

Evləri, sənaye müəssisələrini, yolları, körpüləri, muzey və məktəbləri, mədəniyyət ocaqları və ictimai binaları, hətta qəbiristanlıqları da dağıtdılar!

Bu sahədə "dostları və yaxınları" onlara fəal kömək göstərdilər.

Beləliklə, Azərbaycanın ən varlı və inkişaf etmiş rayonlarından birinin bütün yaşayış məntəqələrini barbarcasına yox edərək Ağdamı "ruhlar şəhəri"nə çevirdilər!

❖❖❖

Müzəffər Ali Baş Komandan İlham Əliyev Ağdamın da qisasını murdar düşməndən yetərincə aldı!

Düşmən otuz il ərzində dostlarının yardımı ilə onqat müdafiə xətti olan Ağdamı, habelə Laçın və Kəlbəcəri bir güllə atmadan geri qaytarmağa məcbur oldu!

Ancaq, necə deyərlər, olan olmuşdu!

Qarabağı cənnətə çevirməyi qarşıya məqsəd qoyan Prezident İlham Əliyev hərbi əməliyyatlardan dərhal sonra quruculuq işlərinə start verdi.

İlk olaraq Ağdam şəhərinin baş planı hazırlanaraq 28 may 2021-ci ildə təsdiq olundu və icrasına başlanıldı.

❖❖❖

Artıq cənab İlham Əliyev dörd dəfə Ağdama səfər edib və otuzadək layihənin reallaşmasının təməlini qoyub.

Sonuncu səfər də fərəhli və yaddaqalan oldu!

## *Dünyada yaxşı nə varsa,*
## *hamısından Ağdamda da olmalıdır*

İşğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işləri dövlət başçısı İlham Əliyevin şəxsi nəzarəti altında həyata keçirilir.

Şəhərlərin baş planları, hər bir layihə ilə bağlı Prezidentin rəy, tapşırıq və tövsiyələri olur və onlar hökmən nəzərə alınır.

Ağdam şəhəri ilə bağlı cənab İlham Əliyevin belə bir tapşırığı olmuşdu: dünyanın harasında, hansı şəhərdə yeni, maraqlı, gözəl nə varsa, ondan Ağdamda da olmalıdır!

Bu tələbə dönmədən əməl olunur!

Ağdam uzaqdan baxan düşmənin gözünə bir ox kimi batan yeni tipli, "ağıllı yaşayış məntəqəsi" olacaqdır!

Vaxtilə şəhərin əhalisi 36 min nəfər olub.

Yeni Ağdam isə Prezidentimizin tapşırığına əsasən, 100 min nəfər əhali üçün planlaşdırılıb.

Maraqlı bir cəhət: Ağdam ərazi baxımından Sumqayıtdan böyük olacaqdır. Amma Gəncə və Sumqayıt şəhərləri Ağdamdan daha sıxdır.

Əhalinin 70 faizi şəhər ərazisinin 30 faizində yaşayacaq .

1750 fərdi ev, 23 min mənzil olacaq.

Vaxtilə əhali Ağdamda su qıtlığı çəkirdi.

İndi görülən tədbirlər şəhərdə su bolluğu yaradacaq.

Adətən, şəhərlərdə 15 faiz yaşıllıq olur, Ağdamda isə meşə zolaqlarına görə bu sahə 23 faizə çatacaq.

Şəhərin ortası ilə kanal axacaq, hətta insanlar onun 2 kilometrlik hissəsində qayıqla üzə biləcəklər.

İnsanların dincəlməsi, zövq alması üçün göl və şəlalə yaradılacaqdır.

Ağdamın öz dağüstü parkı, cürbəcür karuselləri olacaqdır.

Müasir, elektriklə işləyən tramvaylar küçə ilə şütüyəcəkdir, 79 kilometrlik velosiped yolu insanların ixtiyarına veriləcəkdir.

Bir sözlə, xarabalıqdan qurtulan, "mina əkinləri"ndən yaxa qurtaran Ağdam müasir yaşayış mərkəzinə, turist şəhərinə çevriləcəkdir.

Təbii ki, insanların doğma yurda qayıtmaları üçün ilk növbədə zəruri infrastruktur yaradılmalı, iş yerləri açılmalıdır!

Bu sahədə işlər kompleks şəkildə, həm də yüksək sürətlə aparılır.

Artıq elektrik xətləri, su xətləri çəkilib...

Qayıdış üçün ən vacib məsələlərdən biri iş yerlərinin mövcudluğudur.

Bu baxımdan 2021-ci ildə təməli qoyulmuş Ağdam Sənaye Parkının həm iş yeri, həm də məhsul istehsalında xüsusi əhəmiyyəti var. Sənaye parkında qida sənayesi, kiçik sənaye və xidmət, iri sənaye müəssisələri, sosial və texniki zonalar, TIR parkı, tikinti materiallarının satış bazası hissələri mövcuddur. Burada 110 milyon manat sərmayə qoyulmaqla ilkin olaraq 330 iş yeri açılacaqdır.

❖❖❖

Prezident İlham Əliyevin oktyabrın 4-də Ağdamda baş tutan dördüncü səfəri əvvəlkilərin məntiqi davamı olmaqla yanaşı, görülən işlərə baxış, yeni obyektlərin təməllərinin qoyulması, habelə Qarabağın və Zəngəzurun bərpası və dirçəlişi ilə bağlı digər məsələlərin sürətli həllinə təkan verilməsinə xidmət edirdi.

Qarabağın xilaskarı olan Müzəffər Ali Baş Komandan İlham Əliyev Ağdamda olduğu 2 gün ərzində gərgin işlədi.

Ən əvvəl Bərdə-Ağdam avtomobil yolunun çəkilişi ilə yaxından maraqlandı.

Başlanğıcını Bərdə şəhərindən götürən bu yol ümumi uzunluğu 44,5 kilometr, eni 26,5 metr, habelə dördzolaqlı olmaqla, birinci texniki dərəcəyə uyğun salınır.

Yol təkcə Qarabağ üçün deyil, Cənubi Qafqaza da böyük fayda gətirəcək. Artıq işlərin 75 faizi yekunlaşıb.

Bu gün Qarabağ atları bütün dünyada məşhurdur. Gələcəkdə Ağdamda cıdır yarışlarının keçirilməsi buraya xeyli əcnəbi turist cəlb edəcəkdir. İşğal dövründə çətinliklər üzündən Qarabağ atları da müəyyən ziyan görmüşdür. Odur ki, bu cinslərin artırılmasına və normal şəraitdə bəslənməsinə ciddi ehtiyac duyulur.

Dövlət başçısı Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birlikdə Ağdam Atçılıq Nəsilartırma Mərkəzinin təməlqoyma mərasimində iştirak etdi.

Ağdam şəhərində dövlət başçısı tərəfindən təməli qoyulan "City Hotel Ağdam"da gələn qonaqların dincəlmələri və vaxtlarını səmərəli keçirmələri üçün hər bir şərait olacaqdır.

Prezident İlham Əliyev Pənahəli xanın sarayı və İmarət kompleksində görüləcək işlərlə də tanış oldu, Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin açılışını etdi.

Xıdırlı, Kəngərli və Sarıcalı kəndlərinin təməllərinin qoyulması tezliklə doğma yurda qayıtmaq həsrətini çəkən sakinlərin böyük sevincinə səbəb oldu.

Ağdamda keçmiş məcburi köçkünlər üçün hər bir rahatlığı olan yeni yaşayış məhəlləsi də inşa ediləcəkdir. 6,9 hektarlıq ərazidə salınacaq məhəllədə 1139 mənzili olacaq 4-7 mərtəbəli binaların tikintisi planlaşdırılır.

Dövlət başçısı və birinci xanım bu məhəllənin də təməlqoyma mərasimində iştirak etdilər.

Hər bir şəhər vağzaldan başlanır. Ağdamda Dəmiryol və Avtovağzal olmaqla iki yeni kompleksin də təməli qoyuldu.

Otuz ildə dağıdılan yurd yerlərimiz çox böyük sürətlə və müasir tələblərə cavab verən, zövq oxşayan şəkildə bərpa olunur. Çünki torpağın, viran qoyulmuş bu yurdların əsl sahibləri geri dönüblər!

Onların həm də Müzəffər Ali Baş Komandan İlham Əliyev kimi 44 günlük Vətən müharibəsində zəfər qazanmış rəhbərləri, qurucu və yaradıcı dövlət başçıları vardır.

## *Dünyaya verilən mesajlar*

Qırx ölkədən gələn qonaqların iştirakı ilə Ağdamda keçirilən Azərbaycan Milli Şəhərsalma Forumunda Azərbaycan Prezidenti İlham Əliyev dünyaya bir sıra vacib mesajlar da ünvanladı.

Qeyd edək ki, beynəlxalq forumun keçiriləcəyi yer təsadüfən seçilməmişdi.

Əvvəla, dünyanın hər yerindən gələn qonaqlar öz gözləri ilə gördülər ki, özünü "qədim xalq", "mədəni millət" adlandıran ermənilər necə vəhşiliklər, barbarlıqlar, dağıntılar törədiblər.

İkincisi, Qarabağın və Zəngəzurun necə bir sürətlə bərpa edilərək qurulduğunun şahidinə çevrildilər.

Hətta BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru xanım Maimuna Mohd Şərif "Azad olunmuş ərazilərdə genişmiqyaslı şəhərsalma və yenidənqurma işlərinin miqyasından və sürətindən heyranam" deyərək təəccübünü gizlətmədi.

Ən nəhayət, Azərbaycan bir daha əyani şəkildə göstərdi ki, ərazisinin bir parçası vandalcasına dağıdılıb yerlə yeksan edilsə də, yenə sülh istəyir və ermənini sülh müqaviləsini imzalamağa dəvət edir.

Prezident İlham Əliyev Ermənistanın vurnuxmasının, kapitulyasiya aktında üzərinə götürdüyü öhdəliklərdən boyun qaçırmaq cəhdlərinin, ATƏT-in Minsk qrupunun yenidən dirçəldilməsinə bəslənən ümidlərin puçluğunu və kimlərəsə, nəyəsə güvənərək vəziyyəti dəyişmək cəhdlərinin mənasızlığını bir daha anlatdı:

"Bizim hər hansı vasitəçiliyə ehtiyacımız yoxdur. Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisinə gəlincə, onlar bizim vətəndaşlarımızdır və biz indi onların öz ərazimizdə həyatını necə təşkil edəcəyimizi heç bir beynəlxalq

oyunçu ilə müzakirə etməyəcəyik. Qarabağ Azərbaycandır! İkinci Qarabağ müharibəsi bunu meydanda sübut etdi".

Müzəffər Ali Baş Komandan İlham Əliyevin Anım Günündə Füzuliyə səfəri zamanı burada şəhidlərin şərəfinə abidənin açılışı zamanı xalqa müraciətinə hər bir Azərbaycan vətəndaşı qoşularaq dəstək vermişdir: "Bu gün şəhidlərimizin əziz xatirəsini yad edərək bir daha hər birimiz özünə söz verməlidir, vəd verməlidir, and içməlidir ki, biz müstəqilliyimizin keşiyində əbədi duracağıq, biz ərazi bütövlüyümüzün keşiyində əbədi duracağıq. Qoymayacağıq ki, bir daha düşmən başını qaldırsın, qoymayacağıq ki, bir daha bizim üçün təhdid yaratsın. Əgər bunu görsək, dərhal hərəkətə keçəcəyik".

Bu bir tale qismətidir ki, erməni kimi vandal, faşistxislətli millətlə qonşu olduq, onlar isə havadarlarına güvənərək torpaqlarımızı işğal etməklə viran qoydular!

Bu bir tale qismətidir ki, Tanrının bizə yetirdiyi Müzəffər Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğ"u ilə 27 ildən sonra doğma yurda qayıtdıq!

Bu bir taledir ki, İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı yenidən Qarabağı və Zəngəzuru cənnətə çevirəcəkdir!

Biz bu torpaqlara döyüşərək, şəhidlər verərək əbədi qayıtmışıq!

***7 oktyabr 2022-ci il***

## Möhtəşəm inkişafın uğurlu illəri

İllər təkcə ömrümüzdən kərpic kimi qopub düşmür.

İllər həm də həyatımıza yeniliklər, uğurlar, sevinc və qələbələr də gətirə bilir!

Əslində, hər bir ilin dəyəri hər kəsin, hər bir ölkə vətəndaşının həyatına, dövlətimizin inkişafına verdiyi sanballı töhfələrlə, xoş və əhatəli dəyişikliklərlə ölçülür.

Bu mənada son 19 ilin xalqımızın və ölkəmizin həyatının, vətənimizin taleyinin ən şad, fərəhli və sürətli dəyişiklikləri, möhtəşəm yenilikləri ilə yadda qaldığını görürük.

Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 19 il, həqiqətən, tariximizin ən parlaq və şərəfli səhifələrini təşkil edir.

❖❖❖

Deyirlər, əsl həqiqət müqayisədə daha aydın görünür.

19 il bundan öncəki Azərbaycanla müasir dövrü müqayisə etsək, çox mühüm dəyişikliklərin və yeniliklərin baş verdiyini görərik.

Birlikdə geriyə boylanaq, olub-keçənləri bir daha xatırlayaq, hadisələri obyektiv və düzgün qiymətləndirməyə çalışaq.

❖❖❖

Müstəqil yaşamaq istəyi Azərbaycana baha başa gəldi.

Bizi yolumuzdan döndərmək, forposta çevirmək üçün ardıcıl və məqsədyönlü şəkildə işlər görüldü, hətta "ən sərt tədbirlərə" belə əl atıldı.

Həmin dövrdə Azərbaycanın əsl rəhbərindən ayrı düşməsi, ölkəyə maymaqların, qorxaqların, səriştəsiz və təcrübəsizlərin rəhbərlik etməsi, bəzilərinin şəxsi maraqlarını milli mənafedən üstün tutması fəlakətli nəticələrə səbəb oldu.

İmperiyasevər qüvvələr tarixin sınaqlarından keçirdikləri "Dağlıq Qarabağ problemi"ni yenidən gündəmə gətirərək erməni separatçılarını fəallaşdırdılar, ölkəmizin ərazi bütövlüyünə qəsd yolunu tutdular.

Odövrkü dövlət başçılarının belə ssenariyə hazır olmamaları, Moskvaya qul sədaqəti göstərmələri nəzərdə tutulan mənfur planın uğurlu inkişafına şərait yaratdı.

Xalqın kortəbii etirazlarını yatırtmaq, haqq, ədalət deyənləri yerində oturtmaq üçün SSRİ-nin birinci və axırıncı Prezidenti, ermənipərəst M.Qorbaçovun əmri ilə Azərbaycana xüsusi cəzalandırma tətbiq edildi, sovet ordusu Bakıya hücum edərək 20 Yanvar faciəsini törətdi.

Lakin bütün bunlar Azərbaycan xalqını öz yolundan döndərə bilmədi.

A.Mütəllibovun keçmiş SSRİ-ni saxlamaq barədə keçirdiyi referendum da uğursuzluğa yuvarlandı.

AXC-Müsavat cütlüyünün azadlıq hərəkatının dalğaları üzərində iqtidara gəlməsi vəziyyəti daha da mürəkkəbləşdirdi. Dövlət idarəçiliyində heç bir təcrübəsi olmayan səriştəsizlər və naşılar Azərbaycanı xaos və anarxiya burulğanına yuvarladılar, vətəndaş müharibəsi astanasına gətirdilər.

Belə bir mürəkkəb məqamda Azərbaycan xalqı üzünü sınanmış oğlu, dünyaşöhrətli siyasətçi Heydər Əliyevə tutdu, onu yenidən ölkə rəhbərliyinə dəvət etdi.

Xalqın çağırışına biganə qala bilməyən Ulu Öndərimiz yenidən geriyə dönərək Azərbaycanın xilaskarına çevrildi.

Qısa müddətdə müharibə cəbhəsində atəşkəs yaradıldı, qanunsuz silahlı dəstələr zərərsizləşdirildi, əhalidəki külli miqdarda silah-sursat yığıldı, özbaşınalığa və qanunsuzluqlara son qoyuldu.

Lakin düşmən qüvvələr geri durmaq istəmirdilər.

İki dəfə - 4 oktyabr 1994-cü və 13-18 mart 1995-ci illərdə dövlət çevrilişinə cəhdlər edildi.

Xalqın gücü və dəstəyi ilə Ulu Öndərimiz bu cəhdlərin də qarşısını qətiyyətlə aldı.

1994-cü ildə "Əsrin müqaviləsi" neft kontraktı imzalandı, ölkənin gələcək inkişaf yolları müəyyənləşdirildi.

Vəfasız ömür Ulu Öndər Heydər Əliyevin öz planlarını həyata keçirməyə imkan vermədi. Ümummilli Liderimiz "Mən ona özüm qədər inanıram..." deyə Azərbaycanın gələcək taleyini siyasi varisi İlham Əliyevə etibar edərək bizi cismən tərk etdi.

❖❖❖

Cənab İlham Əliyevin prezidentliyi ilk gündən çətin sınaqlarla başladı.

Radikal müxalifət və "5-ci kolon" Azərbaycanı yenidən anarxiya dövrünə sürükləmək, ağalarının maraqlarını təmin etmək niyyətindəydilər. Bu məqsədlə prezident seçkilərindən dərhal sonra küçə və meydanlara axışaraq insanları da öz təsirləri altına salmaq, yenidən çevriliş törətmək istəyirdilər.

Xalq onlara dəstək vermədi!

Prezident İlham Əliyev isə ən sərt və qətiyyətli tədbirlər gördü!

Aqressiv müxalifətin ilk cəhdi fiaskoya uğradı.

Prezident İlham Əliyevin atdığı addımlar isə göstərdi ki, dövlətin sükanı yenə də etibarlı əllərdədir, kimsə daha Azərbaycanda sabitliyi poza, insanları yanlış istiqamətə yönəldə bilməz!

❖❖❖

Prezident İlham Əliyev mahiyyət və fəaliyyət etibarı ilə qurucu, yaradıcı liderdir.

Cari fəaliyyətlə uzaq perspektivi məharətlə əlaqələndirməyi, məsələlərə kompleks şəkildə yanaşmağı, məqsədə çatmaq yolunda ən qısa və optimal vasitələr tapmağı, istəklərini uğurla reallaşdırmağı gözəl bacarır.

Odur ki, yubanmadan fəaliyyətə başladı.

Dövrün başqa bir mühüm problemi isə dövlət büdcəsində vəsait çatışmazlığı idi.

Əvvəlki rəhbərlərin səhvləri və bacarıqsızlığı nəticəsində bazar iqtisadiyyatına keçidi şərtləndirən islahatlar vaxtında və qaydasında aparılmadığından istehsal aşağı düşmüş, işsizlik artmış, yoxsulluq səviyyəsi yüksəlmişdi. Sahibkarlığın inkişafı sahəsində də ciddi maneələr vardı.

Ulu Öndər Heydər Əliyevin sayəsində yeni Konstitusiya qəbul edilmiş, dövlət əmlakının özəlləşdirilməsinə dair iki proqram hazırlanaraq reallaşdırılmış, torpaq islahatı keçirilmiş, Bakı-Tbilisi-Ceyhan neft kəməri çəkilmişdi.

Lakin büdcəyə kifayət qədər neft pulları gəlmədiyindən vəziyyət hələ də ürəkaçan deyildi.

Cənab İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başladığı ilk günlərdən diqqətini mövcud problemlərə yönəldərək dövrü üçün çox zəruri sayılan problemlərin tezliklə həllinə nail olacağına söz verdi:

* günün istənilən vaxtı Azərbaycanın ən ucqar kəndlərində belə elektrik enerjisi olacaqdır;

* çadır şəhərciklərində bir nəfər də məcburi köçkün qalmayacaqdır;

* Azərbaycan xalqı xoşbəxt yaşamağa layiqdir və biz buna nail olacağıq;

* regionların sürətli inkişafı təmin ediləcəkdir;

* Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına yol verməyəcək, sülh yolu ilə baş tutmasa, digər vasitələrlə işğal altındakı torpaqlarını qaytaracaqdır!

Bunlar Prezident İlham Əliyevin Azərbaycan xalqına dövlət başçısı olaraq verdiyi ilk vədlər idi.

Sözü ilə əməli bir olan cənab İlham Əliyev bütün dediklərinə şərəflə əməl etdi!

Ən əsası, cənab İlham Əliyev qarşısına qoyduğu ən böyük hədəflərdən birinə qısa vaxtda nail oldu:

Tarixinin ən qüdrətli Azərbaycanını yaratdı!

❖❖❖

Bu yöndə yorulmadan çalışaraq bir çox məsələni uğurla və böyük uzaqgörənliklə həll etdi:

* ölkənin enerji təhlükəsizliyini təmin etdi, Azərbaycanı mavi qaz idxalçısından ixracatçısına çevirdi;

* nəqliyyat təhlükəsizliyi təmin olundu, ölkənin bütün yol infrastrukturu təzələnərək müasirləşdirildi;

* regionların sosial-iqtisadi inkişafına dair dörd dövlət proqramı qəbul edilərək uğurla reallaşdırıldı;

* sahibkarlığın inkişafı yolunda maneələr aradan qaldırıldı, dövlətin sahibkarlara dəstəyi gücləndirildi;

* aqrar sektorun inkişafını stimullaşdıran layihələr hazırlanaraq uğurla həyata keçirildi, dövlətin kəndliyə hərtərəfli dəstəyi gücləndirildi;

* möhtəşəm transmilli layihələrin - Bakı-Tbilisi-Ceyhandan sonra Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qarsın istifadəyə verilməsi dünya okeanına birbaşa çıxışı olmayan Azərbaycanı logistika mərkəzinə çevirdi.

Bütün bu işlərin sayəsində müstəqil Azərbaycanın dünyada dəyəri artdı, əlaqələri və imkanları genişləndi.

❖❖❖

Son 19 ildə Azərbaycanın qazandığı nailiyyətləri rəqəmlərin dili ilə yığcam şəkildə göstərsək, belə bir mənzərənin şahidi olarıq:

* 19 ildə Azərbaycan iqtisadiyyatı 3,4 dəfə böyüyüb;

* bu illər ərzində sənaye 3,7 dəfə artıb;

* kənd təsərrüfatı 2 dəfə çoxalıb;

* xarici ticarət dövriyyəsi 6,8 dəfə yüksəlib;

* ixrac 9,2 dəfə, qeyri-neft ixracı 7,3 dəfə artıb;

* valyuta ehtiyatlarımız 33 dəfədən çox artaraq 56 milyard dollara yüksəlib;

* son 6 ayda isə ümumi daxili məhsul 6,2 dəfə artıb;

* son 8 ayda qeyri-neft sektoru 10,3 faiz yüksəlib;

* xarici ticarət dövriyyəmiz 35 milyard dollar təşkil edib;

* strateji valyuta ehtiyatları 2,7 milyard dollar artıb;

* işsizlik və yoxsulluq beş faizə endirilib;

* son 19 ildə Azərbaycanda 19 min kilometr avtomobil, 1400 kilometr dəmir yolu tikilib və ya əsaslı təmir edilib;

* Azərbaycan 18 təyyarə ilə regionda ən böyük mülki hava yük donanmalarından birinə sahibdir;

* 2024-cü ilin sonuna qədər ölkədə beynəlxalq hava limanlarının ümumi sayının 7-dən 9-a çatdırılması planlaşdırılır;

* Azərbaycan 52 gəmi ilə Xəzərdə ən böyük mülki yük donanmasına malikdir.

❖❖❖

Siyasi sahədə qazanılan qələbələr də fərəh doğurur.

Dünya liderləri ilə daim bir sıraya qatılan cənab İlham Əliyevin şəxsi uğurları da Azərbaycanın hörmətinə və imicinə müsbət təsir göstərir.

2012-ci ildə Azərbaycan 150 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi.

Cənab İlham Əliyev iki il ərzində qurumun iclaslarına sədrlik etdi.

Həmin dövrdə Azərbaycanın haqlı mübarizəsinin əsl mahiyyətini dünya ictimaiyyətinə çatdırmaqla yanaşı, Ermənistanın işğalçı simasını da ifşa etdi. Eyni zamanda dünyanın mövcud problemlərinin uğurlu həlli, xüsusən inkişaf etməkdə olan yoxsul ölkələrə yardım göstərilməsi, dəstək verilməsi ilə bağlı atdığı addımlar və səsləndirdiyi səmərəli təkliflər dostlarımızın və tərəfdaşlarımızın sayının xeyli artmasına kömək göstərdi.

Bu baxımdan cənab İlham Əliyevin 2019-cu ildə BMT-dən sonra dünyada ikinci böyük təşkilat sayılan Qoşulmama Hərəkatına Sədrliyi xüsusilə uğurlu oldu.

Hətta Azərbaycan Prezidentinin fəaliyyəti yüksək qiymətləndirilərək onun sədrlik müddəti daha bir il - 2023-cü ilədək artırıldı.

İlham Əliyevin 2019-2021-ci illərdə Türk Dövlətləri Təşkilatına (keçmiş adı Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasıdır) rəhbərliyi də uğurlu və yaddaqalan oldu.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Azərbaycan Prezidentinin türk dövlətlərinin birliyinin yaradılması istiqamətindəki fəaliyyətləri bu gün aydın görünən və hamı tərəfindən etiraf olunan səmərəli bəhrəsini verməkdədir.

Artıq imperiya buxovlarından qurtarmış, keçmiş SSRİ-də yaşayan türk dövlətləri birgə fəaliyyətin əlverişli olduğunu lazımınca dəyərləndirərək eyni mövqedən çıxış etməyə başlamışlar. Bu, böyük problemlərlə üzləşən müasir dünyanı da

yeni təhlükələrdən qorumağa, ölkə vətəndaşlarının rahat və asudə yaşayışını təmin etməyə geniş imkanlar açır.

Fəxrlə qeyd edirik ki, Azərbaycan Prezidenti quruma uğurlu rəhbərliyinə görə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə görüşündə "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilmişdir.

❖❖❖

İlham Əliyev Azərbaycanın dövlət başçısı seçildikdən sonra da Milli Olimpiya Komitəsinə rəhbərliyini davam etdirdi.

İlham Əliyev bu vəzifəyə təyin olunanda ölkədə idman bərbad vəziyyətdə idi. Paytaxt və bölgələrdəki idman sarayları və qurğuları dağılaraq sıradan çıxmış, respublika stadionu və velotrek "talkuçka"ya - bazara çevrilmiş, güclü idmançılar və məşqçilər işsiz qaldıqlarından xarici ölkələrə üz tutmuşdular.

Digər ölkələrdə keçirilən beynəlxalq idman yarışlarına komandaları və idmançıları göndərməyə vəsait tapılmırdı.

Cənab İlham Əliyevin gərgin və səmərəli fəaliyyəti sayəsində az vaxtda bu sahədə əsaslı dönüş yarandı.

Həm də nəinki dönüşə nail olundu, Azərbaycan dünyada idman dövləti kimi tanınmağa başladı. Üstəlik, inşa olunan yeni idman arenalarına, idmançılara və keçirilən yarışlara, respublikamıza qonaq gələn idmançılara yaradılan şəraitə, tədbirlərin yüksək səviyyədə təşkilinə görə ölkəmiz dünyada ən arzuolunan idman məkanına çevrildi.

Ötən 19 il ərzində çoxsaylı yarışlar keçirilmiş, idmançılarımız möhtəşəm uğurlara imza ataraq saysız-hesabsız mükafatlara sahib olmuşlar.

Lap qısa şəkildə idman nailiyyətlərini xronologiya ilə diqqətə çəkirik:

* 2000-ci ildə Sidneydə 31 idmançı ilə təmsil olunan Azərbaycan 2 qızıl və 1 bürünc medalla dünyada 34-cü yeri, Avropa ölkələri arasında isə 23-cü yeri tutdu.

* XXI əsrin ilk Olimpiya Oyunlarında - "Afina - 2004"də 12 idman növündə 38 idmançı ilə təmsil olunan Azərbaycan milli komandası bu möhtəşəm yarışdan Vətənə 1 qızıl, 4 bürünc medalla qayıtdı.

* 2008-ci ildə Pekində təşkil edilən Olimpiadada Azərbaycan 12 idman növündə 44 atletlə təmsil olundu. Komandamız Olimpiya oyunlarında ilk dəfə olaraq hər üç əyarda medallar qazandı: 1 qızıl, 2 gümüş, 4 bürünc əldə edildi. Azərbaycan yığması 204 ölkə arasında medalların sayına görə 27-ci, medalların növünə görə isə 39-cu yeri tutdu.

* 2012-ci ildə London Olimpiya Oyunlarında isə Azərbaycan idmançıları 10 medal (2 qızıl, 2 gümüş, 6 bürünc) qazandılar. Bununla da 204 ölkə arasında 30-cu yerdə qərar tutan ölkəmiz medalların ümumi sayına görə 25-ci oldu. 2 qızıl, 2 gümüş və 6 bürünc əldə edən idmançılarımız bu göstərici ilə Avropa ölkələri arasında 15-ci, MDB-də isə 5-ci yeri tutdular.

* 2016-cı ildə Braziliyanın Rio-de-Janeyro şəhərində təşkil edilən XXXI Yay Olimpiya Oyunlarına Azərbaycan 56 idmançı ilə qatıldı. İlk dəfə rekord sayda - 18 medal (1 qızıl, 7 gümüş, 10 bürünc) qazanıldı. Dünyanın 207 ölkəsindən 11 mindən çox idmançının iştirak etdiyi turnirə respublikamız 56 idmançı ilə qatılmışdı. Azərbaycan medal sayına görə 87 mükafatçı dövlət arasında 15-ci yeri tutaraq islam, türk və Qafqaz ölkələri arasında lider oldu.

* Pandemiya səbəbindən bir il təxirə salınan "Tokio-2020" Olimpiadasına 44 idmançı ilə qatılan Azərbaycan komandası turniri 3 gümüş və 4 bürünc medalla başa vurub. Gümüş medalların 2-si karate, 1-i güləş, bürünc mükafatlardan isə 2-si güləş, 1-i cüdo, 1-i boks yarışlarında qazanılıb.

* Bakı planetin birnömrəli "Formula-1" avtomobil yarışına 6 dəfə evsahibliyi edib.

"Formula-1" Azərbaycan Qran-prisində ən məşhur 20 pilot 10 komandanın tərkibində 6 kilometrlik məsafədən ibarət 51 dövrəlik mərhələnin qalibi uğrunda yarışır.

* Son 20 ilin ən mühüm idman hadisələrindən biri də ölkəmizdə təşkil olunan "Bakı-2015" I Avropa Oyunlarıdır. Qitənin 50 ölkəsindən 6000-dən çox idmançının iştirak etdiyi yarışlarda atletlərimiz 21-i qızıl, 15-i gümüş, 20-si bürünc olmaqla 56 medal qazanaraq 2-ci yeri tutdular.

* 2017-ci ildə isə paytaxtımızda təşkil olunan IV İslam Həmrəyliyi Oyunları gənclərimiz üçün çox böyük uğurla yekunlaşdı. 54 ölkədən 3000-dən çox idmançının iştirak etdiyi yarışlarda Azərbaycan atletləri 75-i qızıl, 50-si gümüş, 37-si bürünc olmaqla 162 medal qazanaraq birinci yeri tutdular.

Bütövlükdə 2000-ci ildən indiyədək ölkədə 50-yə yaxın Olimpiya idman kompleksi, həmçinin ixtisaslaşmış idman qurğuları tikilib istifadəyə verilib, mövcud idman obyektləri yenidən qurulub.

❖❖❖

19 ilin ilk möhtəşəm yekunu tarixinin ən qüdrətli Azərbaycanının yaradılmasıdır.

Müstəqil Azərbaycan müstəqil siyasət yürüdür, dünyada yüksək çəkiyə, siyasi nüfuza sahibdir, Avropanın enerji təminatında mühüm rol oynayır, dünyada ke-

çirilən ən mötəbər tədbirlərin iştirakçısı və ən əziz qonağı olur, müasir, demokratik idman dövləti kimi imic qazanıb, çoxsaylı dostlara, qarşılıqlı maraqları təmin edən əlaqə və əməkdaşlıqlara malikdir, Cənubi Qafqazın ən güclü dövləti, logistika mərkəzi, "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin kəsişdiyi məkan, transmilli layihələri uğurla gerçəkləşdirən ölkədir.

19 ilin ikinci möhtəşəm uğuru isə 44 günlük Vətən müharibəsinin zəfərlə başa çatdırılaraq ərazi bütövlüyünün bərpasıdır.

Bu qələbəyə Azərbaycan 19 il hazırlaşdı.

Torpaqların qısa müddətdə işğaldan azad edilməsi isə göstərdi ki, cənab İlham Əliyev həm də "dəmir yumruğ"a sahib görkəmli sərkərdədir!

Ermənilər özlərini "məğlubedilməz millət", Ermənistan isə öz ordusunu "məğlubedilməz ordu" sayırdı.

Ermənilər ötən illərin 90-cı illərində ordusuz-müdafiəsiz, yiyəsiz-sahibsiz Azərbaycana, dinc əhaliyə hücum edərək havadarlarının köməyi ilə torpaqlarımızı ələ keçirmələrini böyük qəhrəmanlıq kimi qələmə verirdilər.

Son dövrlərdə isə Azərbaycanı "yeni müharibə, yeni ərazilərin ələ keçirilməsi olacaq", "bu dəfə erməni tankları Bakıyadək gələcək" deyə hədələyirdilər.

Həm də elə güman edirdilər ki, hərbi əməliyyatlar başlasa, 1990-cı illərin müharibəsi təkrar olunacaqdır!

Müzəffər Ali Baş Komandan İlham Əliyev isə hakimiyyətə gəldiyi ilk günlərdən sülh danışıqlarını davam etdirsə də müharibəyə hazırlaşırdı.

Görürdü ki, Ermənistan danışıqlar yolu ilə torpaqları qaytarmaq niyyətində deyil!

Cənab İlham Əliyev hər dəfə Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəyini qətiyyətlə bəyan edirdi.

Prezident İlham Əliyev yeni müharibəyə ordu quruculuğunu davam etdirərək hazırlıq görürdü:

* ən əvvəl yeni vətənpərvər gənclər nəsli yetişdirdi, dünyanın müxtəlif ali hərbi məktəblərində təhsil almış zabit kadrları hazırladı, ordunu yenidən komplektləşdirdi;

* ordunu ən müasir texnologiyalar əsasında hazırlanan yeni silahlarla təchiz etdi;

* müntəzəm təlimlər keçən Xüsusi Təyinatlı Qüvvələr hazırladı;

* ordunu dağlıq şəraitdə, bərkidilmiş istehkamlara qarşı döyüşə köklədi;

* hərbi əməliyyatlar dövründə düşmən ordusunun arxa ilə əlaqəsini qırmaq, təchizatını pozmaq üçün irəlicədən zəruri tədbirlər müəyyənləşdirildi;

* müharibə dövründə aldadıcı və çaşdırıcı manevrlərdən məharətlə istifadə olundu;

* orduda yüksək əhvali-ruhiyyə, döyüş əzmi yaradıldı;

* ən nəhayət, döyüşlər zamanı Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən operativ idarəetmə həyata keçirildi, dəqiq gündəlik tapşırıqlar müəyyən olunaraq icrası təmin edildi!

❖❖❖

44 günlük Vətən müharibəsi dövründə Müzəffər Ali Baş Komandan İlham Əliyev 3 istiqamətdə - hərb meydanında, diplomatiya və informasiya cəbhəsində mətanətlə vuruşdu!

Diplomatiya və informasiya savaşında təkbaşına qalib gəldi!

Düşməni qarşısında diz çökdürərək kapitulyasiya aktına qol çəkdirdi!

Çox yığcam bir rəqəm;

Vətən müharibəsində Azərbaycan Ordusu tərəfindən Ermənistanın 5 milyard dollarlıq silah-sursatı məhv edildi.

O cümlədən erməni ordusunun 125 artilleriya topu, 366 tankı, 7 ədəd "S-300" zenit-raket kompleksi, 50-dən çox digər zenit-raket kompleksləri, 522 yük avtomabili və digər texnikalar ya məhv edilmiş, ya da qənimət kimi götürülmüşdür!

Canlı qüvvə sarıdan düşmənin ölən və yaralılarının sayı on mini keçmiş, bir o qədər də haqqında cinayət işi qaldırılan hərbçi fərarisi olmuşdur!

Ən əsası, düşmən torpaqlarımızdan birdəfəlik qovulmuş və biz doğma yurda əbədi qayıtmışıq!

❖❖❖

Azərbaycan bu müharibədə ən müasir silahlardan istifadə etdi, fərqli taktika və strategiya işlətdi, XXI əsrin yeni müharibəsini apardı!

Dünya hərb elmi ölkəmizin bu uğurlarına yüksək dəyər verdi, "nümunəvi müharibə" kimi hamı bizdən öyrənməyə, bizim təcrübənin tətbiqi üçün öz ordularında islahatlara başladı!

❖❖❖

Qarşıda daha möhtəşəm bir vəzifə - Qarabağın və Zəngəzurun cənnətə çevrilməsi prosesi durur.

Bu istiqamətdə də sürətli və davamlı işlər gedir.

Şəhərlərin baş planları hazırlanaraq təsdiq olunur, yeni yollar çəkilir, zəruri infrastruktur yaradılır, bir-birindən maraqlı layihələrin icrasına start verilir.

Artıq Böyük qayıdışın ilk qaranquşu sayılan Ağalıya keçmiş məcburi köçkünlər qayıdaraq "ağıllı" qəsəbələrində xoşbəxt günlərini yaşayırlar.

Dünyanın hər yerindən bütöv Azərbaycanı görməyə gələnlər mədəniyyət paytaxtı Şuşa ilə bərabər, Ağalını da ziyarət edir, məmnunluqlarını söyləyirlər!

Qarşıda görüləsi işlər çoxdur!

Xalqımıza uğur və xoşbəxtlik gətirəcək illər də çoxdur!

Çünki Prezident İlham Əliyev hər adi ili möhtəşəm qələbələrlə əlamətdar etməyi, xalqımızın ən müqəddəs və əlçatmaz arzularını belə reallaşdırmağı məharətlə bacarır.

Xalq öz rəhbərinə inanır və onu səmimi-qəlbdən sevir!

Ölkə vətəndaşlarının etimadını daim doğruldan dövlət başçısı İlham Əliyev isə nəyi nə vaxt və necə etməyi gözəl bildiyindən yeni zəfərlərə çatacağımıza hamımız əminik!

Necə ki Prezidentimiz dedi və etdi:

Qarabağ Azərbaycandır!

Azərbaycan xalqı isə xoşbəxt yaşamağa layiqdir!

Xalq-iqtidar birliyi, xalqın firavanlığına xidmət edən müstəqil siyasət, aydın hədəflər və məqsədə çatmaq yolunda birgə fəaliyyət növbəti illərin də uğurlarının ən möhkəm təməlidir!

***15 oktyabr 2022-ci il***

# Xilaskar, qurucu, birləşdirici Lider

*Azərbaycanda hər il*
*"Heydər Əliyev İli" sayıla bilər!*

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan olundu.

Hamının ürəyindən olan, xalqımızın yekdil razılığı ilə qarşılanan qərardır.

Növbəti ildə Ulu Öndərimizin anadan olmasının 100 ili tamam olur.

Ümummilli Lider Heydər Əliyevin gördüyü işlər o qədər çox, geniş və əhatəlidir ki, əslində, onları yenidən xatırlamaq, bir daha minnətdarlıqla anmaq üçün bir il ancaq kifayət edər.

Elə burada da qeyd edək ki, gerçək həyatda Heydər Əliyev hər gün xatırlanır, hər gün anılır.

Çünki daim bizimlədir, daim onun yaratdıqlarından bəhrələnir, qurduğu yeni Azərbaycanda yaşayır, müəyyən etdiyi siyasi kursla dönmədən irəliləyirik.

❖❖❖

Azərbaycan tarixində Azərbaycan üçün Heydər Əliyev qədər çoxcəhətli və gərəkli işlər görüb, xalqına xidmət edən ikinci dövlət başçısı olmayıb!

Əlbəttə, ən əvvəl gərək xalqa xidmət etməyi bacarasan, bunun yollarını və imkanlarını müəyyənləşdirərək sonra reallaşdırasan.

Ulu Öndər Heydər Əliyev hansı ictimai-iqtisadi formasiyada yaşamasından, hansı vəzifə tutmasından asılı olmayaraq daim ölkəsi, xalqı üçün, Azərbaycanın indisi və gələcəyi üçün nəsə etməyi bacarıb və edib!

Sovet Azərbaycanı kommunizm ideologiyasına xidmət edən dövlət idi.

SSRİ adlı nəhəng dövlətin tərkibində fəaliyyət göstərən on beş müttəfiq respublikadan biri sayılırdı.

Belə bir quruluşda hər şey mərkəzdən - Moskvadan idarə olunurdu.

Həm də təkcə idarə olunmurdu, bütün "kiçik qardaş"ların qazandıqlarının sahibi "mərkəz" idi.

Hər şey mərkəzin istəyi və iradəsi ilə "ümumittifaq fondu" adlanan bir quruma toplanır, sonra isə onun tərəfindən bölünürdü.

Müttəfiq respublikaların heç biri öz ərazisində özünə bir zavod, fabrik belə tikə bilməzdi.

Bundan ötrü xüsusi qərarla "ümumittifaq fondu"ndan vəsait ayrılmalı idi.

Həmin vəsaitin ayrılması üçün isə əvvəlcədən Sov.İKP MK-nın qərarının olması vacib şərt sayılırdı.

Sadə şəkildə desək, hamı qazanıb Moskvaya göndərirdi, onlar isə kimə nə qədər istəsələr, ayırırdılar.

❖❖❖

Sovet dövründə "plan" adlı hökmlü tapşırıq da mövcud idi.

Hər bir müttəfiq respublikaya nədən nə qədər - istər sənaye, istər kənd təsərrüfatı məhsulu olsun - istehsal edib mərkəzi fonda təhvil verməsi vacib sayılırdı.

Planı ödəməyənlər cəzalandırılır, ona ayırmalar azaldılır, respublika maddi və mənəvi cəhətdən ziyan çəkirdi.

Heydər Əliyev böyük enerji, təcrübə, bilik sahibi olmaqla bərabər, həm də mahir təşkilatçı idi.

İnsanları qısa müddətdə səfərbərliyə almağı, qüvvələri qarşıdakı vəzifələrin uğurlu həllinə yönəltməyi məharətlə bacarırdı.

Azərbaycana ilk rəhbərliyi dövründə bunu dönə-dönə sübuta yetirdi.

❖❖❖

Heydər Əliyev 1969-cu ildə ölkəyə rəhbər seçiləndə Azərbaycan geridə qalmış, kənd təsərrüfatı və sənayesi bərbad vəziyyətə düşmüş, mədəni və dolanışıq səviyyəsi digər müttəfiq respublikalardan aşağı olan ölkə idi.

Belədə ittifaqdan aldığı cüzi vəsait onun yüksəlməsinə və xalqın maddi vəziyyətinin yaxşılaşmasına kifayət etmirdi.

Heydər Əliyev qısa müddətdə neft sənayesini qaldırdı, Azərbaycanda yeni sənaye sahələri yaratdı, kənd təsərrüfatını sürətli inkişaf yoluna çıxardı.

Şəxsi nüfuzundan da istifadə etməklə, mərkəzin hesabına ölkədə yeni fabrik və zavodların açılmasına, qabaqcıl istehsalat sahələrinin yaradılmasına, kənd təsərrüfatının texnika və elmi yeniliklərin nailiyyətləri ilə təminatına nail olurdu.

Ulu Öndərin Azərbaycana birinci rəhbərliyi dövründə Azərbaycan sürətlə inkişaf etdi, əhalinin sosial vəziyyəti əsaslı şəkildə yüksəldi.

Bakıda xeyli sayda yeni sənaye sahələri yaradıldı, yeni mikrorayonlar salındı, insanlar təzə mənzillərə köçürüldü, yüksəkmaaşlı iş yerləri açıldı, yeni ali və orta ixtisas təhsili müəssisələri öz qapılarını gənclərin üzünə açdı, mədəniyyət, səhiyyə ocaqları, idman qurğuları tikildi.

Azərbaycan gənci dövlət hesabına SSRİ-nin digər şəhərlərindəki tanınmış ali məktəblərə daxil olaraq nadir ixtisaslara yiyələndilər. Onların bir çoxu müstəqil Azərbaycana da xidmət etdi.

Azərbaycan kəndi öz simasını büsbütün dəyişdi. Kənd əkinçisi bol məhsul istehsal edərək yaxşı qazanc götürdü, özünə yüksək güzəran qurdu. Köhnə daxmalardan, çiy kərpiclə tikilmiş komalardan ikimərtəbəli daş evlərə köçdü, evində müasir məişət əşyaları, qapısında təzə minik maşınları göründü. Fəhlə də, kəndli də övladlarına təhsil verərək ev-eşik sahibi etdilər.

Azərbaycan qabaqcıl respublika kimi ittifaq miqyasında tanınaraq hörmət sahibinə çevrildi.

❖❖❖

Ulu Öndər Heydər Əliyev qurulu, inkişaf etmiş Azərbaycanı qoyaraq dəvət olunduğu mərkəzə, SSRİ-nin rəhbərlərindən biri kimi Moskvaya işləməyə getdi.

Təəssüf ki, bu müvəqqəti ayrılıq ölkəyə də, onun hər bir vətəndaşına da baha başa gəldi.

M.Qorbaçovun baş rolda oynadığı "yenidənqurma" oyunu Azərbaycana uğursuzluqlar gətirdi.

Mərkəzdən, Qorbaçovun özündən və arvadından dəstək alan ermənilər separatçılıq yolunu tutdular, Azərbaycanla silah gücü ilə danışmağa başladılar.

Vaxtında ordunun qurulmaması, torpaqların müdafiəsinin təşkil edilməməsi faciə ilə nəticələndi.

Azərbaycan 20 min övladını şəhid versə də, 20 faiz ərazisi işğala məruz qaldı.

Xalq fəlakətli günlərə düşərək qaçqın və məcburi köçkünə çevrildi, arxasız və sahibsiz qaldı.

❖❖❖

Son anda müdrik xalqımız ən düzgün qərarını qəbul edərək sınanmış oğlunu, böyük siyasətdən bədxahları tərəfindən uzaqlaşdırılmış Heydər Əliyevi yenidən ölkə rəhbərliyinə dəvət etdi.

Ordusuz, silahsız geriyə qayıdan Ulu Öndər xalqı fəlakətdən qurtarmaq, kövrək müstəqilliyi məhvolmadan xilas etmək üçün gecə-gündüz çalışdı, uzaqgörən siyasəti, müdrik addımları və yorulmaz fəaliyyəti ilə ölkəni məhvolmadan xilas etdi:

* Azərbaycanı özbaşınalıqdan, xaos və anarxiyadan, xəyanətkarlardan qorudu, möhkəm və dönməz sahiblik yaratdı.

* İki dövlət çevrilişinə cəhdin qarşısını qətiyyətlə, xalqın etimad və dəstəyinə arxalanaraq aldı.

* Milli maraqların təminini əsas tutmaqla "Əsrin müqaviləsi" neft kontraktının imzalanmasına, Azərbaycanla dünyanın aparıcı dövlətlərinin maraqlarının uzlaşdırılmasına nail oldu.

* Ordu quruculuğu prosesinin əsasını qoydu, Horadiz əməliyyatı keçirərək 20-dən çox yaşayış məntəqəsini geri qaytarmaqla, erməniləri atəşkəs barədə sazişi imzalamağa vadar etdi.

* Ən əsası, layiqli siyasi varis yetişdirdi, müstəqil Azərbaycanın gələcək inkişaf konturlarını cızmaqla uğur və qələbələrə çatdıran yeni, müasir inkişaf istiqamətlərini müəyyənləşdirdi.

*Azərbaycan xalqına son vəsiyyətini edərək sevdiyi xalqından cismən ayrıldı.

❖❖❖

Xalq sevimli rəhbərinin vəsiyyətinə hörmət və ehtiramla əməl etdi.

Onun göstərdiyi yoldan heç zaman kənara çıxmadı.

Çünki yalnız bu yol onu həqiqi istəklərinə, xoşbəxtliyə və səadətə qovuşdurur.

Çünki bu yol ona rifah və rahatlıq gətirir.

Çünki bu yol müstəqilliyi möhkəmləndirir, dövlətin gücünü və qüdrətini artırır, dünyada nüfuz sahibinə çevirir.

Əslində, xalq, onun hər bir üzvü hər gün, hər zaman sevimli rəhbərini yanında hiss edir.

Çünki bu gün də qazanılan hər bir qələbədə, hər bir uğurda Ulu Öndərimizin əməllərini görür, yaratdığı təməldən bəhrələnirik.

❖❖❖

2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi hər birimizin ürəyindəndir.

Hər bir azərbaycanlı möhtərəm Prezident İlham Əliyevin bununla bağlı verdiyi sərəncamı razılıqla qarşılayıb.

Əslində, Azərbaycanda hər il "Heydər Əliyev İli" sayıla bilər!

Çünki hər il Heydər Əliyevin memarı və qurucusu olduğu müasir Azərbaycan daha da inkişaf edərək irəliyə doğru yeni bir addım atır!

Çünki Azərbaycan dönmədən Heydər Əliyev siyasi kursu ilə irəliləyərək yeni qələbələrə nail olur!

Çünki hər il Heydər Əliyevin arzu və tövsiyələrinin həyata keçirilməsi sayəsində Azərbaycan iqtisadi və hərbi qüdrətini artırır, siyasi nüfuzunu yüksəldir, Azərbaycan xalqının sosial rifahı və həyat səviyyəsi daha da yüksəlir.

Budur, Ulu Öndərimizin ən müqəddəs vəsiyyətlərindən biri şərəflə yerinə yetirilərək, 44 günlük Vətən müharibəsi sayəsində işğal altındakı torpaqlarımız azad olundu!

İndi növbədə Böyük qayıdış və Qarabağın cənnətə çevrilməsidir!

İnanırıq ki, Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı cənab İlham Əliyev bu vədəni də layiqincə yerinə yetirəcək, müstəqil və qüdrətli Azərbaycanı Heydər Əliyevin arzu etdiyi yüksəkliyə ucaldacaqdır.

2023-cü ildə isə hər birimiz Azərbaycanın çiçəklənməsi naminə var gücümüz ilə çalışacağıq!

Ulu Öndəri hər gün, hər saat minnətdarlıqla xatırlayaraq, övlad borcunu şərəflə yerinə yetirəcəkdir!

2023-cü ilin mübarək, Azərbaycan!

"Heydər Əliyev İli"n mübarək, Azərbaycan!

***11 dekabr 2022-ci il***

## Sülhməkrlilərə sülhsevərlərin dərsi

*34 il əvvəl Topxana harayı ilə başlanan xalq hərəkatı iki müharibədən keçdikdən sonra bu gün Laçın yolunda yeni vüsətlə davam edir*

Deyir ayının yüz oyunu var, o da bir armudun başında.

(Əlbəttə, bütün növ ayılar nəzərdə tutulur.)

Əsrlərdir ki, Qarabağı nifaq almasına çeviriblər!

Buraya köçürülən hayların, alət millət sayılan ermənilərin əli ilə!

Əsrlərdir ki, Qarabağda insanların dinc şəraitdə rahat yaşamalarına imkan vermirlər!

Çünki Qarabağı, üstəlik, Şərqi Zəngəzuru zorla Azərbaycandan alıb Ermənistana vermək istəyirlər.

Hətta bizim ərazilər hesabına Ermənistan dövləti də yaratdılar.

Sonrakı mərhələdə yenə Azərbaycandan hissə-hissə torpaq qopartmaqla Ermənistanı böyütməyə can atdılar.

Beyni "Böyük Ermənistan" mifologiyası ilə zəhərlənmiş ermənilər bununla kifayətlənmirlər, bütün qonşularına torpaq iddiaları irəli sürürlər.

Necə deyərlər, iştah diş altında olur!

Amma 2020-ci ildə 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyev ermənilərin XX əsrdə rəzil və şərəfsiz yollarla qazandıqlarını burunlarından tökdü!

Əgər RSK (Rusiya sülhməramlı kontingenti) araya girməsəydi, indi vəziyyət tam başqa cür olardı.

Bəli, ermənilər aşkar və "gizli" dostlarının köməyi ilə Qarabağı ələ keçirərək düz otuz il çapıb-taladılar!

O qədər qudurdular ki, nə BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə məhəl qoydular, nə ATƏT-in Minsk qrupunu adam yerinə saydılar, nə də sülh yolu ilə bircə qarış torpaq qaytardılar!

Hətta cızıqlarından o qədər çıxdılar ki, "Qarabağ Ermənistandır və nöqtə" deyərək məsələnin bitdiyinə işarə vurdular!

"Dəmir yumruq" başlarına dəyənə qədər Allaha bəndəlik etmədilər!

❖❖❖

Rusiya Prezidenti V.Putinin təşəbbüsü və zəmanəti ilə 10 noyabr 2020-ci ildə Ermənistanın kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanat imzalandı.

Sonralar daha üç dəfə üçtərəfli görüş keçirilərək bəyanatın bəndlərinin icrasına və sülh müqaviləsinin hazırlanaraq imzalanmasına sadiqlik təsdiq olundu.

Amma hələ də sülh sazişi imzalanmayıb!

Ermənistan yenə nala-mıxa vurur!

Gah KTMT-dən kömək tələb edir, gah "böyük bacısı" Fransanın yanına qaçır, gah da ABŞ-dən dəstək dilənir.

Görünən isə odur ki, Ermənistana ümid verirlər...

Təkcə ümid vermirlər, həm də silahlandırırlar və yenidən xam xəyallara düşməsinə şərait yaratmaq istəyirlər.

Hazırda Qarabağda müvəqqəti yerləşən RSK xalqları bir-birinə yaxınlaşdırmaqla deyil, sülhməkrliliklə məşğul olur:

* Hələ də Qarabağdakı qanunsuz erməni silahlı qüvvələri çıxarılmayıb!

* Hələ də RSK-nın arxasından Azərbaycan ərazilərinə güllə atılır və hər gün atəşkəs pozulur!

* Hələ də Laçın dəhlizindən Azərbaycan ərazisinə qanunsuz silah-sursat, hərbi texnika daşınır!

* Hələ də Fransadan, Rusiyadan kim istəsə, sərbəst şəkildə Xankəndiyə gəlib pozuculuq işləri aparır!

* Hələ də İran casusları və hərbçiləri bu yolla Azərbaycana gəlib gizli işlər görürlər!

Üstəlik, Qarabağdakı qızıl, mis və molibden yataqlarımız talan edilir və çıxarılan məhsullar Laçın yolu ilə Ermənistana daşınır...

Sülhməkrlilərin havadarlığı ilə Xankəndidə köhnə qazan qaynadılır...

Ötən əsrin 90-cı illərinin ssenarisi yenidən işə salınıb...

❖❖❖

Biz bu yolu bir dəfə keçmişik...

Onun əzab, əziyyət və faciələrini kifayət qədər çəkmişik!

M.Qorbaçovun razılığı ilə 1988-ci ildən başlanan "miatsum" hərəkatına Moskva rəhbərlik edirdi.

Yerli ermənilər bölgənin "iqtisadi cəhətdən zəif inkişafından" narazılıqlarını bildirirdilər.

Sonra mərkəz işi "asanlaşdırmaq" üçün Xüsusi İdarəetmə Komitəsi yaradaraq Qarabağı Azərbaycanın tabeliyindən çıxardı.

Moskvadan quruma rəhbər kimi göndərilən A.Volski Qarabağın Azərbaycandan qoparılması üçün mümkün olan hər şeyi edirdi.

"Moskvanın adamı" sayıldığından heç kəs ona söz deyə bilmirdi.

Bütün günü donuz əti yeyib, tut arağı vurmaqla erməni maraqlarını təmin edirdi.

❖❖❖

366-cı sovet-rus alayı Xocalı soyqırımını törədərək işğalın dəstəkçisi oldu.

İndi isə Moskva Xankəndiyə Vardanyanı göndərib!

Nə Ermənistan, nə də Azərbaycan vətəndaşlığı olmayan rusiyalı erməni milyarder Xankəndiyə gəlib!

Nəyə?

Pul qazanmağa?

Xankəndidə pul var ki, onu da qazana?

Bəlkə, pul xərcləməyə gəlib?

Məsələn, elə sülhməkrlilərin ehtiyaclarının ödənilməsinə...

Çünki RSK elə günə düşüb ki, onun əsgərləri erməni sahibkarın taxtasını maşından boşaltmaqla qəpik-quruş qazanırlar...

Amma Vardanyan "dövlət naziri" olub Azərbaycan əleyhinə açıqlamalar verəndən, müəyyən separatçı, antisülh addımlar atandan sonra məramı tam dəqiqləşdi.

Vardanyan Volskinin işini davam etdirməyə gəlib!

Doğrudur, onun sərəncamında 366-cı alay yoxdur!

Amma görünən odur ki, RSK rusiyalı erməni milyarderin dediyini edir.

Lap sonuncu hadisələrdə olduğu kimi!

❖❖❖

Ekologiyanın pozulması, faydalı qazıntı yataqlarının talan edilib daşınması ilə bağlı faktlar aşkarlandıqdan sonra mütəxəssislər, həmçinin bir qrup Azərbaycan jurnalisti və QHT təmsilçiləri Xankəndiyə gedərək general Volkovla görüşdülər və həmin mədənlərə baxış keçirmək üçün növbəti günə razılaşdılar.

Lakin Azərbaycan hakimiyyətinin nümayəndələri mədənlərə buraxılmadılar!

Azərbaycan jurnalistlərinə peşə vəzifələrinin icrasına imkan vermədilər!

Azərbaycan QHT təmsilçilərinin monitorinqinə şərait yaratmadılar!

Səbəb...

Yerli "sakinlər" mitinq keçirərək mədənlərə girişi bağlamışdılar.

RSK isə onları kənarlaşdırıb, Azərbaycanın dövlət nümayəndələrinin və vətəndaş cəmiyyəti üzvlərinin işləməsinə şərait yarada "bilmirdi"!

İnandınız?

Azərbaycana sülh yaratmağa, qarşıdurmanı aradan qaldırmağa, ermənilərlə azərbaycanlıları barışdırmağa gələn RSK "dinc" əhalinin öhdəsindən "gələ bilmirdi"!

Çünki "mitinqçilərə" Vardanyan rəhbərlik edirdi.

Çünki "müdafiəçiləri" mülki paltar geyinmiş qanunsuz erməni silahlı qüvvələrinin nümayəndələri ruhlandırırdı!

Çünki Volkov onların qarşısında gözükölgəli idi və xətirlərinə dəymək istəmirdi!

Beləliklə, general Volkov verdiyi sözün arxasından qaçdı!

Beləliklə, RSK Azərbaycandan gələn rəsmi və qeyri-rəsmi nümayəndələrin öz torpaqlarında işləməsinə şərait yaratmadı!

Sonrası isə növbəti gün davam etdi!

❖❖❖

General Volkov azərbaycanlı mütəxəssislərin, jurnalist və QHT təmsilçilərinin üzünə çıxa bilmədi!

Ermənilər qarşısındakı gözükölgəliyi onu azərbaycanlılar qarşısında diligödək etmişdi!

Bizimkilər ha çağırsalar da, ha səsləsələr də faydası olmadı!

General gizləndiyi yerdən çıxmadı!

❖❖❖

Belədə azərbaycanlı sülhsevərlər rus sülhməkrlilərinə dərs keçməyə başladılar!

General Volkovla görüş yerini tərk etmədilər!

Dinc nümayiş yolu ilə istək və tələblərini çatdırmaqda, monitorinq aparmaqda israrlı olduqlarını təkidlə bildirdilər.

Nəticədə Laçın-Xankəndi yolu bağlandı.

❖❖❖

Düz 30 ildən sonra ilk dəfə idi ki, bu yola Azərbaycan vətəndaşları sərbəst şəkildə ayaq basdılar.

Məsələnin uzandığını görüb özlərinə çadır qurdular!

30 ildən sonra bu yolun üzərində Azərbaycan bayrağı dalğalandı!

Azərbaycanın oğul və qızları bu yerlərin həqiqi sahibləri olduqlarını əyani şəkildə nümayiş etdirdilər!

❖❖❖

Azərbaycanda kifayət qədər vətənpərvər jurnalist var!

Azərbaycanda kifayət qədər vətənpərvər QHT təmsilçisi var!

Azərbaycanda kifayət qədər əliavtomatlıdan qorxmayaraq, dinc yolla mübarizə aparmaqla düşmənə qalib gəlməyi bacaran mərd və igid oğullar, qadınlar var!

Onlar gecə sübhədək qardan, şaxtadan qorxmayaraq durduqları yeri tərk etmədilər!

Sonadək, istəklərinə çatanadək mübarizələrini dinc vasitələrlə davam etdirəcəklərini söyləyirlər!

Eşq olsun xalqın vətənpərvər övladlarına!

❖❖❖

34 il əvvəl Topxana harayı ilə başlanan xalq hərəkatı iki müharibədən keçdikdən sonra bu gün Laçın yolunda yeni vüsətlə davam edir!

O dövrdə başlanan xalq hərəkatı məqsədinə çata bilmədi!

Nə Topxana meşəsini qırılmaqdan qorudu, nə də Qarabağı əldə saxlaya bildi.

Üstəlik, I Qarabağ müharibəsində də uduzduq!

Xalqı qınamaq da mümkün deyil!

ÇÜNKİ:

* O dövrdə Azərbaycan Moskvadan asılı idi.

* Azərbaycana "muştuluğumu verin, ermənilər geri qayıtdı" deyərək sevinən Ə.Vəzirov başçılıq edirdi!

* Azərbaycana "SSRİ-nin saxlanılmasına" xidmət edən və referendum keçirən A.Mütəllibov prezidentlik edirdi!

* Xalqın həqiqi rəhbəri, inandığı və güvəndiyi lideri yox idi.

* Ordu yaradılmamışdı, silah-sursatsız qalmışdıq.

* Bizə rəhbərlik edənlər siyasətdən baş çıxarmayanlar, şəxsi maraqlarını güdənlər idi.

* Əsl dostumuz yanımızda deyildi, "din qardaşımız" isə aşkar-gizli formada düşmənə kömək edirdi.

Odur ki, xalq 20 min övladını şəhid versə də, torpağını qoruya bilmədi.

İndi isə vəziyyət bambaşqadır!

Azərbaycan müstəqil, güclü dövlətdir!

Azərbaycana 44 günlük Vətən müharibəsində möhtəşəm qələbə qazandıran, 28 illik işğaldan sonra torpaqları azad edən Müzəffər Ali Baş Komandan İlham Əliyev rəhbərlik edir!

Demək, azərbaycanlı sülhsevərlər bu dəfə də rus və erməni sülhməkrlilərinə əsl dərs verəcəklər!

***14 dekabr 2022-ci il***

# Yeni büsatın mübarək, torpağım!

Sənə qovuşmağın həsrətini o qədər çəkmişik ki...

Düşmən tapdağı altında qalmağının əzab-əziyyətini o qədər yaşamışıq ki...

Sənin azad olunduğun günü görə bilməmək fikrinin dəhşəti ürəyimizi o qədər sıxıb parçalayıb ki...

Hərdən ümidimiz azalıb lap bir damcı qalsa da, heç zaman tükənməyib!

Dövlətimizə, onun qüdrətinə inanmışıq!

Ordumuza, onun gücünə arxalanmışıq!

Baş sərkərdəmizə, onun müdrikliyinə, uzaqgörənliyinə, sözünün sahibi olmasına güvənmişik, tapınmışıq!

Tanrıdan da heç zaman əlimizi üzməmişik, həmişə dua edib yalvarmışıq!

❖❖❖

Təsəllimiz həm də xalqımızın uzun əsrlərin sınağından çıxmış müdrik deyimləri olub:

BAYRAQLARI BAYRAQ EDƏN, ÜSTÜNDƏKİ QANDIR,

TORPAQ, UĞRUNDA ÖLƏN VARSA, VƏTƏNDİR!

Birinci Qarabağ müharibəsində torpaq uğrunda döyüşlərdə 20 min şəhid verdik.

Lakin rəhbərsiz, sərkərdəsiz, arxasız-köməksiz qaldığımızdan torpaqlar əldən çıxdı.

Respublikanın ozamankı birinci şəxsləri - maymaqlar, qorxaqlar bizə başçılıq edə bilmədilər.

Naşılar və səriştəsizlər torpaqdan, xalqdan çox özlərini düşündülər.

Üzümüzə gülərək bizə "dost" deyənlər arxada ayağımızın altında quyu qazdılar.

Üstəlik, erməniyə həqiqi dost olub, əllərindən gələn köməyi onlardan əsirgəmədilər.

❖❖❖

TORPAQ SU İLƏ QARIŞANDA PALÇIQ, QANLA YOĞRULANDA İSƏ VƏTƏN OLUR!

Yolunda qan axıtdığımız torpağa illərlə uzaqdan baxdıq.

Yana-yana, qovrula-qovrula baxdıq.

Nə əlimiz çatdı, nə gücümüz, nə də silah-sursatımız.

Əmanət qəbirlərdə yatdıq ki, bəlkə, ölümdən sonra da olsa, sənə qovuşaq.

Nə yaxşı Tanrı bizə rəhm elədi.
Nə yaxşı Tanrı bizi əsl rəhbərimizə, xilaskarımıza qovuşdurdu!
Ulu Öndərimiz özü ilə bizə yeni inam, güc, birlik, mübarizə əzmi gətirdi!
Doğma torpaqlara qayıdaraq Vətənə sahib çıxmağın yollarını göstərdi!
Bizi qayıdışa, qələbəyə köklədi!

❖❖❖

VERMƏ, DÜNYALARI ALSAN DA, BU CƏNNƏT VƏTƏNİ!

Dünyanın ən "güclü" qurumu sayılan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi 30 il havada qalaraq gərəksiz kağız parçasına çevrildi.

Beynəlxalq təşkilatlar gücsüz və təsirsiz qərarları ilə barsız ağaclara bənzədilər.

Beynəlxalq hüququ nəzərə alan, saya salan olmadı.

ATƏT-in Minsk qrupu saysız-hesabsız və mənasız danışıqları, əhəmiyyətsiz səfərləri, məntiqsiz, qərəzli və birtərəfli təklifləri ilə gülüş hədəfinə çevrildi.

Nə yardan doydular, nə də əldən qoydular.

❖❖❖

Bütün dünyanın, dünyada BMT adlı ən "nəhəng" təşkilatın, beynəlxalq qurumların və hüququn 30 ildə edə bilmədiklərini Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 gündə həyata keçirdi!

Həm də yeni reallıq yaratdı!

"Dəmir yumruğ"u ilə düşmən ordusunu məhv etdi!

Qüdrətli ordusu ilə düşmənin belini qıraraq qarşısında diz çökdürdü!

Hünər və qətiyyəti ilə düşmənə təkcə hərb meydanında deyil, diplomatiya və informasiya cəbhəsində də qalib gəldi!

Ermənistanı kapitulyasiya aktını imzalamağa vadar etdi!

Milyonların arzusunu 44 gündə həyata keçirdi!

İkili standartların bütün hiylə və müqavimətini 44 gündə qırıb parçaladı!

Ermənistanın təkcə özünü deyil, yaxın dostlarını, havadarlarını, müdafiəçilərini, alaq otu kimi bütün dünyanı basmış erməni diasporlarını, dünyanın siyasi fiqurlarının bir qismini pulla ələ alaraq oyuncağa çevirmiş dünya erməniliyini acınacaqlı məğlubiyyətə uğratdı!

* Otuzillik torpaq həsrətinə son qoydu!
* Otuz ilin ayrılığını vüsala çevirdi!
* Otuz ilin düşmən tənəsinə, məğlubların dilqısalığına möhtəşəm qələbə ilə nöqtə qoydu!

Milli qürurumuzu, milli mənliyimizi özümüzə qaytardı!

Ermənilərin "məğlubedilməz millət", "məğlubedilməz ordu" miflərini "dəmir yumruğ"un amansız zərbələri ilə birdəfəlik məhv etdi!

Əvəzində düşmənlərimizin hər birinin alnına "əbədi məğlublar" damğasını vurdu!

İlham Əliyev sözünün sahibi olduğunu bir daha təsdiq etdi!

İlham Əliyev dediyini etdiyini bütün dünyaya əyani şəkildə göstərdi!

İlham Əliyev şəhidlərin müqəddəs qanını yerdə qoymadı, onların qisasını artıqlaması ilə aldı!

Həm də bizim doğma Qarabağa, Şərqi Zəngəzura, Qərbi Azərbaycana gedən yolumuzu açdı!

Açılan yolları, qələbəyə çatdıran cığırları isə magistrallara, hava limanlarına, dəmir yollarına çevirdi!

Bəli, indi hər birimiz istədiyimiz vaxt doğma torpaqlara gedə bilirik!

Böyük qayıdış günbəgün, saatbasaat gerçəkləşir!

❖❖❖

Artıq Qarabağa və Şərqi Zəngəzura köç başlayıb!

Böyük qayıdışın ilk qaranquşları sayılan keçmiş məcburi köçkünlər dağılmış yurdlarında yenidən isti yuva qurmaq üçün geri dönürlər!

Bu günlərdə daha on ailə Ağalıya qayıtdı!

Novruz bayramı ərəfəsində, qaranquşların uçub gəlmələrinə sayılı günlərin qaldığı bir zamanda.

Bəxtəvərcəsinə, sevinə-sevinə geri qayıdırlar.

Geri dönənlər göz yaşlarını saxlaya bilmirlər, əslində, heç gizlətmək də istəmirlər.

Bu günü o qədər arzulamışlar ki...

Doğma el-obadan qaçqın düşəndə də ağlayırdılar.

Acı göz yaşları ilə...

Ev-eşiklərindən zorən ayrıldıqlarına görə...

Haraya gedəcəklərini, nə vaxt qayıda biləcəklərini kəsdirmədən, hər şeylərini Allahın ümidinə qoyub çıxırdılar...

Bir qədər aralanan kimi kəndlərindən qara tüstü ərşə dirənirdi...

Ümidsiz vəziyyətdə ümidsizliyə doğru çaşqınlıqla addımlayırdılar.

Bu gün isə yanaqlarında sevinc göz yaşlarının izi qalsa da, gülə-gülə, fərəhlə, fəxrlə ata-baba yurdlarına qovuşurlar!

Yaxşı bilirlər ki, abad yurda, bərəkətli torpaqlara, hər cür şəraiti olan yaşayış məntəqələrinə birdəfəlik, əbədi dönürlər!

Uzun ayrılıqdan sonra baş tutan bu xoşbəxt günlərin qarantı isə Müzəffər Ali Baş Komandan İlham Əliyevdir!

❖❖❖

İlkin qayıdışın iştirakçıları təkcə rahat evlərə, abad həyət-bacaya qayıtmırlar.

Hər bir yaşayış məntəqəsi "ağıllı kənd" olaraq qurulmuş, şəhər elementləri ilə təmin olunmuş, zəruri infrastruktur yaradılmışdır.

Onları həm də Heydər Əliyev Fondunun gördüyü işlər, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırığı ilə hazırlanmış hədiyyələr də gözləyir.

Özlərini orta əsrlərin barbarları kimi aparan erməni vandalları təkcə evləri, ictimai binaları, meşələri, bağları deyil, tarixi abidələrimizi, məscid və dini memarlıq qurğularını da məhv etmişlər.

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə xalqımızın tarixi-mədəni, dini abidələrinin bərpası istiqamətində möhtəşəm işlər görülür!

Xalqımızın qeyri-maddi-mədəni irs nümunələrindən biri də Mehriban xanım Əliyevanın səmərəli fəaliyyəti sayəsində UNESCO-nun siyahısına salınan Novruz bayramıdır.

Artıq Ağalı neçənci dəfədir ki, baharın gəlişini "köhnə sakinləri" ilə qarşılayır.

Bayram tonqalları qalamaqla, Novruz plovu və yağlı fətir bişirməklə, qədim ənənələrimizə yeni həyat verib yaşatmaqla!

❖❖❖

Abadlıq yoldan başlanır - demişlər.

Qarabağda və Şərqi Zəngəzurda möhtəşəm yol çəkilişi işləri sürətlə davam edir, bütün yaşayış məntəqələrinə müasir yollar salınır.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı" uğurla həyata keçirilir.

Belə ki, 2022-2026-cı illər ərzində ümumi uzunluğu 2.264,5 km təşkil edən 20 avtomobil yolu çəkiləcək.

Kəlbəcərdə beş, Laçında iki yerdə tikilən kiçik su-elektrik stansiyalarında görülən işlər başa çatmaq üzrədir.

Şuşada içməli su probleminin birdəfəlik həlli məqsədilə zəruri işlər görülür, şəbəkə yenidən, daha geniş şəkildə qurulur.

Prezidentin tapşırığına əsasən, Ağdam, Füzuli, Tərtər və Xocavənd rayonlarında pilot layihələr əsasında 15999 fərdi ev və mənzil tikintisi də davam etməkdədir.

Görüləcək işlərin həcmi və miqyası o qədər geniş və əhatəlidir ki, saymaqla qurtarmaz.

Məqsəd isə doğma torpağa əbədi qayıdan insanların rahat yaşayışını, əmək və istirahətini müasir tələblər səviyyəsində qurmaqdır.

❖❖❖

* Otuz ildə ən böyük həsrətimiz işğal altındakı torpaqlarla bağlı olub!
* Otuz ildə ən böyük istəyimiz doğma yurd-yuvaya qayıtmaq olub!
* Otuz ildə əziz bayramlarda ən ülvi duamız "Gələn bayramı Qarabağda keçirək" niyyəti olub!
* Otuz ildə ən səmimi arzumuz "növbəti süfrəmizi Qarabağda açaq" olub!
* Onların hamısı arzu, istək, niyyət və dua idi!

Onları reallığa çevirən, arzu, istək və niyyətimizi gerçək edən isə Müzəffər Ali Baş Komandan İlham Əliyev oldu!

Eşq olsun Qarabağın xilaskarına!

Eşq olsun Azərbaycan tarixinin ən böyük simasına çevrilən Müzəffər Ali Baş Komandanımıza!

Məhz onun müdrikliyi, uzaqgörənliyi, qətiyyət və qəhrəmanlığı sayəsində bu gün biz hamımız vüqarla, fəxrlə, ürəkdolusu və ucadan "Qarabağ Azərbaycandır!" deyirik.

Çox yaşa, İlham Əliyev!

***14 mart 2023-cü il***

## Prezident göstəriş verir...

### *Zamanı qabaqlayan addımların, layihələrin, hadisələrin başlanğıc anı*

Prezident göstəriş verdi - tez-tez eşitdiyimiz ifadədir!

Həm də hamımız yaxşı bilirik ki:

Bu, adi göstəriş deyil, ali göstəriş sayılır!

Bu göstəriş böyük dövlətin mürəkkəb icra mexanizminin hansısa bir qovşağının işə salınması deməkdir!

Belə ki, ali göstəriş gələn kimi icra sistemi işə düşərək tapşırığı yerinə yetirməyə başlayır.

Adətən, Prezident öz göstərişi ilə hansısa vaxtı çatmış məsələnin həllinə yaşıl işıq yandırır.

Beləliklə, gecikmələrə yol verilmədən hər iş vədəsində görülərək başa çatır, dalaqalma və ləngimə halları baş vermir.

Ötən dövrdə görülən işlər və icra olunan layihələr göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyevin göstərişləri həm də zamanı və hadisələri qabaqlama xarakteri daşıyır!

Bu göstəriş reallaşma mərhələsinə çatanda fərmana, sərəncama, bəzən hətta əmrə də çevrilə bilir.

Artıq sirr deyil ki, heç kimin bilmədiyi, proqnoz etmədiyi, hətta ağlına belə gətirmədiyi məsələlərdə İlham Əliyev hamını önləməyi bacarır.

Həm də artıq bu qabaqlamalar onun dəyişməz iş üslubuna çevrilib!

Bunu cənab İlham Əliyev prezidentliyinin iyirmi ili ərzində dəfələrlə sübuta yetirib!

❖❖❖

Qeyd olunduğu kimi, adətən, nəhəng layihələrin icrasına Prezidentin göstərişi ilə başlanılır.

Tapşırıq əsasında işçi qrupu yaradılır, məsələ araşdırılır, öyrənilir, zəruri tədqiqatlar aparılır, müəyyən təkliflər söylənilir.

Növbəti mərhələdə ehtiyac duyularsa, layihənin geoloji əsasları, maliyyə mənbəyi, texniki parametrləri müəyyənləşdirilir.

Sonra müvafiq qərar layihəsi hazırlanır.

Göstərişdən başlayaraq fərman və ya sərəncamla başa çatan ideya gerçəkləşmə mərhələsinə qədəm qoyur.

Beləliklə, çox mühüm bir layihənin, xalqımızın və dövlətimizin maraqlarına xidmət edən, gücümüzü artıraraq rifahımızı yüksəldəcək ideyanın real işə çevrilməsinə başlanır.

❖❖❖

Yalnız uzun müddət keçdikdən, layihələr işə düşdükdən sonra biz onların (həm də təkcə biz yox) dövlət başçısının uzaqgörənliyinin, siyasi fəhminin nəticəsi olduğuna inanır və sevinərək alqışlayırıq.

Bəlkə də, bu hal bir dəfə baş versəydi, onu haradasa təsadüf saymaq olardı...

Ancaq Azərbaycanın reallaşdırdığı bütün meqalayihələr elə bir zamanda işə düşür ki, məhz həmin dövrdə bütün dünyanın ona ciddi ehtiyac duyduğunu görürük.

❖❖❖

Bu tip layihələr üçün daha bir xarakterik məqam var:

Adətən, dünya onları vədəsində və lazımınca qavramadığından, ya da Azərbaycanın etməli olduğunu istəmədiyindən kömək göstərməkdən, maliyyə yardımı ayırmaqdan imtina edir.

Məsələn, böyük güclər Ulu Öndər Heydər Əliyevin "Əsrin müqaviləsi" əsasında hasil olunan neftin qeyri-ənənəvi marşrutla dünya bazarına çıxarılmasına mane olmaq istəyirdilər.

Heydər Əliyev inadından dönmədi, illərlə yorulmadan mübarizə apardı!

Nəhayət, istəyinə nail oldu!

Artıq otuz ildir ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri Azərbaycana və bütün dünyaya xeyir verir!

❖❖❖

Bakı-Tbilisi-Qars transmilli layihəsi də eyni aqibət yaşadı.

Dəmir yolu xətti Ermənistan ərazisindən keçmir deyə ona müqavimət göstərildi, tanınmış dünya bankları maliyyə ayırmaqdan boyun qaçırdı.

Prezident İlham Əliyev də dediyinin üstündə möhkəm dayandı!

Bu layihəni Azərbaycanın daxili imkanları hesabına, öz gücü ilə həyata keçirdi!

Həm də təkcə dəmir yolu xəttini çəkmədi...

Bakı Dəniz Limanını yaratdı!

"Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizlərini işə saldı!

İki yüzdən çox yükdaşıma gəmisi inşa etdirərək Azərbaycanı Xəzər dənizində ən böyük mülki donanma sahibi etdi.

Okeanlara heç bir çıxışı olmayan Azərbaycanı logistika mərkəzinə çevirdi!

❖❖❖

Prezident İlham Əliyev bütün bu işləri görəndə Rusiya-Ukrayna müharibəsi başlamamışdı.

Kimsə yeni dünya düzəninin formalaşmasına aparacaq hadisələrin proqnozunu ağlına belə gətirmirdi!

Amma cənab İlham Əliyev vaxtında, hətta deyərdik ki, zamanı qabaqlamaqla bütün bu işləri inadla, qətiyyətlə gördü!

Uzun illər ərzində müasir daşımalar və logistik infrastrukturunun yaradılmasına yatırımlar etdi.

Bu gün isə Mərkəzi Asiyadan daşınan yüklərin Azərbaycan üzərindən Avropaya yönləndirilməsi az qala zərurətə çevrilib.

❖❖❖

Cənab İlham Əliyev Azərbaycan Prezidenti seçiləndə ölkə bir sıra problemlərlə üz-üzə idi.

Regionlara elektrik enerjisi böyük fasilələrlə verildiyindən məişətdə yaranan çətinliklərdən əlavə, kənd təsərrüfatında, xüsusən yay aylarında suvarmada gərginliklər yaşanır, bu hesabla xeyli məhsul itirilirdi.

Qaçqın və məcburi köçkünlər çadır düşərgələrində çox ağır şəraitdə yaşayır, işsizlikdən, yayda istidən, qışda soyuqdan əziyyət çəkirdilər.

Ölkəyə Rusiyadan qaz idxal olunur, bəzən isə siyasi təzyiq kimi mavi yanacağın qiymətinin artırılması ilə bağlı təhdidlər baş verirdi.

Sahibkarlığın inkişafı, ölkəyə investisiya cəlbi ilə bağlı müəyyən çətinliklər də vardı.

Bir neçə problemi eyni vaxtda həll etmək tələb olunurdu.

Odur ki, düzgün qərarlar qəbul etmək, perspektivli layihələrə üstünlük vermək, davamlı və sürətli iqtisadi inkişafa nail olmaq son dərəcə vacib idi.

Prezident seçkiləri dövründə cənab İlham Əliyev bir nəfər məcburi köçkünün belə çadır şəhərciyində qalmayacağını, habelə günün bütün saatlarında Azərbaycanın bütün yaşayış məntəqələrinə elektrik enerjisinin veriləcəyini vəd etmişdi.

Məsələ son dərəcə çətin olsa da, İlham Əliyev qərarlarında israrlı idi.

Prezidentin tapşırığına əsasən, regionların sosial-iqtisadi inkişafına dair ilk dövlət proqramı hazırlanaraq icrasına başlanıldı (Bütövlükdə bu sahədə dörd dövlət proqramı hazırlanaraq əlavələrilə birlikdə həyata keçirilmişdir).

İlham Əliyevin daha bir mühüm göstərişi Azərbaycanın enerji təhlükəsizliyi ilə bağlı oldu.

Sahənin vəziyyəti dərindən araşdırılaraq təhlil olundu, görüləcək tədbirlər müəyyənləşdirildi, dərhal işə başlanıldı.

Bakı şəhərindən başlanan proses bütün bölgələri əhatə etdi:

* Bir qisim elektrik stansiyalarında əsaslı təmir və yenilənmə aparıldı;

* Texnoloji cəhətdən köhnə avadanlıqlarla işləyən stansiyalarda modernləşdirmə yolu ilə müasir qurğular quraşdırıldı;

* Köhnə elektrik stansiyalarında əsaslı yenidənqurma hesabına istehsal gücü qat-qat artırıldı;

* Elektrik enerjisi istehsal edən yeni qurğuların inşasına start verildi.

Növbəti mərhələdə isə daha gərəkli və uzaqgörən addımlar atıldı.

❖❖❖

Bir vacib məqamı da xüsusi vurğulamaq istəyirik:

İşğal altındakı torpaqlar azad edildikdən dərhal sonra Qarabağ və Şərqi Zəngəzur bölgəsindəki dağ çaylarının yaratdığı imkanlardan səmərəli istifadəyə start verildi.

Yenə də Prezidentin göstərişi ilə ərazidəki çayların qarşısı kəsilərək süni göllər yaradıldı, düşmənin dağıdıb getdiyi qurğular işlək vəziyyətə gətirildi.

Beləliklə, həm ərazidə süni göllər hesabına su ehtiyatları toplanaraq kənd təsərrüfatının sürətli inkişafına şərait yaradıldı, həm də bərpaolunan enerji istehsalı sürətlə artırıldı.

Bu gün Avropa təbii qazla yanaşı, "yaşıl enerji"yə də ciddi ehtiyac duyur.

Prezident İlham Əliyevin müdrik uzaqgörənliyi sayəsində Azərbaycan bu ehtiyacın da ödənilməsində mühüm və səmərəli rol oynayır.

Qeyd edək ki, Azərbaycan çox böyük "yaşıl enerji" potensialına malikdir.

Bu, artıq təsdiq olunmuş faktdır.

Yalnız Xəzər dənizində külək enerjisinin potensialı 157 qiqavatdır, quruda külək və günəş enerjisinin potensialı 27 qiqavatdır.

Qarabağ və Şərqi Zəngəzurda potensial 10 qiqavata yaxındır.

Həmçinin Naxçıvan Muxtar Respublikasında böyük bərpaolunan enerji potensialı müəyyən edilib.

2022-ci ilin yanvar ayında Səudiyyə Ərəbistanını təmsil edən "ACWA Power" şirkətinin inşa etdiyi 240 meqavat gücündə külək-elektrik stansiyasının, mart ayında isə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən tikilən 230 MVt gücündə Qaradağ Günəş-Elektrik Stansiyasının təməlləri qoyulub.

Hazırda 500 meqavatlıq günəş-elektrik stansiyasının tikintisinin mümkünlüyü ilə bağlı danışıqlar aparılır.

Azərbaycan strateji investorların biri ilə 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisini istehsal etməyi planlaşdırır. Onların 80 faizi ixrac olunacaq. Azərbaycan 2037-ci ilə qədər ən azı 6 qiqavatlıq əlavə gücləri yaratmağı planlaşdırır.

2022-ci ildə Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya hökumətləri arasında "yaşıl enerji" sahəsində strateji tərəfdaşlıq haqqında saziş imzalanıb.

Bu sənəd ötən il dekabrın 17-də Prezident İlham Əliyevin Buxarestə səfəri zamanı imzalanıb və bunun sayəsində Qara dənizin dibi ilə elektrik kabeli çəkiləcək.

Bununla Azərbaycandan Şərqi və Mərkəzi Avropaya "yaşıl enerji" ixrac ediləcək.

Onu da qeyd edək ki, artıq 4 kiçik su-elektrik stansiyası, 9 yarımstansiya, 1 rəqəmsal idarəetmə mərkəzi istismara verilib.

5 kiçik su-elektrik stansiyası və 2 yarımstansiyada işlər yekunlaşıb. 7 su-elektrik stansiyası və 1 yarımstansiyada isə işlər davam edir.

Müstəqillik dövründə Azərbaycan artıq mavi yanacaq ixracatçısı kimi də tanındı.

Daha dəqiq desək, ölkəmiz qaz idxalçısından qaz ixracatçısına çevrildi!

Tezliklə "yaşıl enerji" ixracına da başlanacaqdır.

❖❖❖

Prezident İlham Əliyev həm də yüksək zövq sahibidir.

Biz Bakının yenidən tikilib-qurulması zamanı bir daha bunun şahidi olduq.

Bakı qədim, özünəməxsus ənənələri olan şəhərdir.

Həm də dəniz kənarında yerləşir, "amfiteatr" xüsusiyyətlərinə malikdir.

Şəhərsalmada bu və digər məsələlər hökmən diqqətdə saxlanılır.

Cənab İlham Əliyevin göstərişləri əsasında şəhərsalmada və Bakının yeni baş planının hazırlanmasında bütün bu cəhətlər nəzərə alındı.

Bakının milli memarlıq xüsusiyyətləri qorunmaqla zamanın əl gəzdirdiyi tarixi binalar təmir olundu, yeniləndi, ömrü uzadıldı.

Yeni, müasir memarlıq üslublarına əsaslanan layihələr paytaxta gətirilərək şəhərimizi məzmun və görünüşcə daha da gözəlləşdirdi, baxımlı etdi.

Prezident İlham Əliyevin göstərişləri əsasında müstəqillik dövründə Bakıda inşa olunan yeni binalar həm də dünya memarlığının ən yeni nümunələri sayılır.

Onların bəzilərini yada salaq:

* Heyrətdoğuracaq gözəlliyə malik Heydər Əliyev Mərkəzi;

* Milli elementlərlə bəzədilmiş Heydər Əliyev Fondunun binası;

* Odlar Yurdu Azərbaycanın paytaxtı Bakının rəmzi sayılan, "Alov qüllələri" adlanan nəhəng "şüşə" binalar;

* Xəzər sahilində yerləşən böyük idman və konsert tədbirlərinin keçirilməsi üçün hər cür şəraiti olan, üstəlik, rekord sayılacaq qədər qısa müddətdə tikilən Bakı Büllur Sarayı (Bakı Kristal Zalı);

* Öz orijinallığı ilə seçilən Beynəlxalq Muğam Mərkəzi;

* Heydər Əliyev prospekti boyunca yerləşən, eyni üslubda tikilərək fərqli görünüşə malik modern inzibati binalar;

* Dəniz kənarı boyunca, habelə paytaxtın müxtəlif ünvanlarında inşa olunan müasir hotel binaları;

* Bir vaxtlar hisli-paslı ərazi sayılan Qara Şəhərdə salınan yeni Ağ Şəhər yaşayış kompleksi;

* UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına salınan, ikinci ömrünü yaşayan, əcnəbi turistlərin ən çox sevdikləri yerə çevrilən İçərişəhər Memarlıq Qoruğu;

* Dünyanın heç yerində tayı-bərabəri olmayan, Xəzərin sahili boyu on kilometrlərlə uzanan Dənizkənarı Milli Park;

* Ən nəhayət, Milli Olimpiya Komitəsinin Prezidenti kimi cənab İlham Əliyevin göstərişləri əsasında yaradılan nəhəng idman sarayları və qurğuları.

Ölkəmizə gələn qonaqları valeh edərək heyrətləndirən, Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirən bütün bu memarlıq inciləri, bina və qurğular əsrlər boyu insanlara xidmət göstərərək onlara sevinc və rahatlıq gətirəcəkdir!

❖❖❖

Prezident İlham Əliyevin müdrikliyi və uzaqgörənliyi qəbul etdiyi qərarlarda, verdiyi göstəriş və tapşırıqlarda daim öz əksini tapır!

Ulu Öndər Heydər Əliyev Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərinin çəkilməsinə öz xeyir-duasını vermişdi.

İlham Əliyev çox böyük uzaqgörənlik və siyasi fəhmlə uzunluğu 980 kilometr olan bu kəmərin meqalayihəyə çevrilməsi üçün zamanında zəruri göstəriş və tapşırıqlarını verdi.

Sanki Rusiya ilə Ukrayna arasında müharibənin baş verəcəyini, üçüncü dünya müharibəsi təhlükəsini, ABŞ-nin və Qərbin Ukraynanın tərəfini tutaraq Rusiyanı güclü sanksiyalara məruz qoyacağını, Avropada güclü mavi yanacaq böhranı yaşanacağını çox-çox irəlicədən görürdü və bilirdi.

Əvvəlcə TANAP, sonra TAP hesabına böyüyən bu layihə bütövlükdə uzunluğu 3500 km olan "Cənub qaz dəhlizi"nə çevrildi.

Həm də elə bir vaxtda ki, sanki Avropadakılar layihənin yekunlaşaraq işə salınmasını gözləyirdilər...

Prezidentimizin uzaqgörənliyi sayəsində Azərbaycan bir neçə mühüm problemi çox qısa zamanda həll etdi:

* Avropanın ən etibarlı qaz təchizatçılarından birinə çevrildi;

* Yaranmış ehtiyac və zərurət sayəsində Avropanın qaz bazarına maneəsiz daxil oldu;

* Qısa müddətdə texniki məsələləri də həll etməklə Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya, Rumıniya və Macarıstanla qarşılıqlı maraqları təmin edən müqavilələr bağladı;

* Artıq dövlət başçısı Azərbaycanın yüz il ərzində Avropanın mavi yanacağa olan ehtiyacını təmin edəcək yeni yataqların istismarı və ixrac kəmərinin imkanlarının artırılması ilə bağlı müvafiq göstərişlərini vermiş, tapşırığın icrasına başlanılmışdır.

Bu gün Azərbaycan dünyada tək neft ölkəsi kimi deyil, təbii qaz ixracatçısı kimi də məşhurlaşmışdır.

Getdikcə daha da artan və möhkəmlənən bu əməkdaşlıq ölkəmizin Avropa dövlətləri simasında yeni dostlar və tərəfdaşlar qazanmasına da imkan yaradır.

❖❖❖

Müstəqil Azərbaycanda gənclər siyasətinin əsasını Ulu Öndər Heydər Əliyev qoymuşdur.

Bu sahənin inkişafını və mövcud problemlərinin həllini isə cənab İlham Əliyevə həvalə etmişdir.

Milli Olimpiya Komitəsinin prezidenti kimi cənab İlham Əliyev gənclərlə işi daim diqqət mərkəzində saxlamış, hətta dövlət başçısı seçildikdən sonra da qayğı və dəstəyini gənclərdən heç zaman əsirgəməmişdir.

İlham Əliyev idmana təkcə fiziki kamilləşmə vasitəsi kimi baxmır.

Dəfələrlə öz çıxışlarında mənən zəngin, vətənpərvər, milli maraqların qorunmasında və torpaqların işğaldan azad edilməsində fədakarlıq göstərəcək yeni gənclər nəslinin tərbiyələndirilməsinin vacibliyini qeyd etmiş, bununla bağlı gərəkli addımlar atmışdır.

Beləliklə, Prezidentin göstərişi ilə yüksək biliklərə, intellektual səviyyəyə malik gənclərin yetişdirilməsi üçün dövlət proqramı əsasında və dövlət hesabına dünyanın tanınmış ali təhsil ocaqlarında magistratura təhsili almaq üçün minlərlə gənc xarici ölkələrə göndərilmişdir.

Müasir hərbi biliklərə yiyələnmiş yeni gənc nəslin tərbiyəsini də təmin edən sistem yaradılmışdır.

Dövlət başçısının tapşırığı və şəxsi nəzarəti ilə indiyədək ölkəmizdə 40-dan çox Olimpiya idman mərkəzi tikilərək gənclərin istifadəsinə verilmişdir.

Qısa bir zamanda Azərbaycan idman dövlətinə çevrilmiş, minlərlə gənc dünya, Avropa birinciliklərində, Olimpiya oyunları və müxtəlif beynəlxalq yarışlarda iştirak edərək saysız-hesabsız medallar qazanmışdır.

Azərbaycan gənci istənilən idman növü üzrə yarışlarda qalib gələrək dövlət bayrağının yüksəldilməsini və himnimizin səsləndirilməsini şərəf borcu hesab edir.

Prezidentin göstərişi ilə qaliblərə yüksək məbləğdə mükafatlar verilir, onlar mənzillərlə təmin olunurlar.

Təkbətək idman növlərində düşmən dövlətin idmançılarını məğlubiyyətə uğradan Azərbaycan gəncləri 44 günlük Vətən müharibəsində bunu hərb meydanında da təkrarladılar.

Məhz Birinci Qarabağ müharibəsindən sonra doğularaq böyüyən, cənab İlham Əliyevin prezidentliyi dövründə yetişən gənclər Vətən müharibəsində misilsiz hünər və igidliklər göstərdilər, düşmən ordusunu torpaqlarımızdan qovdular, Şuşanı yalın əllə, əlbəyaxa döyüşərək geri qaytardılar!

❖❖❖

Müzəffər Ali Baş Komandan İlham Əliyev ixtisasca hərbçi deyil.

Heç zaman orduda peşəkar zabit kimi xidmət etməyib.

İlham Əliyev dünyanın ən prestijli təhsil ocaqlarından sayılan MDBMİ-ni əla qiymətlərlə bitirərək diplomat ixtisasına yiyələnib.

Həm də adi diplomat deyil, diplomatlara dərs demiş müəllim-diplomat, yüksəksəviyyəli diplomatdır.

Bu gün də onun şəkli MDBMİ-nin ən yaxşı müdavimlərindən biri olaraq təhsil ocağının şərəf lövhəsini bəzəyir.

Ancaq İlham Əliyev Qarabağın azadlığı uğrunda apardığı mübarizədə yüksək komandan məharəti və peşəkar hərbçilərə məxsus ali keyfiyyətlər nümayiş etdirdi!

İlk dəfə müharibə etməsinə baxmayaraq, XXI əsrin ən yeni müharibəsini apardı!

Ortaya yeni müharibə nümunəsi, hamının öyrənəcəyi örnək qoydu!

Dünyanın ən güclü dövlətlərini belə Azərbaycanın hərbi nümunəsini öyrənməyə, islahatlar apararaq Azərbaycan Ordusu timsalında öz ordularında dəyişiklik və yenilənmə aparmağa vadar etdi!

Faktiki olaraq hamını Azərbaycandan nümunə götürməyə sövq etdi!

Bütün bunların əsası İlham Əliyev xarizmasından irəli gəlir!

Hər bir dövlətin rəhbəri həm də həmin dövlətin Ali Baş Komandanı sayılır!

Beləliklə, son söz söyləyəni, qəti qərar qəbul edəni olur!

Deməli, həm də:

* Təkliflər içərisində ən mükəmməlini seçmək;

* Nümunələr əsasında ən yaxşısına üstünlük vermək;

* Variantlar arasında məhz hansının qəbul ediləcəyini təyin etmək səlahiyyəti də ondadır!

Cənab İlham Əliyev işğal altındakı torpaqları azad edəcək ordu yaradılmasında ən mühüm və məsuliyyətli göstərişlərini verdi:

* Ordu hansı texnologiyalara əsaslanan silahlarla silahlanmalıdır;

* Hansı strategiya və taktika tətbiq olunmalıdır;

* Müharibə aparılacaq ərazinin relyefinə uyğun hansı yeni qoşun növləri yaradılmalıdır;

* Uzun illər boyu nə kimi taktiki təlimlər keçirilərək ordunun peşəkarlığı yüksəldilməlidir;

* Ölkənin hava hücumundan müdafiəsi hansı silahlarla və necə təşkil olunmalıdır;

* Hərbi əməliyyatlar zamanı düşmənin ön və arxa cəbhələri arasındakı əlaqə və təminat məsələləri necə kəsilməlidir;

* Hücumlar necə və hansı istiqamətlərdə aparılmalıdır.

Bütün bunlar əvvəldən axıradək Müzəffər Ali Baş Komandanın göstərişləri əsasında baş verib:

* Müharibədə tam qələbəni təmin edən göstərişlər!

* Düşmən ordusunu məhv edərək diz çökdürən göstərişlər!

* Düşmənin belini sındıraraq kapitulyasiya aktına qol çəkməyə məcbur edən göstərişlər!

* İşğal altındakı torpaqları azad edərək xalqın qisasını erməni faşistlərindən alan göstərişlər!

Ən nəhayət, Azərbaycanı məğlub dövlətdən qalib ölkəyə, vüqarlı, milli mənliyi geri qaytarılan dövlətə çevirən göstərişlər!

❖❖❖

Adətən, Prezidentin verdiyi göstərişlərin əsasında dövlətin iqtisadi maraqları da dayanır.

Əslində, bu maraqlar öz növbəsində müstəqil Azərbaycanın daha da qüdrətlənməsinə, xalqın sosial rifahının durmadan yüksəlməsinə xidmət edir.

Dünyada elə ölkələr var ki, əsas gəlirləri turizmdən olur.

Turist, əslində, "qonaq" deməkdir.

Dünyada yeni, maraqlı nəsə axtaran, görmədiklərini görmək istəyən qonaq!

Turist hər hansı ölkəyə səfərə getməzdən öncə bilmək istəyir ki, orada təhlükəsizlik, rahatlıq tapacaqmı, görmək istədiklərini, bəlkə də, indiyədək görmədiklərini görə biləcəkmi?

Normal istəkdir və ona görə də bu yolda pul xərcləməyə hazırdır.

Prezident İlham Əliyev Azərbaycanın dünya turizm məkanlarından birinə çevrilməsinə göstəriş verib.

Bu göstəriş real imkanlara əsaslanır.

Əvvəla, Azərbaycan təbiəti xüsusi gözəlliyə malikdir, dünyadakı on iki iqlimin doqquzundan bizdə var.

İkincisi, xalqımız mehriban, gülərüz, multikulturaldır, yəni bütün dinlərə hörmətlə yanaşır.

Üçüncüsü, ölkənin hüquq-mühafizə orqanları peşəkardır, məsuliyyətlə çalışır, heç kəsi heç bir təhlükə gözləmir, istəyirsən gecə səhərədək Bakının küçələrini gəz.

Dördüncüsü, maraqlı tarixi abidələrimiz, muzeylərimiz, sərgi salonlarımız var.

Beşincisi, unikal mətbəxə - zəngin menyu və xörəklərə sahibik.

Dövlət də turistlərin rahatlığı üçün hər şeyi edib: rahat yol infrastrukturu, beynəlxalq hava limanları, hotellər şəbəkəsi, istirahət və əyləncə mərkəzləri mövcuddur.

Azərbaycanın dünyada tanıdılması sahəsində də səmərəli işlər aparılır: reklam çarxlarının sistemli nümayişi ilə yanaşı, il ərzində çoxsaylı azarkeşlərin cəlb olunduğu idman, o sıradan telekanallarda yarım milyard insanın tamaşa etdiyi "Formula-1" yarışları müntəzəm şəkildə keçirilir.

Prezidentimizin göstərişinə əsasən, işğaldan azad edilərək cənnətə çevrilməsi prosesi gedən Qarabağda və Şərqi Zəngəzurda da turizmin inkişafı üçün indidən zəruri addımlar atılır.

İnanırıq ki, turizmə maneçilik törədən COVID-19-un fəsadları tam aradan qaldırıldıqdan, dövlət başçısının tapşırığı ilə başlanan işlər yekunlaşdıqdan sonra Azərbaycan başdan-başa dünya turistlərinin ən çox sevdikləri və səyahət etdikləri ölkəyə çevriləcəkdir.

❖❖❖

Gətirilən misalların və faktların sayını istənilən qədər artırmaq mümkündür!

Amma bütün faktlar və məqamlar eyni fikri və həqiqəti təsdiq edir:

* Prezident İlham Əliyevin hər göstərişi, hər tapşırığı mükəmməldir, ölçülübiçilidir, uzaqgörənlik nümunəsidir!

* Həmin göstərişlər təkcə sabahın uğur və nailiyyətlərini təmin etmir, həm də sonrakı günlərin qələbələrinin mühüm əsaslarını yaradır!

Əslində, müstəqil Azərbaycanda baş verən hər bir dəyişiklik, inkişaf və yenilik başlanğıcını məhz İlham Əliyevin ilkin göstərişlərindən alır - nəyi necə və nə vaxt etməyi dəqiq bilən və qətiyyətlə icra edən Müzəffər Ali Baş Komandan İlham Əliyevin!

Hələ bundan sonra da çoxsaylı göstəriş və tapşırıqların, xalqın arzularının ifadəçisi olan çoxsaylı uğur və nailiyyətlərin şahidinə çevriləcəyik!

***11 aprel 2023-cü il***

# İllərlə dağıdılıb, günlərlə tikilib-qurulan AĞDAM

Düşmənə çevrilən alçaq erməni ilk gülləsini 1988-ci ilin əvvəllərindən başlayaraq Ağdama atdı.

Çünki Ağdamı yaxşı tanıyırdı, bilirdi ki, ona qalib gəlməsə, Qarabağa yiyələnə bilməyəcəkdir.

Lakin ağdamlılar nə hədədən qorxdular, nə güllədən, nə də erməniyə arxa durub onu müdafiə edənlərdən!

O zaman torpağı müdafiə edənlərin silahı çomaq, dəhrə, balta, tək-tük də ov tüfəngi idi.

Tez-tələsik ermənilərin sözünü deyənlərin tapşırığı ilə ov tüfənglərini də yığdılar.

Ağdamlılar düşmən qarşısında əliyalın qaldılar.

Yenə geri çəkilmədilər, əksinə, arxalı düşmənin üstünə getdilər!

Elə vətənin ilk şəhid övladlarını da Əlinin və Bəxtiyarın simasında Ağdam verdi.

Şəhid qanı yerdə qalmasın, torpaq düşmən əlinə keçməsin deyə uzun və qanlı savaş başladı.

Nə yaxşı vətənin qeyrətli oğulları Ağdamı tək qoymadılar!

Azərbaycanın hər yerindən ürəklərinin hökmü ilə millətin qeyrətçəkəni kimi ona arxa durmağa gəldilər!

Bu yolda bir qismi şəhid də oldu!

Amma heç kim vətəni darda, arxasız,köməksiz, müdafiəsiz qoymadı!

Ağdamlılar o qəhrəmanları sevərək bağırlarına basdılar, igidlikləri ilə qürur duydular, şəhid gedənlərə göz yaşı axıtdılar.

Ov tüfənginin yığılmasından sonra Ağdama ikinci xəyanət AXC-Müsavat cütlüyündən gəldi.

Şuşada "armud ağacının qırılması" ilə Bakıdakı meydana çıxan cəbhəçilər az sonra "imperiya siyasətinin tənqidi"ni unudaraq hakimiyyət uğrunda mübarizəyə girişdilər.

Torpaqların müdafiəsi yaddan çıxdı.

Düşmən hücumlarının qarşısını kəsməli olan zirehli texnika, əliavtomatlı döyüşçülər Bakının küçələrində göründülər, Milli Məclisə hücumun önündə getdilər.

Boş qalan səngərlər, döyüşçüsüz qalan müdafiə mövqeləri düşmən əlinə keçdi.

AXC-Müsavatın iqtidara zorakılıqla gəlişi, şəxsi maraqlarının təmini yolunda törətdikləri əməllər, ölkədə yaratdıqları xaos, anarxiya və qanunsuzluq mühiti düşmənin əlinə işləyirdi...

Onların səriştəsizliyi və naşılığı ucbatından alovlanan vətəndaş müharibəsi isə diqqəti və ordunun imkanlarını daxili vəziyyətə yönəltdiyindən düşmən az vaxtda xeyli uğur qazanaraq ölkənin içərilərinə doğru irəlilədi.

Bu xəyanətin ağır nəticələri yalnız 44 günlük Vətən müharibəsində aradan qaldırıldı!

Həm də böyük igidlik və qəhrəmanlıqlarla!

Bu gün bütün Azərbaycan Qarabağdır!

Müzəffər Ali Baş Komandanımız "Qarabağ Azərbaycandır və nida işarəsi" deyərək bütün Azərbaycanı Qarabağa çevirdi, həm torpaqlarımızı qaytardı, həm də hər bir şəhidimizin qisasını artıqlaması ilə aldı!

❖❖❖

Ağdam uzun illər boyu dayanmadan, mərhələlərlə dağıdıldı, talan edildi, ələ keçənlər Hayastana, İrana daşındı.

Əvvəlcə əhalinin aparmağa vaxt və imkan tapmadığı ev əmlakı yağmalandı:

* Xalça-palaz, qab-qaşıq;

* Bütün mebel - şifonerlər, servantlar, paltar şkafları, stol-stul, mətbəx mebelləri və s.;

* Yorğan-döşək, tül-pərdə, çarpayı örtükləri;

* Elektrik məişət cihazları, çilçıraqlar;

* Sahibsiz evlərdə gözə dəyən, ələ keçən nə vardısa, hamısı.

Sonra keçdilər evlərə, binalara, digər tikililərə:

* Muzey eksponatları daşınıb aparıldı;

* Bina və evlərin damlarının dəmirləri söküldü;

* Döşəmələr, tavanlar, qapı və pəncərələr çıxarılaraq "taxta materialı"na çevrildi;

* Sonra keçdilər evlərin divarlarına, həyətlərin hasarlarına: ağ mişar daşından olanlar İrana daşındı, qopara bilmədiklərini isə partladaraq dağıtdılar;

* Şəhərin bütün küçələri başdan-başa qazıldı, dəmir borularla yerin altı ilə çəkilmiş su və kanalizasiya xətləri çıxarılıb aparıldı, sonra heç xəndəklər də doldurulmadı və beləliklə, küçələr "yoxa çıxdı";

* Meyvə ağacları, meşələr qırıldı, mebel düzəldilməsində istifadə olundu.

Haylar fars qardaşları ilə əlbir işlədilər, molla rejimi üzdə halal söyləsə də, Ağdamda hər şeyin haramına getdi.

Gəlib müqəddəs torpaqlarımızda narkotik plantasiyaları saldılar.

Məscidləri donuz tövləsinə çevirdilər.

Beləliklə, erməni-fars qardaşlığı və işbirliyi ilə illərlə davam edən talan və dağıntılar nəticəsində Ağdam "ruhlar şəhəri"nə, "Qafqazın Xirosiması"na çevrildi.

Başdan-başa xarabazara çevirdikləri ərazidə barbarlıqlarının, vəhşiliklərinin, orta əsr qəbiləsi tayfalarının təfəkkürünün daşıyıcılarının simvolu olaraq əməllərinin və özlərinin "abidəsi"ni yaratdılar.

❖❖❖

Düşmənin Ağdama atdığı güllə və mərmilərin sayı-hesabı bilinmir.

Amma Ağdam Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən işğaldan azad edilərkən oradan ordumuza tərəf bir güllə belə atılmadı!

Ağdamda şəhid olmuş qəhrəman əsgər və zabitlərimizin ruhları buna imkan vermədi!

Halbuki düşmən orada təbii relyefdən də istifadə etməklə onqat müdafiə xətti qurmuşdu.

Müzəffər Ali Baş Komandan İlham Əliyev düşmənin məhv edilmiş zirehli texnikasını, müxtəlif silahlarını və avtomobillərini Bakıya gətirərək Hərbi Qənimətlər Parkında nümayiş etdirir!

Arzu edən hər kəs istədiyi vaxt baxa bilər:

* Zirehli texnikanın keçə bilməməsi üçün dərin xəndəklər;
* Hayların "keçilməz" hesab etdikləri "Ohanyan xətti";
* Tank əleyhinə minalar zolağı;
* Piyadalar əleyhinə minalar sahəsi;
* Kameralarla təchiz edilmiş müdafiə səngərləri;
* Xüsusi hazırlanmış və möhkəmləndirilmiş atəş nöqtələri;
* Dağlarda yaradılmış və dəmir qapılarının qalınlığı 70 santimetr olan beton bunkerlər və s.

Müzəffər Ali Baş Komandan İlham Əliyev hərbi əməliyyatlar dövründə elə bir taktika və strategiya tətbiq etdi ki, yuxarıda sadaladığımızın hamısı gərəksiz müdafiə mövqelərinə çevrildi!

Haylar ötən əsrin doxsanıncı illərinin "yerüstü" müharibəsinə hazırlaşmışdılar.

Müzəffər Ali Baş Komandan İlham Əliyev isə onların başlarına göydən od yağdırdı!

XXI əsrin ən yeni müharibəsini apardı!

Ermənistan ordusu silah-sursatını, zirehli texnikasını ataraq vahimə içərisində qaçdı.

On bir min fərarisi, yeddi-səkkiz min canlı qüvvə itkisi oldu!

"Məğlubedilməz ordu" fərarilər və qorxaqlar yığnağına çevrildi!

Ağdam, Laçın, Kəlbəcər azadlığına qovuşdu!

❖❖❖

Azərbaycan xalqı, xüsusən keçmiş məcburi köçkünlər Böyük qayıdışı böyük səbirsizliklə, intizarla gözləyirlər.

Qarabağın, Şərqi Zəngəzurun bərpası və quruculuğu ilə bağlı hər xəbəri maraq və diqqətlə izləyirlər.

Quruculuğun isə miqyası böyük, həcmi geniş, görüləsi işlər saysız-hesabsızdır.

Böyük qayıdışı əngəlləyən, ləngidən yeganə maneə işğal illərində əraziyə həddindən çox tank və piyada əleyhinə minaların basdırılmasıdır.

Hazırda Azərbaycan dünya üzrə minalarla ən çox "çirkləndirilmiş" ölkələrdən biri sayılır.

Hər yerdən əli üzülən düşmən yenə də pisliyindən əl çəkmir, həqiqi mina xəritələrini təqdim etmir, beynəlxalq qurumlar isə bu məsələdə ona təzyiq göstərmirlər.

Odur ki, xeyli vaxt almasına baxmayaraq, işğaldan azad edilmiş əraziləri qarış-qarış yoxlayıb təmizləmək lazım gəlir.

Tikinti və quruculuq işləri isə görünməmiş sürətlə gedir!

Dövlət başçısı İlham Əliyev Qarabağda və Şərqi Zəngəzurda, o cümlədən Ağdamda "ağıllı yaşayış məntəqələri" yaratmaq, dünyanın hər yerində şəhərsalmada mövcud olan nümunələrin ən yaxşılarını buraya gətirmək barədə ciddi göstəriş verib!

Şəhərlər sırasında ilk olaraq iki il əvvəl yeni Ağdamın baş planı hazırlanaraq təsdiq olundu!

Bərpa və quruculuq işləri görünməmiş sürətlə gedir!

Xarabalıqlar içindən yeni Ağdam zühur edir:

* Bir-birindən yaraşıqlı çoxmərtəbəli binaları;

* Müasir tələblərə cavab verən məktəbləri və uşaq bağçaları;

* Dağüstü parkı, çürbəcür karuselləri olan xiyaban və istirahət guşələri;
* Şəhərin daxilində 79 kilometr uzunluğunda xüsusi velosiped yolu;
* Motorlu qayıqlar üzəcək iki kilometrlik su kanalları;
* Süni yaradılmış şəlalə və gölləri;
* Ən müasir, təkərsiz tramvayları olan Ağdam!

Bərdədən Ağdama uzanan 45 kilometrlik birinci dərəcəli yol gecələr işıqlandırılacaqdır.

Yeni salınan dəmir yolu xətti və stansiyalar da sürətlə inşa edilir.

Sənaye məhəlləsinin, 1 nömrəli tam orta məktəbin, neçə-neçə binaların tikintisi başa çatdırılmış, yeni-yeni obyektlərin təməli qoyulmuşdur.

Ağdam Qarabağın ən böyük və ən gözəl guşəsi, respublikamızın dördüncü şəhəri olacaqdır!

❖❖❖

Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə qüdrətli Azərbaycan Ordusu hayları əbədi məğlubiyyətə uğratdı, darmadağın etdi!

Lakin bu qorxaq və fərari, terrorçu millət kimlərəsə, yaxud nəyəsə ümid bağlayaraq sülh müqaviləsini imzalamaq istəmir.

"Böyük Ermənistan" xülyasının puça çıxarılmasını qəbul edə bilmirlər!

Paşinyan sülh müqaviləsini imzalayacağı halda özününkülər tərəfindən suiqəsdlə öldürüləcəyindən qorxur.

Odur ki, nala-mıxa vurur, dediyinin dalından qaçır, danışıqları uzadır.

Əslində, vaxtı itirən, dalanda qalan dilənçi Hayastandır.

Azərbaycan öz işindədir:

* Ordunu gücləndirməkdə davam edir, fasiləsiz hərbi təlimlər keçirir;
* Həlledici yüksəklikləri götürərək strateji mövqelərdə möhkəmlənir;
* Böyük qayıdışı hissə-hissə, mərhələlərlə həyata keçirir;
* Sərhədlərinə sahib çıxaraq öz imkanları ilə etibarlı şəkildə qoruyur;
* Sülh danışıqlarında qətiyyətli mövqe nümayiş etdirərək irəli sürdüyü şərtlərin üzərində möhkəm dayanır;
* Beynəlxalq qurum və təşkilatlarda aktiv fəaliyyət göstərərək nüfuzunu durmadan artırır;
* Avropa İttifaqı və dövlətləri ilə əməkdaşlığı artırır və möhkəmləndirir.

Bir sözlə, Azərbaycan zaman itkisinə yol vermir!

Nəzərdə tutduğu bütün işləri dəqiqliklə və ardıcıllıqla icra edir!

Zamanı itirən, işğal etdiyi ərazilərdən qovulan, bu günü və gələcəyi olmayan Hayastandır!

Nəyəsə ümid bağlayan, nəyinsə dəyişəcəyini, Azərbaycanın zəifləyəcəyini axmaqcasına gözləyən Hayastan.

Görünür, belə ağır bir günündə "Nemezis" abidəsi qoyan bu milləti "dəmir yumruq"dan başqa heç nə ağıllandıra bilmir.

❖❖❖

Torbanın ağzı bağlandı!

Daha Azərbaycanın icazəsi və razılığı olmadan kimsə nə "torbaya" daxil ola, nə də ordan çıxa bilər!

Azərbaycan 105 ildə ilk dəfədir ki, sərhədlərinə tam şəkildə özü nəzarət edir!

Heç kim də onun bu istiqamətdəki müstəqil fəaliyyətinə qarışa və ya burun soxa bilmir!

Artıq torbanın içindəkilərin bircə yolu qalır:

Azərbaycan qanunlarını tanımaq, ona hörmət və əməl etmək, Azərbaycan vətəndaşlığını qəbul etmək!

Ya da ki, Azərbaycanın ərazilərini tərk edərək Hayastana, yaxud dünyanın istənilən ölkəsinə cəhənnəm olub getmək!

Seçim özlərinindir:

Varlı Azərbaycan, yaxud dilənçi Hayastan!

***28 may 2023-cü il***

# Möhtəşəm xilaskarlıq missiyası

## *HEYDƏR ƏLİYEV Azərbaycanı məhv olmaqdan, İLHAM ƏLİYEV isə torpaqları işğaldan xilas etdi*

**30** il əvvəl müstəqilliyini yenicə bəyan etmiş Azərbaycan ən çətin, ən ağır və faciəvi günlərini yaşayırdı.

Xalqla iqtidar arasındakı ziddiyyətlər özünün ən gərgin nöqtəsinə çatmış, silahlı müxalifətlə iqtidar arasındakı hərbi toqquşmada qardaş qanı axıdılmış, vətəndaş müharibəsi alovlanmış, ölkə ərazisinin böyük bir hissəsi işğala məruz qalmış, xalq ümidsiz vəziyyətə düşmüşdü.

Parlament çevrilişi yolu ilə hakimiyyətə gələn AXC-Müsavat cütlüyü səriştəsizliyi və təcrübəsizliyi, şəxsi maraqlarını milli mənafedən üstün tutması, xalqın etimad kreditini qısa müddətdə xərcləməsi səbəbindən siyasi iflasa uğramış, ölkəni böhrana salmış, xalqın etibarı ilə bərabər, başlarını da itirmişdilər.

Azərbaycanın təkcə kövrək müstəqilliyi deyil, bir dövlət kimi mövcudluğu da real təhlükə qarşısında idi.

Dövləti və xalqı bu vəziyyətdən yalnız Heydər Əliyev dühası, Heydər Əliyev bacarığı və məharəti, Heydər Əliyev zəkası xilas edə bilərdi!

"Bəy"lər dəfələrlə ona minnətçi düşdülər, Naxçıvana təyyarə göndərdilər...

Amma Ulu Öndər xalqın çağırışına səs verdi, həyatından artıq sevdiyi Azərbaycanın fəlakət və faciələrinə biganə qalmadı!

Xilaskarlıq missiyasını yerinə yetirmək üçün ölkə rəhbərliyinə qayıtdı.

Heç kimin bacarmadığı, kimsənin edə bilməyəcəyi işləri gördü!

Beləliklə, müasir Azərbaycan dövlətinin memarına və qurucusuna çevrildi!

❖❖❖

Ulu Öndər Heydər Əliyev xarizmatik insan, qeyri-adi xarakter sahibi idi.

O, həm də sutkanın on səkkiz saatını işləməyi bacaran böyük zəhmətkeş sayılırdı.

Ulu Öndər hamı kimi idi, həm də heç kəsə bənzəmirdi.

Bu fərqlilik ömrünün ilk çağlarından sona kimi özünü ən müxtəlif şəkildə büruzə verdi.

Ulu Öndər Heydər Əliyev Naxçıvanda sadə, zəhmətsevər bir ailədə dünyaya gəlmişdi.

Hamı kimi o da orta məktəbə getmiş, ilk təhsilini bu diyarda almışdı.

Amma sonralar hamıdan fərqləndi...

Ulu Öndər Heydər Əliyev yaşadığı dövrdə xarizması və zəhmətsevərliyi sayəsində vəzifə pillələri ilə sürətlə irəlilədi, başqaları üçün əlçatmaz olan ən böyük zirvələrə ucaldı:

SSRİ-nin rəhbərlərindən birinə çevrildi - Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini oldu!

Bu, türk oğlunun Kreml rəhbərlərindən biri olması demək idi!

❖❖❖

SSRİ on beş müttəfiq respublikanın birləşməsindən yaranan superdövlət idi.

Ərazisi böyük, əhalisi çox, iqtisadi və hərbi gücü yüksək həddə çatmışdı.

Dünyadakı dövlətlərin çoxu onunla hesablaşırdı!

Heydər Əliyev iyirmiyədək ittifaq nazirliyinə və quruma rəhbərlik edirdi.

Əvvəlki iş təcrübəsi ilə yanaşı, qısa müddətdə idarəsində olan bütün sahələrin incəliklərinə, xüsusiyyət və problemlərinə bələd olmuşdu.

Bu gün də Rusiyaya böyük fayda gətirən, Sibirin sərvətlərinin mənimsənilməsinə şərait yaradan Baykal-Amur Magistralı məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi və fədakarlığı sayəsində tikilərək istifadəyə verildi.

Bunu rus ziyalıları və elitası, rus xalqı yaxşı bilir, Ulu Öndəri qədirbilənliklə xatırlayırlar.

Nəhəng dəmir yolunun böyük stansiyalarından birinə Ulu Öndərin adı verilmişdir.

❖❖❖

Sovet dövründə hamının çəkindiyi, ehtiyat etdiyi və qorxduğu bir qurum vardı:

Dövlət Təhlükəsizliyi Komitəsi.

Repressiya illərində bu qurumda çoxlarına işgəncələr verilmiş, çoxları həyatdan məhrum edilmişdi.

Dövlətin mühüm dayaqlarından biri sayılırdı DTK.

Əsasən rus milliyyətindən olanlar, Azərbaycanda isə daha çox ermənilər burada çalışırdılar.

1937-ci ilin repressiyalarında ermənilərin məkri ilə Azərbaycan xalqının bir çox ziyalısı burada qətlə yetirilmişdi.

Ulu Öndər Heydər Əliyev öz bacarığı və ağlı sayəsində bu qapalı qurumun generalı, sonra isə ilk rəhbərlərindən oldu!

Onun rəhbərliyi dövründə SSRİ-də "dissident ovu" dəbdə idi.

"Başqa cür düşünənlər"i sürgün və həbsxana gözləyirdi...

Lakin Heydər Əliyevin DTK-ya rəhbərliyi dövründə Azərbaycanda bir nəfər də "dissident" tapılaraq cəzalandırılmadı!

❖❖❖

Sovet dövründə hər bir müttəfiq respublikada ən yüksək vəzifə partiya təşkilatının birinci katibi sayılırdı.

Sov.İKP siyasi qurum olsa da, əslində, ölkənin bütün sahələrinə rəhbərliyi həyata keçirirdi.

Həm də sözünün üstünə kimsə söz deyə bilməzdi.

DTK generalının Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçilməsi Ulu Öndər Heydər Əliyevə böyük etimadla yanaşı, həm də respublikanın həyatında yeni eranın başlanğıcı oldu!

Heydər Əliyev canından artıq sevdiyi Azərbaycanı inkişaf etdirdi, ucaltdı, xalqın firavanlığını təmin etdi.

Ən nəhayət, Ulu Öndər vəzifənin ən yüksək pilləsindən istefaya gedən, sonra yenidən böyük siyasətə qayıtmağı bacaran dahilərdən idi!

❖❖❖

Sov.İKP-nin çox maraqlı və cəlbedici proqramı vardı.

İnsanlara azadlıq, demokratiya, xoşbəxt gələcək, "kommunizm" adlı firavan cəmiyyətdə yaşayaraq ehtiyacını tam ödəyəcək həyat vəd edirdi.

Hamı Sov.İKP-yə inanaraq arxasınca gedirdi.

M.Qorbaçov kimi bir xainin və cəlladın partiya rəhbərliyinə gəlməsi, dövlətinə, xalqına və partiyasına satqın çıxması bu utopiyanın sonunu yaxınlaşdırdı.

Buna qədər də Qorbaçov Ulu Öndər Heydər Əliyevin qabiliyyət və nüfuzundan qorxaraq onu vəzifədən kənarlaşdırmışdı.

Heydər Əliyev Qorbaçovun xarici dövlətlərin əlində oyuncağa çevrilməsinə etiraz edərək öz ərizəsi ilə Sov. İKP sıralarını tərk etdi!

Ulu Öndərin bu qətiyyətli addımı aydın səmada şimşək kimi çaxdı!

❖❖❖

Ulu Öndər Heydər Əliyev ədalətli insan idi, adamlara düzgün yol göstərməyi də, nöqsanları tənqid edib aradan qaldırmağı da, qüsursuz işləməyi də bacarırdı.

Heydər Əliyev dövləti, xalqı üçün həmişə ən yaxşı olanını etməyi sevirdi.

Bu, həm də onun böyük vətənpərvərliyindən irəli gəlirdi.

Ulu Öndər Heydər Əliyev Azərbaycana birinci dəfə rəhbər seçiləndə uzun müddət şəkillərinin qəzet və jurnallarda dərcinə icazə vermədi.

Respublikanın paytaxtını özü gəzir, insanlarla fərdi ünsiyyət qurur, problemləri, nöqsanları öyrənir, arzu və təklifləri dinləyirdi.

Bunu gələcək uğurlu rəhbərliyi üçün vacib sayırdı.

Bakı sakinləri bu sayaq yeni təmaslardan xeyli məmnun idilər və məşhur filmdən iqtibas etdikləri "Mixaylo şəhərdədir!" - deyimini də yaratmışdılar.

Ulu Öndər Heydər Əliyevin növbəti qeyri-adi addımı ilə mətbuat səhifələrində rastlaşdıq.

Sovet dövründə bir neçə milyon tirajla "Literaturnaya qazeta" adlı ittifaqmiqyaslı populyar bir qəzet çıxırdı.

SSRİ Yazıçılar İttifaqının nəşri olan bu qəzet siyasətə və siyasi mövzulara da geniş yer verirdi.

Ulu Öndər Heydər Əliyevin qəzetə verdiyi "Qoy ədalət zəfər çalsın!" adlı müsahibə ittifaq miqyasında böyük maraq və əks-səda doğurdu.

Zarafat deyildi, Sov. İKP-nin ən tanınmış və yüksəkçinli partiya rəhbərlərindən biri ölkədəki korrupsiya və rüşvətxorluq hallarından danışırdı.

O vaxta qədər rüşvət və korrupsiya kapitalizmin əlamətləri sayılır, SSRİ məkanında onun mövcud olmadığı söylənilirdi.

Heydər Əliyev ədalətli və obyektiv bir insan kimi diqqəti bu yaramazlıqlara cəlb edir, belə mənfi hallara qarşı birgə mübarizəyə səsləyirdi.

Ulu Öndərimiz rəhbərliyi dövründə daim belə qəti mövqedə oldu, neqativ hallarla heç zaman barışmadı!

❖❖❖

Hər dövrün, hər iqtisadi-ictimai formasiyanın öz prinsipləri və tələbləri olur.

Onları nəzərə almamaq mümkün deyil.

Sosializm quruluşunun da özünəməxsus qaydaları vardı.

İstehsal vasitələri üzərində ictimai mülkiyyət hökm sürürdü.

Qırmızı imperiyada hər şey mərkəzə tabe etdirilmişdi və Moskvadan idarə olunurdu.

Başqa sözlə, on beş müttəfiq respublikanın qazandığı bir yerə - ümumittifaq büdcəsinə yığılır və mərkəzin bölgüsü əsasında yerlərə göndərilirdi.

Hər respublikaya isə ümumi fonda nə qədər verməli olduğu "plan" adı ilə müəyyən edilərək tələb olunurdu.

Bu qaydalara əməl etmədən ölkəni normal yaşatmaq mümkün deyildi!

Ulu Öndər Heydər Əliyev dövrün tələblərini də, onun icra qaydalarını da yaxşı bilirdi.

Hətta bu qayda və prinsiplərdən xalqın mənafeyi naminə ustalıqla bəhrələnməyi də məharətlə bacarırdı.

İttifaq büdcəsindən aldığı investisiyalar sayəsində geridə qalmış neft sənayesini yenidən dirçəltdi.

Bakı neftçiləri yüksək əməkhaqqı almağa, dövlət hesabına yeni mənzillərlə təmin olunmağa başladı.

Şəxsi nüfuzundan istifadə etməklə o dövr üçün unikal sayılan bir çox müəssisənin - Dərin Dəniz Neftqazma Qurğularının İstehsalı Müəssisəsinin, Məişət Kondisionerləri Zavodunun, habelə ittifaq əhəmiyyətli bir sıra hərbi təyinatlı müəssisələrin tikintisini Bakıya saldırdı.

Neft-kimya, neft-maşınqayırma zavodlarının açılışına, Sumqayıtda xeyli sayda istehsalat birliyinin tikintisinə nail oldu.

Paytaxt Bakı yenidən qurularaq xeyli genişləndi, mikrorayonlar, Əhmədli və 8-ci kilometr kimi yaşayış massivləri salındı.

Nəhəng sənaye şəhərləri - Sumqayıt və Şirvan meydana gəldi.

Şəhər sakinlərinin həyat şəraiti xeyli yüksəldi.

❖❖❖

Ulu Öndər Heydər Əliyev aqrar respublika sayılan Azərbaycanda kənd təsərrüfatının sürətli inkişafını və yüksəlişini də təmin etdi.

Dövlət hesabına yeni yaşayış məntəqələri salındı, Azərbaycan kəndinin siması büsbütün dəyişdi.

Respublikada bir sıra yeni ali və hərbi təhsil müəssisələri açıldı, dövlət hesabına azərbaycanlı gənclər SSRİ-nin ən müxtəlif sahələrində nadir ixtisaslar üzrə peşələrə yiyələndilər.

Azərbaycanda elm, mədəniyyət inkişaf etdi, yaradıcı insanlara diqqət artırıldı, onlar mükafatlandırıldı, dünya miqyasında tanınan yeni əsərlər, musiqilər, tətbiqi sənət nümunələri yaradıldı.

Bütün bunların ruhlandırıcısı və baş yaradıcısı Ulu Öndər Heydər Əliyev idi!

Ümummilli Liderimiz Azərbaycana həm birinci, həm də müstəqillik dövrü rəhbərliyində daim xalqla birlikdə oldu, ehtiyacı olanları işlə, mənzillə, təqaüdlə təmin etdi, xəstələrin müalicəsinə yardım göstərdi, heç kəsi darda və çətinlikdə qoymadı.

❖❖❖

Heydər Əliyev cəsur, cəsarətli, qorxmaz insan idi!

Heç bir təhlükə, qorxu onu öz məqsədindən, amalından çəkindirə bilməzdi!

Sonadək döyüşməyi sevirdi, məğlub olmağı ağlına belə gətirmirdi!

Azərbaycana rəhbərliyi dövründə bütün bunları dəfələrlə əyani şəkildə nümayiş etdirmişdi.

İlk dəfə Moskvada real ölümlə üzləşdi, sui-qəsdə məruz qaldı...

Sapsağlam insanda qəflətən ciddi ürəktutmaları yarandı.

Onu da Nəriman Nərimanovun Moskvada başına gətirilən faciə gözləyirdi.

Lakin Heydər Əliyev təslim olmadı, Tanrının köməyi və doğmalarının fədakarlığı sayəsində vaxtsız ölümdən qurtuldu!

❖❖❖

Azərbaycan bir dövlət kimi məhvolma həddinə çatdırılanda hamı üzünü Naxçıvanda sadə həyat tərzi sürən Ulu Öndərə doğru tutdu, ondan kömək gözlədi.

Heydər Əliyev xalqının çağırışına biganə qalmadı, xilaskarlıq missiyasını yerinə yetirmək üçün geriyə döndü!

Lakin özü ilə nə qoşun gətirdi, nə cəbbəxana, nə də hər hansı bir silahlı dəstə!

Nüfuzu, zəkası, xalqa olan sonsuz sevgisi ilə özünü təhlükələrə atdı.

Bir faktı xüsusi qeyd etmək istərdik:

Ulu Öndər Heydər Əliyevədək Azərbaycana başçılıq etmiş üç şəxs - Ə.Vəzirov, A.Mütəllibov və Ə.Elçibəy özləri üçün cüzi bir təhlükə duyduqları zaman təyyarəyə minərək Bakını tərk etmişdilər.

Hətta Ə.Vəzirov və A.Mütəllibov Moskvaya sığınmışdılar.

Heydər Əliyev isə təyyarə ilə təhlükənin üzərinə gəlmişdi!

Heydər Əliyev yalın əllə Gəncəyə, üsyan etmiş hərbi hissəyə yollandı, vətəndaş müharibəsinin alovlarını söndürdü!

Lakin təhlükə bununla sovuşmadı.

İki dəfə - 1994-cü ilin 4 oktyabrında və 1995-ci ilin 13-18 martında Azərbaycanda dövlət çevrilişinə cəhdlər oldu.

Ulu Öndər Heydər Əliyev bir an da olsun postunu tərk etmədi, heç bir hədədən, ultimatumdan ehtiyat edərək çəkinmədi.

Üzünü sevdiyi və onu sevən xalqa tutdu!

Müstəqilliyi və müstəqil dövləti xain əməllərdən və silahlı quldurlardan qorumağa səslədi.

Xalq bir anda meydanlara axışaraq sevimli rəhbəri ilə bir olduğunu əyani şəkildə göstərdi!

Hər iki çevriliş cəhdi iflasa uğradı!

"Xalq - Heydər, Heydər - Xalq" birliyi həyati şəkildə təsdiqini tapdı!

Bundan sonra bir-birinin ardınca dövləti yaşatmaq və inkişaf etdirməkdən ötrü zəruri addımlar atıldı:

* Müharibə bölgəsində atəşkəs əldə edildi;

* Qanunsuz silahlı dəstələr tərk-silah olundu;

* Əhalidəki külli miqdarda silah-sursat yığıldı;

* Ölkədə möhkəm və dönməz sabitlik yaradıldı;

* Azərbaycan iqtisadiyyatının lokomotivinə çevrilən "Əsrin müqaviləsi" imzalandı!

Ulu Öndər Heydər Əliyevin adı isə qızıl hərflərlə Azərbaycanın şərəf salnaməsinə əbədi həkk olundu!

❖❖❖

Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında xidmətləri saysız-hesabsızdır!

Onlardan yalnız ikisini xüsusi qeyd etmək istərdik:

* Heydər Əliyev siyasi kursunu yaratmasını;

* Özünün ən layiqli siyasi varisini hazırlayaraq Azərbaycanın gələcəyini etibarlı əllərə tapşırmasını!

Bu gün müstəqil Azərbaycan Heydər Əliyev yolu ilə inamla irəliləyir:

* Müstəqil və milli maraqlara xidmət edən daxili və xarici siyasət yürüdür;

* Sürətli və davamlı inkişafı sayəsində ilbəil iqtisadi qüdrətini artırır, siyasi nüfuzunu yüksəldir;

* Dünya dövlətləri ilə qarşılıqlı maraqlara, bir-birinə hörmətə əsaslanan münasibətlər qurur;

* İştirakçıların hər birinə fayda gətirən Orta Nəqliyyat Dəhlizinin işə salınmasına hazırlaşır;

* Avropanın mavi qaz və "yaşıl enerji" ilə təminatında etibarlı tərəfdaş olduğunu sübuta yetirir;

* Xalqın sosial rifahını və həyat səviyyəsini davamlı şəkildə artırır və s.

❖❖❖

Ulu Öndər Heydər Əliyevin vəsiyyətlərini sədaqətlə həyata keçirən Prezident İlham Əliyev onun yarımçıq qoyduğu bütün işləri uğurla başa çatdırmışdır!

44 günlük Vətən müharibəsində otuzillik işğala qəhrəmanlıqla son qoymuş, ölkənin ərazi bütövlüyünü bərpa etmişdir.

İndi isə Qarabağın və Şərqi Zəngəzurun bərpası və dirçəldilməsi prosesi sürətlə və uğurla davam etdirilir.

Möhtəşəm xilaskarlıq missiyası bu gün də Azərbaycan xalqının ən ülvi arzularının gerçəkləşməsinə xidmət edir!

Qarabağ Azərbaycandır!

Azərbaycanın isə müstəqilliyi əbədi və dönməzdir!

***15 iyun 2023-cü il***

# Ruhumuzun paytaxtı Şuşa

*Şuşa Bəyannaməsinin imzalanmasından iki il keçdi*

Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!

Ulu Öndər Heydər Əliyevin müdrik kəlamlarındandır.

Şuşanı Azərbaycan xalqına, türk dünyasına yenidən Müzəffər Ali Baş Komandan İlham Əliyev qaytardı!

Sonra Şəhidlər xiyabanından xalqa müraciət edərək böyük Zəfər barədə müjdə verdi:

- Şuşa, sən azadsan!

- Şuşa, biz qayıtmışıq!

Ardınca da qürur və iftixar hissi ilə, fərəhlə bəyan etdi:

- Mən ata vəsiyyətini yerinə yetirdim!

Bu qəhrəmanlıqdan Ulu Öndərimizin də, şəhidlərimizin də ruhu şad oldu!

Xalqın milli birliyi, əsgər və zabitlərimizin şücaəti, Ali Baş Komandanın hünəri sayəsində qədim Şuşa ruhlar şəhərinə çevrilmədi!

Əksinə, yenidən ruhumuzun paytaxtı oldu!

❖❖❖

Şuşa hərisliklə hakimiyyətə can atan AXC-Müsavat cütlüyünün silsilə xəyanətlərinin növbəti qurbanlarından biri idi.

Əvvəlcə şəhərin müdafiəsinə rəhbərlik edən icra hakimiyyəti başçısı Mikayıl Gözəlov və Milli Qəhrəman Ramiz Qənbərov müəmmalı şəkildə qətlə yetirildilər.

Sonra satqın müdafiə naziri Rəhim Qazıyev Şuşada özünə "sui-qəsd" şousu düzəltdirərək şəhərin sadiq müdafiəçilərinin bir qismini sıradan çıxardı.

Ardınca zabit heyətinin bir hissəsi məzuniyyətə göndərildi.

Dağlar qoynunda tək qalan Şuşanın harayına çatan olmadı.

İranın fars-molla rejimi həmin dövrdə Azərbaycana rəhbərlik edəni "sülh danışıqları" adı ilə Tehrana apararaq ölkəni başsız qoydu.

Yiyə-vay dərdindən mərdlər məskəni Şuşa namərdlərin qurbanına çevrildi.

Sinəmizə çalın-çarpaz dağ çəkildi!

Şuşa həsrəti, Şuşa möhnəti otuz ilə yaxın davam etdi!

"Şuşa kimindirsə, Qarabağ da onundur" - deyiminin doğruluğuna bir daha əmin olduq!

❖❖❖

Müzəffər Ali Baş Komandan İlham Əliyevin prinsipiallığı və şəxsi fədakarlığı sayəsində azad edilən Şuşa əsgər və zabitlərimizin kütləvi qəhrəmanlığı məkanına çevrildi.

Şuşanın azadlığı uğrunda gedən son döyüşlər dünya müharibələri tarixində yeni səhifə açdı və bu gün dünyanın bir çox hərbi məktəblərində nümunə kimi öyrənilir!

Şuşanı xilas edənlər Qarabağın işğalından sonra dünyaya gələn, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yetişdirdiyi və tərbiyələndirdiyi gənclər oldular!

Onlar əvvəlcə dünyanın müxtəlif idman arenalarında, təkbətək mübarizədə düşmənə qalib gələrək üçrəngli bayrağımızı ucaltdılar, himnimizi səsləndirdilər!

Sonra şərəfli hərbçi peşəsini seçərək, hərbi vərdişlərə mükəmməl yiyələndilər.

Bir qismi isə hərbi əməliyyatlar başlanan kimi səfərbərlik məntəqələrinə müraciət edərək könüllü şəkildə döyüşlərə yollandılar.

Günlərlə ac qalmalarına, yorğunluqlarına baxmayaraq, Şuşaya qalxan dağ cığırları ilə irəlilədilər, keçilməz maneələri dəf etdilər, sıldırım qayalara dırmaşdılar, yaralıları belə yolda qoymayaraq özləri ilə apardılar.

Çiskinli, dumanlı Şuşada PUA-lardan istifadə mümkün olmadı.

Şəhərdə salamat qalmış binaları dağıtmamaqdan ötrü artilleriya və zirehli texnika da döyüşlərə qatılmadı.

Əlbəyaxa döyüşlər əsasən əsgər xəncərləri və əsgər lopatkaları ilə getdi!

Qəflətən qarşılarında Azərbaycanın xüsusi təyinatlısını görən ermənilər ya yerindəcə məhv edildilər, ya da qaçmağa üz tutdular.

❖❖❖

Şuşada Şuşaya layiq çarpışma getdi!

Şuşada Azərbaycan Ordusu öz gücünü və qüdrətini tam dolğunluğu ilə nümayiş etdirdi!

Xəyanətlə verilən Şuşa sədaqət, şücaət, qəhrəmanlıq və fədakarlıqla azad edildi!

Beləliklə, Şuşanın yeni dövrü, təzə dövranı başladı!

❖❖❖

Biz Şuşanı təkcə yaşayış məntəqəsi kimi qaytarmadıq!

Şuşa ilə bərabər tarixi keçmişimizi, milli-mənəvi dəyərlərimizin bir qismini də geri aldıq!

Şuşada çoxsaylı tarixi və dini abidələrimiz qalmışdı...

Azərbaycanın görkəmli şəxsiyyətlərinə məxsus muzeylərimiz talan edilmişdi...

Xalqımızın tarixində özünəməxsus yer tutan insanların evləri xaraba qoyulmuşdu...

Hər il Şuşada keçirilən çoxsaylı ənənəvi mədəniyyət tədbirləri yarımçıq qalmışdı.

Artıq onlar yenidən dirçəldilir, onlara yeni həyat verilir.

Şuşa yenidən mədəniyyət paytaxtı funksiyasını qürurla daşıyır!

❖❖❖

Azərbaycan xalqı hər il 15 iyunu dərin minnətdarlıq hissi ilə Milli Qurtuluş Günü kimi qeyd edir.

Düz otuz il öncə Ulu Öndər Heydər Əliyev xalqın çağırışı ilə ölkə rəhbərliyinə dönərək müstəqilliyini itirmək, bir dövlət kimi məhv olmaq ərəfəsində olan Azərbaycanı xaos və anarxiyadan, qanunsuzluq və özbaşınalıqdan xilas etdi!

Ölkədə möhkəm və dönməz sabitlik yaratdı, müstəqilliyimizi əbədiliyə çevirdi!

Xilaskarlıq missiyasını ləyaqətlə davam etdirən Müzəffər Ali Baş Komandan İlham Əliyev isə xalqımızın ən müqəddəs arzusunu həyata keçirdi!

Başda Şuşa olmaqla bütün Qarabağı və Şərqi Zəngəzuru erməni işğalından azad etdi!

Bu şanlı müharibədə başda hörmətli Rəcəb Tayyib Ərdoğan olmaqla bütün türk xalqı, Türkiyə dövləti də yanımızda oldu, bizə dayaq durdu.

Bir il sonra iyunun 15-də iki dost ölkənin qardaş prezidentləri - Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev tarixinin ən yüksək zirvəsinə çatan Azərbaycan-Türkiyə dostluğunu zirvə şəhərimiz olan Şuşada "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ni imzalamaqla rəsmiləşdirdilər.

Beləliklə, ruhumuzun paytaxtı Şuşa həm də dostluğumuzun qardaşlığa çevrildiyi məkan oldu!

❖❖❖

Qədim Şuşa böyük sürətlə və məhəbbətlə bərpa olunur!

Bərpa və quruculuq işlərinə şəxsən Prezident İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva rəhbərlik edirlər.

Cənab İlham Əliyev 2022-ci ili "Şuşa ili" elan etdi!

Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı adlandırdı!

Şuşa qoruq şəhərinə çevrildi.

Şuşa hazırda türk dövlətlərinin mədəniyyət paytaxtı statusunu daşıyır.

Dünyanın hər yerindən Şuşaya axın-axın qonaqlar gəlirlər.

Ard-arda bir-birindən maraqlı tədbirlər, görüşlər, müzakirələr keçirilir.

Şuşa öz daimi sakinlərinə qucaq açmağa hazırlaşır.

Mehriban xanım Əliyevanın bu sahədəki xidmətlərini xüsusi qeyd etməliyik.

Məhz onun təşəbbüsü və iştirakı ilə otuz ildən sonra Cıdır düzündə Novruz tonqalı qalandı, paxlava və şəkərbura göründü.

"Xarıbülbül" festivalı yenidən Azərbaycanda və dünyada yaşayan bütün xalqların, millətlərin, etnik qrupların mədəniyyətlərinin nümayişi missiyasını davam etdirməyə başladı.

Heydər Əliyev Fondunun dəstəyi ilə Ulu Öndər Heydər Əliyevin yadigarı olan Molla Pənah Vaqifin məqbərəsi bərpa olunaraq əvvəlki möhtəşəm vəziyyətinə gətirildi, "Vaqif Poeziya Günləri"ndə poeziya həvəskarları şeir məclislərini davam etdirdilər.

Məhz Mehriban xanım Əliyevanın fəaliyyəti sayəsində Yuxarı Gövhər ağa məscidi və neçə-neçə tarixi, dini abidə, habelə tarixi binalar bərpa olunaraq əvvəlki görkəminə qaytarıldı.

Belə xeyirxah təşəbbüslər və görülən işlər günü-gündən sürətini artırır.

❖❖❖

Dostluq insanların ruhən birliyidir!

Dostluq insanların əqidə birliyi, əməl birliyidir!

Dostluq həm də mənəvi dəyərdir, insanları bir-birinə yaxınlaşdıran, birləşdirən, çətinliklərin birlikdə həllinə kömək edən vasitədir.

Xalqımızın inancına görə dostluq həm də müqəddəs duyğudur.

İki qardaş dövlət arasında iki il əvvəl Şuşada imzalanan müttəfiqlik münasibətləri haqqında bəyannamə mənəvi, əqidə və milli dəyərlərə münasibətdə eyni baxışlara malik olduğumuzu da şərtləndirir.

XXI əsrə "Türk yüzilliyi" də deyilir.

Yeni əsrə Azərbaycan-Türkiyə əlaqələrinin yeni yüksəliş səviyyəsi, tarixdə olmadığı qədər möhkəm və sarsılmaz birliklə qədəm qoymuşuq.

Bu birlik və mehribanlıq "İki dövlət, bir millət və bir yumruq" olmaqla hər iki xalqın maraq və mənafeyinə tam uyğundur.

İnanırıq ki, Şuşa Bəyannaməsinin ömrü də ruhumuzun paytaxtı Şuşa kimi əbədi, saf, möhkəm və sarsılmaz olacaqdır!

***17 iyun 2023-cü il***

# Torpağın gücü

*Ordunun və siyasətin qüdrəti*

Qədim yunan əsatirlərində Antey adlı bir qəhrəman var.
Tükənməz gücə sahibdir.
Həmin gücü isə torpaqdan alır.
Herakl Anteyə qalib gəlmək üçün Zefsin məsləhəti ilə uzun müddət güləşdikdən sonra onu başı üzərinə qaldıraraq havada saxlayır.
Ayaqları torpaqdan üzülən Antey get-gedə zəifləyir və saatlar sonra tam gücdən düşür.
Beləliklə, Herakl onun kürəyini yerə vuraraq qalib gəlir.
Qarabağ torpağında da insana sonsuz güc verən qəribə bir hikmət var!
Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad etdiyi torpaqda!
Ora ayaq basan hər bir əsgər və zabitimiz, xüsusi təyinatlımız həmin andan etibarən güclərinə güc qataraq əfsanəvi yunan qəhrəmanlarından da üstün olurdular!
Odur ki, qüdrətli sərkərdələrinin rəhbərliyi ilə 44 gün ərzində düşmən ordusunu məhv etdilər, yalçın qayalara dırmaşaraq yalın əllə qala şəhəri Şuşanı azadlığa qovuşdurdular!
Bu gün qalib xalq və qalib dövlət olaraq daha xoşbəxt, daha güclü və daha qüdrətliyik!
Biz bu qələbəni hansısa qərar və ya qətnamənin, sülh danışıqlarının nəticəsi olaraq qazanmadıq.
Biz bu zəfərə müdrik və uzaqgörən Sərkərdəmiz, ən yeni silahlarla döyüşərək ən yeni strategiya və taktika tətbiq edən ordumuz, torpaqların azadlığı uğrunda qanını axıdan əsgər və zabitlərimiz, canını qurban verən şəhidlərimiz sayəsində nail olduq!
Daha kimsə bizə qalib gələ, bizdən torpaq qopara bilməz!
Biz Vətənimizə qayıtmışıq!
Biz Vətən torpağının üstündəyik!
Bu torpaq bizə tükənməz güc və qüdrət verir!

❖❖❖

Biz heç nəyi unutmamışıq!

Və heç zaman da unutmayacağıq!

* BMT-nin Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının ərazimizi danışıqsız tərk etmələri barədə 4 qətnamə çıxardı.

Otuz il ərzində həmin qətnamələri icra edən olmadı, adi kağız parçası kimi havada qaldı.

Bu vəziyyət də kimsəni zərrəcə narahat etmədi!

* Qarabağ problemini danışıqlar yolu ilə həll etmək üçün "ATƏT-in Minsk qrupu" adlı bir qurum yaradıldı.

Otuz il bu qurum boş və mənasız, nəticəsiz danışıqlarla vaxt apardı, sülh yolu ilə bir qarış torpağı belə azad etməyə yaramadı.

Sonda bizə "mövcud reallıqla barışmağı" təklif etdilər!

AŞ PA-da və Avropa PA-da dəfələrlə Azərbaycanın xeyrinə qərar və bəyanatlar çıxarıldı.

Ancaq bunlar da boş söz və mənasız kağız olaraq qaldı, işğaldakı torpaqların boşaldılmasına heç bir təsiri olmadı.

Amma dəfələrlə bu qurumların tribunasından Azərbaycanın əleyhinə ədalətsiz və qeyri-obyektiv fikirlər də səsləndirildi, sənədlər də qəbul olundu.

Serj Sarkisyan AŞ PA-da çıxış edərək Xocalı soyqırımını törətdiklərini və bununla da dinc Azərbaycan sakinlərini qorxutduqlarını etiraf etdi. Avropa isə bu caninin etirafını karlığa salaraq eşitmədi.

* Dünyanı idarə etmək üçün insanlar müxtəlif qurum və təşkilatlar yaradaraq orada "beynəlxalq qanunlar və konvensiyalar" qəbul ediblər.

Amma həmin "beynəlxalq qanun və konvensiyalar" Azərbaycanın haqq işinin həllinə kömək göstərmədi, halbuki elə qərarlar olub ki, mürəkkəbi qurumamış icra edilib.

Dünya hələ də ikili standartlarla yaşayır, qərarlar selektiv yolla qəbul və icra olunur!

* Bir vaxtlar bizə yeni yaranmış reallıqla hesablaşmağı və barışmağı tövsiyə edənlər nədənsə bizim yaratdığımız ən yeni reallıqları görmək istəmirlər.

Halbuki biz nəinki 5 rayonu, hətta onların qaytarılmasını şübhəli şəkildə sonraya saxladıqları 2 rayonu da öz gücümüzə azad etdik!

Özü də həmin rayonları bir güllə belə atmadan, döyüşsüz geri qaytardıq!

NECƏ BİLİRSİNİZ, CƏNABLAR:

* İndi sizin sözünüzlə;
* Sizin tövsiyənizlə;
* Cürbəcür bəyanatlarınızla;
* Təzyiq cəhdlərinizlə nəsə edəcəyik?!

Özünüz buna inanırsınız?!

* İndi torpaq da bizimdir!
* İndi yaratdığımız reallıq da bizimdir!
* Qüdrətli ordu da bizimdir!
* İkiəsrlik torpaq probleminin 30 illik münaqişə işğalından sonra qalib gələn tərəf də bizik!

Bu gün istəmədiyimizi bizə zorla etdirə bilərsiniz?!

Öz torpağımız üzərində qürurla gəzərək quruculuq işləri aparır, murdar ləpirlərinizin yerində yeni şəhər və kəndlər salırıq!

Sərhədlərimizə də özümüz nəzarət edir, istəyəndə qapını açıb-bağlayırıq!

Baxın a!

Yana-yana qalın a!

❖❖❖

* Torpaq təkcə qollu-budaqlı palıd, yaşı əsrlərlə ölçülən xan çinarlar bitirmir...
* Torpaq təkcə al-əlvan çiçəklər, ətri insanı bihuş edən güllər əmələ gətirmir...
* Torpaq təkcə dadından doymaq olmayan ləziz meyvələr, dadlı-tamlı tərəvəz və bostan məhsulları yetirmir...
* Torpaq təkcə bizi bağrına basıb qoynunda bəsləməklə Vətənimizə çevrilmir...
* Torpaq həm də bizə tükənməz güc, sevinc, bəxtəvərlik, rahatlıq bəxş edir!
* Biz öz torpaqlarımız uğrunda Vətəndə və Vətən uğrunda döyüşəndə güclü və məğlubedilməz oluruq!
* Biz Vətən uğrunda döyüşərək ölləndə bunu şərəf sayırıq, şəhid qardaş və övladlarımızla fəxr edib qürur duyuruq!
* Ayağımız öz torpağımızda olduğu bir vaxtda heç kəs bizə qalib gələ bilməz!
* Hətta bütün dünya bir yerə yığışsa belə!

❖❖❖

Bir zamanlar bizi inandırmağa çalışdılar ki, Qarabağ probleminin hərbi yolla həll variantı yoxdur.

Müzəffər Ali Baş Komandan İlham Əliyev sübut etdi ki, münaqişənin yegana həll variantı elə müharibə imiş!

Həm də üç cəbhədə - hərb, diplomatiya və informasiya müharibəsində qalib gələrək dediklərini şəxsi nümunəsi ilə də əyani olaraq göstərdi!

İndi torpaqlarımıza da qayıtmışıq, sərhədlərimizi də möhkəmləndirib onlara özümüz nəzarət edirik, quruculuq işlərimiz də görünməmiş sürətlə gedir!

Dünyada baş verən prosesləri soyuqqanlılıqla izləyərək lazımi nəticələr çıxarır, önləyici və təsirli addımlar atırıq.

Bu gün türk dünyasının mədəniyyət paytaxtı Şuşadan baxanda nələri görürük:

* Yenidən ATƏT-in Minsk qrupunu xortlatmaq, yaxud ona bənzər bir qurum yaradaraq sülhyaratma prosesini beynəlmiləlləşdirmək istəyirlər.

Ay-hay!

Əvvəla, İlham Əliyev ATƏT-in Minsk qrupunu elə bir yerə göndərməyib ki, kimsə onu oradan qaytara bilsin.

İkincisi, qaytarsalar da, dirildə bilməyəcəklər, çünki oradan qaytarılanlar bir daha dirilmirlər.

Üçüncüsü, əgər yeni bir qurum yaradaraq sülhə gəlmək belə asan və faydalıdırsa, onda ATƏT-in Minsk qrupuna bənzər birini təşkil edib Rusiya-Ukrayna müharibəsinə son qoyun da.

Dördüncüsü, görünən odur ki, hazırda erməniyə sülh müqaviləsini tezliklə imzalatmaq uğrunda yox, danışıqlarda "favorit" olmaq uğrunda mübarizə gedir.

Əgər səmimi-qəlbdən kömək etmək istəyirsinizsə, onda niyə bir-birinizin ayağından çəkirsiniz, elə birləşib ATƏT-i əvəz edin.

Azərbaycanın sülh şərtləri də ortadadır!

Beşincisi, Fransa müharibə dövründə əlinin çatdığı ən yuxarı yerdə - BMT Təhlükəsizlik Şurasında bir iş görə bilmədisə, indi erməniyə arxa durmaqla neyləyəcək?!

Belə getsə, “kiçik bacısı”nın dövlətçiliyinin də axırına çıxacaq.

Altıncısı, İran, Rusiya hərbi əməliyyatlar dövründə gecə-gündüz dayanmadan Ermənistana silah-sursat daşıdılar. Bu gün isə Hindistan da onlara qoşulub.

Neynək, əvvəlki silahları neynəmişiksə, təzələrini də həmin günə salacağıq!

Mərmi və dronlarımız, PUA-larımız çoxdur!

Lap çox!

❖❖❖

İndi Ermənistan "qohum-əqraba"sını başına yığaraq yeni tamaşa çıxarır!

"Qarabağda humanitar böhran" adlanan bu tamaşa, əslində, ötən əsrin 90-cı illərində "DQMV sosial-iqtisadi cəhətdən geridə qalıb" adlı sovet dövrü oyunbazlığının yeni traktovkasıdır.

Maşın karvanı Ermənistandan gələrək Laçın yolu ilə Qarabağa - Xankəndiyə ərzaq çatdırmaq istəyir!

Ay özünüz öləsiniz!

Getdi o günlər!

İstəyirsiniz təkcə Fransadan, Aİ-dən gələnləri, ölkənizdəki səfirləri və diplomatik işçiləri deyil, bütün dünyanı gətirib bu səhnəyə tamaşa etdirin!

Nə dəyişəcək?!

Əvvəla, Xankəndidəki mülki əhalinin deyil, orada Ermənistanın saxladığı və rus sülhməramlılarının hələ də çıxarmadığı separatçı qanunsuz silahlı qüvvələrin ərzağı tükənib!

Onları biz nə vaxt oradan çıxaracağımızı, harada saxlayacağımızı və nə yedizdirəcəyimizi yaxşı bilirik.

İkincisi, Qarabağ da bizimdir, Laçın və Xankəndi də bizimdir, hələ Laçındakı nəzarət-buraxılış məntəqəsi də!

Nə vaxt, kimin üzünə açarıq, özümüz bilərik!

Heç kəs istəmədiyimiz zaman o qapını bizə açdıra bilməz!

Qulağınızı açın, yaxşı eşidin!

Daha sovet dövrü deyil ki, hər şey Moskvadan idarə olunsun!

Artıq Azərbaycan müstəqil dövlətdir!

Azərbaycanın Prezidenti isə İlham Əliyevdir!

Hələlik sizə Ağdam-Xankəndi yolu ilə ərzaq daşımağa icazə veririk!

Hələlik!!!

Üçüncüsü, əgər yeni çəkilmiş Ağdam-Xankəndi asfalt yolunu bəyənmirsinizsə, beton blok və plitələrlə bağlayırsınızsa, öz seçiminizdir.

İstəsəniz, pəhrizə də otura bilərsiniz.

Amma Laçın yolunun və postunun sizin sərəncamınızda olaraq sizə xidmət etdiyi dövr artıq keçib!

Azərbaycan atalar sözündə deyildiyi kimi: o babanız ölüb!

Otuzillik dünya təcrübəsi göstərdi ki, məsələ beynəlxalq təşkilatların qərar və qətnamələri ilə, hansısa beynəlxalq vasitəçilərin köməyi, beynəlxalq hüquq və konvensiyalar və kiminsə təsir və təzyiq cəhdi ilə həll olunmur!

Həll yolunu 44 gündə, həm də əyani şəkildə necə lazımdırsa, eləcə də göstərdik!

❖❖❖

Bir maraqlı deyim də var:

"Allahı güldürmək istəyirsənsə, ona öz planların barədə danış".

İndi Allah sizə yalnız istehza ilə gülür.

Çünki Tanrı artıq üzünü Azərbaycan xalqına tərəf çevirib!

44 günlük Vətən müharibəsində Tanrı Müzəffər Ali Baş Komandan İlham Əliyevin arxasında dayandı, ordumuza kömək etdi, qisasımızı almağa, torpaqlarımızı qaytarmağa yardım göstərdi!

Ermənistana gizlincə, ədalətsizcəsinə kömək etmək istəyənlərin hərəsinə isə bir bəla verir:

* Rusiya Ukrayna bataqlığında ilişib qalıb.

Müharibədən qurtarsa da, sanksiyaların fəsadlarından uzun müddət qurtara bilməyəcək.

* İran təklənmiş, hörmətsiz vəziyyətdədir.

Nə öz xalqı fars-molla rejimindən razıdır, nə də dünya terroru dəstəkləyən, erməni ilə dostluq edib müsəlman qonşusuna xain çıxan bu dövləti saya salır.

Fransa demokratik ənənələrə arxa çevirən, müstəmləkəçi kimi xalqları soymaqdan doymayan, vətəndaşlarının etiraz aksiyalarını qəddarcasına boğan bir dövlətə çevrilib.

Onun prezidenti Makron isə seçicilərindən şillə-qapaz yeməkdən, erməni maraqlarını başçılıq etdiyi dövlətin maraqlarından üstün tutmaqdan yorulmur, adı daim qalmaqallarda hallanır.

Heç də yaxşı aqibət gözləmir ermənipərəst fransız prezidentini.

Avropa İttifaqında ikili mövqe müşahidə edilir.

Şarl Mişel sülh müqaviləsinin tezliklə imzalanmasında maraqlı görünür.

Həmkarı Cozef Borrel isə nala-mıxa vurur.

Reallıq isə budur ki, bu gün Aİ Azərbaycan ilə əməkdaşlıqda, ondan mavi qaz və "yaşıl enerji" almaqda maraqlıdır və üzvləri ilə çoxsaylı müqavilələr imzalanıb.

Qışda avropalılar Azərbaycan qazı ilə isinə bilər, erməni vay-şüvəni ilə yox!

❖❖❖

Acı bağırsaq kimi uzanan sülh danışıqlarında Azərbaycan Prezidenti İlham Əliyevin qəti və prinsipial mövqeyindən bir addım belə geri çəkilməyəcəyini bütün dünya yaxşı bilir!

44 günlük Vətən müharibəsində də bütün dünya İlham Əliyevin hər hansı təsir və təzyiq qarşısında kimsəyə güzəşt etmədiyinin şahidinə çevrildi!

Bu gün də İlham Əliyev xalqının və dövlətinin maraqlarını məharət və vətənpərvərliklə qoruyur, dediyinə sonadək əməl edir!

İndi kimlərsə bəyanat və açıqlama verməklə Azərbaycan Prezidentinə sərhəd qapısını açdıra bilər?!

Xam xəyalınızdır!

İndiyədək itirdikləriniz kifayət qədərdir və əgər dövlətinizi də itirmək istəmirsinizsə:

* Gecikmədən Qarabağdakı qanunsuz silahlılarınızı çıxarın!

* Gecikmədən ağlınızı başınıza yığıb Azərbaycanın məlum şərtləri əsasında sülh müqaviləsini imzalayın!

* Təxribat əməllərinizdən əl çəkin, özünüzə və dilənçi gününə saldığınız beyni zəhərli xalqınıza yazığınız gəlsin!

Bilin və əmin olun:

Prezidentimiz nəyi nə vaxt və necə etməyi hamıdan yaxşı bilir!

Ordumuz müharibə dövründəkindən daha güclü, daha qüdrətlidir!

"Dəmir yumruq" da həmişəki kimi öz yerindədir!

Qarabağ Azərbaycandır!

***9 avqust 2023-cü il***

# IV Fəsil

# *Daim xalqla birlikdə*

# Xalqa xidmətin möhtəşəm nümunəsi

Xoşbəxt o xalqdır ki, tarixinin taleyüklü məqamlarında onlara müdrik, uzaqgörən, qətiyyətli, xalqını və dövlətini qəlbən sevən insanlar başçılıq edirlər!

Başı bəlalar və müsibətlər çəkmiş Azərbaycanın bəxti bu sarıdan gətirmişdir.

Ulu Öndər Heydər Əliyevin siyasət aləminə qədəm qoyması ilə sanki Azərbaycana yeni günəş doğmuşdur.

Dövrün xüsusiyyətlərini incəliklərinə qədər bilən, sosializmin qəliblərindən ustalıqla yayınmağı və yararlanmağı bacaran Ümummilli Liderimiz ölkəyə rəhbərlik etdiyi müddət ərzində Azərbaycanı yenidən tikib-qurdu, kənd və şəhərlərin simasını dəyişdi, yeni təhsil və mədəniyyət ocaqları yaratdı, xalqımızın sosial rifahını və mədəni səviyyəsini əsaslı şəkildə yüksəltdi.

Ulu Öndər SSRİ-nin rəhbərlərindən biri kimi Moskvaya işləməyə getsə də , qəlbi daim Azərbaycanla döyünür, respublikamıza diqqət və qayğısını bir an belə azaltmırdı.

Məkrli, paxıl və xəyanətkar insanların bəd əməlləri nəticəsində Heydər Əliyevin böyük siyasətdən uzaqlaşması ilə Azərbaycanın faciəli günləri başladı.

Ölkəmizə qarşı "Qarabağ kaptı"ndan istifadəyə start verildi.

Həmin dövrdə Azərbaycana maymaq, qorxaq, təcrübəsiz və səriştəsiz adamların başçılıq etməsi hadisələrin fəlakətlə nəticələnməsinə səbəb oldu.

Azərbaycan ərazilərinin 20 faizini itirdi, 20 min övladı şəhid oldu.

Bütün bunlar azmış kimi dövlətin özünün mövcudluğu belə real təhlükə qarşısında idi.

Azərbaycan keçmişdəki kimi, xırda xalqlara parçalanmaq ərəfəsinə çatdırılmışdı.

Özünün ən doğru tarixi qərarını verən Azərbaycan xalqı üzünü yenidən sınanmış oğlu Heydər Əliyevə tutdu.

Xalqının təhlükəli dövrdəki çağırışına biganə qala bilməyən Ulu Öndərimiz yenidən ölkə rəhbərliyinə qayıtdı.

Tarixən çox qısa müddətdə ölkəni özbaşınalıqdan, xaos və anarxiya burulğanından qurtardı.

Müharibədə atəşkəsə nail olundu, qanunsuz silahlı dəstələr ləğv edildi, əhalidəki külli miqdarda silah-sursat toplanıldı.

Ulu Öndər Heydər Əliyev Azərbaycanı məhvolmadan qurtarmaqla yanaşı, dövlət müstəqilliyini qoruyub saxladı, əbədiliyə çevirdi, "Əsrin müqaviləsi" yeni neft kontraktını imzalayaraq ölkənin gələcək inkişaf və yüksəlişinin əsasını qoydu.

Lakin amansız ölüm ona Qarabağ torpaqlarını geri qaytarmağa, ərazi bütövlüyünü bərpa etməyə imkan vermədi.

❖❖❖

Ulu Öndər Heydər Əliyevin itkisi Azərbaycan xalqı və dövləti üçün çox ağır idi.

Tarix həm də göstərmişdi ki, Azərbaycan yalnız müdrik rəhbərinin müəyyən etdiyi yolla getməklə uğura və qələbəyə nail ola bilər.

Ümummilli Liderimizin ən böyük xidmətlərindən biri də siyasi varisini hazırlaması, canından artıq sevdiyi müstəqil Azərbaycanı etibarlı əllərə tapşırması oldu.

Bu münasibətlə 1 oktyabr 2003-cü ildə "Azərbaycan vətəndaşlarına müraciət"ində deyirdi: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram.

O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Azərbaycan xalqı sevimli rəhbərinin son vəsiyyətinə də əməl etdi.

Həm də bununla Azərbaycanın davamlı və sürətli inkişafının, ərazi bütövlüyünün bərpasının, xalqın xoşbəxt gələcəyinin əsası qoyulmuş oldu.

Xalqımız 2003-cü ildə cənab İlham Əliyevə səs verməklə, onu dövlət başçısı seçməklə Heydər Əliyev siyasi kursunun davamlılığını, yeni qələbələrin qazanılmasını da təmin etdi.

❖❖❖

Azərbaycan Prezidenti seçilənə qədər cənab İlham Əliyev özünü böyük siyasətdə, diplomatiya sahəsində və idarəetmədə sınamışdı.

"Əsrin müqaviləsi" neft kontraktının hazırlanmasında, orada Azərbaycanın maraqlarının təmin edilməsi üçün zəruri müddəaların salınmasında, çətin və gərgin keçən danışıqlar prosesinin uğurla başa çatmasında böyük zəhməti olmuşdur!

Cənab İlham Əliyev Milli Məclisin deputatı olduğu dövrdə Azərbaycanın AŞ PA-dakı deputat qrupuna başçılıq etmiş, AŞ PA-nın vitse-prezidenti seçilmiş və beləliklə, bu qurumda ölkəmizin milli maraqlarının müdafiəsinin təməlini qoymuşdur.

Həmin dövrdə İlham Əliyevin təklifi ilə AŞ PA-da Qarabağda erməni təcavüzünü, terrorunu, ekoloji fəsadlarını, narkoticarəti, işğal ərazisinin nəzarətsiz zonaya çevrilməsini ifşa və əks etdirən qətnamələr qəbul olunmuşdur.

Cənab İlham Əliyevin ən böyük uğurlarından biri Azərbaycanda gənclər siyasətinə dəyərli töhfələrini verməsi, Milli Olimpiya Komitəsinə rəhbərliyi dövründə ölkədə idmanın yüksəlişinə nail olması, yeni gənclər nəslini tərbiyələndirməsidir.

O gənclər nəslini ki, Qarabağın işğalından sonra dünyaya gəlsələr də, onun azad olunmasında şücaət və qəhrəmanlıqla vuruşdular, lazım gələndə şəhidlik zirvəsinə yüksələrək qələbənin təmin olunmasını canları və qanları ilə təmin etdilər.

Milli Olimpiya Komitəsinə rəhbərliyinin sonrakı dövründə cənab İlham Əliyev Azərbaycan idmanını dünya miqyasına çıxararaq böyük uğurlara imza atmasına, ölkəmizin idman dövləti kimi tanınmasına, beynəlxalq yarışların, dünya və Avropa birinciliklərinin keçirildiyi məkana çevrilməsinə nail oldu.

❖❖❖

Prezident İlham Əliyevin ölkəyə rəhbərliyinin ilk illəri rahat və asan olmadı.

Azərbaycanda sabitliyi pozmağa, rəngli inqilablar keçirməyə, faktiki rəhbərliyi dəyişməyə, özlərinə sərf edənləri hakimiyyətə gətirməklə təbii sərvətlərimizi ələ keçirməyə çalışanlar az deyildi!

Rəhbərliyinin ilk dövrlərindən cənab İlham Əliyev dövlətə və dövlətçiliyə, milli maraqlara sədaqəti, möhkəm iradəsi və qətiyyətli addımları ilə bütün şər qüvvələrini məharətlə zərərsizləşdirdi.

İlham Əliyevin Azərbaycana rəhbərliyi illəri ölkənin sürətli və davamlı tərəqqisi ilə xarakterizə olunur.

Ötən 18 ildə Azərbaycan öz tarixinin ən qüdrətli dövrünə qədəm qoymuş, enerji, nəqliyyat, ərzaq təhlükəsizliyi təmin olunmuş, qeyri-neft sektoru, sahibkarlıq inkişaf etmiş, vətəndaş cəmiyyəti formalaşmış, xalqın sosial rifahı əsaslı şəkildə yüksəlmişdir.

"Əsrin müqaviləsi"nin açdığı yolla inamla irəli gedən cənab İlham Əliyev Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi nəhəng transmilli layihələrə həyat vəsiqəsi vermiş, "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizlərini işə salmış, Azərbaycanı logistika mərkəzinə çevirmişdir.

Yeni layihələri gerçəkləşdirərkən ölkəmizə yeni dostlar və müttəfiqlər qazandırmış, Avropanın neft və təbii qazla təminatında etibarlı tərəfdaş imicini formalaşdırmışdır.

Prezident İlham Əliyev gördüyü bütün işlərdə bir an da olsun belə işğal altındakı torpaqların azad olunmasını unutmur, bütün iqtisadi, siyasi və diplomatik resursları bu vəzifənin uğurlu həllinə məharətlə yönəldirdi! İlk Prezidentlik dövrünə başladığı gündə -

31 oktyabr 2003-cü ildə andiçmə mərasimində verdiyi vədlərə şərəflə əməl etdi: "Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəkdir. Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir".

2000-ci illərin əvvəllərində ölkədə vəziyyət bir o qədər də ürəkaçan deyildi. Bir milyondan çox qaçqın və məcburi köçkün ağır vəziyyətdə yaşayırdı, yoxsulluq və işsizlik yüksək səviyyə təşkil edir, yol infrastrukturu köhnə və

yararsız vəziyyətə düşmüşdü. Regionlara elektrik enerjisi fasilələrlə verilir, kəndlərin əksəriyyəti qazlaşdırılmamışdı.

Prezident İlham Əliyev bütün istiqamətlərdə - iqtisadiyyatın yüksəldilməsi, siyasət, diplomatiya, beynəlxalq qurum və təşkilatlarla iş, hərbi quruculuq sahəsində dayanmadan, yorulmadan çalışdı, əsaslı dəyişikliklərə nail oldu.

Vəd verdiyi müddətdən də tez bütün çadır şəhərciklərini ləğv etdi, qaçqın və məcburi köçkünləri hər cür infrastrukturu olan müasir şəhərciklərə, dövlət hesabına tikilərək təmir olunmuş evlərə köçürdü.

Azərbaycanın ən ucqar kəndlərinə belə yeni yollar salındı, qaz xətti çəkildi, sutka ərzində fasiləsiz elektrik enerjisinin verilməsi təmin olundu.

Regionların sosial-iqtisadi inkişafına dair dörd dövlət proqramının qəbulu və uğurlu icrası kəndlərin dirçəlməsinə, kənd təsərrüfatının və sahibkarlığın inkişafına, yeni iş yerlərinin yaradılmasına mühüm töhfələr verdi.

Sənaye məhəllələrinin və yaşıl parkların salınması, güzəştli kreditlərin və müxtəlif növ məhsul istehsalına görə dövlət tərəfindən subsidiyaların verilməsi, əkinlərin suvarma suyu ilə təmini insanların aqrar sektorda sahibkarlıqla məşğul olmasına, gəlirlərinin artmasına və güzəranlarının yaxşılaşmasına əsaslı dəstək oldu.

Cənab İlham Əliyevin Prezidentliyi dövründə paytaxt Bakı yenidən tikilib quruldu, parklar, yaşıl xiyabanlar salındı, şəhər tanınmaz dərəcədə təzələndi, dəyişdi. Bunu təkcə paytaxtda yaşayanlar yox, əvvəllər Bakıda olaraq, sonradan qonaq gələn əcnəbilər, hətta vətəndən bir müddət uzaqda yaşayıb geri dönən azərbaycanlılar da sevinclə, heyrətlə etiraf edirlər.

Artıq müstəqil Azərbaycanın paytaxtı Bakı dünyanın ən gözəl, ən sabit və təhlükəsiz şəhərlərindən biri, turistlərin sevdiyi və həvəslə gəldiyi məkandır.

Ölkəmizin bütün guşələrində yaşayan vətəndaşlarımız İlham Əliyevin yaratdığı şəraitdən istifadə edərək özlərinə bir-birindən gözəl evlər tikdirmiş, həyat şəraitlərini xeyli yaxşılaşdırmışlar.

Ailələrin böyük əksəriyyəti minik maşınına sahibdir, hətta elə ailələr var ki, hər üzvünün öz avtomobili vardır. Şəxsi rifahın yüksəlməsindən, avtomobil bolluğundan hətta yeni problem yaranmış, paytaxtda avtomobil tıxacları adi hala çevrilmişdir.

Cənab İlham Əliyevin qayğısı sayəsində dövlət hesabına xarici ölkələrdə təhsil alan gənclərimizin sayı ilbəil artır, neft kapitalının insan kapitalına çevrilməsi prosesi uğurla reallaşır.

Dövlət başçısı olaraq İlham Əliyevin ən böyük uğuru, şübhəsiz, Azərbaycanı iqtisadi cəhətdən qüdrətli, yüksək siyasi nüfuza malik dövlətə çevirməsi və Qarabağı düşmən işğalından azad edərək ərazi bütövlüyünün bərpasıdır.

Xalqımız bunu Müzəffər Ali Baş Komandan İlham Əliyevin misilsiz şücaət və qəhrəmanlığı, yaratdığı əsl möcüzə kimi dəyərləndirir!

İlham Əliyev özü tərbiyələndirib oxutdurduğu əsgər və zabitlər hesabına qüdrətli, döyüşkən, ən çətin tapşırıqların belə öhdəsindən uğurla gələn qüdrətli ordu yaratdı!

Həmin ordunu ən müasir silahlarla silahlandırdı, yeni taktika və strategiya hazırlayaraq hərbi əməliyyatların gedişində məharətlə tətbiq etdi!

Beynəlxalq rəylə işləyərək onu Azərbaycanın xeyrinə köklədikdən sonra hərbi əməliyyatlara qərar verdi.

27 il ərzində sülhə gəlməyən, havadarlarına güvənərək Azərbaycanı yeni müharibə başlayacağı təqdirdə "yeni əraziləri itirəcəyi" ilə hədələyən erməni faşizmini 44 gün ərzində biabırçı məğlubiyyətə uğradaraq ordusunu məhv etdi!

44 gün ərzində təkcə hərb meydanında deyil, diplomatiya sahəsində, informasiya müharibəsində də çarpışaraq istədiyinə nail oldu!

Dövlət başçılarının, beynəlxalq qurum və təşkilat rəhbərlərinin xahiş, çağırış və təzyiq cəhdlərinə baxmayaraq irəli sürdüyü şərtə - düşmənin işğal ərazilərindən çıxarılması ilə bağlı qrafiki təqdim etməyənə, kapitulyasiya aktını imzalamayana qədər hərbi əməliyyatları dayandırmadı!

Hər günü qələbə ilə başa vurdu, hər gün neçə-neçə kənd, qəsəbə və şəhər işğaldan azad olundu!

Düşmən qoşunu Azərbaycan Ordusu qarşısında fərarilər yığnağına çevrildi, qorxaqcasına qaçıb gizləndi!

İlham Əliyev informasiya müharibəsində təkbaşına vuruşaraq otuzdan çox dünya KİV-inə müsahibə verdi, jurnalistlərin bütün suallarını ustalıqla cavablandırdı, feyk xəbərləri ifşa etdi.

Fürsətdən istifadə edərək Azərbaycan həqiqətlərini olduğu kimi dünyaya yaydı, erməni faşizminin əsl simasını açıq göstərdi, Azərbaycanın nəyə qadir olduğunu hünərlə nümayiş etdirdi.

Dünyaya ən müasir müharibə nümunəsi qoydu, bir sıra aparıcı dövlətləri belə Azərbaycan Ordusundan, onun yeni taktika və strategiyasından öyrənməyə, bəhrələnməyə sövq etdi.

Qarabağ zəfəri, düşmənin işğal ərazilərindən qovularaq ərazi bütövlüyünün bərpası, əslində, Azərbaycanın ən çətin, ən ağrılı, ən böyük probleminin möhtəşəm həlli İlham Əliyevin Azərbaycanda Prezidentliyinin ən yüksək zirvəsi və uğurlu yekunu hesab olunur!

Müzəffər Ali Baş Komandan İlham Əliyev bu qələbəsi ilə Azərbaycanı qalib dövlətə, Azərbaycan xalqını qalib xalqa çevirdi, dövlətimizin və xalqımızın nüfuzunu, hörmətini dünya miqyasında qat-qat artırdı.

İndi hamı Azərbaycanı tanıyır, ona ehtiramla yanaşır, qələbəsini təqdir edir!

İlham Əliyev bu qələbəsi ilə ölkəmizin Cənubi Qafqazın ən güclüsü olduğunu təsdiq etməklə yanaşı, regionda yeni konfiqurasiya formalaşdırdı, sülhə, əməkdaşlığa yol açdı!

İlham Əliyevin bu qələbəsi dünyaya da yeni ab-hava gətirdi. İndi əraziləri işğalda olan dövlətlər Azərbaycandan öyrənməklə qətiyyətli addımlar atmaq barədə düşünürlər.

Bəli, İlham Əliyev Azərbaycanı dünyaya nümunə göstərməkdə davam edir!

İlham Əliyevin Azərbaycana 18 illik Prezidentliyi isə bütövlükdə dövlətə, xalqa, vətənə xidmətin ən parlaq nümunəsi sayılır!

***15 oktyabr 2021-ci il***

# Ucalan və ucaldan rəhbər

Əgər cənab İlham Əliyev təkcə işğaldakı torpaqları qaytararaq ölkəmizin ərazi bütövlüyünü bərpa etsəydi, bu, onun Azərbaycan tarixinin ən şərəfli səhifəsində əbədi olaraq özünə ən yüksək yer tutmasına bəs edərdi!

Amma tarixinin ən qüdrətli Azərbaycanını yaradan Prezident İlham Əliyevin bu şanlı qələbəyədək etdiklərinin də sayı-hesabı yoxdur!

Azərbaycan xalqı həm də belə bir rəhbəri olduğuna görə şərəf və qürur duymağa, daim onunla fəxr etməyə haqlıdır!

Cənab İlham Əliyev hansı işə qol qoyubsa, hansı müşkül məsələnin həlli ilə məşğul olubsa, həmişə onu uğurla, qələbə ilə başa çatdırıb!

Ruhdan düşmək, yarı yolda dayanmaq, geriyə çəkilmək İlham Əliyevin xarakterinə ziddir!

Nə zəhmətdən yorular, nə inadından dönər, nə də həqiqət saydığı yoldan qayıdar!

Əsl qladiator, cəngavər kimi sonadək döyüşər, məqsədinə çatmayanadək rahatlıq və dinclik tapmaz!

İşıqlı zəkası, poladtək möhkəm iradəsi, özünəməxsus fəhmi və uzaqgörənliyi, xarizması və sözübütövlüyü qələbəsini təmin edən ilahi keyfiyyətləridir!

İlham Əliyev Heydər Əliyev məktəbində əyani "təhsil alan", daim onun yanında olaraq ondan öyrənən, özü də məktəb yaradan yeganə şəxsiyyətdir.

Ən nəhayət, Ulu Tanrı daim onunladır, ona kömək edir, arxa durur, qoruyub saxlayır!

## *Zamanında və düzgün atılan addımlar*

Deyirlər, ən dəqiq hesablamalar riyaziyyatçılara məxsusdur!

Yəqin ki!

Riyazi hesablamalar adətən kağız üzərində, indiki zamanda isə kompüterlərdə aparılır.

Nədənsə ən dəqiq hesablamaların nəhəng siyasətçilərə məxsus olduğu qənaətindəyəm!

Çünki onlar öz hesablamalarını zəkalarında, həm də zaman üzərində, zamanı və dövrü nəzərə almaqla edirlər!

Hesablamaların dəqiqliyi isə hadisələr başa çatdıqdan sonra görünür, atılan addımların uğuru, görülən işlərin nəticəsi ilə öz təsdiqini tapır!

Riyazi hesablamaların səhvi özünü eksperimentin uğursuzluğunda, nisbətən kiçikhəcmli məsələlərdə büruzə verir.

Siyasətçinin səhvi isə zamanın gedişində təkcə geriləmə ilə deyil, həm də böyükhəcmli iqtisadi ziyanla, bəzən çoxsaylı insan tələfatı ilə sonuclana bilir!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin 44 günlük Vətən müharibəsini hazırlaması, hərbi əməliyyatların gedişatı, yekunu və nəticələrinin uğuru isə, şübhəsiz, XXI əsrin ən mükəmməl hərbi-siyasi gedişlərinin hesablanma nümunəsi sayıla bilər!

Bunu təkcə II Qarabağ müharibəsinin möhtəşəm yekunu deyil, həm də onun dərslərindən öyrənənlərin sayı və sanbalı da təsdiq edir!

Cənab İlham Əliyev öz hesablamalarını çox sadə, eyni zamanda hamının başa düşəcəyi şəkildə belə ifadə edir:

"Nəyi nə vaxt və necə etmək!"

Əslində, bu sadə formulun arxasında böyük intellekt, zəngin təcrübə, hadisələrin mahiyyətinə varıb onlardan düzgün nəticə çıxarma, üstəgəl, əlverişli məqamı gözləmə və vaxt seçmək məharəti də dayanır!

Bəli, zamanında atılan addımların qalibiyyətinə Ulu Tanrı özü də kömək edirdi!

Üstəlik, 44 günlük Vətən savaşında sanki İlham Əliyevin yanında duraraq əlini onun kürəyinə qoymuşdu!

Eyni zamanda seçilən "hərbi məqam"ın "yetişdirilməsində" də Müzəffər Ali Baş Komandan ilə birlikdə idi.

BAXIN:

* Dünyanın başı COVID-19 adlı bir bəla ilə mübarizəyə qarışmışdı...

* Bütün dövlətlər qapılarını bağlamış, özünə qapılmış, mühüm tədbirlər, konfranslar, iclaslar, görüşlər, qərar qəbul edən təşkilatların fəaliyyəti dayandırılmış və ya onlayn formaya keçirilmişdi...

* Ermənilərin dostları və himayədarları, erməni diaspor və lobbiləri bir növ iflic vəziyyətinə düşmüşdü...

* İşğalçının əsas himayədarlarından olan Fransa sarıjiletlilərin ardıcıl etiraz aksiyaları nəticəsində başını itirərək öz hayında idi...

* Erməni lobbisinin güc sahibi olduğu ABŞ növbəti prezident seçkilərindən sonra Kapitoliyaya hücumun və bu məkanda insan tələfatı ilə bağlı tarixinin böyük qalmaqalını yaşayırdı...

* Rusiya yeni sanksiyalardan boğulurdu...

* Bütün bu qarmaqarışıqlıqdan istifadəyə çalışan Paşinyan Ermənistanı isə "yeni müharibə və yeni ərazilər" xülyası ilə dayanmadan atəşkəsi pozur, Tovuz bölgəsindən hücuma keçərək ixrac boru kəmərlərini ələ keçirmək istəyirdi...

İlham Əliyev hazırlığı, qətiyyəti, iradəsi və uzaqgörənliyi ilə bu mürəkkəb situasiyanı Azərbaycanın xeyrinə məharətlə çevirməyi bacardı!

Əks-hücumda yaxalanan mənfur düşmən bədnam əməllərinin bədəlini ödəməli oldu!

## *Xalq öz rəhbərini belə tanıyır*

Allah-təala İlham Əliyevdən heç nəyi əsirgəməyib!

* Dahi şəxsiyyətin ailəsində dünyaya göz açıb.

* Dünyanın ən həlim, mehriban, fədakar anasının qucağında böyüyüb.

* Mükəmməl təhsil alıb, bir neçə dili ana dili qədər dərindən bilir.

* Böyük xarizma sahibidir.

* Dərin ağıla və zəkaya malikdir.

* Əsl Azərbaycan kişilərinə xas boy-buxunu, yaraşığı var.

* Özünə əsl Azərbaycan xanımını ömür-gün yoldaşı seçməklə eyni zamanda dost və sirdaş da qazanıb.

* Həddindən çox ciddidir, nadir hallarda gülür.

* Böyük fiziki gücə, yüksək enerjiyə, yorulmadan işləmək qabiliyyətinə malikdir.

* Qeyri-adi nitq sahibidir: istənilən mövzuda saatlarla, heç bir qeydə baxmadan zəruri və unikal misalları gətirməklə sinədəftər, dəmir məntiqə söykənən çıxışlar edə bilir.

* Müdrikdir, uzaqgörəndir, unikal yaddaş sahibidir, tərəf-müqabilini istənilən anda mat qoyan faktlar, arqumentlər səsləndirməyi bacarır.

* Hirslənəndə qəzəbini boğub gizlətməyi, qeyri-adi gedişlərlə tərəf-müqabilindən ustalıqla "qisas" almağı bacarır.

* Məqsədə çatmaq yolunda illərlə, inadla çalışmaq, qeyri-adi, dəqiqliklə hesablanmış addımlar atmaq ustasıdır.

* Böyük ürək, geniş qəlb, yüksək səxavət sahibidir.

* Dövlətin və xalqın maraqlarını daim uca tutar, bu məsələdə heç zaman, heç kəsə güzəştə getməz.

* Şəhid analarını, körpə balalarını öpüb bağrına basanda gözlərinin yaşardığını dəfələrlə görmüşük.

* Dəmir yumruğunu düşmənə silkələyərək başını əzdiyinin şahidinə çevrilmişik.

* İndiki çağında 20 kiloluq qantelləri oynatmağını heyrətlə izləmişik.

* "Nooldu, Paşinyan!" söyləyərək ürəklə gülməsindən ürəkdən zövq almışıq.

Budur Azərbaycan xalqının sevdiyi İlham Əliyev!

Budur Qarabağın xilaskarı İlham Əliyev!

Budur dünyanın sayılıb seçilən rəhbərlərindən biri olan Azərbaycan Prezidenti cənab İlham Əliyev!

## *İlham Əliyev Azərbaycanın radikal müxalifətinin satqın və xəyanətkar mahiyyətini də ifşa etdi*

Birinci Qarabağ müharibəsi dövründə yaşayanlar Şuşanın, Laçın və Kəlbəcərin düşmənə verilməsində, Xocalının müdafiəsiz qoyularaq soyqırımına uğradılmasında, Ağdamın süqutunda AXC-Müsavat cütlüyünün xəyanətkar əməllərini yaxşı xatırlayırlar.

Ə.Vəzirovun xain hərəkətlərindən, A.Mütəllibovun qorxaqlığından və qətiyyətsizliyindən istifadə edən cəbhəçilər piket, tətil və mitinqlər yolu ilə ölkəni idarəolunmaz vəziyyətə gətirdilər, sonra parlamentdə çevriliş törədərək zor gücünə hakimiyyəti ələ aldılar.

AXC-Müsavat cütlüyünün təyin etdiyi müdafiə naziri Rəhim Qazıyevin xəyanətkar olması məhkəmə qaydasında sübuta yetirilmişdir. Onun Şuşada özünə qarşı qurdurduğu "sui-qəsd" oyunu, əslində, şəhərin müdafiəsinin pozulmasına, bu müdafiə sahəsində mühüm işlər görən vətənpərvər və nüfuzlu insanların cismən məhv edilərək qala şəhərin asan yolla, döyüşsüz düşmənə verilməsinə xidmət edirdi.

Laçının müdafiəsiz qoyulması, hətta düşmən hücumunun qarşısını almalı olan zirehli texnika və canlı qüvvənin Bakıya gətirilərək parlament çevrilişinə cəlb edilməsi dövlətə və xalqa qarşı xəyanətin bariz nümunəsidir!

AXC-Müsavat cütlüyü nəinki Kəlbəcərin müdafiəsini təşkil etmədi, heç dinc əhalinin sağ-salamat qırğından çıxarılmasına belə yardım göstərmədi.

Sonra məcburən ev-eşiyini tərk edənlərin qəzəbindən qorxaraq onların Bakıya buraxılmasını da qadağan etdi.

Bu səriştəsizlər, xəyanətkarlar iqtidarda olduqları müddətdə kolxoz və sovxozların mal-qarasını, fabrik və zavodların anbarlarındakı məhsulları (o dövrdə

özəlləşdirmə aparılmamışdı), şərab emalı müəssisələrinin çaxır və konyaklarını satıb ciblərini doldurmaqla, rüşvətxorluq və korrupsiya ilə məşğul idilər.

1993-cü ildə AXC-Müsavat cütlüyünün "fəaliyyətlərinə" ictimai baxışa çevrilən məşhur "may müşavirəsi"ndə Ə.Elçibəy, Əli Kərimli, hüquq-mühafizə orqanlarına və gömrüyə rəhbərlik edənlər öz biabırçı əməllərini konkret faktlarla özləri ifşa etməklə xalqa çatdırdılar.

Prezident İlham Əliyev də ölkəyə rəhbərliyi dövründə radikal müxalifətin satqın əməllərini dəfələrlə ifşa edib, onların antimilli hərəkətlərinin əsl qiymətini dəqiqliklə açıb göstərib: "O dövr bizim milli faciəmiz, milli rəzalət dövrü idi. AXC-Müsavat hakimiyyəti dünya miqyasında bəlkə də ən biabırçı hakimiyyətlərdən biri idi, bəlkə də birincisi idi. Ölkə əldən gedirdi, ölkədə vətəndaş qarşıdurması pik həddə çatmışdı, torpaqlar işğal altına düşürdü, ancaq onlar yalnız öz mənafeyini, öz maraqlarını düşünürdülər. Hakimiyyətə gəlmiş antimilli ünsürlər Azərbaycanı demək olar ki, bütün beynəlxalq tərəfdaşlardan, xarici tərəfdaşlardan təcrid etdilər və həm xarici, həm daxili siyasətdə kobud səhvlər buraxdılar və cinayətlər törətdilər".

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı və Ordusu erməni faşizminə qarşı müharibəyə qalxanda ölkədə fəaliyyət göstərən bütün müxalifət partiyaları birgə bəyanat imzalayaraq dövlətin yanında olduqlarını, bu mübarizəyə dəstək verdiklərini bildirdilər.

Radikal müxalifət bu sınaqlı günlərdə də xalqın maraqlarından uzaqda qaldığını, yalnız şəxsi mənafe güddüyünü göstərərək düşmənə qarşı birləşənlərin sırasına qoşulmadı.

Bununla özləri özlərini bir daha ifşa etdilər!

İlham Əliyev bütün imkan və qüvvələri səfərbərliyə alaraq Azərbaycan xalqının ən ülvi, hətta əlçatmaz görünən arzusunu şərəf və fədakarlıqla yerinə yetirdi!

Kimin kim olduğunu əyani şəkildə nümayiş etdirdi!

Eyni zamanda torpaqları özləri erməniyə verərək onu geri qaytara bilməməkdə iqtidarı günahlandırmağa cəhd edən antimilli qüvvələri, "5-ci kolon" üzvlərini əliyalın qoyaraq rəzil duruma saldı!

"Dəmir yumruğ"u ilə düşmənin belini qıran Müzəffər Ali Baş Komandan İlham Əliyev AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində işğalda olan torpaqları azad etdi!

## *"Dəmir yumruğ"un qüdrəti*

Otuz il Qarabağ torpaqlarını işğalda saxlayan mənfur düşmən 44 gündə yerlə-yeksan edildi!

Quduran, Azərbaycan torpaqlarının əbədi olaraq özündə qalacağını düşünən düşməni rəzil günə Müzəffər Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğ"u saldı!

Bu qüdrətli yumruq düşmənin başını ilan başı kimi əzdi!

Bu qüdrətli yumruq düşmənin belini çubuq kimi qırdı!

Bu qüdrətli yumruq düşməni müqəddəs torpaqlarımızdan iti qovan kimi qovdu!

Qüdrətli yumruq qüdrətli, əzəmətli şəxsiyyətlərə məxsus olur!

Məhz İlham Əliyev kimi siyasət və hərb nəhənglərinə!

Təbiidir ki, "dəmir yumruq" ifadəsi məcazi mənada işlədilir.

O da təbiidir ki, bu qüdrətli yumruğun zərbələrinin nəticələri həyatda, reallıqda əyani şəkildə görünür:

* düşmənin torpaqlardan qovulmasında;
* onun ordusunun məhv edilərək qorxaqlar, fərarilər və məğlublar dəstəsinə çevrilməsində;
* bu gün hamımızın qəzəblənərək və kövrələrək getdiyimiz təmizlənmiş və təhlükəsiz azad ərazilərimizdə;
* mədəniyyət paytaxtı Şuşamızda və külli Qarabağımızda!

Bəs "Dəmir yumruğ"u yaradan amillər, onu güclü və qüdrətli edən komponentlər hansılardır?!

Şübhəsiz, "dəmir yumruq" öz gücünü ən əvvəl sahibinin zəkasından, Vətənə qədərsiz sevgisindən, uzaqgörənliyindən, yüksək diplomatik bacarığından, misilsiz hərbi məharətindən, möhkəm və dönməz iradəsindən alır!

"Dəmir yumruğ"un bir sıra real əsasları da mövcuddur.

Onları nəzərdən keçirək:

**1. Maliyyə qaynaqları**

Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılmasını və Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin reallaşdırılmasını təmin edən Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın gələcək inkişafının bütün istiqamətlərini də müəyyənləşdirmişdi. Xalqın məhəbbətlə "Heydər Əliyev dövlətçilik kursu" adlandırdığı bu istiqamətlərin əzm və şərəflə davamı missiyası isə cə-

nab İlham Əliyevin üzərinə düşürdü. O, bu çətin və mürəkkəb missiyanı uğurla davam etdirmək və Ulu Öndərimizdən yarımçıq qalmış işləri möhtəşəm sonluğa çatdırmaqdan ötrü gərgin və səmərəli fəaliyyətə başladı.

Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ilk növbədə, onun güclü iqtisadiyyatını formalaşdırmaq zəruri idi.

Buna qədər mürəkkəb və çətin şəraitdə aparılan neft danışıqlarında əzmlə iştirak edən cənab İlham Əliyev Azərbaycan xalqının milli maraqlarının təmininə xidmət göstərən müqavilələrin, ilk növbədə, "Əsrin müqaviləsi"nin və digər iyirmiyədək sazişin bağlanmasına öz dəyərli töhfəsini verdi.

Bütün maneə və əngəllərə baxmayaraq, Bakı-Tbilisi-Ərzurum təbii qaz kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu xətti də deyilən vaxtda gerçəyə çevrildi.

"Neft ölkələrə xoşbəxtlik də gətirə bilir, bədbəxtlik də! Mən çalışacağam ki, Azərbaycan nefti Azərbaycan xalqına yüksək rifah və xoşbəxt həyat gətirsin", - deyən cənab İlham Əliyev bütün fəaliyyəti boyu bu prinsipinə sadiq qaldı.

Beləliklə, neft-qaz gəlirləri iqtisadiyyatın digər sahələri üçün lokomotiv rolunu oynadı!

Büdcəyə daxilolmalar artdıqca xalqın sosial rifahı yüksəldi, müstəqil dövlətimizin iqtisadi gücü və imkanları da artdı.

Bir milyon nəfərdən artıq qaçqın və məcburi köçkünün sosial müdafiəsi gücləndirildi.

Cənab İlham Əliyev "Bir nəfər də çadır şəhərciklərində yaşayan məcburi köçkün qalmayacaqdır" vədini dediyindən də qısa müddətdə gerçəkləşdirdi, 115 qaçqın şəhərciyi və yaşayış kompleksi tikdirərək 62 mindən artıq ailəni oraya köçürdü.

Prezident İlham Əliyev bir an da olsun belə işğaldakı torpaqların geri qaytarılması əzmindən geri durmurdu!

Çoxcəhətli və çoxşaxəli fəaliyyət göstərir, inamla, addım-addım məqsədinə doğru yaxınlaşırdı:

* Ölkənin enerji, nəqliyyat və ərzaq təhlükəsizliyi təmin edildi.

* Regionların sosial-iqtisadi inkişafına dair dörd dövlət proqramı qəbul edildi, onlar əlavələrlə birlikdə, uğurla həyata keçirildi.

* Sahibkarlığın inkişafına əlverişli şərait yaradıldı, onlara sistemli şəkildə güzəştli kreditlər verildi, digər yardımlar göstərildi.

* Qeyri-neft sektorunun, xüsusən də kənd təsərrüfatının inkişafına böyük diqqət yetirildi, dövlət tərəfindən mütəmadi subsidiyalar ayrıldı.

* Ölkənin neftdən asılılığının azaldılması üçün sistemli tədbirlər görüldü.
* Vətəndaş məmnunluğu yaradıldı, dövlət büdcəsinin həcmi ilbəil artdı.
* Hər il ordu quruculuğuna və onun ən müasir silahlarla təminatına kifayət qədər vəsait ayrıldı!

**2. Yeni vətənpərvər gənclər nəsli yetişdirildi**

Biz ilk dəfə yeni vətənpərvər gənclər nəslinin hayqırtısını 2020-ci ilin iyulunda gördük.

Hətta COVID-19 təhlükəsinə baxmayaraq, minlərlə gənc Bakının küçələrinə axışaraq Ermənistanın Tovuz istiqamətindən ölkəmizə dalbadal hücumlarına qarşı hiddətini bildirir, daim Müzəffər Ali Baş Komandan İlham Əliyevin yanında olduqlarını söyləyir, onun bir əmri ilə döyüşlərə atılaraq Qarabağı işğaldan azad edəcəklərini bəyan edirdilər!

Az sonra 44 günlük Vətən müharibəsi başlayanda həmin gənclər mənfur düşməni məğlub edərək vədlərini yerinə yetirdilər!

Qarabağı görməyən, Qarabağdan kənarda doğulan qəhrəman Azərbaycan gənci Qarabağı işğaldan qurtardı!

Bu gənclər nəslini də İlham Əliyev tərbiyələndirərək yetişdirmişdir.

Bunun üçün bir neçə istiqamətdə səmərəli iş aparmışdır.

Ulu Öndər Heydər Əliyev tərəfindən formalaşdırılan gənclər siyasəti uğurla davam etdirilmişdir.

Belə ki, YAP-ın gənclər təşkilatının, ölkədə fəaliyyət göstərən digər qurumların və QHT-lərin imkanlarından səmərəli istifadə olunmuş, möhkəm əqidəli və mənəviyyatlı, azərbaycançılıq ideologiyasına sadiq gənc nəsil tərbiyələndirilmişdir.

Milli Olimpiya Komitəsinin Prezidenti kimi cənab İlham Əliyev ölkədə idmanın inkişafına mühüm töhfələr vermiş, güclü maddi-texniki baza yaratmış, Azərbaycanı beynəlxalq səviyyəli yarışların keçirildiyi məkana çevirmişdir.

I Avropa Oyunlarının təşəbbüsçüsü və təşkilatçısı olan, IV İslam Həmrəyliyi Oyunlarını müvəffəqiyyətlə keçirən Azərbaycan artıq dünyada həm də idman dövləti kimi tanınır.

Olimpiya Oyunlarında, dünya və Avropa birinciliklərində, beynəlxalq idman yarışlarında fəal iştirak edərək yüksək yer tutan Azərbaycan gənci daim dövlət bayrağımızı ucaldaraq himnimizi səsləndirir.

İdmançı gənclərimiz Vətən müharibəsində fədakarlıqla iştirak edərək böyük zəfərin qazanılmasına öz töhfələrini verdilər.

Bu gün neft kapitalının insan kapitalına çevrilməsi ilə bağlı Prezident İlham Əliyevin təşəbbüsü ilə xaricdə təhsil alaraq Vətənə qayıdan yüzlərlə gənc respublikanın iqtisadi, ictimai həyatında, Qarabağın dirçəldilməsi sahəsində fəallıq göstərirlər.

**3. Ordunun ən yeni və müasir silahlarla təchizatı**

I Qarabağ müharibəsindəki məğlubiyyətimizin başlıca səbəblərindən biri də vaxtında ordu yaradılmaması və onun lazımınca silahlandırılmaması idi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev bu sahədə də ən möhtəşəm uğura imza atdı.

Ermənistan hər iki müharibədə rus silahı ilə, həm də əksər halda pulsuz silahlandırılmışdı.

Ağıllarını itirmiş ermənilər ürəkdən inanmışdılar ki, torpağı onlar alıb, onlar işğalda saxlayır və heç zaman qaytarmayacaqlar!

Yenə eyni qaydada silah əldə edərək, 90-cı illərdə qalib gəldikləri taktika və strategiyaya güvənərək Azərbaycan tərəfinə meydan oxuyurdular.

Bütün bunlardan cənab İlham Əliyev yaxşı məlumatlı idi.

Odur ki, yeni müharibəyə, bu dəfə Azərbaycanı qalib edəcək və işğalçıları torpaqlardan qısa müddətdə qovacaq zəfər müharibəsinə hazırlaşırdı.

Həm də tam məxfi şəkildə!

Eyni zamanda açıq və mütəmadi olaraq ciddi xəbərdarlıqlar etməklə:

* Əgər məsələ sülh yolu ilə həll olunmasa, o zaman Azərbaycan öz torpaqlarını hərbi vasitələrlə azad edəcəkdir!

* Azərbaycan heç zaman öz ərazisində ikinci Ermənistan dövləti yaradılmasına yol verməyəcəkdir!

İlham Əliyevin müdrikliyi və uzaqgörənliyi bu sahədə də həlledici oldu!

Müzəffər Ali Baş Komandanımız:

* XXI əsrin müharibəsinə hazırlaşdı!

* Ordusunu ən yeni silahlarla silahlandırdı!

* Qabaqcıl ölkələrlə dostluq əlaqələri quraraq ən yeni texnologiyalara əsaslanan, hələ indiyədək hərb meydanlarında geniş şəkildə tətbiq olunmamış silahlar əldə etdi!

* Dünyanın qabaqcıl hərbi məktəblərində Azərbaycan övladlarını oxutduraraq yeni taktikaya uyğun gələn, həmin silahları məharətlə işlədəcək hərbçilər yetişdirdi!

* Fasiləsiz hərbi təlimlər keçirərək əldə edilən nəzəri bilikləri peşə vərdişləri ilə tamamladıb inkişaf etdirdi!

* Hərbçilərdə mənəvi zənginliyin, vətənpərvərliyin, ruh yüksəkliyinin, habelə sonadək döyüşərək düşmənə qalib gəlməyə lazım olan digər keyfiyyətlərin tərbiyəsinə xüsusi diqqət yetirdi!

İlham Əliyevin sərkərdəliyi ilə II Qarabağ müharibəsinə başlayan Azərbaycan Ordusu bütün parametrlər üzrə ən yeni, ən müasir, ən mükəmməl taktiki üsullarla və silahlarla döyüşəcək ordu idi!

Əslində, bu ordu İlham Əliyev ordusu idi!

**4. Örnəyə çevrilən mükəmməl taktika və strategiya**

Otuz il ərzində Ermənistan dostlarının köməyi ilə altıqat müdafiə xətti quraraq Azərbaycanın öz torpaqlarını geri almaq üçün hücuma keçəcəyi günü gözləyirdi!

Lovğalıqla "Ohanyan xətti" adlandırılan bu müdafiə sistemi atəş nöqtələrindən, səngərlərdən, tikanlı məftillərdən, mina sahələrindən, betonlaşdırılmış bunkerlərdən, müasir müşahidə və izləmə optik qurğularından, habelə müxtəlif maneələrdən ibarət idi!

(Bu gün Bakıdakı Hərbi Qənimətlər Parkında həmin müdafiə xətlərinin elementlərini və nəticəsini əyani şəkildə görmək mümkündür).

Ermənilər yeni müharibəyə "öz ağılları" ilə hazırlaşmışdılar və hücumu Qarabağın mərkəzindən, Ağdam istiqamətindən gözləyirdilər!

Sonadək də gözlədilər!

Gözləyə-gözləyə tələyə düşərək Ağdam, Laçın və Kəlbəcərdəki müdafiə mövqelərini bir güllə atmadan Azərbaycan Ordusuna təhvil verdilər!

Bu, İlham Əliyevin hərbi məharəti, onun tətbiq etdiyi yeni silahlar, yeni strategiya və taktika sayəsində mümkün oldu!

Əbəs deyil ki, bu gün başda ABŞ, NATO olmaqla, hamı bu taktika və strategiyanı öyrənir, onu tətbiq etməkdən ötrü öz ordusunda islahatlar aparır.

**5. Müzəffər Ali Baş Komandan - Xilaskar**

Prezident İlham Əliyevin 44 günlük Vətən savaşında möhtəşəm qələbəsi barədə çox deyilib və yazılıb!

Hələ bundan sonra da bu tarixi qələbəni vəsf edən çoxsaylı əsərlər işıq üzü görəcəkdir.

Xalqımızı qələbəyə çatdıran məqamları bir daha diqqətə çəkirik:

* Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyev pilotsuz uçuş aparatlarını hücum və kəşfiyyat sahəsində geniş tətbiq edərək bu vasitələrin bütün imkanlarını tam parlaqlığı ilə düşmənə və dünyaya nümayiş etdirdi;

* AN-2 - "Kukuruznik" təyyarələrini yeni məzmunda tətbiq etdirərək düşmənin ən müasir və ən etibarlı hava hücumundan müdafiə sistemlərini aşkara çıxarmaqla zərərsizləşdirdi, yeni geniş hücuma şərait yaratdı;

* Gözlənilən hücum istiqamətlərində düşmənin böyük həcmdə canlı qüvvəsini və silahlarını saxladaraq gözlənilməyən yerlərdən sürətli və qəfil hücumlarla ağır zərbələr endirdi;

* Hərbi əməliyyatlar zamanı diplomatiya sahəsində də fəallıq göstərərək istədiyinə nail olmayınca - düşmən ordusunun Azərbaycan ərazisindən çıxarılması qrafiki təqdim edilməyincə hərbi əməliyyatları dayandırmadı;

* Dünya erməniliyinin maliyyəsi ilə informasiya müharibəsinə qoşulan KİV-ə qarşı əzmlə döyüşərək hamısına qalib gəldi, Azərbaycan həqiqətlərini bir daha dünyaya çatdırdı, feyk xəbərləri ifşa etdi;

* Əvvəlcədən yerli şəraitə uyğun məkanlarda təlim keçirilərək mükəmməl şəkildə hazırlanan xüsusi təyinatlıların qüvvəsindən, şücaət və qəhrəmanlığından istifadə etməklə az qala yalın əllə Şuşanı düşməndən aldı!

* Əslində, Müzəffər Ali Baş Komandan İlham Əliyev AXC-Müsavat cütlüyünün xəyanət əməlləri nəticəsində düşmənə verilən qədim Şuşanı qeyri-adi şücaətlə geri qaytardı, Azərbaycanın mədəniyyət paytaxtına çevirdi!

* Xalqımızın xilaskar oğlu cənab İlham Əliyev düşməni məhv edib ərazilərimizi geri qaytarmaqla uzun illər ərzində erməni əlində qalan torpaqları işğaldan, eləcə də yüz minlərlə insanı "məcburi köçkün" adından qurtardı!

Bu gün bəzi erməni siyasətçiləri, generalları hərdən papulistcəsinə başlarından böyük danışsalar da, içlərində Azərbaycana bütün parametrlər üzrə məğlub olduqlarını yaxşı bilirlər!

Erməni əsgəri isə həm də mənəvi və psixoloji cəhətdən tar-mar edilib!

Heç vaxt Azərbaycan əsgərinin qələbə hayqırtısı və dron uçuşunun səsi onun qulaqlarından çəkilməyəcək!

Döyüş başlanan kimi daim bir gözü göydə qalacaq, başını soxmağa deşik axtaracaq.

Bunu arvad paltarı geyinib qrimlənərək Qarabağdan qaçan ermənilər də sübut edir!

Bunu İrəvanda avtobuslara mindirilərək aldadılıb Qarabağa gətirilən həmin hərbçilərin valideynlərinin yol kəsmələri, övladlarını maşınlardan düşürüb geri qaytarmaları da göstərir.

Bunu barəsində fərari kimi cinayət işi açılan erməni ordusunun əsgərlərinin qorxaqlığı da sübut edir!

Bunu indiyədək Azərbaycana məxsus ərazilərdən hələ də yığılan öldürülmüş erməni əsgərlərinin qalıqları da təsdiq edir.

Bəlkə də erməni generalları varlanmaq üçün yenidən Azərbaycanla müharibə etmək fikrinə düşər.

Amma erməni əsgər və zabiti onu real ölüm gözlədiyi Azərbaycan ərazisinə keçərək güllə atmaq həvəsinə heç zaman düşməyəcək!

Bəli, İlham Əliyev Ermənistanı təkcə hərbi cəhətdən deyil, mənəvi-psixoloji sarıdan da darmadağın edib, onlara nəsilbənəsil unuda bilməyəcəkləri sağalmaz yara, yaddan çıxmaz zərbə vurub!

Əslində, İlham Əliyev dünya erməniliyini sarsıdıcı məğlubiyyətə uğradıb!

## *Puça çıxarılan erməni xülyaları*

44 günlük Vətən savaşında Müzəffər Ali Baş Komandan İlham Əliyev təkcə torpaqları murdar ləpirlilərdən təmizləmədi!

Həm də erməniləri tarixi, ideoloji, hərbi cəhətdən biabırçı məğlubiyyətə uğratdı!

* İlham Əliyev beş əsr ərzində itirilən Azərbaycan torpaqlarının bir hissəsini ilk dəfə olaraq geri qaytardı!

* İki əsr ərzində davam edən münaqişəni uğurla həll etdi!

* Dünya erməniliyinin "dənizdən-dənizə Ermənistan" xülyasını birdəfəlik yox etdi! Bu əfsanənin erməni tarixçiləri tərəfindən uydurulduğunu, tarixdə heç zaman belə dövlətin olmadığını isbata yetirdi!

* Dünyanın hər yerindən gələn KİV nümayəndələrinə, siyasi və dövlət xadimlərinə, diplomatlara, bloger və QHT təmsilçilərinə, din nümayəndələri və mədəniyyət xadimlərinə Qarabağda törədilən vandallığı, vəhşiliyi, barbarlığı və dağıntıları göstərərək ermənilərin "qədim, mədəni, məzlum" xalq olmaları barədə deyilənlərin yalan olduğunu açıb göstərdi.

* "Yenilməz erməni ordusu" mifinin də puçluğunu əyani şəkildə nümayiş etdirərək həmin ordunu məhv etdi, düşmənin belini qırdı.

* "Cəsur erməni əsgəri" anlayışına son qoydu, onların qorxaq, fərari olduqlarını, döyüşlər başlayan kimi qaçıb aradan çıxdıqlarını faktlarla sübuta yetirdi.

* "Görkəmli erməni generalları, sərkərdələri" anlayışının gülünclüyünü, əslində, erməni generalların əsgər paylarını satdıqlarını, müharibə zamanı Koçaryan, Sarkisyan və Ohanyanın qorxaqcasına qaçıb gizləndiklərini sübutlarla ortaya qoydu;

* İşğal altında qalan 7 rayondan əlavə Şuşa şəhərini və keçmiş DQMV-yə daxil olan Hadrutu, Suqovuşan qəsəbəsini, habelə Xocavənd rayonunun 60 faizini geri qaytardı;

* ATƏT-in Minsk qrupunu tarixin arxivinə, status məsələsini isə cəhənnəmə göndərdi;

* 7 iyul 2021-ci il tarixli fərmanı ilə sovet dövrünün 7 iyul 1923-cü il tarixli Azərbaycanın tərkibində bir ovuc erməniyə muxtariyyət hüququ verilməsi barədə ədalətsiz qərarını ləğv edən tarixi fərmanı imzalamaqla Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını yaratdı. Bununla da Azərbaycan xalqının öz dədə-baba torpaqlarına qayıtmaq əzmində israrlı olduğunu bir daha nümayiş etdirdi;

* Forpost dövlətin mövcudluğu üçün Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarından əl çəkməsinin, təslimçilik müqaviləsinin bütün şərtlərinə əməl etməsinin vacibliyini, "status", "Minsk qrupu" xülyasından əl çəkməsini, əvvəlcə bir dövlət kimi yaşaya bilməsi hayına qalmasını məsləhət gördü!

## *Mahir diplomat*

Müasir dünya İlham Əliyevi həm də mahir diplomat kimi tanıyır və qəbul edir!

Əslində, İlham Əliyevin ixtisası diplomatiyadır.

Dünyaca şöhrəti olan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirib.

Həm də təkcə bu məşhur təhsil ocağında oxumayıb.

Sonralar müəllim kimi çalışaraq gələcək diplomatlara dərs də deyib!

Bu gün də Rusiyanın tanınmış siyasi ekspertləri İlham Əliyevlə qürur duyduqlarını gizlətməyərək onu "MQİMO-nun müdavimi" - deyə iftixarla təqdim edirlər.

Şəkli təhsil ocağını bitirən, dünyanın tanınmış siyasətçiləri, dövlət xadimləri sırasına ucalan müdavimlərlə bir sırada, nümunəvi tələbə və diplomat kimi şərəf lövhəsində saxlanılır.

Diplomatiya sahəsində məhsuldar və şərəfli bir yol da keçib.

İlk böyük sınağı "Əsrin müqaviləsi" neft kontraktının imzalanması prosesində iştirakı olub.

Uzun sürən və çətin keçən danışıqlar prosesində Azərbaycanın milli maraqlarının qorunmasını təmin edən əlverişli müqavilənin hazırlanmasına və imzalanmasına şəxsi töhfəsini verib.

Milli Məclisin deputatı olduğu dövrdə Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinə rəhbərlik edib, ölkəmizin maraqlarının müdafiəsində və təminində fəallıq göstərib, bu ali parlament qurumunda uğurlu fəaliyyətimizin prinsiplərini müəyyənləşdirib, təməlini qoyub.

AŞ PA-nın vitse-prezidenti seçilib.

İlham Əliyevin diplomatik məharəti Azərbaycanın dünyada sabit, dayanıqlı, demokratik dövlət kimi tanınmasında, özünə çoxsaylı dostlar qazanmasında, maraqlar içində marağını qoruyub saxlamasında mühüm rol oynayıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu, danışıqlar vasitəsilə həlli prosesində biz dövlət başçısı İlham Əliyevi daim prinsipial, qətiyyətli, heç bir təzyiq və təhdid cəhdlərindən geri çəkilməyən, təmsil etdiyi dövlətin maraqlarını qətiyyətlə müdafiə edən döyüşkən diplomat kimi görmüşük!

İlham Əliyevin məşhur "nəyi nə vaxt və necə etməli" prinsipi bu sahədəki fəaliyyətinin uğur və səmərəsini təmin edib.

İlham Əliyev daim məsələni peşəkarlıqla, elmi və faktoloji cəhətdən ustalıqla əsaslandırmağı bacarıb.

Dünya siyasi elitası Münhen Təhlükəsizlik Konfransında İlham Əliyev və N.Paşinyanın əyani qarşılaşmasını və diskussiyasını uzun müddət xatırlayacaqdır.

Azərbaycan Prezidenti İlham Əliyev rəqibini təkcə tarixi faktlar qarşısında susmağa məcbur etmədi:

Onun ingilis dilində hıqqanaraq danışmasını, yalançılığını gülüş hədəfinə çevirdi, məharətlə ələ saldı.

Bütün dünyanın, ermənipərəstlərin gözü qarşısında!

Söz demək üçün yüksək tribuna, əlverişli məqamı seçmək qabiliyyətindən bacarıqla istifadə edərək "Valday" Diskussiya Klubunda, MDB dövlət başçılarının Aşqabad sammitində Ermənistanın sülh danışıqlarından qaçdığını, Azərbaycan torpaqlarını işğalda əbədi saxlamaq niyyətini, "yeni müharibə, yeni ərazilər" ritorikasını konkret fakt və misallarla ifşa edərək bu xalqın miflərlə yaşadığını, faşizmə pərəstiş etdiyini, keçmiş SSRİ məkanında belə bir siyasətin yolverilməz olduğunu, habelə bu siyasətin müharibəyə apardığını göstərdi.

Zaman və tarix İlham Əliyevin nə qədər ədalətli və uzaqgörən olduğunu sübut etdi.

İlham Əliyevin diplomatik məharəti müharibənin davam etdiyi müddətdə Azərbaycanın sıxışdırılmasına, savaşın başlıca hədəfə çatmadan dayandırılmasına, hərbi əməliyyatların gedişinə ermənipərəst qüvvələrin burun soxmasına, ölkəmizin təklənməsinə imkan vermədi!

İlham Əliyevin diplomatik məharəti sərkərdə qüdrəti ilə birləşərək tarixi zəfərimizi təmin etdi!

Məhz İlham Əliyevin diplomatik məharətinin və dünyadakı nüfuzunun nəticəsidir ki, 120 ölkənin yekdil qərarı ilə 3 il ərzində dünyada BMT-dən sonra ikinci böyük təşkilat sayılan Qoşulmama Hərəkatına sədr seçildi, sonra da sədrlik müddəti daha bir il uzadıldı.

Türk Dövlətləri Şurasına rəhbərliyin 3 il ərzində İlham Əliyevə həvalə edilməsi onun bacarıq və məharətinə verilən yüksək dəyərdir.

İlham Əliyevin yüksək beynəlxalq nüfuzunu təsdiq edən daha bir fakt:

Azərbaycan Prezidenti COVID-19-a qarşı mübarizənin əlaqələndirilməsi və gücləndirilməsi üçün BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması barədə təşəbbüs qaldırdı. Ermənistan istisna olmaqla BMT-yə üzv dövlətlər, BMT rəhbərliyi bu təşəbbüsü dəstəklədi və Baş Assambleyanın sessiyası uğurla keçdi.

## *Dünyanın qəbul etdiyi lider*

SSRİ dünyadan təcrid edilmiş dövlət idi.

Özünəxas formada "dünya sosializm sistemi" yaradaraq, əslində, qapalı çərçivədə fəaliyyət göstərirdi.

Ətrafına da, həmin dövrün təbirincə desək, dəmir pərdə çəkmişdi.

SSRİ adlı super dövlətdə hər şey mərkəzdə - Moskvada hazırlanır, bütün qərar və göstərişlər Kremldən gəlirdi.

Sonra danışıqsız, müzakirəsiz yerinə yetirilirdi.

Kiçik qardaş adlanan on dörd "müttəfiq respublika"nın heç bir hüquq və səlahiyyəti yox idi.

İstənilən fikir və təşəbbüs yalnız Moskva ilə razılaşdırıldıqdan, "hə"risi alındıqdan sonra icra oluna bilərdi.

Heç bir fəaliyyət müstəqilliyindən söhbət belə gedə bilməzdi: dərhal ciddi və "rəngarəng" cəza mexanizmi işə düşərdi.

Hər bir müttəfiq respublikanın xaricə çıxışı yalnız SSRİ vasitəsilə, SSRİ Xarici İşlər Nazirliyi xətti ilə mümkün idi.

Xaricə gedənlər də yalnız Moskvanın vizasından (çoxsaylı yoxlamalardan) sonra istəyini gerçəkləşdirə bilərdi.

Belə bir vəziyyətdə hansısa azərbaycanlı ictimai-siyasi xadimin dünya səviyyəli quruma çıxışı və ona rəhbərlik etməsi mümkünsüz idi.

Cənab İlham Əliyev dünya səviyyəli bir neçə quruma seçki yolu ilə rəhbərlik edən ilk azərbaycanlı siyasi və dövlət xadimidir!

İlham Əliyev dünyada sevilən, beynəlxalq səviyyəli bütün tədbirlərə dəvət edilən, fikirlərinə ehtiyac duyulan və maraqlı çıxışları, təklif və təşəbbüsləri ilə fərqlənən dövlət başçısıdır.

İlham Əliyev dünyanın qəbul etdiyi, sözü, əməli ilə beynəlxalq hüquqa, haqqa-ədalətə daim dəstək verən, rasional fəaliyyəti ilə görünən liderdir.

Azərbaycan gərgin mübarizə şəraitində keçən seçkilərdə 155 dövlətin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasının üzvü seçildi və iclaslarına sədrlik etdi.

İclaslara sədrliyi dövründə cənab İlham Əliyev dünyanı düşündürən, narahat edən, təhlükəsizliyə təhdidlər törədən, yoxsulluğun aradan qaldırılmasına, zəif inkişaf etmiş ölkələrə dəstək olacaq bir sıra məsələlərin müzakirəyə çıxarılmasına, diqqət mərkəzinə gətirilməsinə nail oldu, səmərəli təkliflər irəli sürdü, hətta BMT-nin özündə belə islahatların vaxtının çatdığını göstərdi!

COVID-19 pandemiyası dünyanı caynağına alaraq çoxsaylı insanların tələfatına səbəb olduğu dövrdə bu bəlaya qarşı səmərəli mübarizənin təşkili üçün rəhbərlik etdiyi qurumların onlayn videokonfransını keçirdi, Ümumdünya Səhiyyə Təşkilatı ilə əlaqələri möhkəmləndirərək az inkişaf etmiş dövlətlərin maraqlarının da təmin olunmasını müzakirəyə çıxardı.

İlham Əliyev COVID-ə qarşı vaksinlərin ədalətsiz bölünməsinə, yoxsul ölkələrə cüzi şəkildə peyvəndləmə materiallarının ayrılmasına etiraz edən, bu vəziyyəti tənqid edərək ədalətsizlik kimi qiymətləndirən, habelə imkansız ölkələrə humanitar yardımlar olunmasının vacibliyini göstərərək Azərbaycandan kömək ayrılmasını təmin edən dövlət başçısıdır.

İlham Əliyevi dünyaya sevdirən ən mühüm cəhətləri ədalət və humanizm prinsiplərini daim uca tutması, beynəlxalq hüquq normalarına hörmətlə yanaşması, qarşılıqlı etimada və bir-birilərinin maraqlarının təmininə söykənən əməkdaşlığa daim üstünlük verməsi, dünya dövlətlərinə fayda gətirən transmilli layihələri gerçəkləşdirməsi, dediyinə əməl edərək sözünün sahibi olmasıdır.

Prezident İlham Əliyevin Azərbaycan xalqı qarşısındakı xidmətlərini saymaqla qurtarmaq olmur!

* İlham Əliyev nəyə əl qoyubsa, onu qurub, yüksəldib!

* Daima mümkün olmayanı mümkün edib!

* Başladığı bütün işləri uğurla, ən yüksək səviyyədə sona çatdırıb!

* Çoxsaylı dostluq körpüləri yaradıb, sonra həmin körpüləri dövlətlərarası strateji əməkdaşlığa çevirib!

* Azərbaycanın yeni, müasir imicini formalaşdırıb və müstəqil dövlətimizi bu imicdə dünyaya tanıdıb!

* Dünyada dediyini edən, sözünün sahibi olan dövlət başçısı kimi ad qazanıb!

* Prinsipial məqamda bir addım belə qeri çəkilməyən, sonadək irəliləyərək qələbə çalan lider kimi tanınıb!

Sonda qeyd edək ki, 44 günlük Vətən müharibəsi və itirilmiş torpaqların qaytarılması İlham Əliyevin dövlət rəhbəri kimi fəaliyyətinin mühüm yekunlarından biridir.

Həm də başlıcasıdır!

Əslində, bu möhtəşəm qələbə bütün sahələrdəki danılmaz uğurlar sayəsində baş tutmuşdur!

## *Daim xalqla birlikdə*

Prezident İlham Əliyev Azərbaycana rəhbərliyə başladığı ilk günlərdən daim xalqa açıq olub, mütəmadi şəkildə ən müxtəlif qrup insanlarla görüşüb, onları dinləyib, ölkə ictimaiyyətini iqtidarın gördüyü işlərlə bağlı geniş məlumatlandırıb, hər bir Azərbaycan vətəndaşının yanında olaraq köməyini göstərib.

Özünün irəli sürdüyü "Hər bir dövlət məmuru xalqın xidmətçisidir! Xalqın ən böyük xidmətçisi isə mən özüməm" tələbinə sadiq qalıb.

Cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə daim yüksək reytinqə malik olmasının, rəqiblərindən dəfələrlə çox səs toplamasının başlıca səbəblərindən biri xalqla daim təmasa girməsi, onların ehtiyac, arzu və istəklərini öyrənərək gerçəkləşdirməsi, açıq, şəffaf fəaliyyət göstərməsidir.

Azərbaycan demokratik cəmiyyət quruculuğu yolu ilə inamla irəliləyir. Demokratiyanın təməl prinsiplərindən biri mətbuat, söz və fikir azadlığıdır.

Özlərini "demokrat" sayan AXC-Müsavat cütlüyü quş yuxusu qədər çəkən iqtidarları dövründə mətbuata senzura nəzarətini ləğv etməyə qorxdu.

Çünki bilirdilər ki, o qədər səhvlər və talançılıqlar ediblər ki, o barədə mətbuatda həqiqətlər yazılsa, xalq olanları hakimiyyətdən süpürüb atar.

Bu cəsarətli addımı da Ulu Öndər Heydər Əliyev 6 avqust 1998-ci ildə atdı.

Azərbaycan mətbuatını senzuranın buxovlarından azad etdi!

Ulu Öndər bu addımına və mətbuata qayğısına görə dəfələrlə "Jurnalistlərin dostu" mükafatına layiq görüldü.

Cənab İlham Əliyev də bu ənənəni davam etdirdiyindən dönə-dönə "Jurnalistlərin dostu" seçilib.

Bir dövlət başçısı olaraq İlham Əliyev daim jurnalistlərə açıqdır, onlarla sistemli şəkildə görüşür, bütün suallarını cavablandırır, iqtidar tərəfindən görülən və nəzərdə tutulan işlər barədə konkret faktlar əsasında məlumat verir, beynəlxalq arenada baş verən hadisələrə münasibətdə müstəqil Azərbaycanın mövqeyini açıqlayır.

Cənab İlham Əliyevin qayğısı və səxavəti sayəsində Azərbaycan jurnalistlərinə dünyanın heç bir yerində təsadüf olunmayan kömək və yardımlar göstərilir.

Jurnalistlərin müraciəti əsasında Prezident İlham Əliyev yüzlərlə mətbuat işçisinə dövlət hesabına tikilərək təmir olunmuş mənzil vermiş, beləliklə, xeyli qələm əhlini kirayədə yaşamaqdan, darısqal mənzillərdə qalmaqdan xilas etmişdir.

Onun imzaladığı KİV-in İnkişafına Dövlət Dəstəyi Konsepsiyasına əsasən KİV DDF və sonra MEDİA İA yaradılmış, onlarca qəzetə, sayta mütəmadi qaydada maliyyə yardımı verilməsinə başlanmış, jurnalist yaradıcılığının stimullaşdırılması üçün çoxsaylı yaradıcılıq müsabiqələri keçirilmiş, qaliblər mükafatlandırılmışdır.

Bu qayğı indi də davam etdirilir.

İlboyu Ali Baş Komandan İlham Əliyev hərbi hissələrdə olur, yeni şəhərciklərin açılışını edir, hərbçilərlə söhbətləşir, onları mükafatlandırır, birlikdə çay süfrəsi arxasında əyləşir.

Prezidentimizin ən böyük diqqət yetirdiyi və daim təmasda olduğu insanlar qrupu şəhid ailələri və müharibə əlilləridir.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə keçirilən bu görüşlərdə şəhid ailələri və əlillər dinlənilir, problem və ehtiyacları öyrənilir, dərhal zəruri tədbirlər görülür.

İndiyədək şəhid ailələrinə 10 min 500-dən çox mənzil və fərdi ev verilmiş, əlillərə 7.200 minik avtomobili təqdim edilmişdir.

Vətən müharibəsi dövründə və sonrakı vaxtlarda hərbi hospitallarda yaralı əsgərlərə baş çəkilmiş, ehtiyacı olanlar müalicə üçün qardaş Türkiyəyə göndərilmiş, müasir protezlərlə təmin olunmuşlar.

Kürboyu yaşayış məntəqələrində sel daşqınları, Zaqatala bölgəsində, Şamaxı və Ağsuda baş verən zəlzələ dövründə cənab İlham Əliyev Azərbaycan vətəndaşını tək və arxasız qoymamışdır.

Təbii fəlakətlərdən zərər görmüş insanlara dərhal zəruri kömək və yardımlar göstərilmiş, dövlət hesabına yeni mənzillər tikilərək və ya təmir olunaraq onlara verilmişdir.

Hələ Vətən müharibəsindən öncəki dövrdə, eləcə də savaşın gedişində erməni vandalları faşist xislətlərinə uyğun addımlar atmış, Ağdam, Bərdə, Goranboy, Tərtər rayonlarını, Gəncə və Naftalan şəhərlərini raket və mərmi atəşinə tutaraq mülki əhali arasında çoxsaylı tələfat yaratmış, evləri, ictimai binaları və digər obyektləri dağıtmışdılar.

Prezident İlham Əliyev erməni vəhşiliyinin nəticələrinin aradan qaldırılması üçün dərhal hadisə yerlərinə yollanmış, dəyən zərərin miqdarı və həcmi müəyyənləşdirilmiş, verilən sərəncam əsasında dövlət tərəfindən zəruri kömək və yardım göstərilmiş, həyat normal axarına qaytarılmışdır.

Ölkə ərazisinə tez-tez baş tutan səfərləri zamanı cənab İlham Əliyevin ictimaiyyət nümayəndələri, bütün qrup insanlarla görüşməsi, açıq dialoqa girməsi də ənənəyə çevrilmişdir.

Belə görüş - söhbətlər zamanı dövlət başçısı İlham Əliyev insanların qayğı və ehtiyaclarını öyrənir, müxtəlif məsələlərlə bağlı təklif və iradlarını dinləyir, sonra onlardan çıxış edərək müvafiq sərəncamlar imzalayır, beləliklə, ölkədə vətəndaş məmnunluğuna nail olur.

Azərbaycanın bugünkü inkişaf və yüksəlişində Prezident-xalq görüşlərinin, iqtidar-xalq birliyinin mühüm əhəmiyyəti vardır.

## *Azərbaycanın qazandığı dostlar*

Azərbaycanın "dünya erməniliyi" adlı böyük bir düşməni var!

Bu düşmən torpaqlarımızı əlimizdən almaq, dünyanın hər yerindən erməniləri gətirib ərazilərimizdə məskunlaşdırmaq üçün dəridən-qabıqdan çıxdı.

27 illik işğal dövründə buna müəyyən dərəcədə nail də olmuşdu.

Bu düşmən bütün vasitələrdən - pulla müxtəlif ölkələrdəki siyasiləri, parlament üzvlərini ələ almaq, seçkilərdə "erməni səsi" dəstəyini vəd etməklə ayrı-ayrı dövlət başçılarının mövqelərinə təsir göstərmək, dünya KİV-ində öz adamlarını yerləşdirmək və yalanlarını təbliğ etmək üçün korrupsiyalaşmış televiziya kanalları, qəzet və informasiya agentlikləri vasitəsilə ictimai rəyə təsir göstərmək, müxtəlif beynəlxalq təşkilatların fəaliyyətini erməni maraqlarına yönləndirmək və digər üsullardan geniş istifadə edir.

Qarabağ münaqişəsinin sülh yolu ilə, beynəlxalq hüququn tələbləri əsasında nizamlanmaması da dünya erməniliyinin vəsait və əməllərinin nəticəsidir.

Cənab İlham Əliyev bu gerçəkliyi lazımınca qiymətləndirərək dünya erməniliyinin fəaliyyətini zərərsizləşdirmək və önləmək üçün vaxtında, lazımi addımlar atdı.

İlham Əliyevin müəllifi olduğu "hücum diplomatiyası", beynəlxalq təşkilatlarda Azərbaycan təmsilçilərinin fəallaşdırılması, Azərbaycan-Türkiyə diasporunun birgə fəaliyyətinin qaydaya salınması, Azərbaycanla əməkdaşlıq quran bütün dövlətlərin ölkəmizin maraqlarını daim dəstəkləmələrinin təmini, cənab İlham Əliyevin müxtəlif vaxtlarda rəhbərlik etdiyi nüfuzlu beynəlxalq təşkilatlarda gördüyü işlər sayəsində onların daim ölkəmizin maraqlarından çıxış etməsi dünya erməniliyi üzərində möhtəşəm qələbəyə yol açdı!

Bunlar heç də Ermənistan ordusu üzərindəki qələbədən az əhəmiyyətli deyildir!

İlham Əliyevin tutduğu ikinci yol Azərbaycana həqiqi dostlar qazandırması və onların dəstəyindən məqamında istifadə etməsidir!

Artıq tarixə çevrilmiş bir fakt!

1992-ci ildə Kəlbəcərin işğalı zamanı o dövrdə Azərbaycana başçılıq edən Ə.Elçibəy S.Dəmirəldən mülki əhalinin işğal zonasından tələfatsız çıxarılması üçün 1-2 vertolyot ala bilmədi...

Əvvəla, odövrkü Türkiyə təkbaşına qərar qəbul etməkdə çətinlik çəkirdi...

İkincisi, Ə.Elçibəy və S.Dəmirəl dostluğu da elə bir səviyyədə deyildi...

Bu gün Rəcəb Tayyib Ərdoğan Türkiyəsi öz maraqlarını daim təmin etməyə qadir qlobal dövlətə çevrilib.

İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın dostluğu isə çoxdan mehriban qardaşlıq səviyyəsinə yüksəlib.

Hər biri digərinə ən xoş və ürəkisidən şəkildə - əziz dostum, qardaşım, - deyərək müraciət edir!

Bu dostluğun da, iki qardaş ölkə arasındakı münasibətlərin də indiki səviyyəyə yüksəlməsində Azərbaycan Prezidenti İlham Əliyevin böyük, danılmaz xidmətləri vardır!

44 günlük Vətən müharibəsində Türkiyə Prezidenti də, dövləti də, xalqı da birmənalı şəkildə Azərbaycanın yanında oldu, bunu dəfələrlə, dönə-dönə bəyan etdi, hər cür kömək göstərdi!

İlham Əliyevin Azərbaycana dost etdiyi digər dövlətlər də - Pakistan, İsrail, Ukrayna, İtaliya, habelə Cənub Qaz Dəhlizinin ərazisindən keçdiyi bir çox dövlətlər daim Azərbaycanın haqq işini dəstəkləyir, hər yerdə və hərtərəfli köməklərini əsirgəmirlər.

Müharibə dövründə BMT-nin Azərbaycanın ziyanına yeni qətnamə qəbul etməsinin qarşısını alan İlham Əliyevin rəhbəri olduğu Qoşulmama Hərəkatındakı dost ölkələr olmuşdur!

İlham Əliyevin şəxsi keyfiyyətləri, dost qazanmaq və hər zaman dosta əl tutmaq xüsusiyyəti dövləti maraqlarının həyata keçirilməsində də öz rolunu oynayır!

## *Kiçik möcüzələrdən yaranan böyük möcüzə*

Prezident İlham Əliyev həm də möcüzələr ustasıdır!

Bu, gəlişigözəl söz deyil, konkret faktlara söykənən reallıqdır!

BMT-nin Təhlükəsizlik Şurasının, ATƏT-in Minsk qrupunun və onun BMT-nin üzvü olan 3 həmsədr dövlətlərinin, beynəlxalq hüququn və beynəlxalq konvensiyaların gücünün çatmadığı, həll edə bilmədiyi Qarabağ problemini 44 gün ərzində uğurla həll etdi!

Arxasında dünya erməniliyi, ayrı-ayrı ölkələrdəki ermənipərəst qüvvələrin dayandığı Ermənistanı, otuz il ərzində pulsuz silahlandırılaraq Qarabağda möhkəmlənmiş erməni ordusunu biabırçı şəkildə məğlub etdi, onlara diplomatiya sahəsində və informasiya müharibəsində də üstün gəldi!

Müharibənin aparılması, hərbi əməliyyatların bir çoxunun çəkilərək televiziya vasitəsilə nümayiş etdirilməsi, Ermənistanın kapitulyasiya aktına qol çəkərək Ağdam, Laçın və Kəlbəcər kimi istehkam rayonlarını dinməz-söyləməz geri qaytarması əsl möcüzə idi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev bu möcüzəni dünyanın gözü qarşısında yaratdı!

Dünya bunu gördü və bildi!

Türk Dövlətləri Təşkilatı qəhrəman Azərbaycan Prezidentinin bu zəfərini özünün ən yüksək mükafatına layiq görərək, onu Türk Dünyasının Ali Ordeni ilə təltif etdi!

Bu gün İlham Əliyev Azərbaycanı:

* Tarixinin ən qüdrətli dövrünü yaşayır;

* Cənubi Qafqazın ən güclü dövləti və söz sahibidir;

* Torpaqlarını işğaldan azad edən qalib xalqdır;

* Dünya kosmos ailəsinin üzvüdür;

* Logistika mərkəzi, "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin qovuşduğu məkandır;

* Dünyada sülhməramlı əməliyyatların fəal iştirakçısıdır;

* Beynəlxalq idman yarışlarının həvəslə keçirildiyi yer, idman dövlətidir;

* Avropanın etibarlı enerji təminatçısıdır;

* Multikultural ənənələri yaşadan tolerant ölkədir;

* Daim inkişaf edən, beynəlxalq hüququn norma və prinsiplərini heç zaman pozmayan, humanitar aksiyalarda fəallıq göstərən, müstəqil, suveren dövlətdir!

Şanlı yubileyin mübarək, qalib Azərbaycan!

***1 dekabr 2021-ci il***

## Keçmişdən ayrılarkən

Hansısa mütəfəkkirin söylədiyi kəlam hələ də yadımdadır: Bəşəriyyət öz keçmişindən gülə-gülə ayrılır!

Biz keçmiş məcburi köçkünlər isə yaxın keçmişimizdən, "məcburi köçkünlər" adından ağlaya-ağlaya ayrılırıq!

Amma qürurla ayrılırıq!

Qələbə, iftixar duyğusu ilə ayrılırıq!

Sevinərək ayrılırıq!

Bizə bu xoşbəxt "ayrılığı" hünəriylə bəxş edən Müzəffər Ali Baş Komandanımıza böyük sevgi, minnətdarlıq hissilə ayrılırıq!

Bəli, cənab İlham Əliyev bizi bəxtəvər etdi, yurdumuza, elimizə qovuşdurdu!

Bizi bəxtəvər etdi, gözükölgəli millətdən qalib xalqa çevirdi!

Bizi bəxtəvər etdi, "məcburi köçkün" kimi üzücü, bəlkə də aşağılayıcı "titul-dan" xilas etdi!

Xalqımızı yüksəltdi, dövlətimizi göylərə qaldırdı!

"Məcburi köçkün" adını "qalib xalq", "qürurlu xalq" "qalib dövlətin vüqarlı vətəndaşı" adı ilə əvəz etdi!

Daha biz doğma yurda, doğma məkana qayıda bilirik!

Düzdür, qayıdarkən bizi viran qalmış kənd-kəsək, dağıdılmış şəhərlər, yerlə yeksan edilmiş qəbiristanlıqlar qarşılayır.

Bir də uzaq keçmişdə qalan xatirələr!

Acılı-şirinli xatirələr!

Kövrəldib-ağladan xatirələr!

Bax, bu məqamda ağlayırıq!

Acıyaraq ağlayırıq!

Vətənimizdə daş üstə daş qalmadığına, doğma yurdumuzun xarabazara çevrildiyinə görə ağlayırıq!

Nə vaxtsa murdar düşmənə yiyəsizlik səbəbindən məğlub olduğumuza görə ağlayırıq!

Sonra köksdolusu nəfəs alırıq, sevinirik, gülürük...

Axı, Müzəffər Ali Baş Komandanımız bizi təkcə doğma torpaqlara qaytarmayıb!

Həm də yağı düşməndən qisasımızı alıb!

* Dağıdılmış 300-dən çox şəhərin və kəndin;

* Təhqir olunmuş müqəddəs dini məbədlərin;

* Altı üstünə çevrilmiş qəbiristanlıqların;
* Qırılmış meşələrin, kəsilmiş ağacların;
* Xocalı soyqırımının;
* I Qarabağ və Vətən müharibəsindəki şəhidlərimizin əvəzini ermənidən artıqlaması ilə çıxıb!

"Dəmir yumruğ"u ilə düşmənin başını əzib, belini qırıb!

Ermənistan ordusunu məhv edib!

Dünya erməniliyini biabırçı məğlubiyyətə uğradıb!

Ermənistan bu məğlubiyyətdən çətin ki, özünə gələ!

Nə qədər kömək etsələr də, nə qədər silahlandırsalar da, faydası yoxdur!

Həm də dəmir yumruğun gücünü gördü!

Azərbaycan-Türkiyə dostluğunun möhtəşəmliyinə şahid oldu!

Azərbaycan tərəfinə atdığı "İskəndər-M" raketlərinin mənasız dəmir parçasına çevrildiyini izlədi!

Fərarilər yığnağına çevrilən erməni ordusu heç zaman PUA-larla başına yağdırılan odu-alovu, ölümü unutmaz!

Nə qədər onu saxlamağa çalışsalar da, daha Azərbaycan torpaqlarında qalmaz!

Yedirtsələr də, içməli su daşısalar da, yardım paylasalar da, ev tiksələr də, lap müharibə vaxtı səngərdə olduğu kimi, zəncirlə bağlasalar da!

Çünki indi əməllərinin bəhrəsini dərirlər!

❖❖❖

Bülbülü salırlar qəfəsə: "Ay Vətən" - deyib fəryad qoparır!

Açıb buraxırlar...

Qaratikan koluna qonaraq "Can Vətən" - söyləyib mahnı oxuyur!

Bəli, vətənin xaraba qalmışı da gözəldir!

Dağılmış evin torpaq altındakı bünövrəsi də insana əzizdir, doğmadır!

Xatirələr göz yaşları ilə yoğrulmuş olsa da, itkilərimizi yada salsalar da, bizə doğmadır, məhrəmdir!

Çox şükür!

Nə yaxşı ki İlham Əliyev kimi Müzəffər Ali Baş Komandanımız var!

Nə yaxşı ki İlham Əliyev kimi müdrik, uzaqgörən Prezidentimiz var!

Yoxsa biz bu qədər murdar, bu qədər alçaq xislətli, bu qədər müdafiəçisi olan və bu qədər həyasızlıqla bizə şər atan, yalanı özünə peşə seçən düşmənə necə qalib gələrdik?!

Bu möcüzəvi qələbəni yalnız İlham Əliyev dühası yarada bilərdi!

Bu sonsuz sevinci və qüruru bizə yalnız İlham Əliyev bəxş edə bilərdi!

Bu qədər "dostu", "havadarı", "qardaş və bacısı" olan faşistxislətli düşməni yalnız İlham Əliyev məğlub və məhv edə bilərdi!

Etdi də!

Həm də nəinki hərb meydanında, həm də diplomatiya sahəsində, informasiya müharibəsi cəbhəsində biabırçı məğlubiyyətə uğratdı!

❖❖❖

Düşmən ağıllanıbmı?

Əgər ağlı olsaydı, özgə torpaqlarını bu qədər işğalda saxlamaz, qurulu şəhər və kəndləri dağıdıb yer üzündən silmək niyyətinə düşməzdi!

Əgər ağlı olsaydı, monoetnik respublikaya, forpost dövlətə çevrilməz, cavanlarını qırğına verməzdi!

Əgər ağlı olsaydı, Avropada və Amerikada rahat həyat sürən diasporunun fitvasına getməz, onun parasına susayaraq özgələrin əlində alətə çevrilməz, xülyalarla yaşamazdı.

Əgər ağlı olsaydı, Türkiyə kimi nəhəng dövlətə qarşı ərazi iddiaları irəli sürməz, illər və əsrlər boyu olmayan "erməni soyqırımı"nı qəbul etdirmək üçün min bir hiyləyə əl atmazdı!

Əgər ağlı olsaydı, faşistlərə qulbeçəlik edənlərə heykəllər qoymaz, faşizmi özünə ideologiya seçməzdi!

Nəticəsi nədir, qazancı nə oldu?

Məhv edilmiş ordu, cəsədləri bu gün də özgə ərazilərindən toplanan vətəndaşlar, əhalisi dilənçi günündə yaşayan, sürətlə qaçıb xaricdə normal yaşayış axtaran ölkə, müstəqilliyi və perspektivi olmayan dövlət...

Əgər bu gün də sülhə gəlmirsə, revanşizmdən danışırsa, deməli, "dəmir yumruq" bir də başına çırpılacaq!

Ta ağıllanana qədər!

❖❖❖

Bu gün keçmişə baxarkən ağlasaq da, ağrısaq da, gələcəyə baxanda gülürük, qürurlanırıq!

Keçmişdə qalan ağır günlərimiz, ehtiyaclar məngənəsində sıxılan həyatımız, ümidsiz anlarımızdır!



**Talış kəndində.** 18 mart 2023-cü il



**Laçın şəhərinə qayıdan əhali ilə görüş.** 28 may 2023-cü il






**Zəngilanın Ağalı kəndində.** 19 oktyabr 2022-ci il






**Laçının Zabux kəndində.** 26 avqust 2023-cü il





**Laçının Zabux kəndində .** 26 avqust 2023-cü il






**Talış kəndində.** 18 mart 2023-cü il



**Şuşanın Cıdır düzündə "Xarıbülbül" Musiqi Festivalı qala-konserti.**
13 may 2021-ci il




**Şuşada "Vaqif Poeziya Günləri"nin açılışı.** 30 avqust 2021-ci il




**Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar**
**Bakıda ümumxalq yürüşü.** 26 fevral 2022-ci il



**Konyada V İslam Həmrəyliyi Oyunlarında**
**ölkəmizi təmsil edən idmançılarla görüş.** 9 avqust 2022-ci il



**Müslüm Maqomayevin xatirə gecəsi.** 17 avqust 2022-ci il



**Tofiq Quliyevin abidəsinin açılışı.** 8 fevral 2023-cü il

Keçmişdə qalan çadır şəhərcikləri, yardım növbələri, heç bir şəraiti olmayan ictimai binalardakı darısqal mənzillər, qışda soyuq, yayda isti vaqon evlərdir!

Doğrudur, Prezidentimizin köməyi ilə həmin çadır şəhərciklərini ləğv etdik, yeni tikilən evlərə, müasir tipli qəsəbələrdəki təzə mənzillərə köçdük!

Amma ağır günlərimizi, şəhidlərimizi və itkilərimizi də yaddan çıxara bilmərik!

❖❖❖

Daha bizi heç kəs keçmişə qaytara bilməz!

Nə Ermənistan, nə də onun havadarları!

Sonuncu dəfə Azərbaycan Prezidenti cənab İlham Əliyev 23 sentyabr 2021-ci ildə BMT-nin ali tribunasından istifadə edərək Ermənistanı revanşizmdən çəkinməyə çağırdı və bir daha xəbərdarlıq etdi: "Ermənistanda hökumət tərəfindən təşviq edilən Azərbaycanofobiya artmaqdadır. Etnik nifrət və düşmənçilik üzərində qurulmuş erməni cəmiyyətində aşılanan irqçi ideologiya Azərbaycanın Ermənistan tərəfindən keçmiş işğal olunmuş ərazilərində etnik təmizləmənin və misilsiz vandalizmin kökündə durur. Ermənistanda rejim dəyişikliyinə baxmayaraq, ölkədə faşist ideologiyası hökm sürməkdə davam edir".

"Biz yenidən öz suverenliyimizə, ərazi bütövlüyümüzə və xalqımızın təhlükəsizliyinə hər hansı bir təhdid görsək, legitim özünümüdafiə hüququmuzdan heç bir tərəddüd etmədən istifadə edəcəyik".

❖❖❖

Biz daim irəli baxırıq, irəli gedirik, qurub-yaradırıq, doğma Qarabağımızı cənnətə çeviririk!

Buna həm iqtisadi gücümüz, həm siyasi iradəmiz, həm xalqımızın möhkəm birliyi, həm də ordumuzun qüdrəti imkan verir!

Azərbaycanı heç kəs tutduğu yoldan, getdiyi istiqamətdən, quruculuq əzmindən döndərə bilməz!

Bugünkü Azərbaycan qalib Azərbaycandır!

Bugünkü Azərbaycan özünə və dostlarına güvənən, milli maraqlarını hər şeydən üstün tutan, gələcəyə ünvanlanmış aydın baxışları və dəqiq hədəfləri olan Azərbaycandır!

Bəli, bəşəriyyət öz keçmişindən gülə-gülə ayrılır.

Biz də məcburi köçkün həyatından, sıxıntılı günlərimizdən ayrıldığımıza görə həm də gülürük!

Biz yeni reallıqlar yaratmış xalqıq, dövlətik!

Bunu hamı bilməli və Azərbaycanın yeni reallıqları ilə hesablaşmalıdır!

44 günlük Zəfərin birinci ildönümünü böyük qürurla, böyük təntənə ilə qeyd etdik.

Hər gününü sonsuz ümidlə, həyəcanla, sevinc və göz yaşları ilə yaşadığımız möhtəşəm 44 günün!

İndi qalib xalq kimi açıq ürəklə, açıq alınla yaşayır, daim qürur və fərəh hissilə keçiririk!

Artıq dünya bizi qüdrətli xalq kimi tanıyır!!

Bizim Müzəffər Ali Baş Komandanımız var!

Bizim bütövləşmiş Azərbaycanımız var!

Tezliklə Prezidentimiz Qarabağımızı cənnətə çevirəcəkdir!

Dostlar baxıb sevinəcək, düşmənlər kor olacaqlar!

Biz daha ağlamırıq!

Biz indi ucadan və ürəkdən gülürük!

***7 yanvar 2022-ci il***

# İlahi ədalət

## *İlham Əliyevin "dəmir yumruğ"u ilə bərpa olundu*

*Həyat göstərdi ki, ədalət var, sadəcə, dözümlü olmaq lazımdır, səbirli olmaq lazımdır, ədalətə inanmaq lazımdır və ədalətə nail olmaq üçün çalışmaq lazımdır, hədəfə doğru getmək lazımdır. Ədaləti bərpa etmək üçün fədakarlıq göstərmək lazımdır.*

***İlham ƏLİYEV***

Dünyada İlahi Ədalətin mövcudluğuna və hökmən öz yerini tutacağına həmişə inanmışam!

Bəlkə də, bu inam həyatda gördüklərim və haqsızlıqların nə vaxtsa cəzalanmasına şahidliyim nəticəsində yaranıb!

Bilmirəm!

Bildiyim odur ki, Yer və Göy idarə olunur, zalımla məzluma fərq qoyulur, "quduran 40 gündən çox getmir".

Tanrının hesabında həmin "40 gün" nə qədər çəkir, bu ölçü vahidindən də xəbərsizəm!

❖❖❖

Haqsızın, qudurmuşun cəzası da müxtəlif olur!

Bu da İlahinin öz seçimidir!

Zəlil günə saldığı da, ağlını başından, sağlamlığını əlindən aldığı da, çörəyə möhtac qoyduğu da, dəmir barmaqlıqlar arxasına saldığı da və daha hansısa bizim bilmədiyimiz formada cəza növləri var!

Cəza birdəfəlik və uzun sürən şəkildə də olur!

Bu da təqsirkarın günahının ağırlıq dərəcəsindən asılıdır!

❖❖❖

Allah-təala zalımı cəzalandırarkən cəzaverəni də özü seçir!

Adətən, cəzaverənlər Tanrıya daha yaxın insanlar hesab olunurlar!

Həm də başqalarından fərqli, vergili, həyatda ədalətli insan imici qazanmış, zəka və iradəli insan kimi tanınır, qəbul edilir!

Bir incə məqam da var: Tanrı zalımı "cinayət yolu" ilə deyil, ədalətin gücü ilə cəzalandırır!

Azğınlaşmış insan başına gələnləri "təsadüf", "öz səhvi", yaxud uğursuzluq kimi də qəbul edə bilir!

Bu, onun "kallığına" və "ağıllanmadığına" dəlalət edən haldır!

Amma Tanrının ədalətinə inanmaq və onu səbirlə gözləmək, İlahi Ədalətin öz yerini tutacağına əmin olmaq, şəkk etməmək vacibdir!

Bəlkə də, biz onun gecikməsindən rəncidə olur, tələsə bilirik!

Tanrı isə hər şeyin vədəsini, qədərini və üsulunu çox dəqiq müəyyənləşdirir!

Xəyanət - erməninin adi davranış qaydasıdır!

Yaltaqlıq, yarınmaq, qulluq göstərmək, kiminsə əlində alətə çevrilmək - yaşayış tərzidir!

Böyüyün yanında kiçiklik etmək, zəifi görəndə əjdahaya dönmək, qazanc, dolanışıq güddüyü şəxsin ailəlikcə köləsinə çevrilmək, xəbərçilik, satqınlıqla "hörmət qazanmaq" asan və normal bildiyi, daim istifadə etdiyi gündəlik vasitələrdir.

Erməni tək və zəif olanda quzuya çevrilir!

Birləşib güclənəndə, arxasında duran olanda isə hər şeyi qamarlamağa can atır, özünə bir hami tapanda dərhal "yersiz gəldi, yerli qaç" məsələsindəki kimi həyasızcasına addımlar atır.

Əsas "silahı" çoxüzlülük, riyakarlıq, yalançılıq, başqalarına quyu qazmaq, tora salmaq, şərləməkdir.

Həm də terror ustasıdır!

Pusquda durmağı, arxadan vurmağı, sudan quru çıxmağı, canavar simasını gizlətməyi də məharətlə bacarır!

Bəli, çox bacarıqlıdır, uyğunlaşmağın, pul qazanmağın, münasib yer tapan kimi qısa vaxtda özününküləri ətrafına toplamağın ustasıdır - kəsəsi, "erməni millət deyil, təşkilatdır" məşhur "tezisini" daim doğruldur!

Bütün bunlar erməniyə müvəqqəti uğur gətirsə də, bütövlükdə millət kimi bədbəxtliyidir!

Vətənləri yoxdur deyə yer üzünə səpələniblər!

Özlərinə qondarma tarix yaratmaqla əsrlər boyudur ki, qədimlik statusu qazanmağa çalışırlar.

Bir tarixi abidələri, tarixdə yaşamış məşhur sərkərdə və rəhbərləri yoxdur ki, onlara əsaslanıb nəyi isə sübut edələr.

Hətta qədim kilsələri də yoxdur, başqa dini məbədləri saxtalaşdırmaqla öz adlarına çıxarmaq, yerə bir "qədimlik" əşyası basdıraraq sonradan onu "tapmaqla" sübutlar yaratmaq sevimli məşğələləridir.

Vətənsizlik, qaraçı həyatı sürmək, xeyirxahlarına xəyanət etmək, su içdikləri quyuya tüpürmək alınlarına yazılıb!

Bicliyi ağlını qat-qat üstələyən bu millətin naqis əməlləri ona heç vaxt xoşbəxt olmağa, sakit, əmin-aman şəraitdə yaşamağa imkan vermir!

❖❖❖

Erməni Türkiyəyə xəyanət etdiyinə, müharibə aparan dövlətin kürəyinə bıçaq sapladığına görə Cənubi Qafqaza köçürülmüşdür!

Həm də "alət millət" funksiyasını yerinə yetirmək üçün bura gətirilmişdir!

Satqınlığına mükafat olaraq ilk dəfə onunçün dövlət yaradılmışdır.

İlk günlərdən də torpağında yerləşdiyi, sərvətlərindən və imkanlarından bəhrələndiyi xalqa qarşı xəyanət mövqeyi sərgiləmişdir!

Azərbaycan güclü olanda ona tulalanmış, ayağı yer tutub arxasında güclü göründə isə hürməyə, hətta dişləməyə başlamışdır!

Bu millət həmişə marıqdadır!

Ərazisinə qısılıb barındığı dövlət zəifləyən, başı nəyəsə qarışan kimi üzə çıxır, murdar xislətini göstərir!

Azərbaycan ikinci dəfə dövlət müstəqilliyi qazananda da yaranmış məqamdan torpaq qoparmaq üçün istifadəyə başladı.

❖❖❖

Ermənilərin "Qarabağın işğalı" ssenarisi rəngarəngliyi və hiyləgər "tərkibi" ilə diqqət çəkirdi.

"Narazılıq mitinqləri", "iqtisadi cəhətdən pis təminat" etirazları ilə başlanan hərəkat get-gedə şişərək "miatsuma" çevrildi, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi istəyinin mahiyyətini ortaya qoydu.

Paralel şəkildə SSRİ-nin qəzet, jurnal, telekanal (mərkəzi televiziya) və informasiya agentliklərində, habelə bu vasitələrlə xaricə çıxmaqla güclü təbliğat-təşviqat işləri də aparırdılar.

İnformasiya mübarizəsində isə vahid ideya vardı:

"Vəhşi müsəlmanlar" "qədim", "zavallı" və "məzlum" millətə zülm edir, onların insan haqlarını pozur, "millətin öz müqəddəratını təyin etməsinə" mane olur!

Bu adla ermənilər havadarları vasitəsilə "özünü müdafiə dəstələri" (fadainlər) yaradaraq silahlandırdılar, Ermənistandan gələn "saqqallılar" Azərbaycan kəndlərinə hücum çəkərək qarətə, təxribatlara, vahimə yaratmağa başladılar, Şuşa ilə Ağdamın (əslində Azərbaycanın) əlaqəsini kəsdilər, sərnişin avtobuslarını daşa basdılar, sonra girovlar götürməyə başladılar.

Mərkəz bu prosesə gizli dəstək verməklə yanaşı, riyakar mövqe tutur, özünü bilməzliyə qoyur, əslində isə Ermənistanda ordu quruculuğuna yardım göstərirdi.

Nəticədə Ermənistan millətçiləri və terrorçuları 366-cı sovet alayının köməyi ilə Xocalı soyqırımını törədərək müharibədə keyfiyyət dəyişikliyinə nail oldular.

❖❖❖

Erməni Qarabağa öz torpağı kimi yox, düşmən ərazisi kimi daxil oldu!

Odur ki, qarşısına nə çıxırdısa, talayır, yandırır, dağıdırdı!

Min bir zəhmətlə, alın təri, əl qabarı ilə tikilən evlər, abad kənd və qəsəbələr qısa vaxtda xarabazara çevrildi!

Neçə nəslin tikib qurduğu cənnət Qarabağ az vaxtda yerləyeksan edildi!

Meyvə bağları, meşələr qırıldı, yeraltı və yerüstü sərvətlər talan edildi, çaylara zəhərli maddələr axıdıldı.

Su anbarlarından onun əsl sahibləri tərəfə axan kanallar yayda bağlandı, qışda sel yaradaraq ziyanəvərlik edildi.

Təmas xəttində mütəmadi şəkildə atəşkəs pozulur, dinc sakinlər, qadınlar və uşaqlar hədəfə alınırdı.

Dünya isə bütün bunları görür, bilir, guya "sülh danışıqları" yolu ilə nizama salmağa çalışırdı, əslində ədalətsizliyə göz yumaraq erməninin tərəfini tutmaqla işğalı əbədiləşdirirdi.

❖❖❖

Hər şeyin bir sonu olmalıdır və olur!

Ermənistanda hakimiyyətin Ter-Petrosyandan sonra kriminal, cinayətkar Qarabağ klanının - Koçaryan və Sarkisyanın əlinə keçməsi düşməni daha da azğınlaşdırdı.

Artıq onlar nəinki işğal ərazilərini qaytarmayacaqlarını açıq şəkildə bəyan edirdilər, hətta yeni əraziləri tutacaqları ilə bizi hədələyirdilər.

Ermənilər ürəkdən inanmışdılar ki, Azərbaycan ərazilərini öz gücləri ilə işğal ediblər.

İnanmışdılar ki, "döyüşkən", "məğlubedilməz" millətdirlər.

İnanmışdılar kli, "Böyük Ermənistan" yaradacaqlar!

Bicliyi ağlından qat-qat çox olan Paşinyanın, "sorosçu uşağın" meydandan rəhbərliyə gəlməsi vəziyyəti daha da qəlizləşdirdi.

Paşinyan ermənilərin ürəklərindəkiləri ucadan söyləyirdi.

Gah sinəsi orden-medallarla dolu generalların əhatəsində Şuşada sərxoş olub yallı gedirdi, gah oğlunu Xankəndinə hərbi xidmətə göndərirdi, gah Dağlıq Qarabağı tərəf kimi danışıqlar prosesinə gətirmək istəyirdi, gah da Tovuz tərəfdən Azərbaycana hücum təşkil edərək enerji kəmərlərini ələ keçirmək istəyirdi.

Azərbaycanın dolan səbir kasası daşmaq üzrə idi!

Paşinyanın "Qarabağ Ermənistandır, nöqtə" söyləməsi Azərbaycan Prezidenti İlham Əliyevin qəzəbinə və qəti addımlar atmasına səbəb oldu!

❖❖❖

Bu dəfə Ulu Tanrı haqqın-ədalətin bərpası üçün cənab İlham Əliyevi seçdi!

Seçdi və sonadək arxasında duraraq ilahi köməyini göstərdi!

Həm də İlham Əliyevin yumruğunu düşmənin başını qısa müddətdə əzə biləcək qüdrətli "dəmir yumruğ"a çevirdi!

İlham Əliyevi İlahi Ədaləti bərpa edənə, Azərbaycanın xilaskarı səviyyəsinə yüksəltdi.

Buna qədər Azərbaycanın rəhbəri olaraq torpaqları işğaldan azad etməkdən ötrü Prezident İlham Əliyev çox işlər görmüşdü!

Aşkar və məxfi şəkildə!

İndi isə döyüş zamanı idi!

Müzəffər Ali Baş Komandan İlham Əliyev bu döyüşə bütün bacarıq və qabiliyyəti, istedad və xarizması ilə hazırlaşmışdı!

BELƏ Kİ:

* Tarixinin ən qüdrətli Azərbaycanını yaratmışdı;

* Yeni vətənpərvər gənclər nəsli tərbiyələndirmişdi;

* Yeni ordu yaradaraq onu ən müasir silahlarla silahlandırmışdı;

* Ölkənin siyasi nüfuzunu və müasir imicini ən yüksək səviyyəyə qaldırmışdı;

* Diplomatiya sahəsində bir çox uğurlara imza ataraq haqq işimizi bütün dünyaya çatdırmış, Azərbaycana çoxsaylı dostlar qazandırmışdı;

* Azərbaycan-Türkiyə dostluğunu və strateji əməkdaşlığını tarixdə olmayan bir səviyyəyə qaldırmışdı;

* Xalqın milli birliyini yaratmışdı;
* İnformasiya müharibəsinə hərtərəfli və mükəmməl hazırlaşmışdı;
* Nəyi nə vaxt və necə edəcəyini dəqiq müəyyənləşdirmişdi!

❖❖❖

İlham Əliyev qısa vaxt - 44 gün ərzində "dəmir yumruğ"u ilə düşmənin başını əzib belini qırdı!

Yeni taktika və strategiya tətbiq edərək Ermənistan ordusunu məhv etdi, qorxaqlar və fərarilər yığnağına çevirdi!

Düşməni Ağdam, Laçın və Kəlbəcəri bir güllə belə atmadan, dinməz-söyləməz qaytarmağa məcbur etdi!

Qoyduğu şərtlər əsasında ona təslim aktını, üçtərəfli Bəyanatı imzalatdırdı!

Beş əsr ərzində ilk dəfə olaraq qüdrətli Sərkərdə kimi itirilmiş torpaqları qaytardı!

İkiəsrlik Qarabağ münaqişəsini birdəfəlik, həm də uğurla həll etdi!

Azərbaycan xalqını dünyaya məğrur, döyüşkən, öz torpaqlarına sahib çıxan xalq kimi yenidən tanıtdı!

Bu, çoxdan gözlədiyimiz İlahi Ədalətin bərpası idi!

Bu, azğın, qudurğan düşmənin Tanrının seçdiyi qüdrətli Sərkərdə tərəfindən cəzalandırılması idi!

Bu, İlahinin qüdrət bəxş etdiyi "dəmir yumruğ"un tarixi zəfəri idi!

Şükür, İlahi bizə arxa durdu!

Minnətdarıq Müzəffər Ali Baş Komandan İlham Əliyevə - İlahi Ədaləti bərpa edərək qisasımızı aldı!

***11 yanvar 2022-ci il***

# Xalqın arzu və istəklərini gerçəkləşdirən partiya

Yeni Azərbaycan Partiyası xalqın və dövlətin ən çətin günlərində, taleyüklü bir dönəmdə yaradıldı. Elə bir dövrdə ki, deklorativ müstəqilliyini elan edən Azərbaycan kompassız və yelkənsiz gəmini xatırladırdı. Dövləti dağılmaqdan qurtarmaq, düzgün inkişaf yolunu müəyyənləşdirmək, xalqı səfərbərliyə alaraq mövcud təhlükələri dəf etmək təxirəsalınmaz zərurətə çevrilmişdi. Maymaq və qorxaqların, səriştəsiz və təcrübəsizlərin ölkə rəhbərliyinə gəlməsi, naşı və uzağı görməyən siyasət yeritməsi, üstəlik, xalqın etimadını itirmələri ölkəni real fəlakət həddinə çatdırmışdı.

Bu məqamda Azərbaycan xalqı öz taleyini yalnız yaxşı tanıdığı, sevdiyi və sınaqdan çıxardığı övladına etibar edə bilərdi.

Ulu Öndər Heydər Əliyev ona müraciət edən xalqın səsinə biganə qala bilməzdi. Çünki özü də vəziyyətin mürəkkəbliyini, Azərbaycana yönələn təhdidləri, nəinki müstəqilliyimizi, hətta dövlətimizi təqib edən real təhlükələri yaxşı görürdü. Lakin Azərbaycan artıq bazar iqtisadiyyatı və demokratik inkişaf yolunu seçdiyindən hakimiyyətə qayıdış da sivil, demokratik yolla gerçəkləşdirilə bilərdi.

Bir qrup ziyalının Ulu Öndərə müraciəti bu dahi şəxsiyyət tərəfindən müsbət qarşılandı. Beləliklə, yeni bir partiyanın - yeniləşməkdə qərarlı olan Azərbaycanın siyasi həyatında mühüm rol oynayacaq partiyanın quruculuğu prosesinə başlanıldı.

Partiyanın adını və rəmzini də Ulu Öndərimiz özü seçdi.

Azərbaycan xalqı Heydər Əliyevin adı ilə bağlı olan yeni bir partiyanın yaradılmasını böyük sevgi ilə qarşıladı. O dövr müxalifətçilərinin yaratdıqları bütün maneələrə, hədələrə və əngəllərə baxmayaraq, imzatoplama mərasimi respublikanın bütün guşələrində sürətlə getdi. İnsanlar böyük həvəslə yeni partiyaya üzv olacaqlarını imzaları ilə təsdiqləyirdilər. Xalqın arzularını və ümidlərini doğuracaq yeni partiya 22 noyabr 1992-ci ildə təsis konfransını keçirərək həyat vəsiqəsi aldı.

Ümummilli Lider Heydər Əliyevin sədirliyi ilə keçirilən bu konfransda YAP-ın proqram və nizamnaməsi də qəbul olundu.

Bu gün Azərbaycan müstəqil, hüquqi-demokratik və oturuşmuş bir dövlətdir. Onun yeni Konstitusiyası qəbul olunmuş, demokratik təsisatları yaradılmışdır. Hakimiyyət bölgüsü aparılmış, dünya dövlətləri, beynəlxalq qurum və təşkilatlarla bərabərhüquqlu münasibətlər qurulmuşdur. Azərbaycan milli maraqlarına

əsaslanan müstəqil siyasət yürüdür, öz sözünü aydın və ucadan deyir. Artıq dövlətimiz yerləşdiyi regionda və dünyada böyük nüfuz sahibinə çevrilib, hətta ən ağır və mürəkkəb problemi olan Qarabağ münaqişəsini də 44 günlük Zəfər müharibəsi ilə həll edib!

Yeni Azərbaycan Partiyası yaradılanda isə bütün bunların hamısı arzu, çatılası çətin və uzaq görünən hədəflər idi. Üstəlik, YAP-ın özü belə müxalifət partiyası, iqtidara gəlmək iddiasında olan partiya sayılırdı. Proqramında isə bütün bunların hamısı əhatəli və dəqiqliklə göstərilmişdi.

Yeri gəlmişkən, bir vacib məqamı da qeyd edək. YAP müxalifət partiyası kimi fəaliyyət göstərdiyi müddətdə əsl müxalifət partiyası necə olar və nə sayaq səmərəli çalışa bilər nümunəsini də ortaya qoydu.

YAP bir dəfə də dağıdıcılıqla məşğul olmadı, milli maraqların əleyhinə getmədi, hakimiyyətə gəlmək naminə xalqın maraqlarına, dövlətin mənafeyinə qarşı çıxmadı, onun imicinə və təhlükəsizliyinə xələl gətirəcək addımlar atmadı. Açıq mübarizə apardı, demokratik prinsipləri pozmadı, qanunların tələblərinə ciddi əməl etdi.

Bu gün Cənubi Qafqazın ən böyük partiyası olan YAP-ın yüksək nüfuzunun səbəblərindən biri də müxalifətdə olanda və sonrakı dövrlərdə demokratiyanın və qanunun tələblərinə dönmədən əməl etməsi, milli maraqları daim öndə tutması, quruculuqla məşğul olması, xalqın istəklərini mərhələlərlə gerçəkləşdirməsidir.

Yeni Azərbaycan Partiyasının özəlliklərindən biri də odur ki, partiya iqtidara öncə seçkilər yolu ilə gəlmədi. Xalqın çağırışı ilə müstəqilliyimizi məhvolma, Azərbaycanı isə kiçik xanlıqlara bölünmə təhlükəsindən xilas etmək üçün Ulu Öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtdı. 4 ay sonra keçirilən seçkilərdə isə xalqın birmənalı mütləq dəstəyi ilə YAP sədri Ulu Öndər Heydər Əliyev Azərbaycan Prezidenti seçildi. Beləliklə, YAP da iqtidar partiyasına çevrildi. Əslində, Yeni Azərbaycan Partiyasının proqramında qoyulan bütün hədəflər və vəzifələr müstəqil Azərbaycan dövlətinin qarşısında duran və həllini gözləyən problem və vəzifələrlə tam üst-üstə düşürdü. Başqa sözlə, mahiyyətcə dövlətin və partiyanın yaxın və uzaq hədəfləri eyni idi.

Artıq həmin hədəflərin, demək olar ki, hamısı fəth olunmuşdur. Dövlət idarəçiliyində varislik, müstəqillik, qanunçuluq, vətəndaş həmrəyliyi, konstruktiv əməkdaşlıq, sosial ədalətin bərpası prinsipləri uğurla həyata keçirilmişdir. Bu gün xalqımızı birləşdirən azərbaycançılıq ideologiyası həyat tərzimizə çevrilmiş,

44 günlük Vətən müharibəsində möhtəşəm qələbəni təmin edən başlıca amillərdən biri olmuşdur.

Ötən 30 ildə Azərbaycan cəmiyyətində də çox böyük dəyişikliklər baş vermiş, Azərbaycan bütün mənalarda - həm mahiyyətcə, həm də quruculuq baxımından çoxsaylı nailiyyətlər qazanmışdır. Hakimiyyət bölgüsü aparılmış, Milli Məclisə və yerli özünüidarə orqanlarına çoxsaylı demokratik seçkilər keçirilmiş, müasir parlament ənənələri formalaşmış, ölkə başdan-başa yenidən tikilib qurulmuş, Azərbaycan öz tarixinin ən qüdrətli dövlətinə çevrilmişdir. Bütün bu nailiyyətlərdə Yeni Azərbaycan Partiyasının və onun üzvlərinin də danılmaz fəaliyyəti, zəhmət payı vardır.

Bütövlükdə, fəaliyyətə başladığı ilk günlərdən "Yeni, müstəqil Azərbaycan uğrunda" çağırışını özünə deviz seçən YAP Ulu Öndərimizin apardığı müdrik, uzaqgörən, məqsədyönlü və dəqiq hədəflərə hesablanmış siyasət nəticəsində xalqın etimadını doğrultdu, müstəqilliyimizin əbədiliyə və dönməzliyə çevrilməsinə, dövlətimizin nüfuz və qüdrətinin yüksəlməsinə sanballı töhfələr verdi.

Həyat bir yerdə dayanmır, daim inkişaf edir, yeni çağırışlar və sınaqlar meydana gəlir. Cənab İlham Əliyevin YAP-ın I Qurultayında partiyanın sədr müavini, daha sonralar isə birinci müavini və sədri seçilməsi təşkilatın həyatında böyük siyasi hadisə oldu. Siyasi varislik ənənəsinə sadiq qalaraq prezidentliyi və partiyaya rəhbərliyi dövründə Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən cənab İlham Əliyev dövlətin və partiyanın inkişafı istiqamətində möhtəşəm uğurlara imza atdı. "Müasir, qüdrətli və zəngin Azərbaycan naminə" çağırışını irəli sürməklə bərabər, onun reallaşmasına dəyərli töhfələrini də verdi. Tarixən qısa bir dövrdə Azərbaycan özünün enerji və nəqliyyat təhlükəsizliyini təmin etdi, öz imkanları hesabına nəhəng transmilli layihələr reallaşdırdı, üstəlik, Avropanın enerji təchizatında etibarlı tərəfdaşa çevrildi.

Bu gün Azərbaycan dünyada həm də müasir demokratik imici olan ölkə, logistika mərkəzi, mühüm nəqliyyat dəhlizinin keçdiyi məkan sayılır. İnkişaf, dəyişiklik və yeniləşmə bütün sferanı əhatə etmiş, insanların, dövlətin həyatında, ictimai-siyasi proseslərdə dərin iz buraxmışdır. Heç bir mübaliğəyə yol vermədən deyə bilərik ki, son 30 il ərzində Azərbaycan əsrə bərabər inkişaf yolu keçmişdir. Paytaxt Bakı yenidən, əsaslı şəkildə təzədən tikilib qurulmuş, ərazisi genişlənmiş, yeni küçə və xiyabanlar, məhəllələr salınmış, gözəl memarlıq nümunələri ilə bəzədilmişdir. Bakının gözəlliyi buraya gələn qonaqları valeh edir, barəsində ən xoş tariflər səsləndirilir. Ölkə paytaxtı həm də nüfuzlu beynəlxalq

tədbirlərin, bəşəriyyətin taleyi ilə bağlı mühüm və qlobal problemlərin müzakirə olunduğu nüfuzlu tədbirlərin keçirildiyi məkan hüququnu da qazanmışdır. Paytaxtımız həm də Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyununun, habelə Avropa və dünya birinciliklərinin, nüfuzlu beynəlxalq idman yarışlarının keçirildiyi ən arzuolunan məkan statusunu da qazanmışdır. Bu, təkcə zəruri idman arena və qurğularının mövcudluğu ilə deyil, həm də möhtəşəm tədbirlərin uğurlu təşkili təcrübəsi və xalqımızın qonaqpərvərliyi ilə də bağlıdır.

İndiyədək regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət tərəfindən qəbul edilən dörd dövlət proqramının qəbulu və icrası isə Azərbaycanın bütün bölgə və guşələrinin hərtərəfli inkişafını təmin etmişdir. Bu gün paytaxt Bakıdan çıxaraq respublikanın hansı regionuna üz tutsan, rahat yolların, bir-birindən yaraşıqlı fərdi və ictimai binaların, evlərin tikildiyinin, park və meydanlar salındığının, olimpiya idman komplekslərinin, "ASAN xidmət" mərkəzlərinin inşasının şahidi olarsan.

Kəndarası yolların təmiri, yenidən qurulması və təzələrinin çəkilməsi prosesi əsasən başa çatmış, qazlaşdırma isə yekunlaşmaq üzrədir. Regionlarda kənd təsərrüfatının inkişafı ilə yanaşı, sənaye müəssisələrinin açılışına, yeni iş yerlərinin yaradılmasına xüsusi diqqət yetirilir. Sahibkarlığın inkişafına dövlət tərəfindən daim dəstək verilir, emal müəssisələrinin yaradılması, fermerlərə güzəştli şərtlərlə gübrə satışı və subsidiyalar ödənilməsi təmin olunur.

Qazanılan nailiyyətlər sırasında multikultural dəyərlərin qorunması və inkişafı xüsusi yer tutur.

Azərbaycan tarixən çoxmillətli və çoxkonfessiyalı olub. Bu zənginlik və rəngarənglik dövlətin və mədəniyyətin inkişafına dəyərli töhfələr verib. Ulu Öndər Heydər Əliyevin "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq" tezisi daim qüvvədədir və gündəlik həyatımızda özünü təsdiq edir. Bir-birinin dini dəyərlərinə, mədəniyyətinə qarşılıqlı hörmət, maneyə və çətinliklərin birlikdə dəf edilməsi, yad ünsürlərə və düşmənə qarşı birgə mübarizə uğur və qələbələri artıran məqamlardandır. Dünyada milli və etnik zəmində qarşıdurma baş verdiyi, ikili standartların mövcudluğu şəraitində Azərbaycan xalqının bu birliyi hamı üçün nümunəyə çevrilmişdir. Özünün qədim və tarixi multikultural dəyərləri ilə dünyaya çıxan Azərbaycan bu sahədə örnəkdir. Artıq bütün dünya bunu görür, bilir və öyrənməyə çalışır.

Azərbaycan xalqının son illərdə qürur duyduğu məqamlardan biri də milli birliyin təmini və taleyüklü məsələlərin həllində bu birliyin mühüm amillərdən birinə çevrilməsidir.

Ötən otuz ildə ölkəmizdə mətbuat və söz azadlığı, insan haqlarının qorunması təmin olunmuş, çoxpartiyalı sistemə keçid baş vermiş, fikir plüralizmi bərpa edilmişdir. Azərbaycanda qəzet təsis etmək, sayt açmaq, partiya yaratmaq yolunda bütün bürokratik əngəllər aradan qaldırılmışdır. İnsanlar öz fikirlərini sərbəst ifadə edir, mövqe və mülahizələrini çəkinmədən bildirirlər. İnternet istifadəçilərinin sayının ölkə əhalisinin 90 faizi civarında olması, sosial şəbəkələrdə istənilən fikrin maneəsiz söylənməsi, hətta bəzən ölkə vətəndaşlarının məsuliyyətsiz söz azadlığından əziyyət çəkməsi belə günümüzün yeni reallıqlarındandır. Lakin Azərbaycanın hazırkı iqtidarı bu sahədə heç zaman heç bir məhdudiyyət tətbiq etmir və etməyəcəkdir. Yeganə istək hamının demokratik prinsiplərlə yanaşı, qanunun aliliyinə də hörmətlə yanaşmasıdır.

Şübhəsiz, ötən 30 ilin ən böyük uğur və nailiyyəti iki əsrdir davam edən Qarabağ münaqişəsinin qələbə ilə həlli, alçaq ermənilərin doğma torpaqlarımızdan qovularaq ərazi bütövlüyümüzün bərpasıdır!

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin möcüzə təsiri bağışlayan qələbəsi bütün dünyada şok effekti doğurdu, Azərbaycan xalqına mübariz, döyüşkən, qəhrəman xalq kimi sonsuz hörmət qazandırdı.

Əslində, Qarabağ uğrunda Vətən müharibəsindəki möhtəşəm qələbə Yeni Azərbaycan Partiyasının rəhbərliyi ilə 30 ildə Azərbaycan dövlətinin və cəmiyyətinin keçdiyi yolun, bütün sahələrdə qazandığı nailiyyətlərin yekunu, həm də qiymətləndirilməsi sayıla bilər!

Bu qələbə göstərdi ki, Heydər Əliyev yolu yeganə doğru yoldur ki, ölkənin milli maraqlarını qorumağı və təminini, sürətli və davamlı inkişafını, ən çətin və mürəkkəb problemlərin uğurlu həllini təmin edə bilir.

Bu qələbə göstərdi ki, müstəqil Azərbaycan düzgün istiqamət tutaraq vaxtında zəruri islahatların aparılmasını, xalqın sosial rifahının durmadan yaxşılaşdırılmasını və vətəndaş məmnunluğunu təmin etməklə qısa müddətdə möcüzələr belə yaratmağa qadirdir!

Bu qələbə göstərdi ki, YAP-ın rəhbərliyi və fəaliyyəti, azərbaycançılıq ideologiyasının real həyatda yer tutması, gənc nəslin təlim-tərbiyəsinin düzgün qurulması və ölkə daxilindəki bütün sağlam qüvvələrin bir istiqamətə yönəldilməsi sayəsində yeni vətənpərvər gənclər nəsli yetişdirmək, mətin və güclü ordu qurmaqla ən mənfur düşməni belə qısa zamanda məhv etmək mümkündür!

Bu qələbə göstərdi ki, xalqın sevdiyi və güvəndiyi rəhbər, ölkə vətəndaşlarının arzu, istək və maraqlarının ifadəçisi olan partiya öz qarşısına ən çətin və mü-

rəkkəb vəzifələri qoyduqda belə cəmiyyətin böyük əksəriyyətini təşkil edən sağlam qüvvələri birləşdirməyə və dəqiq hədəflərə çatmağa nail olur.

Öz proqramında "Yeni, müstəqil Azərbaycan uğrunda!" çağırışını irəli sürən Yeni Azərbaycan Partiyası xalqın birliyi və doğru inkişaf yolu hesabına tarixən qısa müddətdə bütün məqsədlərinə nail oldu! Həm müasir, hüquqi-demokratik dövlət quruldu, həm də Azərbaycan xalqının seçdiyi və arzuladığı cəmiyyət formalaşdırıldı.

Həyat yerində durmur, daim inkişaf edir, yenilənir! Bu yeniləşmə öz sıralarında 800 min nəfərə yaxın üzvü birləşdirən, daim inkişafa, yeniliyə və mütərəqqi dəyişikliklərə can atan partiyadan da yan keçə bilməz! YAP-ın uğurlarını təmin edən ən mühüm məqamlardan biri də məhz budur ki, o, daim hər yeniliyə açıqdır, qlobal çağrışlara cavab verməyə, hadisələri qabaqlamağa hazır və qadirdir!

Bütün bunlar nəzərə alınmaqla partiyanın İdarə Heyətinin 29 dekabr 2021-ci il tarixli qərarı ilə yeni proqram işlənib hazırlanmış və təsdiq edilmişdir.

Budəfəki deviz isə partiyamızın möhtərəm sədri cənab İlham Əliyev tərəfindən Vətən müharibəsi dövründə irəli sürülən, xalqın milli və monolit birliyinə səbəb olan "Biz birlikdə güclüyük!" devizidir!

Bəli, Yeni Azərbaycan Partiyası öz gücünü xalqdan alır, öz hədəflərinə xalqın birliyi və dəstəyi sayəsində nail olur!

Yeni proqramda əvvəlki dövrdə qələbəyə gətirən ideya-siyasi, nəzəri təcrübənin, habelə nailiyyətlərə çatdıran üsul və vasitələrin, sınaqdan çıxmış metodların davam etdirilməsi nəzərdə tutulur. Başqa sözlə, ideya-siyasi varislik prinsipinə əsaslanmaqla partiyanın əvvəlki proqramında əksini tapmış və müasir dövrün tələblərinə cavab verən ideoloji vasitələr də qorunub saxlanılır.

Partiyanın yeni proqramı beş fəsildən ibarətdir. "Partiyanın inkişafı və uğurları" adlanan birinci fəsildə YAP-ın inkişaf yoluna nəzər salınır. Konkret faktlar və misallar əsasında, yığcam şəkildə YAP-ın qət etdiyi uğurlu yoldakı ürəkaçan nailiyyətlər sadalanır. Eyni zamanda yeni proqramın prizmasından gələcəyə də baxılır: "YAP-ın VII Qurultayı (5 mart 2021-ci il) Azərbaycanın davamlı inkişafı və müasir dövrün çağırışları kontekstində partiyanın qarşısına yeni vəzifələr qoyur. Cəmiyyətin və dövlətin müxtəlif sahələrini əhatə edən islahatların aparılmasında, yeni siyasi konfiqurasiyanın yaradılmasında və siyasi dialoqun dərinləşməsində yaxından iştirak etmək partiya üzvlərindən yüksək fəallıq tələb edir. VII Qurultayda bir daha aydın oldu ki, YAP Azərbaycanın hərtərəfli inkişafına töhfə

verən böyük sosial bazaya, güclü siyasi-intellektual potensiala malikdir. Bu isə partiyanın məqsəd və vəzifələrini gələcəkdə də şərəflə yerinə yetirəcəyini şərtləndirir".

"Siyasi dəyərlər və prinsiplər" adlanan ikinci fəsildə Heydər Əliyev yolunun mahiyyəti və xüsusiyyətləri yığcam və əsaslı şəkildə təhlil olunur. Burada "Heydər Əliyev yolu" nədir sualına da tam cavab tapa bilərik.

"Heydər Əliyev yolu:

* milli maraqların üstünlüyü;

* güclü, müstəqil, hüquqi, demokratik dövlət;

* inkişaf edən şaxələndirilmiş iqtisadiyyat;

* idarəçilikdə və milli ideologiyada varislilik;

* azad insan, azad cəmiyyət, xalq-hakimiyyət vəhdəti, inkişaf etmiş vətəndaş cəmiyyəti, söz və mətbuat azadlığı, siyasi plüralizm, multikulturalizm, tolerantlıq kimi dəyərlər üzərində qurulub".

Bu yolun əsas üstünlüklərindən biri də budur ki, milli çağırışların qlobal çağırışlarla uzlaşdırılmasını təmin edir.

Üçüncü fəsildə "Partiyadaxili münasibətlərin və partiyanın əsasları"ndan danışılır, peşəkarlıq, işgüzar münasibətlər, sağlam rəqabət, innovativ inkişaf və kreativlik, elmlik, müasirlik prinsipləri və digərləri önə çəkilir. Bu tələblərin hər birinin vacibliyi göstərilir, əhəmiyyəti vurğulanır: "Yaradıcı təfəkkür, kreativ düşüncə, təşəbbüskarlıq və innovativ inkişaf müasir dünyada peşəkar fəaliyyət meyarıdır. Səmərəlilik, rasionallıq, çeviklik, müasirlik və aktuallıqla səciyyələnən kreativ yanaşma siyasi münasibətlərə də sirayət edir.

Özündə siyasi baxışları əks etdirən konseptual sənədlərin hazırlanmasında, siyasi müzakirələrin və təbliğat xarakterli tədbirlərin təşkilində kreativ yanaşma xüsusi yer tutur.

Müasir dövrdə rəqəmsal texnologiyaların müxtəlif sahələrdə, o cümlədən siyasətdə tətbiqi artacaqdır. Dünyada sürətlə gedən rəqəmsal transformasiya prosesləri və inkişaf edən "rəqəmsal cəmiyyət" formasiyası konkret sahələr üzrə tədricən yeni fəaliyyət qaydaları yaradacaqdır".

"Partiyanın əsas hədəfləri" fəsli öz əhatəliyinə və genişliyinə görə diqqəti cəlb edir. Bu fəsildə "Heydər Əliyev irsinin təbliği və təşviqi", "Güclü iqtisadiyyat və davamlı inkişaf", "İnklüziv cəmiyyət, ədalətli sosial təminat və insan kapitalının inkişafı", "Vətəndaş cəmiyyətinin inkişafı", "Ordu quruculuğu", "İşğaldan azad olunmuş ərazilərə Böyük qayıdış" və digər vacib bölmələr vardır.

Yeni Azərbaycan partiyasını digər partiyalardan fərqləndirən əsas xüsusiyyətlərdən biri də odur ki, partiya yaxın və perspektiv müddətdə dövlətin qarşısında duran hədəflərə çatılmasını özünün prioriteti hesab edir, bütün imkanlarını səfərbərliyə alaraq qüvvələri problemlərin daha tez və səmərəli, uğurlu həllinə yönəldir. Başqa sözlə, partiya resurslarını dövləti vəzifələrinin yerinə yetirilməsinə müvəffəqiyyətlə tətbiq etməyi bacarır.

Hazırkı mərhələdə əsas məqamlardan biri Vətən müharibəsindən qələbə ilə çıxmış dövlətin Ermənistanın hərbi təcavüzü nəticəsində öz ata-baba yurdlarından köçkün düşən insanların doğma torpaqlarına qayıdışını təmin etməsidir.

Şübhəsiz, YAP bu prosesdən kənarda qala bilməz. Odur ki, yeni proqramda iqtidar partiyasının bu sahədə qarşıya qoyduğu vəzifələr də əksini tapıb:

" * layiqli yaşayışın bərpası üçün işğaldan azad olunmuş ərazilərdə geniş quruculuq işlərinin aparılması;

* bu ərazilərin ölkənin ən abad guşələrindən birinə çevrilməsi;

* bu ərazilərdə dayanıqlı məskunlaşmanın təmin edilməsi;

* regionun iqtisadi potensialından səmərəli istifadə olunmaqla, əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırılması;

* regionun sürətli iqtisadi inkişafının təmin olunması üçün stimullaşdırıcı tədbirlərin görülməsi;

* "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasının hazırlanması və həyata keçirilməsi".

Beşinci fəsil lakonikliyi ilə diqqəti cəlb edir.

"Müzəffər liderlə Azərbaycanı yeni zirvələrə aparan güclü partiya" adlanan bu fəsildə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin 44 günlük Vətən müharibəsində qazandığı zəfərdə onun güclü liderlik keyfiyyətlərinin, yüksək intellekti və diplomatik məharətinin, qətiyyət və prinsipiallığının, xarici siyasətdə qazandığı nailiyyətlərin mühüm rol oynaması xüsusi vurğulanır. Xalqımız üçün bu ağır sınaq dövründə xalq-dövlət birliyinin, milli həmrəyliyin mövcudluğu və möhkəmliyi şanlı qələbəni təmin edən mühüm amillərdən biri olduğu göstərilir.

YAP-ın ümumxalq partiyası olması onu gələcəkdə də aparıcı siyasi qüvvə kimi gücləndirən meyardır, partiyada tanınmış ziyalılar, elm, mədəniyyət, incəsənət xadimləri, gənclər və qadınlar, cəmiyyətin müxtəlif təbəqələrinin nümayəndələrinin geniş şəkildə təmsil olunması xalqımızın Heydər Əliyevin yaratdığı partiyaya böyük etimadının ifadəsidir.

Dünya sürətlə dəyişir, qloballaşma prosesi yeni çağırışlara meydan açır. Bu inkişaf və yenilənmə dövründə İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan daim öz maraqlarını qorumağı, xalqın sosial rifahını yüksəltməyi, müstəqil dövlətimizi tərəqqi yolu ilə uğurla aparmağı bacarır. Azərbaycan xalqı əmindir ki, xalq-iqtidar birliyi, Prezident İlham Əliyevin müdrik və uzaqgörən rəhbərliyi sayəsində yeni hədəflər də fəth olunacaq, daim yenilənən Yeni Azərbaycan Partiyası yeni proqramında qarşıya qoyduğu vəzifələri şərəflə yerinə yetirəcəkdir!

***1 fevral 2022-ci il***

# Tanrı köməyi

Ən çətin günümüzdə, adətən, Tanrıya üz tuturuq!

Ən ağır məqamda Allaha yalvararaq ondan kömək istəyirik!

Gücümüz çatmayan işdən təkbaşına yapışanda Allahdan güc, qüvvət diləyirik!

Həmişə də belə hesab etmişik və həm də görmüşük ki, Tanrı bizimlə olmayanda, öz köməyini göstərməyəndə niyyətimizə çata bilmirik!

Bəs Allah bizə nə sayaq kömək göstərir, hansı formada dayaq durur, dadımıza necə çatır? - heç bu barədə dərindən düşünürükmü?!

İki toxunulası vacib məqam da var:

Əvvəla, Tanrı heç də bütün çağırışları eşidib, dərhal kömək əlini uzatmır.

Yoxsa, atalar demişkən, qaçan da "ya Allah" deyir, qovan da "ya Allah" deyir!

Başqa sözlə, hər iki tərəf işə başlayanda Tanrıdan kömək istəyir!

Hansına kömək göstərilməsi isə bəndənin müəyyən edəcəyi məsələ deyil, Tanrılıqdır!

İkincisi, Allah təkcə istəyənə yox, ən əvvəl işi görənə, işə başlayana arxa durar!

Yoxsa, bütün günü evdə, məsciddə oturub yalvarmaqla, dua etməklə heç zaman iş irəli getməz!

❖❖❖

Uzun illər boyu Tanrı bizi sanki eşitmirdi...

Yalvarışlarımızı cavabsız qoyurdu...

Anlamırdıq, günahımız nəydi?!

Bəlkə sovet dövründə məscidlərə az getməyimiz, oruc tutmamağımız, digər dini ayinləri yerinə yetirməməyimizə görə?!

Bəlkə elmi ateizm dərslərində qiymət almaq üçün Tanrının varlığını danmaq məcburiyyətində qaldığımıza görə?!

Bəlkə dünyanın ən yalançı, ən bic, ən yaltaq və ən alçaq milləti ilə qonşuluq etdiyimizə görə?!

Amma bunların da hamısı Tanrının iradəsi ilə baş vermişdi!

Sovet hakimiyyəti çox güclü, əzazil, qəddar və qaniçən quruluş idi!

Onun yetmiş illik mövcudluğu dövründə 50 milyondan çox adam öz əcəli ilə ölməyib, müxtəlif üsul və vasitələrlə öldürülüb!

Sovetin mükəmməl repressiya sistemi, cəza mexanizmləri vardı.

Fərqli bir ideologiyaya, kommunizm xülyasına xidmət edirdi...
Dinsizliyi də özünə hədəf seçmişdi...
Həm də nəinki hədəf seçmişdi, Allaha inananları təqib edir, dini məbədlərə gedənləri cəzalandırır, ən yaxşı halda ahıl və pensiyaçılara güzəştə gedərək onları yalnız qınağa tuş gətirirdi.

❖❖❖

İndi də əsl səbəbi bilmək və söyləmək çətindir!
Fakt bu idi ki, 80-ci illərin sonlarında SSRİ adlı super dövlətin dağılması ərəfəsində Tanrı bizdən üz çevirdi!
Özü də yalnız üz çevirmədi, cəzalandırmağa başladı!
Bəlkə də hansısa "təzə" əməlimizə görə qəzəblənmişdi...
Əvvəlcə 1990-cı ilin 20 Yanvar müsibətini başımıza gətirdi!
Bizi rəhbərsiz, böyüksüz qoydu!
Beləliklə, bir millət olaraq maymaqların, qorxaqların, təcrübəsiz və səriştəsizlərin ümidinə qaldıq!
O dövrdə respublikaya başçılıq edənlərin bir gözü və iki qulağı Moskvada idi!
Nə dünyada, nə SSRİ miqyasında baş verən təlatümlü hadisələrdən baş çıxarır, sabah nə olacağını təsəvvür edir, nə də müvafiq, müstəqil addımlar atırdılar!
Xalqa gün ağlamaq, torpaqların müdafiəsini təşkil etmək, ordu yaratmaq barədə düşünmək əvəzinə əhalidəki ov tüfənglərini belə yığaraq insanları əliyalın qoydular!
Özlərini demokrat sayan "meydan qəhrəmanları" isə neçə yaşayış məntəqəsinin itirilməsi bahasına iqtidara gələndən sonra ciblərini düşündüklərindən, gülünc, səriştəsiz siyasət (əgər buna siyasət demək mümkün idisə) yeritdiklərindən vəziyyəti daha da pisləşdirdilər, Azərbaycanı bir dövlət kimi məhvolma həddinə çatdırdılar.

❖❖❖

... Torpaqlar kəndbəkənd işğal olunur, təkcə Vətəni müdafiəyə qalxan qeyrətli oğullar deyil, vəhşi və alçaq düşmənin qeyri-insani əməlləri nəticəsində qocalar, qadınlar, körpə uşaqlar belə öldürülür, düzlərə düşərək yurdsuz-yuvasız, ac-yalavac qalırdılar.
Zülm ərşə dirənsə də, bunu nə Avropa, nə dünya görür, nə erməniyə dur deyən tapılırdı!
Əksinə, yanan da biz idik, yaman da!

Adımızı "vəhşi", "qəddar" müsəlman qoyaraq bizi "zavallı", "mədəni və qədim" erməniyə qırdırır, torpaqlarımızın işğalına, soyqırımı və qəddarlıq hallarına göz yumurdular!

Tanrı da bütün bunları görə-görə səbi

r edirdi!

Sanki bizə nə səbəbdənsə verdiyi cəzanın müddətinin bitməsini gözləyirdi...

1993-cü ildə deyəsən ürəyi bir qədər yumşaldı...

Sanki bu dövr üçün qoruyub saxladığı, Kremlin xəstəxanasından salamat qurtardığı övladını, əslində, Azərbaycan xalqının xilaskar oğlu Heydər Əliyevi yenidən geriyə, ölkə rəhbərliyinə qaytardı...

Bununla da Azərbaycanı bir dövlət kimi məhvolmadan, kiçik xanlıqlara bölünmədən qurtardı.

Amma həmin dövrdə Ulu Öndərimiz üçün də asan deyildi!

Yoxsul, başıpozuq bir ölkədə vəziyyəti nizama salmaq xeyli müşkül görünürdü!

Bundan sonra da Tanrı bizi daha iki dəfə - 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında ağır sınağa çəkdi!

Yalnız Heydər Əliyevin şəxsi şücaəti, müdrikliyi, qətiyyət və qorxmazlığı sayəsində dövlət çevrilişi cəhdlərinin qarşısı ustalıqla alındı, bu dəfə xalq öz rəhbəri ilə birlikdə olduğundan sınaqdan üzüağ çıxdı!

Deyəsən Tanrı da yavaş-yavaş mərhəmətini göstərməyə başlayırdı...

Ulu Öndərimiz zaman itirmədən bir neçə istiqamətdə fəaliyyət göstərir, sutkanın on səkkiz saatını işləyirdi!

BELƏLİKLƏ:

* müharibə cəbhəsində atəşkəsə nail olundu;

* əhalidəki külli miqdarda qanunsuz silah-sursat yığıldı;

* ölkə anarxiya, xaos, qanunsuzluq və başıpozuqluqdan qurtardı;

* qaçqın və məcburi köçkünlər yerləşdirildi, onlara sistemli dövlət qayğısı və yardımı yoluna qoyuldu;

* yeni Konstitusiya hazırlanaraq qəbul olundu, bazar iqtisadiyyatı prinsiplərinə keçidə başlandı;

* özəlləşdirmə proqramları icra edildi, dövlət əmlakının dövlətsizləşdirilməsi prosesinə start verildi;

* torpaq islahatı keçirildi;

* ordu quruculuğu prosesi nizama salındı;

* "Əsrin müqaviləsi" neft kontraktı imzalandı, sürətli və davamlı iqtisadi inkişafın təməli qoyuldu və s.

Ancaq ömür Ulu Öndərimizə vəfa etmədi!

Ümummilli Liderimiz Heydər Əliyev Qarabağın işğaldan azad edilməsini və digər taleyüklü problemlərin həllini cənab İlham Əliyevin üzərinə qoyaraq Azərbaycan xalqına sonuncu müqəddəs vəsiyyətini söyləyib əbədiliyə qovuşdu...

Xoşbəxtlikdən İlham Əliyevin güclü çiyinləri bu ağır və məsuliyyətli yükə tab gətirdi və bütün vəzifələri şərəflə, hünər və qəhrəmanlıqla yerinə yetirdi!

Görünür Tanrımız da budəfəki xilaskarlıq missiyasının icrasını İlham Əliyevin taleyinə yazıbmış və sonadək arxasında duraraq möcüzələr yaratmasında köməyi və dayağı oldu!

❖❖❖

Bəli, Allah-Təala Azərbaycan xalqına köməyini məhz özünün seçdiyi sevimli bəndəsi İlham Əliyevin əli ilə etdi!

Bundan sonra özü də üzünü xalqımıza doğru çevirdi, Prezidentimizə dayaq durdu, sözünü kəsərli, gücünü tükənməz, işini avand etdi!

Allah sevdiyi bəndəsinə həmişə lütf göstərir!

* Baxın, cənab İlham Əliyevə iki dəfə Həcc ziyarəti, Kəbədə namaz qılmaq səadəti nəsib olub!

* Azərbaycan tarixində İlham Əliyev qədər məscid, kilsə, sinaqoq tikdirən ikinci bir dövlət başçısı olmayıb!

* İlham Əliyev ölkə ərazisində uzun müddət baxımsız qalan, bərbad günə düşən məscidləri, bir sıra dini ocaqları və türbələri yüksək səviyyədə təmir etdirərək xalqın sərəncamına verib;

* Neçə alban kilsəsi məhz onun sayəsində abadlaşdırılaraq qapılarını inanclı insanların üzünə açıb;

* Heydər Əliyev Fondunun dəstəyi ilə valideynlərindən məhrum uşaqlar üçün uşaq evləri, internat məktəbləri inşa olunub, müstəqil həyata qədəm qoyan kimsəsiz yeniyetmələrə və gənclərə təhsil, mənzil, iş verilib;

* Fiziki qüsurlu və müxtəlif xəstəliklərə mübtəla uşaqların müalicəsi, aktiv həyata inteqrasiyası üçün müalicə müəssisələri, bərpa mərkəzləri yaradılıb;

* Bu gün isə erməni vandallığı nəticəsində dağıdılmış, təhqir olunmuş məscid və digər məbədlərin bərpası ilə bağlı dəyərli layihələr gerçəkləşdirilir və onların ilk nümunələrini artıq mədəniyyət paytaxtı Şuşada görürük!

Tanrı İlham Əliyevə daim arxa durur, kömək edir, gücünə güc qatır!

Bəs Qarabağımızın xilaskarı İlham Əliyevin real gücü nədədir?

* İlk növbədə xalq-iqtidar birliyində, ölkə daxilində milli birliyin yaradılmasındadır!
* İlham Əliyev xalqın nə istədiyini bilir və daim onu uğurla gerçəkləşdirməyi bacarır!
* Yüksək intellektə, zəngin və hərtər
əfli biliyə, xarizmaya malik unikal şəxsiyyətdir!
* Nəyi nə vaxt və necə etməyi gözəl bilir, ən məsuliyyətli addımlarını ən dəqiq məqamda atır!
* Fenomenal yaddaşa, parlaq nitq qabiliyyətinə, yüksək polemika bacarığına sahibdir!
* Uzaqgörənliyi, dünya siyasətinin incəliklərinə dərindən bələdliyi, diplomatik məharəti hamı tərəfindən etiraf olunur!
* Dostluq münasibətləri qurmağın, dövlətləri birgə əməkdaşlığa cəlb etməyin, bütün tərəfləri razı salan, hər kəsin marağını təmin edən işbirliyi yaratmağın ustasıdır!
* Dönməz iradəsi, açıq və səmimi davranışı, qətiyyət və prinsipiallığı bütün dünyaya bəllidir.
* Hamı cənab İlham Əliyevin dediyi sözün, verdiyi vədin yiyəsi olmasına, "sözümüz imzamızdır" prinsipinə daim əməl etməsinə şahiddir.
* Müasir düşüncə sahibi olaraq cari fəaliyyətini uzaq perspektivli məsələlərin həlli ilə üzvi surətdə əlaqələndirməyi ustalıqla bacarır.
* Böyük fiziki gücə, yüksək və gərgin iş qabiliyyətinə malikdir.
* Bir sözlə, Tanrı Qarabağın xilaskarı kimi seçdiyi İlham Əliyevdən heç nəyini əsirgəməyib!

Daha maraqlı bir fakt.

Cənab İlham Əliyev ölkə rəhbərliyinə başladığı dövrdə hətta ölkənin bütün ərazisinə sutkanın 24 saatı ərzində elektrik enerjisi verilməsi belə mümkün deyildi, xaricdən təbii qaz alırdıq...

Bu gün isə Azərbaycan dünyaya təkcə neft, neft məhsulları və təbii qaz deyil, həm də elektrik enerjisi ixrac edir və ilbəil onun həcmini artırır.

Yaxud, "Əsrin müqaviləsi" sayəsində ölkəyə neft gəlirləri gəlməyə başlayanda Tanrının köməyi ilə dünya neft bazarlarında xam neftin qiyməti sürətlə artmağa başladı.

Bu gün - Qarabağın dirçəldilməsinə başladığımız zamanda da neftin və qazın qiyməti yüksəlir!

Bunlar Tanrının lütfü deyilmi?!

❖❖❖

Dəyişən möhtəşəm reallıq dövlətimizin də gücünə güc qatıb!

Vaxt var idi dünya və Avropa qurumlarında ermənipərəst qüvvələrin köməyi ilə Azərbaycana böhtanlar atılır, sıxışdırılır, müxtəlif təsir və təzyiqlər göstərilirdi.

Adətən, belə hallarda özümüzü müdafiə edir, əsl həqiqətləri söyləməyə çalışır, bizə qarşı yönəldilən faktların yalanlığını isbat etməyə can atırdıq.

Bu gün təkcə bunları etmirik!

Bizə şər və böhtan atıb borclu çıxarmağa çalışanları dedikləri ilə bağlı öz ölkələrində baş verənləri tarixi ardıcıllıqla yadlarına salır, öz əməllərini, naqis işlərini sübutlarla açıb tökür, öz gözlərindəki tiri də görməyə çağırırıq!

Daim hücum mövqeyindəyik!

Çünki müharibə meydanında qazandığımız qələbə, diplomatiya və informasiya cəbhəsindəki uğurlarımız mövqelərimizi əsaslı şəkildə gücləndirib, beynəlxalq qurum və təşkilatlarda fəaliyyətimizin səmərəliliyinin yüksəlməsinə münbit şərait yaradıb!

Daha barəmizdə kimsə, haradasa, nəsə deyəndə bir o qədər də narahat olmuruq.

MƏSƏLƏN:

* ATƏT-in Minsk qrupunu xortlatmaq istəyənlər var;

* Ermənistanda və onun havadarları sırasında arabir "status" deyib sayıqlayanlar olur;

* ABŞ-ın Ermənistandakı səfiri hərdən vəzifəsinə və səlahiyyətlərinə uyğun gəlməyən, amma erməniyə xoş gedən "söhbətlər" edir;

* Biabırçı məğlubiyyətə uğrayaraq kapitulyasiya aktına qol çəkən Ermənistanın xarici işlər naziri özünü unudaraq delimitasiya və demarkasiya proseslərinin başlanılmasını müəyyən "şərtlərlə" bağlamağa can atır və s.

İlham Əliyev belə halda ironiya ilə gülümsəyir, "dəmir yumruğ"unu sıxır və təmkinlə, amma qətiyyətlə xəbərdarlıqlarını da edir!

Bu gün qalib Azərbaycan dövləti ağıryüklü karvana bənzəyir və inamla, dayanmadan məqsədə doğru irəliləyir!

Artıq Azərbaycan öz sərhədlərinin haradan keçdiyini hamıdan yaxşı bilir və zəruri saydığı tədbirlərini də görür:

Məsələn, indiyədək azad edilmiş ərazilərdə 104 sərhəd - döyüş məntəqəsi yaradılaraq xidməti - döyüş fəaliyyətinə başlayıb!

Bərpa-quruculuq işləri də görünməmiş sürətlə aparılır:

Yeni yollar çəkilir, dəmir yolu xətti salınır, dağların altından tunellər qazılır, meşələr və yaşıllıqlar bərpa olunur, "ağıllı" kənd və şəhərlərə çevriləcək layihələrin icrasına start verilir, bir sözlə, insanların doğma yurda tezliklə qayıtmaları üçün zəruri infrastruktur və şərait yaradılır!

İlk qayıdış isə bax elə bu il baş tutacaqdır!

Qaldı "status"a, o hələ də Prezidentimizin "göndərdiyi yerdə" düşüb qalıb...

Bütün bu nəhəng və genişmiqyaslı işlərin təşkilatçısı və aparıcısı Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevdir!

İlham Əliyevin arxasında isə onu seçən və sevən, sevimli bəndəsinə çevirən Ulu Tanrı dayanır!

27 illik həsrət və möhnətdən sonra ilahi ədaləti bərpa edən, 44 günlük müharibədə bizə ən az itki ilə ən möhtəşəm Zəfər qismət edən Tanrımız!

Belə söyləyirlər ki, Allah-Təala iki kərə gülümsəyir:

Birinci dəfə özü kimisə qaldıranda bəzilərinin onun ayaqlarından tutaraq mane olmaq cəhdlərini görəndə;

İkincidə isə kimisə yıxmaq istəyəndə bir sürü insanın onu yıxılmağa qoymamaq üçün az qala dəridən-qabıqdan çıxaraq tər tökdüklərini seyr edəndə!

Tanrı bu gün qalib Azərbaycanı İlham Əliyevin qüdrətli əli ilə yüksəldir!

Ermənistanı isə yerləyeksan edir!

Azərbaycanı gülə-gülə ayağa qaldırır!

Məscidlərdə donuz saxlayan Ermənistanı isə yerlə süründürür və hələ bundan belə başına çox fəlakətlər də gətirəcəkdir!

Tanrının arxa durduğu, kömək göstərdiyi insan möcüzələr yaratmağa qadir olur və yaradır!

Buna şahid olmaq istəyənlər hər zaman Azərbaycana gələrək Qarabağa, mədəniyyət paytaxtı Şuşaya səfər etməklə deyilənləri öz gözləri ilə görə bilərlər!

Tanrı artıq öz üzünü Azərbaycan tərəfə çevirib və bütün köməyini edir!

***10 fevral 2022-ci il***

## Unutsaq - xəyanət etmiş olarıq!

*"Əlbəttə ki, Ermənistan-Azərbaycan arasında sülh müqaviləsi olmalıdır. Beynəlxalq hüququn norma və prinsipləri əsasında qarşılıqlı surətdə ölkələrin ərazi bütövlüyünü tanımaq şərtilə bu sülh müqaviləsi imzalanmalıdır. Mən də onu demişəm. Ancaq heç vaxt Azərbaycan xalqı bu vəhşiliyi unutmamalıdır. Heç kim bu vəhşiliyi unutmamalıdır".*

***İlham ƏLİYEV***

Nəhayət!!!

Düz 27 ildən sonra ikinci dəfə dünyanın ən alçaq, ən hiyləgər, ən qorxaq, ən rəzil və faşist xislətli düşməni ilə qabaq-qarşı vuruşduq!

Bu dəfə murdar erməni heç kəsin arxasında gizlənə bilmədi!

Aldığı gizli dəstək və kömək də karına gəlmədi!

44 gün ərzində Ermənistan ordusu məhv edildi!

Düşmənin beli sındırıldı, qarşımızda diz çökdürüldü!

Qaçıb gizlənməyə yer tapmadı, gizləndiyi dəlmə-deşikdə isə dəqiq mərmi və raket atəşləri ilə yoğrularaq torpağa qarışdırıldı!

44 gün ərzində Ermənistan ordusunu pərən-pərən salaraq qorxaqlar dəstəsinə, fərarilər yığnağına çevirdik!

Sinəsi dəmir-dümürlə dolu generallar, zabitlər tabeliklərində olan əsgərlərini, döyüş mövqelərini, silah-sursatlarını ataraq İrəvana qədər qorxaqcasına qaçdılar!

Sonra hamilərinə və müdafiəçilərinə yalvararaq bizdən aman dilədilər!

Əlimizə-ayağımıza düşərək hərbi əməliyyatların dayandırılması üçün ağlayıb-sızladılar, neçə-neçə daban yaladılar!

Lap axırda qaranlıq bir yerə girərək kapitulyasiya aktına qol çəkdilər!

Çünki II Qarabağ müharibəsində artıq qarşılarında bambaşqa, yeni bir ordu görmüşdülər!

* Bu orduya Müzəffər Ali Baş Komandan, "dəmir yumruğ"u ilə düşmənin başını əzib, belini qıran İlham Əliyev rəhbərlik edirdi!

* XXI əsrin qüdrətli ordusunu yaradan, onu ən müasir silahlarla, ən yeni strategiya və taktika ilə təmin edən Müzəffər Ali Baş Komandan İlham Əliyev!

* Düşmənin 30 ildə havadarlarının köməyi ilə yaratdığı altıqat müdafiə xəttini, "keçilməz" səngərlərini, beton bunkerlərini uğurlu taktikası və ağıllı manevrləri ilə heçə çıxaran Müzəffər Ali Baş Komandan İlham Əliyev!

* 44 gün ərzində "Böyük Ermənistan", "məğlubedilməz ordu", "qalib xalq" xülyasını sabun köpüyü kimi partladaraq puça çıxaran Müzəffər Ali Baş Komandan İlham Əliyev!

Bəli, otuz ildən sonra həsrətini çəkdiyimiz, bir dəqiqə belə unutmadığımız vətənə, doğma yurd-yuvaya qayıtdıq!

ANCAQ...

Elə bil bu ərazilərdə 18 ballıq zəlzələ baş vermişdi!

Bütün yaşayış məntəqələri, binalar darmadağın edilmiş, daş-torpaq yığnağına çevrilmişdi!

Təbii ki, 18 ballıq zəlzələ olmur və belə bir təbii fəlakət baş versəydi, bunu tək biz yox, bütün dünya bilərdi!

Sanki Qarabağ ərazisindən vəhşi qəbilələr keçmişdi!

Heç onlar da bu qədər vəhşilik və barbarlıq edə bilməzdilər!

Əslində, bu torpaqlara erməni faşizminin murdar nəfəsi dəymişdi!

Yalnız erməni xisləti belə qəddarlığa, amansızlığa, qeyri-insani hərəkətlərə qadirdir!

Düşmən murdar xislətinə xas olanların hamısını edib!

Avropalılar bu mənzərələri öz yanaşmaları ilə dəqiq qiymətləndirdilər!

Ermənınin bir dənə də salamat tikili qoymadığı Ağdamı "Qafqazın Xirosiması", "ruhlar şəhəri" adlandırdılar!

Bəli, bütün dünyanın lənətlə andığı növbəti Xirosimanı Qarabağda erməni faşizmi törətmişdir!

Artıq dünya Qarabağda törədilən XXI əsrin qəbilə vandallığından xəbərdardır!

Təkcə Azərbaycan xalqı deyil, dünyanın bütün ölkələrində yaşayanlar da tarixin görünməyən vəhşiliklərini öz gözləri ilə görüblər:

* dünyaya yayımlanan Azərbaycan telekanalları vasitəsilə;

* dünyanın əksər ölkələrindən Qarabağa gələrək bu faciədən çəkilişlər aparmış KİV vasitəsilə;

* beynəlxalq miqyasda tanınmış QHT təmsilçilərinin və bloqçuların Qarabağa səfərdən sonra öz ölkələrinin telekanallarında və internetdə yaydıqları süjetlər vasitəsilə;

* bu vəhşilikdən sarsılmış insanların mobil telefonlarına çəkərək sosial şəbəkələrdə yerləşdirilmiş həvəskar çəkilişləri vasitəsilə;

* ən nəhayət, Azərbaycan Prezidenti cənab İlham Əliyevin Qarabağa çoxsaylı səfər edərkən müraciət, açıqlama və müsahibələrini müşayiət edən operator çəkilişləri vasitəsilə!

Daha erməni dəvə kimi başını kolluğa soxaraq özünü "qədim", "mədəni", "zavallı" toplum kimi təqdim edə bilmir!

Çünki otuz ildə işğal etdiyi özgə torpaqlarındakı vəhşiliklər göz önündədir!

❖❖❖

Artıq biz öz Qarabağımıza qayıtmışıq!

Artıq biz otuz ildən sonra da olsa, öz torpağımıza sahib çıxmışıq!

Artıq biz öz Vətənimizdəyik və hər zaman, hər an ucadan qürurla, var səsimizlə "Qarabağ Azərbaycandır!" - deyə hayqırırıq!

Bu xarabalıqlar da bizə çox doğma, çox əzizdir!

Əvvəla, Vətənimizdir!

İkincisi isə, onu böyük qurbanlar hesabına, hər biri bizim üçün müqəddəs və əziz olan şəhidlərimizin qanı bahasına qaytarmışıq!

Doğrudur, şəhid balalarımızın qisasını artıqlaması ilə almışıq!

Doğrudur, ermənini rəzil, şərəfsiz günə salmışıq!

Doğrudur, 44 günlük Vətən müharibəsindən sonra nə erməni ordusu qalıb, nə müstəqil Ermənistan dövləti var, nə də yaxın müddətdə onun böhrandan, dilənçi vəziyyətindən, siyasi xaosdan, miqrant axınından qurtarmaq imkanı!

Cavabımız ağır, zərbəmiz güclü, nəticə isə heç kəsin - nə Ermənistanın havadarlarının, nə dünya erməniliyinin, nə də "böyük Ermənistan" xülyasından ağlını itirən erməni vətəndaşlarının ağıllarına belə gətirə bilməyəcəkləri həcmdə və qüdrətdə olub!

"Dəmir yumruq" isə yenə hər an ağılsız başları əzməyə hazır vəziyyətdədir!

❖❖❖

Tale bizi zorla ermənilərə qonşu edib!

Biz heç hara gedəsi deyilik, yenicə doğma yurd-yuvaya qayıtmışıq!

Ermənini isə baş götürüb qaçmağa qoymurlar!

Faşist xislətli, murdar niyyətli, revanşist düşüncəli düşmənlə qonşu olduğumuzu bir an belə unutmağa haqqımız yoxdur!

* Daim güclü olmalıyıq!
* Daim qüdrətli orduya sahib olmalıyıq!
* Daim hər bir təxribat əməlinə hazır olmalıyıq!
* Daim erməni qudurğanlığının payını artıqlaması ilə verməyi bacarmalıyıq!

Ən əsası isə, bu vəhşilikləri, bu qəddarlıqları, bu dağıntıları, bu xarabalıqları unutmamalıyıq!

* Bunu bizə Prezidentimiz deyir!
* Bunu bizə tariximiz deyir!
* Bunu bizə real vəziyyət və mövcud şərait diktə edir!

İndiyədək olanları unutmağa mənəvi haqqımız yoxdur!

* Unutsaq - özümüzə xəyanət etmiş olarıq!
* Unutsaq - millətimizə xəyanət etmiş olarıq!
* Unutsaq - xalqımıza xəyanət etmiş olarıq!
* Unutsaq - torpaq uğrunda canından keçmiş şəhidlərimizin müqəddəs ruhuna xəyanət etmiş olarıq!

Xocalıda soyqırımına uğradılan qocaların, qadınların, uşaqların ruhuna xəyanət etmiş olarıq!

Yalnız azərbaycanlı olduğuna görə, Qarabağda yaşadığına görə erməni vandalları tərəfindən vəhşicəsinə qətlə yetirilən iyirmi beş mindən çox vətəndaşımızın ruhuna xəyanət etmiş olarıq!

Alçaq ermənilər tərəfindən öldürülən yüzlərlə azərbaycanlının - ləzginin, talışın, rusun, yəhudinin, tatın, ingiloyun, avarın - bir sözlə, Azərbaycanı özünə doğma vətən bilən və onun uğrunda canından keçən oğullarımızın ruhuna xəyanət etmiş olarıq!

Bəli, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə torpaqlarımızı geri qaytardıq, alçaq düşməndən bütün qisaslarımızı aldıq!

Onları "Bayraqdar"larla məhv edərək müqəddəs torpaqlarımızdan it kimi qovduq!

Tam əminik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə doğma Qarabağımızı cənnətə çevirəcəyik!

Cümlə Qarabağ əvvəlkindən də gözəl, varlı və qüdrətli olacaqdır!

* Amma indiki xarabalıqları, yerləyeksan edilmiş kənd, şəhər və qəsəbələri unutmamalıyıq!
* Dağıdılmış, təhqir edilmiş, donuz, qaramal saxlanmış məscidlərimizi heç zaman yaddan çıxarmamalıyıq!

* Yandırılmış məktəbləri və uşaq bağçalarını, talan edilmiş mal-mülkləri, qarət olunmuş muzeyləri, mədəniyyət ocaqlarını unutmamalıyıq!

* Məhv edilmiş nadir meşələrimizi, kəsilmiş meyvə bağlarımızı, yağmalanıb daşınmış yeraltı və yerüstü sərvətlərimizi unutmamalıyıq!

* Dağıdılmış asfalt yollarını, sökülüb satılmış dəmir yolu xətlərini, partladılmış körpüləri, sıradan çıxarılmış elektrik, su xətlərini, kəhrizləri, artezian quyularını, zəhərlənərək suları çirkləndirilmiş çaylarımızı, göllərimizi, balıqları unutmamalıyıq!

* Başdaşıları oğurlanaraq kimlərəsə satılmış, dəmir cağları oğurlanıb aparılmış, qızıl dişlərinə görə gor evini eşərək qəbirləri tar-mar olunmuş qəbiristanlıqları unutmamalıyıq!

Bunu bizdən Vətən tələb edir!

Bunu bizdən müqəddəs şəhid ruhları tələb edir!

Bunu bizdən qəhrəman qazilərimiz tələb edir!

Bunu bizdən başı bəlalar çəkmiş yaralı Vətən torpağı tələb edir!

***17 fevral 2022-ci il***

## Ürək yarası da sağalarmış

Deyirlər, Allah, dərdini çəkə bilənə ver!

Uca Tanrı ayrı-ayrı adamlara da, bütövlükdə millətə də ağır dərd verə bilər!

Əlacını, dərmanını isə sonraya saxlayar, yaxud heç çarəsini qılmaz!

Hər bir insan isə çəkdiyi dərdini də, hətta çəkə bilmədiyini də ürəyinə salar...

Ürək isə qapalı, örtülü yerdə olur.

Kənardan onu nə kimsə görür, nə də dərd yükünü təyin edə bilir!

İçində çəkdiklərini gizlədən, üzə vurmayan da olur, dərdini dilinə gətirib gileylənən, deyinən, hərdən göz yaşına güc verənlər də!

Amma sonra yenə çarə Allahdan və onun seçdiyi bəndə, təbib, dərman tərəfindən olur!

Müstəqil Azərbaycan dövlətinin Qarabağ adlı bir dərdi, həllolunmaz problemi vardı!

Bu dərd xalqımızın ürəyində qubara çevrilmişdi!

Bu dərd gözümüzlə görməsək də, ürəyimizdə yara bağlamışdı!

Bu həm də elə bir dərd idi ki, bizi dost-düşmən yanında sındırırdı, dilimizi gödək edirdi!

Bu həm də elə bir dərd idi ki, dövlətimizin, xalqımızın hər uğuruna sevinəndə, güləndə də içimizdən kədəri əksilməyə qoymurdu!

Bu dərdi nə çəkmək mümkün idi, nə unutmaq, nə də arsızlığa salıb əhəmiyyət verməmək!

❖❖❖

Bu dərdin bir tərəfi dövlətin, o biri tərəfi isə məcburi köçkünlərin çiynində idi!

Dövlət və onun başçısı təkcə torpaqları geri qaytarmaq və buna görə iqtisadiyyatı gücləndirmək, diplomatiya sahəsində yorulmadan iş aparmaq, qüdrətli ordu yaratmaq, onu ən müasir silahlarla, strategiya və taktika ilə təmin etmək, sülh danışıqları nə qədər ağır və çətin olsa da, davam etdirmək və dünya erməniliyinin məkrli oyunlarını puça çıxarmaq barədə düşünmürdü.

Həm də bir milyondan çox qaçqın və məcburi köçkünü yerləşdirmək, normal həyat şəraitini təmin etmək, müxtəlif növ yardımlar göstərmək, təbii yolla sıraları get-gedə artan bu binəva insanları çadır şəhərciklərindən çıxarmaq, iş yeri

yaratmaq, şəxsi bizneslərinin qurulmasına yardımçı olmaq, üstəlik ümidlərini itirməmələri üçün mənəvi dayaq durmaqla da məşğul idi.

Ulu Öndər Heydər Əliyev məcburi köçkünləri heç zaman tənha və köməksiz qoymadı.

Beynəlxalq qurum və təşkilatların diqqətini onların çətin durumuna yönəltdi.

Azərbaycana dost ölkələrə yeni humanitar yardım ünvanını göstərdi!

İlk dəfə olaraq qaçqın və məcburi köçkünlərə sistemli dövlət yardımını, zəruri dövlət qayğısını təmin və təşkil etdi.

Təəssüf ki, ömür vəfasız çıxdı, bu müşkül problemin həllinə zaman vermədi...

Bu ağır dərdin çarəsini də həm Ulu Öndərimiz, həm də tale cənab İlham Əliyevin çiyinlərinə qoymuş oldu!

Möhtərəm İlham Əliyev isə prezidentliyinin ilk günlərində bu barədə ardıcıl tədbirlər görüb, inamlı addımlar atmalı oldu!

❖❖❖

27 il bir o qədər də qısa müddət deyil!

Hərçənd ki, qocaman tarix üçün "bir göz qırpımı" da sayıla bilər!

Amma bu 27 ilin hər gününü yurdhəsrətlilər qubarla, intizarla, dözümsüzlüklə yaşadılar...

Doğma yurdu, el-obanı bir an belə yaddan çıxarmadılar.

Ürəklərindəki yara heç zaman qaysaq bağlamadı, daim qövr elədi!

Vətəni görmədən dünyasını dəyişənlərin sayı ilbəil artdı.

Ata-baba qəbiristanlığında gömülmək üçün əmanət qəbirlərdə "gözləyənlər" çoxaldı...

Dünyadan ədaləti, beynəlxalq hüququn təntənəsini, işğalçıya təzyiq göstəriləcəyini umsaq da, əlimiz boşda, ümidimiz havada qaldı.

Sanki BMT-nin Təhlükəsizlik Şurası da Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 4 qətnamə qəbul etdiyini yaddan çıxarmışdı.

İkili standartlar bizi sıxdı...

Ürəyimizə saldıq!

İşğalçı ilə işğala məruz qalanı eyni tutdular...

Ürəyimizə saldıq!

Münaqişəni həll etməli olan ATƏT-in Minsk qrupu "Siz nə razılığa gəlsəniz, biz onu dəstəkləyəcəyik" söyləyəndə bizə qəribə və gülməli gəldi.

Ürəyimizə saldıq!

Sülh danışıqlarında Ermənistanın dövlət başçıları özlərini yekəxana, yekəbaş apardılar...

Dişimiz bağırsağımızı kəssə də, üstlərinə gedə bilmədik, dözdük.

Ürək isə dözmürdü, yara dərinləşirdi!

Artıq möcüzə gözləyirdik!

Yüz minlərlə insanı doğma torpaqlara qovuşduracaq möcüzəni!

Sən demə, həyatda möcüzə də varmış!!!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin 44 gündə yaratdığı möcüzə!

Bizi doğma torpaqlara qovuşduran möcüzə!

Bizi qalib dövlətə, qalib xalqa çevirən möcüzə!

Düşməni Qarabağdan silib-süpürən, rədd edib atan möcüzə!

❖❖❖

Sitəmli günlərimizi heç zaman unuda bilmərik!

Bəs bu gün möhtəşəm Zəfərin zirvəsindən geriyə boylananda nə görürük:

22 fevral 1988-ci il!

Qarabağ müharibəsinin başlandığı, iki ağdamlı gəncin - Əli və Bəxtiyarın şəhid edildiyi gün!

8 noyabr 2020-ci il!

44 günlük Vətən müharibəsinin Ermənistanın kapitulyasiya aktının imzalaması ilə başa çatdığı gün!

27 illik işğala 44 günlük Zəfərlə son qoyulduğu xoşbəxt və unudulmaz tarix!

Bu tarixlərin arasında nə qədər şəhid qanı axıb, insanlar nə qədər əzab-əziyyətə qatlaşıb, yurd həsrəti çəkib...

Həm də heç bir günahları olmadan sərsəm, faşist xislətli, ağlını itirmiş və özgə torpağına göz dikən, onu zorla ələ keçirmək istəyən başsız millətin, aqressiv dövlətin vəhşiliyi ucbatından.

Bəs aldığı, 27 il işğalda saxladığı ərazilərdə erməni vandalları özlərini necə aparıblar?

Başqasının torpağına yiyələnmək onlara xoşbəxtlik, var-dövlət, rahatlıq gətiribmi?

Çəyirtkə sürüsü keçəndən sonra bağ-bağatda, zəmi və yaşıllıqlardan nə qalırsa, ermənilər Qarabağdan qovulduqdan sonra təkcə təbiətdən yox, yaşayış məntəqələrindən də o qalıb!

Vəhşi Afrika dövrünün cəngəllik qəbilələrini xatırladan bu millət (özlərini dünyada "ən qədim", "ən mədəni", "ən məzlum" xalq kimi təqdim etsələr də)

dostlarının, həmməsləklərinin köməyi ilə gözə görünən bütün tikili və qurğuları, insana gərək olacaq və fayda verə biləcək hər şeyi söküb, daşıyıb pula çevirmiş, apara bilmədiyini yerlə-yeksan etmiş, hətta meyvə ağaclarını qırıb nəyəsə işlətmişdir.

Bəli, ermənilər bu işğalla müəyyən qədər qazandılar:

Təbii sərvətlərimizi talayıb apardılar, evlərimizi söküb daşıdılar, meşələrimizi qırıb satdılar, topraqlarımızda əkib-becərib məhsul yığdılar...

Həm də hər yeri dağıdıb viran qoydular, yaşayış məntəqələrini yer üzündən sildilər...

Amma özlərini ağ günə çıxara bilmədilər: forpost dövlətə çevrildilər, monoetnik respublika oldular, dilənçi vəziyyətinə düşdülər, cavanları qırıldı, fərariyə çevrildi, əhali baş götürüb getdi, ölkə boşaldı...

İndi isə hələ də leşlərinin qalıqlarını yığırlar, ağlı başında olan bir adam tapıb dövlət başçısı qoya bilmirlər, bir-birilərinin ətini yeyirlər, sabahlarına inanmırlar, revanşizmdən dəm vursalar da, nə pulları var ki, silah alıb ordunu bərpa edələr, nə də adamları var ki, orduya gətirib sərhədlərini qoruyalar, nə də iş tapırlar ki, pul qazanıb aclıqdan qurtulalar!

Nə bu günləri gündür, nə də sabahları var!

Nə dövlət ola biləcəklər, nə də bu xislətlə rahat yaşayasıdırlar!

Ürəkdə dərd-qubar olmayanda insanın üzü daim gülər!

İnsan ən böyük dərdinə çarə tapanda özünü rahat və xoşbəxt hiss edər.

İnsan dil qısalığından, baş aşağılığından, qınaq və tənədən qurtaranda yüngülləşər!

Qalib millət özünü bəxtəvər və əmin hiss edər.

Milləti qələbəyə rəhbəri, sərkərdəsi çatdırar!

Ona xalq sevgisini Tanrısı, dövlətin qüdrəti və rifahı, xalqın arzu və istəyini gerçəkləşdirməsi qazandırar!

Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun Heydər Əliyev kimi rəhbəri və Ulu Öndəri olub.

Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun İlham Əliyev kimi lideri və sərkərdəsi var!

❖❖❖

Eşq olsun Müzəffər Ali Baş Komandanımıza!

Eşq olsun şanlı və qüdrətli ordumuza!

Eşq olsun qəhrəman əsgər və zabitlərimizə!

Eşq olsun əməli düz, haqq, ədaləti uca tutan dostlarımıza və qardaşlarımıza!

Mənfur ermənini elə çəyirtkə sürüsü kimi də qırıb torpaqlarımızdan qovduq!

Bütün şəhidlərimizin qisasını artıqlaması ilə aldıq!

Dağıdılmış el-obalarımızın, qəbiristanlıqlarımızın heyfini çıxdıq!

Həm də murdar xislətlilərin əsl simasını bütün dünyaya faktlar əsasında açıb göstərdik!

İndi dünyanın böyük hissəsi ermənini olduğu kimi tanıyır!

İndi heç kim bu barbar xalqın göz yaşlarına, "məzlumluğuna" inanmır!

İndi erməni yalanından bezənlər daha ona qucaq açmır, dirsək göstərərək arxa çevirir!

44 günlük Vətən müharibəsindəki qələbələrimizdən biri də budur!

❖❖❖

Biz dünən itirsək də, bu gün qazanmışıq!

Həm də hərtərəfli, əbədi!

İnandığımız, tarixin sınaqlarından şərəflə çıxan İlham Əliyev kimi rəhbərimiz, Müzəffər Sərkərdəmiz var!

Qayıtdığımız Vətəni yenidən cənnətə çevirməyə hər cür imkanımız var!

Açıq alnımız, qalib millət kimi adımız, Türkiyə kimi dostumuz, qardaşımız, sarsılmaz birliyimiz var!

Bizə qüvvət, qüdrət gətirən, 44 günlük Vətən müharibəsində qələbəyə çatdıran azərbaycançılıq kimi ideologiyamız, bütün çətin sınaqlardan çıxan milli-etnik tamlığımız var!

Bütün təhdidləri, revanşizm cəhdlərini məhv edəcək qüdrətli ordumuz, ən müasir və mükəmməl silahlarımız var!

Sabaha möhkəm inamımız, daha xoş günlərə çatacağımıza təminatımız, dövlətimizin gücünə, qüdrətinə əminliyimiz var!

Daha yurd həsrəti, vətənsizlik dərdi ürəyimizi deşib dağlamır!

Sən demə, ürək yarası da sağalarmış!

Biz Allahın bu sınağından uğurla, birliyimizlə çıxdıq!

İndi isə bizə bu səadəti bəxş edənlərin - Baş Sərkərdənin, qalib ordunun qədrini bilməli, şəhidlərimizi hörmətlə anmalı, qazilərə qayğımızı əsirgəməməliyik!

***22 fevral 2022-ci il***

# Nəyi gözləyirsiniz...

*Qələbə var, tərənnümü isə zəifdir*

Həyatda möcüzəyə bənzər, möcüzə təsiri bağışlayan hadisələr çox olur!

Adətən belə hadisələr insanlarda heyrət, xoş mənada təəccüb və heyranlıq duyğuları yaradır!

Baş verən möcüzə həyatımızla, ümumi, milli maraqlarımızla bağlı olduqda hədsiz dərəcədə sevinir, qürur və fəxarət hissi duyur, həmin möcüzəni yaradanlara sonsuz təşəkkür və minnətdarlığımızı bildiririk.

Təşəkkür və minnətdarlığın forması isə çoxsaylıdır, müxtəlifdir.

MƏSƏLƏN:

* Adi insanlar öz duyğularını xoş sözlərlə;
* Yazıçılar və şairlər yeni yaratdıqları roman, povest, şeir və poemalarla;
* Jurnalistlər müxtəlif janrlı yazılarla;
* Rəssamlar tablolarla;
* Bəstəkarlar yeni bəstələri ilə;
* Dramaturqlar dram əsərləri ilə;
* Kino işçiləri isə müxtəlif sənədli, bədii və televiziya filmləri ilə, başqa sözlə, hər sənətin öz ifadə vasitəsilə münasibət və minnətdarlıqlarını bildirirlər, həm də bu möcüzənin təsirini uzadaraq əbədiləşdirirlər.

Azərbaycan xalqı uşaqdan böyüyədək belə bir möcüzənin 2020-ci ilin 44 günü ərzində şahidi oldu!

Həm də yaşadı!

* Xoşbəxtcəsinə yaşadı!
* Sevinərək yaşadı!
* Qürur duyaraq yaşadı!
* Qəhrəman şəhidlərini ağlayaraq yaşadı!

Bütövlükdə bu möcüzəni bizə, həm də dünya azərbaycanlılarına, bütün Azərbaycansevərlərə Müzəffər Ali Baş Komandan İlham Əliyev yaşatdı!

İlham Əliyev XXI əsrin ən yeni müharibəsini apardı!

İlham Əliyev 44 gün ərzində düşmən ordusunu məhv etdi!

İlham Əliyev Ermənistanı öz qarşısında diz çökdürdü, "dəmir yumruğ"u ilə belini sındırdı!

İlham Əliyev aman diləyən, ona-buna yalvaran, daban yalayan düşmənə kapitulyasiya aktını imzalatdırdı!

İlham Əliyev təkcə döyüş meydanında deyil, diplomatiya və informasiya müharibəsində də düşmənə qalib gəldi!

İlham Əliyev bu müharibədə təkcə Ermənistanı, dünya erməniliyini deyil, Ermənistanın müdafiəçilərini və havadarlarını da məğlubiyyətə uğratdı!

İlham Əliyev 30 il ərzində BMT-nin, ATƏT-in, digər beynəlxalq qurum və təşkilatların görməli olduğu, lakin görə bilmədiyi işi 44 gün ərzində həyata keçirdi!

İlham Əliyev 44 gün ərzində əsl möcüzə yaradaraq Azərbaycan xalqının ən ülvi, ən müqəddəs arzusunu gerçəkləşdirdi!

İlham Əliyev xalqımızı qalib xalqa, dövlətimizi qalib dövlətə, vətəndaşlarımızı məğrur və qürurlu insanlara çevirdi!

Beş əsrdə ilk dəfə olaraq Azərbaycan itirilmiş torpaqlarını geri qaytardı!

İkiəsrlik Qarabağ münaqişəsinə müvəffəqiyyətlə yekun vuruldu!

Status da, ATƏT-in Minsk qrupu da tarixin arxivinə göndərildi!

Otuz il yurd həsrəti çəkən, bir çoxları ağır və çətin vəziyyətdə yaşayan, ikili standartların ağrı-acısını daşıyan insanlarımızı xoşbəxt günlərə çıxardı!

Müharibənin gedişində çoxsaylı müraciətlər etdi, bəyanatlar verdi, dünya KİV-inin, qəzetlərin və telekanalların suallarını cavablandırdı!

Biz hamımız evimizdə, rahat kreslomuzda oturaraq müharibənin gedişini əks etdirən epizodlara baxdıq, düşmənin canlı qüvvəsinin, zirehli texnikasının, silah-sursatının necə məhv edilməsini izlədik!

Bütün bunlar möcüzə deyilmi?!

Bütün bunlar tarix deyilmi?!

Bəs bu möcüzələri bədii ədəbiyyatda, kino sənətində, televiziya filmlərində, rəssamlıq və musiqidə necə əks etdiririk, şərəf tariximizə çeviririkmi?!

İndiki və gələcək nəsillərə nə sayaq çatdırırıq?!

Qısaca desək, çox zəif və yarıtmaz!

Əslində, epizodik şəkildə, bəzən isə bəsit formada!

Axı bu, 5 əsrdə bir dəfə baş verən hadisədir!

Axı bu, 2 əsrlik münaqişəyə cəmi 44 gündə son qoyulmasıdır!

Axı bu, Azərbaycan əsgər və zabitlərinin kütləvi qəhrəmanlığı və rəşadətidir!

Axı bu, şəhidlərimizin müqəddəs qanı ilə qazanılan möhtəşəm zəfərdir!

Bu, bir reallıqdır ki, Azərbaycan yazıçıları Qarabağ münaqişəsi ilə bağlı xalqımıza olan qələm borclarını indiyədək tam ödəməyiblər!

Barmaqla sayılacaq qədər az miqdarda povest, hekayə, dram əsərləri yazılsa da, ortada fundamental əsərlər hələ də yoxdur!

NİYƏ, NƏ SƏBƏBƏ?!

Ötən əsrin doxsanıncı illərində yazıçılar söylədilər ki, hələ müharibə təzə başlayıb. Gərək bir qədər keçə, müəyyən hadisələr baş verə, biz isə onları yaradıcılıq süzgəcindən keçirərək yeni əsərlər yazaq!

I Qarabağ müharibəsi qurtardı!

Xocalı, Qaradağlı, Ağdaban, Bağanis-Ayrım... soyqırımları baş verdi!

Bu dəhşətləri bədii ədəbiyyatda əks etdirən, ürəyimizcə yazılan kifayət qədər əsər görmədik!

Belə getsə, heç görməyəcəyik də!

Yaşlı yazıçılarımız söz verdikləri əsərləri yazmadan dünyadan köçüb getdilər!

Cavan yazarların özlərindən müştəbehlikdən başqa əllərindən bir şey gəlmir!

Qələmi, istedadı olanlar sanki kimdənsə sifariş, tapşırıq gözləyirlər!

Heç kim heç kəsi bəyənmir, ortada isə sanballı, necə deyərlər, ürəkdən tikan çıxaran əsərlər hələ də yoxdur!

Lap gülməlidir, erməni yüz ildən çoxdur yalandan "soyqırımı" "həqiqətlərini" uydurur, çoxsaylı əsərlər yazır, yaradır, dünyanı öz yalanlarına inandırır, biz isə "cavanlarla" "qocaların" çəkişməsinə, bir-birini bəyənməməsinə baxmaqla kifayətlənməli oluruq!

Halbuki sənətin, sənətkarın borcu özünü əsərlərində təsdiq, istedadını sübut etməkdir!

Reallıqda isə bunlar görünmür!

Azərbaycan yazıçısı, üzümü sənə tuturam:

Vətənə, Azərbaycan xalqına olan yazıçı, vətəndaş borcunu nə zaman qaytaracaqsan?!

❖❖❖

Televiziya öz auditoriyasına görə bütün sahələri üstələyir, imkanları genişdir!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin müraciət və açıqlamaları sayəsində Azərbaycan televiziyası hərbi əməliyyatların davam etdiyi dövrdə xalqa müharibə ab-havasını duydura bildi!

Geniş informasiyalar verdi, müharibəni, necə deyərlər, evimizə gətirdi!

Bu gün də müharibə qəhrəmanları, şəhidlərimiz barədə az-çox maraqlı verilişlər yaradılır!

Lakin şairlərin tək-tük poemalarından, uğurlu yazılardan hazırlanan parlaq kliplər görmədik!

Halbuki sözlə təsvirin vəhdətindən yaranan belə kliplər daha təsirli, daha uğurlu alınır!

Standart, basmaqəlib verilişlər sizi bezdirmədimi?!

Özəl telekanalların hər birində gün ərzində bir neçə saat çəkən, baş qəhrəmanları isə milli-mənəvi dəyərlərimizi pozan, adət-ənənələrimizə utanc gətirən insanlar olan verilişlər nə vaxtadək "reytinqli" hesab olunaraq kimlərinsə cibinə xidmət edəcək?!

Bəs deyilmi?!

Əgər olub-qalan dəyərlərimizi də gəlirə qurban veririksə, maddi marağı mənəviyyatdan üstün tuturuqsa, onda kimə və nəyə xidmət etmiş oluruq?!

Sovet dövründə yaranmış elə televiziya filmləri var ki, bu gün də maraqla baxılır!

Niyə belə filmlər çəkmirsiniz?

Nəyiniz çatmır?

Bütün dünya 44 günlük Vətən müharibəsinə heyranlığını söyləyir, bütün dünya müharibə dövrü taktika və strategiyamızı öyrənib tətbiq edir, biz isə hələ də ekranlarımızı toy müğənnilərindən xilas edə bilməmişik!

Ağsaqqalımız da, ağbirçəyimiz də, ağıllımız da, ziyalımız da, hamıya göstərilən nümunəmiz də yalnız onlardır!

Niyə hələ də qəhrəman əsgər və zabitlərimiz filmlərimizin baş qəhrəmanına çevrilməyib?

Niyə ordu həyatı, Azərbaycan əsgərinin hünəri, rəşadəti, cəsarəti maraqlı filmlərə çevrilməyib?

Azərbaycanın xüsusi təyinatlısı keçilməz cığırlardan keçərək, sıldırım qayalardan dırmaşaraq, əsgər xəncəri, beli ilə döyüşərək əlbəyaxa davada Şuşanı düşməndən azad etdi!

Bütün dünya Şuşa əməliyyatına heyranlığını bildirir!

Biz isə hələ də bu barədə çəkilən fərli-başlı televiziya filminə baxa bilməmişik!

Ssenaristlər, studiyalar hara baxır, nə işlə məşğuldurlar?!

❖❖❖

Sovet dövrünün "davalı" kinoları bizim ən yaxşı uşaqlıq xatirələrimizdir!

Hər filmə bir neçə dəfə baxsaq da, doymazdıq!

Filmlərdə reallıq da vardı, gop da!

Amma Vətən sevgisinin, qorxmazlığın, döyüşkənliyin, əsl mənəviyyatın tərənnümü daha qabarıq görünürdü.

Əvvəlcə "Fəryad", sonra "Dolu" filmini görəndə bir az ürəyimizə su səpildi!

Dedik, yəqin ki, bunlardan da yaxşıları çəkiləcək!

Bəs hanı, haçan çəkiləcəkdir!

Hələ də həmin filmlər ən yaxşısı sayılır, bəlli günlərdə bütün telekanallarda nümayiş olunur!

Onlar çəkilməsəydi, deməli, ekranlar boş qalacaqdı?

Kinonu bilən, bu mürəkkəb sahədən baş çıxaran rejissor, operator, ssenarist, aktyorlardan az-çox qalıb!

Onlar da işsizdir!

Hərdən eşidirik ki, hansısa Azərbaycan filmi hansısa müsabiqədə yaxşı yer tutub!

Sonradan həmin filmləri görürük!

Belə də ...

Bu 30 ildə niyə hərbi mövzuda fərli-başlı bir bədii film çəkilmədi?

Yaxşı, tutaq ki, məğlub olmuşduq.

Axı indi qalib xalqıq, ordumuz, döyüşçülərimiz bütün dünyaya nümunədirlər!

Niyə bütün baş verənlər kino lentlərində yoxdur?

Onu kim çəkməlidir?

Kim bu işlə məşğul olmalıdır?

Kim məsələ qaldırmalıdır?

Kim, kim, kim?!

Pulumuz yoxdur?!

Nə vaxt ortaya ssenari qoyub pul istədiniz verən olmadı?

Niyə bütün ölkələr Hollivudla birgə dünya miqyasına çıxan filmlər çəkir, biz isə bunu bacarmırıq?

Nəyimiz çatmır?

Müzəffər Ali Baş Komandanın qüdrətini, ordumuzun qəhrəmanlığını, xalqımızın rəşadətini biz yazmasaq, biz çəkməsək, biz əbədiləşdirməsək, bunu kim edəcəkdir?!

Niyə sənət adamlarının canındakı yanğı tükənib?!

Niyə deyinməklə, gileylənməklə işimizi bitmiş sayırıq?!

Əgər bu işə mane olanlar, vəzifəsinin məsuliyyətini lazımınca dərk etməyənlər varsa, niyə bunun ağrısını qəhrəman ordumuz, müzəffər xalqımız çəkməlidir?!

Deyəsən, çatmayan başlıca məsələ vətəndaş mövqeyidir!

❖❖❖

Rus bəstəkarı Dmitri Şostakoviçin möhtəşəm IV simfoniyası var.

Deyirlər, müharibə dövründə Leninqrad şəhərinin mühasirəsinə həsr olunub.

Qəhrəmanlıq simfoniyasıdır və dünyanın bütün məşhur musiqi salonlarında səsləndirilib!

Vaxtilə Qara Qarayevin, Fikrət Əmirovun, Niyazinin, Arif Məlikovun simfonik əsərləri də dünyanı gəzib, ürəkləri fəth edib.

Sovet dövrünün bir dəbi də əmək qəhrəmanlarına - çobana, mexanizatora, pambıqçıya mahnılar həsr olunması idi!

Bəzən hətta belə mahnılar populyarlaşırdılar da!

İndi simfoniya yazanımız yoxdur!

Neynək...

Sadə əmək adamlarına da mahnılar qoşulmur.

Dolanışıq üçün, toylarda oxunmaq üçün kifayət qədər "nay-nay"larımız isə boldur!

Yaxşı, niyə ürəkləri fəth edən əsgər mahnıları, marşlar yoxdur!

Pul az ayrılırsa, onda artırın!

Müsabiqələr keçirin!

Əgər biz qəhrəman şəhidlərimizə, qalib əsgərlərimizə, igid döyüşçülərimizə mahnılar həsr etməyəcəyiksə, onda bunu kim edəcək?

Axı biz QA-LİB-LƏ-RİK!

Qalibi tərənnüm edərlər, qalibi vəsf edərlər, şəninə şeir yazıb, mahnı bəstələyərlər!

Bunların da "beyin süzgəcindən" keçirilməsi üçün 20-30 il vaxt gərək olacaq?!

Rəssamlardan, heykəltəraşlardan da bu mövzuda əsərlər gözləyirik!

❖❖❖

Qarabağın viran qoyulmuş torpaqlarında, xarabalıqlar fonunda çalıb oxumaq hələ sənət deyil!

Belə kliplər heç sənət nümunəsi də sayılmır.

"Quş" qoymaq üçün müəyyən verilişlər də hazırlamaq mümkündür.

Xalqımıza isə bütün janrlarda əsl sənət nümunələri, dünyaya çıxarıla biləcək əsərlər lazımdır.

Dünən məcburi köçkünlərə borclu qalaraq onların məşəqqətli həyatlarından ortaya fərli-başlı bir şey çıxara bilmədik.

Bu gün isə bu müharibəni aparanlara, döyüşənlərə, şəhid olanlara, qəhrəman xalqımıza borclu qalmağın yalnız bir adı olacaqdır:

ÜZÜ QARALIQ!

***13 aprel 2022-ci il***

## Fəal vətəndaş mövqeyi

*Niyə on milyon on nəfərin cavabını vermir*

Bir zamanlar hər bir insandan fəal həyat mövqeyi göstərməsi tələb olunurdu.

Dövr və zaman dəyişsə də, aktuallığını itirməyən tələbdir.

Əslində, heç kəs ətrafında baş verənlərə loyal və passiv, seyrçi münasibət bəsləməməlidir!

Heç kəs xalqının, dövlətinin taleyi ilə bağlı məsələlərə soyuq və biganə yanaşmamalı, yaşadığı dövlətin, mənsub olduğu xalqın övladı olduğunu bir an belə unutmamalıdır!

Təbii ki, söylənilənlər dövlətinə, xalqına, milli maraqlarına xain çıxanlara, Vətənini pula və şəxsi rifahına satanlara aid deyil!

Bəs hazırda tarixinin ən çətin, ən gərgin, ən məsuliyyətli, ən şərəfli və sınaqlı dövrlərindən birini yaşayan Azərbaycan vətəndaşlarının hamısı ətrafında baş verənlərə fəal münasibət bəsləyirmi?

Həm də təkcə real həyatda deyil, virtual məkanda da!

### *Rəzalət damğası daşıyanlar*

"Erməni qanı" elə bir qandır ki, ondan bircə damcı istənilən adamın damarına düşəndə insanı büsbütün dəyişdirir:

* Həmin adamda yalançılıq, satqınlıq və riyakarlıq baş qaldırır;
* Yaltaq və böhtançı olur;
* Özündən başqa heç kəsi bəyənmir;
* Özünü ali düşüncəli, ali siyasətçi sayır;
* Gördüyü hər şeydə pislik axtarır, tapmayanda özündən uydurur;
* Nankor və qədirbilməzə çevrilir;
* Millətini və vətənini itirir, özünü "demokrat", yüksək vəzifə tutmağa "layiq" birisi sayır;
* Yalan olduğunu bilərəkdən söylədiklərinin həqiqət kimi qəbul edilməsinə çalışır;
* Türkün və Azərbaycan xalqının düşməninə çevrilir;
* Ən nəhayət, insanlığını birdəfəlik itirir!

Bu, hazırda "erməni çörəyi" yeyənlərə, antiazərbaycançı şəbəkədən, erməniəsilli milyarderlərin yaratdığı QHT-lərdən maliyyələşənlərə də aiddir.

Bütün bu əlamətləri özlərində ehtiva edənlərə hər gün sosial şəbəkədə rast gəlirik.

Hətta belələrinin ən parlaq təmsilçiləri sayılanların: Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Tofiq Yaqublu, Qubad İbadoğlu, Fuad Qəhrəmanlı, Altay Göyüşov, Tural Sadıqlı, Qabil Məmmədov, Sevinc Osmanqızı, Qənimət Zahid, Manaf Cəlilzadə, Əfqan Muxtarlı və qeyrilərinin mövqelərinə, dediklərinə və həqiqət kimi qələmə vermək istədiklərinə baxanda damarlarında bircə damcı azərbaycanlı qanı qaldığına da heç vəchlə inana bilmirsən!

Mənsub olduğu (nə vaxtsa) millətə, doğulduğu torpağa, müstəqillik qazanan dövlətinə, minlərlə şəhid verərək öz torpaqlarını geri qaytaran keçmiş həmvətənlərinə (başqa cür söyləmək mümkün deyil) onlarda bu qədər nifrət, kin və barışmazlıq hardandır?!

Nədən qaynaqlanır?!

* Niyə onlar Azərbaycan xalqının qələbələrini, uğurlarını, nailiyyətlərini görmək və qəbul etmək istəmirlər?!

* Niyə onlar 44 günlük Vətən müharibəsindəki möhtəşəm zəfərimizə sevinmirlər?!

* Niyə onlar Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyri-adi qəhrəmanlığını, diplomatiya və informasiya müharibəsində təkbaşına qazandığı qələbələri etiraf və qəbul edə bilmirlər?!

* Niyə onlar Qarabağı yerləyeksan edən, bir milyondan çox azərbaycanlını el-obasından didərgin salan, məscidlərimizdə donuz saxlayan ermənilərin tərəfini can-dildən saxlayır, bizə qarşı söylədikləri yalan və böhtanlarını müdafiə edirlər?!

* Niyə onlar Azərbaycan xalqına və dövlətinə qarşı pis, xoşagəlməz bir hadisə, uğursuzluq baş verəndə sevinir, ayaq alır, sanki özlərində bir mənəvi rahatlıq tapırlar?!

Bütün bunlar antiazərbaycançı şəbəkədən pul, qrant almaqmı üçündür?

Bütün bunlar xaricdə - Avropada, ABŞ-də yaşamaq hüququ qazanmaqmı üçündür?

Kimdənsə pul qoparmaq üçün Vətəni satmaq vacibdirmi?

Qrant almaq üçün xalqına, millətinə hökmən xəyanətmi etməlisən?

Xaricdə yaşayırsan, get yaşa, necə deyərlər, can sənin, cəhənnəm Tanrının!

Amma orda yediyin çörəyi Azərbaycan əleyhinə xaincəsinə fəaliyyət göstərməkdənmi qazanmalısan?

Zəhəriniz olsun!

## *Rəzillərin rəzilliyi*

* Azərbaycanın uğur və nailiyyətlərini görməzliyə vuraraq erməni yalanlarına dəstək vermək rəzillikdir!

* Müzəffər Ali Baş Komandan İlham Əliyevin 44 günlük Vətən müharibəsindəki xidmətlərini unutmaq və danmaq xainlikdir!

* Prezident İlham Əliyevin diplomatiya və informasiya müharibəsindəki real nəticə verən gediş və qələbələrini dəyərincə qiymətləndirməmək satqınlıqdır!

* Tovuz döyüşlərində, "Qisas" əməliyyatında, habelə 12-13 sentyabr "Qətiyyətli cavab" toqquşmasında Azərbaycan Ordusunun uğurlarına kölgə salmaq cəhdləri şərəfsizlikdir!

* Şəhid adını, şəhid itkisini alver predmetinə çevirmək alçaqlıq, xalqımıza, dövlətimizə və milli dəyərlərimizə xəyanət və qəsddir!

* Qarabağ müharibəsində, bu yolda aparılan siyasətə və görülən işlərə "mız" qoymaq, haqqı nahaqqa vermək ermənidən də betər ermənilikdir!

* Azərbaycana badalaq gəlib, erməniyə dolayısı ilə dəstək vermək südünə və torpağına qarşı murdarlıqdır!

Belə davrananların alınlarında rəzalət damğası daşıdıqlarına, rəzillərin rəzili, alçaqların alçağı olduqlarına zərrə qədər də şübhə yoxdur!

## *Passivlik, yoxsa mövqesizlik*

Nə üçün Azərbaycanın əleyhinə danışanlar, fəaliyyət göstərənlər birləşə bilir, Vətənini sevənlər isə həqiqəti deməkdən çəkinirlər, internet resurslarında, sosial şəbəkələrdə fəallıq göstərmirlər, şərçilərin ağzından vurmurlar?

Niyə həqiqətin nə olduğunu gözəl bilsək də, yalanın ayaq tutmasına, yeriməsinə mane olmuruq, əksinə, susqunluğumuzla buna şərait yaradırıq?!

Kimdənsə qorxuruq, çəkinirik?

Axı çoxluq heç zaman azlıqdan qorxmamalıdır!

Axı həqiqət heç bir halda yalan və böhtan qarşısından geri çəkilməməlidir!

Böyük Sabiri yada salaq:

Neyləməli, göz görür, əqlim kəsir,<br>
Mən Günəşi göydə dana bilmərəm!

Axı Günəşi danırlar, ağa qara deyirlər, biz isə sosial şəbəkədəki belə rəzil statusları oxuyub dodağımızın altında deyinməklə, hərdən söyməklə kifayətlənirik!

Niyə gözümüzün gördüyü və əqlimizin kəsdiyi həqiqətləri müdafiə etmirik?

Sözdə yox, əməldə!

Dodaqaltı deyinməklə yox, iş görməklə!

Yalan statusun qarşısında doğru sözümüzü, həqiqəti yazmaqla və deməklə!

Nə vaxtadək şərçiyə və şərəfsizliyə dözəcəyik!

Nə vaxtadək xalqın, dövlətin, torpağın taleyüklü məsələlərinin həlli zamanı susmaqla yaxamızı kənara çəkəcəyik!

Bəs onda Vətəni xəyanətkarlardan kimlər qoruyacaq?

Yalnız polis, hərbçi, xüsusi xidmət orqanı?

Bəs bizim vicdanımız, bəs bizim dəstəyimiz?

Axı 90-cı illərdə göstərdiyimiz prinsipsizlik, seyrçilik 30 illik işğala yol açdı!

Əvvəlki səhvləri yenəmi təkrar etməliyik?

Axı həmin səhvlərin altını siyasətbazlar deyil, zəhmətkeş xalq çəkməli olur!

Adətən, Ermənistan-Azərbaycan sərhədində hər hansı bir münaqişə, toqquşma baş verdikdə, yaxud Azərbaycan Ordusu təhlükələri önləmə, yaxud "Qisas", "Qətiyyətli cavab" əməliyyatı keçirdikdə dünya erməniliyi ayağa qalxır, şər və böhtan "maşını" (etiraf edək ki, son dərəcə təkmil mexanizmdir) işə salınır.

ABŞ, Fransa və Rusiyadakı erməni diasporları ələ aldıqları siyasiləri "öz üsulları ilə" fəallaşdırır, təhrif olunmuş, yalan informasiya ilə "silahlandırır" və BMT də daxil bütün beynəlxalq qurumlardakı qeyri-ermənilərdən təşkil olunmuş erməni xoru "məşhur mahnılarını" ("Azərbaycan sülh danışıqlarını pozur", "Ermənistan ərazisinə təcavüz edir" kimi), köhnə bayatılarını səsləndirir, "status", "ATƏT-in xortladılması" barədə sarsaqlamalarından nəqarət kimi istifadə etməklə oxumağa başlayırlar.

Eyni komanda ilə antiazərbaycançı şəbəkənin ölkəmizdəki və ölkəmizdən kənardakı qulbeçələri də banlamağa başlayırlar.

İfa tərzləri az-çox fərqli olsa da, həmin mahnıların sözləri eyni olur!

Belə ki, eyni mətbəxdə - erməni mətbəxində hazırlanıb bişirildiyi dərhal sezilir.

Artıq bu hala nə Azərbaycanda, nə də qeyri yerlərdə heç kim təəccüblənmir.

Çünki məsələ gün kimi aydındır: pulu kim verirsə, mahnını da o sifariş edir!

Bura qədər deyilənlər hamıya və hər kəsə bəlli olduğundan çoxdan adiləşib, şablona çevrilib:

Dirijorun çubuğu tərpənən kimi xəyanət xoru həvəslə ifaya başlayır.

## Qulağıkəsiklər

2020-ci ilədək "5-ci kolon"un, anti-azərbaycançı şəbəkənin qulbeçələrinin əllərində ən böyük arqument o idi ki, "Azərbaycan işğalla barışıb," "torpaqları geri qaytarmaq niyyətində deyil", "sülh danışıqları ilə baş qatır" və s.

Hətta bir çoxu ictimai şəkildə döşünə döyərək bəyan edirdi ki, "bircə kənd belə işğaldan azad olunsa, qulağımı kəsəcəm!"

Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 gün ərzində torpaqları işğaldan azad edərək onların bu çərənnəmələrinin qarşısına təkzibedilməz fakt qoydu!

Amma illər boyu baş aparanların heç birinin kişiliyi çataraq qulağını kəsmədi!

Əvvəla, kişi verdiyi sözə əməl edər, həyasızcasına dil-boğaza qoymamaq isə rəzil peşəsidir!

İkincisi, uzun qulaq onlara çox yaraşır, ona görə kəsib qulaqlarını qısaltmadılar...

Bu gün isə şəhidlərlə, xalqın itkiləri ilə siyasət qurmaq, söz oynatmaq yalnız vətən xainlərinə yaraşır.

Qeyrətləri olsaydı, gəlib orduya yazılar, döyüşlərdə iştirak edər, torpaqların azad edilməsinə şəxsi töhfə verərdilər, qaçıb xaricdə gizlənməzdilər!

Qaçıb xaricdə şellənmək, erməniyə bircə güllə belə atmadan Qarabağın azadlığından danışmaq yalnız xainlərə, şərəfsizlərə və rəzillərə yaraşan haldır!

İndiki halda qəbul etmədiyimiz, başqa sözlə, qəbul edilməyən məqam isə bambaşqadır.

Azərbaycanda milyonlarla vətənpərvər: torpağını, xalqını, dövlətini sevən, Birinci və İkinci Qarabağ müharibələrində iştirak edən, şəhid verən, ömürlük əlil olan, məşəqqətli köçkün həyatı yaşayan, bu münaqişədən hədsiz əziyyət çəkən insanlar, onların qeyrətli övladları var!

İndi cibində telefon gəzdirməyən, ocial şəbəkənin müxtəlif platformalarında olmayan, hər gün saatlarla status yazıb-oxumayan, yutubdakı süjetlərə, Tik-toka baxmayan demək olar ki, yoxdur!

Hamı da görür ki, Azərbaycana qarşı necə böhtan, qarayaxma kampaniyası gedir!

Hamı da görür ki, haqlı olduğumuz halda necə də bizi borclu çıxarmağa çalışanlar, hətta öz torpaqlarımızı qan tökərək geri qaytardığımıza görə bizi hədələyənlər, təhdid edənlər, qınayanlar var!

Belələri böyük həvəslə "erməni xoruna" əl çalır, onların səsinə səs verir, nəqarətlərinə qoşulub səslərini gücləndirməyə çalışırlar!

İkili standartlardır, başa düşürük!

Bəs yuxarıda sadaladığımız milyonlar, əsl azərbaycanlılar, vətənsevərlər, müharibədə zərər çəkib qurban verənlər, torpaqlara qayıdacaqları günü səbirsizliklə gözləyənlər, bütövlükdə bütün vicdanlı insanlar niyə susqunluq göstərirlər?!

* Niyə yalan yazıb böhtan atanların ağızlarından vurub əsl həqiqətləri söyləmirlər?!

* Niyə əsl həqiqətləri deməyə və yazmağa tənbəllik edirlər?!

* Niyə xainləri, satqınları ifşa edən faktları, onların antimilli əməllərini göstərərək gözlərinə soxmurlar?!

* Niyə kəsikqulaqlıların yaramaz əməllərini davam etdirmələrinə soyuq və laqeyd yanaşırlar!

* Niyə xainlərlə xainlərə layiq tərzdə davranmırlar?!

* Niyə dili gödəklərin dillərini Azərbaycan həqiqətləri, qeyrətli əsgər və zabitlərimizin, şəhidlərimizin, ordumuzun, ən nəhayət, Müzəffər Ali Baş Komandanımızın konkret qəhrəmanlıqlarını, şücaətlərini, əsl azərbaycanlıya xas mərdliklərini, hünər və fədakarlıqlarını təsdiq edən, ən yaxın tariximizdə baş verən və hələ də yaddaşlarda yaşayan faktlarla kəsmirlər?!

Yalançı yalanını yorulmadan, usanmadan söyləyir, təkrar edir, doğruçular, vətənpərvərlər, qeyrətlilər və Vətənə həqiqətən xidmət edib təəssübünü çəkənlər isə susurlar!

Qorxurlar?

Kimdən, ermənidən, xəyanətkarlardan, yoxsa onlara dil verənlərdən?

Çəkinirlər, ehtiyat edirlər?

Vətəndən qaçıb xaricdə gizlənən, yaxud adını "müxalifət", "jurnalist", nə bilim nə qoyaraq demokratik mühitimizdən istifadə edərək bizə qarşı düşmənçilik edənlərdən?

"Azərbaycan üçün nə qədər pis olarsa, bizim üçün o qədər yaxşıdır" əqidəsində olanlardan?

Əslində, xain xoflu olar, xain qorxaq olar - həmişə bunu belə görmüşük!

Bəlkə belələrinə cavab verməyə, yalan statuslarını ifşa etməyə vaxtımız yoxdur?

İndi hər gün saatlarla telefonunu ələk-vələk eləməyən bir nəfər belə tapmaq çətindir!

Ürəkağrısı ilə sözümüzün əvvəlinə qayıdırıq:

Çünki fəal vətəndaş mövqeyimiz yoxdur!

Xəyanətkarı, yalançını, satqını ifşa etməyi həmişə "xüsusi xidmət orqanları"nın işi saymağa adət etmişik...

Bəlkə də qorxuruq ki, çönüb bizə də nəsə deyərlər, bizi də söyərlər!

(Söyülənlərin hansından artığıq ki?!)

Bax, bu mövqe ilə xainləri sosial şəbəkə qəhrəmanlarına çeviririk!

Bax, bu yanaşma ilə antiazərbaycançı şəbəkəyə meydan veririk, qol-qanad açmalarına imkan yaradırıq.

Bax, belə bir qorxaq xarakterlə Vətənimizin həqiqi vətənpərvəri ola bilmirik!

Bəlkə düşünək!

Bəlkə özümüzü bir qədər dəyişməyə çalışaq!

Bəlkə haqlı, ədalətli, obyektiv və vətənpərvər mövqeyimizi birlikdə müdafiə edək, həm də fəal şəkildə!

Xainlərin, satqınların, "5-ci kolon" üzvlərinin, vətəni sataraq xaricdə yaşasalar da, çörəklərini Azərbaycana düşmənçilikdən çıxaranların hər birinə biz də birlikdə, birləşərək cavab verək!

Yoxsa onlar bizim boş buraxdığımız meydanda çox at oynadacaqlar!

Yoxsa onlar öz yalanları ilə əsl həqiqətlərimizə daim kölgə salmağa çalışa caqlar!

Yoxsa onlar xəyanət əməllərini yorulmadan davam etdirəcəklər!

Necə deyərlər, güc birlikdədir!

Bu gün Azərbaycan hərb meydanında da, diplomatiya sahəsində də düşməndən qat-qat güclüdür!

Biz birləşsək, fəal və qətiyyətli olsaq, informasiya savaşında da meydanı ələ ala bilərik!

Unutmayaq: mübarizə, münaqişə, müharibə bitməyib, hələ də bütün cəbhələrdə davam edir!

Birləşmək, şərə və yalana, xəyanətkarlara birlikdə qalib gəlmək vaxtıdır!

***20 sentyabr 2022-ci il***

## Qarabağ Azərbaycandır!

Qarabağ Azərbaycandır!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin leksikonumuza gətirdiyi fəxarət dolu bu ifadəni bu gün hər birimiz qürurla söyləyirik.

Ucadan, ürəklə, ağızdolusu səsləndiririk!

Qalib ölkənin məğrur, xoşbəxt vətəndaşı kimi bütün dünyaya car çəkirik!

Ordusunu məhv etdiyimiz, özünü rəzil günə qoyduğumuz qorxaq düşmənə acıqla, qıcıqla eşitdiririk!

Bəli!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin şücaəti və hünəri...

Azərbaycan Ordusunun, əsgər və zabitlərimizin qəhrəmanlığı...

Azərbaycan xalqının birliyi və dəyanəti, dövlətə və orduya dəstəyi sayəsində bütün dünyaya səslənirik:

Qarabağ Azərbaycandır!

❖❖❖

Bu sözü söyləyə bilmək üçün çox uzun, sınaqlı və məşəqqətli yol keçdik.

Çadır şəhərciklərində yaşadıq, işsiz, çörəksiz, yayda istidə, qışda soyuqda qaldıq.

Bizim belə günə düşməyimizin səbəbkarlarından biri olan naşıların, şəxsi mənafeyini milli maraqlardan üstün tutanların, dövlət idarəçiliyindən xəbəri olmayanların yaratdıqları anarxiya, xaos və özbaşınalıq burulğanında boğulduq, olub-qalan ümidimizi itirdik.

Nə yaxşı ki, Ulu Öndərimiz geri qayıtdı, ölkəyə, dövlətə sahib çıxdı, ölmüş ümidlərimizi də diriltdi.

Təəssüf ki, əcəl Ümummilli Liderimiz Heydər Əliyevin öz planlarını tam həyata keçirməsinə imkan vermədi.

Bu siyasi kursu İlham Əliyev ləyaqətlə davam etdirdi, bütün ağırlığı və məsuliyyəti öz çiyinlərinə götürdü.

Beləliklə, müstəqil Azərbaycanın inkişafının İlham Əliyev erası başladı...

Cənab İlham Əliyev hakimiyyətə gəldiyi ilk günlərdən işğal altındakı torpaqların qaytarılması barədə düşünür, bu istiqamətdə əməli addımlar atırdı.

Amma məsələ o qədər də asan və sadə deyildi!

* BMT-nin Təhlükəsizlik Şurası qəbul etdiyi 4 məlum qətnaməsini yerinə yetirmək istəmirdi;

* ATƏT-in Minsk qrupu mənasız sülh danışıqları, boş turist səfərləri ilə baş qatırdı;

* Düşmən sülhə gəlmək, torpaqları danışıqlar yolu ilə qaytarmaq niyyətində olmadığını açıq-aşkar bəyan edirdi;

* Beynəlxalq hüquq işləmir, beynəlxalq təşkilatlar erməni mövqeyini müdafiə edir, ikili standartlar hökm sürürdü!

Belə bir məqamda Prezident İlham Əliyev ən doğru və uzaqgörən qərarını qəbul edərək Qarabağı hərbi yolla azad etmək üçün gərgin fəaliyyətə başladı, gizli və aşkar hazırlıqlara start verdi:

* Müstəqil Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirdi;

* Hücum diplomatiyasının tətbiqinə başlanıldı və uğurlu nəticələrə nail olundu;

* Beynəlxalq qurum və təşkilatlarda Azərbaycanın haqq işinin müdafiəsi gücləndirildi, ölkəmiz özünə xeyli sayda yeni dostlar qazandı;

* Yeni gənclər nəsli tərbiyələndirilərək onların da iştirak etdiyi möhtəşəm ordu quruldu, ən yeni və müasir silahlarla silahlandırıldı;

* Xüsusi Təyinatlı Qüvvələr, yeni zabit kadrları korpusu hazırlandı;

* Azərbaycan xalqının milli birliyi yaradıldı, Azərbaycan cəmiyyəti bir yumruq halına gətirildi.

Ermənistanın yeni baş naziri Paşinyan "Qarabağ Ermənistandır və nöqtə" deyərək torpaqlarımızı geri verməyəcəklərini açıq şəkildə bəyan etdikdə isə Müzəffər Ali Baş Komandan İlham Əliyevin səbir kasası daşdı.

❖❖❖

Azərbaycan Prezidenti cənab İlham Əliyev müasir dövrün ən müdrik, ən uzaqgörən, nəyi nə vaxt və necə edəcəyini yaxşı bacaran dövlət başçılarından sayılır.

İlham Əliyev Paşinyanın ağzından vurmağa, ona cavab verməyə tələsmədi, bunun üçün əlverişli məqam və məkan seçdi!

Diletant erməni baş nazirə bütün dünyanın eşidəcəyi yerdə cavab verdi.

Əvvəlcə "Valday" Beynəlxalq Diskussiya Klubunda Qarabağın kimə məxsus olduğunu ermənipərəstlərin də diqqətinə çatdırdı.

Münhen Təhlükəsizlik Konfransında isə Qarabağın məhz Azərbaycana məxsus olduğunu dünyaya bəyan etdi, tarixi faktlarla sübuta yetirdi.

Həm də Ermənistanın baş nazirinin yalanlarını ifşa etdi, hamının gözü qarşısında onu məsxərəyə qoydu!

Sonra isə "dəmir yumruğ"unu düyünlədi!

❖❖❖

Qudurmuş Ermənistanı yerində oturtmaq, torpaqları azad etmək üçün 27 sentyabr 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin əmri ilə əks-hücum əməliyyatına başlanıldı.

Sözü ilə əməli bir olan Azərbaycan Prezidenti İlham Əliyev Qarabağın, həqiqətən, Azərbaycana məxsus olduğunu əməli addımları, üç cəbhədə - hərbi əməliyyatlar, diplomatiya və informasiya savaşında möhtəşəm qələbələri ilə sübuta yetirdi!

Özünün qurduğu, strategiya və taktikasını müəyyən etdiyi qalib ordusu ilə!

XXI əsrin ən yeni müharibəsini aparan Azərbaycan Ordusu 44 gün ərzində möcüzələr yaratdı:

* Düşmənə göz açmağa imkan vermədi, yerdən, göydən başına od yağdırdı, bir-birinin ardınca şəhər və kəndləri, yaşayış məntəqələrini azad etdi.

* Erməni generallarını dabanlarına tüpürərək Azərbaycandan qaçmağa məcbur etdi, Ermənistan ordusunu fərarilər, qorxaqlar dəstəsinə çevirdi.

"Dəmir yumruğ"un qarşısında tab gətirməyən düşmən yalvara-yalvara kapitulyasiya aktına qol çəkdi!

❖❖❖

Artıq bütün dünya bilir ki, Qarabağı Azərbaycana yenidən Müzəffər Ali Baş Komandan İlham Əliyev qaytardı!

Düşmənin "məğlubedilməz" ordusunu məhv edərək qaytardı!

Düşmənin başını əzərək, diz çökdürərək, qaranlıq bir yerdə kapitulyasiya aktına imza atdıraraq qaytardı!

Vətənpərvər, hünərli və qeyrətli Azərbaycan əsgər və zabitlərinin kütləvi rəşadəti və qəhrəmanlığı sayəsində qaytardı!

Yetişdirdiyi yeni nəsil gənclərin təmsil olunduğu Xüsusi Təyinatlı Qüvvələrin Şuşanı yalın əllə almaları hesabına qaytardı!

Qarabağ sözün həqiqi mənasında Azərbaycan oldu!

Qarabağ əbədi Azərbaycanın oldu!

Qarabağ əsl sahibinin, bu torpağa haqqı çatanların, onun uğrunda ölümə belə gedənlərin oldu!

Bu gün biz qalib millətik!
Bu gün biz məğrur millətik!
Bu gün biz birləşərək "dəmir yumruğ"a çevrilən millətik!
Müzəffər Ali Baş Komandan İlham Əliyevin yaratdığı "dəmir yumruğ"a!

❖❖❖

Artıq bütün dünya bilir - Qarabağın əsl sahibləri geriyə, doğma yurdlarına qayıdıblar!

Artıq kimsədə şübhə yoxdur ki, Qarabağ Azərbaycandır!

***11 noyabr 2022-ci il***

# Milli birlik belə olur

*Bu gün hər bir vətənpərvər Azərbaycan vətəndaşının ürəyi Laçın yolundakı etirazçılarla birgə döyünür*

Bu gün Şuşa-Laçın yolunda iki tərəf, iki mövqe qarşı-qarşıya dayanıb:

Bu yerlərin sahibləri ilə gəlmələr!

Sülh tərəfdarları ilə qisas haqda düşünənlər!

Əliyalın mülki insanlarla əlisilahlı hərbçilər!

Ədalətlilər və güclülərlə haqsızlar və yalançılar!

Əslində, qaliblərin qarşısını məğlublar, riyakarlar və məkrlilər kəsiblər!

Bəli, Azərbaycan tərəfi qalib gəlsə də, yenə sülh təklif edir.

Kapitulyasiya aktında irəli sürdüyü tələblərə və şərtlərə dinc yolla çatmağa çalışır.

"Dəmir yumruq"la diz üstə qoyulan ermənilərin isə hələ ağılları başlarına tam qayıtmayıb.

Sülh sazişinin imzalanmasını müxtəlif bəhanələrlə uzadırlar.

Köhnə ağalarını yenisi ilə dəyişib-dəyişməyəcəklərini qətiləşdirməkdə çətinlik çəkirlər!

Rusiya və İranın vasitəsilə yenidən silahlanır, əzilmiş ordularını ayağa qaldırmaq xülyasına düşürlər!

Azərbaycanın təbii sərvətlərini aşkar-gizli formada daşıyıb aparırlar!

Bizə öz ərazilərimizdə monitorinq keçirməyə mane olmağa çalışırlar!

Qısası, odla çox təhlükəli oyunlar oynayırlar!

❖❖❖

Altıncı gündür ki, Azərbaycan jurnalistləri, vətəndaş cəmiyyəti nümayəndələri, ictimai fəallar RSK postu qarşısında dinc aksiya keçirməklə rus generalı Volkovla görüş tələb edirlər!

Altıncı gündür ki, general Volkov əliyalın, qadın və kişilərdən ibarət dinc insanların qarşısına çıxmır, onlarla görüşdən boyun qaçırır.

Səbəbi...

Ehtimallar çoxdur:

* Ekoloqların "Qızılbulaq" və "Dəmirli" mədənlərində monitorinq aparmalarına şərait yaradacağına dair verdiyi "general sözü"nə əməl edə bilmədiyinə görə xəcalət çəkir, adam üzünə çıxa bilmir;

* Ermənilərin (yeni "nazir" Vardanyanın) ona etdikləri "hörmət"in əvəzini monitorinqə maneçilik törətməklə çıxmağa çalışır;

* Qəsdən gərginlik, qarşıdurma yaradılır ki, sülh müqaviləsinin imzalanması baş tutmasın.

Həqiqətə yaxını isə budur ki, hələ siyasi qərar verilmədiyindən sülhməkrlilər nə edəcəklərini kəsdirə bilmirlər!

General sözündən qaçsa da, azərbaycanlı kişi və qadınlar dediklərinin üstündə möhkəm durublar: öz torpaqlarında istədikləri yerdə monitorinq keçirməsələr, yerlərindən tərpənən deyillər!

❖❖❖

Əsrlərdir "soyqırımı"na uğramaq həsrətində olan, amma heç cür bu "arzuları"na çata bilməyən ermənilər yenidən haray-həşirə başlayıblar:

Yolumuzu bağlayıb, bizi soyqırımı edəcəklər!

Halbuki yolu bağlayan mülki etirazçılar yox, onların can-ciyərləri RSK-dır;

Hərbi maşınlardır;

Yolun ortasında saxlanılan KamAZ-lardır;

Əsgər konteynerləridir...

Erməni şivənini eşidən kimi diasporun pul kisəsindən asılı olanlar dərhal narahat oldular!

Dekabrın 13-də Fransa Respublikasının Avropa və Xarici İşlər Nazirliyinin, ABŞ Dövlət Departamentinin və Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə sözçüləri "yolun bağlanmasının erməni əhalisi üçün humanitar nəticələrə gətirib çıxara biləcəyi"ndən "əndişə"lərini söylədilər.

Nə qədər "humanist və mərhəmətli" yanaşma...

Otuzillik işğal dövründə Azərbaycan vətəndaşlarının doğma torpaqlara gedən yolunu erməni vandalları kəsəndə, ABŞ və Fransanın da daimi üzvü olduğu BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsi onillərlə icra edilməyəndə, qaçqınlar və məcburi köçkünlər çadır şəhərciklərində soyuqda, ac-susuz qalanda ATƏT-in Minsk qrupunun üzvü olan bu dövlətlərdən nə ədalət gördük, nə qəbul etdikləri sənədlərin icrasını, nə də beynəlxalq hüquqa əməl olunmasını...

Gördüyümüz isə...

İndiki kimi ikili standart, ikili yanaşma olub!

Azərbaycan Xarici İşlər Nazirliyi dərhal bəyanatla çıxış edən ölkələrin ağzından vurdu: "...Təbii sərvətlərin talanmasına və ekologiyaya dəyən zərərə diqqət

yetirilməməsi, habelə üçtərəfli Bəyanatın 6-cı bəndinə zidd olaraq Laçın yolundan həm hərbi təxribatlar, həm də qeyri-qanuni iqtisadi fəaliyyət üçün istifadə olunmasına bu ölkələr tərəfindən laqeydlik və məsələlərə qərəzli yanaşma", "Laçın yolundan istifadə edilməklə Azərbaycan ərazilərində mülki əhaliyə qarşı törədilən mina terroruna əhəmiyyət verilməməsi" daha çox və ciddi narahatlıq doğurmalıdır!

❖❖❖

Diriykən basdırılan ATƏT-in Minsk qrupunun digər üzvü olan Rusiyanın erməni parasından asılı olan telekanalları və "sözçüləri" də münasibətlərini həmişəki qaydada - bizə "xox" gəlməklə, "neft mədənlərimizi raket zərbələri ilə vurmaq" hədəsi ilə ifadə edirlər.

* Heç elə bil öz dövlətlərinin bu məsələyə münasibətindən xəbərləri yoxdur!

* Heç elə bil Rusiya ilə Azərbaycan arasında yeni imzalanan Müttəfiqlik Münasibətləri Haqqında müqavilə barədə heç nə eşitməyiblər.

* Heç elə bil Prezident V.Putinin 10 noyabr Bəyanatına qarant kimi imza atdığını bilmirlər.

Əslində, xəbərləri də var, eşidiblər də, bilirlər də!

Sadəcə, nə dövlətlərinə, nə də prezidentlərinin imzalarına hörmət edirlər.

Bu isə artıq bizim problemimiz deyil!

❖❖❖

Dinc etiraz aksiyasına qoşulanların sayı günbəgün deyil, saatbasaat artır.

Şuşa-Laçın yoluna toplaşanlar təkcə etiraz və tələblərini səsləndirmirlər, həm də Azərbaycan xalqının milli birliyini, monolitliyini əyani şəkildə nümayiş etdirirlər.

Tələblərinə əməl olunanadək dinc etiraz aksiyasını davam etdirəcəklərini bildirənlər arasında:

* İqtidar və müxalifət jurnalisti, bitərəf qələm sahibi yoxdur, hamı bir mövqedədir!

* QHT təmsilçiləri heç bir "cəbhə"yə bölünməyiblər, hamısı bir fikirdədirlər!

* Bütün ictimai fəallar, yaşından, cinsindən, sənətindən, çalışdığı sahədən asılı olmayaraq, qəlbinin hökmü ilə bura gələn hər bir kəs əsl azərbaycanlıdır!

* Azərbaycanın maraqlarını təmsil və müdafiə edən vətən övladıdır!

44 günlük Vətən müharibəsində olduğu kimi, bu mövqedə də hamı bir yumruq kimi birləşib!

Qardaş yumruğu da bu yumruğun yanındadır.

Müzəffər Ali Baş Komandan İlham Əliyev isə bu yumruqları birləşdirərək "dəmir yumruğ"a çevirir!

Qələbə gətirən "dəmir yumruğ"a!

❖❖❖

Deyəsən, hələ xəmir çox su aparacaq!

Generalın gərdəkdən çıxmaq fikri yoxdur!

Dinc yolla mübarizəsini davam etdirən etirazçılar isə tələblərinə yenisini də əlavə etdilər:

Şuşa-Laçın yolu ilə daşınan sərvətlərimizin, Ermənistandan və İrandan ərazimizə gətirilən minaların, silah-sursatın, bizdən icazəsiz gələn casus və təxribatçıların qarşısının alınması üçün Laçın yoluna Azərbaycan tərəfinin də nəzarətinə imkan yaradılmalıdır!

Haqlı və doğru tələbdir!

Nə qədər gec deyil, nəzərə alınmalı və icra olunmalıdır!

Hələ üçtərəfli Bəyanatda Xankəndidəki erməni silahlı qüvvələrinin çıxarılmasını tələb edən bənd də var!

Sülh üçün ayrılan vaxt isə gözləmir!

***17 dekabr 2022-ci il***

## Qabaqlayıcı addımlar

*Yaxud gələcəyi görmək, hadisələri önləmək və bütün variantlara hazır olmaq məharəti*

Otuz ilədək müddətdə xahişçi, minnətçi və diliqısa olmuşuq!

Otuz ilədək müddətdə haqqımızı tələb edərək kimlərdənsə kömək gözləmişik.

Otuz ilədək müddətdə özümüzü inandırmağa çalışmışıq ki, dünyada ədalət var, beynəlxalq hüquq adlı bir anlayış var, beynəlxalq qurum və təşkilatlar həmin hüquqa və ədalətə arxalanaraq qəbul etdikləri qətnamələri, qərarları yerinə yetirməklə Ermənistanı işğal etdiyi Azərbaycan ərazilərindən çıxaracaqlar!

Amma erməniyə "gözün üstə qaşın var" deyən olmadı!

BMT nə özünə hörmət qoydu, nə də bu məsələ ilə bağlı qəbul etdiyi dörd qətnaməyə!

ATƏT-in Minsk qrupu boş danışıq, turist səfərləri, tut arağı və donuz kababından irəli getmədi!

Ermənistana nəinki sanksiya tətbiq olundu, heç yüngülvari təzyiq belə göstərilmədi!

Heç Ermənistanın işğal zamanındakı yaşayış məntəqələrini dağıtmalarını, meşələri, bağları qırmalarını, ekologiyanı korlamalarını, tarixi abidələrimizi, qəbiristanlıqlarımızı yerləyeksan etmələrini, məscidlərdə donuz, mal-qara saxlamalarını da "görən" olmadı!

Necə deyərlər, özümüz dedik, özümüz də eşitdik!

Amma təkcə danışmaqla, kimdənsə kömək ummaqla, torpağımızın nə zaman könüllü qaytarılacağını gözləməklə də kifayətlənmədik!

Aşkar-gizli digər varianta, hərbə də hazırlaşdıq!

❖❖❖

Ulu Öndər Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtdığı ilk gündən işğal altındakı torpaqların azad olunacağını, doğma torpaqlara qayıdacağımızı qətiyyətlə bəyan edirdi!

Atdığı ilk addımlardan biri atəşkəs barədə razılaşma olsa da!

Amma həmin dövrdə atəşkəsə nail olunması zəruri idi:

* Yeni ərazilərin işğalının qarşısının alınması üçün;

* Ölkədə baş alıb gedən xaos və anarxiyaya son qoyulması üçün;

* Qeyri-qanuni silahlı dəstələrin ləğvi, əhalidəki külli miqdarda silah-sursatın yığılması üçün;
* Möhkəm və dönməz sabitlik yaradılması üçün;
* Dövlət çevrilişi cəhdlərinin qarşısının alınması üçün;
* İqtisadiyyatı dirçəltmək, sərbəst bazar iqtisadiyyatına keçidi şərtləndirən islahatların aparılması üçün;
* Xalqın itmiş inam və etibarının geri qaytarılması üçün və s.

Ulu Öndərimiz bir an olsun belə işğal altındakı torpaqları, onların azad edilməsini unutmurdu!

Bunu 1994-cü ilin yanvarında keçirilən Horadiz əməliyyatı və bu zaman 22 yaşayış məntəqəsinin geri alınması da göstərirdi!

Lakin nə etməli, düşmən güclü və arxalı, Azərbaycan isə tək və zəif idi!

❖❖❖

Ömür vəfa etməsə də, Ulu Öndər Heydər Əliyev ölkəmizin ərazi bütövlüyünün bərpası üçün hər şey etdi, gələcəyə hesablanmış bir sıra zəruri addımlar da atdı:

* "Əsrin müqaviləsi" neft kontraktını imzalayaraq ölkənin gələcək iqtisadi yüksəlişini təmin etdi;
* Zəruri hüquqi baza yaratmaqla islahatlar keçirdi, bazar iqtisadiyyatı münasibətlərinin bərpasına nail oldu!
* Ordu quruculuğuna, peşəkar zabit kadrlarının hazırlanmasına başladı;
* Azərbaycanın Avropa Şurasına qəbuluna nail oldu;
* Milli maraqlara əsaslanan daxili və xarici siyasətin təməlini qoydu.

Ulu Öndər Heydər Əliyevin gələcəyə ünvanlanmış iki mühüm tarixi xidmətini ayrıca qeyd etmək istəyirik:

Birincisi, Azərbaycanın sürətli və davamlı inkişafını, dünya birliyinə inteqrasiyasını, xalqın yüksək rifahını və xoşbəxt gələcəyini müəyyən edən Heydər Əliyev siyasi kursunu bərqərar etməsini;

İkincisi, yarımçıq qalan işləri başa çatdıracaq, xalqın arzu və istəklərini gerçəyə çevirəcək siyasi varisin hazırlanmasını!

Bugünkü uğur və qələbələrimiz həm də bu iki möhtəşəm təməl üzərində qərar tutub!

❖❖❖

Biz bu gün qalib xalq və qalib dövlətik!

Bizi bu qələbəyə, bu bəxtəvərliyə Müzəffər Ali Baş Komandan İlham Əliyev çatdırdı!

Biz bu gün güclüyük, söz sahibiyik, dediklərimizi həyata keçirə bilirik!

Bu qüdrəti də bizə Müzəffər Ali Baş Komandan İlham Əliyev verib!

Biz bu gün heç kimdən qorxmuruq, çəkinmirik, gələcəyə inamla, sevinclə baxır, istədiyimizə nail oluruq!

Bu gerçəyi, yeni reallığı da Müzəffər Ali Baş Komandan İlham Əliyev yaradıb!

Biz bu gün hansı dövlətlərin, kimlərin Ermənistana necə və hansı vasitələrlə köməyini açıq şəkildə görürük.

İşğal dövründə isə bütün bunlar üstüörtülü formada, beynəlxalq qurum və təşkilatların əli ilə edilirdi.

Baş verənlər, hadisələrin indiki gedişi, müharibədən sonra gördüklərimiz, eşitdiklərimiz və öyrəndiklərimiz isə göstərir ki, bütün bu olanları, həqiqətləri İlham Əliyev aydın şəkildə görür, bilir və onları qabaqlamaq, zərərsizləşdirmək üçün lazımi məqamda zəruri addımları atırmış!

Hələ bundan sonra olacaqlar da, üstəlik, onları xeyrimizə yönəltmək, uğura çevirmək üçün baş verəcəklər də Prezident İlham Əliyevə məlumdur və preventiv addımlarını atmaqdadır!

❖❖❖

Havadarlarına arxalanan, cəzasız qaldığına əmin olan Ermənistan quduraraq cızığından çıxdı.

Yeni hakimiyyətə gələn sorosçu baş nazir N.Paşinyan isə "Qarabağ Ermənistandır nöqtə" deyərək sülh danışıqlarının mənasızlığını bəyan etdi!

Həm də Azərbaycanın səbir-kasasını daşdırdı!

Ermənistanın azğınlaşmış, təxribatçı əməllərinə cavab vermək, torpaqları işğaldan azad etmək üçün cənab İlham Əliyev "İrəli!" əmrini verdi!

Beləliklə, İkinci Qarabağ müharibəsi, 44 günlük Vətən müharibəsi başladı!

❖❖❖

44 gün davam edən hərbi əməliyyatlar dövründə Azərbaycan Ordusunun şücaət və qəhrəmanlığı, tətbiq olunan strategiya və taktika, işlədilən silahlar, düşmənə endirilən sarsıdıcı zərbələr, bir zamanlar özünü "məğlubedilməz ordu" adlandıranların ilk həmlələrdə qorxaqcasına döyüş meydanlarından qaçması, qorxaqlar, fərarilər yığnağına çevrilməsi, Paşinyanın İlham Əliyevə dayanmadan minnətçilik zənglərini təşkil etməsi, Şuşa kimi qala şəhərinin əlbəyaxa döyüşdə geri qaytarılması, Ağdam, Laçın və Kəlbəcərin döyüşsüz təslim edilməsi ordumuzun gücündən və qüdrətindən, habelə Müzəffər Ali Baş Komandan İlham Əliyevin

bu müharibəyə uzun müddət, diqqətlə, uzaqgörənliklə hazırlaşaraq bütün məqamları nəzərə almasından, ən nəhayət, vədəsində gərəkli addımlar atmasından xəbər verir!

Müzəffər Ali Baş Komandan İlham Əliyev "dəmir yumruğ"u ilə düşmənin başını əzdi, onu qarşısında diz çökdürdü, kapitulyasiya aktını imzalatdırdı!

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyev təkcə Ermənistana qalib gəlmədi.

Eyni zamanda:

* Ermənistanın havadarlarını və müdafiəçilərini;

* Ona gizli və aşkar dəstək verənləri;

* "Bacıları"nı və "din ayrı qardaşları"nı;

* Dünyanın müxtəlif ölkələrindəki erməni lobbilərini;

* Bir sıra ölkələrin senat və parlamentlərində oturaraq müəyyən muzd hesabına erməni maraqlarını durmadan müdafiə edənləri;

* Bütövlükdə "dünya erməniliyi" adlı böyük qüvvəni acınacaqlı məğlubiyyətə uğratdı!

Belə qollu-budaqlı, köklü-rişəli düşməni qısa bir müddətdə darmadağın etmək elə asan və sadə iş deyildi!

Bu tarixi savaşa Müzəffər Ali Baş Komandan İlham Əliyev uzun müddət hərtərəfli və diqqətlə hazırlaşmışdı.

Ən əsası, vaxtında qabaqlayıcı, hadisələri önləyəcək addımlar atmışdı.

Həm də Azərbaycan rəhbərliyinə gəldiyi ilk günlərdən.

* Belə ki, daim müstəqil, yalnız xalqın və dövlətin maraqlarına xidmət edən siyasət yürütmüş;

* Azərbaycanı heç kəsdən asılı olmayan qüdrətli dövlətə çevirmiş;

* Kimsəyə boyun əyməyərək bütün problemləri öz gücü, öz imkanları hesabına həll etmişdir!

Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi müddətdə daim ölkəmizə etibarlı dostlar qazandırmışdır.

* Karbohidrogen ehtiyatlardan səmərəli və uzaqgörənliklə istifadə etmiş;

* Tərəfdaşları ilə açıq, səmimi olmuş, qarşılıqlı maraqları daim nəzərə almış;

* Çətin vəziyyətə düşən dost dövlətləri tək qoymamış, təmənnasız əl uzadaraq mərdcəsinə kömək göstərmiş;

* Sözünün üstündə duraraq dediyini etmişdir.

❖❖❖

Prezident İlham Əliyevin çox az qisim dövlət başçılarında təsadüf olunan siyasi uzaqgörənliyi və rəhbər fəhmi vardır!

Bu gün hamıya əyan olanları İlham Əliyev hələ 15-20 il öncə duyaraq indi yerinə düşən, gərəkli olan və başqalarını qabaqlamağa imkan verən zəruri addımlar atmışdır.

MƏSƏLƏN:

* Tikintisinə illər tələb olunan "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizləri işə salınmış;

* "Cənub qaz dəhlizi" çox gərəkli vaxtda fəaliyyətə başlamış;

* Azərbaycan logistika mərkəzinə çevrilmiş, Xəzərdə ən böyük mülki donanma yaradılmış;

* Ordu XXI əsrin ən yeni müharibəsinə hazırlanmış, ən yeni texnologiyaya əsaslanan silahlarla silahlandırılmış;

* Fəal diplomatik iş aparılaraq beynəlxalq təşkilatlarda düşmənin və havadarlarının məkrli əməllərinin qarşısı ustalıqla alınmış;

* Hər zaman düşməndən və hadisələrdən bir neçə addım qabaqda olduğunu dəfələrlə əyani şəkildə sübut etmişdir!

❖❖❖

Preventiv addımlar sayəsində cənab İlham Əliyev düşməni çaş-baş vəziyyətinə salmağı, beləliklə, kobud səhvlər buraxmağa vadar etməyi də bacarır.

Ermənilər otuz il ərzində möhkəm müdafiə qurğuları və istehkamlar yaradaraq bizimlə ötən əsrin 90-cı illərinin müharibəsinə hazırlaşmışdılar və bu dəfə də qalib gələcəklərinə əmin idilər!

* Müzəffər Ali Baş Komandan İlham Əliyev XXI əsrin ən yeni, nümunəvi müharibəsini apardı, düşmənin başına göydən od yağdırdı!

* Ən möhkəm müdafiə sistemi və əlverişli təbii relyefi olan Ağdam, Laçın və Kəlbəcər rayonları bu uzaqgörənlik sayəsində bir güllə atılmadan geri qaytarıldı!

* Xankəndiyə hərbi əməliyyatlarla girməmək düşmənin "soyqırımı" şivəninin qarşısını almağa, ölkəmizə ədalətsiz sanksiyaların tətbiqinə yol verməməyə səbəb oldu!

* İlham Əliyevin eyni zamanda üç cəbhədə - hərbi, diplomatiya və informasiya cəbhələrində qətiyyət və məharətlə çarpışaraq qalib gəlməsi postmüharibə dövründəki işlərin uğurunu təmin etməyin, erməni məkrinin qarşısını almağın təminatına çevrildi!

❖❖❖

Önləyici, orijinal və gözlənilməz addımların zamanında atılması, əslində, təkcə düşməni deyil, onun havadarlarını da qabaqlamağa imkan vermişdir.

Cənab İlham Əliyevin Qoşulmama Hərəkatına rəhbərliyi dövründə davamlı humanist və ədalətli yanaşmalar nümayiş etdirməsi, inkişaf etməkdə olan dövlətlərin maraqlarına xidmət edən qərarlar qəbul etməsi BMT-dən sonra ikinci böyük təşkilat sayılan bu qurumu Azərbaycana dost etmişdir.

Nəticədə müharibə davam edən müddətdə Ermənistanın "böyük bacısı" Fransanın BMT-nin Təhlükəsizlik Şurasında Azərbaycanın əleyhinə qətnamə qəbulunun qarşısını Qoşulmama Hərəkatındakı dostlarımız qətiyyətlə aldılar.

Yaxud Frankofoniya təşkilatında yenə də Fransanın əleyhimizə sənəd qəbuluna bu qurumdakı dostlarımız yol vermədilər.

Müzəffər Ali Baş Komandan İlham Əliyev vədəsində ATƏT-in Minsk qrupunu oyun meydançasından kənarlaşdırdı, "status" məsələsini cəhənnəmə göndərdi, Fransanın birtərəfli mövqeyini, qərəzli addımlarını ifşa etməklə danışıqlara vasitəçilikdən uzaqlaşdırdı.

❖❖❖

Biz bu gün də Prezidentimizin hazırkı dövr üçün gərəkli, üstəlik, sabaha hesablanmış addımlarının şahidi oluruq.

Məsələn, vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəalların ekoloji cinayətə və ölkəmizin təbii sərvətlərinin qanunsuz istismarına qarşı dinc formada etiraz aksiyası məkrli düşmənə qarşı sivil mübarizənin ən uğurlu formasına çevrilmişdir.

Əslində, silahsız Azərbaycan gəncləri düşmənlərə və düşmən niyyətlilərə xidmət edən Laçın dəhlizini əliyalın formada nəzarətə götürmüşlər.

Dünya mətbuatı ilə əməkdaşlıq, tanınmış siyasətçilərin, vətəndaş cəmiyyəti nümayəndələrinin, bloqçuların vaxtaşırı Azərbaycana dəvət edilərək erməni vəhşiliklərini gözləri ilə görmələrinə şərait yaradılması, dünya ağıl mərkəzləri rəhbərləri və nümayəndələri ilə hər il ADA Universitetində keçirilən görüşlər və saatlarla davam edən sual-cavab, fikir mübadiləsi erməni şər və böhtanlarının qarşısının irəlicədən alınmasına xidmət edir.

❖❖❖

Hal-hazırda atılan, lakin gələcəyə hesablanan addım və tədbirlərin də şahidiyik.

Müzəffər Ali Baş Komandan İlham Əliyev bəyan edib ki, Zəngəzur dəhlizi açılacaq: ermənilər istəsələr də, istəməsələr də!

Artıq Ermənistanda hamı bilir ki, bu belə də olacaqdır!

Sadəcə, İlham Əliyev dəmir yolunun çəkilməsi və yol infrastrukturunun qurulub qurtarmasını gözləyir!

Azərbaycan üçüncü Qarabağ müharibəsinin baş verməsini istəmir!

Lakin yenə də hərbiyə ən çox vəsait ayırır!

Orduda islahatlar, silahlanma davam edir!

Komando qüvvələrinin, xüsusi təyinatlıların yeni dəstələri yetişdirilir.

Müdafiə sənayemiz yeni növ silahların istehsalını, hətta xarici ölkələrə satışını qaydaya salır.

Sistemli və davamlı şəkildə hərbi təlimlər keçirilir, orduda döyüş qabiliyyəti və qələbə ruhu yüksək səviyyədə saxlanılır.

Qərbi Azərbaycan İcması əzəli torpaqlarına qayıtmağa hazırlaşır, bu istiqamətdə fəaliyyətlərini gücləndirir və sürətləndirir!

Qarabağda da bərpa və quruculuq işləri bir an belə dayanmır. Böyük qayıdışa ciddi və sürətli hazırlıq aparılır!

Türkiyə ilə qardaşlıq və strateji müttəfiqlik əlaqələri uğurla davam edir!

❖❖❖

Müzəffər Ali Baş Komandan İlham Əliyev daim dediyini edir!

Bunu təkcə Azərbaycan xalqı, düşmən Ermənistan deyil, bütün dünya bilir!

İlham Əliyev bəyan edibsə, deməli:

* Ermənistan ərazi bütövlüyümüzü tanıyaraq sülh müqaviləsini imzalayacaq;

* Qarabağdakı ermənilər ya bizim vətəndaşlığımızı qəbul edəcək, ya da ərazimizi tərk edəcək;

* Zəngəzur dəhlizi fəaliyyətə başlayacaq;

* Böyük qayıdış uğurla reallaşacaq;

* Qərbi azərbaycanlılar da doğma yurdlarına dönəcəklər!

Əslində, hər şey Azərbaycan Prezidentinin dediyi kimi olacaqdır!

Çünki o, əvvəlcə ölçüb-biçir, sonra qabaqlayıcı və gərəkli addımlar atır, xalqına və dövlətinə güvənərək dediyini edir!

İlham Əliyev arzuları gerçəkləşdirməyi, yeni reallıqlar yaratmağı məharətlə bacardığını dəfələrlə sübut edib!

Bizə isə onun - deməli həm də özümüzün və xalqımızın qələbəsini görmək, xoş günlərə sevinmək, daim Prezidentimizin ətrafında sıx, yumruq kimi birləşmək qalır!

***18 yanvar 2023-cü il***

## Böyük ürək,
## mərhəmətli qəlb sahibi

*Çoxcəhətli və çoxşaxəli fəaliyyətin unudulmaz məqamları*

Kişilər həmişə sərt olurlar!

Qəzəblənəndə yumruqlarını düyünləməklə, acıqlı baxıb hündürdən danışmaqla hisslərini büruzə verirlər.

Allah onları belə yaradıb!

Qadınlar isə həmişə zəif və zərif olurlar!

Onların bir gözəlliyi də bundadır.

Səbirli olmağa, məsələni yumşaqlıqla, sülh yolu ilə həll etməyə üstünlük verirlər!

Xilqətləri belədir!

Dövlət idarəçiliyində hər ikisi vacib və gərəklidir!

Qüdrətli əl də, mərhəmətli davranış da!

Əslində, belə bir birlik və birgə fəaliyyət idarəetməni asanlaşdırır, xalqın maraqlarının, arzu və istəklərinin daha tez və uğurla həyata keçirilməsini, insanları xoş və firavan yaşayışa qovuşduraraq rahat və bəxtəvər ömür sürmələrini daha tez və daha yaxşı reallaşdırır.

❖❖❖

Müstəqil Azərbaycanın rəhbər sarıdan bəxti gətirib!

Ölkədə naşılar, iradəsizlər iqtidarda çox qala bilməyiblər!

Xalq özü belələrindən qəzəblə imtina edib!

Həqiqi dövlət rəhbərləri isə öz əməlləri sayəsində tarixi şəxsiyyətlərə, dünya miqyasında görünən görkəmli liderlərə çevriliblər!

Dövlət başçılarını güclü edən həm də onların komandaları, çiyindaşlarıdır!

* Tarixinin ən qüdrətli Azərbaycanının yaranmasında...

* Ölkəmizin Cənubi Qafqazda söz sahibinə çevrilməsində...

* Dünyada yeni imicdə, Avropaya gərəkli ölkə kimi tanınmasında...

Hərbi gücünü və imkanlarını ortaya qoyaraq işğal altındakı torpaqlarını 44 gündə azad etməsində bu məqamın da xüsusi əhəmiyyəti olmuşdur!

❖❖❖

Azərbaycanda Birinci vitse-prezident Mehriban xanım Əliyevanı sevməyən, ona hörmət və ehtiram bəsləməyən tapılmaz!

Mehriban xanım Əliyeva bu sevgini öz işi, əməli, yorulmaz və çoxcəhətli fəaliyyəti, insanlara arxa və dayaq durması, mərhəmət və xeyirxahlığı ilə qazanıb!

Mehriban xanım Əliyevanın gözəl nitq qabiliyyəti, aydın diksiyası, fikrini dəqiq ifadə etmək bacarığı var.

Amma uzun danışmağı, geniş nitq söyləməyi sevmir!

Sözünü əməli işi, gərgin və çoxcəhətli fəaliyyəti ilə əvəz edir, real, əməli işə daha çox üstünlük verir.

Həm də təbiətən təvazökardır...

Bəzən geniş ictimaiyyətin hansı layihənin harada icrasına başlandığından xəbəri olmur.

Yalnız açılış mərasimində necə bir gərəkli obyektin fəaliyyətə başladığını bilirik.

Çünki əsas məqsəd göstərmək yox, gərəkli olanı etmək, insanlara sevinc və rahatlıq bəxş etmək, istəklərini gerçəkləşdirməkdir!

❖❖❖

Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondu müstəqil Azərbaycanın dayaqlarından biri, inkişaf və quruculuğa dəyərli töhfələrini verən nüfuzlu qurumdur.

Bu fond Heydər Əliyev ideyalarını yaşadır!

Bu fond Heydər Əliyevin xalqa xidmət missiyasını davam etdirir!

Bu fond Heydər Əliyevin dövlətə və xalqa olan sonsuz sədaqət və məhəbbətini çoxcəhətli fəaliyyətində müasir dövrdə konkret addımlar və layihələr formasında daim yeniləşdirir, reallaşdırır!

Bəzən dövlətin həyata keçirməyə macal tapmadığı layihələri tez bir zamanda icra edir, bəzən yeni təşəbbüsləri ilə yaddan çıxanları gündəmə gətirir, hamıya gərəkli olanları edir.

Dövlətin dəstəyi olan Heydər Əliyev Fondu eyni zamanda vətəndaş məmnunluğunun yaranmasının mühüm amillərindən biridir!

Fondun yaradıldığı gündən indiyədək gördüyü işlərə nəzər salanda qürur duymamaq olmur!

Ulu Öndərin adına layiq fəaliyyət həm də bu qurumda vətənpərvər, fədakar, təşəbbüskar və zəhmətsevər insanların çalışdığından xəbər verir.

Şübhəsiz, bu uğurların baş təminatçısı, ona sevgi və yaradıcılıqla rəhbərlik edən Mehriban xanım Əliyevadır!

Onun yaradıcı və yorulmaz fəaliyyəti, ən vacib məqamda ən gərəklisini etmək istedadı, dövrün çağırışlarını duymaq və cavablandırmaq məharəti uğurların təməlidir.

Əslində, bu qurum həm də Mehriban xanım Əliyevanın öz potensialını, bacarıq və məharətini, vətənə məhəbbət və sədaqətini gerçəyə çevirmək üçün geniş platforma funksiyasını da daşıyır!

❖❖❖

İllər öncə Azərbaycan öz üzərinə böyük bir missiya götürdü:

I Avropa Oyunlarının keçirilməsini.

Bu, bir ilk idi!

Həm də yüksək etimad!

Ortada öyrənilәsi nümunə isə yox idi!

Əksinə, Azərbaycan ilk oyunun təşkilatçısı kimi özü bir nümunə yaratmalı olmuşdu.

Bu, təkcə Avropa qitəsində idman yarışlarının təşkili deyildi!

Həm də müasir Azərbaycanın idman oyunları fonunda dünyaya yeni imicdə, müasir, demokratik, qədim ənənələrə malik bir dövlət kimi də təqdimatı sayılırdı!

Dövlət başçısı cənab İlham Əliyev bu çətin və gərəkli missiyanın icrasını Mehriban xanım Əliyevaya həvalə etdi!

Nəticə...

Nəticədə dünyanı heyrətdə qoyan və daim yaddaşlarda yaşayan möhtəşəm bir idman bayramı baş tutdu!

I Avropa Oyunlarının açılış və bağlanış mərasimi isə öz orijinallığı, milliliyi, əzəmət və müasirliyi ilə insanlarda görünməmiş təəssürat yaratdı!

Bütün qonaqlar, mütəxəssislər, televiziya vasitəsilə bu möhtəşəm tədbirləri izləyənlər, idman yarışları ilə bağlı ən incəliyə qədər düşünülmüş məqamları, yarışlarla bərabər idmançılara yaradılan şəraiti, tamaşaçıların rahatlığını, bir sözlə, nəhəng bir mexanizmin saat kimi işləməsini maraq və razılıqla qarşıladılar.

Bu, Mehriban xanım Əliyevanın triumfu idi!

I Avropa Oyunları sonralar keçirilən digər oyunlar üçün etalona çevrildi!

Heç kim ondan yaxşısını təşkil etmək barədə düşünmürdü!

Hamı, sadəcə olaraq, ondan öyrənir və ona bənzəməyə çalışırdı!

IV İslam Həmrəyliyi Oyunları da eyni uğurla, ən yüksək səviyyədə baş tutdu!

Bu iki beynəlxalq miqyaslı idman tədbiri Mehriban xanımın sayəsində zirvəyə və nümunəyə çevrildi.

❖❖❖

Dünyada ən şirin varlıq övladdır!

Ən ağır dərd də xəstə övlad dərdidir!

Öz balasını istəyənlər başqalarının da övladlarına pis gün arzulamırlar.

Ən ülvi insani xüsusiyyətlərdən də biri övladlara, uşaqlara qayğı göstərmək, onların yaman dərddən sağalmalarında valideynlərinə dayaq durmaqdır!

Azərbaycan xalqı Mehriban xanım Əliyevanı həm də xəstə və köməksiz uşaqların şəfqət anası, xilaskar mələyi kimi tanıyır və sevir!

Dünyaya uşaq gətirmək azdır!

Onu saxlamaq, böyütmək, ayaq üstə qoymaq, təhsil vermək, ev-eşik sahibi etmək - bütün bunlar həyatın davamının vacib şərtləridir.

Bu zəncirin hansısa halqasının qırılması insan həyatının şikəst olmasına, natamamlığına, özündən asılı olmayan səbəblərdən əziyyət çəkməsinə, bəzən isə faciələrə səbəb olur.

Ya zəlzələdən, ya vəlvələdən - hərdən övladlarından imtina edən, hətta onları küçəyə atan valideynlər də olur.

Övlad üçün də, valideyn üçün də əsl faciədir!

Həm də çox böyük günah!

Nə etməli, həyatdır...

Mehriban xanım Əliyeva valideynlərin, doğmaların imtina etdiyi balalara da sahib çıxır!

❖❖❖

Sovet dövründə çoxsaylı körpələr evləri, internat məktəbləri vardı.

Pis-yaxşı fəaliyyət göstərirdilər.

Müstəqilliyin ilk illərində, xüsusən anarxiya dövründə bu tipli müəssisələrin də faciəli günləri başladı.

Diqqətsizlikdən, qayğısızlıqdan, vəsaitsizlikdən bina və avadanlıqlar sıradan çıxdı, ərzaqla təchizat məsələləri pisləşdi, hətta burada çalışanların əməkhaqlarının vaxtında ödənilməsində problemlər yaşandı.

Bütün bunları görən, yada salan, kömək əlini uzadan isə tapılmırdı...

Ta o vaxta qədər ki Mehriban xanım Əliyeva bu sahəni də öz himayəsinə götürdü!

Doğmaların imtina etdiklərinə Mehriban xanım Əliyevanın simasında Heydər Əliyev Fondu yiyə durdu!

Qısa müddət ərzində bərbad günə düşən binalar təmir edildi, yeni avadanlıqlar, zəruri əşyalar alındı, ərzaq təchizatı qaydaya salındı, işçilərin əmək-haqları artırıldı.

Valideyn himayəsindən məhrum olanlar - "günahsız qurbanlar" Mehriban xanım Əliyevanın timsalında isti qucaq tapdılar, şəfqətli ürək sahibinə qısıldılar.

❖❖❖

Anadan qüsurlu doğulan, sağalmaz xəstəliklərə mübtəla uşaqların dərdi isə bir başqadır.

Valideyn onları nə ata bilir, nə saxlaya...

Nə müalicəsinə pul çatdırır, nə də dava-dərmanına!

Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun xətti ilə bu sahənin bütün ağırlığını və qayğılarını öz çiyinlərinə götürdü!

Daun, talassemiya, hemofiliyalı xəstələrin müalicəsi, təminatı üçün neçə-neçə binalar tikildi, sağlamlıq mərkəzləri inşa olundu.

Bütün bunların sayəsində valideynlər böyük yükdən, sıxıntıdan, çarəsizlikdən qurtuldular.

Mehriban xanım Əliyevanın mərhəmət və qayğısının hədd-hüdudu, sərhədi yoxdur!

Bir qədər sonra başqa bir problem meydana çıxdı...

İnternat məktəblərində böyüyənlər müəyyən yaş həddinə çatdıqda, təhsillərini başa vurduqda oranı tərk etməli olurlar...

Lakin hayana?

Harada işləməyə, harada yaşamağa?

Çarəsizlik və ümidsizlik bəzilərinin həyatını korlayırdı...

Mehriban xanım Əliyevanın mərhəməti, Heydər Əliyev Fondunun dəstəyi sayəsində bu problem də çözüldü.

Bu qism gənclərdən ötrü bir neçə otaqdan ibarət çoxmərtəbəli yaşayış binaları tikildi, yeni həyata qədəm qoyanlara yeni mənzillər verildi.

Hətta bir qism talesiz gənc bir-biriləri ilə ailə həyatı quraraq yeni mənzil və iş yerləri hesabına ömürlərinin qalan hissəsini birgə keçirmək barədə qərar verdi.

Əsl xoşbəxtliklərinə qovuşdular!

Talesizliklərini Mehriban xanım Əliyevanın sayəsində daimi bəxtiyarlıqla əvəz etdilər!

Görün bunların savabı yerə-göyə sığarmı!

❖❖❖

Özlərini "qədim", "mədəni" xalq adlandıran ermənilər Qarabağ münaqişəsinin ilk dövründən dünya KİV-ində şər-böhtan kampaniyası apararaq azərbaycanlıları "vəhşi xalq" adı ilə təqdim edirdilər.

Düşmən tərəfindən yaradılan bu stereotipləri dağıtmaq vacib idi!

Mehriban xanım Əliyeva sözügedən məsələyə də öz töhfələrini verdi.

Həm də bütün dünyanın gördüyü, şahidi olduğu və qəbul etdiyi formada!

Azərbaycan xalqının qədim və zəngin mədəniyyəti, bu qədimliyi və zənginliyi sübuta yetirən çoxsaylı maddi-mənəvi nümunələri də vardır.

Onların təqdiminin sovet dövründə mümkün olmayan formaları tapıldı.

UNESCO-nun xoşməramlı səfiri kimi fəaliyyət göstərdiyi dövrdə Mehriban xanım Əliyeva mövcud imkanlardan səmərəli istifadə etdi.

Bir-birinin ardınca:

* Qobustan milli qoruğu;

* İçərişəhər memarlıq qoruğu;

* Azərbaycanın aşıq sənəti;

* Tar ifaçılığı sənəti və digərləri milli-mədəni abidələr kimi UNESCO-nun siyahısına salındı.

Beləliklə, həm onların Azərbaycan xalqının milli-mədəni sərvəti olduğu təsdiqləndi, həm qorunması təmin edildi, həm də turistlərin maraq dairələrinə yönləndirildi.

Mehriban xanım Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun xətti ilə dünyanın bir sıra ölkələrində müxtəliftəyinatlı beynəlxalq əhəmiyyətli onlarla layihə gerçəkləşdirildi.

Bu layihələr həm dost ölkələrdə töhfə şəklində kömək məqsədilə icra olunurdu, həm də Azərbaycanın dünya mədəniyyəti nümunələrinin qorunmasına yardımının və diqqətinin təzahürünə çevrilirdi.

MƏSƏLƏN:

* Vatikanda müqəddəs Pyotr Kilsəsinin Bazilikasındakı "Roma Papası I Leon ilə Hun imperatoru Atillanın görüşü" barelyefi;

* Vatikan Bazilikasındakı katakombalarda yerləşən "Tullius Zethus" məqbərəsi;
* Vatikanda "Müqəddəs Komodiliya" katakombalarındakı mavzoley;
* "Müqəddəs San Sebastian kilsə-muzey kompleksində katakombalar bərpa olunub;
* Volqoqradda Volqoqrad-Bakı Dostluq Parkı salınıb;
* Həştərxanda "Meçta" Uşaq Kafesi yaradılıb;
* Həştərxanda Knyaz Vladimirin abidəsi ucaldılıb;
* Həştərxanda Azərbaycan və Rusiya Dostluq körpüsü salınıb;
* Həştərxanda "Arzu" Uşaq Əyləncə Şəhərciyi yaradılıb;
* Sarayevoda Dostluq parkı salınıb.

Heydər Əliyev Fondunun "Təhsilə dəstək" layihəsi çərçivəsində Gürcüstan, Misir, Rumıniya, Rusiya Federasiyası, Pakistan və Hollandiyada bir sıra məktəblər yenidən qurulmuş və ya əsaslı təmir olunmuşdur. Pakistanın Müzəffərabad şəhərinin Rara ərazisində zəlzələdən sonra dağılmış qızlar üçün yeni orta məktəb binasının inşası və digərləri ən uğurlu və önəmli layihələrdəndir.

❖❖❖

Müharibə təkcə dağıntılara, ölüm-itimə səbəb olmur!

Həm də insanların bir qisminə sağalmaz yaralar vurur, həyat şəraitlərini kəskin şəkildə dəyişir, əzab və əziyyətlərə mübtəla edir.

Otuz illədək davam edən Qarabağ müharibəsi də həmçinin.

Təkcə torpaqlarımız murdar ayaqların altında qalmadı...

Təkcə ev-eşiyimiz dağıdılaraq mal-mülkümüz tarac olunmadı...

Təkcə məscidlərimiz tövləyə çevrilmədi, qəbiristanlıqlarımız dağıdılmadı...

Təkcə yurd dərdi, Vətən həsrəti çəkmədik...

Həm də əzab-əziyyət çəkdik, tənə və qınaqlara tuş olduq!

İş tapmayanda dövlətin yardımına möhtac, normal yaşayışa həsrət qaldıq.

Belə ağır məqamlarda təkcə yardım yox, bir kəlmə ümidverici söz, arxamızda kiminsə dayandığını bilməyimiz də dərdimizə məlhəm oldu!

O ağır günlərdə Mehriban xanım Əliyeva məcburi köçkünlərin yaxınına, doğmasına çevrildi!

İndiyədək elə bir hal olmayıb ki, Mehriban xanım Əliyeva məcburi köçkünlərin hər hansı çağırış və müraciətinə biganə qalsın!

Ən ağır, ən çətin günlərdə biz Mehriban xanımı məcburi köçkünlərin yanında görmüşük!

Onlara dayaq durub, dəstək verib, əl tutub!

* Aprel müharibəsində mənfur düşmən Ağdamın ərazisini güclü mərmi atəşinə tutdu...

* 44 günlük Vətən müharibəsi başlayanda mənfur düşmən Gəncəni raket və mərmi atəşinə hədəf etdi.

Hər iki halda Mehriban xanım dinc vətəndaşlara həyan durdu, ürək-dirək verdi, yardım göstərdi, dağılmış evlərin tezliklə bərpası üçün əlindən gələni əsirgəmədi.

Mehriban xanımın dara düşənlərin yanında olmasının biz Şamaxı zəlzələsində də şahidinə çevrildik.

Onun necə insanlara can yandırdığını, hər vəchlə kömək istəyini müşahidə etdik.

Şəhid anaları, şəhid övladları Mehriban xanımı özlərinin qayğıkeşi, ən yaxın himayədarları sayırlar!

Bəzən bu böyük qəlb sahibinin şəhid ailələri ilə görüşərkən necə kövrəlməsindən riqqətə də gəlmişik...

❖❖❖

Mehriban xanım Əliyeva 44 günlük Vətən müharibəsinin iştirakçısı oldu.

Bir yerdə qərar tutub dayana bilmədi, hərdən hərbi paltar geyinərək hərbçilərlə görüşə də getdi.

Müharibədə şəhidlərlə bərabər, yaralılar da çox olur!

Həm də ən müxtəlif ağırlıq dərəcələrində.

Yaralı insana dərman qədər xoş sözlər də təsir edir!

Biz bunları həm də yarası sağalmış, yenidən normal həyata qayıtmış hərbçilərimizin dilindən dəfələrlə eşitmişik!

Mehriban xanım Əliyeva daim hospitallara baş çəkdi, yaralılarla həmsöhbət oldu, arzu və istəklərini yerinə yetirmək üçün əlindən gələni əsirgəmədi.

* Azərbaycanda sağalması müşkül olan bir çox yaralılar qardaş Türkiyəyə müalicəyə göndərildilər...

* Ağır xəsarət almış gənclərin həyatlarını yüngülləşdirmək üçün onlar ən müasir protezlərlə təmin olundular...

* Ehtiyacı olanların az vaxtda mənzil şəraiti yaxşılaşdırıldı…

Təkcə şəhid ailələri və qazilər deyil, hər bir Azərbaycan vətəndaşı Mehriban xanımın simasında Vətən müharibəsində iştirak etmiş insanlara qayğı və hörmətin şahidi oldu.

Dövlətin bu sahədəki siyasətinin ən fəal icraçılarından biri kimi Mehriban xanım Əliyeva mərhəmət, cəfakeş və qayğıkeşliyi ilə xalqın dərin və tükənməz məhəbbətini qazandı!

❖❖❖

Əvvəlki fikrimizə qayıdırıq: Dövlət və Heydər Əliyev Fondu!

Bu qoşa qanad müstəqil Azərbaycanı yeni zirvələrə ucaldır!

Cənab İlham Əliyevin və Mehriban xanım Əliyevanın timsalında!

Hələ qarşıda görüləsi çox iş var: Qarabağı və Şərqi Zəngəzuru bərpa edib dirçəltmək, Böyük qayıdışı uğurla başa çatdırmaq, saysız-hesabsız layihələri sürətlə reallaşdırmaq, xalqın firavan həyatını təmin etmək və s.

Birinci vitse-prezident kimi altıillik fəaliyyəti dövründə Mehriban xanım Əliyeva çox uğurlara imza atıb, çox istəkləri gerçəyə çevirib!

Ən əsası dövlət başçısı ilə yanaşı, hər bir Azərbaycan vətəndaşının qəlbində isti yuva qurub!

Bu əqidə və əməl birliyi Azərbaycan xalqını da yumruq kimi birləşdirib!

Şübhə etmirik ki, növbəti illərdə nailiyyətlərimiz daha da çoxalacaq, ürəyimizdəki arzuların hər biri dövlətimizin vətəndaş məmnunluğuna xidmət edən siyasəti sayəsində uğurla həyata keçəcəkdir.

***21 fevral 2023-cü il***

## Ayıblı aybını bilsə...

*Və ya sonrakı peşmançılıq fayda verməyəcək*

Xalqımızın hədəfi dəqiq vuran dəyərli atalar sözləri çoxdur.

Hər birində də dərin məna və həyat təcrübəsi əksini tapıb.

Zaman keçsə də, aktuallıqlarını qoruyub saxlayır, hər dəfə yenidən işlədəndə sanki bu gün üçün deyildiyi təəssüratını yaradır.

Hayastan dostlarının və havadarlarının köməyi ilə Laçın nəzarət buraxılış məntəqəsi yaxınlığında "humanitar şou" tamaşası oynayır.

Guya, Xankəndidə "ərzaq böhranı" yaranıb və 22 maşından ibarət karvan ora çatmasa, separatçı ermənilər acından qırılacaqdır.

Ola bilsin ki, Xankəndidəki separatçılara məxsus on bir min nəfərdən ibarət qanunsuz hərbi birləşmənin ərzaq ehtiyatı azalıb.

Hayastan onları silah-sursatla, maliyyə vəsaiti ilə, yemək və paltarla təchiz etdiyindən Paşinyan belə bir hoqqabazlıqla Xankəndiyə ərzaq və digər şeylər (TIR-ların içindəkilər nədir, hələ o da dəqiq bilinmir) çatdırmağa can atır.

Həm də istəyir ki, həmin yardım maşınları məhz Laçın yolu ilə aparılsın.

Deyəsən, Paşinyan unudub ki, 44 günlük müharibədə uduzaraq yalvar-yaxarla hərbi əməliyyatları dayandıran Hayastan olub və şəxsən onun özü də kapitulyasiya aktına - üçtərəfli Bəyanata imza atıb.

Yada salırıq ki, şərtləri məğlub tərəf qoymur, qaliblər irəli sürür!

Necə ki Müzəffər Ali Baş Komandan İlham Əliyev bu məsələ ilə bağlı son və qəti sözünü deyib:

Humanitar yardım yalnız Ağdam yolu ilə Xankəndiyə çatdırıla bilər!

Vəssalam, şüttamam!

İndi haylar rüşvət və "haxçik" verdikləri, "bacılıq" tutduqları siyasətçiləri və deputatları, diasporun pullu üzvlərini başlarına yığaraq "Azərbaycan etnik təmizləməyə, soyqırımına hazırlıq görür" deyə şivən qoparırlar.

Onların səsinə yığışıb gələn diplomatlar, səfirlik əməkdaşları isə gördüklərini telefonlarına çəkib getdilər.

İndi hamısı səs-səsə verərək Azərbaycana qarşı haradasa hansısa sənədi qəbul etdirmək istəyirdilər!

❖❖❖

Bayaq söhbət açdığımız atalar sözlərindən daha biri yada düşür:

"Ayıblı aybını bilsə, başına palaz bürüyər".

Və yaxud başqa birisi:

"Dəvə başını kolluğa soxar, elə bilər heç kim onu görmür".

Qarabağın otuz ilədək çəkən işğalı dövründə ermənilərə hamilik edənlər kar, kor və lal oldular!

Beynəlxalq qurum və təşkilatların nümayəndələri isə bir dəfə belə otaqlarından çıxıb Qarabağa gəlmədilər:

* indiki kimi sərhəddə duraraq ermənilərin Hayastanda apardıqları etnik təmizləmələri;

* Qarabağ və Şərqi Zəngəzurdakı dinc əhalinin erməni silahlıları tərəfindən doğma yurd-yuvalarından zorla qovularaq qaçqına və məcburi köçkünə çevrilmələrini;

* işğal zonalarındakı yaşayış məntəqələrini, dini, tarixi və mədəni abidələri, qəbiristanlıqları necə yerlə yeksan etmələrini;

* insanlara, təbiətə, yeraltı və yerüstü sərvətlərə qarşı törədilən vandallıqları telefonları ilə çəkmədilər.

ATƏT-in həmsədr dövlətləri olan Rusiya, ABŞ, Fransa bir dəfə də olsun Azərbaycan xalqına qarşı törədilən vəhşiliklər barədə məsələni araşdıraraq BMT-nin Təhlükəsizlik Şurasında müzakirəsinə cəhd göstərmədilər. İnsanların kütləvi şəkildə pozulan hüquqlarının bərpası qayğısına qalmadılar, 4 qətnamənin yerinə yetirilməməsinin səbəbləri ilə maraqlanmadılar. Ermənistana qarşı sanksiya tətbiq olunması barədə söhbət belə aparmadılar.

İndi nə yaman fəal, humanist, insan hüquqlarını qoruyan, hətta "etnik təmizləmə" və "soyqırımı" hərəkətlərinin "qarşısını almaq üçün" irəlicədən "həyəcan təbili" çalan olublar.

Bu canfəşanlıq və "humanistlik" haradan əmələ gəlib?!

Yoxsa ermənilər üçün xüsusi qanun və konvensiyalar yazılıb, yanaşmalar müəyyən olunub, dünyadakı digər millətlər üçün bir başqa?!

❖❖❖

"Utanmasan oynamağa nə var" - bu da bir atalar sözüdür.

Makron prezident seçildiyinə görə özünü Fransa xalqına yox, Fransadakı ermənilərə və erməni diasporuna borclu sayır.

"Kiçik bacısı"nın borcundan nə vaxt və necə çıxacağını heç özü də bilmir.

ABŞ Senatı hələ 1992-ci ildə haqsız yerə Azərbaycana qarşı tətbiq etdiyi "Azadlığı Müdafiə Aktı"na 907-ci düzəlişi etməklə yol verdiyi səhvini tam aradan qaldırmayıb.

Üstəlik, ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin rəhbəri Robert Menendezi Hayastana "məsələni araşdırmağa" göndərib.

R.Menendez isə, təbii ki, erməniəsilli arvadı Nadine Arslanyanın sözünü deyəcək, əsl həqiqətə göz yumacaq.

Həm də elə-belə yox.

Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş Rusiyanın "sülhməramlı" qüvvələri isə sülhdən, Ermənistanın qanunsuz silahlı qüvvələrinin Qarabağdan çıxarılmasından danışmaq əvəzinə əksinə, onların təchizatına, rahat yaşamalarına qulluq göstərməkdədir.

Adı rüşvətxorluqda və korrupsiyada daim hallanan Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru Luis Okampo da ermənilərin borcundan çıxmaq üçün saxta və yalançı bir hesabat hazırlayıb.

Əgər bunlar, həqiqətən, ədalətli, beynəlxalq hüquqa hörmət edən, belə humanist və insanpərvərdilərsə, onda otuz il haradaydılar?!

İndi hansı üzlə haqq-ədalətdən dəm vururlar?!

Guya, biz bilmirik ki, hərəsi öz marağını təmin etmək üçün dəridən-qabıqdan çıxır?!

* Torpağın da yiyəsi bizik!

* Sərhədin və onun qapısının da sahibi bizik!

* Humanitar yüklərin nə vaxt və hansı yolla buraxılması məsələsini də həll edən bizik!

Heç biz öz marağımızı qoyub, sizin məkrli planlarınızın reallaşmasına imkan verərik?

O, sizin xam xəyalınızdır!

❖❖❖

Dünyanın işinə bax ha...

* Otuz il əvvəl baş verən Xocalı soyqırımını "unudanlar", bu günədək dinc əhaliyə qarşı törədilmiş vandallığı "yaddan çıxaranlar" Qarabağda ermənilərin "etnik təmizlənməsi"ndən narahatdırlar.

* Qərbi azərbaycanlıların haqqını tanımaq istəməyənlər ermənilərin Qarabağdan köçüb gedə biləcəklərindən əndişəyə düşüblər!

* Üçtərəfli Bəyanatın bəndlərinin icrasını qulaqardına vuraraq Zəngəzur dəhlizinin açılmasına əngəl törədənlər Laçın yolu ilə sərbəst, kefləri istəyən kimi gedib-gəlməyə can atırlar.

* Otuz il BMT TŞ-nin 4 qətnaməsini saya salmayan Hayastan indi BMT-də xüsusi iclas çağırılaraq Azərbaycan əleyhinə qətnamə qəbul etdirmək istəyir.

* 44 günlük müharibədə silah-sursatını, zirehli texnikasını atıb qaçan, 11 min nəfər fərarisi olan, hazırda ordusu erməni arvadlarının və "qocaman çağırışçılar"ın ümidinə qalan Ermənistan indi zorla Laçın yolundan keçmək fikrindədir.

Deyəsən, 44 gündə "məğlubedilməz" ordularını nə günə qoyduğumuzu, atıb-qaçdıqları silah-sursatlarını Bakıdakı Hərbi Qənimətlər Parkında nümayiş etdirdiyimizi yaddan çıxarıblar.

Eybi yox, zamanı çatan kimi yaddaşlarını təzələyərik!

❖❖❖

Hələ ki səbir edirik:

* Qoy revanşist erməni toplumu istədiyi qədər Paşinyanı itsürütməsi etsin.

* Qoy bacardıqları qədər kütləvi etiraz aksiyaları keçirərək çərənləyib ürəklərini boşaltsınlar.

* Qoy beynəlxalq təşkilatlara istədikləri qədər müraciətlər edib, məktublar yazsınlar!

* Qoy Laçın sərhədinə istədikləri qədər diplomat, səfir, deputat, pensiyaya çıxmış jandarm, turist və s. yığıb şəkil çəkdirsinlər.

* Qoy TIR-larını günün altında istədikləri qədər saxlayıb "zaqar" eləsinlər.

Necə deyərlər, itin dişi, donuzun dərisi!

Nə dəyişəcək?!

Azərbaycan Prezidenti İlham Əliyev sözünü bir dəfə deyir:

* Laçın yolundan yalnız Azərbaycanın nəzarəti və icazəsi ilə humanitar məqsədlə istifadə oluna bilər!

* Ermənistandan Xankəndiyə yardım maşınları yalnız Ağdam-Xankəndi yolu ilə keçə bilər!

* Qarabağda baş verən bütün proseslər Azərbaycanın daxili işidir və Azərbaycan onu kiminləsə məsləhətləşmək niyyətində deyil!

* Azərbaycan özünün erməniəsilli vətəndaşları ilə birbaşa, vasitəçilərsiz danışacaqdır!

* Azərbaycan qanunlarını qəbul edərək Qarabağda yaşamaq istəyənlər ölkədəki digər milli azlıqlar kimi bütün hüquqlardan istifadə edəcək, təhlükəsizlikləri qorunacaqdır, bunu istəməyənlərin isə yolu açıqdır!

* Ermənistan Azərbaycanın ərazi bütövlüyünü yazılı formada tanımasa, Azərbaycan da onun ərazi bütövlüyünü tanımayacaqdır!

❖❖❖

44 günlük Vətən müharibəsində böyük qələbəmizlə yanaşı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa sistemli olaraq müraciətləri, beynəlxalq mediaya müsahibələri də tariximizin qızıl səhifələrinə həkk olunub.

Həmin müraciətlərin birində Prezidentimiz tərəfindən gözəl bir ifadə də səsləndirildi və elə həmin andan da idiomatik ifadəyə, atalar sözünə çevrildi:

“Nooldu, Paşinyan?!”

Bu ifadənin duzu və ləzzəti "Böyük Ermənistan" xülyasının, erməni işğalının iflasa uğramasını və tarixin qara səhifələrinə çevrilməsini özündə dolğun əks etdirməsidir!

Şeir və meyxanaların nəqarətinə çevrilən bu ifadə hər dəfə erməni təxribatları, məkrli və hiyləgər oyunları iflasa uğrayanda xatırlanır və yenidən gündəmə gəlir.

Avqustun 16-da BMT-nin Təhlükəsizlik Şurasının iclasında Hayastan istədiyinə nail ola bilmədiyindən bir daha məzə ilə səslənir:

“Nooldu, Paşinyan?!”

Əvvəla, BMT ayıb bir iş görərək qəbul etdiyi 4 qətnaməsini 30 il ərzində yerinə yetirməyən Ermənistanın müraciəti ilə gündəliyə "humanitar şou" ilə bağlı məsələ daxil etmişdi.

İkincisi, Azərbaycanın sırf daxili işi ilə bağlı, öz sərhədində nəzarət-buraxılış məntəqəsinin qurulması, erməniəsilli vətəndaşlarına humanitar yardımın hansı yolla və marşrutla çatdırılması məsələsini müzakirəyə çıxarmışdı.

Ən nəhayət, ona hörmət etməyən, qətnamələrini saya salmayan haylarla bağlı hansısa sənəd qəbulu niyyətinə düşmüşdü.

Haylar da cavabını aldılar, məsələni gündəliyə salanlar da!

Qalır bizim məşhur yeni atalar sözünü bir daha qürur və ləzzətlə səsləndirməmiz:

"Nooldu, Paşinyan?!"

* TIR-ların Laçın yolundan keçdimi?

* Rüşvətlə ələ aldığın muzdlu siyasətçilərin işinə yaradılarmı?

Axı yaxşı bilirsən ki, Azərbaycan Prezidenti dediyini həm edir, həm də etdirə bilir!

İndi TIR-larını çevir, Ağdam-Xankəndi yoluna sürdür.

Qalib gələn də, iradəsini diktə edən də, şərt qoyub ona əməl etdirən də Azərbaycandır!

İlham Əliyevin Azərbaycanı!

❖❖❖

Qalib Azərbaycan sülh istəyir, əməkdaşlıq istəyir və sülh təklifi gündəliyindədir!

Lakin bu, əbədi olmayacaq! Ermənistan bu barədə ciddi düşünməlidir!

Vaxtını "humanitar şou"lara sərf etməməlidir, kiməsə, nəyəsə arxayın olub revanşizm eşqinə düşməməlidir!

44 günlük dərsi unutmaq yeni faciələrlə nəticələnə bilər!

Beynəlxalq hüquq və ədalət Azərbaycanın tərəfindədir!

Güclü orduya, güclü iqtisadiyyata və böyük insan potensialına malik olan tərəf də Azərbaycandır!

İndi Azərbaycan qurub-yaratmaqla, yeni yaşayış məntəqələri tikib insanları doğma yurdlarına qaytarmaqla məşğuldur!

Heç bir hədədən çəkinmir, heç bir kağız parçası onun iradəsinə təsir edəcək gücdə deyil!

Otuz il səbir etdikdən sonra öz problemini hərbi yolla özü nizama saldı, düşməni məhv edərək torpaqlarından qovdu!

Yenə də səbir edir!

Amma indiki səbir bir o qədər uzun çəkməyəcəkdir!

Qarabağda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingenti 2025-ci ildə çıxıb gedəcəkdir!

"Dəmir yumruq" isə həmişəki kimi hazır vəziyyətdədir!

Əslində, Ermənistanın və başbilənlərin havadarları bu forpost dövləti xilas etməyə tələsməlidirlər.

Sonda isə... yenə bir atalar sözü:

"Altda qalanın canı çıxsın".

***18 avqust 2023-cü il***

# İLHAM ƏLİYEV bütün addımlarını vaxtında - tələsmədən və gecikmədən atır

Xalqımız çörəyi müqəddəs sayır.

Hətta o qədər müqəddəs ki, "Çörək Qurandan qabaq gəlib" - deyir.

Çörəyin "Qurani-Kərim"lə bu sayaq müqayisəsi onun mənəvi yükünü və dəyərini də artırır.

Çörəyi tapdalamazlar - deyirlər.

Biri ilə duz-çörək kəsəndə sonadək o insana xoş münasibət bəsləyirlər.

Ən ağır qarğışımız da "Görüm səni çörəyə həsrət qalasan"dır!

❖❖❖

Çörək deyəndə təkcə buğdadan hazırlanan məhsul nəzərdə tutulmur.

Çörək həm də ruzi, evə aparılan halal qazancdır!

Çörək ailənin dolanışığı, rahat, ehtiyacsız yaşaması deməkdir!

Çörək anlayışında bir təmizlik, paklıq da var!

Heç zaman oğurluqla qazanılanlara çörək deyilmir!

Mərdimazarın, işverənin qazancı haram pul sayılır, halal çörək yox!

❖❖❖

İnsanlar hər gün dolanışığı və yaşayışı üçün evdən çıxaraq çörək dalınca gedirlər.

Hərə bir sahədə bir işlə məşğul olur.

Halal çörək qazanmaq üçün ən çətin, ən ağır, ən aşağı, ən çirkli işdə çalışmaq belə ayıb sayılmır.

Oğurluq, satqınlıq, dələduzluq, haramzadalıq, xəyanətkarlıq yolu ilə qazanılan çörək ayıb və qəbuledilməz sayılır.

Bəzən insanlar qürbətdə yaşamalı, vətəndən kənarda ömür sürüb çörək qazanmalı olurlar.

Bu, bir tale qismətidir...

Əgər ürəyində Vətən sevgisi varsa, əgər tutduğun əməllərlə Vətəninin adına ləkə gətirmirsənsə, harada yaşamağın nə fərqi var?

Təki Azərbaycanın adını, azərbaycanlı adını ləyaqətlə, şərəflə qoruya, doğrulda biləsən!

❖❖❖

Çörəyi xəyanətdən, vətənə dönüklükdən, düşmən qüvvələri yanında yer almaqdan çıxanlar da var.

İstər adını "jurnalist", istər "bloqçu", istər "hüquq müdafiəçisi", istər "demokrat" və s. qoysun.

İstər qadın olsun, istərsə kişi.

Fərqi yoxdur.

Əməlləri eyni, adları müxtəlif olsa da, çörəklərini haramzadalıqla qazanırlar.

Bu qəbildən olanlar "5-ci kolon" üzvləri sayılırlar.

Reallıqda Azərbaycana qarşı düşmən mövqe sərgiləyirlər.

Ermənilər bizə qarşı nə edirlərsə, onlar da eyni hərəkətlər törədirlər.

İstər ölkə daxilində yaşasınlar, istərsə də xaricə getmiş olsunlar.

Fərq etməz.

Allah kəssin o cür çörək qazanmağı!

❖❖❖

Bir var ermənilər.

Bir də var ermənidən betərlər.

Qarabağda yaşayanlar "öz ermənilərimiz"dir.

Ölkə daxilində və xaricdə yaşayaraq "5-ci kolon"a xidmət edənlər, çörəklərini Azərbaycana və Azərbaycan xalqına xəyanətdən çıxaranlar isə ermənidən betərlərdir!

Ermənilər otuz il ərzində bizə bacardıqları bütün pislikləri etdilər.

Yaxşı bilirlər ki, onları bağışlasaq da, bir yerdə yaşasaq da, heç zaman bizə etdikləri xəyanətləri və həddini aşmış pisliklərini yaddan çıxarmayacağıq!

* Şəhər və kəndlərimizi viran qoyduqlarını;
* Əsir və girovlarla qeyri-insani rəftar edərək olmazın işgəncələr verdiklərini;
* Məscidlərimizdə donuz saxladıqlarını;
* Mədəni və dini abidələrimizi məhv etdiklərini;
* Qəbiristanlıqlarımızı təhqir etdiklərini;
* Otuz il bizə qaçqın və köçkün həyatı yaşatdıqlarını.

İllər, əsrlər keçsə də, bütün bunları heç zaman unutmayacağıq!

Ermənidən betərlər isə "demokratiya" və "insan haqlarının qorunması", "söz azadlığının müdafiəsi" adı altında daim müstəqil Azərbaycanımıza şər-böhtan atırlar:

* Erməniəsilli milyonçuların maliyyələşdirdikləri fondlardan qrantlar alaraq tapşırıqlarını icra edirlər;
* Məqamında müxtəlif aksiyalar keçirməklə oyunbazlıqlar göstərirlər, düşmən əlinə dəstavuz verirlər;
* Azərbaycana düşmən mövqedə dayanan beynəlxalq təşkilatlarla əməkdaşlıq edərək onların işinə yarıyan "arayışlar" yazıb göndərirlər;
* Müxtəlif tele-radio kanalları yaradaraq sistemli şəkildə Azərbaycana qarşı şər, böhtan, kin və nifrət püskürürlər;
* Azərbaycan xalqını, Azərbaycanın şanlı, qeyrətli və vicdanlı insanlarını təhqir etməklə məşğul olurlar.

Ermənidən betərlərin bu sayaq əməllərini isə heç zaman bağışlamayacağıq.

Bunu özləri də yaxşı bilirlər!

Odur ki, keçmiş vətənlərinə qayıtmağa nə üzləri, nə də cürətləri çatır.

Xaricdə gəbərib, ermənisayağı torpağa gömüləcəklər.

Gəbərəndə isə nə kəfən görəcək, nə də "Yasin" səsi eşidəcəklər.

❖❖❖

Azərbaycan bir uğurlu gedişi ilə erməni yalanını, "humanitar fəlakət" şousunu, erməni havadarlarının canfəşanlığını puç etdi!

Xankəndidəki erməniəsilli vətəndaşlarına Ağdam-Xankəndi yolu ilə iki maşın - 40 ton un göndərdi.

Görmək istəməyənlərin də gözlərinə soxduq ki, bu yol yaxşı vəziyyətdədir və normal işləyir, aclıq söhbətləri isə boş bəhanələrdir.

Ermənilər və Ermənistandakılar "humanitar şou" oynamaqla Laçın yolunu açdırmaq, kefləri istəyən kimi o yoldan istifadə etməkdə israrlıdırlar.

Adama deyərlər ki, əgər, həqiqətən, acsansa, ərzağın haradan gəlməsinin nə fərqi?

Yox, əgər ürəyindən keçəni bizə zorla etdirmək istəyirsənsə, onu heç yuxunda da görə bilməyəcəksən!

Bütün oyunlar və oyunbazlıqlar bitib!

44 günlük müharibədən sonra bütün məsələlərdə təzə səhifə açılıb!

❖❖❖

Qarabağdakı ermənilər Azərbaycan ununu - çörəyini götürməyəcəklər.

Əvvəla, aclıq-filan çəkmirlər, oyun oynayırlar.

İkincisi, bizə xəyanət etdiklərindən halal çörəyimizin xain boğazlarından keçməyəcəyini anlayırlar.

Üçüncüsü, yaxşı bilirlər ki, o çörəyi alıb yesələr, zəhərə dönüb burunlarından gələcəkdir.

Çünki halal çörəyə layiq məxluq deyillər!

❖❖❖

* Ermənilərlə ermənidən betərlərin oxşar və fərqli cəhətləri mövcuddur.

Onlar torpaq istəyir, bunlar çörək.

Onlar açıq düşmənçilik edir, bunlar müxtəlif "demokrat" titulları ilə pərdələnirlər.

Onlar arada güc nümayiş etdirirlər, müdafiəçiləri, arxalarında duranları var.

Bunlar isə alaq otu kimi orda-burda bitiblər, tulapayı verənlərdən, müxtəlif hədəflərə qısqıranlardan asılı vəziyyətdədirlər.

Amma hər ikisi gec-tez Azərbaycan çörəyinə möhtac qalacaqdır.

Harada, hansı şəraitdə yeyəcəklər - bunu isə tale özü göstərəcək.

Ta qədimdən indiyədək Azərbaycan xalqının mentalitetində "Azərbaycan kişisi" obrazı olub:

* Mərd!

* Təmiz!

* Düz!

* Sözü üzə deyən!

* Düşmənə boyun əyməyən!

* Ana-bacısının namusunu qoruyan!

* Vətən uğrunda şəhid getməyə hər zaman hazır olan!

* Bir tikə çörək üçün yağıya nökərçilik etməyən!

* Böyüyü böyük, kiçiyi kiçik bilərək mənliyini və şəxsiyyətini uca tutan!

* Heç bir zaman, heç bir halda ləyaqətini itirməyən Azərbaycan Kişisi!

Təəssüf ki, bir zamanlar onlar da "Azərbaycan kişisi" adını daşıyıblar:

Sonradan Azərbaycandan minbir bəhanə ilə qaçıb gediblər...

Xaricdə "xoşbəxt həyat" sürmək arzusu ilə.

Vətənin dar günündə, dar ayaqda özlərinə xoş gün axtarışı hayına düşüblər, qürbətə qaçıblar.

Vətənin qeyrətli oğulları Vətən uğrunda şəhid gedəndə onlar "avro" və "dollar" uğrunda sinov gediblər!

Özlərini "kişi" hesab etsələr də ("Avropa kişisi"), daim arvad kimi dalca danışmağı, söyüş söyməyi çörək qazanmaq "peşə"si seçiblər!

Nə özününkülərin qədrini bilirlər, nə də başqalarına hörmət qoyurlar.
Zəhərə dönsün o çörək ki, sizlər qazanırsınız.
Həm də şərəfsiz və namussuz yolla qazanırsınız.
Vətəni, vətənin qeyrətli, namuslu övladlarını söyərək, şərləyərək qazanırsınız.
Zamanı çatanda burnunuzdan zədən-zədən gələcəkdir!

❖❖❖

Azərbaycan Prezidenti İlham Əliyev hər bir addımını öz vədəsində atır!
Nə tələsir, nə də gecikir!
44 günlük Vətən müharibəsində, həm müharibənin başlanmasında, həm gedişində, həm də hərbi əməliyyatların dayandırılmasında bütün bunların şahidi olduq!
İndi mübarizə hüquqi, siyasi, diplomatik müstəvidə davam edir.
Burada da təşəbbüs Azərbaycandadır!
Burada da söz sahibi, şərtləri diktə edən İlham Əliyevdir!
Hər şeyin isə öz zamanı və məqamı var!
Darıxmayaq!

❖❖❖

Vətən müharibəsi dövründə və sonralar neçə-neçə terrorçunu, I Qarabağ müharibəsi canilərini tutub Bakıya gətirərək cəzalandırdıq!
Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin yaradılması həm də əsir və girovlara vaxtilə işgəncə verənlərin, Azərbaycan qanunlarını pozanların tapılıb cəzalandırılmasına şərait yaradıb.
Əvvəlcə barəsində cinayət işi qaldırılaraq beynəlxalq axtarışa verilmiş Vaqif Xaçatryanı, bir neçə gün öncə isə Azərbaycan bayrağına hörmətsizlik etmiş Alen Sarqsyan, Vahe Hovsepyan və Levon Qriqoryanı yaxalayaraq etdiklərinin əvəzini almalarına şərait yaratdıq.
Gənc fudbolçular əməllərini qanmadıqlarından törətdiklərini, peşmanlıqlarını söylədiklərindən ongünlük inzibati həbslə ağıllanacaqları güman edilir.
Vaqif Xaçatryan isə, yəqin ki, şərəfsiz ömrünün sonunadək həbsxanada "dincələsi" olacaq!

❖❖❖

İndi Azərbaycanın göndərdiyi 40 ton unu aparan iki "fur" maşını Ağdam-Əsgəran yolundakı RSK-nın postu qarşısında gözləyir.

Bütün dünya isə bunu görür və izləyir.
Biz erməniyə qudurmaq üçün çörək vermirik!
Biz erməniyə ağıllanmaq üçün çörək təklif edirik!
Harama öyrəşənlər halalı qəbul etməsələr, inciyəsi deyilik!
Laçın yolu belələri üçün daim açıqdır!
Sürükə bilərlər!

***1 sentyabr 2023-cü il***

## "Dəmir yumruğ"un ağıllandırma tədbirləri

Erməni diversiya qruplarının törətdiyi mina terroru nəticəsində polislərin və mülki şəxslərin həlak olması Azərbaycanın səbir kasasını doldurdu!

"Dəmir yumruq" yenidən işə düşdü:

Qarabağ bölgəsində qanunsuz yerləşdirilmiş Ermənistan silahlı birləşmələrinin təxribatlarına kəskin və  qətiyyətli, birdəfəlik cavab vermək üçün!

HƏM DƏ:

* Məğlublar sülhə gəlmədiklərinə, imzaladıqları bəyanatlara, verdikləri vədə əməl etmədiklərinə görə!

* Separatizm əməllərindən əl çəkmədiklərinə, sərsəm "miatsum" "ideyası"nı  beyinlərindən çıxarmadıqlarına görə!

* Azərbaycan cəmiyyətinə reinteqrasiyadan qəsdən boyun qaçırdıqlarına, Qarabağdakı separatçı rejimin erməniləri murdar niyyətlərinin girovuna çevirdiyinə görə!

Ən nəhayət, yenidən havadarlarına, müxtəlifsəviyyəli müdafiəçilərinə güvənməklə Azərbaycana, onun Konstitusiyasına meydan oxuduqlarına görə!

Bu dəfə də ağlını itirənləri ağıllandırmaq üçün hədəfə yönələn dəqiq zərbələr, göydən od yağdıran  PUA-lar işə salındı.

Söz xəbərdarlıqları əməli tədbirlərə  çevrildi!

❖❖❖

Lokal xarakterli  antiterror tədbirləri başlayan kimi "köhnə ssenarilər" də işə salındı!

Qanuni  hüquqlarından istifadə edərək ölkə daxilindəki separatizmə son qoymaq niyyətini gerçəkləşdirən Azərbaycana informasiya müharibəsi açılaraq diplomatik oyunlara başlanıldı!

Özünə və  beynəlxalq hüquqa güvənən Azərbaycan isə hər kəsin cavabını kəskin və qətiyyətlə verdi!

Azərbaycanın  Xarici İşlər Nazirliyi Fransanın Avropa və  Xarici İşlər Nazirliyinin  bəyanatını rədd edərək pislədiyini bildirdi:

"Fransa rəsmiləri, Milli Assambleyası və Senatı Azərbaycana qarşı bəyanatlar verilməsi və sənədlərin qəbulunda Ermənistandan daha fəal çıxış edirlər.

Fransanın islamofob və anti-Azərbaycan siyasəti, onun daxili işlərimizə qəbuledilməz müdaxiləsi göstərir ki, Fransa regiondan nə qədər uzaq olsa, region üçün bir o qədər yaxşı olar".

Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, ermənipərəst Cozef Borrel də təhriflərlə dolu bəyanatının cavabını aldı:

"Azərbaycanın suveren ərazilərində beynəlxalq hüquqazidd olan hər hansı hərbi mövcudluq regional sülhə və təhlükəsizliyə ciddi təhdiddir və Azərbaycanın bugünkü addımları bu qanunsuz qüvvələrin çıxarılmasına və qondarma rejimin buraxılmasına yönəlib. Azərbaycan dinc erməni sakinlərə hücum etmir və bu barədə istənilən iddia əsassız və qəbuledilməzdir".

Artıq bütün dünya və dünya liderləri də bilirlər ki, Azərbaycan qarşısına hədəf qoyduğu və açıq şəkildə bəyan etdiyi məqsədinə çatmayanadək dayanmayacaqdır!

Müzəffər Ali Baş Komandan İlham Əliyev sözünün və imzasının sahibidir!

Başqalarından da bunu gözləyir və tələb edir!

Paşinyanın günlərlə davam edən yalvar-yaxarı, onun-bunun dabanını yalaması və son nəticədə 44 günlük müharibədə hərbi əməliyyatların dayanması Rusiya Prezidenti V.Putinin zəmanəti ilə 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanması sayəsində gerçəkləşdi!

Quyruğu qapı arasından çıxan Paşinyan çox keçmədən nala-mıxa vurmağa, öhdəliklərindən müxtəlif bəhanələrlə boyun qaçırmağa, hətta Rusiyaya dirsək göstərməyə başladı!

2020-ci ilin noyabrından keçən təqribən 3 illik dövr ərzində:

* Üçtərəfli Bəyanatın tələblərinə, xüsusən 4-cü və 9-cu bəndlərə əməl etmədi;

* Gic-gic şərtlər irəli sürməklə sülh müqaviləsini imzalamadı;

* İran və Hindistan vasitəsilə silahlanaraq revanşist çıxışlara və əməllərə yol verdi;

* Dəqiq mina xəritələrini Azərbaycana təqdim etmədi, 2021-ci il istehsalı olan minaları gizlin şəkildə ölkəmizə daşıyaraq mina terroruna başlatdı;

* Qarabağdakı separatçı rejimi, habelə qeyri-qanuni silahlı birləşmələri Ermənistan büdcəsi hesabına maliyyələşdirməkdə davam etdi;

* Qondarma "Dağlıq Qarabağ Respublikası"nın "ildönümü"nə təbrik məktubu göndərdi, separatçı rejimdə yenidən "prezident" seçkiləri keçirilməsini dəstəklədi;

* "Humanitar şou"lar təşkil edərək Azərbaycanın əleyhinə böhtan kampaniyasını başlatdı;

* Ağdam-Xankəndi yolunun işə düşməsinə, erməniəsilli Azərbaycan vətəndaşlarının reinteqrasiyasına maneçilik törətdi;

* Azərbaycan ərazisinin sistemli şəkildə atəşə tutulmasına, hərbi eskalasiyanın artmasına təkan verdi;

* Yeni səngərlər və mühəndis qurğuları yaradaraq hərbi əməliyyatlara hazırlığa başlatdı;

* Qarabağda bərpa və quruculuq işləri aparanlara real təhdid və təhlükələr yaratdı;

* Azərbaycana qarşı ərazi iddialarından əl çəkmədi!

Ermənistan tərəfindən tam dəstək alan Qarabağdakı separatçı rejim yenidən "miatsum" hərəkatına başlayaraq Azərbaycana meydan oxumaq yolunu tutdu!

Bütün bu hərəkət və əməllərlə, əslində, Azərbaycana yenidən “dəmir yumruğu”nu işə salmaqdan özgə yol qoymadı!

❖❖❖

Sülh danışıqları müxtəlif formatlarda baş tutdu və Azərbaycan sülhlə bağlı heç bir təşəbbüsü diqqətdən kənarda saxlamadı.

Qalib ölkə olsaq da, sülh təşəbbüsü ilə biz çıxış etdik və beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan beş şərtimizi irəli sürdük.

Ermənistan əvvəlcə danışıqları uzatdı, sonra biabırçı məğlubiyyətə uğramış tərəf olduğunu "unudaraq" nəinki bəyanatlardakı razılaşmaları yerinə yetirmədi, əksinə, özü müxtəlif "şərtlər" irəli sürməyə başladı!

Lokal xarakterli antiterror tədbirlərinə start verən Azərbaycan isə həmişəki kimi məqsəd və hədəflərini açıq-aşkar söylədi.

Azərbaycan Xarici İşlər Nazirliyinin 19 sentyabr tarixli bəyanatında deyilir:

"Qarabağ iqtisadi rayonunda erməni silahlı qüvvələri tərəfindən gözlənilən genişmiqyaslı təxribatların qarşısının alınması, habelə üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, dinc əhali, o cümlədən ərazidə aparılan bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb".

Müdafiə Nazirliyinin açıqlamasında antiterror tədbirlərinin icra prinsipləri əksini tapıb:

"Üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusuya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb".

“Dəmir yumruğ”un hədəfləri də aşkar şəkildə göstərilib:

"Tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksəkdəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılır".

Eyni zamanda mülki əhaliyə ziyan dəyməməsi üçün qabaqlayıcı tədbirlər də görülüb, bununla bağlı onlara SMS xidməti vasitəsilə xüsusi müraciət ünvanlanmış, məlumat vərəqələri paylanmışdır:

"Yaşayış yerlərinin yaxınlığında atəş vasitələrinin Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən yerləşdirilməsini nəzərə alaraq, ərazidə olan mülki əhalini hərbi obyektlərdən kənar durmağa və Ermənistan silahlı qüvvələrinin birləşmələrinə dəstək olmamağa çağırırıq".

Təkcə xəbərdarlıqlarla kifayətlənməyərək qadınlar, qocalar, uşaqlar, habelə fiziki məhdudiyyətli şəxslər və xəstələrə tibbi yardım təşkil olunmuş, onlar içməli su və ərzaqla təmin edilmişlər.

Əhalinin təhlükəli ərazilərdən təxliyəsi üçün Laçın yolu üzərində və digər istiqamətlərdə humanitar dəhliz və qəbul məntəqələri də yaradıldı.

Tədbirlərin gedişi barədə Rusiya sülhməramlı kontingentinin komandanlığı, habelə Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin rəhbərliyi müntəzəm surətdə məlumatlandırıldı.

❖❖❖

Səbrin və dözümün də həddi olur!

Azərbaycan kifayət qədər gözlədi, səbir etdi!

Lokal antiterror tədbirlərinin başa çatmasının şərtləri isə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası tərəfindən açıqlandı:

* Qanunsuz erməni silahlı dəstələri ağ bayraq qaldırmalı!

* Bütün silahlar təhvil verilməli!

* Qanunsuz separatçı rejim özünü buraxmalıdır!

Bu yolda sarsılmaz milli birlik nümayiş etdirən Azərbaycan xalqı və cəmiyyəti Müzəffər Ali Baş Komandanın arxasında möhkəm dayandı, 44 günlük möhtəşəm sınaqdan zəfərlə çıxan ordumuz isə qarşısına qoyulan vəzifəni sonadək uğurla yerinə yetirdi!

❖❖❖

44 günlük Vətən müharibəsində olduğu kimi, Azərbaycan Ordusu lokal antiterror tədbirlərini də ən qısa müddətdə başa çatdırdı.

Qeyri-qanuni erməni terrorçu birləşmələrinin təslim olması barədə razılıq əldə olundu!

Şərtləri də yenə Azərbaycan tərəfi diktə etdi:

1. Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərksilah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır.

2. Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir.

3. Yuxarıda qeyd olunan proseslərin Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirilmiş şəkildə həyata keçirilməsi təmin edilir.

Beləliklə, "dəmir yumruğ"un ağıllandırma tədbirləri uğurla, qələbə ilə başa çatdı!

***21 sentyabr 2023-cü il***

# O, müasir dünya siyasətini gözəl bilir

*Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə söylədiyi bu sözlər İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə dəfələrlə təsdiqini tapıb.*

Siyasət tükdən nazik, qılıncdan itidir!

Bu, türk atalar sözüdür.

Əsrlər boyu zamanın sınağından dəfələrlə çıxan müdrik deyimdir!

Siyasətə elm də deyirlər!

Özünəməxsus qanunları, qaydaları, prinsipləri və terminləri vardır.

Bir qrup insanların, qurumların, dövlətlərin maraqlarının yeridilməsi, ifadəsi vasitəsidir.

Qədim tarixə, zəngin təcrübəyə malik sahədir.

Ən böyük silahı isə, yəqin ki, diplomatiyadır.

Onlar daim qoşa addımlayırlar.

Siyasət və diplomatiya ilə bəzən böyük təhdid və təhlükələri qarşılamaq, onları zərərsizləşdirmək olur.

Adətən, insanlar silaha əl atmazdan öncə "söz dueli" aparırlar, bir-birilərinə etiraz və narazılıqlarını bildirirlər!

Mövqe və maraq ziddiyyətlərini sözlə aradan qaldırmaq mümkün olmayanda isə silahlar işə salınır.

Bütün müharibələr isə sonda yerini sülh danışıqlarına verir, sülh müqaviləsi ilə başa çatır.

* Əsl dövlət başçısı odur ki, istədiyinə dövlətinin və xalqının maraqlarına ciddi ziyan vurmadan nail olsun!

* Əsl dövlət başçısı odur ki, qələbəsinə əmin olmadığı müharibəyə başlamasın!

* Əsl dövlət başçısı odur ki, hər iki sahədə elə fəaliyyət göstərsin ki, sonda qalib çıxsın, istədiyinə axıradək nail olsun!

Bax əsl siyasət də, diplomatiya da elə budur!

❖❖❖

Sovet dövründə Azərbaycanın müstəqil daxili və xarici siyasəti olmayıb!

Bütün bu işlərlə mərkəzdə - Kremldə məşğul olurdular.

On dörd müttəfiq respublikanın idarə olunmasının vahid forması da müəyyənləşmişdi.

Nəhəng qırmızı imperiyanın adı "qardaş xalqların könüllü ittifaqı" adlandırılsa da, özü mahiyyətcə "kommunizm ideologiyasına xudmət", "marksizm-leninizmə sədaqət" kimi qələmə verilsə də, əməldə çar üsuli-idarəsindən heç nə ilə fərqlənməyən bir quruluş idi.

On dörd müttəfiq respublikanın sərvəti mərkəzi büdcəyə toplanaraq oradan yenidən "pay bölgüsü" şəklində geri - yerlərə qaytarılırdı.

Təbii ki, "çox verib az alanlar" və ya "az verib çox alanlar" da var idi.

Bütün bunlar "ideoloji pərdə" altında elə gizlədilirdi ki, sanki hamı razı qalırdı və mərkəzə yalnız minnətdarlıq ifadə edilirdi.

Başqa yol və əlac da yox idi.

"Qırmızı terror və repressiya" vədəsində insanların gözünü elə qorxutmuşdu ki, kimsə yalnız ürəyində nəyəsə etiraz edə bilərdi...

Daxili siyasət məsələləri "Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin qərarları" şəklində həllini tapırdı.

Moskva bu adla hər hansı bir qərar verən kimi müttəfiq respublikaların mərkəzi komitələri və nazirlər sovetləri ona müvafiq, onun əsasında "kiçildilmiş" qərarlar qəbul edirdilər.

Hansısa respublika nəsə təşəbbüs göstərərək mərkəzdən əlavə bir vəsait almaq istəsəydi, bu, müşkülə çevrilirdi.

Həm də həmin respublikanın rəhbərinin bacarığından, nüfuzundan, Moskvadakı şəxsi hörmətindən çox asılı olardı.

Belə hörmət-izzət sahibləri isə, adətən, Sov.İKP MK Siyasi Bürosu üzvləri və üzvlüyə namizədlər sayılırdılar.

Xarici siyasət məsələləri isə bundan da çətin hesab olunurdu.

Xaricə istənilən yol yalnız Moskvadan keçirdi!

Müttəfiq respublikaların "xarici işlər nazirlikləri" rəmzi xarakter daşıyırdı.

Hətta istənilən xarici ölkəyə səfər belə Moskva ilə razılaşdırılmalı, daha doğrusu, müəyyən prosedir qaydalarından keçərək icazə alınmalı idi.

Müttəfiq respublikaların nəinki müstəqil şəkildə hər hansı xarici dövlətlə əlaqə yaratmağa, hətta mədəniyyət və ədəbiyyatla bağlı kiçik bir tədbir keçirməyə belə ixtiyarı çatmırdı.

Belədə, təbii ki, yerlərdə bacarıqlı siyasətçilərin yetişməsi də mümkün deyildi!

Ulu Öndər Heydər Əliyevin Moskvada işləmək üçün irəli çəkilməsi, Sov.İKP MK Siyasi Bürosunun üzvü kimi nəhəng imperiyanın siyasi xəttinin hazırlanmasında iştirakı, habelə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi SSRİ-nin idarə olunmasında birbaşa iştirakı onun görkəmli dövlət xadimi kimi yetişməsində mühüm rol oynadı.

❖❖❖

Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan dövlət müstəqilliyi qazananda həqiqi siyasətçi qıtlığı özünü kəskin şəkildə hiss etdirdi.

Moskva ilə məsləhət olunmadan müstəqil qərarlar qəbul etmək hər bir respublika rəhbərinin hünəri deyildi.

Hələ mərkəzin qərarlarına etiraz etmək, ona qarşı çıxmaq bir yana qalsın.

Həmin dövrdə baş verən və ölkə tarixinə düşən iki mühüm faktı xatırlatmaq istəyirik:

Birincisi, 1990-cı ilin yanvarında əli Azərbaycan xalqının qanına batmış cəllad Qorbaçovun tərkibi ermənilərlə möhkəmləndirilmiş Qırmızı ordu hissələrinin Azərbaycana daxil olaraq Bakıdakı etirazçılara divan tutması qərarına həmin dövrdə Azərbaycan KP MK-ya başçılıq edən Ə.Vəzirov etiraz etməyi bacarmadı!

Nəticədə 20 Yanvar faciəsi törədildi.

Və xalqın qəzəbindən qorxan Ə.Vəzirov hərbi təyyarəyə minərək Moskvaya - ağalarının yanına qaçdı.

İkincisi, SSRİ-nin dağıldığı bir zamanda tarixə "qətiyyətsiz prezident" təki düşən A.Mütəllibov Azərbaycan SSR-də "SSRİ-nin saxlanılması ilə bağlı referendum" keçirilməsi barədə qərar qəbul etmişdi.

Halbuki həmin dövrdə Naxçıvanda olan Ulu Öndər Heydər Əliyev bu ərazidə eyni referenduma yol verilməməsi üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarının çıxarılmasına nail olmuşdu!

Belə bir addım Ümummilli Liderimizin siyasi uzaqgörənliyi ilə yanaşı, cəsarət və qətiyyətindən də irəli gələn şəxsi keyfiyyətlərindən doğurdu.

❖❖❖

Yalnız Ulu Öndər Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra Azərbaycan müstəqil siyasət yürütməyə, öz maraqlarına xidmət edən müstəqil siyasi xətt qurmağa nail oldu!

Azərbaycanın müstəqilliyini reallığa və əbədiliyə çevirən Ümummilli Liderimiz bu yolda dayanmadan, yorulmadan, gecə-gündüz bilmədən çalışır, ölkə daxilində AXC-Müsavat cütlüyünün naşı və səriştəsiz hərəkətlərindən miras qalmış həlli vacib problemlərlə məşğul olurdu.

Paralel olaraq dünyaya inteqrasiya, digər dövlətlərlə bərabərhüquqlu əlaqələr yaradılmasına da xüsusi diqqət yetirirdi.

"İdarə olunan prezident" kimi yaddaşlarda qalan Ə.Elçibəyin qısamüddətli rəhbərliyi dövründə isə ölkə daha bərbad günə qoyuldu, Azərbaycan bir dövlət kimi məhvolma həddinə çatdırıldı.

Naşılardan ibarət komanda ilə ölkəyə başçılıq edən Ə.Elçibəy iqtisadiyyatdan xəbəri olmayanı baş nazir, siyasətdən xəbəri olmayanı xarici işlər naziri, cinayətkarlıqla mübarizədən xəbəri olmayanı daxili işlər naziri, hərbidən başı çıxmayan xəyanətkarı müdafiə naziri, dövlətçiliyin nə olduğunu anlamayanı dövlət katibi təyin etmişdi.

Krılovun məşhur "Kvartet" təmsilində olduğu kimi, bu naşılar və yalnız şəxsi maraqlarını güdənlər isə ölkəni fəlakət həddinə çatdırdılar.

Özlərinin "Milli qəhrəman" adı verdikləri, "Prezidentin Qarabağ üzrə səlahiyyətli nümayəndəsi" təyin etdikləri Surət Hüseynovun qiyamından qorxaraq "vəzifələrini dondurmaq"la qaçıb getdilər!

Onların "xüsusi xidmətlər sahibi" kimi qəbul edərək daxili işlər nazirinin müavini vəzifəsinə təyin etdikləri Rövşən Cavadov isə özlərindən sonra dövlət çevrilişinə cəhd edərək xəyanət yolunu tutdu!

1993-cü ilin may ayında keçirdikləri konfransda başda prezidentləri olmaqla bütün naşılıqlarını, ölkəni korrupsiya və rüşvət yuvasına çevirdiklərini, dövləti dağıtdıqlarını məcburən etiraf etdilər.

Xarici siyasət sahəsində də bağışlanılmaz səhvlərə, gülüş doğuran açıqlamalara yol verdilər!

Dövlətin başçısı öz torpaqlarını qoruya bilmədiyi halda "Yakutiyaya bayraq sancmaqdan" danışır, daxili işlər naziri "rus səfirinin başına güllə çaxacağı"nı söyləyir, qonşu dövlətləri olmayan "atom bombası" ilə hədələyir, xarici dövlət başçıları ilə görüşdə özlərini necə aparmağı, nədən necə danışmağı belə kəsdirə bilmirdilər.

İqtidarda olduqları qısa müddətdə özlərini biabır etməklə yanaşı, Azərbaycanın da beynəlxalq nüfuzuna ciddi xələl gətirdilər.

Ölkə daxilində onlardan qalan "zir-zibili" də təmizləmək xeyli vaxt apardı...

❖❖❖

"Bəy"lər işlədikləri çox qısa müddətdə ölkə iqtisadiyyatını bərbad vəziyyətə salmış, hətta dövlət büdcəsini belə formalaşdıra bilməmişdilər.

Dövləti yaşatmaq, dövlət qurumlarının iş qabiliyyətini təmin etmək, bir milyondan çox qaçqın və məcburi köçkünə qayğı göstərərək zəruri ehtiyaclarını ödəmək, torpaqların işğalını dayandırmaq, ölkəni xaos və anarxiya bataqlığından çıxarmaq, müstəqilliyi qoruyub saxlamaq, habelə dövləti məhvolmadan xilas etmək birinci dərəcəli vəzifə sayılırdı.

Həm də bu işlərin hamısı eyni vaxtda görülməli idi!

Lakin "keçmişin qalıqları" buna da imkan vermirdilər!

Ulu Öndər Heydər Əliyev iki dəfə - 1994-cü ilin oktyabr və 1995-ci ilin mart ayında dövlət çevrilişi cəhdlərinin qarşısını qətiyyət və məharətlə aldı!

Ümummilli Liderimiz təkcə bu günlə yaşamır, müstəqil Azərbaycanın gələcəyi barədə də düşünürdü.

Müharibədə atəşkəsə nail olduqdan, ölkədə möhkəm və dönməz sabitlik yaratdıqdan sonra da çoxcəhətli və çoxşaxəli fəaliyyət göstərirdi.

Dünyanın aparıcı dövlətlərinin maraqlarını Azərbaycanın maraqları ilə uzlaşdıraraq Xəzərin karbohidrogen ehtiyatlarının qeyri-ənənəvi yolla dünya bazarına çıxarılmasını təmin edən "Əsrin müqaviləsi" neft kontraktının imzalan-

masına, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru neft kəmərinin çəkilməsinə və beləliklə, Azərbaycanın iqtisadi imkanlarının yüksəlməsinə nail oldu.

AXC-Müsavat cütlüyünün "başı digər işlərə qarışdığından" görməyə imkan tapmadıqları zəruri prosesə də - sərbəst bazar iqtisadiyyatına keçidi təmin edən islahatlara da başladı və uğurla sona çatdırdı!

Yeni Konstitusiya hazırlanaraq dəbul edildi, özəlləşdirməyə dair iki dövlət proqramı icra olundu, yeni ordu quruculuğuna başlanıldı, qaçqın və məcburi köçkünlərə sistemli dövlət yardımı nizama salındı, beynəlxalq qurum və təşkilatlarla səmərəli əməkdaşlığa başlanıldı, Azərbaycan Avropa Şurasına üzv qəbul olundu, Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə cəhdlər göstərildi və s.

Ulu Öndər Heydər Əliyevin baş müəllifliyi ilə hazırlanan və qəbul olunan ölkənin yeni Konstitusiyasında Azərbaycanın daxili və xarici siyasətinin elmi əsasları, başlıca prinsipləri də müəyyənləşdirildi!

Bütün bu işlər böyük sürətlə, bacarıq və məharətlə, uzaqgörənliklə icra olundu!

Nəticədə həm də bu gün xalqımızın böyük məhəbbətlə "Heydər Əliyev siyasi kursu" adlandırdığı daimi inkişaf istiqamətləri müəyyənləşdirilərək dəqiqləşdirildi!

❖❖❖

Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin ikinci dövründə də genişmiqyaslı nəhəng işlər görsə də, onların bir çoxunu sona çatdırmağa ömür vəfa etmədi.

Odur ki, Azərbaycan xalqına məşhur müraciətində bu barədə də fikirlərini bildirdi:

"Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir... İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Azərbaycan xalqı və dövləti müdrik və sınanmış rəhbərinin vəsiyyət və tövsiyələrinə sədaqətlə əməl etdi.

Onun layiqli siyasi varisini dövlət başçısı seçdi!

İlham Əliyev çox ağır və çox məsuliyyətli bir missiyanı öz üzərinə götürdü!

Seçkilərdən dərhal sonra radikal müxalifətlə "5-ci kolon" birləşərək yenidən hakimiyyəti ələ almaq istədilər.

Lakin Heydər Əliyev məktəbinin yeganə "əyani tələbəsi" olmuş cənab İlham Əliyev bu sınaqdan şərəflə çıxdı.

Həm də sübut etdi ki, Ulu Öndər Heydər Əliyev kimi sonadək öz postunda oturaraq xalqı və dövləti xəyanətkarlardan mərdliklə xilas edəcəkdir!

Əvvəlkilər kimi heç yerə qaçıb getməyəcəkdir!

Bununla da Azərbaycanın yenə də qüdrətli və etibarlı əllərdə olduğunu bütün dünyaya əyani şəkildə göstərdi.

❖❖❖

Diqqəti Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqına vəsiyyətində İlham Əliyev haqqında söylədiyi bir məqama xüsusi cəlb etmək istərdik:

"O, müasir dünya siyasətini gözəl bilir".

Buna qədər Azərbaycan xalqı İlham Əliyevin millət vəkili, Milli Məclisin Avropa Şurasındakı deputat qrupunun rəhbəri və ARDNŞ-nin birinci vitse-prezidenti kimi "Əsrin müqaviləsi" adını almış neft kontraktının imzalanmasına xidmət edən danışıqlardakı fəaliyyəti ilə tanış idi.

Dövlət rəhbəri kimi nəyə qadir olduğunu hələ bilmirdi.

Prezident İlham Əliyev çox qısa müddətdə nəinki Azərbaycan xalqının etibarını doğrultdu, hətta dünyasəviyyəli, yeni tipli xarizmatik siyasi və dövlət xadimi olduğunu da təsdiq etdi!

❖❖❖

Bayaq qeyd etdiyimiz kimi, cənab İlham Əliyevin ilk universiteti Heydər Əliyev məktəbində uzun illər boyu əyani təhsil alması olub.

Sonra dünyaca məşhur Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu fərqlənmə diplomu ilə bitirib.

Bu gün də həmin ali təhsil ocağının fəxr edərək şəklini "Şərəf lövhəsi"ndə saxladığı məzunlar sırasındadır.

Atası qısqanclıq və paxıllıq səbəbindən yüksək vəzifəsindən ayrıldıqdan sonra təqiblər başladı və İlham Əliyev də dərs dediyi institutdan ayrılmaq məcburiyyətində qaldı.

Amma burada əldə etdiyi zəngin bilik, bir neçə dildə sərbəst danışmaq bacarığı ömrü boyu karına gəldi!

Təhsildə olduğu kimi, peşəkar siyasətçi və diplomatık fəaliyyətində də başqalarından çox irəlidə oldu, bilik və təcrübəsi ilə dövlətinə, xalqına böyük faydalar gətirdi!

❖❖❖

Dünya siyasətini dərindən bilmək təkcə bu gün baş verən proseslərdən baş çıxarmaq demək deyil!

Ən mühüm məsələlərdən biri hadisələri qabaqlamaq, mümkün variantları görərək onların hər birinə irəlicədən hazır olmaqdır!

Başqa sözlə, əsl siyasətçi sabah, o biri gün, hətta 5-10 il bundan sonra da nələrin baş verəcəyini düzgün proqnoz etməyi bacarmalıdır.

Təkcə öz maraqlarını güdməklə uğur qazanmaq çətindir.

Tərəfdaşlarının, əməkdaşlıq etmək istədiklərinin də maraqlarını nəzərə almalısan, maraqların ən səmərəli ortaq nöqtəsini düzgün müəyyən etməlisən.

Söhbət təkcə siyasi proseslərdən getmir.

Siyasətə bəziləri “iqtisadiyyatın çevrilmiş” forması da deyirlər.

İqtisadi inkişafın dünya dövlətlərini hansı vəziyyətə gətirəcəyini, kimin nəyə ehtiyac duyacağını bilməsi, onu zamanında qarşılamaq üçün qabaqlayıcı tədbirlərin görülməsi də vacibdir.

Prezident İlham Əliyevin "düşünülmüş siyasət" adlandırdığı gedişlər bütün bu məqamları, hətta daha artığını özündə ehtiva edir.

* Düşünülmüş siyasət üzün müddət üçün nəzərdə tutulur və dəqiq gedişlərə hesablanır.

* Düşünülmüş siyasət uzaqgörənlikdir, siyasi proseslərin haraya aparacağını irəlicədən müəyyənləşdirməkdir.

* Düşünülmüş siyasət müxtəlif zamanlarda görülən ayrı-ayrı işlərin vahid məqsədə xidmətinin təmin edilməsidir.

* Düşünülmüş siyasət təsadüflərdən yaranmır, əksinə, təsadüfi hadisələr baş verdikdə belə onlardan məqsədin uğurla reallaşdırılmasında səmərəli istifadə olunur.

* Düşünülmüş siyasət dünyada baş verən proseslərin diqqətlə izlənilməsi, mümkün nəticələrin irəlicədən nəzərə alınması, baş verə biləcək yeni situasiyalarda gərəkli gedişlərə hazır variantların mövcudluğudur.

* Düşünülmüş siyasət ən əvvəl yüksək bilik, zəngin təcrübə, analitik təfəkkür, çeviklik və rasionallıq tələb edir.

Biz İlham Əliyevin Azərbaycana iyirmiillik rəhbərliyi dövründə belə bir düşünülmüş siyasətin canlı şahidlərinə çevrildik!

* Azərbaycan heç zaman "qəfləti hadisələr"dən çıxılmaz vəziyyətə düşmədi!

Çünki hər zaman "gözlənilməzliklərə" hazır oldu!

* Azərbaycan heç zaman tutduğu siyasi xətti dəyişmədi, məqsədə doğru gedən yolda büdrəmələrə imkan vermədi!

Çünki bütün situasiyaları çox-çox qabaqcadan görməyi və nəzərə almağı bacardı!

Budur Azərbaycanı güclü və nüfuzlu dövlətə çevirən!

Budur Azərbaycanı Cənubi Qafqazda söz sahibi edən!

Budur Azərbaycanı dünyada sevdirən, ona etibarlı tərəfdaş, nüfuzlu əməkdaş adını qazandıran!

❖❖❖

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində uduzmağımız təkcə Birinci Qarabağ müharibəsində məğlub olaraq 20 faiz ərazi itkisi ilə nəticələnməmişdi.

Düşmənlərimiz Azərbaycandan torpaq qoparılmasına uzun müddət və hərtərəfli hazırlaşmış, havadarlarının köməyindən gen-bol bəhrələnmiş, irəlicədən xeyli "ideoloji hazırlıq" da aparmışdılar.

Hələ səksəninci illərdə SSRİ yaşayırdı, xaricə də, xarici mətbuat səhifələrinə və televiziya kanallarına da ümumittifaq qurumları vasitəsilə çıxış mümkün idi.

Ermənilərin imkanları isə bambaşqaydı.

Əvvəla, Qorbaçov və arvadı tərəfindən onlara lazımi dəstək verilirdi.

İkincisi, hətta sovet dövründən belə erməni kilsəsi və digər vasitələrlə xaricdəki erməni diasporları ilə sərbəst əlaqə saxlayırdılar.

Üçüncüsü, sovetin mərkəzi qəzetləri, xaricə çıxışı olan informasiya agentlikləri və mərkəzi televiziya kanalları ermənilərlə sıx əməkdaşlıq edir, onların bütün yalan və böhtanlarını yazır və yayırdılar.

İlkin mərhələdə ermənilər özlərini ictimai rəyə "vəhşi", "qaniçən" Azərbaycan xalqı tərəfindən hüquqları tapdalanan, dilənçi vəziyyətində yaşadılan, blokadaya alınaraq sıxışdırılan "zavallı millət", "məzlum xalq" kimi təqdim edə bildilər.

Naxçıvana gedən dəmir yolu xəttini kəsərək Naxçıvanda yaşayan əhalini blokadaya saldıqları halda ABŞ-dəki erməni diasporu vasitəsilə ABŞ Senatını azərbaycanlılar tərəfindən blokadaya alındıqlarına inandıraraq “Azadlığı Müdafiə Aktı”na 907-ci düzəlişin qəbuluna nail oldular!

Bir atalar məsəlində deyildiyi kimi: "Adımı sənə qoyum, səni də yana-yana qoyum!"

ABŞ tərəfindən Azərbaycana birbaşa yardımı qadağan edən bu düzəliş hələ də ləğv edilməyib!

Cənab İlham Əliyev həm AŞ PA-da Azərbaycan Milli Məclisinin deputat qrupuna rəhbərlik etdiyi müddətdə, həm də prezidentliyi dövründə erməni yalanlarının ifşası və əsl həqiqətlərin dünya ictimaiyyətinə çatırılması sahəsində çox inadlı, ardıcıl və səmərəli işlər gördü.

Prezident İlham Əliyevin ən böyük xidmətlərindən biri də Azərbaycanı və Azərbaycan xalqını dünyaya yeni imicdə, olduğu kimi təqdim etməsi və tanıtmasıdır.

Bundan ötrü bir çox vasitədən istifadə etdi:

* Azərbaycan cəmiyyətinin demokratikləşdirilməsi, insan hüquq və azadlıqlarının qorunması, mətbuat və söz azadlığının təmini, vətəndaş cəmiyyətinin formalaşdırılması, azad və demokratik seçkilərin keçirilməsi sahəsində görülən işlər və uğurlar beynəlxalq qurum və təşkilatlara çatdırıldı;

* "Hücum diplomatiyası" tətbiq olunaraq erməni yalanlarının ifşasında mühüm işlər görüldü;

* Azərbaycan I Avropa Oyunlarının təşəbbüsçüsü və təşkilatçısı olaraq yüksək standartlar səviyyəsində idman oyunlarını keçirməklə öz qapılarını dünyaya açdı;

* Uğur və nailiyyətlərini, qısa zamanda gördüyü möhtəşəm işləri ortaya qoydu;

* IV İslam Həmrəyliyi Oyunlarına da evsahibliyi etməklə beynəlxalq idman yarışlarını mütəşəkkil qaydada təşkil etməyi bacaran "idman dövləti" imicini qazandı!

* Hazırda dünya üzrə yarım milyard tamaşaçısı olan "Formula-1" yarışları yeddi ildir ki, paytaxt Bakıda keçirilir, azarkeşlər həmin yarışları izləməklə həm də müasir Azərbaycanla tanışlıq imkanı qazanırlar;

* Turizmin inkişafı təkcə gəlir gətirmir, həm də ölkəmizə gələn əcnəbi qonaqlar müstəqillik dövründə görülən işlərlə, xalqımızın adət-ənənələri, unikal mətbəxi, dini tolerantlığı ilə tanış olur, sülhpərvər və mehriban azərbaycanlıları gözləri ilə görürlər;

* Bakıya gələn turistlər İlham Əliyevin yenidən tikib-qurduğu paytaxtla bərabər, əmin-aman, təhlükəsiz, səmimi və gülərüz insanların yaşadığı bir məkanla da tanış olurlar.

❖❖❖

Azərbaycan Prezidenti İlham Əliyevin ən mühüm uğurlarından biri beynəlxalq təşkilatlara rəhbər seçilməsi, quruma rəhbərliyi dövründə yeni, daha müasir və fərqli siyasət yürütməsi, həmin qurumların nüfuzunu yüksəltməsi, fəaliyyətlərini gücləndirərək onlara yeni nəfəs verməsidir.

İrəlicədən qeyd edək ki, cənab İlham Əliyevin beynəlxalq qurumlara rəhbərliyi zamanı atdığı uzaqgörən və cəsarətli addımlar onun müasir dünya siyasətini dərindən bildiyinin bir daha təsdiqinə çevrildi.

İlham Əliyev xaraktercə güclü, iradəli, cəsarətli və döyüşkən bir insandır!

Sözünü deməyi, mövqeyini sonadək və qətiyyətlə müdafiə etməyi yaxşı bacarır.

Azərbaycan 2012-ci ildə 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına sədr seçildi.

Əslində, bu həm də Azərbaycanın beynəlxalq nüfuzunun və hörmətinin növbəti təsdiqi idi.

İlham Əliyev təşkilatın iclasına sədrliyi dövründə bu yüksək tribunadan təkcə Azərbaycanın maraqlarını, erməni yalanlarının ifşası və əsl həqiqətlərin dünyaya çatdırılması vasitəsi kimi istifadə etmədi.

Dünyada baş verən mənfi proseslərdən, inkişaf etməkdə olan ölkələrin problemlərindən, bəşəriyyəti gözləyən təhlükələrdən söz açdı, onların qarşısının alınması, köməyə ehtiyacı olan ölkələrə yardım göstərilməsi üçün səmərəli təkliflər verdi.

Azərbaycan Prezidenti BMT-nin tribunasından istifadə edərək BMT-də islahatlar aparılmasının vacibliyini, onun veto hüququna malik daimi üzvlərinin sayının artırılmasının, qəbul etdiyi qətnamələrin icrasına nail olması mexanizminin hazırlanması zamanının çatdığını da göstərdi və əsaslandırdı.

Onun bu mövqeyi müstəmləkəçilik qalıqlarından əziyyət çəkən, güclü dövlətlərin istismarına məruz qalan, daim köməyə ehtiyac duyan dövlətlər tərəfindən yüksək qiymətləndirilərək bəyənildi, Azərbaycana rəğbət bəsləyənlərin sayını əhəmiyyətli dərəcədə artırdı.

İlham Əliyev həm də birləşdirici liderdir, dövlətlər və dövlət başçıları arasında xoş münasibət, dostluq əlaqələri yaratmağı bacarır.

Onun İslam Əməkdaşlıq Təşkilatına rəhbərliyi zamanı bu keyfiyyətlərinin bir daha şahidi olduq.

İslam ölkələri dünyanın əsas neft istehsalçıları və ixracatçıları sayılırlar.

Strateji məhsul olan neft və təbii qaz dünya iqtisadiyyatına, deməli, həm də dolayısı yolla dünya siyasətinə də təsir göstərə bilir.

Odur ki, aparıcı dövlətlər islam dövlətləri ilə münasibətlərə xüsusi diqqət yetirirlər, onları öz təsirləri altında saxlamağa çalışırlar.

Bu məqsədlə "parçala, hökm sür" siyasətinin yeni variantlarını tətbiq edirlər, "ərəb baharı" və "rəngli inqilab"lar törədirlər.

Nəticədə müsəlman dövlətlərini bir-birinə qarşı qoyur, aralarına düşmənçilik toxumu səpir, bir mövqedən çıxış etmələrinə, birgə olmalarına imkan vermirlər.

Hətta bir-biriləri ilə müharibə edən, müharibə vəziyyətində olan müsəlman dövlətləri də vardır!

İlham Əliyevin İƏT-ə rəhbərliyi dövründə yürütdüyü siyasətin mahiyyəti birlikdə olmağa, keçmişdəki narazılıq və inciklikləri arxada qoyaraq irəli-

yə baxmağa, maraqları uzlaşdırmaqla əməkdaşlıq əlaqələri qurmağa xidmət edirdi.

Müəyyən uğurlu nəticələr də oldu.

Azərbaycan ərəb dövlətləri ilə əməkdaşlığa, onlarla ticarət əlaqələrinin genişləndirilməsinə, qarşılıqlı investisiyaların yatırılmasına xüsusi diqqət yetirir. Son illərdə bu sahədə xeyli irəliləyiş baş vermişdir.

Türk Dövlətləri Təşkilatının (İlkin adı Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası olub) əsası hələ 1992-ci ildə türkdilli dövlətlərin liderləri tərəfindən qoyulmuşdur.

Amma işlək qurum deyildi!

3 oktyabr 2009-cu ildə isə Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan tərəfindən Naxçıvanda imzalanan müqavilə əsasında beynəlxalq təşkilata çevrildi.

Uzun müddət fəaliyyəti hiss olunmayan bu təşkilat Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın birgə səyi ilə işlək və səmərəli fəaliyyət göstərən bir quruma çevrildi.

Təşkilatın yeni mərhələyə qədəm qoyması əsasən 2021-ci ildə İstanbul Zirvə görüşü ilə başlanır. Bu tədbirdə təşkilatın adı dəyişdirilərək Türk Dövlətləri Təşkilatı (TDT) qoyuldu və Türkmənistan quruma müşahidəçi üzv kimi qoşuldu.

Bu toplantıda TDT-nin Ağsaqqallar Şurası yaradıldı və Türk İnvestisiya Fondunun təşkili məsələsi irəli sürüldü.

800 milyard dollarlıq xarici ticarət həcmi, 200 milyondan çox əhalisi, 5 milyon kvadratkilometr ərazisi, 8 dövlətdən ibarət olan bu təşkilatın üzvləri arasındakı ticarət cəmi 24 milyard dollar təşkil edir.

Azərbaycan Prezidenti İlham Əliyevin uzunmüddətli və gərgin fəaliyyəti sayəsində tezliklə işə düşəcək Orta dəhliz təşkilatdaxili əlaqələrin güclənməsinə, ticarət həcminin yüksəlməsinə, qarşılıqlı faydalanma əmsalının artırılmasına imkan yaradacaqdır.

14 yaşlı bu təşkilat məqsəd və prinsiplərinə uyğun olaraq bir sıra daxili qurumlar - Türkdilli Ölkələrin Parlament Assambleyası (Türk PA), Beynəlxalq Türk Akademiyası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Türkdilli

Dövlətlərin Ticarət və Sənaye Palatası və Türk Biznes Şurasını yaratmaqla əməkdaşlığın yeni formalarından səmərəli istifadə edir.

Fəaliyyətinin yeni mərhələsinə qədim qoymuş bu qurumun dünya siyasətinə təsir imkanlarını yüksək qiymətləndirən cənab İlham Əliyev Azərbaycanın üzv ölkələrlə əlaqələrinin bütün sahələrdə möhkəmləndirilməsini xarici siyasətimizin prioritetlərindən biri kimi göstərir.

TDT-nin Səmərqənddə keçirilən IX Zirvə görüşündəki çıxışında İlham Əliyev əməkdaşlığın vacibliyinə toxunaraq demişdir: "Türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edir və böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və müasir hərbi imkanlara malikdir. Türk dünyası böyük bir ailədir. Bir-birimizin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməliyik. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal, transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığımızı fəallaşdırmalıyıq".

İlham Əliyev yeni tipli xarizmatik siyasətçi olmaqla yanaşı, hadisələrin gedişatını önləməyi, vaxtında atdığı addımlarla ölkəmizə qarşı yönəlik təhdid və təhlükələri irəlicədən zərərsizləşdirməyi də bacarır.

Maraqlı bir məqam.

Özlərini lovğalıqla "məğlubedilməz xalq" adlandıran ermənilər müharibə başlayacağı təqdirdə daha çox havadarlarına və müdafiəçilərinə güvənirdilər.

Xüsusən KTMT-yə arxalanır və inanırdılar ki, müharibə başlayacağı təqdirdə bu qurum hadisələrə aktiv müdaxilə edərək onların əvəzinə döyüşəcək, torpaqları əbədi işğalda saxlamalarına kömək edəcəkdir.

44 günlük Vətən müharibəsi dövründə Hayastan dəfələrlə KTMT-ni köməyə çağıraraq məğlubiyyətlərinin qarşısını almağa cəhdlər etdi.

Lakin İlham Əliyevin hələ illər öncə bu variantı görməsi, KTMT-yə üzv dövlətlərlə (onların bir qismi TDT-yə də üzvdür) bağladığı müqavilələr, yaratdığı dostluq və sıx əməkdaşlıq münasibətləri hayların bu arzusunu ürəklərində qoydu!

Azərbaycanla dostluq və əməkdaşlıq edən Özbəkistan, Qazaxıstan və Belarus ölkəmizə qarşı döyüşməyəcəklərini, hətta KTMT Qarabağ müharibəsinə

müdaxilə etsə də belə, həmin hərbi əməliyyatlarda iştiraka öz ordularının qarışmasına yol verməyəcəklərini irəlicədən bəyan etdilər.

Digər bir məqam.

Türk Dövlətləri Təşkilatına üzv dövlətlər nəinki heç bir halda Azərbaycana qarşı döyüşməyəcəklərini bəyan etdilər, üstəlik, 2021-ci il İstanbul Zirvə görüşündə Azərbaycan ərazilərinin işğaldan azad edilməsini və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən, habelə bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi qələbəyə görə Prezident İlham Əliyevi "Türk Dünyasının Ali Ordeni" ilə təltif etdilər.

❖❖❖

* Bilik əməli fəaliyyətdə təsdiqini taparaq həqiqiliyini və dərinliyini sübut edir!

* Bilik praktikada yoxlanılaraq yüksək nəticəyə nail olmaqla təcrübəyə də çevrilir!

* Bilikli və təcrübəli insanların gördükləri iş dəyərli və gərəkli olur!

Belə insanlar həm dünya siyasətçiləri və liderləri, həm də geniş xalq kütlələri tərəfindən məhəbbətlə qəbul edilərək inam və etibar qazanırlar.

Onlar həm də yeni dövrün yeni lideri statusuna da yiyələnirlər.

Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatına rəhbərliyi bütün bu deyilənlərin məcmusuna və təsdiqinə çevrildi!

Halbuki bu qurum İlham Əliyevədək:

* Qoşulmama Hərəkatı üzv dövlətlərin sayına görə BMT-dən sonra ikinci təşkilat hesab olunsa da, real nüfuzu və təsir gücü baxımından axırıncı yerlərdən birini tuturdu;

* Qoşulmama Hərəkatı digər güclü təşkilatlara üzv ola bilməyənlərin yeri sayılırdı;

* Qoşulmama Hərəkatı böyük iqtisadi və hərbi gücə malik olmadığından onu dinləmək və eşitmək istəyənlərin sayı da çox az idi;

* Qoşulmama Hərəkatı hətta öz gücünü və imkanlarını da lazımınca qiymətləndirməkdə çətinlik çəkirdi!

İlham Əliyev bu təşkilata yeni nəfəs və güc verdi!

İlham Əliyev bu təşkilatın rolunu və imkanlarını qurumun özünə və özgələrinə əyani şəkildə göstərdi!

İlham Əliyev bu təşkilatı həm daxilən möhkəmləndirdi, həm də xarici nüfuzunu yüksəltdi!

İlham Əliyev bu təşkilatın imzasını imzalar içində göstərməyi bacardı, onu görməyi və nəzərə almağı hamıya qəbul etdirdi.

Cənab İlham Əliyevin bu quruma rəhbərliyi çox ağır və mürəkkəb bir dövrə təsadüf etdi!

Əvvəla, dünya COVID-19 adlı bir qorxulu, yoluxucu xəstəliyə düçar olaraq başını itirmişdi və bu bəladan necə qurtaracağını kəsdirmirdi!

İkincisi, pandemiya təhlükəsi insanların istədikləri vaxt bir yerə toplaşaraq nəyi isə müzakirə etməyə, fikir mübadiləsi aparmağa, hansısa tədbirlər görməyə yol vermirdi!

Üçüncüsü, onlayn görüş və iclasların keçirilməsi, qəbul edilən qərarların icrası asan deyildi!

Dördüncüsü, üçüncü dünya müharibəsinin başlanması, dünyanın əsas diqqətinin bu müharibəyə yönəlməsi vəziyyətin ağırlığını daha da artırırdı.

Cənab İlham Əliyevin biliyi, bacarıq və təcrübəsi, hadisələri irəlicədən müəyyən edərək vaxtında zəruri addımlar atması Qoşulmama Hərəkatına yeni nəfəs, güc və təsir imkanları verdi.

Qurumun özünə, eyni zamanda başqalarının da ona inamı artdı, möhkəmləndi!

❖❖❖

Azərbaycan Qoşulmama Hərəkatı ölkələrinin yekdil rəyi əsasında 2019-2022-ci illər üçün bu quruma sədr seçildi!

Azərbaycanın rəhbərliyi dövründə İlham Əliyevin gördüyü işləri bəyənərək yüksək qiymətləndirən təşkilat üzvləri onun fəaliyyət müddətini daha bir il uzatdılar.

Əslində, Azərbaycan quruma daha ilyarım başçılıq etməli oldu.

Dünyada ikili standartların hökm sürdüyü, güclülərin öz iradələrini zəiflərə zorla qəbul etdirdiyi bir vaxtda cənab İlham Əliyev quruma rəhbərliyini ədalət və beynəlxalq hüququn prinsipləri əsasında həyata keçirərək bu sahədə də yeni nümunə yaratdı!

Belə ki, İlham Əliyev əvvəldən sonadək öz fəaliyyətini "Banduq prinsipləri" əsasında qurmaqla, ədaləti və beynəlxalq hüququ uca tutmaqla üzv ölkələrin qanuni maraqlarını inam və qətiyyətlə müdafiə etdi!

Görünən bu idi ki, beynəlxalq ictimaiyyət COVID-19 pandemiyası ilə mübarizədə başını itirdiyi bir zamanda Qoşulmama Hərəkatı misli görünməmiş bir çağırışla bəlaya qarşı mübarizədə qlobal səyləri birləşdirməyə və daha effektli çalışmağa nail oldu.

BMT-nin Qoşulmama Hərəkatından daha stajlı və təcrübəli olmasına baxmayaraq, bu mötəbər qurum da Azərbaycanın rəhbərliyi dövründə Qoşulmama Hərəkatından bəzi şeyləri əxz edə bildi.

Belə ki, 2020-ci ilin mayında Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatının liderlər səviyyəsində ilk dəfə onlayn sammiti keçirildi.

Bundan bir neçə ay sonra - 2020-ci ilin dekabrında isə BMT Baş Assambleyasının onlayn qaydada xüsusi sessiyası baş tutdu.

COVID-19 pandemiyası dövründə uzun axtarışlardan sonra xüsusi peyvənd tapılan zaman ondan dərhal tələbatı ödəyəcək qədər istehsal etmək və ehtiyacı olanların hamısına çatdırmaq mümkün olmadı.

Belə vəziyyətdən istifadə edən varlı və sözükeçən dövlətlər isə nəinki öz ehtiyaclarını ödəyəcək qədər, hətta ondan daha artıq vaksin alaraq ölkələrinə daşıdılar.

Əvəzində isə zəif və imkansız ölkələr peyvənd əldə edə bilmədiklərindən pandemiyada daha ağır itkilərə məruz qaldılar.

Cənab İlham Əliyev bunu "peyvənd millətçiliyi" adlandıraraq hiddətlə qınadı, yolverilməz olduğunu açıq şəkildə bəyan etdi.

Üstəlik, belə ədalətsizlikdən əziyyət çəkən dövlətlərə peyvəndlə, habelə vəsaitlə yardım göstərilməsini təmin və təşkil etdi.

Azərbaycan özü də ÜST-yə 10 milyon ABŞ dolları ayırmaqla həmin ölkələrə dost əlini uzatdı.

Qoşulmama Hərəkatının gücünün və imkanlarının artırılması üçün onun institusional inkişafı da zəruri idi.

Cənab İlham Əliyev bu sahədə də islahat və yeniliklərə nail oldu.

Dəyişikliklər sürətlə və peşəkarlıqla aparıldı.

Belə ki, 2021-2022-ci illərdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Qoşulmama Hərəkatı Gənclər Təşkilatının yaradılması qurumun və onun sədri olan Azərbaycanın uğur və nailiyyəti sayıla bilər.

Qarşıda Qoşulmama Hərəkatının qadınlar platformasının yaradılması vəzifəsi dayanır.

Prezident İlham Əliyev hələ 2012-ci ildə BMT Təhlükəsizlik Şurasına rəhbərliyi dövrdə qəbul etdiyi qərar və qətnamələrin icrasına "seçmə üsulu" ilə yanaşan, ikili standartlardan yaxa qurtara bilməyən bu ali orqanda islahatların vaxtı çatdığını açıq şəkildə söyləmişdi.

Artıq dünyanın bir çox siyasətçisi və lideri də eyni fikrə gələrək BMT-də ciddi islahatların vaxtının çatdığını bildirirlər.

Cənab İlham Əliyevin təbirincə desək, "BMT Təhlükəsizlik Şurası keçmişin qalığıdır və hazırkı reallıqları əks etdirmir".

Rusiya-Ukrayna müharibəsi BMT-nin daimi üzvləri arasında qarşıdurma və ziddiyyət yaradıb.

Burada normal müzakirələrin aparılması və obyektiv qərarların qəbulu sual altındadır.

Azərbaycan Prezidenti İlham Əliyev bu ilin 5 iyununda Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər səviyyəsində görüşü zamanı bu tələbi açıq və qəti şəkildə qoydu: "BMT Təhlükəsizlik Şurasında Qoşulmama Hərəkatına bir daimi yer verilməlidir. Zənnimcə, Qoşulmama Hərəkatına, İslam Əməkdaşlıq Təşkilatına və Afrika İttifaqına sədrlik edən ölkələr BMT Təhlükəsizlik Şurasına veto hüququ ilə rotasiya əsasında yer almalıdırlar".

❖❖❖

Dünya siyasətini dərindən bilmək, əslində, dünyada gedən proseslərdən dərhal və dərindən baş çıxarmaq, hadisə və olayları obyektiv təhlil etməyi bacarmaq, düzgün proqnozlar vermək və doğru nəticəyə gəlməkdir!

İlham Əliyev beynəlxalq təşkilatlara və Azərbaycana rəhbərlik etdiyi iyirmi il ərzində bu istedad və qabiliyyətini dəfələrlə göstərmişdir.

Ona dünyada dərin hörmət və nüfuz qazandıran əsas amillərdən biri də məhz budur!

Rusiya-Ukrayna müharibəsi ilə, əslində, üçüncü dünya müharibəsi başlanıb!

Hamı etiraf edir ki, sonda bu müharibə yeni dünya düzəninin yaranmasına gətirib çıxaracaqdır.

İkinci Dünya müharibəsi ilə əlamətlər də üst-üstə düşür.

O vaxt Avropanı Hitlerin işğalından xilas etmək və faşizmdən yaxa qurtarmaq üçün dövlətlər birləşərək anti-Hitler koalisiyasını yaratdılar.

Bu gün NATO ölkələrinin simasında Rusiyaya qarşı koalisiya yaradılıb.

Ukrayna canlı qüvvəsi, NATO isə silah-sursatı ilə Rusiyaya qarşı vuruşur.

Yalnız cənab İlham Əliyev həqiqəti ucadan söyləyərək üçüncü dünya müharibəsinin başlandığını bildirdi.

Hadisələrin gedişatı da bu qiymətləndirmənin dürüstlüyünü təsdiq edir.

İlham Əliyev dünyanı fəlakətdən qurtarmağın yollarını konkret formada göstərir.

Əslində, İlham Əliyev dünyanın özü tərəfindən müəyyənləşdirilən prinsiplərə qayıdılmasının zəruriliyini bildirir.

Həmin prinsiplər isə "Bandunq prinsipləri" adlanır.

Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin hazırlanması və imzalanmasında da bu beynəlxalq prinsiplər əsas götürülmüşdür.

Həmin prinsiplərə bir daha birlikdə nəzər salaq:

* Dövlətlər bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıyırlar;

* Bir-birinə ərazi iddialarının olmadığını bəyan və təsdiq edirlər;

* Dövlətlərarası münasibətlərdə bir-birinin təhlükəsizliyinə təhdid törətmir, gücdən istifadədən çəkinirlər;

* Sərhədlərin delimitasiyası və demarkasiyası aparılır, diplomatik əlaqələr qurulur;

* Nəqliyyat və kommunikasiya əlaqələri yaradılır.

Xüsusi vurğulanmalıdır ki, cənab İlham Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə xarici siyasətində daim "Bandunq prinsipləri"nə əməl etmişdir.

❖❖❖

Azərbaycan özünün ən çətin və mürəkkəb problemini uğurla həll etmiş, otuz il işğal altında qalan torpaqlarını 44 günlük Vətən müharibəsi ilə geri qaytarmışdır.

Azərbaycanın hərbi yola əl atmasının başlıca səbəbi otuz il ərzində BMT Təhlükəsizlik Şurasının 4 məlum qətnaməsinin icrasız qalması, ATƏT-in

Minsk qrupunun danışıqları imitasiya edərək dişsiz və nəticəsiz fəaliyyəti, ikili standartların mövcudluğu və işğalçıya qarşı heç bir sanksiyanın tətbiq edilməməsi, habelə Ermənistanın işğal etdiyi əraziləri sülh yolu ilə geri qaytarmaqdan müxtəlif bəhanələrlə boyun qaçırması olmuşdur.

Bütün bunları aydın görən cənab İlham Əliyevin müstəqil Azərbaycanı iqtisadi cəhətdən gücləndirməsi, beynəlxalq qurum və təşkilatlarda səmərəli fəaliyyət göstərərək ölkəmizin haqq işini dəstəkləyənlərin sayını artırması, habelə ən yeni silahlarla silahlandırılaraq ən yeni strategiya və taktika əsasında vuruşmağa qadir ordu qurmasıdır.

Yeri gəlmişkən, İlham Əliyev uzaqgörənliyinin daha bir real faktını diqqətə çatdırırıq.

44 günlük Vətən müharibəsi dövründə Ermənistanın "böyük bacısı" və "fədakar hamisi" Fransa BMT Təhlükəsizlik Şurasının iclasını çağırtdıraraq Azərbaycanın əleyhinə yeni qətnamə (əvvəlkilərə istinad edilməyən) qəbul olunmasına təşəbbüs göstərdi.

Lakin Azərbaycanın Qoşulmama Hərəkatından olan dostları belə ədalətsiz və subyektiv hərəkətin qarşısını qətiyyətlə aldılar.

İlham Əliyev hələ də ölkəmizə qarşı təhdid və təhlükələrin mövcudluğunu göstərir, eyni zamanda bununla bağlı Azərbaycanın daim zəruri addımlar atdığını, öz maraqlarını qorumaq və müdafiə etmək iqtidarında olduğunu bəyan edir.

Onun fikirlərindən müəyyən çıxarışlara birlikdə nəzər salaq:

* "Dünyada qaydalar tamamilə pozulub, davranış qaydalarına, beynəlxalq hüquqa əməl edilmir. Biz, demək olar ki, bunu hər gün görürük, hər gün. Böyük dövlətlər, hansılar ki, beynəlxalq hüququn təminatçısı rolunu öz üzərlərinə götürüblər, birinci onlar bu hüququ pozurlar və sonra da onu əsaslandırırlar. Ölkələr deyəndə, mən bütün böyük ölkələri nəzərdə tuturam.

* Ölkəmizin qüdrətini artırırıq. Çünki bu gün dünyada güc amili ön plandadır və güclə hesablaşırlar, gücdən çəkinirlər. Biz son iki il yarım ərzində bir neçə dəfə bunu bir neçə ünvana göstərmişik və heç kim bizim iradəmizə təsir edə bilməz.

* Azərbaycan xalqı əmin ola bilər ki, bizim təhlükəsizliyimiz etibarlı əllərdədir. Azərbaycan xalqı bundan sonra rahat yaşaya bilər və yaşamalıdır.

* Bizim istədiyimiz təkcə böyük yükləri aşıran tranzit ölkə olmaq deyil. Bizim istəyimiz odur ki, bu nəqliyyat marşrutları üzərində istehsal sahələri yaradılsın, biznes imkanları yaradılsın, sərmayə qoyulsun".

❖❖❖

İlham Əliyevin ən böyük uzaqgörənliyinə və hadisələri qabaqlama məharətinə nümunə Azərbaycan və Avropa İttifaqı arasında yaranmış sıx və etibarlı əməkdaşlıq münasibətləridir.

Azərbaycan heç zaman Avropa İttifaqına üzv olmaq niyyətinə düşməyib!

Cənab İlham Əliyev bu "xristian klubu"nda Türkiyə və Azərbaycana yer olmadığını yaxşı bilir!

Başqa bir mühüm səbəb isə Avropa İttifaqına üzv olmaq üçün qurum tərəfindən namizədə əməl etməsi tövsiyə olunan şərtlərdir.

Həmin şərtləri İlham Əliyev belə dəyərləndirib:

* İrəli sürülən şərtlər, əslində, namizədin boynuna birtərəfli qaydada ağır yük qoyur!

* Öz üzərinə heç bir öhdəlik götürmədən üzv olmaq istəyənləri müəyyən tələbləri məcburən yerinə yetirməyə vadar etmək ədalətli sayıla bilməz!

Müxtəlif şərt və bəhanələrlə uzun müddət Türkiyəni qapı ağzında gözlətmək deyilənlərin təsdiqidir!

Azərbaycan Prezidenti heç zaman Aİ-yə üzv olmağa can atmasa da, atdığı unikal addımlar sayəsində Avropa İttifaqı ilə Azərbaycan arasında xüsusi əməkdaşlıq münasibətləri formalaşıb.

Bu münasibətlər hər iki tərəfi tam qane edir!

Xüsusən də indiki zamanda, Aİ-nin Rusiya qazından imtina etməsi və Ukrayna ilə müharibə səbəbindən Rusiyaya çoxsaylı sanksiyaların tətbiq olunduğu şəraitdə!

Bu məqamda Ulu Öndər Heydər Əliyevin İlham Əliyev haqqında söylədiyi fikrin ikinci hissəsi - dünya iqtisadiyyatını gözəl bilməsi də öz təsdiqini tapır!

❖❖❖

Ulu Öndər Heydər Əliyev Azərbaycanın gələcək inkişafını təmin edəcək transmilli layihələrin gerçəkləşdirilməsinin də əsasını qoydu.

AXC-Müsavat cütlüyünün şəxsi maraqlarını öndə tutmaları səbəbindən neft kontraktlarını imzalaya bilməmələri məlum faktdır.

Ümummilli Liderimiz dünyanın aparıcı dövlətlərinin maraqlarını ölkəmizin maraqları ilə uzlaşdırmağa, Azərbaycanın riskli dövrdə yaşamasına baxmayaraq, şəxsi nüfuzu sayəsində xarici investisiyaların cəlbinə nail oldu!

Üstəlik, Azərbaycan nefti ilk dəfə qeyri-ənənəvi marşrutla dünya bazarına çıxarıldı!

Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərindən sonra Bakı-Tbilisi-Ərzurum qaz kəməri çəkildi.

Maliyyə çətinliklərinə baxmayaraq, cənab İlham Əliyev Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilişini, "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin işə salınmasını təmin etdi, dünya okeanına çıxışı olmayan Azərbaycanı beynəlxalq logistika mərkəzinə, Xəzərdə ən böyük mülki donanma sahibinə çevirdi!

Hazırda Zəngəzur dəhlizinin açılmasına və Orta dəhlizin işə salınmasına ciddi hazırlıqlar gedir.

Azərbaycan Prezidenti İlham Əliyevin 22 iyul 2023-cü ildə Çin telekanalına müsahibəsindən bir cümləni xatırlatmaq istərdik:

"30 il ərzində dünya dəyişib, lakin bizim başlıca məqsədlərimiz dəyişməz olaraq qalıb - dövlətçiliyimizin möhkəmləndirilməsi, qabaqlayıcı tədbirlər görməklə milli maraqlarımıza əsaslanan fəal xarici siyasətin yürüdülməsi və Azərbaycanın iqtisadi, siyasi inkişafı".

* Sanki İlham Əliyev Rusiya ilə Ukrayna arasında müharibə olacağını qabaqcadan dəqiqliklə bilirdi;

* Sanki İlham Əliyev Avropa dövlətlərinin Rusiya neftindən və qazından imtina edəcəklərini qabaqcadan proqnozlaşdırmışdı;

* Sanki İlham Əliyev Avropa İttifaqının Azərbaycanın təbii qazına və "yaşıl enerji"sinə ciddi ehtiyac duyacağını irəlicədən görürdü.

Hazırkı reallıq budur ki, TAP və TANAP genişləndiriləndən, "Cənub qaz dəhlizi" işə salınandan sonra Avropa bu sahədə Azərbaycanla ciddi və geniş əməkdaşlığa başladı!

"Yaşıl enerji" istehsalına start verilməsi isə birbaşa İlham Əliyevin adı ilə bağlı möhtəşəm layihələrdəndir.

Müzəffər Ali Baş Komandan Qarabağ müharibəsini zəfərlə başa vuraraq torpaqları işğaldan azad etdikdən sonra buradakı su resurslarından səmərəli istifadə etməklə modul tipli elektrik stansiyalarında enerji istehsalını qısa müddətdə qaydaya salmağı bacardı.

Bərpa, olunan enerji növləri hesabına təkcə Qarabağda və Şərqi Zəngəzurda deyil, Abşeronda və Naxçıvanda da "yaşıl enerji" istehsalı sürətlə yoluna qoyulur.

Bu məqsədlə ölkəmizə xeyli miqdarda xarici investisiya da cəlb olunmuşdur.

Artıq "yaşıl enerji"nin Avropaya ixracı üçün Qara dənizin dibi ilə yeni kabel xətti çəkilişi də reallığa çevrilməkdədir!

❖❖❖

İlham Əliyev siyasətinin ən böyük üstünlüyü onun sözü ilə əməlinin bir olmasıdır!

İlham Əliyev Azərbaycana qarşı qərəzli, düşmən münasibəti bəsləyənlərə qarşı nə qədər sərt və barışmazdırsa, Azərbaycanın dostları ilə bir o qədər mehriban və səmimidir.

İlham Əliyev ölkənin milli maraqlarını qorumaqla ona dostlar qazandırmağı və həqiqi dostlarımızın sayını daim artırmağı da yaxşı bacarır.

İlham Əliyev bu gün həm siyasətçi, həm diplomat, həm də bir sərkərdə olaraq qalibdir!

Hazırda Azərbaycan Böyük qayıdışa ciddi hazırlıq görür, bu sahədə dost ölkələrin imkanlarından da bəhrələnir.

Böyük qayıdış proqramına əsasən, birinci mərhələdə 8 şəhər və 100 kənd yenidən qurulacaq, 2026-cı ilə qədər təkcə Qarabağ regionuna 140 min nəfərin qaytarılması təmin ediləcəkdir.

Bütün bunlar böyük vəsait və quruculuq işləri tələb edir!

Bu istiqamətdə görülən işlərin əsas ağırlığı dövlət başçısının çiyinlərindədir!

Dövlət başçımız daim xalqa verdiyi sözü tutub, vədini yerinə yetirib!

Böyük qayıdışın tam reallaşacağı kimsədə zərrə qədər şübhə doğurmur!

❖❖❖

Azərbaycan dünyada öz yolu olan dövlətdir!

Bu yol Heydər Əliyev yolu adlanır!

Bu yol islahatlardan və möhtəşəm quruculuqdan keçən yoldur!

Bu yol 44 günlük Vətən müharibəsində xalqımıza zəfər qazandıran yoldur!

Bu yol inkişaf və quruculuq, qələbələr yoludur!

Bu yol dostluq, əməkdaşlıq yoludur!

Bu yol Azərbaycan xalqını daim öz hədəflərinə, yüksək rifaha çatdıran yoldur!

Bu yol həm də İlham Əliyev yoludur!

***3-5 oktyabr 2023-cü il***

## MÜNDƏRİCAT

Müəllifdən . . . . . . . . . . 3

### *I Fəsil*
### *MÜZƏFFƏR KOMANDAN*

Qüdrətin nümayişi . . . . . . . . . . 7
Qələbə müjdəli müraciətlər . . . . . . . . . . 13
Şanlı qələbə . . . . . . . . . . 20
Türk dünyasının Zəfər Komandanı . . . . . . . . . . 31
Ləyaqətli müharibə. . . . . . . . . . 35
Əsl rəhbər, qüdrətli sərkərdə . . . . . . . . . . 38
Zəfərin təməli . . . . . . . . . . 46
"Dəmir yumruq" Laçın şəhərindədir . . . . . . . . . . 54
"Dəmir yumruğ"un qətiyyətli və sarsıdıcı cavabı . . . . . . . . . . 60
"Dəmir yumruğ"un düyünləndiyi gün . . . . . . . . . . 62
Dedi və etdi! . . . . . . . . . . 68
Qüdrətli Komandanın möhtəşəm Zəfəri . . . . . . . . . . 74
Sınaqlarla dolu Zəfər yolu . . . . . . . . . . 83
"Dəmir yumruğ"un hikməti . . . . . . . . . . 91
İki müharibə... ...və onların ibrət dərsləri . . . . . . . . . . 96
Qarabağ probleminin həll olunduğu məkan - Qarabağ . . . . . . . . . . 110
Məğlubiyyəti məğlub edən əbədi qalib . . . . . . . . . . 114
Qapını bağladıq, açarı da cibimizdədir! . . . . . . . . . . 120
Qəhrəmanlar ordusu . . . . . . . . . . 124

## *II Fəsil*

### *QLOBAL LİDER*


Şuşa Bəyannaməsi - sülh bəyannaməsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 131
İndi şərti diktə edən İlham Əliyevdir! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 135
Artan güc, qüdrətli ordu, dəyişdirilmiş reallıq,
hərtərəfli hazırlıq, dəqiq hədəflər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 143
Möhtəşəm fəaliyyətlə qazanılan yüksək nüfuz . . . . . . . . . . . . . . . . . . . 153
Köhnə bayatılar köməyə gəlmir. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 157
Müstəqil siyasət yürütmək qüdrəti. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 163
İlham Əliyevdən daha bir dərs . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 170
Dünyanın həsəd apardığı dostluq və qardaşlıq . . . . . . . . . . . . . . . . . . . 174
Dostunu mənə göstər, kim olduğunu sənə deyim . . . . . . . . . . . . . . . . . 181
Qalibin məğlublara yeganə şərti . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 189
Səbrimizi sınağa çəkməyin! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 205
Yeni intibah dövrünün müəllifləri və ayrılmaz dostlar . . . . . . . . . . . . . . . 208
Məğlub dövlət və məğlub xalq öz seçimində tələsməlidir . . . . . . . . . . . . 214
Güclü siyasi iradə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 221
Hayastanın hiyləgər gedişləri. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 226
İradə, cəsarət, əminlik nümunəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 233
Azərbaycan həqiqətləri və erməni yalanları . . . . . . . . . . . . . . . . . . . . . . 239


## *III Fəsil*

### *QURUCU RƏHBƏR*


Ağdamı düşməndən geri alan onu həm də tikib-quracaqdır . . . . . . . . . . . 251
Yeni Qarabağın baş qurucusu. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 264
Salam, Ağdam! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 273
İlham Əliyevin hədəfləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 278

Əziz Şuşa, biz qayıtmışıq! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 284
Dünya Şuşaya baxır . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 292
Ağdamın yeni intibahı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 295
Qapısız açarlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 303
İlham Əliyevin sərkərdəliyi və rəhbərliyi ilə
"ruhlar şəhəri" dünya şəhərinə çevrilir . . . . . . . . . . . . . . . . . . . . . . . 315
Möhtəşəm inkişafın uğurlu illəri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 321
Xilaskar, qurucu, birləşdirici Lider . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 331
Sülhməkrlilərə sülhsevərlərin dərsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 336
Yeni büsatın mübarək, torpağım! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 342
Prezident göstəriş verir... . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 347
İllərlə dağıdılıb, günlərlə tikilib-qurulan Ağdam. . . . . . . . . . . . . . . . . . . . 358
Möhtəşəm xilaskarlıq missiyası . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 364
Ruhumuzun paytaxtı Şuşa . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 372
Torpağın gücü . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 376

***IV Fəsil***
***DAİM XALQLA BİRLİKDƏ***

Xalqa xidmətin möhtəşəm nümunəsi. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 385
Ucalan və ucaldan rəhbər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 392
Keçmişdən ayrılarkən . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 414
İlahi ədalət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 427
Xalqın arzu və istəklərini gerçəkləşdirən partiya . . . . . . . . . . . . . . . . . 433
Tanrı köməyi. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 442
Unutsaq - xəyanət etmiş olarıq! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 449
Ürək yarası da sağalarmış. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 454
Nəyi gözləyirsiniz... . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 459
Fəal vətəndaş mövqeyi. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 466

Qarabağ Azərbaycandır! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 473
Milli birlik belə olur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 477
Qabaqlayıcı addımlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 481
Böyük ürək, mərhəmətli qəlb sahibi . . . . . . . . . . . . . . . . . . . . . . 488
Ayıblı aybını bilsə... Və ya sonrakı peşmançılıq fayda verməyəcək . . . . . . 497
İlham Əliyev bütün addımlarını vaxtında -
tələsmədən və gecikmədən atır . . . . . . . . . . . . . . . . . . . . . . . . . 504
“Dəmir yumruğ”un ağıllandırma tədbirləri . . . . . . . . . . . . . . . . . . 510
O, müasir dünya siyasətini gözəl bilir . . . . . . . . . . . . . . . . . . . . . 516

# Dünyanın tanıdığı
# İLHAM ƏLİYEV

Buraxılışa məsul:
**İxtiyar HÜSEYNLİ,**
*Azərbaycan Respublikasının Əməkdar jurnalisti*

**Naşir:**
Tural Axundov

**Texniki redaktor:**
Cəfər Kərimov

Çapa imzalanmışdır: 25.09.2023.
Kağız formatı: Ofset, 70x100 1/16
Şərti çap vərəqi: 34
Sifariş: 172. Tiraj: 500. Bakı–2023,

**"Təhsil Nəşriyyat-Poliqrafiya" MMC**
hazır diapozitivlərdən çap olunmuşdur.
(Bakı, AZ 1052, F.Xoyski küç., 149)
Tel.: (+994 12) 567-81-28;
e-mail: tahsil_az@yahoo.com